ISSN 2221-8432

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Bakı Slavyan Universiteti

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

(ALİ MƏKTƏBLƏR ARASI ELMİ MƏQALƏLƏR MƏCMUƏSİ)

Актуальные проблемы изучения гуманитарных наук

Межвузовский сборник научных статей

The actual problems of study of humanities

Interuniversity collection of scientific articles

4/2020

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ 4/2020

ISSN 2221-8432

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI SLAVYAN UNİVERSİTETİ

HUMANİTAR ELMLƏRİN ÖYRƏNİLMƏSİNİN AKTUAL PROBLEMLƏRİ

Ali məktəblərarası elmi məqalələr məcmuəsi

АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ ИЗУЧЕНИЯ ГУМАНИТАРНЫХ НАУК

Межвузовский сборник научных статей

THE ACTUAL PROBLEMS OF STUDY OF HUMANITIES

Interuniversity collection of scientific articles

№4

2020

Məcmuə 1997-ci ildən nəşr olunur.

İldə 4 nömrə çıxır.

Redaksiyanın ünvanı:
Bakı şəh., Rəsul Rza küç., 125/139b
Tel.: 596 21 44
Faks: 5962144
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Bakı – 2020

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri
Rüblük elmi nəşr

Redaksiya heyəti:

Dilçilik
filol. e. d., prof. **Məmmədov Nəsirağa**
filol. e. d., prof. **Veysəlli Fəxrəddin**
filol. e. d., prof. **Cahangirov Fikrət**
filol. e. d., prof. **Nurqali Kadişa (*Qazaxstan*)**
filol. e. d. **Qurbanova Fidan**
filol. e. d., prof. **Cəfərov Mikayıl**
filol. f. d. **Babaşova Xalidə**
filol. f. d. **Korotışev Aleksandr (*Rusiya*)**

Ədəbiyyatşünaslıq
filol. e. d., prof. **Qocayev Məmməd**
filol. e. d., prof. **Novruzov Rafiq**
filol. e. d., prof. **Xəlilli Şahin**
filol. e. d., prof. **Qeybullayeva Rəhilə**
filol. e. d., prof. **Rəsulov Rüstəm**
filol. f. d. **Ağamirzəyev Əliş**
filol. e. d., prof. **Travnikov Serqey** (***Rusiya***)

Pedaqogika
ped. e. d., prof. **Abbasov Akif**
ped. e. d., prof. **Rəcəbov Oqtay**
ped. e. d., prof. **Tağıyev Şahin**
ped. e. d., prof. **Xəlilov Vidadi**
ped. e. d., prof. **Cəbrayılov İntiqam**
ped. e. d., prof. **Quliyeva Ellada**
ped. f. d., dos. **Səmədov Oktay**
filol. f. d., dos. **Carçıyeva İlahə**
ped. e. f. d., dos. **Tağıyeva Ellada**

İctimai elmlər
tarix e. d., prof.,
AMEA-nın müxbir üzvü **Qasımlı Musa**
tarix e. d., prof. **İbrahimli Fəzail**
fəlsəfə e. d. **Məmmədov Cahangir**
tarix e. d., prof. **Əmrahov Mais**
fəlsəfə e. d., prof. **Əliyev Məmməd**
tarix e. d., prof. **Məmmədov Habil**
tarix f. d., dos. **Əhməd Əsgər**
siyasi elmlər f. d. **Abdullayev Natiq**

Buraxılışa məsul: filol.e.d., prof. **Cəfərov Telman**

Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. **№ 4/2020.** – Bakı: Mütərcim, 2020. – 244 s.

Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir.

Сборник включен в Перечень рекомендуемых научных журналов, в которых должны быть опубликованы основные научные результаты диссертаций Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики.

© Məqalə müəllifləri, 2020
© "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" məcmuəsi redaksiyası, 2020

DİLÇİLİK - ЛИНГВИСТИКА

A.R.AĞAYEVA
filologiya elmləri doktoru, professor
e-mail: afag.agayeva 58@ gmail.com

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
(Bakı şəh., Azadlıq küç., 20)

KOMMUNİKASİYANIN SAHƏLƏRİ: ONLARIN VERBAL VƏ QEYRİ-VERBAL CƏHƏTLƏRİ (Texniki ali məktəblərdə "İşgüzar və akademik kommunikasiya" fənnindən mühazirə materialı)

Açar sözlər: *kommunikasiya, bədii natiqlik, siyasi natiqlik, ictimai-siyasi natiqlik, inzibati natiqlik*
Ключевые слова: *коммуникация, художественное ораторство, политическое ораторство, общественно-политическое ораторство, административное ораторство*
Key words: *communication, artistic oratory, political oratory, public-politic oratory, administrative oratory*

Nitqin formulu: Nitq = Nə isə demək istəyi + səs (danışıq üzvlərinin hazırlanması) + hazır səs vasitəsi ilə deyilənlər.

"Dünyanın 100 dahi siyasətçisindən biri" hesab edilən Məhəmməd peyğəmbərin xüsusi təsir gücünə, çox böyük natiqlik qabiliyyətinə malik olduğunu vurğulayırlar. Ərəbistanda siyasi natiqliyi inkişaf etdirən Məhəmməd peyğəmbər ən pis anlarda da dindaşlarını nitqləri ilə ruhlandırırdı. Onun əsas silahı söz idi. Natiqlik peşəsinin rüşeymləri "Kitabi-Dədə Qorqud dastanları"nda da əks olunmuşdur. "Kitabi-Dədə Qorqud"da auditoriya (məclis) obrazı təsvir edilir. Bu məclisdə oğuznamə söyləyicisinin - ozanın mövqeyi ilə auditoriyanın (xan məclisinin) mövqeyi üst-üstə düşür: ikisi də eyni ritorik = ideoloji mövqedən çıxış edir. XVI əsrin I yarısından isə Azərbaycan ədəbi-bədii dilinin sürətlə inkişaf etməsi natiqlik sənətinin inkişafına müsbət təsir göstərir.

"NATİQLİK DAŞI": Ay daşı: natiqlik, **danışma qabiliyyətini** yaxşılaşdırır və düşüncələrinizi rahat şəkildə ifadə etməyə kömək edir.

Sağ qulaq-nitqi daha yaxşı eşidir, sol qulaq isə-musiqini
(epiqraf)

Azərbaycan dili - ana dilimiz,
Dünyanın ən gözəl dilidi, şəksiz.
Döyüşdə, sevgidə, siyasətdə də

Bu dil əvəzsizdi
Nəzakətdə də.
N.Həsənzadə

Əsil Natiqlə dinləyicinin görüşü – 2 kimyəvi elementin təması kimidir: reaksiya baş verən kimi hər 2 element dəyişir. Karl Qustav Yunq

Bizim hər birimiz ritorikaya qabiliyyət "geni" ilə dünyaya gəlir. Amma çox zaman ya məktəbi, ya cəmiyyəti bu "genin" inkişaf etməsinə mane olmaqda günahlandırırıq. Bununla belə, biz heç təsəvvür belə etmirik ki, natiqlik qabiliyyətinə, işgüzar ünsiyyətin fənd və qaydalarına yiyələnməklə hansı müsbət nəticələri əldə edə bilərik.

Bədii natiqlik. "Oxu" dedikdə, sadəcə "səsli oxu" prosesi deyil, onun texnikası nəzərdə tutulur. Qədim hind ədəbiyyat nəzəriyyəçiləri bədii sözün insanda oyatdığı təəssüratların kəmiyyətini və xarakterini müəyyənləşdirmək üçün poetik əhval-ruhiyyələrin dəqiq təsnifatını vermişlər. Bu nəzəriyyə tərəfdarlarının fikrincə, bədii əsər oxucuda doqquz cür əhvali-ruhiyyə doğura bilər. Bunlar aşağıdakılardır: Sevgi; Yumoristik; Coşğunluq; Dəhşət hissi; Qəhrəmanlıq; Qorxu; Nifrət; Təəccüb; Sükut, ya da laqeydlik.

Sonralar bu təsnifata dostluq yaxud məhrəm duyğuların ifadəsi əhvali-ruhiyyəsi də əlavə olunmuşdur. Təkcə kədər hissinin itkigən asılı 7 növü və səviyyəsi var. Bu hisslərdən hər birinin müxtəlif növləri olduğunu da nəzərə alsaq, görərik ki, bədii natiqlik zəhmət və incəsənətin vəhdətindən yaranır.

Təsadüfi deyildir ki, böyük Füzuli üç cəhəti şeir üçün bəla hesab edirdi: **birincisi,** pis xətlə yazılmasını, **ikincisi**, sənətkarlıq qabiliyyətinin olmadığı halda qələmə alınmasını, **üçüncü, pis oxunmasını**. "Bədii natiqlik" nəinki şairlərə, söz ustalarına, həmçinin mühəndislərə də məsləhət görülür. Bunun üçün, əziz tələbələr, oxu vərdişlərinizi cilalamalısınız. Bədii natiqliyin bir müsbət cəhəti də onun müalicəvi əhəmiyyətə malik olmasıdır. Bu sahə təbabətin diqqət mərkəzindədir. Dilçilərin qənaətinə görə, hər bir adamın oxusu, diksiyası onun xətti kimi fərqlidir. Bədii natiqlik zamanı aşağıdakı cəhətlərə diqqət etmək zəruridir: Məşhur rejissor və aktyor Stanislavski demişdir ki, I növbədə, bütün ifadənin içərisində ən mühüm sözü seçmək və onu vurğu ilə fərqləndirmək lazımdır; mətndəki sözlər açıq, aydın, düzgün tələffüz edilməlidir; səs nə çox yüksək, nə də çox alçaq olmalı; oxu adi və normal bir tonda aparılmalıdır; oxu zamanı durğu işarələrinə riayət edilməli və müvafiq fasilələrlə oxunmalıdır; sözlərin, cümlələrin intonasiyası doğru ifadə edilməlidir; oxuda monotonluğa, yeknəsəqliyə yol verilməməli, oxunun sürəti yeri gəldiksə məzmun və şəraitdən asılı olaraq yavaşımalı və yeyinləşməlidir.

Oxu zamanı işarələrə düzgün əməl etmək lazımdır: fasilələri: I, II, III (qısa fasilə, uzun fasilə, lap uzun fasiləni) yerli - yerində etmək;

1) "↗" işarəsi melodikliyin tələblərinə uyğun olaraq, səsin qalxmasını, "↘" işarəsi isə enməsini göstərir. Oxuyarkən bunu diqqət mərkəzində saxlamaq lazımdır. Məsələn:

Mahnı axıra çatdı. ↘ / Meşəbəyinin yadına bir bayatı düşdü. ↘ // Ancaq o, ayrılıqdan, ölümdən danışan bu bayatını dərhal unutmağa çalişdı.↗///

Dövlətçilik hər bir şəxsin qəlbində olmalıdır.
H.Əliyev.

1 gün müharibə etməkdənsə, 10 il danışıqlar aparmaq daha yaxşıdır.

Rızov.

Ritorik prinsiplər - libasını dəyişmiş siyasi prinsiplərdir.

(R.Paşayev) epiqraflar

RADİO VƏ TELEVİZİYA ƏSRİ SİYASİ NATİQLİYİN İNKİŞAFINA VƏ ÇİÇƏKLƏNMƏSİNƏ YOL AÇDI.

Psixoloqların tələbələrlə apardığı sorğunun nəticələri göstərmişdir ki, onlar siyasi natiqin və siyasi liderin "psixoloji portret"ini aşağıdakı kimi təsəvvür edirlər: Etik keyfiyyətlərə malik olması; Yüksək təhsilə malik olması; Milli təşəbbüskarlıq hisslərinin olması və s.

İctimai-siyasi natiqlik. İctimai-siyasi natiqlik, adından da göründüyü kimi, siyasi mövzularda, cəmiyyətin müasir (həm də keçmiş) həyatı ilə bağlı olub, xüsusi əhəmiyyəti olan hadisələrə aid nitqlərdən ibarətdir. Siyasi natiqlər – siyasətçilər, dövlət xadimləri, ictimai xadimlər tərəfindən söylənilir. Cəmiyyətin həyatının bütün sahələrinə aid olur. Camaat qarşısında söylənilən siyasi nitqlərin janrları bunlardır: **Məruzə** – belə nitqlər rəsmi şəxslərin, vəzifə sahiblərinin onları seçən kollektiv qarşısında hesabatından ibarət olur. **Təntənəli nitqlər** – ümumxalq bayramlarında, əlamətdar günlərdə dövlət xadimləri tərəfindən xalqa müraciətlə söylənilir. **Başsağlığı nitqləri** – ölkənin və ya insanların həyatındakı faciə ilə bağlı söylənilir.

İNZİBATİ NATİQLİK
"İNZİBATÇILIQ DAŞI"

Yaqut: Liderlik hissini ön plana çıxararaq ətrafınızdakı insanların məsuliyyətini öz üzərinizə götürməyə kömək edir.

Allah–Taala o adamı himayəsinə alıb cənnətə daxil edər ki, onda bu üç keyfiyyət olsun: Zəif adamla mehribançılıq, valideynlərə qarşı şəfqət göstərmək, tabeliyində olanlarla yaxşı davranmaq *(Müdrik deyim).*

Rəhbərlik etmək, yəni adamları öyrətmək və tərbiyələndirmək üçün gərək mənəvi haqqın olsun. */Heydər Əliyev/*

Vəzifə sahibi olsan da, hüzurundakılarla mədəni rəftar etməyi heç vaxt yaddan çıxarma.

Yaxşı rəhbərliyin qızıl qaydası: işçini danlamaq istəsən, təklikdə, tərifləmək istəsən, hamının yanında et! *H.Həsənoğlu (epiqraflar)*

Menecmentlik sahəsində aparılan tədqiqatlar sübut edir ki, bütün rəhbər işçilərin iş vaxtının 80%-i ünsiyyətə, nitqə sərf olunur. Buna görə də, şifahi işgüzar nitqlərin əsas növlərini – söhbət, danışıqlar, müşavirə (iclas), telefon danışıqları, müsahibəni aparmaq qaydalarını bilmək, işgüzar natiqlik bacarıqlarına, vərdişlərinə malik olmaq, onun etik və psixoloji tərəflərini mənimsəmək rəhbər işçilərin ümdə vəzifəsidir. İdarəçiliyin, rəhbərlik etmək sənətinin yaranması menecmentliyin tarixi ilə üst-üstə düşür. Bəşəriyyət tarixində insanlar nə etdikləri haqda düşünməyə başladılar. Bunu necə etmək haqqında olan fikirləri sistemləşdirdilər, menecment-

liyin elmi nəzəriyyəsini qurdular. Bununla da, idarəçilik fənni meydana gəldi. İdarəçiliyi "incəsənət" adlandırırdılar. Menecmentliyi incəsənətin bir növü hesab edirdilər. 1911-ci ildə idarəçilik haqqında kolleclər üçün ilk dərslik yaradıldı. 1916-cı ildən isə bu fənn ali məktəblərdə tədris olunmağa başladı. İdarəetmədə rəhbərin şəxsiyyəti ilə idarəetmənin səmərəliliyi arasında birbaşa asılılıq vardır. İdarəetmədə özünütəkmilləşdirmə, özünütərbiyə vacib şərtlərdəndir. Rəhbərin nitqi etik normalara uyğun, məntiqi, düzgün, dəqiq, aydın, münasib, təmiz, ifadəli, emosional olmalıdır. Xarici ölkələrdə dilçilik sahəsində aparılan tədqiqatlar müəyyən etmişdir ki, insanın vəzifəsi ilə onun söz ehtiyatı arasında da birbaşa asılılıq vardır: vəzifəli, savadlı, ixtisasını mükəmməl bilən şəxs ünsiyyəti söz və ifadələr əsasında asanlıqla qura bilir. Həmçinin vəzifə yüksəldikcə – jestlərdən istifadə azalır. Halbuki, azsavadlı adam ünsiyyət zamanı tez-tez jestlərin köməyinə "söykənir".

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. Bakı: Hüquq və ədəbiyyat, 2010, 304 s.
2. Azərbaycan nitq mədəniyyəti problemləri // Elmi-metodik konfransın materialları. Bakı, 1988, 225 s.
3. Babayeva A. Azərbaycan nitq mədəniyyəti problemləri. Bakı, 1987, s.58.
4. Bəylərova A. Telekanalların dilində leksik və üslubi normaların pozulması halları // Dilçilik İnstitutunun əsərləri. Bakı, AMEA, 2014, N1, s.35-39.
5. Əbdülhəsənli T. Hüseynova A. İşgüzar Azərbaycan dili (dərs vəsaiti). Bakı: İqtisad Universiteti, Bakı, 2006, 240 s.

A.P.Агаева

Области коммуникации: вербальные и невербальные стороны
(материал для лекций по предмету «Деловая и академическая коммуникация»)
Резюме

Каждый из нас рождается с геном, расположенным к риторике. Как говорит Карл Юнг: «Встреча настоящего оратора со слушателем – как соединение двух химических элементов: после реакции оба элементы меняются». Художественная литература рождает у своего читателя 9 разновидностей настроения: любовь, смех, страсть, ужас, героизм, страх, ненависть, удивление, безразличие. Потом сюда добавили: настроение, зависимое от дружеских или интимных отношений. Одна только грусть имеет 7 разновидностей. Если иметь ввиду, что каждое из вышеописанных чувств также имеет свои разновидности, то очевидно, что художественное ораторство рождается от единства упорного труда и искусства.

A.R.Aghayeva

Fields of communication: verbal and non-verbal parts
(material for the lecture of the subject "Business and academic communication")
Summary

Each of us born with gene, inclined to the oratory. As it is expressed by Carl Yung: "Meeting of real orator with listener-like combination of two chemical elements: after reaction of both elements change". Artistic literature forms for the reader with 9 types of the spirits: love, humor, temptation, horror, heroism, fear, admiration and apathy. Then it is added: spirit, depending on the friendship or intimate relations. Only sadness has 7 varieties. If, considering that each above stated senses has its own variety, it is clear that artistic oratory originates from unity of the decent labour and art.

Rəyçi: dos. Y.Yusifov

Redaksiyaya daxil olub: 22.10.2020

S.N.ASLANOVA
e-mail: aslanova-saadat@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS DİLİNDƏ ALINMA KULİNARİYA REALİLƏRİ, ONLARIN SEMANTİKASI VƏ ETİMOLOGİYASI

Açar sözlər: *kulinariya realiləri, alınma sözlər, mənbə dil, etimologiya, ekvivalent, mənşə.*
Ключевые слова: *кулинарные реалии, заимствованные слова, язык-источник, этимология, эквивалент, происхождение.*
Key words: *culinary realias, loan-words, source language, etymology, equivalent, origin.*

Dildə mədəniyyətin inikası kimi yer alan spesifik leksik təbəqə – realilər milli mədəniyyətin özünəməxsus xüsusiyyətlərini əks etdirərək başqa dillərdə leksik ekvivalenti olmayan leksikaya aid edilir. Milli-mədəni çalarlığa malik olmayan, digər xalqların dillərində tam leksik ekvivalenti olan universal xarakterli sözlərlə milli realilərin sinonimliyi ingilis kulinariya leksikasını da əhatə edir. Bu rəngarəngliyin kökündə çox zaman sinonim adların əks etdirdiyi obyektlərin formal və funksional fərqləri, bir çox hallarda isə etnik əlaqələr zəminində dilin üslubi baxımdan fərqlənən ifadə vasitələri ilə zənginləşməsi durur. İkinci faktor xüsusilə Britaniyada norman işğalından sonra baş vermişdir [5, 301]. Bu dövrdə ingilis dilində istər qeyri-reali, istərsə də reali xarakterli sinonimliyin meydana çıxmasında fransız dilindən alınma sözlər böyük rol oynamışdır. Bu sinonimlik bir çox hallarda sosial xarakter daşımışdır.

Kulinariya realiləri maddi mədəniyyətlə bağlı realilərin bir hissəsidir. İngilis dilində mövcud olan kulinariya realilərini araşdırmaq üçün Britaniyanın yemək mədəniyyətini özündə əks etdirən kitablara baxsaq görərik ki, bu cür kitablar XIV əsrdən sonra yaranmağa başlamışdır. O dövrə qədər isə Anqlo Sakson mətbəxinə dair heç bir kitab yazılmamışdır. Lakin bu o demək deyil ki, Anqlo Sakson yemək mədəniyyətinə dair heç bir yazılı mənbə yoxdur. Anqlo-Sakson yemək mədəniyyətini araşdırmaq üçün ən etibarlı mənbə o dövrün təbibləri tərəfindən yazılmış qədim tibbi əlyazmalar hesab olunur. Bu əlyazmalarda tez-tez rast gəlinən bir sıra ərzaq və yemək adları vardır ki, bunlar da romalılar tərəfindən İngiltərəyə təqdim olunub [3, 159].

İngilis dilində mövcud olan kulinariya realiləri içərisində milli realilərlə yanaşı alınma realilərə də rast gəlmək olar. Alınma realilər ingilis dilinin lüğət tərkibində mühüm yer tutur. Məlumdur ki, xalqlar arasındakı müxtəlif əlaqə və münasibətlər nəticəsində bir dildən başqa dilə müəyyən sözlər daxil olur. Ona görə də bir dilin leksikasında müxtəlif dillərə məxsus bir çox sözlər işlədilir. Bunsuz keçinmək mümkün deyildir və bu xüsusiyyət bütün dillərə şamildir. Bunun başlıca səbəbi xalqlar arasında yaranmış müxtəlif əlaqələr, elm və texnikanın, mədəniyyətin inkişafı, məişətdə olan dəyişikliklərdir.

Alınma realilərdən daha çox çörək və pendir növləri, ətdən və tərəvəzlərdən hazırlanan şorbalar (stew and broths), piroqlar (pies) İngiltərə mətbəxinin qədim və ənənəvi yeməkləri hesab olunur. Bu cür yemək reseptlərinə XIV əsrə aid olan *"Forme of Cury"* adlı kulinariya kitabında çox rast gələ bilərik. İngiltərənin ənənəvi mətbəxi ilə yanaşı burda müxtəlif xalqların yeməkləri də istifadə olunur.

Britaniyada çin və italyan mətbəxi ilə yanaşı Hindistan mətbəxi də çox məşhurdur. Hindistan mətbəxinə aid olan *"Chicken tikka masala"* adlı yemək indi Britaniya mətbəxində məşhur yeməklərdəndir.

1809-cu ildə Hindistan yeməkləri qəhvəxanalarda verilirdi. Viktoriya dövrü İngiltərəsində Hindistan yeməkləri Britaniyada tədricən yayılmağa başladı və beləcə *"Anglo-Indian cuisine" (Anqlo-Hind mətbəxi)* adlı termin meydana gəldi.

2003-cü ildə təkcə İngiltərə və Uelsdə hind mətbəxini təqdim edən 10,000 restoran fəaliyyət göstərirdi. Anqlo-hind mətbəxinin ən məşhur yeməkləri bunlardır: *curry, ginger, ghee, kedgeree, mulligatawny soup* və s.

Hind dilindən ingilis dilinə daxil olmuş *curry* sözü, ingilis dilində *gravy (ətin sousu)* sözü ilə demək olar ki, eyni mənadadır. Bu sözün istifadəsinə daha çox orta əsrlərdə rast gəlinir. *Curry* sözü müasir Hind dilində işlənmir, əvəzinə eyni mənanı verən *masala* sözü işlənir. *Curry* adətən quru yeməyin üzərinə verilən rəngli və ədviyyatlı sousdur. O *"Curry gravy"*dən fərqli olaraq *ət sousu* deyil, amma ətin üzərinə verilə bilər.

"Mullygatawny" Anglo-hind mətbəxinə aid souslu, ədviyyalı şorbadır.Tamil dilindən hərfi tərcümədə *"Mulligatawny"* və ya *"Milagu tanni" "istiotlu (ədviyyalı) su"* kimi səslənir. *Millagu-istiot və tanni-su* deməkdir [6].

Hindistan mətbəxindən başqa Britaniyada daha bir məşhur mətbəx italyan mətbəxidir. İtalyan dilində bir sıra kulinariya realiləri var ki, təkcə ingilis dilində yox, bütün dünya dillərində işlənir. Bu sözlərə *spagetti, pitsa, pasta, makaron* kimi hər gün işlətdiyimiz realilər aiddir.

Pizza - İtalyan yeməyi olsa da bu gün bütün dillərdə rast gəlinən bir sözdür. Lakin pizza sözü XVII əsrə qədər İtaliyanın özündə belə məşhur deyildi. Bu sözə ilk olaraq Latın dilində yazılmış mətnlərdə rast gəlmak olar. Eramızın 997-ci ilinə aid olan bu mətnlərdə deyilirdi ki, kəndlilər Gaeta yepiskopuna hər Milad və Pasxa bayramlarında 12 pizza verməli idi. Sözün etimologiyasına gəlincə bu məsələ bir qədər mübahisəlidir. Bəziləri bu sözü İngilis dilində mövcud olan *"to bite", "a bite", "dişləmək", "dişləm"* mənasında olan sözlərlə əlaqələndirirlər. İngilis dili əcdadları eyni olan Alman, Holland, İsveç, Norveç dilləri ilə birgə German dilləri qrupuna aiddir. İtaliya I minilliyin 2-ci yarısında 2 german dilli tayfanın, Şərqi German dilində danışan qotların və müasir German dilinə yaxın olan dildə danışan Lanqobardların hökmranlığına məruz qalmışdı. Bu səbəbdən German dillərinin bəhs olunan dövrdə İtalyan dilinə təsiri güclü idi. Pizza sözünün german dilinin Langobard variantında *"bizzo", "pizzo"* sözlərindən əmələ gəlməsi güman edilirdi ki, bu da fərziyyələrə görə qeyd etdiyimiz *"bite"* və *"bite"* sözləri ilə eyniköklü hesab olunur, mənası *"mouthful" (ağız dolusu)*, daha sonra *"a piece of bread" (bir tikə çörək)* kimi izah olunur [7].

Bəziləri isə pizza sözünün etimologiyasını *pitta* ilə əlaqələndirirlər ki, bu da cənub Şərqi Avropada geniş yayılmış çörək növü idi. Maraqlı fakt odur ki, İtaliyanın bəzi Şimal- Şərq əyalətlərində *pizza* sözü *pitta, petta* formasında işlənir.

Pizza sözü İngilis dilinə İtalyan dilində yazılma qaydasını saxlayaraq transliterasiya olunur. Sözün tələffüzü də italyan dilində olduğu kimi saxlanılmışdır. İtalyan dilində qoşa "z" səsi "ts" birləşməsinin verdiyi səs kimi tələffüz olunur: *piazza (square), lavazza (coffee) amazza (beautiful)* və s. Ümumiyyətlə dünyanın əksər dillərində "pizza" mənbə dildə olduğu kimi transliterasiya olunur.

Digər İtalyan mənşəli kulinariya realisi *spaghetti* italyan dilində *spaghetto* sözünün cəm formasıdır, *"tel", "ip"* mənasını verir. İtalyan mətbəxinin simvolu sayılan spaqetti uzun, nazik xəmir tikələrindən ibarət bir növ əriştəyə bənzər yeməkdir. Spaghetti ingilis dilində sayılmayan isimdir və çox zaman digər isimlərlə birləşərək nazik əşyaları təsvir etmək üçün istifadə olunur.

Spagetti sözü ilə yanaşı bəzi dillərdə məsələn, yunan dilində eyni mənada *"makapovi(a)"*, türk dilində *"çubuk makarna"* sözləri istifadə olunur. Lakin bir çox dillərdə onların adları fərqləndirilir, adətən *spaqetti* uzun, *makaron* isə qısa xəmir tikələrindən ibarət yeməkdir. Makaron sözünün özü isə elə yunan mənşəli hesab olunur.

Bəzi fərziyyələrə görə, makaron 1292-ci ildə Çindən Venesiyaya qayıdan, Marko Polo tərəfindən İtaliyaya gətirilmişdir. Lakin bu hipoteza doğru deyildir. İtalyan mətbəxində bu cür yeməklər əvvəllər də istifadə olunurdu. Bu sözün yunan dilində *pakapia (makaria)* sözündən yaranması ehtimalı həqiqətə daha uyğundur. *Makaria* öz növbəsində *paxapes (makares)* sözündən gəlirdi ki, bunun da mənası *"mübarək ölülər"* demək idi. Qədim Yunanıstanda

"makaria" arpadan hazırlanan şorba idi, ölüləri yad edərkən bişirilirdi. İtalyan dilçisi G.Alessio bu sözün yunan dilində olan iki sözdən törəmə ehtimalını irəli sürür: birincisi *"yas yeməyi"* mənasına gələn *pakapoveia (makaroneia)* və ikincisi *arpa sorbası* mənasına gələn *pakapia* sözündən. Bu söz italyan dilində *maccheroni* formasında yazılır və digər dillərə müxtəlif formalarda transkripsiya olunur. Məsələn, Braziliya: macarrão, fransız: macaroni, holland: macaroni, alman: die Makkaroni (pl.), eston: makaronid, rus: макароны, türk: çubuk makarna, Azərbaycan: makaron [7].

İtalyan dilindən digər dillərə keçmiş başqa bir reali *Salami* sözüdür. *Salami* kolbasa növü olub İtalyan dilində *salame* sözünün cəm formasıdır. İngilis dilində isə *salami* həm tək, həm də cəm formada işlənir. *Salame* qədim Latın dilindən *salamen* sözündən gəlir, bu da öz növbəsində *salare* sözündən yaranmışdır ki, mənası *duzlamaq* deməkdir.

İtalyan realilərindən *Vermicelli* də demək olar ki, dünyanın əksər dillərinə transliterasiya vasitəsilə tərcümə olunmuşdur. Bir çox dillərdə isə bu sözə uyğun ekvivalent var. Məsələn, Azərbaycan və türk dillərinə tərcümə zamanı *vermicelli əriştə* sözü ilə əvəz oluna bilər. Əriştə ilə yanaşı Vermicelli Azərbaycan dilinə rus dili vasitəsilə *vermişel* formasında keçmişdir. İngilis dilində *noodles*, alman dilində *nudeln*, portuqal dilində *aletria*, ispan dilində *fideo "vermicelli"* sözünün ekvivalentləridir. Bu ekvivalentlərlə yanaşı *vermicelli* transliterasiya vasitəsilə dünyanın bir çox dillərinə keçmişdir.

İngilis dilində mənşəyi rus dilindən gələn *"vodka", "pirozhki"* kimi sözlərə də rast gəlinir. *"Vodka"* sözü şəkilçi əlavə edilməklə rus dilində *voda (su)* mənasını verən sözdən yaranmışdır. Вод - (vod-) (su) + (-k-) (kiçiltmə funksiyasını daşıyan şəkilçi) + -a (qadın cinsinə aid olan sonluq) [4, 220].

Alkoqol qədim dövrlərdən müalicə məqsədilə bir sıra tibbi vasitələrin tərkibinə qatılırdı, buna görə də *"vodka"* sözünün *"vodit", "razvodit" (mayeləşdirmək, maye halına salmaq)* fellərindən düzəldiyi güman olunur. *"Vodka"* sözünün *su* sözü ilə bağlı digər bir izahı orta əsrlərdə istifadə olunan *alkoqollu içki "aqua vitae" (latıncadan tərcümədə "həyat suyu")* ilə bağlıdır. Bu da polyak dilinə *okowita,* Ukrayna dilinə *okobuma,* Belarus dilinə *akasima,* skandinav dilinə *akvavit* kimi transliterasiya olunur [4, 226].

Ingilis dilində türk dilindən keçmiş yemək adları da məlumdur. Bunlardan ən geniş yayılmış *plov* sözünü qeyd edə bilərik. Bu sözün mənşəyi türk dilində olan *"pilav"* sözündən gəlir. Türk dilində bu söz mənşəyini fars dilindən, *pilav,* fars dili isə öz növbəsində Sanskrit dilində *pulāka* sözündən götürür. Beləcə İngilis dilinə türk dilindən keçən bu söz tədricən yunan dilindəki *pilafi* variantının təsiri ilə *pilaf* formasına düşür [7].

Söz özü qeyd etdiyimiz kimi orta əsr fars dilində mövcud olan *pilav* sözündən götürülmüşdür. Avropa dillərinə isə bu türk dilindən keçmişdir. *Pilav* sözünün fars etimologiyası olması mübahisəlidir və bəziləri bunu Hind mənşəli söz hesab edirlər. Lakin, düyünün müsəlman işğallarından əvvəl Hindistanda bu qaydada bişirilməsi məsələsi də mübahisəlidir, çünki hindistanlılar özləri də *plov* bişirilmə qaydasını Hindistanda mövcud olan müsəlman şəhər və əyalətləri ilə bağlayırlar.

Plovun bişirilmə qaydası haqqında ilk reseptlər Suriya və Bağdadda yazılmış XIII əsr ərəb kitabı "Kitab əl-Təbix" və "Kitab al-Vusla ila əl-Həbib" sayılırdı. Bu kitablara görə qapağın altına parça qoyulurdu. Plovun ərəbcə adı, *"ruzz mufalfal" "istiot vurulmuş düyü",* deməkdir. X əsr ərəb reseptlərində bu haqda geniş məlumat verilmişdir. Bir çox dillərdə bu şəkildə səslənir: almanca: das Pilaff, portuqalca: pilau, slovakca: pilav, çexcə: pilaf, türkcə: pilav, fransızca: pilaf, polyakca: pilaw və s [7].

Türk dilindən İngilis dilinə keçmiş realilərdən digəri *yoghurt* sözüdür. Sözün mənası isə qədim türk dilində *yoğmak* (yoğun sözü ilə eyni köklüdür) feli ilə bağlıdır. *Yoğmak – qatılaşdırmaq* mənasını verir və müasir türk dilində arxaikləşmiş söz hesab olunur. Türk dilində bu söz *yoğurt* formasındadır və ingilis dilinə *yoghurt* kimi transliterasiya olunur. 1928-ci ilə qədər türk dilində tərkibində *ağ* səsi olan sözləri transliterasiya edərkən *gh* birləşməsindən

istifadə olunurdu. Qədim Türk dilində *yoğurt* sözünün tələffüzü zamanı cingiltili *ğ* səsi aydın tələffüz olunurdu. Lakin müasir Türk dilində qalın saitlərin arasında *ğ* səsi düşür. İngilis dilinə yoğurt sözü bir neçə versiyada transliterasiya olunur: *yogurt, yoghurt, yoghourt, yaghourt, yoghurd, joghourt, jogourt.*

Birləşmiş Krallıqda və Avstraliyada *yoghurt* versiyası üstünlük təşkil etməklə *yoghurt* və *yogurt* formalarının hər ikisindən istifadə olunur. Birləşmiş Ştatlarda isə əksinə ən çox *yogurt* formasında transliterasiya olunur, lakin bəzi hallarda *yoghurt* variantından da istifadə olunur.

Oksford lüğətinin yeni Zelandiya variantı da *yoğurt* sözünü Birləşmiş Krallıqda olduğu kimi *yoghurt* formasında təqdim edir. Kanadada Amerikan ingiliscəsində olduğu kimi *yogurt* forması istifadə olunsa da bəzi hallarda *yogourt* variantina da rast gəlmək olur [2, 45].

İngilis dilindəki kulinariya realiləri də obrazlı ifadə vasitələri olduğundan onların tərcüməsində realinin məxəz dildəki reali ilə əvəzlənməsi üsulundan istifadə edilir. Realilər bütün dillər üçün semantik baxımdan universal olan sözlərin konkret bir dildə əldə etdiyi metaforik, emosional, üslubi çalarlığıdır [1, 156]. Müxtəlif xalqların ümumi təfəkkür tərzinə malik olması analoji metaforik mənanın fərqli strukturda bütün dillərdə meydana çıxmasını qaçılmaz edir və bu səbəbdən də ingilis realilərin semantik ekvivalentini aşkar etmək mümkündür və bu, tərcüməçinin obrazlı ifadələrlə tanışlığından və tərcübəsindən asılıdır.

Ədəbiyyat

1. Bayramov Q. Tərcümə sənəti. Bakı, 2008, 251s.
2. Dictionary of Etymology. New York, H.W. Wilson, 1988, 345p.
3. Hagen A. A Second Handbook of Anglo-Saxon Food and Drink, 1999, 342p.
4. Newmark P. A Textbook of Translation, 1998, 323p.
5. Грин Д.Р. История английского народа, т.1. –М., Солдатенкова, 1991, 450 с.
6. www. newworldencyclopedia.org.
7. www. etymonline. com

С.Н.Асланова

Заимствованные кулинарные реалии в английском языке, их семантика и этимология

Резюме

Предметом статьи являются кулинарные реалии в английской лексике , их семантический анализ, исследование стилистических особенностей выражений, основанных на этих реалиях, и определение их семантико-стилистических эквивалентов в азербайджанском языке .

Язык - это система знаков, которая полностью отражает общественную жизнь и национальную культуру говорящего народа. Культура каждой нации состоит из сочетания национальных и международных элементов. По этой причине изучение любого иностранного языка возможно не путем овладения грамматическими средствами выражения, а путем глубокого знакомства с культурным лексическим слоем национальной культуры людей, говорящих на этом языке. Грамматическое строение языка следует изучать на фоне традиций, народного быта, кухни, психологии, религии, истории и.т.д. Лексический пласт, в котором выражены все эти культурные факторы - это реалии языка изучаемого народа. Без достаточной информации об этом лексическом слое возникают трудности с переводом с этого языка и общением с носителями этого языка.

S.N.Aslanova

Borrowed culinary realias in English, their semantics and etymology

Summary

The subject of the article is the culinary realias in the English lexicon, their semantic analysis, the study of the stylistic features of the expressions based on these realias and the determination of their semantic-stylistic equivalents in the Azerbaijani language.

Language is a system of signs that fully reflects the public life and the national culture of the people who speak this language. The culture of each nation consists of a combination of national and international elements. For this reason, learning any foreign language is possible not by mastering the grammatical means of expression of the language, but by a thorough acquaintance with the cultural lexical layer of the national culture of the people who speak the language. The grammatical structure of the language should be studied against the background of traditions, mode of life, cuisine, psychology, religion, history etc. The lexical layer in which all these cultural factors are expressed are the realias of the language of the people being studied . Without sufficient information about this lexical layer, there are difficulties in translating from that language and communicating with native speakers.

Rəyçi: filol.f.d., dos. İ.N.Sərdarova

Redaksiyaya daxil olub: 13.11.2020

M.R.BABAYEVA
e-mail: milababayeva@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

LİNQOFOLKLORİSTİKA

Açar sözlər: *linqvistika, folklor, elm, inteqrasiya, sahə*
Ключевые слова: *лингвистика, фольклор, наука, интеграция, поле*
Key words*: linguistics, folklore, science, integration, field*

Linqofolkloristika bütövlükdə folklorun şifahi komponentinin, onun ayrı-ayrı janrlarının və spesifik əsərlərinin dil xüsusiyyətlərinin öyrənilməsinə yönəlmiş inteqrativ folklorun xüsusi bir hissəsidir. Terminin müəllifi A.T.Xrolenkonun qeyd etdiyi kimi, linqvistik folklorşünaslığın obyekti folklorun şifahi komponenti və ilk növbədə folklorşünaslıq, dil və dialektologiya tarixi, etnolinqvistika və stilistika kimi elmlərin məşğul olduğu folklor mətnidir. Linqvistik folklorşünaslığın mövzusu folklor dilinin öyrənilməsi və təsviri olmuşdur və qalır. "Linqofolkloristika" termini 1974-cü ildə Kurskdan olan bir alim-filologiya elmləri doktoru Alexander Timofeyeviç Xrolenko tərəfindən irəli sürülmüşdür. "Linqofolklorşünaslıq problemləri: İnteqrasiya olunmuş yanaşma məsələsində folklor dilinin öyrənilməsinə dair "(1974) və "Linqvistik folklorşünaslıq nədir?" (1974) A. T. Xrolenko təklif olunan konsepsiyanı müdafiə etdi. Bu şifahi və poetik yaradıcılıq fenomenlərinin öyrənilməsində linqvistik və folkloristik metodları özündə birləşdirən inteqrativ yanaşmanın mahiyyəti kimi əks olundu. (3). Bu gün dilçilik və folklorşünaslıqda bir neçə istiqamət var - folklor leksikologiyası, folklor leksikoqrafiyası, folklor dialektologiyası, müqayisəli linqofofkloristika və mədəniyyətlərarası linqvofolkloristika. Folklor leksikologiyasının, folklorun səlahiyyətlərinə leksikoqrafiya və folklor dialektologiyasına folklor dilinin fenomeninin mahiyyəti, folklorun müxtəlif janrlarının lüğət xüsusiyyətlərinə dair suallar daxildir. Müqayisəli linqvistik folklorun məqsədi dərindir, spesifik bir xalq mədəniyyətinin şifahi komponentinin öyrənilməsini məqsəd götürür.

Mədəniyyətlərarası linqvistik folklorşünaslıq xalqın müqayisəsinə əsaslanır. şifahi xalq yaradıcılığına aid foklor dil hadisələri iki və ya daha çox etnik qrupa ayrılır. A.T. Xrolenkonun qeyd etdiyi kimi, mədəniyyətlərarası linqvofolkloristikada məqsəd - "ayrı-ayrı leksemalarda, düsturlarda, mətnlərdə və mətnlərin məcmuələrində yığılmış mədəni mənaların müəyyənləşdirilməsi, dünyanın folklor mənzərəsinin xüsusiyyətləri və etnik zehniyyətin nümayişçiləri kimi, etnik qrupların ənənəvi mədəniyyətində ortaq və spesifik axtarış, etnik zehniyyət fenomeninin dərindən öyrənilməsi; mədəni mənaları vahidlərdə təsirli dil alətlərinin inkişafını müəyyənləşdirməkdir. Nümunələrin analizi folklor dilindən kənara çıxır və antropologiya, linqvokultural tədqiqatlar və etnolinqvistika sahəsi " nə daxil olur. (2, 52)

Linqvofolklorşünaslığın problemlərindən biri də uzun müddətdir elmdə istifadə olunan "folklor dili" anlayışının əsasını müəyyənləşdirilməsidir. Lakin, İ.A.Ossovetskinin qeyd etdiyi kimi, "çox heterojen və çoxşaxəlidir"... Əslində, linqvofolkloristikada elm adamları ənənəvi olaraq folklor əsərinin formasını - dilini və üslubunu təhlil edir, folklorun spesifik xüsusiyyətlərini qeyd edirlər. Nitq, folklorun düstur təbiətini vurğulayır, yəni folklor əsərlərinin mətnlərinin bir hissəsi kimi bir sıra dil faktları da araşdırılır. Bənzərliyin birtərəfli olmasına dəfələrlə cəhd göstərilmişdi. Müəllif folklor elminin formalaşma tarixini izləmişdir. Bir sözlə, xüsusi intizamın məqsədəuyğun olduğunu əsaslandırdı, dil və folklorşünaslıq işlərinin intizam statusunu və yerini təyin etdi. Humanitar və filoloji biliklər quruluşunda linqofolkloristikada fərqlənən istiqamətlər - folklor leksikologiyası, folklor leksikoqrafiyası, folklor dialektologiya, müqayisəli linqvistik-folklorşünaslıq və mədəniyyətlərarası linqvistik-folklorşünaslıq

təyin olunmuşdu. Beləliklə, N.A.Dobrolyubov bir kompleks prinsipini formalaşdırdı ki, poetik xüsusiyyətlərin təsvirini dilçilik, tarixi element, xalq fəlsəfəsi və gündəlik həyatla birləşdirərək folklor dilinin öyrənilməsinə yanaşma ortaya çıxdı. I. Bodyanski, K. D. Uşinski xalq sözünün maarifçi cəhətlərinin əhəmiyyətindən bəhs etdi. A.A. Potebnya nitqi etnik, ideoloji, tarixi, dil və estetik şifahi-poetik olduğunu vurğuladı. Ancaq əksər tədqiqatçılar "folklor dili" ifadəsində birinci sözə üstünlük verildi və, bədii komponentə məhəl qoymadan, yalnız dil faktlarını təhlil etdi.

Hazırda, A. T. Xrolenkonun qeyd etdiyi kimi folklor dilinin öyrənilməsində üç əsas istiqamət var: 1) folklor dilinin dialektləri ilə əlaqəsi ilə mahiyyətinin aydınlaşdırılması; 2) ayrı-ayrı xalq şeirinin quruluşlarının elementlərini öyrənilməsi; 3) xalq poetikası sistemində dilin funksional və üslubi istifadəsi. (3)

Alimlər terminin işləyən anlayışı təklif edirlər: "Folklor dili- şifahi-poetik əsərin mətni daxilində, bədii yaradıcılıq müddətində inkişaf etmiş müxtəlif səviyyələrdə dil vahidlər sistemidir. "Eyni zamanda linqvofolklorşünas unutmamalıdır ki, "Folklor dili" identifikasiyası problemi həll olunmamışdır.

Linqvofolklorda əsas istiqamətlərdən biri də folklor dilinin lüğət tərəfinin təsviridir. Bu bədii mətndəki digər sözlərlə sistematik əlaqələrində xalq-poetik sözün semantikasını nəzərə almadan mümkünsüzdür, həm inventar qeydiyyatını (sözləri, konfiqurasiyaları), həm də folklor sözünün xüsusiyyətlərini öyrənməyi nəzərdə tutur. Alimlər folklor sözünün orijinallığını, polisemantizmini, lakonizmini, bədii illogizmini, paradiqmatik xüsusiyyətlərini dəfələrlə vurğulamışlar. Nümunə olaraq toy ritual mahnılarını götürək. Şübhə yoxdur ki, toy mahnıları ayinlərə uyğun gəlir və ilk növbədə ayin üçün vacib olan ritual hərəkətləri və gündəlik detalları əks etdirir. Bununla birlikdə, mahnılar yalnız təkrar etmir, eyni zamanda ayini izah etməsi və ya bəzi məqamlarını tamamlaması nəzərə alınmalıdır. Bu, şübhəsiz ki, əhəmiyyətlidir, amma şifahi mətnin məzmununun tək tərəfi vacib deyil. Ayini, mahnını təsvir etmək onu təsvir etmir, əksinə B.N.Putilovun dediyinə görə ritual hərəkətlərdən kənara çıxan "öz məna planları": məsələn, mifoloji plan və ya ritualın sonrakı təkamül inkişafı mərhələsində ayin folklorunun emosianal planda dekodlaşdırma tələb edir.

Tədqiqatçılar folklor sözünün semantikasının bu dünyasının özünəməxsusluğu sayəsində böyük ölçüdə olduğunu qeyd edirlər. Məsələn, B.N.Putilovun fikrincə, "bu, müəyyən qanunlara görə qurulmuş bir növ reallıq dünyasının modelidir. Sənət modeli və aktyor dünyası üst-üstə düşmür, ancaq müəyyən bir şəkildə əlaqələndirirlər. Epik dünya sadəcə təhrif olunmuş bir reallıq mənzərəsi deyil, əksinə etibarlı realist qanunlara görə yazıldığı ehtimal olunur. Eposdan məişəti, siyasəti, tarixi çıxardığımız zaman bu vəziyyət nəzərə alınmalıdır". (1. 45).

Tarixi və məişət hadisələrinin poetik motivlərə yenidən yazılması tipik personajların yaradılması, eksternoqrafiyanın bir sıra uydurma detallar və reallıqlar daxil olmaqla motivasiya və psixoloji xüsusiyyətlər fonunda meydana çıxması ilə müşayiət olunur. Alim xatırladır ki, dil sisteminin əsas təbəqələri vahidləri arasında iki növ əlaqəni aşkarlayır – sintaqmatik (varislik münasibətləri) və paradiqmatik (seçim münasibətləri). Tam olaraq paradiqmatik səviyyədə ədəbi dildə əsas fərq özünü şifahi və poetik nitqdə göstərir.

Ədəbiyyat

1. Bogoslovskaya, O. I. Folklor və dialekt: dərs vəsaiti. müavinət / O. I. Bogoslovskaya. Perm, 1985

2. Ossovetsky, I.A. Folklor və dialekt / I.A.Ossovetsky // Şərq slavyanlarının eposunun əsas problemləri. M., 1958.

3. Хроленко А. Т. Наддиалектен ли язык русского фольклора? / А. Т. Хроленко // Фольклор в современном мире: аспекты и пути исследования. М., 1991.

М.Р.Бабаева

Лингвофольклористика
Резюме

Лингвофольклористика – особый раздел интегративной фольклористики, сфокусированный на изучении вербальной составляющей фольклора в целом, языковых особенностей отдельных его жанров и конкретных произведений. Объектом лингвофольклористики является вербальная составляющая фольклора, и прежде всего фольклорный текст, изучением которого заняты такие науки, как фольклористика, история языка и диалектология, этнолингвистика и стилистика. Предметом лингвофольклористики было и остается изучение и описание языка фольклора. Одно из главных направлений в лингвофольклористике – описание словарной стороны языка фольклора. Это подразумевает и регистрацию инвентаря (слов, конфигураций), и исследование специфики фольклорного слова в его системных связях с другими словами в художественном тексте, что невозможно без рассмотрения семантики народно-поэтического слова.

M.R.Babayeva

Linguofolkloristics
Summary

Linguofolkloristics is a special section of integrative folklore, focused on the study of the verbal component of folklore as a whole, the linguistic features of its individual genres and specific works. The object of linguistic folkloristics is the verbal component of folklore, and first of all the folklore text, the study of which is occupied by such sciences as folklore studies, the history of language and dialectology, ethnolinguistics and stylistics. The subject of linguistic folkloristics has been and remains the study and description of the language of folklore. One of the main directions in linguistic folkloristics is the description of the vocabulary side of the language of folklore. This implies both the registration of inventory (words, configurations), and the study of the specifics of the folklore word in its systemic connections with other words in the literary text, which is impossible without considering the semantics of the folklore word.

Rəyçi: f.e.d., prof. K.İ.Əliyev

Redaksiyaya daxil olub: 10.12.2020

Ü.A.CƏFƏROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ "GÖZƏLLİK" (BEAUTY) KONSEPTİNİ ƏKS ETDİRƏN DİL VAHİDLƏRİ

***Açar sözlər**: konsept, gözəllik, gözəl, frazeologizmlər, atalar sözləri, zahiri gözəllik, daxili gözəllik.*
***Ключевые слова**: концепт, красота, красивый, фразеологизмы, пословицы, внешняя красота, внутренняя красота.*
***Key words:** concept, beauty, beautiful, phraseological units, proverbs, external beauty, internal beauty.*

Konsept mental hadisə olub bilavasitə insan şüurunda formalaşır, eyni dilin daşıyıcılarının koqnitiv məkanında formalaşıb, mövcud olan, saxlanılan konseptlər müəyyən ümumiləşmə mərhələsi keçir və buna görə də konkret konseptin yalnız bir leksik vasitə ilə realizə olunması qeyri-mümkündür. «İnsan konseptlərlə düşünür, onların kombinasiyası əsasında təfəkkür prosesində yeni konseptlər yaranır. Buna görə də konsept biliyin strukturlaşmış kvantını təmsil edən qlobal təfəkkür vahidi hesab edilir» [1, s.136].

Konseptin arxasında müəyyən «aləm» (dünyanın koqnitiv mənzərəsi] açılır və onu birmənalı realizə etmək mümkün olmur. «Konseptin arxasında nəyin durduğunu izah etmək üçün əksər vaxtlar daha anlaşıqlı, daha doğrusu, daha aydın leksik vasitələrdən istifadə olunur» [3, s.138]. Konsepti bütün zənginliyində əks etdirmək üçün bir və ya iki leksik vasitədən istifadə məqsədə çatdırmır. Bütün məna çalarlarında konsepti nəzərdən keçirmək üçün çoxsaylı leksik vasitələr tətbiq olunur ki, onlar da öz növbəsində konsepti az və ya çox dərəcədə dolğunluqla əks etdirə bilir. Yaranma vaxtına və ümumiləşdirmə səviyyəsinə görə konsept nə qədər qədim və ümumişlək olursa, onun strukturu da bir o qədər mürəkkəb olur.

«Müxtəlif dilləri bir-birindən fərqləndirən yalnız leksik vasitələr və qrammatik qaydalar deyil, onlardan istifadə edən dil daşıyıcısı üçün hər sözün arxasında açılan «aləm»dir. Buna görədir ki, ən qədim və ümumbəşəri predmet və hadisələri bildirən sözlərin arxasında müxtəlif dil daşıyıcıları üçün fərqli mənalar (müxtəlif səviyyələrdə və dərəcədə) açılır» [2, s.210].

Bu dil vasitələrindən biz əsasən idiomatik ifadələr (frazeologizmlər), tərkibində «gözəllik» konsepti olan Azərbaycan və ingilis dillərindəki atalar sözləri, aforizmləri və sabit bənzətmələri nəzərdən keçiririk. Bu da onunla bağlıdır ki, bu kimi «obyektlər» «milli dəyərləri və özəlliyi əks etdirənlərdir ki, onlarda xalqın bu günü və dünəni haqqında müxtəlif informasiya saxlanılır və həmin kulturemlərin dil səpkisindən nəzərdən keçirilməsi həm dilin özünün, həm də həmin dildə yaradılmış mədəniyyətin dərindən öyrənilməsinə və dil daşıyıcısını daha yaxşı dərk etməyə imkan yaradır» [5, s. 152]

Tədqiqata cəlb etdiyimiz misallar göstərir ki, «gözəllik» isminin sinonimi, daha doğrusu onun konseptual mənasını çatdıran dil vahidi qismində əsasən «gözəl» sifəti çıxış edir və o, «gözəllik» leksemi ilə müqayisədə daha çox işlədilir. Onun məna çalarlarını bu kimi qruplaşdırmaq olar:

Gözəl – 1) gözoxşayan üz cizgiləri olan: Gözəl qız, gözəl qadın, gözəl uşaq;
2) gözə xoş olan, rənglərin harmoniyası: gözəl parça, gözəl xalça, gözəl mənzərə;
3) qulaq üçün xoş olan: «gözəl təranələr», «gözəl səs»;
4) qaməti, hərəkətlərinin incəliyi ilə seçilən: gözəl rəqs, gözəl yeriş;
5) daxili məzmununun dolğunluğu və dərinliyi ilə fərqlənən: gözəl iş, gözəl əsər;
6) mənəvi baxımdan layiqli, ləyaqətli: gözəl hərəkət;
7) gözəlliyi ilə seçilən: gözəl şəhər, gözəl diyar, gözəl ev;
8) çox gözəl, əla: gözəl insan, gözəl müəllim, gözəl xasiyyət, gözəl arzular, gözəl fikir, gözəl uşaqlıq, gözəl ailə, dünya gözəli, gözəllər gözəli, gözəl vaxt (zamanlar). gözəl gözlər, gözəl günlər, gözəl anlar və s.

Buradaca qeyd edək ki, «gözəl» leksik vahidi dildə həm də zərf qismində mövcuddur: «*gözəl oxumaq, gözəl danışmaq, gözəl bəzəmək; gözəl başa düşmək, gözəl yaşamaq, gözəl istirahət etmək*».

«Gözəllik» konseptinin subkonseptləri qismində «gözəl», «qəşəng», «yaxşı», «əla», «gözəlcə» və s. anlayışlarını götürmək olar.

Azərbaycan dilindəki «gözəllik» leksik vahidinə ingilis dilində «beauty», «amenity», «prettiness», «grace», «beauty of nature» müvafiqdir. İngilis dilindəki bu sadalanan vahidlər əslində «gözəllik» konseptinin semantikasını tam çatdıra bilmir. Əvvəlcə həmin leksik vahidlərin hər birinin semantikasına müvafiq olan Azərbaycan leksik vahidlərini nəzərdən keçirək:

«beauty» - «gözəllik, gözəl, yaraşıq, zinət, məlahət, camal»;

«amenity» - «gözəllik, lətafət, xoşluq, incəlik, cazibə»;

«prettiness» - «gözəllik, göyçəklik, qanışirinlik, camal, gözəgəlimlilik, yaraşıqlılıq»;

«grace» - «lütf, zəriflik, kərəm, dua, məlahət, gözəllik»;

«beauty of nature» - «təbiətin yaraşığı, gözəllik».

«Gözəllik» sözünün hər sırada özünə yer alması göstərir ki, müxtəlif dillərdə eyni (adekvat) konsepti ifadə edən leksik vahidlərin müvafiqliyi nisbidir, çünki konseptlər və onların əmələ gətirdiyi konseptosfer daim dinamik inkişafda olduğundan, lüğətlər onun yalnız dildə istifadə olunmuş mənalarını, semantikasını əks etdirə bilir.

Azərbaycan və ingilis dillərində obyektin ümumi müsbət estetik qiymətləndirilməsi mənalı idiomatik ifadələr, insanın zahiri görünüşünün qeyd edilməsi ilə onun gözəlliyini çatdıran sabit ifadələr, obyektin prototiplə oxşarlığını vurğulayan frazeologizmlər qeydə alınmışdır.

1) İnsanın zahiri görünüşünün cəlbediciliyi, onun meydana gəlmə səbəbləri göstərilmədən, aşağıdakı frazeoloji birləşmələrlə çatdırılır:

- ingilis dilində: «*easy on the eye, easy to look at*» («gözoxşayan», «gözə xoş gələn», «qəşəng xarici görünüş», «gül əndam»); «*ine as a May queen»* (Baharın gəlişinə kraliça qismində seçilmiş qız kimi gözəl)*; « fine as fivepence»* (beş penslik qəpik kimi gözəl parlayır)*; «fine as a carrot fresh scraped*» (yenicə təmizlənmiş yerkökü kimi gözəl); «*His sister was easy on the eye*» (Onun bacısı cəlbedici qız idi).

İngilis dilində gözəllik çox vaxt obyektin gözəgələn, gözoxşayan olması (*easy on the eye, easy to look at* - «gözoxşayan», «gözə xoş gələn», «qəşəng xarici görünüş», «gül əndam»), təravətliliyi (*fine as a carrot fresh scraped, like a fresh lemon on a dinner-table - təzə çıxarılmış yerkökü kimi gözəl, şam yeməyində təzə limon kimi*), parlaqlığı («*as fivepence»* - beşik kimi), yaxud diqqət mərkəzində olan nə ilə isə bağlılığı (*«fine as a May queen»* - May kraliçası kimi – Azərbaycan dilində: May çiçəyi, bahar çiçəyi) ilə əlaqədardır.

2) Sağlamlığın gözəlliyin ilkin səbəbi olması fikri üzərində qurulmuş frazeologizmlər hər iki dildə qeydə alınmışdır: yanaqların allığı, saçın uzunluğu və qalınlığı, ətli-canlı olmaq və s.

İngilis dil şüurunda gözəllik və sağlamlığın göstəricisi qismində üzün dərisinin təravətli görünməsi («*fresh complexion*» - təzə tər – dəri mənasında) və bütövlükdə insanın sağlam görünüşüdür: «*blooming with health, bursting with health, in full bloom, the very picture of health, hale and hearty*» (hərfi mənada – «möhkəm və gümrah»), «*fit as a fiddle*» («sağ-salamat, tam qaydasında, əhvalı yaxşı»). «*Hale and hearty*» («ürəkaçan») frazeologizmi əsas etibarilə yaşlı kişilərə nisbətdə işlədilir. Onun əsas semantik sahəsi aşağıdakı semalardır: gümrahlıq, möhkəmlik və ünsiyyətli və əhvalın yaxşı olmasında özünü göstərən sosial fəallıqdır.

3) İnsanın zahiri görünüşünün qavranılmasında paltar mühüm rol oynayır. Hər iki dildə insanın paltarının gözəlliyini səciyyələndirən frazeoloji birləşmələr mövcuddur. Bu səciyyələndirmə onun müəyyən xüsusiyyətləri vasitəsilə ifadə olunur:

- səliqəlilik, təzəlik, qüsursuz görünməsi: *spick and span (new*); lap təzə, indicə tikilmiş: *tire a quatre epingles*. Məsələn, *When I looked up Candy was standing in the doorway, spick*

and span in his white coat, his hair brushed back and shining black (R.Chandler. The Long Goodbye); …the group was altogether very Sundayfied and shiny and spick and span.

- dəbə riayət edən, dəblə geyinən: all the rage (danış.), all the go (danış.), all the vogue, the last word in fashion, the latest thing in fashion, dernier cry, a la mode (fr. dilindən alınma).

- mövcud normalara müvafiq: fit to be seen, comme il faut (fr. dilindən alınma). «Gentlemanlike» (centlmenə yaraşan, layiq) və «ladylike» (lediyə yaraşan, ledi kimi, özünü apara bilən) mürəkkəb sifətlərini də bunlara aid etmək olar.

- ətrafdakıların diqqətini cəlb etmək üçün paltarda qəbul olunmuş normalardan üstün, çox bəzənib düzənmiş, bəy kimi bəzənmək: *dressed to kill (danışıq: «wearing the kind of clothes that will make people notice and admire you»; She is always dressed to kill; dress to the teeth; She showed up for the picnic dressed to the teeth; dress up like a dog's dinner; She was dressed up like a dogrs dinner just to go to the pictures; dressed (up) to the nines (danış.- «wearing very elegant or formal clothes»*.

- bəzənmək haqqında Azərbaycan dilində «bəzənib-düzənmək», (özünə) yaraşıq vermək, özünü gözəlləşdirmək fikri ingilis dilində «*to make oneself up*» söz birləşməsi vasitəsilə çatdırılır. Özünü ələ almaq, əldə saxlamaq, kişi kimi durmaq fikrini ingiliscə «*to put up a good show*» (lazımi görünüş almaq); «*to be.up to the mark*» (normaya, standarta uyğun gəlmək).

- öz zahiri görünüşünü bütün vasitələrlə yaxşılaşdırmaq, özünü bəzəmək insana xas xüsusiyyətdir. Amma hərdən buna can atmaq ifrat ola bilir: ingilis dilində gözəl kişi haqqında: «*a man of fashion*» (hər şeydə dəbə riayət edən), gözəl qadın haqqında isə «*a picture of beauty, a raving beauty*» («məftun edən gözəl»), «*a candy-box beauty»* (hərfi: qutudakı konfet kimi gözəl. Azərbaycan dilində buna «konfet kimi» ifadəsi uyğun gəlir)*, «eye candy*» (gözə xoş gələn, göz oxşayan) deyirlər.

İngilis dilində «ürəyə yatan, gözoxşayan» metaforik mənalı bir sıra frazeologizmlər var: *heart palpitator, eye popper (catcher, filler), head turner, eye opener*. Bu frazeoloji ifadələrdə insan gözəlliyi müşahidə edəni müəyyən hərəkətlərə sövq edən qüvvə qismində çıxış edir.

- Azərbaycan dilində «gözəl danışıq» ifadəsi də var ki, rəvan, xoş danışan, dildən pərgar insanı səciyyələndirmək üçün işlədilir. İngilis dilində bu yerdə «*he / she speaks without a hitch*» işlədilir. Azərbaycan dilindəki «gözəl sözlər» ifadəsinə ingilis dilindəki «*fine words*» müvafiqdir.

Azərbaycan və ingilis dillərində atalar sözləri və məsəllərində də gözəlliyin keyfiyyətlərinin qiymətləndirilməsi baxımından müəyyən qruplar fərqləndirilə bilər:

1) Gözəlliyə malik olmaqdansa, xoşbəxtliyə, bəxtə, uğura, ağıla malik olmaq daha yaxşıdır: «*Dünyaca gözəlliyin olunca, zərrəcə bəxtin olsun», «Neyləyirəm gözəlliyi, gözəl baxtım olaydı*».

İngilis dilində: «*Beauty and folly are old companions*» (mənası: gözəlliklə axmaqlıq qoşa gəzərlər); «*Rather be happy and ugly than unhappy and comely»; «It's luck, not looks, that counts»; «It's good to be born under a lucky star*».

Azərbaycan atalar sözündə gözəllik bəxtə, xoşbəxtliyə qarşı qoyulur. İngilis dilində bəxtə və xoşbəxtliyə üstünlük verilir. Maraqlıdır ki, ingilis dilində gözəllik kimi, zənginliyə münasibətdə də uğura, bəxtə üstünlük verilir: «Better be born lucky than rich» (hərfi mənası: varlı doğulmaqdansa, bəxtiyeyin doğulmaq yaxşıdır). Azərbaycan parameologiyasında bu fikir daha kəskin vurğulanır: «Neyləyirəm qızıl tası, içinə zəhər qusam». Doğrudur, bu atalar sözündə bəxt və zənginlik qarşı-qarşıya qoyulur; gözəllik özü-özlüyündə ön plana çıxmır.

2) Zahiri görünüşə görə qiymətləndirmək, nəticə çıxartmaq olmaz: «*Beauty is but/only skin-deep*» (hərfi mənası: «Gözəllik yalnız üzdədir»); «*Appearances are deceptive/deceitful*» (hərfi: «Zahiri görünüş aldadıcıdır»). Azərbaycan paremiologiyasında bu fikir qismən «Zahiri gözəllik müvəqqətidir» atalar sözü ilə çatdırılır. Lakin bu ifadənin mənası daha geniş və dərindir: zahiri gözəllik əbədi deyil («Gedər bu gözəllik…»), elə dəyərlər var ki, onlar gözəllik kimi solub getmir.

3) İnsanın daxili keyfiyyətləri və davranışı onun zahiri verilənlərindən vacibdir: «*Qulağa xoş gələn insan, gözə də gözəl görünər*» - bu deyimin alt mənasında mədəniyyət, danışıq qabiliyyəti, ağıl, bilik qatı dayanır – məhz bunlar insanla həmişəlik qalır və daxili gözəlliyi şərtləndirir. «*Virtue lives when beauty dies*»; «*Fair without, foul (false) within*» - Azərbaycan dilində buna «Üstü bəzək – altı təzək» məsəli daha çox uyğun gəlir, amma qeyd etmək lazımdır ki, məna zənginliyinə və işlənmə dairəsinə görə Azərbaycan məsəli daha universaldır və yalnız insanda zahiri və daxili xüsusiyyətlərin qarşılaşdırılması ilə məhdudlaşmır.

4) «Gözəllik» konsepti dolayısıyla, daha çox ingilis dilində, insanın işinə, əməlinə görə qiymətləndirilməsi şəklində atalar sözlərində yer alır: «*Position doesn't make the man, the man takes the position*» (hərfi: Vəzifə insanı formalaşdırmır, insan vəzifədə olur). İngilis dilində «gözəllik» konsepti qismən «*A good face is a letter of recommendation*» (hərfi: Gözəl sifət zəmanət məktubudur) atalar sözündə öz əksini tapır. Burada bütövlükdə ingilisdilli mədəniyyətin işgüzar münasibətlərə ümumi yönümü öz əksini tapmışdır. Azərbaycan dilində insanın daxili keyfiyyətləri ön planda olur: «İnsanı geyiminə görə qarşılayır, ağlına görə yola salırlar», «Göz qəlbin aynasıdır».

5) Hər kəsin gözəllik haqqında öz anlayışı var: «*Tastes differ»; «Beauty is in the eye of the gazer/beholder»; «Beauty is in the beholder's eye*». Azərbaycan atalar sözlərində məna baxımından bunlara yaxın deyimlər var «*Qarğadan gözəl quş istədilər balasını göstərdi»; «Hər kəsin balası öz gözündə göyçəkdir*». Bu məsələlərdən göründüyü kimi, Azərbacan koqnitiv məkanında gözəlliyin hər fərdin şəxsi konseptosferində özünəməxsus qavranılması, milli, ümumi qəbul olunmuş «standartlardan» çox, fərdi qavranışın daha vacib olması fikri irəli sürülür.

6) Gözəllik və sevgi, məhəbbət əlaqədardır: «*Könül sevən gözəl (göyçək) olar*»; «*Gözəl gözəl deyil, könül sevən gözəldir*»; «*Leyliyə Məcnunun gözü ilə bax»; «Beauty is in the eye of the gazer/beholder»; «Beauty is in the beholder's eye»; «Beauty lies in lover's eyes»* (hərfi: «Gözəllik sevənin gözündədir» - Azərbaycan atalar sözü bir qədər fərqli səslənir: «Məhəbbət gözdə olur»); «*In the eyes of the lover, pork marks are dimples»; «If jack is in love he is no judge of Jill's beauty / Jack is no judge ofJill's beauty*».

7) Paltar insanı bəzəyir: «*Fine (köhn. Fair) feathers make fine birds (köhn. Fair fowls)»; «The tailor makes the man»*; «Gözəllik ondur, doqquzu dondur».

8) Gözəl olub gözəl danışmaq hələ yetərli deyil: «*The tailor makes the man*»; «Əsl gözəl əməli gözəl olandır»; «*Good words and po deeds*» (hərfi: «Gözəl sözlər çoxdur, amma işi görünmür»); «*Gözəl sözü çox, ortada işi yox*».

Bu qruplara aid etdiyimiz atalar sözləri müəyyən kontekstual mənalarandı (praqmatika səviyyəsində) bir-biri ilə kəsişir, eyni zamanda bir neçə qrupa aid edilə bilərlər.

Beləliklə, «Gözəllik» konsepti nitqdə leksik vasitələr, frazeoloji birləşmələr (sabit söz birləşmələri), atalar sözləri və məsəllər, sabit bənzətmələr vasitəsilə realizə olunur. «Gözəllik» konseptini çatdıran bu kimi dil vasitələrinin təhlili konseptin nə qədər mürəkkəb olduğunu, ingilis və Azərbaycan dil materiallarının timsalında müqayisəli təhlili isə onların arasında ciddi fərqlər olduğunu söyləməyə imkan verir.

Ədəbiyyat

1. Cahangirli T. «Konsept» və «konseptosfer» koqnitiv dilçiliyin əsas vahidləri kimi. Filologiya məsələləri. № 6, AMEA. Bakı: Elm və təhsil, 2016, s.136-140.

2. Əhmədova Ü. İngilis frazeologizmləri və atalar sözlərində «qadın» konsepti. Pedaqoji Universitet Xəbərləri. Humanitar elmlər bölməsi. Bakı, 2015, № 2, s. 210-213.

3. Əhmədova Ü. Konsept və ona müasir yanaşmalar // Elmi xəbərlər. ADU. Bakı, 2015, № 5, s.138-143.

4. İngiliscə-Azərbaycanca frazeoloji lüğət / tərtib edənlər: Hacıyeva Ə., Hacıyeva A., Eyvazova V.- Bakı: «Turlan», 2006.

5. Niftəliyeva (Aydəmirova) A. Linqvokulturoloji vahidlər // Dil və ədəbiyyat. Azərbaycan Dillər Universiteti. 2014. № 3, s.148-153.

У.А.Джафарова

Языковые единицы, реализующие концепт «красота» (beauty) в английском и азербайджанском языках

Резюме

Концепт «Красота» (beauty) в речи реализуется посредством лексических единиц, фразеологизмов, пословиц и поговорок, устойчивых словосочетаний. Анализ таких языковых единиц, реализующих данный концепт, показывает, что он очень сложный, а сравнительный анализ концепта в азербайджанском и английском языках, позволяет утверждать, что в каждом языке он имеет свои специфические особенности. В азербайджанском и английском фразеологических единицах и пословицах и поговорках концепт «красота» представлен довольно широко. Хотя в обоих языках можно выделить близкие по содержанию единицы, полная идентичность между ними не просматривается.

U.A.Jafarova

Language units reflecting the concept of "beauty" in English and Azerbaijani

Summary

The concept of “beauty” in speech is realized through lexical units, phraseological units, proverbs and sayings. An analysis of such linguistic units that reflect this concept shows that it is very complex, and a comparative analysis of the concept in the Azerbaijani and English languages allows us to assert that each language has its own specific features.

In Azerbaijani and English phraseological units, proverbs and sayings, the concept of "beauty" is represented quite widely. Although it is possible to distinguish similar units in both languages, complete identity between them is not visible.

Rəyçi: filol.e.d., prof. F.F.Cahangirov

Redaksiyaya daxil olub: 28.10.2020

G.N.ƏLİYEVA
e-mail: gunel.nizamiqizi@gmail.com

Azərbaycan Turizm və Menecment Universiteti
(Bakı şəh., Koroğlu Rəhimov küç., 23/822)

NİTQDƏ QEYRİ-VERBAL KOMMUNİKASİYA VASİTƏLƏRİNİN ROLU

Açar sözlər: *nitq, komunikasiya, verbal, mimika, jest*
Ключевые слова: *речь, общение, вербальное, мимика, жесты*
Key words: *speech, communication, verbal, facial expressions, gestures*

Dil nitqin yaranmasında, inkişafında rol oynayır. Çünki dil ünsiyyət vasitəsidirsə, nitqdə ünsiyyət prosesidir. Ünsiyyət prosesini həyata keçirmək üçün bir çox üsul və vasitələrdən istifadə edilir. Ünsiyyət və kommunikasiya bir-birilə sinonim anlayışlardır. Yəni nitq və kommunikasiya anlayışları eyniyyət təşkil edir. Sadəcə müasir dövrdə əksər dərsliklərdə, məqalələrdə ünsiyyət əvəzinə kommunikasiya anlayışından daha çox istifadə edilir. Ancaq bunlar qarışıqlıq yaratmamalıdır. Biz əsasən çalışmalıyıq ki, daha düzgün, aydın, səlis, ardıcıl, dəqiq kommunikasiya qura bilək. Zamanın ən çatışmayan cəhətlərindən biri insanların özlərini düzgün ifadə edə bilməməsi və qarşısındakı insanların onu düzgün başa düşə bilməməsi nəticəsində ortaya çıxan münaqişələrdir. Bunların qarşısını almaq üçün bütün ədəbi dilə, normalara cavabdeh olan kommunikasiya qurmalıyıq. Bildiyimiz kimi ünsiyyət iki və daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə deyilir (3, s.258). Ünsiyyətin yerinə yetirdiyi funksiyalara ilk növbədə birgə fəaliyyətin təşkili və şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafı daxil edilir. Bundan başqa ünsiyyət informasiya mübadiləsi və insanların bir-birini qavraması və anlaması kimi funksiyaları da yerinə yetirir. Kommunikasiya özünü iki şəkildə büruzə verir: verbal və qeyri-verbal kommunikasiya.

Verbal kommunikasiyanını sözlər, söz birləşmələri, cümlələr şəklində həyata keçiririk. Verbal kommunikasiya vastələri dillə bağlıdır. Burada hansı dil qrupuna aid olmasından asılı olmayaraq, insanlar o dilin spesifik xüsusiyyətlərindən çıxış edərək ünsiyyət qururlar. Nitqin vasitəsilə keçmiş barədə məlumat alırıq, gələcəyə məlumatı şifahi və yazılı şəkildə ötürürük. Bu da onu göstərir ki, nitqin iki forması mövcudddur: şifahi və yazılı. Nitqin şifahi və yazılı forması monoloji və dialoji növdə əks olunur. Yuxarıda qeyd olunan məlumatlar onu göstərir ki, verbal kommunikasiya gündəlik həyatımızda daim istifadə etdiyimiz kommunikasiya vasitəsidir.

Gündəlik həyatımızda verbal kommunikasiya vasitəsilə rahatlıqla ünsiyyət qururuq. Lakin ünsiyyətimizi daha canlı, zəngin etmək üçün müxtəlif vasitələrdən istifadə etməyə ehtiyac duyuruq. O vasitələr isə kommunikasiyada qeyri-verbal vasitələr yerinə yetirir. Qeyri-verbal kommunikasiya öz orijinallığı, xüsusiyyətləri, işlənmə arealına görə verbal kommunikasiyadan kəskin şəkildə fərqlənir. Qeyri-verbal kommunikasiya təkcə dilçiliklə deyil, həm də psixologiya, pedaqogika ilə də qarşılıqlı əlaqədədir. Qeyri-verbal ünsiyyət vasitələri ümumi şəkildə bədən dilini özündə ehtiva edir. Buraya mimika, pantomimka, proksimika, takesika, jestlər, insanların istifadə etdiyi geyim, bəzək-düzəklər və digər paralinqvistik vasitələr daxildir. Psixoloji ədəbiyyatda qeyri-verbal ünsiyyət vasitələrinin məzmunu aşağıdakı kimi açıqlanır (3, s.265):

Mimika (yunan dilində mimos, təqlid, simanın dəyişilməsi deməkdir) sifət əzələlərinin dinamik ifadəsi kimi özünü göstərir. Qaş, göz, yanaq, dodaqlar və s. sifətin bu və ya digər dərəcədə lokal mimika sahələridir. Amerikan psixoloqu Ekman müəyyən etmişdir ki, insan mimikasının yeddi əsas sifət konfiqurasiyası var: onlar müvafiq olaraq yeddi təməl emosiyanı ifadə edirlər. Sifətin ən ifadəli əlamətləri əsasən dodaqla qaş (ağızla göz) arasında yerləşir. Bu sahəyə əsas mimika zonası da deyilir. Mimika insan sifətinin təkrarolunmaz fərdiyyətinin əks

etdirir. Onun əsas funksiyası sifətin ekspressiyalarında insanın emosiya və hisslərini ifadə etməkdir.Verbal ünsiyyət fərqli dillərdə həyata keçirildiyi kimi, qeyri-verbal ünsiyyətdən də istifadə mədəniyyətdən asılı olaraq dəyişilir.

İnsanın insan tərəfindən qavranılmasında sifət affektiv əhəmiyyət kəsb edir (2, s.164). Sifətin ən ifadəli əlamətləri ağızla göz arasında yerləşir və bu sahəyə mimika zonası deyilir. Ünsiyyət prosesində ekspressiv yükü bu zonalar daşıdığı üçün həmin atributlara daha çox diqqət yetirilir. Mimika zonası insan halətlərini əks etdirdiyi üçün ünsiyyət zamanı onlar nəzərə alınır. Mimika zonası qeyri-verbal ünsiyyət vasitələri kimi çox güclü kommunikativ funksiya daşıyır. Bu məsələdə cinsi fərqlər var. Belə ki, qadınların zahiri görkəminin qavranılması ilə kişilərin qavranılması zamanı istinad elementləri bir-birindən fərqlənir. Bu cür fərqlər qadın və kişi portretlərinin təsvirində özünü biruzə verir. "Kitabi Dədə Qorqud dastanı"nda oğuz qadınları əsasən aşağıdakı atributlarla səciyyələnir: sərv boylu, qara qarğı saçlı, çatma qaşlı, dar ağızlı, al yanaqlı, incə belli, qara gözlü, qaz bədənli, gümüş biləkli, əli xınalı, hörmə saçlı, uzun boğazlı, barmaqları naxışlı (6, s.225).

Kinesika – "bədən hərəkətlərinin dili" kimi başa düşülür. Ünsiyyət prosesində kinesikanın kodları jestlər vasitəsilə meydana çıxır. Kinesika, qeyri-verbal ünsiyyət psixologiyasını öyrənən elm sahəsi kimi insanların eksperessiv davranışını öyrənir.. İnsanların ekspressiv davranışı ilə bağlı R.Bredvistel yazır: "Bədənin elə bir vəziyyəti və ya duruş tərzi, eləcə də üz ifadəsi yoxdur ki, bütün mədəniyyətlərdə eyni mənanı ifadə etsin." Onun fikrinə görə aşkar olunmuş fərqlər göstərir ki, insan sosializasiya prosesində dilə yiyələndiyi kimi mimikaya da yiyələnir.

İntonasiya ünsiyyətin başlıca akustik vasitəsidir. Ünsiyyət prosesində kommunikatorun resipientə münasibəti bilavasitə onun intonasiyasında əks olunur. Onun ekspressiv-emosional funksiyası önəmlidir. İntonasiyanın bu funksiyası xüsusi məntiqi vurğu, pauza və s. akustik vasitələrlə qaynaqlanır.

Proksimika – (latın dilində proximity – yaxınlıq deməkdir). Proksimika – ünsiyyətin məkan və zaman təşkili məsələlərindən bəhs edir. Insanın tutduğu şəxsi məkan ünsiyyət prosesində özünəməxsus rol oynayır. Proksimikada insanın tutduğu yaxud dayandığı məkan (yer) ona aid hesab edilir, hətta bir növ fiziki bədəninin davamı sayılır. Ünsiyyət prosesində kimisə özümüzə yaxın buraxırıq, hətta qolumuza girməsinə imkan veririk, kimisə özümüzə yaxın buraxmırıq. Şəxsi məkanın hüdudları ünsiyyət prosesində subyektiv olaraq belə müəyyən olunur. Bu yolla insan başqa adamlarla özü arasında ünsiyyət üçün intuitiv ölçülərlə əlverişli və ya münasib olan özünəməxsus psixoloji məsafə yaradır. "Yaxınlıq-uzaqlıq", "istilik-soyuqluq" psixoloji məkanın emosional parametrlərini bildirir (3, s.266). Proksimkanın ünsiyyət prosesindəki yeri ilə bağlı E.Hall yazır: "Hal-hazırda bütün mədəniyyətlər "üst qatda" bir-birindən az fərqlənirlər, lakin daha dərin qatlarda - qeyri-verbal səviyyədə fərqlər çoxdur və burada mətnləri hələlik yalnız xalqın psixi mayasına görə oxuyuruq. Bu dillər arasında "məkan və zaman" dilləri xüsusi əhəmiyyət kəsb edir və onlar mədəniyyətin nüvəsini təşkil edirlər və digər məsələlər də onların ətrafında dövr edir" (8, s.178).

Bədən dilindən, göz kontaktından, xoş ifadələrdən istifadə etmək hər zaman natiqin nitqini önə çəkəcək və onun insanlar tərəfindən dinlənilməsinə səbəb olacaqdır. Bunlar təsirli ünsiyyətin qızıl qaydaları kimi qiymətləndirilir. Ancaq istər verbal, istərsə də qeyri-verbal kommunikasiya qurarkən siz düzgünlüyə riayət etməlisiniz. Buradan sual ortaya çıxır ki, qeyri-verbal kommunikasiya lal nitq şəklində ortaya çıxır. Burada biz necə düzgünlüyə riayət edə bilərik? Lakin qeyri-verbal kommunikasiya zamanı da xüsusi normalar var ki onlar gözlənilməlidir. Məsələn, əl hərəkətləri var: bunlar hər bir ölkənin yaşam tərzinə uyğun olaraq fərqli şəkildə anlaşılır. Bu ilin ən məşhur əl hərəkəti "V" işarəsi oldu. Bu il 30 illik həsrətimiz bitdi. Düşmən tapdağından xilas etdiyimiz hər qələbənin ardından prezidentimiz xalqına səsləndi. Bu səslənmənin sonunda "V" və birlikdəliyi nümayiş etdirən sıxılmış yumuruq qələbənin işarəsi olaraq göstərildi. Lakin bu işarə Avstraliya, İrlandiya, Böyük Britaniya kimi

ölkələrdə şəxsi özündən uzaqlaşdırmaq mənasında istifadə olunur. Buna görə də qeyri-verbal kommunikasiya vasitələrindən də istifadə edərkən diqqətli olmalı, qayda-qanunlara uyğun olaraq fikrimizi qeyri-verbal şəkildə ifadə etməliyik.

Qeyri-verbal kommunikasiya mürəkkəb prosesdir. Çünki insan amili ilə birbaşa bağlıdır. Yəni insan şəxsiyyəti burada əsas rol oynayır. Bu proses də gender fərqləri belə əsas cəhət kimi çıxış edir. Kişilər və qadınlar jest və mimikalardan müxtəlif cür istifadə edirlər. Bu sahəni psixologiya sahəsi xüsusi olaraq tədqiq edir. Ona görə də "Arifə bir işarət kifayətdir" ifadəsi həm həqiqi, həm də məcazi mənada özünü doğruldur. Qeyri-verbal kommunikasiya daha rahat, canlı həyatın başlanğıcı kimi qiymətləndirilir.

Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya, Bakı, "Maarif", 1989. – 540 səh.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya, Bakı,"Qapp-Ploiqraf" 2003. – 356 s
3. Abdullayev N.Ə. Nitq mədəniyyətinin əsasları. Dərs vəsaiti. Bakı, 2013. – 276 səh.

Г.Н.Алиева

Роль невербальных средств общени в речи

Резюме

Обмен информацией между людьми является наиболее распространённой стороной общения и в литературе называется коммуникативной стороной общения. Коммуникативная сторона общения осуществляется вербальными и невербальными средствами. Первая группа средств общения - это средства, связанные с помощью слов и языка. Такие средства общения называются вербальными средствами общения. Вторая группа коммуникативных средств - это средства общения без использования языка, речи. Такие средства называются невербальными средствами общения. К ним можно отнести различные выразительные движения, мимику, пантомиму, знаковые системы и тд. Невербальные средства общения оживляют и обогащают речь, создают условия для психологического и педагогического общения людей.

G.N.Aliyeva

The role of non-verbal communication means in speech

Summary

The exchange of information between people is the most common aspect of communication, and in the literature it is called the communicative component of communication. The communicative side of communication is carried out by verbal and non-verbal means. The first group of means of communication is the means connected with the help of words and language. Such means of communication are called verbal means of communication. The second group of means of communication is non-verbal. Such means are called non-verbal means of communication. Various expressive movements, facial expressions, pantomime, sign system, etc. can be included into them. Non-verbal means of communication enliven and enrich speech, create conditions for people to communicate psychologically and pedagogically.

Rəyçi: filol.e.d., prof. T.H.Cəfərov

Redaksiyaya daxil olub: 11.12.2020

E.İ.FƏRƏCOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

XƏBƏR BAŞLIQLARINDA EKSPRESSİV SİNTAKTİK KONSTRUKSİYALAR

Açar sözlər: *xəbər başlığı, ekspressivlik, ekspressiv sintaksis, praqmatika*
Ключевые слова: *газетный заголовок, экспрессия, экспрессивный синтаксис, прагматика*
Key words: *newspaper headline, expressivness, expressive syntax, pragmatics*

Xəbər başlıqlarında ekspressiv sintaksisin praqmatikası istənilən dil vasitələrindən istifadə etməklə oxucuya təsir etməyə yönəldilmişdir. Ekspressivlik sözün ifadəliliyi, təsir qüvvəsi, aktivliyi, kəsəri deməkdir. Ekspressivlik semantik kateqoriya hesab olunur, çünki sözdə ekspressiyanın əmələ gəlməsi həmişə onun məna dairəsinin genişlənməsi və mürəkkəbləşməsi, bundan əlavə, ikinci dərəcəli məna çalarının əmələ gəlməsi ilə bağlıdır.Sözün məna çalarlıqları sözün ifadəlilik və təsirlik qüvvəsinin artırılmasına kömək edir. Qeyd etmək lazımdır ki, dildə ekspressivliyin əmələ gəlmə imkanları geniş və rəngarəngdir. Ekspressivlik dildə fonetik, morfoloji, leksik və sintaktik kateqoriyalar vasitəsilə əmələ gəlir."Sintaksisin məqsədi sözlərin necə "seçilməsi", "birləşdirilməsi"ni, öyrənmək, dilin müxtəlif konstruksiyalarının təhlili və onların cümlələr kimi birlikdə necə işlənməsini göstərməsidir" [8, s.4]. Sintaksis effektiv linqvistik kommunikasiya üçün istifadə edilə bilən müxtəlif imkanlara malikdir .

Qəzet informasiya vasitəsi olmaqla bərabər, həm də inandırma vasitəsidir. Qəzetlərin oxunduğu şəraiti də nəzərə alaraq informasiyanı elə təşkil etmək lazım gəlir ki, onu axıra qədər oxumaq imkanı olmasa belə, lakonik olsun ki, oxucuda emosional təsir yaratsın. Xəbər başlıqlarının xarakterik xüsusiyyətləri onları ayrıca janr kimi fərqləndirməyə imkan verir. Hər bir kütləvi informasiya vasitəsi öz auditoriyası ilə müəyyən tərzdə danışır və bu zaman mətn kommunikasiyası üçün sabit leksik-üslubi və ritorik vasitələrdən istifadə olunur. Məsələn, keyfiyyətli qəzet mətbuatı üçün bir, populyar və bulvar (tabloid) qəzet mətbuatı üçün isə fərqli ünsiyyət üslubu səciyyəvidir.

Qəzetlərin daha cox göstərici xarakter daşıyan xüsusiyyəti statistik xarakteristikalardır. Qəzetlərdə klişelərin çoxluğu demək olar ki, bir çox tədqiqatçılar tərəfindən dəfələrlə qeyd olunmuşdur. Dilin leksik layını denotativ planda tədqiq edən bir çox müəlliflər informasiyanın bir qayda olaraq konkret olmasına baxmayaraq, mücərrəd sözlərin qəzet mətnlərində, o cümlədən xəbər başlıqlarında çox olması fikrini irəli sürürlər. Konnotativ planda hiss və həyəcan bildirən sözlərin az olması ilə yanaşı, qiymətləndirici və ekspressiv leksikanın çox olması nəzərə çatdırılır. Belə qiymətləndirmə adətən qeyri-formal leksikanın seçilməsində özünü göstərir. Məsələn, *The last Labour Government was kicked out* [Daily Mail, December 19.2004]

İngilis qəzet mətnlərinin üslubi xüsusiyyətlərinin təhlilinə aid tədqiqatlarda çox tez-tez ingilis jurnalistləri iddialı leksikadan və qəzetin sahibkarlarına xidmət edən arxaik hərbi leksikadan (*historic, epoch-making, truimphant, unforgettable* və s.) istifadə etməkdə günahlandırılır. Belə hesab edilir ki, burada oxucuya emosional təsir göstərməklə onu öz tərəflərinə çəkmək məqsədi güdülür.

Məlumdur ki, canlı nitq prosesində ifadəlilik, ekspressivlik qüdrəti yalnız sözlərin yarandığı səslərlə deyil, həm də onların müxtəlif birləşmələrinə, leksik mənalarına və eləcə də sözlərin qrammatik formalarına xas olur. Ekspressivliyə meyllilik mətnin effektiv formaları, mətn ötürücüsünün subyektiv ifadəlılık elementləri ilə zənginləşir. Sözün üslubi xarakterində onun mənalarının, funksiyasının və nitqdə işlənməsi ilə bağlı kontekstual məna çalarlığının bütün rəngarəngliyi cəmlənir və birləşir.

Dilin semantik inkişafı onun leksik və morfoloji vasitələrinin məcmusundan, sözyaradıcı elementlərindən və qrammatik kateqoriyalarından asılıdır. Sözün tərkibinin düzgün müəyyən edilməsi prinsipial xarakter daşıyır, çünki məhsuldar affiksin mövcud olduğu belə düzəltmə sözlərin leksik-qrammatik mənasına əsaslanmaqla bu cür model üzrə yeni yaradılmış hər bir mürəkkəb sözün hansı məna daşıyacağını müəyyən etmək olar. Məsələn, *-in* komponentli düzəltmə sözləri nəzərdən keçirdikdə məlum olur ki, son zamanlar ABŞ mətbuatında "sit-in", "teach-in" kimi sözlər meydana gəlmışdir. "Teach-in", "take -in" kimi sözlərin ilkin mənası "müharibə əleyhinə etiraz mitinqləri"dir. Lakin hazırda bu növ sözlərin məna dairəsi genişlənmişdir.

Ekspressiv funksiya daşıyan və yüksək işlənmə tezliyinə malik olan konversiya üsulu ilə yaradılan neologizmlər qəzet üslubunun xarakterik cəhətlərindən biridir. Bu mənada "informasiya –yayım üslubu" nun ən mühüm komponenti ideoloji, mədəni, tarixi, social aspektləri nəzərdə tutan praqmatik məqsəddir və bütün bu linqvoüslubi vasitələr həmin məqsədə xidmət edir [2, s.109].

Qəzetlərin vəzifə, məqsəd və mövzusuna görə universal xarakterə malik olması onların dilində və üslubunda da özünü göstərir. Qəzet mətnlərinin dili yalnız mövzu və problem baxımından deyil, ünvanlandığı kontingentin yaşı, bilik səviyyəsi, maraq dairəsi, intellektual hazırlığı baxımından da söz, üslub, sintaktik fiqur, cümlə quruluşu seçiminə məruz qalır. Bu məqsədlə qəzet mətnlərini hazırlayan jurnalistlər, müxbirlər yalnız publisistik üslubun dil əlamətləri ilə kifayətlənmir, yeri gəldikcə, bədii üslubun dil və janr imkanlarından da istifadə edirlər. Qəzetlərin üslubu elmi, ictimai-siyasi terminologiyaya, eləcə də, bədii üslubun məcazlaşma, obrazlılıq və s. xüsusiyyətlərinə etinasız deyil. Bütün bu vasitələr oxucu ilə kommunikativ əlaqə yaratmaqda informasiyanın inandırıcı, cəlbedici olmasına xidmət edir.

Qəzet mətnlərinin dil-üslub əlamətləri sintaqmatik planda xeyli sayda klişeləşmiş və tematik cəhətdən əlaqəli, köməkçi frazalar, sitatlar ilə təzahür edir. Qəzet mətnlərində, xüsusilə də başlıqlarda işlənən standart leksik vasitələrinin vəzifəsi oxucu tərəfindən informasiya qəbulunu asanlaşdırmaq və kommunikativ təsir gücünü artırmaqdır. Britaniya və Amerikan qəzet mətnləri bu cür leksika ilə zəngindir. Hər iki ölkədə dərc olunan qəzetlərin xəbər başlıqları obrazlı-ekspressiv vasitələr – metafora, klişe, reklam leksikası, evfemizmlər, jarqon, atalar sözləri, metonimiya, frazeologizmlərin şəkildəyişməsi, sinonim cütlüklər, müqayisə, mübaliğə, dəbdə olan söz və frazalar, antonim sıralanma ilə doludur. Qəzet diskursunun tematik müxtəlifliyi onun leksik zənginliyinə səbəb olur. İnformasiya qəzetdə birbaşa sözlə, onun mənası, emosionallığı və ekspressivliyi vasitəsilə ifadə olunur. Xəbər yazarları dil vasitələrindən manipulyasiya məqsədilə ustalıqla istifadə edirlər. Dil manipulyasiyasının əsasında elə psixologiya və psixolinqvistik mexanizmlər durur ki, adresatı ötürülmüş informasiyanı qeyri-tənqidi qəbul etməyə vadar edir [4, s.99].

"Dil bəlkə də təsvir və ifadəetmədən daha çox yalan, aldanış və manipulyasiyanın sazlanmış sistemidir"[1, s. 27]. Qəzet mətni informasiya qəbul edəni açıq və ya örtülü formada məlumatlandırmaq, manipulyasiya etmək və inandırmaq məqsədi daşıdığından bu məqsədə çatmaq üçün istənilən dilçilik priyomundan istifadə məqbul hesab oluna bilər.

Xəbər başlıqlarında bu niyyətə nail olmaq məqsədi ilə ən asan və ən sadə yol cümlədə normal söz sırasını dəyişməkdir. Dilçilikdə inversiya adlanan söz sırasının belə dəyişməsi güclü praqmatik təsirə malikdir və informasiyanı qəbul edənin fikrini bütün mətnə cəmləməyə kömək edir. Mətnin məzmununun emosional səciyyəli elementinə işarə söz sırasının dəyişməsi vasitəsilə təmin olunur. Bu cür dəyişmə cümlədə işarələrin statistik baxımdan daha tez-tez təsadüf olunan ardıcıllığında, yəni sabit söz sırasının pozulması (inversiya) ilə bağlıdır. Inversiya cümlənin informativ mərkəzini dəyişir, yəni semantik balansı və məzmunluluğu qoruyaraq informasiyanın müəyyən elementlərini intensivləşdirir və onu daha da ekspressiv və emosional edir. Məsələn, *Bought your child a new device?Here's how to protect their mental health*[The Telegraph, 22 December, 2018]

İnversiya söyləmdə özünə xas olmayan mövqedə rast gəlinən sözü xüsusilə ayırır və bütün mətnə emosional səciyyə verir. Xəbər başlıqlarında informativ yükün söz sırasının pozularaq predikativin ön mövqeyə çıxması ilə güclənməsi aydın şəkildə hiss olunur. İngilis dilində müəyyən olunmuş nisbətən sabit söz sırası qrammatik kateqoriyaların mənasının ötürülməsi üçün mühüm rol oynasa da, söyləmin informativ mərkəzinə işarə funksiyası daha çox artikllarla, əvəzliklərlə təmin olunur və yaxud ötürülən xəbərin ümumi məzmunundan aydın olur [6]. Məsələn, *Government shutdown, Day 2: No end in sight as lawmakers head home for holidays* [USA Today, 23December, 2018]

İnformativ üslubda qəzet dilinin qrammatik özünəməxsusluğu V.L.Nayer tərəfindən tədqiq olunmuşdur. Müəllif zaman və növ formalarından istifadədə özünəməxsusluğu, şəxssiz formaların xüsusi çəkisini, vasitəsis nitqin verilməsinin xüsusi formalarını, vasitəsis nitqin vasiəliyə çevrilmə formalarını və söz sırasındakı cəhətləri xüsusi qeyd edir. O, həmçinin zaman zərfliyinin cümlənin nə əvvəlində, nə də axırında deyil, mübtəda ilə xəbərin arasında verilməsinə (bu informasiyanın artırılmasına şərait yaradır) diqqəti yönəldir [6]. Normativ qrammatik qaydalara əsasən zaman zərfliyi cümlənin sonunda gəlməlidir, lakin qəzet xəbərlərində bu qayda tez-tez pozulur, çünki informasianı zaman deyil, yer zərfliyi daşıır. Zərflər çox informativ nitq hissələridir və onların ön hissədə yerləşməsi söz birləşməsinin prepositiv informasiyasının gücünü artırır. Məsələn, *On the real Watership Down, rabbits are hard to come by* [The Guardian, 22 December, 2018]

Xəbər başlıgı yalnız semantik baxımdan deyil, həmçinin struktur cəhətdən də ekspressivlik ifadə etməlidir. Dilçilikdə sual və nida cümlələri ilə ifadə olunmuş xəbər başlıqları ekspressiv sintaktik konstruksiyalar qismində çıxış edir. Qəzet dilinin sintaktik xüsusiyyətləri sual cümlələrinin yüksək işlənmə tezliyi ilə xarakterizə olunur. Sual cümləsi ilə ifadə olunmuş xəbər başlığı birbaşa oxucuya ünvanlandığı üçün müəllif-oxucu dialoqu yaradır. Sual cümləsi ilə ifadə olunan başlıqlar yalnız xəbər mətninin məzmununun lakonik ifadəsi deyil, həmçinin xəbər yazarının hiss və emosiyalarının da ifadəsi üçün əlverişlı vasitə hesab olunur. Belə sual-söyləmlər oxucunun diqqətini cəlb etməklə onu suala cavab tapmaq üçün tam xəbər mətnini oxumağa təhrik edir [5, s. 47]. *Climate's Big Unknown: What's Happening Beneath Antarctica's Ice?* [The Wall Street Journal, December 29, 2018]

"Sual cümlələri ilə ifadə olunmuş başlıqlarda həmçinin mürəkkəb modallıq ifadə olunur, çünki belə söyləmlər bir tərəfdən müəllifin qeyd olunan fakt və ya hadisəyə münasibətini ehtiva edirsə, digər tərəfdən xəbərin ünvanlandığı adresatı müəlliflə müəyyən məqamlarda həmfikir olmağa təhrik edir" [7, s.172**].** Deməli, müəllif bu yolla auditoriyayanın ona ünvanlanmış suala cavab tapmasına imkan yaradır. Qeyd etmək lazımdır ki, belə başlıqlarda sual cümlələrinin strukturu çox vaxt normativ qrammatik qaydalara uyğun olur və bu hal ingilisdilli qəzetlərdə xüsusilə üstünlük təşkil edir. Məsələn: *Will Russian Victories in Syria Spark a Regional War?* [The Wall Street Journal, 11 February 2016].Burada oxucunun laqeyd qala bilməyəcəyi başlıqları da qeyd etmək lazımdır. Məsələn,*Russia or ISIS? Who is America's No. 1 Enemy?* [The Washington Post, 4 August 2015].

Verilmiş məqalədə ekspertlər Amerika üçün təhlükə yaradan bir çox mənbələri (Rusiya, "Islam dövləti", İran, Çin) şərh etsələr də, xəbər başlığında alternativ olaraq iki mənbənin (Russia or ISIS) qeyd olunması oxucunun diqqət və marağını məqaləyə yönəldir. Əksər hallarda başlıqlar ellipsisə uğrayan sual cümlələri ilə də ifadə olunur. Belə cümlələrdə daha çox köməkçi feillər (do, does, is, are, have, has və s.) və sual sözləri (who, when, where, how və s.) buraxılır, yaxud tədqiqatın birinci fəslində də qeyd etdiyimiz kimi, adi nəqli cümlə formasında olan cümlələrin sonunda sual işarəsi qoyulur. Məsələn, *More Sympathy for Paris Attack Victims Than Russian Terror Victims ?*[The Wall Street Journal, 16 November 2015].

Nümunə kimi qeyd olunan başlıqda xəbər müəllifinin mətni oxucunun diqqətinə çatdırmaq üçün hissələrə bölməsi üslubi məqsəd güdür. Belə başlıqlardan istifadə əsasən müəllifin oxucu ilə birbaşa ünsiyyət yaratmaq istəyi ilə izah olunsa da, eyni zamanda müsbət paqmatik

effekt təsiri bağışlayır. Qəzetdəki məqalələr heç də bütünlüklə başlıqdakı suala cavabı əks etdirmir, çünki belə başlıqların əksəriyyəti məlumatlandırıcı, informativ funksiyadan çox, praqmatik funksiya yerinə yetirir.

İngilisdilli qəzetlərdə sual-cavab formasında olan başlıqlar da xüsusi ekspressivliyə malik olur. Belə başlıqların adi sual cümləsindən ibarət olan birinci hissəsi mətnin məzmununu açıqlamır. Başlığın daha çox informasiya malik və təsdiq formada olan ikinci hissəsi birinci hissədəki sualın cavabı kimi çıxış edir. Məsələn, *Astoria Borealis? New York Sky Turns Blue After ConEd's Substation Fire* [The Wall Street Journal, December 29, 2018]

Nida cümlələri ilə ifadə olunan xəbər başlıqları da ekspressiv sintaktik konstruksiya kimi oxucunun diqqətini cəlb edir. Belə başlıqlarda nida işarəsinin qoyulması onun əlavə təhrikedici funksiyasını artırdığı halda, qoyulmaması isə informativ xarakter kəsb edir. Əsasən çağırış, məsləhət və s. ifadə edən direktivlər xəbər başlıqlarının manipulyativ funksiyasını daha da artırır. Lakin aparılan araşdırma nəticəsində məlum olur ki, nida cümləsi ilə ifadə olunan xəbər başlıqları müasir ingilis mətbuatı üçün xarakterik deyildir. Oxucunun fikrini müsbət və ya mənfi, doğru və ya yalnış istiqamətə yönləndirməkdə tərəddüd edən jurnalistlər nida cümlələrindən mümkün qədər imtina edib digər sintaktik konstruksiyalara üstünlük verirlər. Müasir dövrdə durğu işarələri təsirli və cəlbedici başlıqların ayrılmaz tərkib hissəsi hesab olunur. Çünki təhriketmənin müxtəlif xüsusi çalarlarının ifadəsində durğu işarələrinin və intonasiyanın bu rolunu vurğulamaq lazımdır. Məsələn, *Gatwick airport drone chaos: Man, 47, and woman, 54, arrested on Crawley as passengers suffer more delays – latest live news updates* [The Telegraph, 22 December , 2018]

Dilçilikdə bir sintaktik strukturun qəsdən hissələrə bölünməsi, yəni parçalanma (parselyasiya) ekspressiv sintaksis hesab olunur. Yazıda durğu işarələri, danışıqda isə intonasiya, yaxud pauza ilə mətnin müstəqil, ayrı cümlələrə, semantik vahidlərə bölünməsi üslubi xarakter kəsb edir. Cümlənin hissələrə bölünərək funksional tərəflərinin vurğulanması, yaxud aktual üzvlənməsi onun ekspressiv funksiyalarını səciyyələndirən formal əlamətin aşkar olunması ilə nəticələnir. Xəbər başlıqlarında semantik vahidlərə parçalanmış belə sintaktik konstruksiyalardan istifadə üstünlük təşkil edir. Belə konstruksiyalar adətən iki hissədən ibarət olur: birinci hissə bütöv cüttərkibli cümlə, ikinci hissə isə birincidən yaranmış təktərkibli cümlə formasında olur. Məsələn, *Yes, the U.S. and Russia can cooperate to end the Syrian civil war. Here's why* [The Washington Post, 17 February 2016]

Xəbər başlıqlarında işlənən ritorik vasitələr eyni zamanda manipulyativ məqsədlərə xidmət edir. Ingilis qəzetlərinin üslubu üçün ümumilikdə müxtəlif ideyaları əhatə edən media mətnləri, müxtəlif tabelilik bağlayıcıları olan mürəkkəb cümlələr xarakterikdir. Xüsusilə, Birləşmiş Krallıq mətbuatında belə konstruksiyaladan istifadə tendensiyası qəzetin əsas funksiyası olan oxucunu məlumatlandırmaq və qəzet vasitəsilə ötürülən ismarıcın onda müəyyən fikir yaratması hesab oluna bilər[3, s. 56].

Qəzet üslubu və eləcə də başlıqlar elmi, ictimai-siyasi terminologiyaya, bədii üslubun məcazlaşma, obrazlılıq və s. xüsusiyyətlərinə etinasız deyil. İngilis mətbuatı üçün səciyyəvi olan sintaktik strukturlardan istifadəyə meyli qəzetin oxucunu məlumatlandırmaq və ötürülən informasiyaya cəlb etməklə onu manipulyasiya etmək kimi xarakterizə etmək olar.

Ədəbiyyat

1. Abdullayev S.Ə. Qeyri-səlis dilçilik təcrübəsi.Bakı: Victory, 2013.595 s.

2. Əliyeva N. İngilisdilli qəzet mətnlərinin bəzi leksik-üslubi xüsusiyyətəri. Elmi xəbərlər, Bakı-2006/4, s.107-110.

3. Zeynalova A. İngilis media nitqinin praqmatik və koqnitiv aspektləri. Dil və ədəbiyyat, Bakı-2013/3, s.51-58.

4. Быкова О.Н. Языковое манипулирование // Теоретические и прикладные аспекты речевого общения. Вып.1(8).Красноярск-Ачинск, 1999, с.99-103

5. Вахтель Н.М. Вопрос о позиции газетного заголовка. Воронеж, 2002, 116 с.

6. Наер В.Л. Прагматический аспект английского газетного текста //Коммуникативные и прагматические особенности текстов разных жанров. МГПИИЯ им М.Тореза. Вып. 178. Москва, 1981, с.106-116.

7. Рудницкая И.А. Прагматическая направленност газетного заголовка // Вопросы лексикологии и стилистики французского язык: сб. науч.тр. МГПИИЯ им. М.Тореза. Вып. 177. М., 1981. с,157-179

8. Matthews P.H. Syntactic Relations. A Critical Survey. Cambridge University Press, USA, 2007, 217 p.

Э.И.Фараджова

Экспрессивное синтаксическое построение заголовка

Резюме

Статья посвящена экспрессивным и прагматическим возможностям синтаксиса заголовков газет англоязычных Интернет-изданий. Тенденция к усилению экспрессии газетных заголовков – яркая черта современных газет. Прагматическая сущность газетного заголовка заключается в воздействии на читателя любыми способами. В данном исследовании экспрессивное синтаксическое построение заголовка рассматривается как средство прагматического воздействия на аудиторию.

E.I.Farajova

Expressive Syntactic Constructions of Headlines

Summary

The article is devoted to the expressive and pragmatic possibilities of the syntax of newspaper headlines in English-language Internet publications. The trend towards increased expression of newspaper headlines is a prominent feature of modern newspapers. The pragmatic essence of a newspaper headline is to influence the reader by any means. In this study, the expressive syntactic construction of the headlines is considered as a means of pragmatic influence on the audience.

Rəyçi: filol.f.d., dos. G.F.İsrafilova

Redaksiyaya daxil olub: 24.11.2020

P.M.İSMAYILOVA
e-mail: ism.parvana@gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

AFRO-AMERİKA İNGİLİS DİLİNİN FORMALAŞMA TARİXİ

Açar sözlər: *Afrika-Amerika ingilis dili, fonoloji xüsusiyyətlər, standard ingilis dili, lüğət, qrammatika, dialekt*

Ключевые слова: *афроамериканский английский, фонологические особенности, стандартный английский, словарь, грамматика, диалект*

Key words: *Afro-american English, phonological character, standard English, dictionary, grammar, dialect*

Afrika-amerika ingilis dili şəhər, işçi təbəqəsi və əsasən iki dialektal orta sinif və yuxarı təbəqəni təmsil edən Afrika mənşəli amerikalılar tərəfindən geniş işlədilən dildir. Afro-amerika ingilis dili müxtəlif dialekt, etnolekt və sosioloji aspektləri özündə birləşdirir.

Afrika-amerikan ingilisləri XVI - XVII əsrlərdə İngiltərə və İrlandiya kökənli ingilislər və Qərbi Afrika mənşəli insanların dillərinin qarşılıqlı təması nəticəsində təşəkkül tapmış və hazırda inkişaf etməkdədir. Afrika-amerika ingilis dili standard amerika ingiliscəsindən (SAI) müəyyən tələffüz xüsusiyyətləri, xüsusən də qrammatik quruluşuna görə fərqlənir [1].

Afrika kökənli Amerika "ingilis"lərinin demək olar ki, bütün söz və ifadələri Standard Amerika ingiliscəsində başa düşülür və bəzi hallarda isə ortaq ünsiyyət vasitəsi kimi istifadə olunur. Bütün linqvistik formalarda olduğu kimi, afro- amerikan ingilis dilinin inkişafı və istifadəsinə coğrafi, təhsil və sosial-iqtisadi mənşəli, habelə nizamın formalaşması da daxil olmaqla müxtəlif amillər ciddi təsir göstərir. Bundan əlavə, afro-amerikan ingilis dilinin, xüsusən Afrika-Amerika ədəbiyyatında xeyli sayda ədəbi istifadəsi var.

Amerika dilçiliyində Qara ingilis kimi də adlandırılan Afrika-amerika ingilis dili, ilk növbədə, ABŞ-dakı ən çox qaradərili insanlar tərəfindən səslənən ingilis ləhcələrinin məcmusudur. Afrika-amerikan ingilisləri, standart formalara qarşı kənd, şəhər xüsusiyyətlərinə görə, tək şəhərlərə və ya bölgələrə xas xüsusiyyətlər və digər sosiolinqvistik meyarlar kimi dəyişkənliyə qarşı səylər göstərmişlər. Əsrlər boyu Amerika tarixində Afrika-amerika ədəbiyyatı və şifahi ənənələrin əhəmiyyətli bir yeri olmuşdur.

Afrika-amerika ingilis dilinin formalaşması XVII əsrin əvvəllərində Afrika qullarını ingilis müstəmləkəsi Şimali Amerikaya gətirilməsi ilə üst-üstə düşür. Bu bölgədə əkinçilik mədəniyyətinin inkişafı dönəmi həm də ingilislərin qeyri-standart ləhcələri geniş yayılması ilə xarakterikdir. XVII əsrin əvvəllərində inkişaf edən pambıqçılıq, əkinçilik sənayesi, və nəticədə XX əsrdən başlayan böyük miqrasiya Afrika amerikalıları arasında ingilislərin sabit ləhcələrinin yayılmasına böyük töhfə verdi. Ən geniş yayılmış müasir ləhcəsi isə Afrika-amerika ingilis dili oldu [1, s. 3].

Afrika-amerika ingilis dili özünəməxsus vurğu, qrammatika və lüğət xüsusiyyətləri ilə seçilən və orta təbəqədən olan Afrika mənşəli amerikalıların, xüsusən şəhər yerlərində yaşayan əhalinin böyük əksəriyyətinin doğma dilidir. Bu dildə qrammatikanın tipik xüsusiyyətlərinə rast gəlmək mümkündür, məsələn, "bacım" əvəzinə "bacımdır", varlıq formasının sadələşdirilməsi, məsələn, "anamın dostu" əvəzinə "anam dostu" və feil aspektləri və onların istifadə qaydaları olduqca standart ingilis dilindən fərqlidir.

Afro-amerikan ingilis dilində hecaların sonundakı səslərin sayını azaltmaq, diftonların sadələşdirilməsi, saitlər və ümumi Amerika vurğularından daha geniş istifadə, intonasiya və ya "melodiya" nümunələri bu dilin fonologiyasının əsas özəl cəhətidir.

Afrika-amerika standard ingilis dili bu gün Amerikada ən yüksək səviyyəli, rəsmi, ictimai parametrlər üçün istifadə olunan nüfuzlu dildir. Bu müxtəliflik özünü standart ingilis dilinin lüğəti və qrammatikasını nümayiş etdirir. Lakin bununla belə fonoloji baxımdan daha sabit intonasiya və ya ritmik xüsusiyyətlərə malik olan unikal ingilis dilinin bir çox elementlərini özündə saxlayır. Orta sinif Afrikalı amerikalıların əksəriyyəti, bir qayda olaraq, bu standart müxtəliflik və Afro-amerika ingilis dili arasında ikitərəfli dialoqa sahibdirlər. Standart ingilis dili məktəblərdə təhsil ocaqlarında tədris olunur. Bu standart ləhcədə qorunan fonoloji xüsusiyyətlərdən gündəlik ünsiyyətdə daha az istifadə olunur. Məsələn, belə linqvistik xüsusiyyətlərdən biri hecada samit qruplarında son samitin istifadə olunmamasıdır [2, s. 3].

Linqvistik mənbələrdə qara dərili Amerikalıların getdikcə ağ dərililərlə birgə Cənub ləhcəsinə üstünlük vermələri və getdikcə daha çox işlətdirləri göstərilir. Afrika-amerika ingilis dili dilçilər tərəfindən öyrənilən və yenidən qurulan ABŞ-da ilk Afrika amerikalıları və Afrikalı qullar tərəfindən işlədilən bir qrupuna aiddir.

Qədim afro-amerika tarixinin yenidən qurulması üçün əsasən dörd növ mənbədən istifadə edilmişdir: 1) yazılı reportajlar, 2) keçmiş qul səs yazıları, 3) təcrid olunmuş qara icmaların müasir diaspor dialektləri və 4) XVIII və XIX əsrdə Afrika amerikalılarının yazdığı məktublar. Əlavə edək ki, Afro-amerikan ingilis dili ilə əlaqəli digər qeyri-standart qrammatik konstruksiyalar dilin daha öncəki formasında da sənədləşdirilmişdir.

Nəzəri ədəbiyyatda Afrikalı amerikalıların fərqli danışığı Amerika ədəbiyyatda təmsil olunana qədər uzun bir mərhələ keçdiyi qeyd edilir. Bəzi tədqiqatçılar amerikalı müəlliflərin qara dərili personajların nitqini necə təsvir olunduğunu, qara dərililərin şəxsiyyətin necə təqdim edildiyini araşdırırlar.

Erkən kütləvi informasiya vasitələrində qara dərili xalqın nitq təsvirlərinə əsasən onların dilinin qədim tarixi olduğunu iddia edirdilər. Erkən əsərlərdən də qara dərili xalqın nitqinin müasir afro-amerikan ingilis dili ilə oxşarlıqlarını müəyyən etmək üçün istifadə olunmuşdur. Qara dərili xalqın nitqinin ən erkən təsvirləri XVIII əsrdə yazılmış əsərlər əsasında müəyyən olunmuşdur. Buna dair ən parlaq misal Afro-amerikalı (William Wells Brown) tərəfindən yazılmış "Clotel" (1853) romandır. Afro-amerikan dilində yazılmış ilk roman Cordanın 1971-ci ildə yazdığı novella olmuşdur. Lakin buna baxmayaraq Alice Walker in yazdığı "The Color Purple" romanı əsl Afro-amerikan ingilis dilində yazılmış ən məşhur əsərdir. Lorraine Hansberry-in 1959-cu ildə yazdığı "A raisin in the sun" pyesi də afro-amerikan ingilis dilininə yaxın söz və ifadələrlə zəngindir. Langston Hughesin poeziyası da bu dildə geniş istifadə edilir [2; 3].

Afrika-amerika ingilis dili və təhsili qeyri-standart Afrika-amerika ingilis dili, təhsilin aşağı səviyyəsi ilə stereotipik şəkildə əlaqələndirilmişdir. Lakin 1960-cı illərdən bəri dilçilər bu növlərin hər birinin və yəni Afrika-amerika ingilis dilinin qanuni, qayda-qanunla istifadə olunan və tam inkişaf etmiş bir ləhcəsi olduğunu nümayiş etdirdilər. İngilis dilində yazılı standart ingilis dilini öyrənən afro-amerikalı tələbələrin bilik səviyyəsini artırmaq üçün istifadə olunan üsullar bəzən ikinci dil öyrətmək üsuluna bənzəyirdi. Bu cür kontrastlı təhlil Afrika-amerika ingilis dilində mövzuların tədrisi üçün istifadə olunurdu. Standart Amerika ingilis dili ilə ziddiyyətli məqamları müəyyən etmək üçün öncə danışığın həm fonoloji, həm də sintaktik xüsusiyyətləri təhlilə cəlb olunmalıdır. Standart ingilis dilinin tədris olunması, əslində, afro-amerikan ingilis dilini kölgədə qoymur, əksinə bu dilin tədrisi bir çox afro-amerikalı üçün sosial şəxsiyyət, yəni dil kimliyi rolunu oynadığını göstərir.

Standart ingilis dilinin öyrətməkdə əsas məqsəd afro-amerikan ingilis dilini istifadəsinə son vermək deyil, tələbələrin dildən istifadə zamanı uyğun olmayan çalarları ayırd etmələrinə kömək etməkdir. Son zamanlarda John McWhorter kimi dilçilər ictimaiyyəti "Qara ingilis"in alt dialekt və ya "Standard ingilis dili"nin qeyri-təkmil bir forması olmadığına inandırmağa çalışırlar. Onlar iddia edir ki, bütün dilləri kimi, Qara ingilis dili Standard ingilis dilindən fərqlənməyən ayrı bir ləhcədir. Qara ingilisləri bəşər kimi tanımaqda bir cəmiyyət olaraq uzun bir yol qət etməliyik [2].

Dil dünyanı dərk etmək üçün istifadə olunan ən mühüm bir vasitədir. Əksər dillərdə olduğu kimi, afro-amerikan dili də tarix boyu dəyişiklərə məruz qalaraq uzun bir yol keçmişdir. Tarixdə, əslində, bir sıra alimlər bu dilin sadəcə dialekt, digər qrup alimlər isə yalnız standart ingilis dilinin bir qolu olduğunu iddia edirdilər. Lakin afro-amerikalıların özləri bu dilin müstəqil bir dil olması uğrunda daima mübarizə aparmışlar. Afrika kökənli amerikalılar afroamerikan ingilis dilinin leksik, qrammatik ve lüğət fondu üçün standart ingilis dilindən yetərincə bəhrələnmişlər.

Afro-amerikan ingilis dilində istifadə olunan əksər söz və ifadələr, demək olar ki, standart ingilis dilinin söz və ifadələrinin dəyişmiş və mənimsənilmiş formalarıdır. Tarixin ən çətin sınaqlardan çıxan afrika kökənli amerikalılar öz dillərini müstəqil dil kimi qoruyub saxlamağa nail ola bilmişlər. Bu gün əksər mənbələrdə afro-amerika ingilis dili standart ingilis dilinin başqa bir variantı kimi qəbul edilir. Bunun mətniqi nəticəsi kimi afro-amerikan ingilis dilinin özünəməxsus linqvistik özəllikləri və eləcədə qrammatikası hazırda ayrı-ayrı dilçilər tərəfindən tədqiq edilməkdədir.

Ədəbiyyat

1. African and African-American Traditions in Language Arts. (1986) Front Cover. Joyce Braden Harris. Portland Public Schools - African Americans - 206 p.

2. The Oxford Handbook of African American Language. (2015) Edited by Jennifer Bloomquist, Lisa J. Green, and Sonja L. Lanehart.

3. Green, Lisa J. (2002). African American English: A linguistic introduction. Cambridge: Cambridge University Press.

П.М.Исмайлова

История формирования afo-america английского языка

Резюме

Афро-американский вариант английского языка является спорным, мало изученным и нечасто используемым языком. Афроамериканская версия английского языка со своей грамматикой, словами и особенностями ударения используется афроамериканцами среднего класса. Помимо использования грамматики своего нестандартного языка который подвергается частым изменениям, афроамериканцы среднего класса так же используют и грамматику и словарь стандартного английского языка. Большинство афроамериканцев позаимствовав большую часть грамматику и фонологию английского языка пытались создать единый афро-американский язык. В основном языковеды говорят, что отличия, которые приводят к полемикам между афроамериканским и западноафриканским английскими языками незначительны.

P.M.Ismayilova

History of formation of the afo-america english language

Summary

The African American version of the English language is a controversial and less explored and less commonly used language. It is used by African-American middle-class Africans with specific grammar, vocabulary and accent. Middle-class Africans use the grammar and vocabulary of the standard English language in addition to using non-standard grammatical accents that are often subjected to dexterity. Most African-Americans tend to convert a single language under the common language of African-American menimsey governing a large part of English grammar and phonology. Some begging scholars point out that African-American English has benefited from a number of sources of standard English. They even use African-American English as a variety of non-standard dialects of early English residents.

Rəyçi: filol.f.d., dos. J.Ə.Qəribova
Redaksiyaya daxil olub: 01.12.2020

P.F.KAZİMİ
tarix üzrə fəlsəfə doktoru, dosent
e-mail: pkazimi@mail.ru

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

TARİXİ MƏNBƏLƏRDƏ TƏRCÜMƏ VƏ MƏLUMATIN MANİPULYASİYASI PROBLEMLƏRİ

Açar sözlər: *tərcümənin manipulyasiyası, məlumatın manipulyasiyası, informasiyanın saxtalaşdırılması, tərcümə qüsurları.*

Ключевые слова: *манипуляции с переводом, манипулирование информацией, фальсификация информации, дефекты перевода.*

Key words: *manipulation of translation, manipulation of information, falsification of information, translation defects.*

Giriş.

Yazının meydana gəlməsi, insanın bilik və düşüncələrini yazıya köçürməsi ilə eyni zamanda mətnin tərcüməsi problemi qarşıya çıxmış və problemi müxtəlif dövrlərdə müxtəlif formalarda həll etməyə çalışmışlar. Qədim şumer mixi yazılarının akkad dilinə tərcümələri, Bisitun yazıları, tövratın, incilin tərcümələri və bir çox digər tarixi nümunələr bu fikri sübut edir. Müasir türk tədqiqatçıları şumer dilində yazılmış "Qilqameş dastanı"nın akkad dilində yazılmış versiyası ilə müqayisə etmiş və xeyli fərqlərin olduğunu üzə çıxarmışdır. Tərcümələr zamanı ciddi fərqlərin olduğu islam mədəniyyəti dövründə də müşahidə olunur. Xəttat və katiblərin kitabın üzünü köçürərkən bir sıra hallarda xeyli "özfəaliyyət" etdikləri haqqında tarixi mənbələrdə məlumat verilir. Eləcə də mürəkkəb mətnlərin tərcüməsi zamanı peşəkarlıq, dillərə mükəmməl bələd olmaqla yanaşı yazıya alınmış mətnin mahiyyətindən də yaxından xəbərdar olması vacib şərt idi.

Problemin mahiyyəti.

Uzun zaman kəsiyində insanlar vahid və mükəmməl əlifbanın yaradılması ilə bu problemin həll olunacağını düşünürdülər. Heç şübhəsiz, vahid və mükəmməl əlifba bu problemi xeyli dərəcədə azaldacaq idi, lakin onun axtarışı da az çəkmədi. İnsan cəmiyyətinin şəkilli yazıdan orfoqrafik yazıya keçməsi təxminən iki min il çəkdi, bundan sonra formalaşmış orfoqrafik əlifbanın ümumbəşəri əlifbaya çevrilməsi də, o cümlədən iki min il zaman aldı. Yeri gəlmişkən, qeyd edək ki, XX əsrin 20-ci illərində Azərbaycan ziyalılarının başladığı "latinizasiya" prosesi və 1926-cı ildə Bakıda keçirilən birinci türkoloji qurultayın qərarı ilə SSRİ xalqlarının 50-nin latın əlifbasına keçməsi həyata keçirildi. A.V.Lunaçarskinin yazdığına görə, (3. s.32) V.İ.Lenin də bu prosesi dəstəkləyir, rus kiril əlifbasının latın əlifbasına keçirilməsini istəyirdi. Bu məqsədlə dövlət komisiyası yaradılır və xeyli işlər də görülür. 1931-ci ildə Stalinin tapşırığı ilə bu iş dayandırılır. 1939-cu ildə kiril əlifbası deklarativ olaraq hamı üçün məcburi elan edilir.

Araşdırmalar göstərir ki, tarixi mənbələrin tərcüməsi zamanı qarşıya çıxan yanlışlar əlifba faktoru ilə yanaşı bir neçə digər səbəbdən də ola bilər.

1. Dildən dilə tərcümə zamanı dilin struktur fərqi olduğu halda. (məsələn: flektiv dillərdən aqlunativ dillərə və ya əksinə.)
2. Dildən-dilə tərcümə zamanı isim və terminlərin tərcümə olunan dildə alternativinin olduğu halda. (məsələn: Bisitun yazılarında – Urartu, Harmina, Arminiyyə)
3. Tərcüməçinin və ya sifarişçinin konkret maraqlarına xidmət etdiyi halda. (məsələn: Sifarişlə yazılmış tarix kitablarında)

4. Bir dilin semantik normalarına uyğunlaşdırıldığı halda. (məsələn: Sahhak, sahak, saxak, və ya saak kimi yazılan isimlər)

Tarixi nümunələr.

S.Kramerin "Tarix şumerdən başlanır" kitabında şumerlərin ilk təhsil müəssisələri və yetişdirilən tərcüməçi mütəxəssislərə çox həssaslıqla yanaşdıqları məlum olur. Qədim yəhudilərdə müqəddəs kitabların yazılması, üzünün köçürülməsi, tərcüməsi xüsusi adamlara tapşırılırdı ki, onlar Sofer (Coфép) və ya soyfer (cóйфep) adlandırılır, tərcümə zamanı katib və ya kitabçı mənasını verirdi. Dini ədəbiyyatın tərcüməsi problemi bütün dövrlərdə böyük mübahisələrin obyekti olmuşdur. Miladdan öncə 285-ci ildə Filadelfiyalı Ptalameyin sifarişi ilə Tanaxa (yunan dilində əhdi-ətiq) qədim yəhudi dilindən (aramey dilindən) yunan dilinə tərcümə olunmağa başlanır və bu iş 15 il zaman alır. Dövrünün 70 alimi bu işlə məşğul olur və m.ö. 270-ci ildə mətn üzərində tərcümə işi bitir. Bu kitaba septuaqinti *(Interpretatio Septuaginta Seniorum*) «yetmiş ağsaqqalın tərcüməsi» adı verilir. Afro-asiya dilləri ailəsinə daxil olan aramey dilindən Hind-avropa dillər ailəsinə daxil olan qədim yunan dilinə tərcümə o dövr üçün kifayət qədər mürəkkəb bir proses idi.

Eramızın əvvəllərindən başlayaraq tərcümə fəaliyyəti genişlənir və xüsusi status əldə edir. Bu işlə əsasən müxtəlif din xadimləri sifariş əsasında məşğul olur. İran cografiyasında maniçilərin, mitraçıların müxtəlif dini kitabların tərcüməsi ilə məşğul olduğu, erkən xristianların kitab və müqəddəs mətnlərin tərcüməsi ilə məşğul olduqları məlumdur. Müxtəlif dini mərkəzlərdə, xüsusilə də Suriyada təhsil almış şəxslər müxtəlif aristokratların sifarişi ilə kitablar, mədhiyyələr və ya tarix yazmaqla məşğul olurlar.

Tanınmış tədqiqatçı S.Bayramzadənin "haradər Ermənistan, kimlərdir ermənilər və ya hayların mühacirət tarixi barədə" elmi məqaləsində son illərin erməni olmayan tədqiqatçılarının bu suallara cavab verə biləcək araşdırmaları toplanıb və təhlil olunub. Tədqiqatçıların tarixi mənbələrdə mətnin düzgün oxunması, tərcümələr zamanı dillərarası fikirin düzgün ötürülməsi hadisələri təhlil olunur və hər şeydən vacib olanı isə tədqiqatçının problemə elmi yanaşmasıdır. Təssüf ki, erməni tarixi əsərlərində belə elmi yanaşma müşahidə olunmur.

Qədim iran coğrafiyasının yazılı abidələrində də xeyli maraqlı informasiya əldə olunur. Pars dilinin yazılı ifadəsi I mərhələdə yaranışı Şumerlərlə tanınan mixi əlifbada əks olunur. II mərhələdə Sasanilərin Pəhləvi əlifbası 22 hərifli aramey əlifbası əsasında qurulub, III mərhələdə ərəb əlifbası əsasında yaradılıb. Bu əlifbalarda və biri-birindən ciddi şəkildə fərqlənən dillərdə qorunub saxlanılmış yazılı mənbələrin tərcümələri zamanı xeyli manipulyasıyalara imkan yaradır.

VII əsrin ərəb alimi İbn Mukafa sasani dövrü mətnləri haqqında yazır: "Onların (farsların) xüsusi yazı sistemləri var, adına Zevariş deyilir. Əgər birisi quşt (ət) yazmaq istəyirsə, bisra yazır. Ancaq oxuyanda quşt oxuyur. Əgər birisi nan (çörək) yazmaq istəyirsə, naxma yazır ancaq nan oxuyur. Farsların min dənə belə sözləri var. "Erkən orta əsrlərdə bir sıra hallarda dini klanlar bəzi dillərdən kriptoqrafik məqsədlərlə istifadə etmişdilər. Belə mətnlərin tərcüməsi xüsusi hazırlıq tələb edirdi.

Məlumdur ki, miladdan öncə V yüzilliyə aid olan Bisitun yazıları qədim dövrün bir tərcümə nümunəsidir. Üç dildə yazıya köçürülmüş bir tarixçə eyni əlifbada olsa da, müxtəlif dil qruplarına aiddir. Bisitun yazılarında qeyd olunur: "Mən Dara Əhaməni (Daryuş və ya Daryavuş), atam Viştasp, atası Arşam, onun atası Ariaramna, onun atası Çişpiş, onun atası Axamen." Bisitun yazılarından məlum olur ki, 3 dildə yazılmış bu mətn bir sərkərdənin hekayəsidir (sərneveştidir) və qətiyyən milli xarakter daşımır. İngilis alimləri onun I hissəsini "qədim pars" dilində, II hissəsinin elam dilində, III hissəsinin akkad (babil) dilində olduğunu iddia edirlər. XIX əsrin ortalarında İngiltərədə çap olunmuş bu yazıların tərcüməsi indiyə qədər mütəxəssislər tərəfindən ümumi fikrə gələrək elmi təhlil olunmamışdı. Daranın bu dillərin hansına mənsub olduğu haqqında belə, ümumi qəbul olunmuş mövqe yoxdur. Bu yazılara parslar qədər, elamlılar, giləklər, kürdlər, lorlar, bəxtiyarilər, bəluclar və digərləri də iddia edə bilərlər. Əgər babil-

Akkad dilləri sami dillər qrupuna daxildirsə, pars dili hind-avropa dillər ailəsinin hind-iran dillər qrupuna daxildir. Məlumdur ki, Genri Rolinqsonun tərcüməsində "Adam Daryavuş Şaatiya...Parsay" cümləsindəki "parsay" sözü qədim parsdillilərin hər birini təmsil edir.

Dünya tarixində Həxamənişilər dövrü də Sasanilər dövründə olduğu qədər etnonim və toponimlərin tərcüməsində fərqlər, hökmdarların adlarında müxtəlif transkripsiyalar tətbiq olunur. Məsələn, Həxamənişi hökmdarlarından Kir-Kruş, onun oğlu Kambiz- Kambuçiyə, Dara–Daryuş-Daryavuş kimi tərcümə edilir. Ekbatana-Həmədan-Amadan, Babilon-Babilistan-Vavilon olaraq tərcümə edilir, Sasanilərdən Xavət-Qobad olaraq yazılır. Bu siyahını artırmaq və böyük bir lüğət hazırlamaq ayrıca bir tədqiqatın obyektidir. Yalnız xüsusi linqvistik tədqiqat müəyyən edə bilər ki, hansı hallarda transformasiya qramatik normalarla izah edilir, hansı hallarda məqsədli manipulyasiya olunur.

Dünya tarixşünaslığına xam material verən bisitun yazılarında 3 dildə - Babil(akkad) dilində Urartu, Elam dilində Harminuya, "qədim pars dilində" Armina olaraq yazılmış coğrafi ad (yalnız Urartu toponimə əsaslanan dövləti ifadə edir) tarixi tədqiqatlarda Armeniya şəkilində bir "brendə" çevrildi.

Sasanilərlə Romalılar arasında tarixi döyüşlərin getdiyi coğrafiya parfiyalılar zamanı olduğu kimi Şərqi Anadolu (Anatoliya) torpaqları idi. Parfiya tarixi haqqında məlumatların az, bəzən isə çox az olması o dövrü əfsanələrlə zəngin edir. Buna baxmayaraq İnformasiya resursları içərisində parfiyalılar haqqında xeyli materiallar mövcuddur. Diqqəti cəlb edən odur ki, Azərbaycan informasiya resursları içərisində, eləcədə dünya informasiya məkanında çox qarışıq məlumat kütləsi aydınlıq əmələ gətirmək əvəzinə informasiya "küyü" yaradır. Ciddi elmi tədqiqat materiallarını rəqəmsallaşdırılıb bazalarda yerləşdirmək əvəzinə mötəbərliyi sual yaradan mənbələrdən tərcümələr yerləşdirilir. Rus mənbələrinin verdiyi məlumata əsaslanaraq qeyd edək ki, parfiyalılar şərqdən gələrək məskunlaşdığı ərazinin adına görə belə-Parfiyalı adlanırdılar. Həqiqətdə isə onlar özlərini Ərşakidlər (Ərşakilər) adlandırırdı ki, rus dilində "saki", hind və çin dillərində "şaki" adlanan sak tayfalarından olduqlarını və ərşakidlər olaraq "sak oğulları" kimi özlərini təqdim edirdilər. Buddanın şaki tayfasına mənsub olması ilə əlaqədar Hind, Nepal və Çin rəvayətlərində də xeyli xatırlatmalar mövcuddur və bu istiqamətdə Qazax tədqiqatçılarının maraqlı yazıları çap olunub. Odur ki, sak tayfalarına mənsub olan Ərşakidləri iran dilli xalqlar, ariyalılar və ya pəhləvilər kimi təqdim etmək qeyri ciddi yanaşmadır. Belə olarsa Qacarları və Qəznəviləri də fars dilində yazdıqlarına görə fars və ya ariyalı adlandırmalıdırlar. Məlumdur ki, parfiyalılar yazı sistemi yaratmamış və müxtəlif zəminlərdə müxtəlif yazılardan istifadə etmişlər. Ümumiyyətlə, türkdilli xalqların müqəddəs kəlama və yazıya (yazı müqəddəs kəlamı ifadə edən simvollar sistemi kimi qavranılırdı) münasibəti xüsusi bir tədqiqatın obyektidir. (3. s.165)

Qeyd.

Yeri gəlmişkən, dünyanın nüfuzlu tədqiqatçılarının yazılarında tez-tez istifadə etdikləri "irandilli" xalqlar anlayışının da yanlış olduğu və belə bir dil qrupunun olmadığını qeyd etməliyik. Şumer mixi yazılarından, bisitun yazılarına qədər olan mərhələdə mətnlərin təhlili göstərir ki, bu coğrafiyada hind-avropa dilləri ilə yanaşı, afro-asiya dillərinə məxsus (samilər), eləcədə aqlyunativ struktura malik dillər (Şumerləv, türk dilli xalqlar) mövcud olmuşdur və bu dilləri birləşdirərək "irandilləri" kateqoriyasını yaratmaq heç bir məna daşımır.

Tədqiqatın mənbəşünaslığı.

Tanınmış rus alimi A.Aninski eramızın əvvəllərinə aid tarixi mənbələrdən erməni tarixlərini araşdıraraq qeyd edir ki, bu mənbələrdə tarixi məlumatlar bir neçə on il ya əvvələ, yada sonraya dəyişdirilərək qeyd olunur. (s.3) Məsələn, Martena görə Xosrovun hakimiyyəti dövrü 198-232, 232-259-cu illər persiyanın işğalı dövrü, Tridatın hakimiyyəti dövrü 259-314, Çamçianın xronikasına görə ermənilərin xristianlığı qəbul etməsi tarixi, Xosrovun hakimiyyəti 214-259, Tridat 286-341, III Ərşak hakimiyyətini 363-381-ci illər kimi göstərir. Eləcədə Qriqorinin, Aristakesin, Vartanesin, İusikin episkopluğu tarixləri müxtəlif mənbələrdə ciddi

fərqlərlə göstərilmişdir. A.Aninskinin fikrini davam etdirərək erməni mənbələrdə üç əlaməti sistemləşdirməliyik; 1. Tarixi hadisələri alınmış sifarişə görə göstərmək, 2. tərcümələr zamanı toponim və etnonimləri erməni dilinə uygunlaşdırmaq, 3. mövcud olmayan tarixi mənbələrə əsaslanaraq hadisələri şərh etmək.

Bu əlamətlər sifariş əsasında yazılmış bir çox əsərə də xarakterikdir. "Dərsini yaxşı oxumayan məktəbli" kimi bir mənbədə tarixi hadisəni dəyişdirdikdə digərlərində eyni cür saxlamaq göstərir ki, manipulyasiya sistemli xarakter daşımır. Məlumdur ki, Erməni kilsəsi XIV əsirdən başlayaraq tarixi saxtalaşdırmaq işini sistemli olaraq kilsə daxilində ilkin mənbələrin üzünü köçürmək və orijinalını məhv etmək yolu ilə həyata keçirirdilər. Bu barədə xeyli tarixi materiallar mövcuddur və onları toplayıb sistemləşdirmək ayrıca bir tədqiqatın obyektidir.

A.Aninski qədim xronikaların müəlliflərini təhlil edərək maraqlı bir mənzərə üzə çıxarır. Məsələn, Moisey Xorenskinin Suriyalı Mar Abbas haqqında yazdıqları, Mar Abbasın Niniviyyə kitabxanasından qədim nüsxələr tapdığı və mifik erməni şahlarının xronikasını müəyyən etməsini miladdan əvvəl II yüzillikdə yazıya köçürüldüyünü və bu tarixin hətda erməni tarixçiləri tərəfindən mifoloji olduğunun etiraf edildiyini qeyd edir. Eləcə də A.Aninski bu tarixin müəllifinin tarix yazdığı zaman bibliya hədislərindən xəbərdar olduğu və bu tarixin bibliya hədislərinə uygunlaşdırıldığı elan edir. Eləcə də sifariş olunan erməni tarixlərində etnonimlərin tərcüməsi başlıca problemdir. Erməni tarixçiləri bu tarix kitablarını (əsasən də rus dilinə tərcümələrdə) Ermənistan tarixi kimi göstərir, az sayda olan qeyri erməni mənbəşünaslar isə "ermənilərin tarixi" (istoriya armyan) kimi tərcümə edir. Məncə, başlıca problem də məhz buradadır. Miladdan beş yüz il sonra klan maraqları ilə bir yerə toplanmış bir neçə ailə min il əvvəl mövcud olmuş möhtəşən tarixi mədəniyyəti mənimsəmək məqsədi ilə rəvayətlər yaradır, mövcud olmayan mənbələrə istinad edərək tarixi mənzərə yaratmaq, şəcərələri inandırıcı olması üçün əsaslandırmaq qərarına gəlirlər. Əfsanəvi Nuh peyğəmbərin oglanları, Hayk haqqında rəvayət və ermənilərin şəcərəsi və s. gürcü əsilli Baqratuni nəslindən olan və erməni qohumluğu ilə onlarla klan münasibətlərinə daxil olmuş Sahak Baqratuninin sifarişi ilə yazılır. Rəvayət belə təqdim olunur. Miladdan öncə V yüzillikdə ermənilərin şəcərəsi haqqında bir kitab var imiş. Bu kitab Niniviyyə kitabxanasında imiş. Milladdan öncə II yüzillikdə Suriyalı Mar Abbas o kitabı tapır (o zaman Niniviyya kitabxanasının artıq xarabalıqları belə qalmamışdı) və onun əsasında yeni bir tarix kitabı yazır. Bu Mar Abbasın kim olduğu, hansı digər kitabları yazdığı haqqında məlumat yoxdur, eləcə də yazmış olduğu tarix kitabını da Movses Xorenatsidən başqa görən olmayıb. A.Aninsknin diqqətini cəlb edən odur ki, Mar Abbas milladdan ikiyüz il öncə İsa Məsih rəvayətlərini haradan bilirdi və öz tarixini məsih tarixinə necə uyğunlaşdıra bilərdi. Təəccüb doğuran həm də odur ki, çox əhəmiyyətsiz sənədləri və yazıları yüzillərlə qoruyan erməni kilsəsi bu mühüm kitabı qoruyub saxlaya bilməyib və ya "türklər bütün kitabları saxladığı halda məhz bu kitabı yandırıblar" deyə yeni tarix yazmayıblar.

Erməni mənbələrində erməni ailələrindən biri kimi təqdim olunan Sahak Bagratuni Movses Xorenatsiyə "Erməni tarixi"ni yazmağı sifariş edir. "Tarix" kitabının mətnində müəllif dəfələrlə Sahak Baqratuniyə müxtəlif mədhlər, şərhlər və ehtiramlı ifadələrlə müraciət edir. Bir sıra dünya tarixçilərinin bu kitaba ilkin mənbə olaraq istinad verdikləri üçün kitabın yaranma səbəblərini, yəni onun sifarişlə yazıldığı, eləcə də sifarişçinin tələblərinə cavab verməli olduğunu elan etməklə yanaşı bir sıra termin və anlayışların tərcüməsi zamanı anlaşılmamazlıqların da mövcud olduğunu qeyd etməliyik. Sahak (mənbə fars dilində sahak olaraq deyil, erməni dilində saak olaraq göstərir) Baqratuni sasanilər ilə romalılar arasında sərhədləri qorumalı olan bir gürcü nəslinin nümayəndəsidir. O da sərhəd ərazilərinin mühafizəsi tapşırılmış bir məmur idi və Sasani dövləti onları "marspan" deyil, mərzban **(fars dilindən tərcümədə sərhəd keşikçisi)** adlandırırdı. Hesab etmək olar ki, Suriyada təhsil almış və xristian mənbələrini oxuya bilən müəllif fars dilini bilmirdi və "marspan" sözünə öz kitabında çox böyük siyasi məna verərək istifadə edir.

Ərşakidlər haqqında

III yüzilliyin ortalarından başlayaraq Parfiyanın şimal əyalətlərində məskunlaşmağa başlayan erkən xristianlar (3.s.41) xeyli tərəfdar toplayır. 252-326-cı illərdə Qriqori (bu onun kilsə adıdır) Apak (Anak) oğlu Arşakidlər sülaləsindən idi və o, Kapatokiyada xaç suyuna salınaraq xristian tərbiyəsi almışdı. Arşakidlər nəslindən olan digər bir şahzadə Tridad Qriqori ilə birlikdə ilk xristian kilsəsi təsis etdilər. Qriqorinin kiçik oğlu Ərəstun (erməni mənbələrində onu Aрıѕтaкes olaraq tərcümə edirlər) 325-333-cü illərdə kilsənin başında durur və ondan sonra böyük qardaşı, Qriqorinin I oğlu Erfan (Ərfan - ermənilər onu Bртанес olaraq tercümə edirlər) 333-341-ci illərdə atasının tövsiyəsi ilə kilsənin rəhbərliyinə keçir. Arşakidlərdən olan Apak oğullarından yalnız Narsız (erməni mənbələrində Nerses olaraq tərcümə olunur) Kapadokiyada olarkən erməni aristokratlarından olan Mamikonyanın qızı Sanduxt ilə evlənir və ilk erməni qohumluğu yaranır. 387-ci ildə Apak oğulları nəslindən olan Partev oğlu Sahak (erməni mənbələrində bunu saak olaraq tərcümə edirlər) kilsənin rəhbərliyinə gəlir, kilsənin Qriqori Apak nəslindən olan 10-cu rəhbəri olur və 436-cı ilə qədər kilsəyə rəhbərlik edir. (9.s.31) Göründüyü kimi Qriqori ailəsi və varislərinin bütünlüklə adlarının dəyişdirilməsi tərcümə xətası və erməni dilinin xüsusiyyətlərindən irəli gəlmir. Bu açıq-açığına adların və tarixin mənimsənilməsidir.

Məlumdur ki, hər bir millətin etnogenezini müəyyən etmək məqsədi ilə qurucu tayfaların, tayfa başçılarının şəcərəsi, mifik qəhrəmanların tarixi analogiyası, dil quruluşu və qohum dillərlə tarixi kommunikasiyasını müəyyənləşdirmək vacibdir. Bu prosesdə linqvistik təhlil çox əhəmiyyətlidir.

Miladdan öncə IV-V yüzillikdə sifarişlə yazılmış bir neçə tarixi kitabları linqvistik təhlil etdikdə maraqlı mənzərə qarşıya çıxır. Çen ölkəsindən (Çindən) ön Asiyaya köç etmiş Mamikoniyan ailəsi Favstos Buzanda "tarix" kitabı yazmağını sifariş edir. Deməli, bu tarix kitab da sifarişçinin tələblərinə cavab olaraq yazılır. Kitabın ilkin mənbə olaraq qiymətləndirilməsində bu çox əhəmiyyətli cəhətdir. Orta əsr erməni mənbələrində Mamikoniyan ailəsinin mənşəyinə dair iki rəvayət mövcuddur. Rəvayətlərin təhlili göstərir ki, toponimlər və etnonimlər arasında mürəkkəb manipulyasiyalar edilərək verilmiş sifarişin yerinə yetirilməsinə ciddi cəhd göstərilir.

Vikipediyanın rus dilli resurslarında oxuyuruq ki, "Pəhləvi (Pers. پهلوی دودمان) adını Rza Pəhləvi tərəfindən Karin-Pəhləvi xanədanı evini xatırlatmaq üçün götürdüyü "Azərbaycan" mənşəli İran şah xanədanıdır, lakin Rızanın bu xanədanla heç bir əlaqəsi yox idi. Onun əcdadları, Şimali Azərbaycan ərazisindən Rusiya İmperiyası tərəfindən birinci dəfə fəth edildikdən sonra Mazandarana qaçdı.(12.)Vikipediyanın bu absurd arayışında diqqəti cəlb edən odur ki, heç bir mənbəyə istinad verilmir, ilkin mənbə göstərilmir, ədəbiyyat da tövsiyə olunmur. Bu mətnin rus dilində olan quruluşu göstərir ki, məlumat tərcümə edilib. Lakin tərcümə mənbəyi göstərilmir. Hətta vikipediya üçün bu vəziyyət təccüblüdür. Göründüyü kimi artıq problem tərcümə problemindən çıxır və informasiyanın açıq-açığa manipulyasiyası baş verir. Bu məlumatlar Azərbaycan üçün kənarda bir tarix yaratmaq, pəhləvilər haqqında yeni ideya ortaya atmaq, Mazəndəran və mazilər (mazəndəranda yaşayan xalqın adı) haqqında yeni baxışlar irəli sürmək və bununla da tarixi anlaşılmazlığı bir qədər də qarışdırmaq məqsədi daşıyır.

Göründüyü kimi qlobal informasiya məkanında termin və anlayışlar, xüsusilə azərbaycan mədəniyyəti, tarixi, sənətkarlığı və tarixi şəxsiyyətləri ilə əlaqədar materialların vaxtaşırı manitorinqi həyata keçirilməli, terminologı və anlayış transformasiyasına reaksiya olunmalı, informasiyanın manipulyasiyası və tarixi saxtakarlıqlara mötəbər mənbələrlə cavab verilməlidir. Dünya informasiya məkanının genişlənməsi, informasiya resurslarının böyüməsi, informasiya texnologiyasından istifadə edərək analitik məlumatların əldə olunması imkanlarının genişlənməsi bir tərəfdən münasib faydalı imkanlar yaradır, digər tərəfdən son dərəcə qarışıq informativ mühit də yarada bilir.

Ədəbiyyat

1. Kazimi P.F. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti. Bakı, Mütərcim, 2014. 320 s.
2. Kazimi P.F. İnformasiya mühəndisliyi. Bakı, Mütərcim, 2018, 260 s.
3. Kazimi P. Türk xalqlarının kitab və kitabxana mədəniyyəti,Bakı, Mütərcim, 2014, 320 s.
4. Аль-Фараби, «Существо вопросов», böl.26, 28, http://enoth.narod.ru/Philosophy/ph02_farabi.txt
5. Дэвид Рол, «Утраченный завет». http://top-lib.ru/583242-devid-rol-utrachennyy-zavet.html
6. Абу Хамид Аль-Газали, «Воскрешение наук о вере», М, 1980; səh.276, 284
7. Анински А. Древние армянские историки. Одесса, 1899. 135 ст.
8. Джон Бертон, «Мусульманское предание: введение в хадисоведение», М-СПб., 2006, böl.83
9. Хоронец М. История армян.
10. Е. А. Уоллис Бадж, «Египетская книга мёртвых», М-СПб., Ексмо, 2005, səh.95
11. Ибн Араби. “Геммы мудрости”, böl.22, sayt: http://www.iph.ras.ru/~orient/win/publictn/bezels/ogl.htm
12. https://ru.wikipedia.org/wiki/%D0%9F%D0%B5%D1%85%D0%BB%D0%B5%D0%B2%D0%B8

П.Ф.Казими

Перевод в исторических источниках и проблемы манипуляции информацией

Резюме

С появлением письма и передачи человеческих знаний и идей письму, возникла проблема перевода текста, и они пытались решить эту проблему в разных формах в разное время. Аккадские переводы древних шумерских клинописных текстов, бехестунские надписи, переводы Торы, Библии и многие другие исторические примеры подтверждают эту точку зрения. Современные турецкие исследователи сравнили шумерскую версию эпоса о Гильгамеше с аккадской версией и обнаружили существенные различия. Существенные различия в переводах наблюдаются и в эпоху исламской культуры. Исторические источники утверждают, что каллиграфы и писцы во многих случаях были весьма «дилетантски» при копировании книги. Также важно было профессионально переводить сложные тексты, свободно владеть языками и знать суть письменного текста.

P.F.Kazimi

Translation in historical sources and problems of information manipulation

Summary

With the advent of writing and the transfer of human knowledge and ideas to writing, the problem of text translation arose, and they tried to solve this problem in different forms at different times. Akkadian translations of ancient Sumerian cuneiform texts, Behestun inscriptions, translations of the Torah, the Bible, and many other historical examples support this point of view. Modern Turkish researchers have compared the Sumerian version of the Gilgamesh epic with the Akkadian version and found significant differences. Significant differences in translations are also observed in the era of Islamic culture. Historical sources state that calligraphers and scribes in many cases were quite “amateurish” when copying books. It was also important to professionally translate complex texts, be fluent in languages and know the essence of the written text.

Rəyçi: tarix f.d. A.Abdullayeva

Redaksiyaya daxil olub: 17.11.2020

R.R.MƏMMƏDSOY

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

TƏRCÜMƏ, YAXUD MƏTNİN MİLLİLƏŞDİRİLMƏSİ

Açar sözlər: *tərcümə, orijinal, mətnyaratma, linqivistika elmi, milliləşdirilmə, bədii fiqurlar, aforizmilər*
Ключевые слова: *перевод, оригинал, создание текста, языкознание, национализация, художественные образы, афоризмы*
Key words: *translation, original, text creation, linguistic science, nationalization, artistic figures, aphorisms*

Bədii tərcümə yaradıcılığın xüsusi sahəsi olduğundan onun haqqında konkret bir resept tətbiq etmək mümkün deyildir. Bəzən elə tərcümə əsəri olur ki, onu orijinal mətn kimi qəbul edir, o, dil, üslub baxımından dərhal bizi sehirləyir, biz həmin nümunədən uzun müddət ayrıla bilmirik, bəzən isə əksinə, mövzu və süjet maraqlı görünsə də, "tərcümənin dili" bizi əsərdən uzaqlaşdırır, onu sonadək oxuya bilmirik. Tərcümə araşdırıcıları bununla bağlı tərcüməçilər qarşısında müxtəlif şərtlər qoyur: bəziləri tərcümənin orijinal mətnlə eyniliyini, bəziləri sadəcə məzmunun saxlanılmasını, bir çox digərləri isə onun yeni bir əsər kimi meydana çıxmasını tələb edir. Biz həmin fikirlərə münasibət bildirmiklə bərabər, tərcümə mətninin milliləşməsinin vacibliyini qeyd edən B.Pasternakın praktiki və nəzəri düşüncələri üzərində dayanacağıq.

Məlumdur ki, tərcümə insan fəaliyyətinin ən qədim növlərindən biridir. Onun kökü ulu dilin ayrı-ayrı dillərə parçalanmağa başladığı və bir neçə dili bilən və müxtəlif lingivistik icmaların nümayəndələri arasında ünsiyyət zamanı vasitəçi rolunu oynaya bilən insanlara ehtiyac duyulduğu uzaq dövrlərə gedib çıxır. Elm və texnikanın sıçrayışlı inkişafı ilə xarakterizə olunan XX əsr insan fəaliyyətinin vacib və geniş sahəsinə çevrilmiş tərcümənin "qızıl əsri" hesab olunur. 1953-cü ildə Parisdə Pier-Fransua Kaye bu gün 50-dən çox ölkədə təmsil olunan Beynəlxalq Tərcüməçilər Federasiyasını təsis edərək, peşəkar, qeyri-siyasi, qeyri-kommersiya təşkilatı kimi müxtəlif ölkələrin tərcümə təşkilatlarını birləşdirməyi öz qarşısına məqsəd qoymuşdur. YUNESKO-nun məlumatına görə, müasir dünyada hər il təxminən 40 min tərcümə əsəri, yəni hər gün yüzdən çox kitab nəşr olunur. XX əsrdə tərcümə fəaliyyətinin rolunun kəskin artması tədqiqatçıların bu sahəyə marağının artmasına səbəb olmuşdur. Lakin yalnız XX əsrin ortalarında tərcümə prosesi hərtərəfli elmi araşdırmaların obyektinə çevrilmiş, onun linqivistik fənlər, psixilinqivistika, sosial linqivistika, mətnin linqivistikası, nitq aktlarının nəzəriyyəsi kimi fərqli tədqiqat sahələri meydana gəlmişdir. Bunun sayəsində tərcümənin dəqiqliyinə də tələblər xeyli artmışdır.

Tərcümə sənətinin xüsusi linqivistik fənn kimi öyrənilməsinə məhz XX əsrin ikinci yarısında başlanmışdır. Bu mənada tərcümə haqqında linqivistik elm hələ çox gəncdir, o, hətta hamı tərəfindən qəbul edilmiş ümumi bir ada da malik deyildir. Tədqiqatçılar tərcüməşünaslıq, traslatologiya, tərcümə nəzəriyyəsi kimi fərqli terminlər işlədirlər. Tərcümə nəzəriyyəçiləri bu gün tərcüməçilər haqqında iki dili və nitqin predmetini bilmək lazımdır ənənəvi tələbinin kifayət etmədiyini bildirirlər. Məlum olduğu kimi, bu tələb öz-özlüyündə yüksək səviyyədə tərcümə etmək bacarığını təmin etmir. Sadəcə iki dili bilmək deyil, onun tərcümə xüsusiyyətlərini, yəni bir dilin vahidlərindən digər dilin vahidlərinə keçidin qayda və şərtlərini, mətnin tərcümə olunduğu dilin mənsubları üçün tərcümə deyil, yeni bir əsər kimi meydana çıxmasının vacibliyini şərtləndirən tələbləri bilmək lazımdır. Tərcümə nəzəriyyəsi orijinaldan tərcümə mətninə keçidin necə baş verdiyini, tərcüməçinin fəaliyyətində hansı əsas qanunauyğunluqların olduğunu öyrənməyə çalışır.

Görkəmli dilçi alim L. S. Barxudarov tərcüməni məzmunun dəyişməz planını saxlamaqla bir dildə olan nitq məhsulunun (mətnin) digər dildə olan nitq məhsuluna çevrilməsi prosesi

kimi səciyyələndirir. Bu o deməkdir ki, tərcümə zamanı ifadə planının vahidləri, yəni dil vahidləri dəyişdirilir, lakin məzmunun dəyişməz planı, yəni mətnlə ötürülən informasiya olduğu kimi saxlanılır. Tərcümə nəzəriyyəsi orijinal dil ilə tərcümə dili arasında dil uyğunlaşmalarının qurulmasından başlayaraq tərcümə prosesində təkcə dil formalarını deyil, həm də dünyanın linqvistik mənzərəsini, ünsiyyət situasiyalarını və "mədəniyyət" anlayışı ilə müəyyən olunan dildənkənar amilləri müqayisə edir.

Tərcümə zamanı təkcə iki dil arasında əlaqə yaranmır, həm də iki mədəniyyətin təması baş verir. Məsələn, ingilis dilindən işgüzar məktubu rus dilinə tərcümə edərkən, ingilis müraciət forması kimi işlənən “dear sir”i “дорогой сэр” kimi vermək rus milli etiketindən xəbərsizlik kimi görünür. Və yaxud onun Azərbaycan dilində də “əziz ser” kimi verilməsi dil normalarının pozulması effekti yaradacaq. Amma buna baxmayaraq rus və Azərbaycan işgüzar üslubu üçün təbii olmayan bu birləşmə rus və Azərbaycan mədəniyyətlərinin xarici alınmalara dözümlü olması səbəbindən mətnə müəyyən ironiya çaları versə də, qəbul edilir. Halbuki rus və Azərbaycan işgüzar yazışmalar dili üçün “hörmətli cənab direktor” müraciəti işlətmək daha təbii olar, çünki bu, həmin frazanın leksik-semantik tərkibinə münasibətdə daha uyğun tərcümə sayılır.

Göründüyü kimi tərcüməçinin bu situasiyada mümkün iki variantdan birini seçmək üçün manevretmə imkanı yaranmışdır. Ancaq eyni problem rus dilindən “глубокоуважаемый господин Трамп”, Azərbaycan dilindən “Çox hörmətli Tramp” müraciətlərinin ingilis dilinə tərcüməsi zamanı da yaranır. Şübhəsiz ki, onun Deeply respected Mr. Трамп kimi hərfi tərcüməsi qəbuledilməzdir, çünki anglosaks müraciət ənənəsi daha mühafizəkardır və “əziz ser” ifadəsinin işlədilməsini tələb edir. Ondan geri çəkilmək işgüzar etikanın əsaslarının pozulması kimi qiymətləndirilir.

Müxtəlif dillərdə çox tez-tez bu və ya başqa situasiya –mətndə təsvir olunan predmetlər və onların arasındakı əlaqələr eyni cür qəbul olunmur. Beləliklə, rus dilində oturmuş insanın vəziyyəti «сидеть, положив ногу на ногу» (ayağı ayağın üstünə qoyub oturmaq) təsvir edildiyi halda, ingilis dilində o, tamam başqa şəkildə - «with one`s knees crossed» kimi verilir. Yaxud rus dilindəki «пенка на молоке» ifadəsi isə ingilis dilində «milk with skin on it» kimi verilir.

Bir sözlə, mədəniyyətlərdəki fərq həm də fonlardakı fərqlərdə özünü göstərir. Buna misal olaraq «Белоснежка и семь гномов» nağılından Belosnejka adının tərcüməsini göstərə bilərik. Tropik ölkələrdə yaşayan və öz dillərində "qar" anlayışı olmayan bəzi xalqlar üçün bu ad təsviredici şəkildə interpretasiya olunmalıdır, məs. "ağ qanadları çıxmış ağ qız”.

Tərcüməni nitq kommunikasiyasının xüsusi növü kimi tədqiq etdikdə görürük ki, tərcümə nəzəriyyəsi onun dil mexanizminin analizi ilə məhdudlaşmır, çünki tərcümə təkcə dillərin qarışılıqlı təsri deyil, eyni zamanda irəlidə qeyd etdiyimiz kimi mədəniyyətlərin qarışılıqlı təsiridir. Tərcümənin mədəniyyət problemləri Almaniyanın bir çox mədəniyyət xadimlərinin – A.Şleqelin, İ.Hötenin, Y.Qrimmin, V.Humboldtunn əsərlərində geniş təhlil edilmişdir. Məsələn, V.Humboldt Şlegelə göndərdiyi bir məktubda uğurlu tərcümənin mümkünlüyünə şübhə etdiyini bildirmişdir, onun fikrincə, "tərcüməçi su altındakı iki daşdan birinə çırpılıb əzilməlidir, ya öz xalqının zövqünün və dilinin hesabına orijinalın dəqiqliyinə əməl etməli, ya da orijinalın hesabına öz xalqının özünəməxsusluğunu əsas götürməlidir”.

Tərcümə nəzəriyyəsinin linqivistik tədqiqi zamanı tərcüməedilməzlik nəzəriyyəsinin düzgün olmadığı da məlum olmuşdur. Dilçilik baxımdan tərcümənin araşdırdılması orjinal və tərcümənin məzmununun tam eyni olmasının mümkünsüzlüyünü göstərir. Özünəməxsus dil xüsusiyyətinə malik, xüsusi “fon” bilikləri və mədəni-tarixi xüsusiyyətləri yalnız müəyyən dil birliyinə istiqamətlənmiş hər hansı mətni başqa dildə olduğu kimi bərpa etmək mümkün deyildir. Buna görə, tərcümə eyni mətn yaratmağı düşünmür, lakin eyniliyin olmaması da tərcümənin mümkünsüzlüyünün sübutu deyil. Tərcümə zamanı tərcümə edilmiş mətnin bəzi elementlərinin itirilməsi həmin mətnin tərcümə olunmayacağı anlamına gəlmir: belə itki adətən

mətn tərcümə olunduqdan sonra - tərcümə orijinalla tutuşdurulduqda üzə çıxır. Orijinalın hansısa xüsusiyyətinin tərcümədə verilməməsi – bu, yalnız müxtəlif dillərdə iki mətnin məzmununun eyni olmaması ümumi prinsipinin xüsusi bir təzahürüdür. Eyniliyin olmaması tərcüməyə orijinal mətnin yerinə yetirməli olduğu kommunikativ funksiyaları yerinə yetirməyə mane olmur. Məlumdur ki, məzmunda qeyd edilən informasiya üçün məna elementləri semantik dil vahidləri adlanır. Məsələn, yaxşı tələbə dərsə hazırlıqsız gəlməz frazası təkcə tələbələri deyil, həm də tələbə qızları nəzərdə tutur. Buradakı tələbələr sözü üçün cins kateqoriyası əhəmiyyətsizdir. Ancaq rus dilində (fransız və alman dillərində olduğu kimi) isimi onun cins mənasıı canlandırmadan işlətmək olmaz, hətta məlumat üçün bu lazım olmasa da və yaxud onun məzmunu ilə ziddiyyət təşkil etsə də. Ancaq ingilis dilinə tərcümədə cins göstərilmirsə, kommunikasiya nöqteyi-nəzərindən bu, əhəmiyyətsiz və hətta arzuolunandır. Orijinalın və tərcümənin məzmununun mütləq eyniyyəti həm lazım deyil, həm də bu, tərcümənin yaradılması məqsədilə üst-üstə düşmür.

Ümumiyyətlə, bir daha təkrar edirəm, tərcüməni təkcə dil faktı kimi götürmək çox böyük yanlışlıqdır. Burada hətta tərcümənin hansı mədəniyyət, tarix, konfessiya, psixologiyaya, dünyagörüşə malik xalqın dilindən edilməsi də ciddi rol oynayır. Bu mənada Şərq dillərindən Azərbaycan dilinə tərcümə ilə, Qərb dillərindən tərcümə arasında ciddi fərqlər vardır. Üstəlik, buraya tərcüməçinin özünün hazırlıq səviyyəsi, istedadı, dünyagörüşü və s. kimi subyektiv faktorları da əlavə etsək, tərcümə prosesinin son dərəcə mürəkkəbliyi bir daha aydın olar. B.Pasternakın əsərlərinin dilimizə tərcüməsi məhz bu mənada onların surətinin çıxarılması kimi deyil, gürcü simvolist şairinin dediyi kimi, orijinalın portretinin yaradılması və yaxud rus məninin azərbaycanlılaşdırılması kimi ifadə edilsə daha düzgün olar (1.s.253)

B.Pasternak özü də tərcüməçi idi və o, "Hamlet"in ruscaya ən yaxşı tərcüməçilərdənn hesab olunurdu. Nobel mükafatçısının əsərlərinin tərcüməsində onun öz təcrubəsinə və yaxud tərcümə haqqında nəzəri fikirlərinə istinad etmək də səmərəli olar. 1945-ci ildə gürcü romantiki N.Barataşvilidən tərcümə üzərində işləyəndə B.Pasternak yazırdı: "Bundan rus şeirləri düzəltmək lazımdır, necə ki, mən Şekspirdən, Şevçenkodan, Varlendən və digərlərindən belə etdim (yəni rus poetik nümunələri düzəltdim), mən öz vəzifəmi belə görürəm (2.311)

Ümumiyyətlə, B.Pasternkı sevib qiymətləndirənlər və onu tənqid edənlər sənətkarın orijanalı ruslaşdırmağa cəhdini, orada rus mədəniyyəti və poetik ənənəsindən çıxış emək istəyini xüsusi qeyd edirdilər. Bu xüsusiyyəti biz onun Şellidən etdiyi tərcümələrində daha aydın görürük. Pasternakşünas Anna Serqeeva-Klyatis B. Pasternakın Şellidən etdiyi bəzi tərcümələrdən hətta Puşkinim səsinin belə aydın eşidildiyini bildirir. Onun 1943-cü ildə Şellidən tərcümə etdiyi "Hindistan nəğmələri"ndən bir bəndə baxaq: *Я, как труп, похолодел. Телом всем прижмись ко мне, Положи скорей предел, Сердца частой стукотне misralarını* misal gətirən A.S.Klyatis yazır ki, B.Pasternak yalnız ritm və ölçülərin uyğunluğu və ortaq mövzu ilə deyil, hətta Puşkinin qafiyə sistemi ilə Şellinin mətnini rusifikasiya etməyə çalışmışdır. Tərcümə mətninin milliləşdirilməsi yeni ənənə deyil, Azərbaycan ədəbiyyatında da bu cür "tərcümələr" və yaxud iqtibaslar kifayət qədərdir. Məsələn, Krilovdan elə sərbəst tərcümələr var ki, onları çox asan şəkildə Azərbaycan ədəbiyyatının orijinal bədii nümunəsi kimi qiymətləndirmək olar.

Pasternak tərcümə etdiyi mətni ruslaşdırmaq üçün bütün arsenaldan istfadə edir, bunlar arasında ən təsirlisi nitq vasitələridir. Pasternakın tərcümələrində adi xalq dilindən, dialekt və jarqon formalarından istifadə etməsi onun bir çox tədqiqatçıları tərəfindən qeyd edilmişdir (3.s.103) Lakin onu da qeyd edək ki, mətnin milliləşdirilməsi birtərəfli qaydada gedə bilməz, bu halda orijinal təmsil etdiyi xalqın həyatı, mədəniyyəti, məişəti, düşüncə və idealları haqqında oxucuya heç nə verməz, halbuki hər bir tərcümə hədəf dilin mənsublarına özü ilə bərabər geniş informasiya, mənəvi-əxlaqi dəyərlər gətirməlidir. B.Pasternak hələ 1939-cu ildə Rurik İvnevin tərcüməsində Nizaminin poemasını oxuduqdan sonra yazmışdı: "Bu tərcüməni təkcə tərcüməçinin çevirdiyi bir əsər kimi oxumaq istəmirsən...onun vasitəsilə Nizamini öyrə-

nirsən... Bu, onun çox böyük üstünlüyüdür". B.Pasternak istənilən tərcüməyə bu prizmadan yanaşır, tərcümənin orijinal mətnlə sıx əlaqəsini qoruyub saxlamağa çalışır, yad dilin musiqisini və tərcümə etdiyi əsərin müəllifinin bədii sistemini canlandırmağa çalışırdı. O, yazırdı: "Ya tərcümələr heç bir məna kəsb etmir, ya da onların orijinalla əlaqsi qəbul edildiyindən daha sıx olmaldır. Sadəcə mətnin uyğunluğu olduqca zəif əlaqə deməkdir. Orijinalla tərcümənin əlaqəsi əsasla törəmənin, magistralla ondan ayrılan yolun əlaqəsi kimi olmalıdır. Təcümə öz məhsulundan çox-çox əvvəl orijinalın təsirini hiss etmiş müəllifin mpvqeyindən çıxış etməlidir. O, orijinalın və onun tarixi təəssüratının məhsulu olmalıdır" (4. s.546)

Başqasının sözünə belə diqqətli münasibət Pasternakın lap birinci tərcümə əsərlərindən, yəni məna prinsipinə deyil, daha çox orijinala formal şəkildə sədaqətə əsaslanmamış mürəkkəb, bəzən hətta eniqmatik mətnlərə çevrilmiş ilk tərcümələrdən hiss olunur. Bu, daha çox ingilis şairi Alcernon Çarlz Sunibernin "Conson Ford" sonnetinin tərcüməsinə aiddir. O dövrdə Pasternakı daha çox maraqlandıran Suinbern öz yaradıcılığında mədəni və mifoloji allüziyasından geniş istifadə edir, şeirin musiqili və ritmik quruluşunu təcrübədən keçirirdi. 1916-cı ildə Pasternak Bobrova yazdığı məktubda Suinberni tərcümə etmək niyyətində olduğunu bildiridi: "Nə qədər çətin olsa da, onu tərcümə etməyə dəyər ..." (5.s.272)

Pasternak tərəfindən tərcümə edilmiş Suinbernin Conson Forda həsr olunmuş soneti ingilis dramaturqunun həyatındakı ümidsiz faciə hissini yenidən yaradır. B.Pasternak öz tərcüməsində Sunibernin əlvan səsini çox incə şəkildə ötürə bilir. Ümumiyyətlə, fikrin və bədii-estetik dəyərin səslə verilməsi Pasternak yaradıcılığına məxsus əsas xüsusiyyətlərdən biridir. Lakin çox təəssüf ki, B.Pasternakdan Azərbaycan dilinə edilmiş əksər tərcümələrdə bu spesfik xüsusiyyəti saxlamaq mümkün olmamışdır.

Pasternak tərcüməyə qarşı son dərəcə tələbkar və həssas olmuşdur. O, yaradıcılığının ilk mərhələsində Ben Consondan, Hötedən etdiyi tərcümələri "ən dəhşətli", "axmaq və fərsiz yazılar" adandırmış, onlara görə xcalət çəkdiyini dəfələrlə vurğulamışdır. Həmin tərcümələr haqqında A.Blokun tənqidi qeydlərini xatırladan B.Pasternak tərcümənin orijinala hədsiz bağlılığının sintaktik və struktur baxımdan mətnin mürəkkəbliyinə, obraz və frazaların çətin oxunmasına və başa düşülməsinə gətirib çıxardığını qeyd etmişdi. 1940-ci ildə "Hamlet"in tərcüməsinə yazdığı ön sözdə də müəllif sanki keçmişdə buraxdığı "tərcüməçi səhvini" bir daha xatırlayır: "Bu işi ("Hamlet"in tərcüməsini) orijinal rus dramatik əsəri kimi qəbul və mühakimə etmək lazımdır. Çünki dəqiqlik, orijinalla sətir bərabərliyi və s.dan başqa, orada hər şeydən əvvəl onsuz böyük şeylərə yaxınlaşma mümkün olmayan düşünülmüş (məqsədli) azadlıq vardır. Əsərin uğuru da B.Pasternakın fikrincə, onun azadlığı və ingilis şedevrini rus orijinalına çevirməsində idi. Təbii ki, B.Pasternak uzun illərin təcrübəsi sayəsində bu qənaətə gəlmişdi (6.s.386). Şairin fikrincə, başqasının mətnini mənimsəmək işində lazım olan bu yaradıcılıq azadlığı Hötenin "acizlik" və "asılılıqdan" əziyyət çəkən "Sirləri"nin tərcüməsində olmamışdır və buna görə əsərin tərcüməsi qənaətbəş deyildi. Bu yanaşma, yəni tərcümə mətninin milliləşdirilməsi Pasternakın tərcümə praktikasında 30-cu illərin sonunda formalaşmağa başlamışdır.

Beləliklə, Pasternakın tərcümə praktikasında iki əks yanaşma bir yerdə mövcud olmuşdur: Bir tərəfdə tərcümə olunnan bədii nümunəni rus şeiri etməyə cəhd etmək, digər tərəfdə isə, orijinalın milli koloritini yaratmağa imkan verən ruhun ciddi şəkildə izlənməsi. İş burasındadır ki, Pasternak tərəfindən təcümə prinsiplərinə ciddi əməl olunmadan, başlıca olaraq sərbəst yaradıcılıq fəaliyyəti ilə "orijinalin portreti"nin yaradılması mümkün olmuşdur. Şair çox doğru olaraq deyirdi: "Tərcümələr düşünməyə vadar edir, çünkü idealda onlar da sənət əsərləridir ve mətnin ümumiliyi şəraitində öz bənzərsizlikləri ilə orijinala bərabər olurlar".

Fikrimizcə, Pasternakın tərcümə ilə bağlı gəldiyi bu qənaətlər bugünkü tərcümə prosesində, xüsusilə bədii mətnlərin tərcüməsində böyük əhəmiyyət daşıya bilər.

Ədəbiyyat

1. Киасашвили Е.Н. Работа Б.Л. Пастернака над подстрочниками: по архивным материалам // Быть знаменитым некрасиво: Пастернаковские чтения. М., 1992. Вып. 1. с. 253.
2. Письмо С.Чиковани от 9 сентября 1945 г. // Пастернак Б. Не я пишу стихи. М., 1991. с. 311.
3. Смолицкий В.Г. Язык улицы в поэзии Б.Пастернака // Язык и стиль произведений фольклора и литературы: Межвузовский сборник научных трудов. Воронеж, 1986. С. 103–109)
4. Пастернак Б.Л. Заметки переводчика // Зарубежная поэзия в переводах Пастернака. М., 2001. С. 546–547.
5. Пастернак Е.Б. Борис Пастернак: Материалы для биографии. М., 1989. С. 272.
6. Пастернак Б.Л. Гамлет, принц датский: От переводчика // Пастернак Б.Л. Собр. соч.: В 5 т. М., 1991. Т. 4. С. 386.

Р.Р.Мамедсой

Перевод или национализация текста

Резюме

В статье «Перевод или национализация текста» рассматриваются искусство перевода, принципы перевода, условия и требования к нему. Автор отмечает, что теоретические представления о переводе сформировались в основном в XX веке, а в последующий период возникли его различные ветви и направления. В статье также отмечается, что литературный перевод следует характеризовать как появление нового, оригинального произведения, а не как создание копии какого-либо произведения на иностранном языке. Автор ссылается на теоретические идеи и практический опыт русского писателя, нобелевского лауреата Б. Пастернака.

R.R.Mammadsoy

Translation or nationalization of the text

Summary

The article “Translation or nationalization of the text” discusses the art of translation, principles of translation, conditions and requirements for it. The author notes that theoretical ideas about the translation formed mainly in the XX century, and in the subsequent period its various branches and directions arose. The article also notes that a literary translation should be characterized as the appearance of a new, original work, and not as the creation of a copy of any work in a foreign language. The author refers to the theoretical ideas and practical experience of the Russian writer, Nobel laureate B. Pasternak.

Rəyçi: prof. R.Novruzov

Redaksiyaya daxil olub: 06.11.2020

N.N.NƏBİYEVA
e-mail: narmin.n.noqte@gmail.com

Bakı Dövlət Universiteti
(Bakı şəh., Z.Xəlilov küç., 23)

SƏNƏDLİ TELEVİZİYA FİLMLƏRİNİN DİLİ TƏSVİR-SƏS-NİTQ TRİADASININ KOMPONENTİ KİMİ

Açar sözlər: *sənədli televiziya filmi, ekran publisistikası, təsvir-səs-nitq triadası, audiovizual nitq, söz-təsvir-səs kontrapunktu, vizual situasiya.*

Ключевые слова: *документальный телефильм, экранная публицистика, триада: «изображение – звук – речь», аудиовизуальная речь, аудиовизуальный контрапункт, визуальная ситуация.*

Key words: *television documentary, television publicity, triad of image - sound – speech, audiovisual language, audiovisual counterpoint, visual rhetorical situation.*

Ekran publisistikasında gerçəklik faktlarının ideya-bədii cəhətdən mənimsənilməsinə spesifik kompozisiya vasitələri ilə nail olunur ki, bunlar da öz növbəsində, daha çox sözlə təsvirin kontrapunktuna əsaslanır. Beləliklə, hər bir informasiyanın ümumi strukturunu, kompozisiya cəhətdən bölünməsini həm nitq, həm də təsvir sırası müəyyən edir. "Təsvir-səs-nitq" triadasının hər bir elementi öz TV xarakteristikasına malikdir, amma onların hansı birininsə dominantlığı yalnız kompleks təhlil nəticəsində müəyyən edilə bilər. Bu zaman "nitqin məna əhəmiyyəti yalnız hər iki – nitq və ekran kontekstual situasiyasının bərabər hərəkəti şəraitində müəyyən edilir (8, s. 18-19). Sənədli televiziya filmlərində (STF) materialın xarakterindən, kommunikatorun niyyətindən, filmin mövzusundan, seçilmiş forma və janrdan asılı olaraq təsvirlə sözün nisbəti üç səviyyədə ola bilər.

Nəsir Əhmədli bildirir ki, audiovizual nitqin ümumi həcmini vahid (bir) tam kimi götürsək, bunu təxminən belə əks etdirmək mümkündür (4, s. 118; 3, s. 143):

a) Sözün çoxluq təşkil edib, təsvirin minimum olduğu hal daha çox auditoriyaya informasiya çatdırmaq məqsədinə uyğun gəlir. Müasir TV məkanında bu formadan xəbərlərin oxunuşunda (ekranda yalnız diktor görünür), tok-şoularda (yalnız adamlar danışır, bəzən təsvir süjetlərlə əvəz olunur), müxtəlif növ çıxışlarda (tamaşaçıların suallarına cavab, çıxış üstündə qurulmuş film-oçerk, jurnal tipli verilişlərdə aparıcı mətni, müxtəlif mövzulara dair icmallar) istifadə olunur. Sözün çoxluq təşkil etdiyi bu halda tamaşaçı daha çox və daha rəngarəng informasiya alır (6, s. 144-145).

b) Təsvirin tam üstünlük təşkil etdiyi (söz ya heç olmur, ya da az olur) səviyyə daha çox verilişlərarası fasilələrdə, təbiət təsvirlərinə, faunaya həsr edilmiş zarisovkalarda, bu mövzularda olan telefilmlərdə və başqa verilişlərdə özünü göstərir. Bunlar elə ekran əsəri olur ki, faktın ideya-bədii dəyəri yalnız təsvir və yardımçı səslər vasitəsilə gerçəkləşdirilir, şərhə, sözə ehtiyac qalmır. Bu səviyyədə təsvir tam yetkin informasiya verə bilir (7, s. 127-128).

Bəzən təsvirin verdiyi informasiya sözün verdiyi informasiyadan daha təsirli olur. Hadisə və ya predmeti obrazlı dillə bizə təqdim edən ifadəli kinokadrlar son dərəcədə heyrətamiz təsir göstərir, tamaşaçını duymağa, hisslər aləminə baş vurmağa sövq edir. Ona görə də bu tip ekran əsərində sözə, izahata, kadrarxası şərhə ehtiyac qalmır. Amma informativ sözün əvəzinə, burada təbii səslərdən, səs effektlərindən, xüsusən musiqidən gen-bol istifadə edilir. Həmin səslərin təsviri müşayiət etməsi verilən informasiyanın təsirini daha da gücləndirir. Sənətşünas Ə. Hüseynov ekranlaşdırma prosesində təsvir barəsində danışarkən bildirir ki, təsvir 1) sözün yaratdığı və təsvirə asanlıqla gələn vəziyyəti, situasiyanı, epizodu, detalı ifadə edir; 2) sözün ifadə etmək iqtidarında olmadığı (yaxud yazı mətninə çevrilməyən, eləcə də mücərrəd şərh və təhlillər axarında yaranan) vəziyyətləri vizual planda əks etdirir (5, s. 70-71).

Bu baxımdan 1998-ci ildə ekranlaşdırılan, ssenari müəllifi Möhbəddin Səməd, rejissoru Gilana Axundova olan dörd hissəli "Uzaq yaxın Lütfi Zadə" sənədli televiziya filmi maraqlıdır. Qeyri-səlis məntiq nəzəriyyəsinin banisi Lütfi Zadə haqqında çəkilən film ssenari-plan əsasında ekranlaşdırılıb. Çəkiliş zamanı mövzu və qəhrəmanla bağlı müəyyən materiallar toplanandan sonra sənədli telefilm montaj masasında yazılan ssenari əsasında özünün ekran həllini tapıb. Telefilmdə kadrın köməyi ilə mətnin əhəmiyyətlilik dərəcəsini də müəyyən etmək olar: mətn hissəsinin əhəmiyyəti artdıqca kamera da yaxınlaşır, təsvir daha iri planda verilir. Bu texnika xüsusən ictimai xadimlərin siyasi çıxışlarına, elm və incəsənət xadimlərinin mühüm çıxışlarına və s. aiddir (1, s. 93). Qeyd edək ki, qəhrəmanın çəkiliş zamanı filmə bəxş etdiyi gözlənilməz "naxışlar" onu daha maraqlı edir:

Video təsvir	Mətn
Açar planlar. ...kamera Lütfi Zadənin iş otağında çəkiliş edir. Kitab və sənədlərlə dolub-dalaşan kitab rəfləri. Dağınıq və kağızlar səpələnmiş iş masası. Kamera qapıya doğru tuşlanır. Qapı açılır. Alim içəri girir. Sonrakı kadrda görürük ki, qəhrəman iş telefonuna gələn mesajları dinləyir. Daha sonra kamera orta plandan iri plana keçid edir, Lütfi Zadə ona telefonla ismarıc göndərən digər professora zəng vurur. ***Açar planlar.*** Növbəti kadrda Lütfi Zadəni redaktə prosesində görürük. Kağızda çap etdiyi məqalədə lazım olmayan abzasın üzərinə sarı rəngdə kağız yapışdırır. Daha sonra qayçını götürərək həmin hissəni kəsib kənara qoyur. Qəhrəman redaktə prosesinə davam edir. Başqa bir kağız götürür, qayçı ilə abzası kəsib, bayaq üzərində işlədiyi kağızda lazım olan yerə yapışdırır.	***Sinxron (Lütfi Zadə):*** *Professor Zade is calling* (az. Zəng vuran professor Zadədir).

Bu səhnəni, təbii ki, əvvəlcədən yazılmış ssenari əsasında ekranlaşdırmaq mümkün olmazdı. Qəhrəmanın özü ilə söhbət filmin ssenarisində çəkiliş zamanı müəyyən mənada dönüş yaradır. Təsəvvür edin ki, qeyri-səlis məntiq nəzəriyyəsinin banisi olan bu dahi şəxsiyyət məqalələri üzərində işləyəndə kompüterdən istifadə etmir. Məqalənin hansısa bir hissəsini əvvələ gətirmək lazımdırsa, həmin hissəni qayçı ilə kəsir, lazım olmayan abzasın üzərinə yapışdırır. Bu zaman vizual situasiyanın təsiri ilə qəhrəmanla bağlı maraqlı ziddiyyət ekrana gətirilir. Görüntü sırası qəhrəmanın işləmə metodu ilə bağlı sözün belə aciz qala biləcəyi səmimiliyi göstərir. Vizual situasiyanın yaratdığı ziddiyyət qəhrəmanın xarakterinin açılışına xidmət edir, onun daxili dünyasının, mənəvi düşüncüsənin üzə çıxarılmasında mühüm rol oynayır. Bu filmdə alimin kəşfi ilə onun işləmə metodikası arasında ziddiyyət yaranır, bu zaman qəhrəmanı həm də tamam fərqli istiqamətdən tamaşaçıya tanıda bilirik.

c) Sözlə təsvirin xüsusi çəkisinin təqribən bərabər olduğu səviyyə göstərilən kadrların mənasını açmaq (onları təkrar etmədən), məzmunu tamamlamaq, obyektin gözlə görünməyən, lakin ictimai əhəmiyyəti olan tərəflərini əks etdirmək, statistik məlumatları bildirmək və təhlil etmək məqsədini güdür (7, s. 128).

TV həm sözə (şifahi nitqə), həm də təsvirə yeni həyat verməklə onlardan tamaşaçıya əvəzsiz təsir vasitəsi kimi istifadə etməyin mümkünlüyünü göstərmişdir. Çünki bir tərəfdən söz, digər tərəfdən isə musiqi ilə müşayiət olunan təsvir birləşərək bənzərsiz ekran əsəri yaradır. Bəzi situasiyalarda təsvir və musiqi elə güclü emosional təsir oyadır ki, mətnin müşayiəti

sanki zəifləyir. Bəzən isə triadanın hər üç elementi birləşərək parlaq səs-görüntü obrazı yaradır (7, s. 129). Başqa sözlə desək, ekspozisiya realizmi sadəcə müşahidəni aşır və mübahisəni və ya ritorik mövqeyi dəstəkləyən səs və görüntünün ahəngini əhatə edir (2, s. 16).

STF-nin janrından, müəllif yanaşmasından asılı olaraq, əsas informasiya və məna yükünü triadanın bu və ya digər elementi öz üzərinə götürə bilər ki, nəticədə linqvistik kontekstlə (söz, nitq) ekran konteksti (təsvir, səs) arasındakı nisbət dəyişir. Deməli, sözlə təsvirin kontrapunktundan danışarkən, məhz bunu nəzərə almaq lazımdır: kadrarxası mətn ekranda göstərilənləri təkrarlamamalı, fikrin görünməyən tərəfini, mahiyyətini açmalıdır. Sözlə təsvir, mətnlə montaj arasındakı əlaqələr o vaxt effektli olur ki, onların funksiyaları üst-üstə düşməsin. Yəni təsvir deyilən sözlə təkrar olunmasın, çünki bu hal tavtalogiya yaratmaqdır. Təkrar isə yazılı nitqin səlisliyini pozur, ifadə ağırlaşır (6, s. 80; 9, s. 206).

Lider Televiziyasının istehsalı olan və 2016-cı ildə lentə alınmış "Bakımız. Faytonlu-avtomobilli Bakımız" sənədli televiziya filmində aparıcı filmin bir hissəsində maşının qarşısında dayanıb, onu göstərərək danışır: "1960-cı illərdə Bakı küçələrində bax bu cür avtomobillər peyda olmağa başladı. Balaca qaboriti və məzəli görünüşünə görə bakılılar bu avtomobili o qədər də sevmədilər və könüllü şəkildə pul verib bu avtomobili alanlar az idi. Bu avtomobil II Dünya müharibəsi veteranlarına və əlillərinə dövlət tərəfindən pulsuz olaraq hədiyyə şəklində verilirdi". Bu müəllif mətnindən sonra Şüvəlan kənd sakini usta Rəşid danışır: "...mən belə bilirəm ki, bunlar ilk dəfə müharibə əlilləri üçün buraxılırdı". Belə ki, nümunə gətirdiyimiz filmdən bu hissədə tavtologiyaya yol verilib. Müəllif mətni ilə sinxron bir-birini təkrarlayır, müəllifin dediklərini müsahib növbəti kadrda sadəcə fərqli cümlə içərisində deyir. Kadrlardan birində isə aparıcı metronun içində kameraya danışır: *"O vaxt olduğu kimi, indi də polislər metroya sərxoş insanları buraxmırlar"*. Onun bu sözlərinin ardınca ssenari müəllifi aparıcının həmin sözlərinin ekran həllini "Əhməd haradadır" filmindən kadrla verməyə çalışır. Kadrda sərxoş vətəndaş polislə söhbət edir. Bu cür üsuldan istifadə, əvvəla sənədli televiziya filmlərinə xas olan "sənədlilik" xüsusiyyətlərini dağıdır, onu oyun filminə çevirir. Digər tərəfdən müəllifin səsləndirdiyi fikrin bədii filmdən nümunə olaraq verilmiş kadrla yenidən təkrarlanması filmdə söz-təsvir nisbətində növbəti təkrarlığı yaradır.

Beləcə, TV məkanında "təsvir, yoxsa söz?" dilemması hələ də davam etməkdədir. Başlıcası budur ki, bütün işarə sistemlərindən – sözdən də, təsvirdən də, musiqidən də yerli-yerində istifadə olunsun. Ekran kontekstində təsvirin sözü, yaxud sözün təsviri üstələməsi və ya triadının hər üç elementinin – təsvir, söz və səs sırasının bir-birini tamamlaması müəllifin gerçəkliyi hansı formada, hansı şəraitdə əks etdirməsindən asılı olaraq dəyişir.

Hərçənd ki, nəzəri əsaslarda STF üçün təsvir situasiyasının nitq situasiyasını qabaqlaması məqbul sayılsa da, bəzən sənədli xronika materiallarının çatışmazlığı və ya heç olmaması, yaxud yaradıcı heyətin mövzuya tam şəkildə hakim olmaması və qeyri-peşəkarlıq təsvirin sözlə əvəzlənməsinə və "danışan başlar", yəni veriliş estetikasının filmə gətirilməsinə səbəb olur. Bəzi hallarda isə əksinə, məhz yeni məna yaratmaqla gerçəkliyin dolğun ekran həlli təsvirin və nitqin sintezindən doğan kontrapunktluğun strukturunun dağıdılması və məna vəhdətinin məna kontranstlığı ilə əvəzlənməsi sayəsində baş verir. Bu isə yaradıcı heyətin məramından, filmin verəcəyi mesajın hədəf kütləsindən, ekran məhsulunun istehsal prosesinə peşəkar yanaşmadan, xronika materialları ilə işləmə qabiliyyətindən, müşahidə bacarığından, düzgün qəhrəmanın seçilməsi və problemin qoyuluşundan, həmçinin operator və rejissorla birgə işləməkdən, montaj masasında düzgün sıralamanın aparılmasından asılıdır.

Ədəbiyyat

1. Babazadə O.Ə. Ekranda söz. Bakı: Elm və Təhsil, 2012, 136 s.
2. Beattie K. Documentary Screens. Non-Fiction Film and Television. Palgrave Macmillan, 2004, 285 p.

3. Əhmədli N.A. Jurnalistin nitq mədəniyyətinin əsasları. Bakı: Elm və Təhsil, 2014, 279 s.
4. Əhmədli N.A. Jurnalistin nitq mədəniyyəti. Bakı: Bakı Universiteti Nəşr., 2005, 163 s.
5. Hüseynov Ə.M. Səhnədən o yana, yaxud sözün "şəkli". Bakı, 2012, 140 s.
6. Məhərrəmov Q.M. Audiovizual nitq. Bakı: Elm, 2000, 444 s.
7. Məhərrəmli Q.M. Televiziya dili. Bakı: Elm, 2002, 304 s.
8. Минаев В.Ф. Соотнашение слова и изображения в телевизионной журналистике / Вестник МГУ. М.: 1969, сер 11, № 2.
9. Yusifov M.İ. Nitq mədəniyyətinin əsasları. Bakı: Mütərcim, 1998, 214 s.

H.H.Набиева

Язык документальных телефильмов как компонент триады: «изображение-звук-речь»

Резюме

В зависимости от тематики и жанра документальных телефильмов, а также профессионального подхода к процессу производства экранного продукта, на основе теоретических и практических примеров, в данной статье исследуется гармония и закономерность компонентов, создающих триаду "изображение - звук – речь".

N.N.Nabiyeva

The language of documentary television films as a component of the image - sound – speech triad

Summary

Depending on the subject and genre of documentary television films, as well as a professional approach to the production process of the screen product, the harmony and regularity of the components that creates triad of image - sound – speech are studied in this article on the basis of theoretical and practical examples.

Rəyçi: dos. O.Ə.Babazadə

Redaksiyaya daxil olub: 10.12.2020

R.H.QULİYEVA

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

ƏMR CÜMLƏSİNİN MƏNA XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN ÖYRƏDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Açar sözlər: *məqsəd və intonasiyaya görə cümlənin növləri, əmr cümləsi, intonasiya, arzu, istək, məsləhət*
Ключевые слова: *типы предложений по назначению и интонации, повелительное предложение, интонация, желание, совет*
Key words: *sentence types according to purpose and intonation, imperative sentence, intonation, desire, advice*

Dilin insanlar arasında ünsiyyət vasitəsi olması fikri heç kəsdə şübhə doğurmur. Biz ünsiyyət zamanı öz fikir və düşüncələrimizi başqalarına çatdırmaq, yeni informasiyaları ötürmək, nəyisə öyrənmək, yaxud dəqiqləşdirmək, öz arzu və istəklərini söyləmək, doğmalarımıza, yaxınlarımıza məsləhət vermək, əmr etmək və nəhayət, içimizdəki hiss-həyəcanı, sevinc və kədəri ifadə etmək məqsədilə müxtəlif intonasiya ilə ifadə olunan cümlələrdən istifadə edirik. Söz yox ki, bu cümlələr bir-birinin eyni olmur, bir-birindən fərqlənirlər. Məsələn:

Bir sevinc var hər üzdə
Nənəm nağıl danışır *(N.Xəzri).*
Fəhlə özünü sən də bir insanmı sanırsan?
Axmaq kişi, insanlığı asanmı sanırsan? *(M.Ə.Sabir)*
Bəli! Bakılıyam, öz şöhrətim var!
Qoy mən yenə söhbət açım öz diyarımdan *(N.Xəzri).*

Göründüyü kimi, danışan şəxsin məqsədinin dəyişməsi cümlələrin üslubi xüsusiy-yətlərinin dəyişməsinə səbəb olur. Deyiliş tərzi çox fərqli olduğundan həmin cümlələr müvafiq olaraq nəqli, sual, əmr və nida cümləsi hesab edilir.

Deyilənlərdən belə nəticə çıxır ki, nitqdə intonasiyasnı müəyyənləşdirən məqsəddir. İntonasiya məqsədin göstəricisidir. Əgər intonasiya olmasa, dinləyicilər fikrin hansı məqsədlə deyildiyini anlaya bilməzlər. Belə ki, eyni cümləni müxtəlif intonasiya ilə demək mümkündür. Məsələn: hər aşığın dövranı var. Hər aşığın dövranı var? Göründüyü kimi, hər iki cümlə leksik tərkibcə və söz sırası baxımından eynidir. Bunları bir-birindən fərqləndirən intonasiyadır. Məhz buna görə də Azərbaycan dilindəki cümlələr məqsəd və intonasiyaya görə 4 qrupa bölünür; nəqli, sual, əmr və nida cümləsi.

Əmr cümləsi xahiş, məsləhət, istək və s. mənalar ifadə edə bilir. Ancaq, şübhəsiz ki, bu mənalar içərisində əmr etmək xüsusiyyəti əsas olduğundan belə cümlələr qrupuna da «əmr cümləsi» kimi qəbul edilib. Məsələn:

Üçrəngli bayrağınla məsud yaşa *(Azərbaycan Respublikasının Dövlət himni).*
Qalx, qalx, ulu torpaq, qalx, qalx ulu bayraq *(H.Hacıyev).*
Azərbaycan deyiləndə ayağa dur ki,
Füzulinin ürəyinə toxuna bilər *(M.Araz).*

Bu cümlələrin hamısında qəti əmr mənası vardır. Qəti əmr əmr mənası ifadə edən belə cümlələr məişət üslubundja, bədii üslubda və rəsmi-əməli üslubda daha çox işlənir. Əmr cümləsinin bu növündə feillər II şəxsin təkində işlənir. Söz yox ki, insan bəzən öz-özünə də, III şəxsə də əmr edə bilər. Məsələn:

1. Qoy mənə yenə söhbət açım ilk baharımdan, Nəğməm ilə bir də keçim öz diyarımdan *(F.Qoca).*

2. Ovçu, insaf elə, keçmə bu düzdən. O çöllər qızını ayırma bizdən. Qoyma ağrı keçə ürəyimizdən – Qıyma öz qanına boyana ceyran! *(S.Vurğun).*

3. Aman, ovçu, vurma məni. Mən bu dağın maralıyam *(xalq mahnısı).*

Bu ilki nümunədə şair özünə əmr etmir, arzu və istəyini bildirir. İkinci və üçüncü cümlələrdə isə II şəxsə müraciət edilsə də, bu qəti əmr deyil, rica, xahiş mənasını ifadə edir.

Əmr cümlələri eyni zamanda öyüd, nəsihət, məsləhət, təskinlik də ifadə edə bilir. Məsələn,

1. Gər dersə Füzuli ki, gözəllərdə və var.
   Aldanma ki, şair sözü, əlbəttə, yalandır *(Füzuli).*
2. Bütün eyvanlardan, pəncərələrdən
   Ayağın altına güllər tökülsün *(S.Rüstəm).*
3. Mən sənin dilinə dəymirəm, cəllad,
   Gəl sən də bu ana dilimə dəymə!
   Sənin də bağın var, gülün var, çəkin,
   Bağımda əkdiyim gülümə dəymə *(S.Rüstəm).*

Əmr cümlələrində bu müxtəlif mənaları ifadə etmək üçün heç bir formal əlamətdən istifadə olunmur. Bu mənalar əmr cümləsinin işlədildiyi şəraitlə, mətnlə, münasibətlə bağlı olaraq meydana çıxır və həmin cəhətlərlə də müəyyənləşdirilir. Ona görə də eyni sözlərdən ibarət olub, eyni şəkildə qurulmuş əmr cümlələri yerinə görə müxtəlif mənalar ifadə edərək birbirindən ayrıla bilir. Başqa sözlə desək, bir əmr cümləsini yerinə görə qəti əmr ifadə edən cümlə mənasında işlədə bildiyimiz kimi, başqa mənalarda da işlədə bilirik. Buna görədir ki, əmr cümlələrindən ədəbi dilimizin bütün sahələrində, eləcə də adi danışıqda geniş istifadə edilir.

Əmr cümlələrinin feli xəbəri, adətən, felin əmr şəkli ilə ifadə olunduğu məlumdur. Əmr cümlələrinin xəbərində bütün şəxslərə müraciət oluna bilir. Ancaq feil II şəxsin təkində olduqda qəti əmr ifadə edir. Məsələn:

Samovarı alışdırın,
Maşa verim, qarışdırın.
Yarım məndən küsüb gedib,
Onu mənlə barışdırın.

Burada fikir birbaşa II şəxsə yönəlir. Ancaq bəzi cümlələrdə fikir II şəxsə deyil, II şəxsə aid olur.

1. Öpsün qılıncını hər qaya, hər dağ *(S.Vurğun).*
2. Qoy ellər eşitsin, qoy bilsin Vətən *(S.Vurğun).*

Belə cümlələrə daha çox rəsmi-əməli üslubda rast gəlmək olur.

Əmr cümlələrinin xəbərləri bəzən I şəxsdə də ifadə oluna bilir. Bu zaman cümlənin əmr mənası itir. Çünki öz-özünə əmr verə bilməz. Belə cümlələr hətta xahiş də ifadə etmir, ona görə ki, insan öz-özündən xahiş edə bilməz. Burada yalnız arzu, istək mənası ifadə edilir. Məsələn:

1. Vaqif, sabah məni yola sal gedim,
   Torpaq evciyimi ziyarət edim *(S.Vurğun).*
2. Gəl, qəmləri küləklərə verim, gəl,
   Öz bağımdan sənə güllər dərim, gəl,
   Sən məni gör, mən də səni görüm, gəl *(S.Rüstəm).*
3. İzn ver qolumu salım qoynuna *(S.Rüstəm).*

Xəbəri I şəxsin cəminə aid olan əmr cümlələrində əmr, məsləhət, arzu, istək, xahiş və s. kimi mənaları ifadə edə bilir, səbəbi isə odur ki, belə cümlələrdə I şəxsin həm iş görən, həm də işə təhrik edilən şəxslərdən biri olmasıdır. Məsələn:

1. Gedək gəzək biz Xızı dağlarını *(N.Rəmzi).*
2. Büllur qədəhləri qaldırın içək,
   Günəşin nuruyla doldurun içək *(N.Xəzri).*

3. Gedək, dostlar, gedək hey axın-axın,
   Düşməni Təbrizə qoymayaq yaxın *(S.Rüstəm).*

Göründüyü kimi, xəbəri I şəxsin cəmində olan əmr cümlələri, ikisində də arzu, istək mənaları ifadə olunur. Əmr cümlələrinin xəbərləri bəzən feilin əmr şəkli ilə deyil, vacib şəkli ilə də ifadə oluna bilir. Bu ondan irəli gəlir ki, feilin vacib şəkli işin icrasının vacibliyi ilə yanaşı əmr mənası da ifadə edə bilir. Məsələn:

1. Sən camaatın sözünü eşitməlisən *(İ.Əfəndiyev).*
2. Bir gün yaranan, bir gün ölməlidir *(F.Kərimzadə).*

Bundan başqa feilin arzu şəkli və bacarıq tərzi də bəzən əmr məqsədilə işlədilə bilir. Məsələn:

1. Bir xəlvət yer ola, əğyar olmaya
   Orda söhbət edək, ikimiz belə *(Vaqif).*
2. Siz gedə bilərsiniz *(C.Cabbarlı).*
3. Bir sən ol, bir də mən, bir də dərdimiz
   Ağlayaq doyunca, gülək doyunca *(R.Rza).*

Feilin xəbər şəklində olan feillər də bəzən əmr cümləsinin xəbəri ola bilir. Məsələn:

1. Dolan bulud boşalacaq
   Bu hökmüdür təbiətin *(S.Vurğun).*
2. Nə əkərsən, onu da biçərsən.

Bəzən əmr cümlələri məsdər tərkiblərindən ibarət olur. Məsələn, Dəxi nə dayanmaq, nə bürünmək, nə utanmaq? Bəsdir bu dayanmaq *(M.P.Vaqif).*

Əmr cümlələrinin yaranmasında müəyyən məna incəliklərinin ifadə olunmasında ədatların xüsusi rolu vardır. Məsələn:

1. Nə tələsirsən, hələ tezdir, qoy hamı yığışsın *(M.İbrahimov).*
2. Qoy ellər eşitsin, qoy bilsin Vətən,
   Andıma vəfalı qalacağam mən *(S.Rüstəm).*

Ədatlar əmr cümlələrində ifadə olunan mənanı qüvvətləndirir, cümləyə emosionallıq verir. Ona görə də ədatla işlənən əmr cümlələri ədatsız olan əmr cümlələrindən çox fərqlənir.

Bu fərq hökmən şagirdlərin nəzərinə çatdırılmalıdır.

Cümlənin intonasiyaya görə növlərindən şagirdlər ailədə, məktəbəhazırlıq qruplarında öz nitqlərində istifadə etmişlər. Çox güman ki, sual və əmr cümlələrini daha tez-tez işlətmişlər, onların necə tələffüz olunduğunu da bilirlər.

Cümlənin intonasiyaya görə növləri ilə ilk tanışlıq II sinifdən başlanır. Müəllim ilk növbədə təklif olunan cümlələri müxtəlif şəkildə tələffüzünü nümayiş etdirir. Məsələn:

1. Qatar gəlir.
2. Qar yağır.

Nəticədə əyani şəkildə şahid olurlar ki, eyni sözlərdən ibarət olan cümlələr müxtəlif məna ifadə edə bilir.

Metodist Q.P.Firsov yazır ki, intonasiya üzərində müşahidə cümlənin sonunda lazım olan durğu işarələrini işlətmək də ən etibarlı köməkçi vasitələrdən biridir (A.Rəhimov, s.271).

II sinifdən başlayaraq bu sahədə sistemli şəkildə praktik işlər aparılır. Nəticədə şagirdlər cümlə qurmaqla bağlı ilk bacarıqlara yiyələnir və cümlələrin sonunda müxtəlif işarələrin qoyulmasının məqsəddən irəli gəldiyini dərk edirlər.

Cümlə qurmaqla bağlı praktik işlər arasında nitq situasiyaları yaratmaq və dialoqlar qurmaq şagirdlər tərəfindən maraqla qarşılanır. Bu zaman şagirdlər müxtəlif cümlə növlərindən istifadə etdiklərindən müəllim onların fərqli cəhətlərini asanlıqla görür.

Ədəbiyyat

1. Abdullayev Ə.Z., Seyidov Y.M., Həsənov A.T. Müasir Azərbaycan dili. IV hissə, B., "Maarif", 2007.
2. Abdullayev N., Məmmədov Z. Nitq mədəniyyətinin məsələləri. Bakı, 1999.
3. Axundov A. Azərbaycan dilinin fonetikası. B., 1984.
4. Cəfərov S. Müasir Azərbaycan dili. II hissə, Bakı, "Maarif", 2007.
5. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. I hissə. B., "Maarif", 2007.
6. Əhmədov B., Axundov A. Azərbaycan dili. VI sinif. Bakı, 2002.
7. Hacıyev T., Cəfərov N., Xudiyev N. Azərbaycan dili. X sinif üçün dərslik. B., 2009.
8. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. B., 1989.

Р.Г.Гулиева

Особенности повелительных предложений и некоторые вопросы их обучения

Резюме

Для выражения этих различных значений в повелительных предложениях не используется никаких формальных знаков. Эти значения появляются в связи с контекстом, в котором используется повелительное предложение, текстом, отношением и определяются этими характеристиками. Следовательно, повелительные предложения, состоящие из одних и тех же слов и построенные одинаково, можно отличить друг от друга, выражая разные значения в зависимости от их места. Другими словами, так же, как мы можем использовать команду в смысле предложения, которое выражает определенную команду на своем месте, мы можем использовать ее и в других смыслах. Вот почему повелительные предложения широко используются во всех областях нашего литературного языка, а также в обычной речи.

R.H.Guliyeva

Features of imperative sentences and some issues of their learning

Summary

No formal signs are used to express these different meanings in imperative sentences. These meanings appear in connection with the context in which the imperative clause is used, text, attitude and are determined by these characteristics. Consequently, imperative sentences consisting of the same words and constructed in the same way can be distinguished from each other, expressing different meanings depending on their place. In other words, just as we can use a command in the sense of a sentence that expresses a particular command in its place, we can use it in other senses as well. That is why imperative sentences are widely used in all areas of our literary language, as well as in ordinary speech.

Rəyçi: ped.f.d., dos. S.Ə.Hümmətova

Redaksiyaya daxil olub: 20.11.2020

S.S.SADIQOVA

Bakı Dövlət Universiteti (Qazax filialı)
(Qazax, Heydər Əliyev pr.)

LEKSİK TƏKRARIN MƏTNDƏ ROLU

Açar sözlər: *mətn, leksik təkrar, əlaqə vasitəsi, söz, söz birləşməsi, cümlə, ekspressivlik, üslubi üsul.*

Ключевые слова: *текст, лексический повтор, средство связи, слово, словосочетание, предложение, экспрессивность, стилистический приём.*

Key words: *text, lexical repetition, means of communication, word, phrase, sentence, expressiveness, stylistic device.*

Mətnin komponentləri arasında əlaqəliliyi təmin edən dil vasitələrindən biri leksik təkrardır. Struktur planda mətnyaradıcı amil kimi ilk növbədə məhz təkrarları qeyd etmək lazımdır. Təkrar çoxcəhətli bir sistemə malikdir. O, prinsip etibarilə, mətnyaratmanın çox güclü bir amilidir. Bu məqamı K.M. Abdullayev xüsusi olaraq qeyd edir ki, «özünün struktur mürəkkəbliyindən və ya sadəliyindən asılı olmayaraq təkrar prinsip etibarilə mətn bütövlüyünə xidmət edən çox möhkəm sementvari bir üsul kimi üzə çıxır. Tekstdə elə məqamlar olur ki, onun özünəməxsus düyünlü nöqtələrində məhz cümlənin təkrarı daha effektiv rol oynayır» [1, s. 234].

Əlbəttə, bir-birinə bağlı iki və daha artıq cümlələrdə mənanın daha da aydın surətdə başqasına çatdırılması üçün ən yaxşı vasitə təkrardır. Bir çox tədqiqatçılar öz araşdırmalarında bunu qeyd etmişlər [4; 6]. Belə ki, mətn boyu təkrar edən hissə təkrar olunan hissədəki sözü sanki ardıcıl surətdə, get-gedə açır. Və təkrarın müxtəlif növlərinin mövcudluğu həmin təkrar edən hissənin həmişə eyni formada olub-olmaması zərurətindən meydana çıxır. Yəni, öz quruluşunun mürəkkəb olub-olmamasından asılı olmayaraq, təkrarların müxtəlif növləri mürəkkəb sintaktik bütövün (MSB) – mikromətnin quruluşuna daxil olur. Bununla da o, mürəkkəb sintaktik bütövün tamlığına xidmət edən məna gücləndirici bir əlaqə vasitəsi yaratmış olur. Bəzən bir sıra əsərlərdə tez-tez təkrarlanan sözlər çox vaxt bir rəmz kimi çıxış edir [2, s. 108]. Bəzən isə qısa bir ifadə daxilində işlənən təkrarlar tamamilə bədii bir əhəmiyyət kəsb edirlər, yəni yalnız onların vasitəsilə müəllif öz fikrini oxucusuna istədiyi qədər emosional və daha qabarıq çatdıra bilir.

Ümumiyyətlə, Azərbaycan dilində təkrarlanan bağlayıcılara və hətta inkar əvəzliklərinə də rast gəlinir. «Dilimizdə elə təkrar növünə də rast gəlinir ki, bu zaman təkrarlar yalnız bir cümlə daxilində olan tərkiblərdə deyil, həmçinin yanaşı gələn iki cümlədə də özünü göstərə bilir» [4, s. 172]. Belə ki, bu halda, əvvəlki cümlənin son üzvü qrammatik formada sonrakı cümlənin ilk sözü kimi işlədilə bilir. Məsələn:

Həmişə də eyni sözləri *deyərdi. Deyərdi ki*, dədənə oxşayırsan... (İ. Məlikzadə); Məsməxanım bunları fikirləşdi və evi *yadına düşdü. Yadına düşdü ki*, yenə tək-tənha qalacaq həmin evdə... (Elçin).

Təkrarlar həmişə dilin sintaktik strukturu ilə əlaqədar olur, yəni təkrarlar nə qədər müxtəlif və zəngin olsalar da, nə qədər özünəməxsus bir xüsusiliyə malik olsalar da, onlarda həmişə bir qanunauyğunluq duyulur. M. Adilov təkrarların rolunu vurğulayaraq onları belə qiymətləndirir: «Təkrarlar bəzən qədim ifadə tərzinin dildə qalığı kimi, bəzən müəyyən tarixi etnoqrafik realilər ilə əlaqədar olaraq bəzən analoji üsul ilə əmələ gələrək, bəzən tərcümə nəticəsində, bəzən fərdi yaradıcılıq ilə bağlı olaraq, bəzən daha geniş (konkret) ifadələrin ixtisarı (mücərrədləşmə) nəticəsində, bəzən üslubi-estetik tələblərdən dolayı və s. dildə özünü göstərir» [2, s. 187].

Təkrarların başlıca xüsusiyyətlərindən biri də onların mətnin yaranma və formalaşmasında mühüm rol oynamasıdır. Belə ki, onlar mətnin əsas daxili vahidi kimi fəaliyyət göstərir.

Mətn daxilində təkrar işləndikcə, sanki bir xətt boyunca hərəkət edərək, yenə də özünə qayıdaraq, nəhayət, mətni tamamlayır.

Leksik təkrarlar istər bir cümlədə, istərsə də bir neçə cümlə daxilində − yəni mətn daxilində işləndikdə, sözsüz ki, digər təkrar növləri kimi, emosionallığı, vurğunu artırır, diqqəti vurğulanan obyektə yönəltməyə kömək edir və hətta, bir çox hallarda, onların işlənilməsi mətnin məntiqinə təsir edir. Leksik təkrar MSB tərkibində ya ayrıca bir söz, ya söz birləşməsi, ya da cümlə şəklində özünü göstərə bilir. A.M. Qurbanov qeyd edir ki, «sözün təkrarı zamanı müxtəlif qrammatik vasitələrdən, məsələn əvəzliklərdən istifadə olunduğu halda, cümlənin təkrarında onlar özünü göstərə bilsə də, leksik təkrarlarla müqayisədə cümlələrin müəyyən struktur və funksional xüsusiyyətləri mövcuddur. Təkrarlar yeni informasiya daşımadıqlarına görə emfatikliyi qoruyub saxlayır və onlardan həmişə emosional dəyər ifadə etmək üçün istifadə olunur» [5, s. 149].

Leksik təkrarlar mətndə çıxış etməklə, sanki bir sistem təşkil edir. Üslubi vasitə kimi onların mənası adresatın məntiqi və emosional xarakterinə xüsusi gücləndirici təsir göstərməsindədir. Leksik təkrarlar, demək olar ki, çox zaman bu və ya digər üslubi funksiya daşıyan bir vasitə kimi çıxış edir [3, s. 94].

Azərbaycan dilində məntinin başlanğıc mərhələsi onun sonrakı mərhələlərində formal baxımdan tam və ya natamam şəkildə təkrarlana bilir. Tam leksik təkrarlanma zamanı mətnin əvvəlki cümləsindəki leksik vahid sonrakı cümlələrdə müxtəlif dəyişikliklərlə deyil, olduğu kimi, tam formada təkrarlanır. Belə təkrarlar mənanı daha qabarıq şəkildə ifadə etməyə xidmət edir. Tam təkrarların mətnin yaranmasında rolu nə qədər böyükdürsə, təkrar olunan vahidlərin növləri də bir o qədər müxtəlifdir.

I. Sözün tam təkrarı ilə yaranan MSB:

1) *Oğlan* yenə buğanın alnına yumruğu ilə qatı urdu. *Oğlan* bu qatla buğanın alnına yumruğunu dayadı, sürdü meydanın başına çıxardı (Kitabi Dədə Qorqud).

2) *Valideynləri* ev-eşiklərini ağır, zəhmli, tünd mixəyi rəngli köhnə mebellə doldurmuşdular. *Valideynləri* bufetlərinin üstünü, servantlarının içini bahalı qab-qacaqla doldurmuşdular... *Valideynləri* hind filmlərindən zövq alırdılar... *Valideynləri* böyük cah-cəlallı məclislər düzəldərdilər, bu məclislərdə uzun-uzadı adamın ürəyini çəkən duzsuz sağlıqlar deyilərdi və *valideynləri* elə bil iynə üstündə oturardılar: amandır, birdən qonaqların yeri səhv düşər... (Anar).

Göründüyü kimi, bu mətnlər ismin tam təkrarı ilə formalaşmışdır: birinci MSB-də *oğlan* sözü iki dəfə, ikinci MSB-də isə *valideynləri* sözü beş dəfə təkrar olunmuşdur.

II. Söz birləşməsinin tam təkrarı ilə yaranan MSB:

Sifət + isim strukturlu söz birləşmələrinin tam təkrarı ilə yaranan MSB:

O, təəccüb elədi ki, həmin gördüyü *qoca kişi* əyləşib yuxarı başda döşəyin üstə. Söz yox, əlüstü başa düşdü ki, *qoca kişi* elə qazının özüdür (C. Məmmədquluzadə);

Bu mətnin qurulmasında aparıcı vahid rolunda *qoca kişi* söz birləşməsi çıxış edir.

Say + isim strukturlu söz birləşməsinin tam təkrarı ilə yaranan MSB:

1) Məhbubə *on dörd yaşına* keçəndə bədbəxtlik öz qara qanadlarını onların balaca daxmalarının üstünə gərdi. Həmin gündən Nəsibə "Tərs Nəsib" dedilər. O vaxtdan beş il keçirdi. Onda Məhbubə *on dörd yaşına* yenicə adlamışdı... (İ. Məlikzadə).

2) *Yeddi günbatan əvvəl* sinəsindən yaralanmış, torpağın üstündə çabalayan turacı xatırladı... Oxxay! Xudaya, necə ləzzətlə quşu parçalayıb yemişdi: qorxusuz, çənəsinə güc verə-verə. Çünki *yeddi günbatan əvvəl* bu böyük meşədə, deyəsən, canavardan savayı bir allah heyvanı qalmamışdı... (Y. Səmədoğlu).

Birinci misalda say + isim birləşməsinin (*on dörd yaşına*) tam təkrarı ilə yanaşı, başqa növ təkrarlar da (*Nəsibə − Nəsib, Məhbubə − Məhbubə*) işlənərək mətnin komponentləri arasında bağlılığı daha da gücləndirmişdir. İkinci misalda isə *yeddi günbatan əvvəl* söz birləşməsi tam təkrar olunaraq mətnin komponentlərini bir-birinə bağlamışdır.

İsim + isim strukturlu söz birləşmələrinin tam təkrarından yaranan MSB:

Azərbaycan dilində isim + isim strukturlu birləşmələri üç növ təyini söz birləşməsi qrupunda birləşir. I növ təyini söz birləşmələri isimlə / sifətlə ismin yanaşması (bu növ birləşmələr daha çox sifət + isim modeli üzrə əmələ gəlsə də, məhdud şəkildə isim + isim modeli üzrə də düzəlir), II növ təyin söz birləşmələri ikinci tərəfin mənsubiyyət şəkilçisi qəbul etməsi, III növ təyini söz birləşməsi isə birinci tərəfin yiyəlik hal şəkilçisi, ikinci tərəfin mənsubiyyət şəkilçisi qəbul etməsilə yaranır:

1) Məgər, sultanım, yenə yazın buğayı saraydan çıxardılar. Üç kişi sağ yanından, üç kişi sol yanından dəmin zəncir ilə buğayı tutmuşdular. Gəlib meydan ortasında qoyu verdilər. Məgər, sultanım, *Dirsə xanın oğlancığı*, üç dəxi ordu uşağı (meydanda) aşıq oynarlardı. Buğayı qoyu oğlancığı, oğlancıqlara «qaç» dedilər. Ol üç oğlan qaçdılar. *Dirsə xanın oğlancığı* qaçmadı. Ağ meydanın ortasında baxdı, durdu (Kitabi Dədə Qorqud).

2) Məktubu paketdən çıxarıb oxuyur: "Ey *qəlbimin sultanı*, sevgili Çingizim".

"Paho, *qəlbimin sultanı*, sevgilim, bu məktubdan ətir iyi gəlir. Gərək oxuyam" (M.F.Axundov).

Bu nümunələrdə mətnin əlaqəliliyi müxtəlif növ söz birləşmələri vasitəsilə reallaşmışdır. Eyni söz birləşməsinin eyni formada tam təkrarlanması mətndəki cümlələri bir-birinə bağlamaqla yanaşı, diqqəti məhz təkrarlanan üzvlərə yönəldir.

Əvəzlik + isim strukturlu söz birləşmələrinin tam təkrarı ilə yaranan MSB:

Mənim qəşəng nənəm bir yay axşamı samovarımız təzəcə dızıldamağa başlayan vaxt öldü. Evimizə yığışan adamlar sanki ağlaya bilmədiklərinə haqq qazandırmaq üçün ölümün adını çəkmədilər. Asta-asta başlarını tərpədib, hamısı bir ağızdan "Arvad rəhmətə getdi" dedilər. Ancaq mən buna inanmadım. Bildim ki, arvad rəhmətə getmədi, *mənim qəşəng nənəm*, arıq nənəm, yazıq nənəm, sadəcə olaraq, öldü! (S. Qədirzadə).

Göründüyü kimi, əvəzlik + isim birləşməsinə də əlavə olunmuşdur. Bundan başqa, birləşmədə şəxs əvəzliyi ismin yiyəlik halında işlənmişdir. Birləşmə mətndə məhz bu şəkildə təkrarlanmışdır. Belə birləşmələrdə əvəzliklərin digər növləri də işlənilə bilir:

Bu gecə Ağcanın tək-tənha oturduğu otaqda elektrik lampası yandırılmışdı. *Bu gecə* dəmir şəbəkəli qoşa pəncərədən işıq süzülmürdü; artırmada da, həyət də qaranlıq idi (İ.Məlikzadə).

Mətndə təkrarlanmış *bu gecə* söz birləşməsi işarə əvəzliyi + isim modeli üzrə qurulmuşdur.

III. Məlum olduğu kimi, mətn cümlələrin sistemli şəkildə birləşməsi əsasında qurulur. Mətndə cümlənin tam təkrarı da bu sistemin bir halqasıdır və əlbəttə, mətnin struktur komponenti kimi, onun mənasının açılmasına xidmət edir. Mətndə onu təşkil edən cümlələr təkrar edilməklə bir-birinə koherent şəkildə bağlanır. Belə mətnləri tədqiqatçılar zəncirvari mikrostrukturların birliyi hesab edir [1; 5].

Onu da qeyd etmək lazımdır ki, mətndə təkrarlandıqda cümlə öz müstəqilliyini müəyyən qədər itirmiş olur. «Mətndə bütöv bir cümlə özünü sintaqma kimi göstərdikdə də biz onu öz-özlüyündə deyil, daha böyük mürəkkəb birliyin komponenti və ya məna hissəsi kimi götürməliyik» [6, s. 72]. Digər tərəfdən, mətndə elə vacib məqamlar olur ki, orada mühüm rolu məhz cümlənin təkrarı oynayır.

Məsələn, bəzi mətnlər bütövlükdə adlıq cümlələrdən ibarət olur, digərlərində isə adlıq cümlələr onlara yaxın olan cümlə növləri ilə birləşir:

Moskva. İyul ayının sonu.

Mənim kiçik otağımın pəncərələri taybatay açıqdır. Eşikdən içəri sərin meh vurur. Mən beş il yaşadığım bir otağı diqqətlə nəzərdən keçirirəm, elə bil ilk dəfədir ki, bu otaqdayam. Burada hər şey – kitab şkafının rəflərinə pərakəndə halda səpələnmiş kitablar, ... köhnə çarpayı – hər şey, hər şey nə qədər mənə əzizdir! – *Moskva. İyul ayının sonu.* Mən bu gün diplom almışam, qara cildli bir diplom. Mənim beş illik tələbəlik həyatım artıq arxada qalmışdır. Görən doğma Moskvada keçirdiyim bu beş ili mən unuda bilərəmmi? Bir gün də belə yox!

Moskva. İyul ayının sonu... (Y. Səmədoğlu. 220 № otaq).

Mətndə elə məqamlar olur ki, onun özünəməxsus düyünlü nöqtələrində məhz cümlənin təkrarı daha effektiv rol oynayır.

Söz, söz birləşməsi və ya cümlənin mətnin məna quruluşunda tam və ya natamam təkrarı bədii təsvirdə güclü təsirə malik olur, müəllifə oxucunun diqqətini cəlb etmək, mənanı daha qabarıq şəkildə çatdırmaq imkanı verir və mətnin ekspressivliyini artırır.

Ədəbiyyat

1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999.
2. Adilov M. Azərbaycan dilində sintaktik təkrarlar. Bakı: Elm, 1974.
3. Bəylərova A.M. Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 2008.
4. Kazımov Q.Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Aspoliqraf LTD MMC, 2004.
5. Qurbanov A.N. Bədii mətnin linqvistik təhlili. Bakı: Nurlan, 2005.
6. Məmmədov A.Y. Mətnin yaranmasında formal əlaqə vasitələrin sistemi. Bakı: Elm, 2001.

С.С.Садыгова

Роль лексического повтора в тексте

Резюме

В статье рассматривается лексический повтор как средство связи между компонентами текста в азербайджанском языке. Лексический повтор – одно из важных средств связи предложений в коммуникативной организации текста. Лексический повтор является одним из текстообразующих факторов. Повтор одной и той же лексемы имеет расчленяющее и объединяющее значение. Особое внимание уделяется повтору слова, словосочетания и предложения в тексте. Повтор участвует в тематическом развитии и создаёт внутренний смысловой ритм текста. Лексический повтор выполняет в основном усилительно-выделительную функцию и разнообразные экспрессивные характеристики текста. Лексический повтор, являясь выразительным средством и стилистическим приемом, обеспечивает структурную связанность компонентов текста.

S.S.Sadigova

The role of lexical repetition in the text

Summary

The article discusses lexical repetition as a means of communication between the components of the text in the Azerbaijani language. Lexical repetition is one of the important means of communication sentences in the communicative organization of the text. Lexical repetition is one of the text-forming factors. The repetition of the same token has a dismembering and unifying meaning. Particular attention is paid to the repetition of words, phrases and sentences in the text. Repetition is involved in thematic development and creates an internal semantic rhythm of the text. Lexical repetition mainly performs an amplifying and excretory function and a variety of expressive characteristics of the text. Lexical repetition, being an expressive means and stylistic device, provides structural coherence of the text components.

Rəyçi: filol.e.d., prof. İ.Z.Qasımov

Redaksiyaya daxil olub: 26.11.2020

Н.Н.ДУДКЕВИЧ

Витебский государственный университет
имени П.М.Машерова
(Беларусь, Московский пр., 33)

ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКИЕ СЛОВАРИ: ИХ НАЗНАЧЕНИЕ И АНАЛИЗ

Ключевые слова: *лингвокультурология, лингвокультурологический словарь, термин «культура».*
Açar sözlər: *mədəni dilçilik, mədəni linqvistik lüğət, "mədəniyyət" termini.*
Key words: *cultural linguistics, cultural linguistic dictionary, the term "culture".*

Появление на рубеже веков такой научной интегрированной дисциплины как лингвокультурология определило необходимость в создании лингвокультурологических словарей, которые бы включали в себя перечень терминов или понятий, связанных с особенностями языкового сознания и культурными феноменами. Словари данного типа обладают междисциплинарным характером. Они предоставляют читателю энциклопедическую информацию и выявляют семантический потенциал слова, хранящего культурную память этноса.

Вербальное запечатление элементов культуры вызывает определенные трудности у исследователей, т. к. им приходится иметь дело с относительно абстрактными понятиями: воспоминаниями, ассоциациями, ощущениями и т. д.

Идея о разработке лингвокультурологического словаря была обусловлена необходимостью исследований в области теоретических и методологических основ данной научной дисциплины, опорной частью которой выступает совокупность соответствующих терминов.

Словари, отвечающие задачам и потребностям лингвокультурологии, можно разделить на 4 группы:

1. Культурологические словари с философской ориентацией;

2. Лингвострановедческие учебно-справочныесловари, которые содержат информацию по отдельным странам и культурам;

3. Специальные лингвострановедческие справочники по отраслям знаний и сферам деятельности;

4. Толковые словари энциклопедического характера [1].

Среди существующих лингвокультурологических словарей нельзя не выделить «Словарь лингвокультурологических терминов» М. Л. Ковшовой и Д.Б.Гудкова. Данное издание можно назвать первооткрывателем в лексикографировании лингвокультурологического знания как в российской, так и в мировой науке.

Словарь включает в себя 25 основных терминов лингвокультурологии вместе с их вариантами и остальными понятиями, которые являются частью одного терминологического блока [2, с. 7].

Идея словаря появилась в результате возникшей необходимости в дальнейших разработках методологии и теории лингвокультурологии. Как и любая другая научная отрасль, данная дисциплина обладает понятийным аппаратом, в роли которого и выступает совокупность соответствующих терминов. Главной задачей словаря должна была стать систематизация данных лингвокультурологических терминов.

При его создании авторы опирались на подходы, активно используемые при составлении таких словарей, как «Константы. Словарь русской культуры» Ю. С. Степанова, «Русское культурное пространство. Лингвокультурологический словарь» Д. Б. Гуд-

кова, В. В. Красных, «Большой фразеологический словарь русского языка. Значение. Употребление. Культурологический комментарий» В.Н. Телии и т. д.

Новый словарь изучает базовые, наиболее частотные понятия, в среднем одна словарная статья насчитывает 1-1,5 страницы и состоит из следующих разделов:

1. Вокабула, представляющая нашему вниманию наименование термина и его варианты;

2. Дефиниция или толкование термина;

3. Научный комментарий, данный раздел разъясняет термин, предлагая выдержки из разнообразных научных работ по данной сфере;

4. Иллюстрации – употребление термина в ходе лингвокультурологического анализа;

5. Отсылки, демонстрирующие связь данного термина с иными терминами в словаре.

Предлагаем рассмотреть строение словарной статьи на примере термина «установки культуры»:

1. Установки культуры, -а (Культурные установки; Базовые установки культуры; Прескрипции культуры).

2. Создатели определяют данное явление как морально-нравственные ориентиры жизнедеятельности человека как личности во всех сферах его социального и духовного бытия.

3. В данном разделе в пример приводятся выдержки из научных трудов В.Н. Телии, Е. О. Опариной, И. В. Шалиной и др.:

«Язык не только закрепляет и хранит в своих единицах концепты и установки культуры: через него эти концепты и установки воспроизводятся в менталитете народа или отдельных его социальных групп из поколения в поколение» [2, с.132].

4. В качестве иллюстрации М. Л. Ковшова предлагает рассмотреть собственный лингвокультурологический анализ фразеологии:

«Языковое значение фразеологизма «свет (мир) клином сошелся» звучит как установление окончательного и единственного, предельно узкий выбор чего-либо. Образ данного фразеологизма соотносится с прескрипциями культуры и потому имеет глубокий культурный смысл. Культурные установки, метафорически выраженные в поговорках, ясно предписывают увеличивать, расширять, а не сужать границы своего пространства, говорят о том, что главное для человека в проявлении себя как личности возможность выбора…» [2, с.134].

5. В отсылках понятия «культурные установки» будут числиться отсылки к таким терминам в словаре, как «культура», «самосознание», «ценности», «менталитет».

Также данный словарь содержит обширную библиографию по лингвокультурологии. Он рассчитан на широкую аудиторию читателей и окажет незаменимую помощь в изучении основ лингвокультурологии [2, с. 151].

Говоря о лингвокультурологических словарях необходимо упомянуть «Константы. Словарь русской культуры» Ю. С. Степанова. Данное издание является словарем концептов, основных понятий русской культуры (Слово, Вера, Любовь, Знание и др). Автор замечает, что среди базовых понятий можно выделить 40-50 констант, которые являются основополагающими для культуры. От них же и образуются все остальные составляющие картины мира.

В своем словаре Ю. С. Степанов собрал около сотни констант, прилагая к каждой из них подробную характеристику и анализ. Некоторые константы рассматриваются им в парах как с близкими по значению словами (Дом-Уют, Совесть-Мораль), так и со словами со значением противопоставления (Святое-Скверна) [3].

Автор словаря предлагает нам рассматривать константы как нечто переменчивое, невечное, то, у чего можно проследить временную линию. Русская культура всегда являлась частью европейской культуры, поэтому в словаре выбранные термины анализируются в неразрывной связи с общеевропейским культурным фондом. Исходя из этого, каждая новая статья начинается с исторических справок, уточняющих этимологию данного слова.

Далее в словарной статье дается исчерпывающая информация о ранней или древней истории собственно самого концепта на примере письменных свидетельств греческой и римской культуры и других памятников.

Эволюция каждого концепта прослеживается лишь отчасти, но по возможности до сегодняшнего дня. Многие из них прошли долгий путь развития, претерпев некоторые изменения. Это значит, что упоминание производных концептов, образовавшихся в ходе истории, неизбежно.

Систематизируя выше сказанное, строение словарной статьи у Ю.С.Степанова можно описать как:

1. Этимология;
2. Ранняя европейская история;
3. Русская история;
4. Современное положение концепта.

Предлагаем рассмотреть строение и содержание словарной статьи на примере такого концепта, как «культура»:

Автор начинает словарную статью с предисловия и предлагает нашему вниманию два основных значения данного слова, существующих в русском языке: культура как совокупность достижений людей во всех сферах жизни и культура как высокий уровень этих достижений. Два этих значения неотделимы в русской картине мира.

Слово «культура» произошло от латинского «cultura», что значит «обработка», и данное значение сохранялось русским вариантом продолжительный период времени. Однако, в конце концов, смогло освободиться от этого компонента.

Далее Ю.С.Степанов приводит несколько формулировок понятия культура, заимствованных из толковых словарей В. И. Даля, Д. Н. Ушакова и С.И.Ожегова соответственно:

«Культура – обработка и уход, возделывание и возделка; образование, умственное и нравственное…»

«Культура – совокупность человеческих достижений в подчинении природы, в технике, образование, общественном строе».

«Культура – совокупность производственных, общественных и духовных достижений людей» [3, с.14].

После завершения вступительной части словарная статья имеет следующее оформление:

Первая часть (исходные определения):

1. Предыстория концепта по данным этимологии.

В данном разделе автор подробно рассматривает этимологию и совокупность значений латинского слова «cultura», которое произошло от соответствующего глагола, имеющего непосредственно индоевропейские корни. В конечном итоге «cultura» приобретает значение «обустройство того места, где живешь; обработка земли; почитание богов и т. д.», и только во времена Цицерона о данном понятии начали говорить как о концепте.

2. Некоторые новейшие определения этого концепта.

Эволюционный процесс и развитие общества неминуемо повлияли на восприятие понятия культуры. Ю.С.Степанов обращается к научным трудам А.Л.Кребера и

К.Клакхона. Они собрали и прокомментировали несколько десятков определений культуры, итоговое из которых звучит как «Культура может быть определена как все виды деятельности и не физиологические результаты человеческих особей, не являющиеся безусловно рефлекторными или инстинктивными. Это означает, что культура состоит из условно-рефлекторных и приобретенных обучением видов деятельности».

Вторая часть (ряды в культуре, структура культуры).

По учению Э.Б.Тайлора все явления культуры можно распределить по видам (обычаи, верования, материальные предметы и т. д). Развитие и перемены происходят внутри каждого из этих видов, которые и образуют эволюционные ряды. Данный феномен аналогичен систематизации видов животного и растительного мира и, суммируя все элементы жизни народа, преподносит нам общую культурную картину определенного этноса:

1. Эволюционные семиотические ряды.

Явление эволюционных семиотических рядов демонстрирует тот факт, что в культуре феномен замещения одного объекта другим и наделение второго предмета формой и обликом первого равноценно переносу имени с одного предмета на другой или же иными словами образования нового слова на основе прежнего.

2. Синхронные семиотические ряды.

Подобные ряды в культуре возникают в результате объединения явлений, принадлежащих к разным эволюционным рядам, но к одной временной эпохе.

3. Ряды третьего рода.

Иной вариант названия звучит как ментальные изоглоссы (линия на географической карте, которая соединяет пункты с одинаковыми явлениями в языке) в культуре, они же сходства и совпадения, не основанные на личном знакомстве или знании (такое понятие как «жена сына» имеет несколько наименований: «невестка», «сноха» и т. д).

4. Идея «масштаба» в истории культуры.

Впервые об идее масштаба заговорил французский писатель и искусствовед Андре Мальро. Говоря о материальных объектах, входящих в состав рядов, нельзя не заметить разницу в их размерах. В истории культуры данный процесс отличается огромными масштабами.

5. Сужающиеся и расширяющиеся процессы.

Ю.С.Степанов связывает выше упомянутую теорию о масштабах с динамикой процессов. Исследователи выделяю сужающиеся и расширяющиеся процессы, реакции на которые тоже рознятся. Как пример можно привести слова с ярко выраженной стилистической окраской. Сужение сферы употребления такого слова не вызывает никакой общественной реакции, чего нельзя сказать об обратном процессе. Расширение сферы стилистики определенного слова сопровождается общественной реакцией, зачастую негативной (употребление слова «женщина» в обращениях).

6. Группы рейтинга

Группами рейтинга называют группы концептов или отдельные единицы, которые отличаются мерой общественной важности и престижа. Однако наряду с существенностью автор указывает на недостаточную изученность данного явления в исследовании концептов.

Третья часть (заключительное определение):

Как результат всего анализа и исследования, Ю.С.Степанов предлагает полное, исчерпывающее определение понятия «культура». О культуре он говорит как о совокупности концептов и отношений между ними, что выражаются в различных рядах (стилях, изоглоссах и т. д).

Материалом как для данной статьи, так и для остальных разделов в словаре служит этимология слов, их словоупотребление и толкование, подкрепленное разнообраз-

ными работами писателей и общественных деятелей. Сам автор не называет данное издание словарем слов, говорит о нем как о словаре концептов.

Выделяя два вида подобных словарей (те, что содержать в себе лишь цитаты различных авторов и те, где создатель раскрывает понятия, используя результаты собственных исследований), Ю.С.Степанов подчеркивает тот факт, что данный словарь соединяет в себе оба типа [3, с. 9].

Очередным примером словаря, посвященного лингвокультурологии, является «Русское культурное пространство. Лингвокультурологический словарь» Д.Б.Гудкова, В.В.Красных.

Словарь включает в себя единицы, повсеместно распространенные в литературе и фольклоре и предопределяющие особенности русской картины мира, что находят свое отражение в языке еще на начальном этапе социализации, т. е. с младенчества.

Первое издание содержит около 200 словарных статей с краткой информацией, касающейся общих знаний, устоявшихся представления данного элемента в речи вместе с контекстами и иллюстрациями современного русского дискурса [4].

В виду того факта, что предпосылками для такого относительно нового вида словарей во многом служат словари лингвострановедческой направленности, предлагаем рассмотреть и проанализировать несколько выдающихся изданий, нацеленных на изучение картины мира англоговорящего населения.

Среди числа первых лингвострановедческих словарей ученые упоминают словарь Г.Д. Томахина «Великобритания», включающий около 9500 английских слов и словосочетаний [5]. Все собранные в нем понятия, так или иначе, касаются общественной жизни, образования и традиций страны.

Данный словарь представляет нашему вниманию переводы-эквиваленты английских реалий, их толкования и исторические, политические и социальные коннотации. Например, автор противопоставлением показывает читателю разницу между словом «chapel», одним из вариантов перевода которого является «неангликанская церковь», и словосочетанием «churchofEngland», что напротив называет государственную (англиканскую) церковь. Данные понятия – важная часть картины жизни Великобритании: прихожанам неангликанской церкви зачастую приписывают низкое положение в социуме по сравнению с людьми, посещающим государственную церковь.

Словарь знакомит читателя с ложными друзьями переводчика, подобными «publicschool», «BoxingDay», «Women'sInstitute» и др., помогая в будущем избежать недопонимания при встрече с ними.

Словарь «Великобритания» включает в себя также теоретическое приложение, в котором приводятся лексико-семантические характеристики языковых явлений. К особенности данного издания можно отнести рассмотрение языковых реалий в качестве связанных с соответствующим языковым выражением предметов мысли (референтов). Исходя из уровня их уникальности, референты делятся на 3 группы:

1. Универсалии – элементы, по основным и второстепенным признакам тождественные в обеих культурах («радость», «грусть», «вода» и др.);

2. Квазиреалии–реалии, у которых совпадают основные признаки, и отличаются второстепенные («sabbaticalyear», что обозначает «отпуск для научной командировки» и русское понятие «творческий отпуск»);

3. Безэквивалентная лексика – уникальные референты, имеющие значение только в определенной культуре и не обладающие соответствующим эквивалентом во второй («перестройка», «рубль», «BigBen»).

Также словарь Г. Д. Томахина объединяет в себе такие языковые единицы, как жаргонизмы, профессиональную лексику, сленг, историзмы, неологизмы и имена

собственные, включающие в себя так называемые «репрезентативные имена» («Nosey Parker», так называют любопытных людей, которые всюду суют свой нос и др.) [5].

Еще одним ярким примером лингвострановедческого двуязычного словаря является англо-русский словарь Г. В. Черновой «Американа» или «Americana English-Russian Encyclopedic Dictionary», который первым собрал обширные сведения о Соединенных Штатах Америки. Над данным словарем доктор филологических наук Г.В.Чернова в сотрудничестве с В.Н.Беляковым, М. В. Васяниным, О.Н.Гришиной, Э.А.Иваняном и др. работала свыше пяти лет [6].

Издание включает в себя около 20 тысяч словарных статей, представленных в алфавитном порядке и собравших вместе совокупность разнообразных данных о географии страны, растительном и животном мире, государственной системе, образовании, политической, экономической, социальной жизни. Не обходят создатели стороной и культуру, литературу, спорт, кинематограф и историю США. Одной из особенностей словаря является удачный ход авторов: все устаревшие названия реалий они заменили новыми («Семилетняя война в Америке» была переименована в «Война с французами и индейцами», таким образом был использован метод калькирования с английского наименования «FrenchandIndianwar»).

Схема словарной статьи выглядит следующим образом:

1. Заглавное слово, понятие;

2. Перевод на русский язык;

3. Фонетическая транскрипция с учетом особенностей американского произношения (для слов и словосочетаний с необычным произношением, имен собственных и т. д.)

4. Объяснительная часть статьи на русском языке с информацией энциклопедического характера и перекрестными ссылками к другим статьям в словаре [6, с. 34].

Анализ существующих словарей лишь в очередной раз доказал присутствие в каждом из них культурно-ориентированной специфики, за счет которой и исследуются национально-культурные реалии и картина мира, выраженная в языке. Несмотря на тот факт, что культуроведческую лексикографию можно назвать относительно развитой отраслью, культурологические словари не отличаются своей полнотой, когда речь заходит о семантике слов и особенностях национальной лексики.

Данная проблема касается и словарей, систематизирующих собственно лингвокультурологические термины отдельно от общелингвистических единиц. Количество подобных словарных изданий крайне невелико и относятся они преимущественно к русскому лингвистическому пространству, хотя и существуют примечательные, детально продуманные экземпляры («Словарь лингвокультурологических терминов» М.Л.Ковшовой и Д.Б.Гудкова), но некоторые из них требуют доработки в содержании и построении словарных статей.

Литература

1. Воробьев В.В. Лингвокультурология / В.В.Воробьев. – М.: Издательство РУДН, 2006. – 112 с.

2. Словарь лингвокультурологических терминов / Авторы-сост. Ковшова М.Л., Гудков Д.Б. / Отв.ред. М.Л. Ковшова. – Москва: Гнозис, 2017. – 192 с.

3. Степанов Ю.С. Константы. Словарь русской культуры. Опыт исследования / Ю.С. Степанов. – М.: Школа «Языки русской культуры», 1997. – 824 с., 51 илл.

4. Русское культурное пространство: Лингвокультурологический словарь: Вып.первый / И.С. Брилева, Н.П. Вольская, Д.Б. Гудков, И.В. Захаренко, В.В. Красных. – М.: Гнозис, 2004. – 318 с.

5. Томахин Г.Д. Великобритания. Лингвострановедческий словарь / Г.Д.Томахин. – М.: ООО «Издательство АСТ», 2001. – 336 с.

6. Англо-русский лингвострановедческий словарь «Американа» / Г.В.Чернова [и др.]; под общ. ред. Г.В.Черновой. – Смоленск: Полиграмма, 1996.– 1420 с.

N.N.Dudkeviç

Linqukulturoloji sözlüklər: məqsədi və təhlili

Xülasə

Məqalədə mövcud linqvokulturoloji lüğətlər təhlil edilir. Bu tip lüğətlərin quruluşu və məqsədi qeyd edilir. Mövcud lüğətlərin təhlili, hər birində dildə ifadə olunan milli və mədəni reallıqlar və dünya mənzərəsinin araşdırıldığı üçün mədəniyyət yönümlü xüsusiyyətlərin olduğunu bir daha sübut edir.

N.N.Dudkevich

Linguoculturological dictionaries: their purpose and analysis

Summary

The article analyzes the available linguistic and cultural dictionaries. The structure and purpose of dictionaries of this type are noted. The analysis of existing dictionaries only once again proved the presence in each of them of culturally oriented specifics, due to which the national and cultural realities and the picture of the world, expressed in the language, are investigate.

Рецензент: д.ф.пед., доц. Я.К.Алхасов

Redaksiyaya daxil olub: 28.10.2020

У.Г.ШАХВЕРДИЕВА

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

МЕТАФОРА В ЯЗЫКЕ АЗЕРБАЙДЖАНСКИХ ГАЗЕТ

***Ключевые слова**: метафора, азербайджанская газета, концепт, дискурс.*
***Açar sözlər**: metafora, Azərbaycan qəzeti, konsept, diskurs.*
***Key words**: metaphor, Azerbaijan journal, consept, doscourse.*

В азербайджанском языке в целом уровень метафоризации и фразеологизации исторически был очень высоким, столь же высоким он остается и в настоящее время. Возможно, в этом кроется одна из причин сложности составления корпуса единиц вторичной номинации в азербайджанском языке. Метафоры на общеязыковом уровне занимают столь прочное место в лексико-семантической системе, что они не всегда воспринимаются носителями языка как единицы вторичной номинации. Вообще в азербайджанском языке концептуальные метафоры не воспринимаются как экспрессивное дополнение к основным номинациям языка, или как расширение номинативных возможностей языка. Видимо, это также носит универсальный характер. Иными словами, концептуальные метафоры органически «расплавляются» в семантической системе языка и не выделяются с точки зрения экспрессии, не производят шокового впечатления, присущего единицам вторичной номинации. С одной стороны, это говорит об удачности метафоры, которая вписывается в систему языка. С другой стороны, нейтрализация метафор означает ослабление их коммуникативной значимости. Дело в том, что именно экспрессивное воздействие метафоры на дискурс способствовало повышению его коммуникативной эффективности.

Использованное здесь слово *töhfələr* в основном номинативном значении определяется как «дары», *töhfə* - «подарок». Так, в АРС значение слова определяется следующим образом: «TÖHFƏ сущ. 1. дар, подарок, преподношение. *Təbiətin töhfələri* дары природы, *əmək töhfələri* трудовые подарки; 2. *перен*. лепта, вклад (что-л. ценное, внесенное в науку, культуру, литературу, в какое-л. общественное дело и т.п.). *Kiçik töhfə* скромный вклад (обычно автор о своем труде), *Azərbaycan ədəbiyyatı xəzinəsinə layiqli töhfə* достойный вклад в сокровищницу азербайджанской литературы, *dünya elminə sanballı töhfə* весомый вклад в мировую науку; *öz töhfəsini vermək* nəyə, haraya внести свой вклад во что» (1, 4, 529-530).

Анализ словарной статьи, на наш взгляд, свидетельствует о том, что и первое значение в достаточной степени дифференцировано. Во всяком случае об этом свидетельствуют приведенные примеры. Если речь идет о подарке, то в сочетании *Təbiətin töhfələri* «дары природы» мы уже наблюдаем трансформацию значения. В этой связи интересно рассмотреть значение лексемы *töhfəsiz* «нареч. без подарка, без преподношения и т.п. *Töhfəsiz gəlmək* haraya прийти без подарка куда» (1, 4, 530).

Метафора по своей сути такое языковое явление, которого в принципе невозможно избежать в речи. Такого рода традиционные единицы вторичной номинации производят впечатление банальных языковых средств и порой вообще не воспринимаются как яркие образные средства. В то же время именно яркости и выраженной экспрессивности ждет адресат от метафоры. Однако банальность часто и есть свидетельство устойчивости выражения, что в свою очередь говорит о концептуальном содержании. Иными словами, метафора может не восприниматься как таковая в силу привычности образа. Привычность же образа означает уместность и эффективность

концептуального переноса. В языке современной азербайджанской прессы чаще всего встречаются традиционные метафоры, что позволяет утверждать, что метафоротворчество в языке современной азербайджанской публицистики не носит интенсивного характера.

Обратимся к другим примерам. Например, “Olimpiada paytaxtında siyasi raund” (Ülfət, 4 avqust 2012, 31 (822). В этом заголовке на эксплицитном для широкого носителя языка использованы две концептуальные метафоры. Они очевидны и в то же время носят подлинно концептуальный характер, что способствует их «стертости». Первой из них является метафора «столица». Метафора носит устойчивый характер как для русского, так и для азербайджанского языка. В МАС русское слово *столица* отмечается фактически в одном значении, но при этом дается употребление, которое не выделяется в отдельную и самостоятельную семему: «Главный город, административно-политический центр государства // Какой-л. город, село, являющиеся центром чего-л. (области, края и т.п.) (2, 4, 272). Как видим, интересующая нас метафора здесь не фиксируется, хотя и носит устойчивый характер. Не отмечается это значение и в Азербайджанско-русском словаре (1, 3, 699). Более того, в словарях азербайджанского языка не фиксируется и отмеченное в МАС употребление. Вместе с тем конфигурация *olimpiada paytaxtında* абсолютно понятна и не требует каких бы то ни было объяснений. Дифференциальным признаком во всех случаях является сема «средоточие», «управление» или «центр». Опираясь на данную когницию или концепт «центр», слово *paytaxt* может переноситься на любую ситуацию, в которой требуется обозначение центра.

Столь же традиционной и широко употребительной является метафора «раунд». Данная метафора также носит концептуальный характер, поскольку ассоциация с периодизацией спортивного состязания актуальна, можно сказать, во всех сферах жизни. Следует отметить, что концепт «раунд» строится на двух когнитивных признаках, каждый из которых играет важную роль в метафоризации. Первым когнитивным признаком, безусловно, является сема «единоборство». Вторым – «период», «этап». Следовательно, в тексте должны актуализироваться оба признака, хотя даже в случае актуализации в зависимости от содержания текста один из них может быть представлен эксплицитно, другой – имплицитно. Например, после указанного заголовка следует текст следующего содержания: “Son günlər Londona olan diqqət tək olimpiya oyunlarının gedişatı ilə bağlı deyildi. Yeddi illik fasilədən sonra Rusiya Prezidenti Vladimir Putinin Dumanlı Albiona gəlişi siyasi iqlimdəki müsbət dəyişiklərlə əlaqələndirilirdi” (Ülfət, 4.8.2012).

В этом тексте концепт «раунд» представлен когнитивным признаком «этап». Хотя в самом тексте слово *raund* не употребляется, употребленное в заголовке оно соотносится с содержанием текста. Следует также отметить, что если использование данного слова в тексте не является случайным, т.е. адресант отдает себе отчет во всех нюансах смысла, то сами олимпийские игры представлены здесь всего лишь как этап политической или какой-либо другой борьбы. Поскольку политический раунд предшествует олимпийским играм, это объединяет их, предполагая, что это два этапа единого представления. Объективный смысл, вытекающий из использованных слов, таков. Другое дело, что автор текста может и не вдаваться в подробности.

Еще одной концептуальной метафорой в этом тексте является выражение *siyasi iqlim*. Устойчивой и универсальной метафорой является «климат» в значении «сложившиеся условия; конъюнктура». Метафора является совершенно стертой и не воспринимается как единица вторичной номинации, тем не менее, она вполне уместна в данном контексте.

Еще одна метафора в этом тексте: “Amma bu o demək deyil ki, Paris yerli diasporun təkidi nəticəsində Bakıya arxa çevirəcək” (Ülfət, s. 8). Здесь также употребляется широко распространенная метафора «спина». На самом деле в данном контексте мы встреча-

емся с фразеологизмом *arxa çevirmək* (поворачиваться спиной). Как метафора «спина», так и фразеологизм «поворачиваться спиной» представляют собой вторичную номинацию, однако в структуре лексемы она представлена ярче. Дело в том, что фразеологическое значение носит комбинаторный характер, в силу чего фразеологизм всегда ассоциируется с ситуацией. Кроме того, в тех случаях, когда образная основа носит яркий характер, фразеологизм вообще может восприниматься как обычное словосочетание. Возможны также случаи употребления фразеологизма в совмещенной функции, т.е. одновременно при актуализации исконного денотата и образного. Метафора же «спина» носит фундаментальный характер. Причем «спина» обнаруживает несколько когнитивных признаков, одни из которых носят положительный характер, другие же отрицательный. С точки зрения отрицательной коннотации концепт «спина» противопоставляется концепту «лицо». «Лицо» характеризуется однозначно положительной коннотацией. Например, азербайджанцы говорят “Allah üzümə baxdı”. На первый взгляд кажется, что это очень простое выражение, означающее «Аллах увидел меня, заметил меня, выделил из толпы». Разумеется, это значение выражено эксплицитно и бесспорно, однако, на наш взгляд, содержание здесь более глубокое. Речь идет о налаживании особого духовного, ментального моста между Всевышним и человеком. Именно поэтому в пространстве духовности различных народов приобретает особое значение представление об интуитивном знании. У всех народов мира, даже самых первобытных племен, существует знание о глубокой связи между Создателем мира и отдельным человеком. Концепты «лицо» и «спина» реализуются в контексте этих представлений. Таким образом, метафора «спина» и соответственно «поворачиваться спиной» обнаруживают не только концептуальный характер, но и универсальный, общечеловеческий. Вообще такой характер присущ всем метафорам, основанным на переосмыслении соматизмов.

В газете “Baku Post” (09. 11. 2013, № 83) опубликована статья под названием “Ermənistan “rus çəkici” ilə “Qərb zindanı” arasında” (стр. 2). В этом тексте мы видим очевидную кальку с русского выражения *между молотом и наковальней*. Для азербайджанского языка она не является характерной, именно по этой причине автор статьи берет компоненты русского выражения в кавычки, причем он разбивает фразеологизм на составные части. Таким образом, единый фразеологизм превращается в две метафоры: «молот» и «наковальня». Обе метафоры носят концептуальный характер, однако важно подчеркнуть одну весьма существенную особенность. Дело в том, что фразеологизм обнаруживает единое, носящее комбинаторный характер значение. Он означает «оказаться в очень трудном положении, между двух противоборствующих сил, когда невозможно угодить обеим». Автор статьи разбивает фразеологизм на две непосредственно составляющие и таким образом чрезвычайно актуализирует внутреннюю форму, молот становится молотом, наковальня – наковальней. Однако контекст удивительным образом трансформирует метафорические концепты. Одно дело, когда в контексте реализуется общее фразеологическое значение, когда неважно увязывание с конкретными объектами концептов «молот» и «наковальня», важно, что человек оказался между двумя враждебными силами, и ему нужно угодить обеим. Разбивая их, автор делает необходимым увязывание концептов с Россией и Западом. В этом случае совершенно необходимо интерпретировать концепты «молот» и «наковальня». Например, нужно понять, что такое «молот», чтобы понять, почему именно Россия в этом контексте становится молотом. С другой стороны, требуется интерпретация концепта «наковальня», чтобы понять, почему именно Запад становится «наковальней». Следует также отметить, что, несмотря на неожиданное употребление известного выражения, соответствующие концепты вполне позволяют осмысленную интерпретацию. Например, все бывшие союзные республики, а ныне независимые государства испытывают по-

стоянное давление со стороны России, что на современном этапе закономерно и естественно. Речь не идет о том, что подобное давление является хорошим или плохим. Естественно, для России оно закономерно, для республик – в той или иной форме насилие. Речь идет о том, что реализация когнитивного признака «удар» или «насилие» делает закономерной ассоциацию России с молотом. «Наковальня» ассоциируется или может ассоциироваться с Западом, поскольку считается, что Запад стремится сделать республики прозападными, во всяком случае, в цивилизационном отношении. Хотя понятно, что данный концепт предполагает не только пространство (наковальня), но и удары, если Запад стремится выковать новую форму.

В этой статье концептуальные метафоры содержат и подзаголовки. Например, “Suverenliyin qurban verilməsi: erməni təcrübəsi”. Здесь используется широко распространенная концептуальная метафора «жертва». Когнитивным признаком важнейшим для данного концепта является семема «оторвать от себя что-либо очень важное». В МАС выделяется такой важнейший признак «жертвы», как «убийство». Например, здесь отмечается, что жертва – «предмет или живое существо (обычно убиваемое), приносимое в дар божеству по обрядам некоторых религий» (49, 1, 479). Конечно, дефиниция отражает основное номинативное значение слова *жертва* в русском языке. Помимо этого значения, МАС выделяет еще четыре, в каждом из которых представлен какой-либо когнитивный признак, ассоциирующийся с концептом «жертва» в русском массовом сознании. Например, второе значение ассоциируется с действием, третье с даром, здесь отмечается, что данное значение устарело. Четвертое значение базируется на когнитивном признаке «отказ», «отречение». Пятое – «пострадать от какого-л. несчастья» (2, 1, 479).

На наш взгляд, рассматриваемый контекст не является однозначным с точки зрения вербализации концепта «жертва». Так, здесь возможна актуализация признака «убийство» в том случае, если адресант хочет подчеркнуть, что суверенитет этой страны уничтожен на корню, причиной чего является ее нежелание отказаться от агрессивной политики. Менее жестким является упор на когнитивном признаке «отказ» или «отречение». В этом случае речь идет о том, что Армения добровольно отказывается от собственного суверенитета с тем, чтобы ее агрессивная внешняя политика находила поддержку в тех странах, в жертву которым она принесла свой суверенитет. Конситуация также предполагает двоякое прочтение данной концептуальной метафоры. С одной стороны, и в лучшем для Армении случае, она решает тактические задачи, отказываясь от отстаивания собственных государственных интересов. В худшем для этой страны случае она вовсе приносит в жертву свой суверенитет, т.е. однозначно отказывается от него ради поддержки агрессивных планов со стороны. Всем памятно заявление одного видного российского политического деятеля о том, что Армения это форпост России. На что Президент Азербайджана отреагировал немедленно, заявив, что для него это открытие. До сих пор он думал, что имеет дело с суверенной страной, а это оказывается всего лишь марионетка другой страны. Конечно, в рассматриваемом контексте слово *qurban* выступает в роли концептуальной метафоры. Однако контекст и пресуппозиция значительно актуализируют внутреннюю форму выражения. Ситуация подсказывает, что Армения действительно не заботится о реальности собственного суверенитета, понимая, что ее суверенитет совершенно несовместим с агрессивной политикой по отношению к соседям.

Другой подзаголовок: “Odla su arasında qalmış” siyasət”. Здесь также используется широко известный азербайджанский фразеологизм. В азербайджанском языке концепты, создающие этот фразеологизм, не могут расцениваться как однозначные. Можно сравнить их реализацию в другом языковом выражении: “Biri od olanda, o biri su olmalıdır”. Здесь, в отличие от первого фразеологизма, концепт «вода» выступает однозначно положительным, концепт «огонь» – однозначно отрицательным. В рассматри-

ваемом же подзаголовке оба концепта реализуются как отрицательные. Оба реализуют когнитивный признак «гибель». Первое предложение, следующее за этим подзаголовком, также содержит в себе концептуальные метафоры и одновременно раскрывает содержание самого подзаголовка. Например: “Bu vəziyyətdə Avropaya reverans məsələsi nağıldır” (с. 2). В этом предложении две метафоры, которые также носят универсальный характер, общепонятны и концептуально значимы. Это «реверанс» и «сказка». Первое это метафора, строящаяся по модели «физическое действие – психическое действие». В МАС русское слово *реверанс* фиксируется в двух значениях. Первое: «почтительный поклон с приседанием», второе дается не как самостоятельная семема, а как употребление, после двух вертикальных черточек: «преувеличенное выражение почтительности» (2, 3, 691). Второе значение, или употребление, снабжается пометой *ироническое*.

В приведенном тексте слово *reverans* употребляется в значении «уважительный жест в чью-либо сторону». Отличие от основного номинативного значения этого слова заключается в его афористичности, т.е. в этом случае человек не буквально кланяется и приседает, а, чтобы понравиться, делает что-либо в угоду кому-либо. МАС не отмечает этого значения, а указанное словарем и особенно с пометой *ироническое* не соответствует отмеченному нами. Здесь скорее речь идет об издевательском поклоне. Именно отмеченное нами значение «реверанса» как «почтительный жест, желание понравиться, действие или поступок в угоду кому-либо» делает осмысленным в этом контексте и употребление слова *nağıl*. Для концепта «сказка» основным когнитивным признаком является «несбыточность», «фантастичность». Вот почему, оказавшись между европейским молотом и российской наковальней, для армян реверанс в сторону Запада является сказкой, т.е. совершенно несбыточной мечтой. Суть контекста в утверждении невозможности этого реверанса. При своем желании армяне не смогут сделать его, поскольку Россия не позволит. Такая пресуппозиция делает осмысленным и весь контекст. Вот что значит «принесение суверенитета в жертву; армянский опыт». Она не может хотеть кому-то нравиться без разрешения.

Следующее предложение: “Görünür, ermənilər özlərini bu təşkilata baha satmağa cəhd edir” (с. 2). Концептуальной метафорой в этом тексте является «продать». Столь же обычной является метафорическая конфигурация «продать себя», или «подороже продать себя». Совершенно очевидно, что и эта концептуальная метафора четко вписывается в указанную парадигму о «жертве суверенитета». Таким образом, проведенный анализ выявил одну существенную для азербайджанского публицистического дискурса особенность, состоящую в том, что в текстах употребляется не одна, а несколько концептуальных метафор. Фактически эти метафоры составляют систему, они по-разному говорят об одном и том же, существенным образом дополняя друг друга. Как можно было заметить, метафоры могут выступать синонимами, но при их употреблении ситуативно актуализируются их дифференциальные признаки, что и позволяет усиливать коммуникативную эффективность дискурса.

Рассмотренные примеры дают основание для следующего заключения. Концептуальная метафора в структуре современного азербайджанского публицистического дискурса занимает центральное место. В отличие от российского и американского, азербайджанской концептуальной метафоре, как и дискурсу в целом, присущ консерватизм. В употреблении концептуальной метафоры прослеживается приверженность культурной традиции. Отход от традиционного словоупотребления почти не наблюдается, импровизация наблюдается в расчленении или контаминации. Во всех случаях ситуативного изменения актуализируется образная основа, в результате чего повышается уровень экспрессивности дискурса в целом, и, таким образом, повышается уровень коммуникативной эффективности. В целом этот процесс имеет как языковые, так и экстралингвистические причины. Среди языковых причин важнейшей является значи-

тельность культурной традиции и ее богатство. Среди экстралингвистических – контроль лингвонормативных институтов.

Литература

1. Азербайджанско-русский словарь в 4-х томах. Том 1. Баку: Элм, 1986, 576 с.; Том 4. Баку: Мутарджим, 2000, 1289 с.
2. Словарь русского языка в 4-х томах. Академия наук СССР. Институт русского языка. Том 1. М.: Русский язык, 1981, 698 с. Том 4. М.: Русский язык, 1984, 794 с.
3. Аскольдов С.А. Концепт и слово // Русская речь. Сборник под редакцией Л.В.Щербы. Л.: ACADEMIA, 1928, с. 28-44.

Ü.H.Şahverdiyeva

Azərbaycan qəzetlərinin dilində metafora

Xülasə

Müasir Azərbaycan publisistik diskursunun strukturunda konseptual metafora mərkəzi yer tutur. Rusiya və Amerikadan fərqli olaraq, Azərbaycan konseptual metaforasına, ümumilikdə, mühafizəkarlığ xasdır. Konseptual məcazın istifadəsində mədəni ənənəyə sadiqlik özünü göstərir. Ənənəvi söz istifadəsindən fərqlilik, demək olar ki, müşahidə edilmir, improvizasiya, parçalanma və ya kontaminasiyada müşahidə olunur. Ümumiyyətlə, bu proses həm dil, həm də ekstralinqvistik səbəblərə malikdir. Dil səbəbləri arasında mədəni ənənənin əhəmiyyəti və zənginliyi vacibdir. Ekstralinqvistik səbəblərin arasında linqvonormativ institutların nəzarəti var.

U.H.Shahverdiyeva

Metaphor in the language of Azerbaijani newspapers

Summary

The conceptual metaphor occupies a central place in the structure of modern Azerbaijani journalistic discourse. Unlike the Russian and American ones, the Azerbaijani conceptual metaphor, as well as the discourse in general, is characterized by conservatism. The use of the conceptual metaphor traces the commitment to the cultural tradition. There is almost no departure from the traditional usage of words, improvisation is observed in the dismemberment or contamination. In general, this process has both linguistic and extralinguistic reasons. Among the linguistic reasons, the most important is the significance of the cultural tradition and its richness. Among the extralinguistic ones is the control of linguo-normative institutions.

Rəyçi: dos. X.Ə.Babaşova

Redaksiyaya daxil olub: 05.12.2020

Y.A.ABDULLAYEVA
filologiya üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

BRİTANİYA POSTMODERNİST ROMANINDA MİFOLOGEMLƏR (Loruens Norfolkun "Lampriyerin lüğəti" romanı əsasında)

Açar sözlər: *mifologem, monomif, arxetip, postmodernist roman*
Ключевые слова: *мифологем, мономиф, архетип, постмодернистский роман*
Key words*: mithologem, monomyth, archetype, postmodern novel*

XX əsrin sonu və XXI əsrin əvvəli postmodernist nəsrdə mifologizmlər müəllif priyomu kimi mifologem və arxetiplərlə oyun formasında özünü göstərir. Belə təsvirdə postmodernistlərin ironiya və bədii şərtilik prinsipi mifoloji pafosu azaldır və müasir dünya ilə qədim dünya arasında paralellərə yol açır. Motiv, obraz-məna və süjet-janr xüsusiyyətlərini müəyyən edən mifologemlərin qaynaqları arxetiplərə söykənən romanlara aydınlıq gətirir. Q.Yunqa görə: "mifoloji obrazlar arxetiplərə çevrilərək bəşər nəslinin sonrakı dövrlərdə bədii yaradıcılığının əsasını təşkil edir" [3, s.143]. Belə yanaşma bir tərəfdən hər hansı bir ədəbiyyatın milli özünəməxsusluğunu müəyyən edir, digər tərəfdən isə ədəbiyyatın müəyyən inkişaf mərhələsində mifdən qaynaqlanan elementləri özünəməxsus şəkildə milli ədəbiyyatın "genetik kod"u kimi çıxış edir. Elə bu səbəbdən arxetip obrazların təhlili ilkin obrazların universal invariantlığını üzə çıxmasına yardım edir.

Bədii ədəbiyyat mif, mifik süjet və mifologemlərlə zəngindir və əgər bəşər sivilizasiyası Y.Meletinskinin ibarəsi ilə deyilsə mifdən ayrılmaya doğru gedirdisə, XX əsr ədəbiyyatında biz əksinə mifə qayıdışın şahidi oluruq[80]. Bu onunla bağlıdır ki, mifologiya öz simvollaşması ilə şəxsiyyət modelini və ictimai davranışı müəyyən edir. Mifologizm müəllif tərəfindən şüurlu şəkildə mətnə mifoloji elementlərin "yeridilməsi" deməkdir. Müəllifin qəhrəman, motiv, mifologem və mifoloji kompozisiyadan istifadəsi öz əsərini universal müstəviyə çıxarmağa şərait yaradır. Məlumdur ki, mifdəki mövcudluq bütün xüsusiyyətləri ilə təsvir edilir və bu üzdən mifoloji motivlərdən istifadə xüsusi vahid dünya modelinin yaranmasına bərabərdir. Digər tərəfdən miflər xaos və kosmos, xeyir və şər kimi ənənəvi oppozisiya üzərində qurulur. Müasir əsərdə mifologemlərin istifadəsi isə onun mövzu və problematikasının universallığından xəbər verir. Mifin simvolikliyi və mifoloji motivlər bədii əsərin çoxqatlı şərhinə yol açır, obraz və problemin qoyuluşunun geniş spektrlərindən xəbər verir. Mifologem dedikdə biz bədii əsərdə mifdən götürülən mövzu və motivlərin, arxetiplərin reallaşması, mifoloji mətnin "qırıntıları", metaforik şəkildə mif dünyasıyla ortaqlıq və metonimiya şəklində süjet və hadisələrin əvəzlənməsini nəzərdə tuturuq[130].

Y.Meletinski "Mifin poetikası"[80] əsərində mifoloji romandan danışarkən müasir romanda mifologizmlərdən söz açır və qeyd edir ki, XX əsrin nəsrində o ənənəvi miflə əlaqədə mətnin semantikası və kompozisiya xüsusiyyəti kimi çıxış edir. Bu vacib məqamı postmodernist romana da aid etmək olar. Postmodernist roman özünəməxsus ikiliyə malikdir və bu özünü həm struktur və həm məzmun baxımında büruzə verir. Bir tərəfdən postmodernist

romanda mifdən istifadə mifologemlər şəkilində üzə çıxırsa, digər tərəfdən o elə həmin mifologemləri "ciddiyə" almır, yeni mətn yaranmasında birbaşa deyil, dolayısıyla istifadə edir. Postmodernist romanın məzmununa təsir edən mifologemlər epizod və motivlərə bölünür, mətnə uyğun mövzuda iştirak edir və təhkiyəyə "yerləşir". İlk baxışdan birbaşa iştirakçı olmayan mifologemlər ideya, obraz, motiv şəklində yeni müəllif mətnini yaradır. Təhkiyə prosesində "əslindən" götürülmüş miflər romanın ideya əsasını təşkil edirsə, mifologemlərdən istifadə yeni mətn yaradır. Postmodernist roman "əsli" ilə yeni yaranan mətn arasında yerləşir. Göründüyü kimi mif və ya mifologemlər romanın mətniylə qarşılıqlı əlaqədə mifoloji komponentləri müəyyən edir.

Y.Meletinskiyə görə mifologemlərin əsas xüsusiyyətlərindən biri təbiətin ikili xarakterini dəyişməyə qadir olmasıdır. Mədəni qəhrəman və onun demonik-komik variantı bədii əsərlərdə qəhrəman və onun triksterinə ayrılır. Q.Yunq isə triksteri insan qəlbinin şüursuz mövcudluğu kimi müəyyən edir. Şüursuzuq bu arxetipin əlamətdar xüsusiyyətidir və öz istəklərini yerinə yetirmək üçün trikster yalana, uydurmaya əl atır, adi qaydaları pozur. Q.Yunq üçün arxetip psixikanın struktur elementidir və o ibtidai insanın bəsit dünyasında yaranır. Q.Yunq belə fikir irəli sürür ki, arxetiplər bizim hər birimizdə indiyə qədər yaşayır və o "bütün bəşəriyyətin danılmaz ümumi vərəsəsidir" [129, s.34]. Bu üzdən insan psixikasının əsasını bizim mifologemlərdən və yuxulardan tanış olduğumuz bəzi qədim obrazlar təşkil edir.

Q.Yunqun müəyyən etdiyi trikster postmodernist romanın əhatə dairəsinə düşür və arxetip-süjetdə arxetip-obrazın triksteri şəklində yenidən "zühur" edir.

İngilis-amerikan mifoloji tənqidinin aparıcı simalarından olan Cozef Kempbell "Min üzlü qəhrəman" (The Hero with a Thousand Faces)[70] əsərində yazır ki, bütün miflərdə qəhrəman demək olar ki, eyni həyat yolu keçir, eyni sınaqlardan çıxır. Dünya xalqlarının miflərini öyrənən Cozef Kempbell belə qənaətə gəlir ki, bir çox miflər arxetip qəhrəmanın səyahəti kimi ümumi süjet strukturuna malikdir və o, belə hekayətləri monomif adlandırır. Q.Quliyev isə monomifi belə izah edir: "ilkin struktur qismində monomif mifoloji invariantdır, bütün söz sənəti nümunələrində həmişə mövcuddur və onun yardımı ilə ədəbi-bədii əsərin ən dərin qatlarına nüfuz edib onun mahiyyətini üzə çıxarmaq olar: monomif bütün ədəbi-bədii söz sənətinin arxetipi, onun universal motividir" [3, s.147].

Eyni mifologemi bütün dünya mifologiyasına aid edən C.Kempbell onu da əlavə edir ki, qəhrəmanın sərgüzəştləri oxucuya və qəhrəmana tanış olmayan xüsusi bir dünyada yaşanır. C.Kempbell fikrini belə əsaslandırır ki, mifik qəhrəmanın sərgüzəştləri bir neçə mərhələdən ibarətdir. İlk öncə o, o çağırışı qəbul edib adi dünyanı tərk edir və daha ağıllı birinin köməyi ilə qeyri-adi dünyaya gedən yolda qarşısına çıxan maneələri dəf edir. Daha sonra qəhrəman sınaqlara məruz qalır, bu halda ona müttəfiqi kömək edir, daha sonra ən ağır sınaqdan keçib mükafat alır. Ardınca o, metaforik ölümlə qarşılaşır və sonda yenidən "dirilir". Bunun ardınca qəhrəman öz mükafatı ilə adi dünyaya qayıdır və bu halda da onu sınaqlar gözləyir. Bu "dönüş" ona verilən mükafatı real dünyanı nizama salmağa şərait yaradır. C.Kempbellin monomif nəzəriyyəsini Böyük Britaniya yazıçıları Lourens Norfolkun "Lampriyerin lüğəti", Kazuo İşiquronun "Dəfn olunmuş nəhəng", Nil Qaymanın "Tanrıların ölümü" romanlarında izləmək olar. Oxucuya və qəhrəmana tanış olmayan xüsusi dünya yaradan L.Norfolk, K.İşiquro və N.Qaymanın romanları məhz C.Kempbellin irəli sürdüyü monomifin strukturunu müəyyən edir.

Böyük Britaniya romanında yazıçılar müxtəlif mənşəli mifoloji arxetip-süjetlərdən yararlanırlar. Bu sıraya ilk növbədə "Bibliya" və yunan mifləri aid edilir. Britaniya ədəbi mühitində postmodernist romanların yaranması ilə əlaqəli bu kimi mifoloji süjetlər dekonstruksiyaya məruz qalır və yeni şəkildə parodiya və travestiya qaydalarına uyğun müasirləşərək yenidən yazılır. Adətən belə mifoloji süjetlərdə müasir dünyanın qlobal problemləri və ya insan ekzistensiyası ilə bağlı məsələlər öz həllini tapır. Postmodenist romanda ənənəvi romanda olduğu kimi qəhrəman C.Kempbellin monomif nəzəriyyəsindən irəli gələn tanış mifoloji

situasiyaya düşür, lakin fərq ondadır ki, o mifoloji qəhrəmanın triksterinə, yəni onun əksinə çevrilir.

Böyük Britaniya romanında müxtəlif mifologemlərə müraciət onunla izah oluna bilər ki, müəllif mifik təfəkkürün müəyyən aspektlərini rekonstruksiyaya məruz qoymaqla mifi mətnin struktur təşkilində istifadə edə bilsin. Belə rekonstruksiya mif mətni ilə bağlı olduğu kimi ("Tanrıların ölümü"), özünün konkret şəklində görünməyə də bilər ("Doktor Kriminale") və ya əsərdə həm mifik aləmdən, həm də real dünyadan söhbət gedər ("Lampriyerin lüğəti").

Lourens Norfolkun "Lampriyerin lüğəti" romanının qəhrəmanı C.Kempbellin "Min üzlü qəhrəman" əsərindəki arxetip-süjetini təkrarlayaraq mifik qəhrəmanın həyat və sərgüzəştləri yolunu keçir. Burada J.Bodriyarın belə bir fikrini xatırlamaq yerinə düşər ki, mədəni biliklər və təsəvvürlər tədricən obyektiv gerçəkliyi təsvir etmək kimi ilkin əlamətini itirir və simulyakra çevrilir. Başqa sözlə uydurma nəsnələr reallığı aradan çıxarır. Yuxarıdakı xatırlama postmodernist nəsrdə biri-birinə istinad edən sonsuz sayda mətnlərin açıq məkana çevrilməsi, süjet və motivlərin saysız hesabsız modifikasiyaya uğramasında özünü göstərir.

"Lamriyerin lüğəti" romanı mifologiya ilə bağlı lüğət yaratmaq istəyən Con Lamriyerin həyat və macəra dolu sərgüzəştlərindən bəhs edir. Qəhrəmana məlum olur ki, əsir yarımdan da artıq bir zaman keçməsinə baxmayaraq hansısa qara qüvvələr onun ailəsinə və nəslinə qarşı sui-qəsdlər təşkil edir: "Uzun illər gizli sürən çəkişmələr onun nəslindən olan heç bir kişiyə öz əcəli ilə ölməyə imkan verməmişdi və bütün baş verənlərin qaynağını tapmaq üçün keçdiyi ağır, dəhşətli yol birdən onun gözü önündə canlanır – sıra ilə düzülən bomboz üzlər, ölü canlar ona yaxınlaşdıqca ilğım kimi yox olurdu"[219, s.19].

C.Kempbellin "monomif"i olan "qəhrəmanın səyahəti" təhkiyə arxetipi kimi L.Norfolkun "Lampriyerin lüğəti" romanının mifopoetikasının əsasısını təşkil edir. Dünya ədəbi-mədəni mətnlərində yer alan monomifin trayektoriyası Lampriyerin həyat sərgüzəştlərində öz əksini tapır. Düzdür, əsərin qotik, viktorian və sərgüzəşt romanları ilə detektiv və ya siyasi roman sərhədlərində də təsnifatını aparmaq olar və bu da onun postmodernist romanın bədii xüsusiyyətləri ilə bağlı olması fikrini əsaslandırır. Lakin görünən odur ki, qəhrəman C.Kempbellin "qəhrəmanın səyahəti" arxetip-süjetini təkrarlayır. Con Lampriyer ata və babasının keçmişindən xəbərsizdir və Lampriyerlər nəslinin başına gələn hadisələri nəzərə almadan öz müddəalarını irəli sürür. Görmə qabiliyyəti zəif olan Con Lampriyer ətraf aləmlə bir o qədər də ünsiyyət qurmur, öz otağında miflər aləminə o qədər qərq olur ki, tədricən qədim miflərin süjeti əvvəlcə onun təxəyyülündə, sonra isə ailəsinin həyatında canlanmağa başlayır. Qəhrəman özünün adi dünyasında yaşadığı halda C.Kempbellin qəhrəmanın macəraya səslənməsi versiyası işə düşür. Con Lampriyer sevdiyi və pərəstiş etdiyi Cülyettanı hovuzda çimərkən atası tərəfindən izlənməsi səhnəsinin şahidi olur: "Köpəklər kolluğun arxasından, hovuzdan qırx yard o tərəfdə göründülər və sürətlə irəliləyirdilər. O, hovuzda dayanan və düz ona baxan çılpaq qıza heyranlıqla baxırdı. Sanki qızın parlaq, qara gözlərində azmışdı... O, özünə qaçmamağı, comərdcəsinə olacaqları qəbul etməyi əmr etdi" [219, s.36].

Maraqlıdır ki, bu səhnə Akteon və ov ilahəsi Artemida ilə bağlı qədim yunan mifini xatırladır. Akteon ov zamanı təsadüfən nimfalarla hovuzda çimən Artemidanı görür və tez oranı tərk etməkdənsə, heyranlıqla onun gözəlliyinə tamaşa edir və beləcə, insan gözünə yasaq olan səhnənin şahidinə çevrilir. Bundan qəzəblənən ilahə Artemida onu marala çevirir və qaçmaq istəyən Akteon öz ov itləri tərəfindən parçalanaraq öldürülür. Con Lamriyerin atasının da eyni hadisə ilə qarşılaşması və Cülettanın atasının ov itləri tərəfindən parçalanaq öldürülməsi səhnəsi onda belə bir təsəvvür oyadır ki, onun nəsli hansısa şəkildə qədim miflərlə əlaqəlidir. Əsərin bu yerində ata Lamriyer hovuzda çimən qızın bədənində nişanəni görür və öz atasının başına gələn eyni hadisəni xatırlayır və beləcə, ölümün yaxınlaşdığını hiss edir. Kolluqda gizlənən Con Lampriyer isə atasının ölümünün şahidi olur və onun vəhşi itlər tərəfindən parçalanması zamanı çəkdiyi əzabları görür, lakin heç nə edə bilmir, başqa sözlə monomif nəzəriyyəsində olduğu kimi ilk addımı ata bilmir. Tərəddüd edir, qorxu hissi ona hakim kəsilir. Bu

qanlı hadisədən sonra Con Lamriyeri günah hissi tərk etmir və o, ailə sirrini öyrənmək istəyir. Monomifdə olduğu kimi qəhrəman ilk mərhələni keçir və onun səyahəti, yəni Londona üz tutması başlayır. Ailə sirrini öyrənmək istəyi onu yaşadığı şəhəri Sezariyanı (Sezariya-Kayseri, indi Türkiyə ərazisində yerləşən qədim yunan şəhəri-Y.A.) tərk etməyə məcbur edir. Macəraya çağırış mərhələsində o, gizli bir mesaj alır. Bu mesaj miflərlə ailə sirrinin oxşarlığına işarə edir.

Səyahətinin ilk günləri Con Lampriyer lüğət yazmaq qərarına gəlir və bu yazılar ona sirli hadisələrdən yaxa qurtarmaq, amma eyni zamanda da C.Kempbellin "daxili mağara"sını xatırladır. C.Kempbell mifik qəhrəmanın "daxili mağara"sını onun keçdiyi bütün mərhə-lələrdə rastlaşacağı məkan kimi qeyd edir. Digər tərəfdən müəllif təhkiyəsi postmodernistlərin oyun priyomuna xidmət edir və qəhrəmanın "daxili mağara"sı əsərdə ironiyaya çevrilir. "Daxili mağara" təmizlənməni və yenidən "doğulmanın" mənasını izah etsə də, Con Lampriyerin yazdığı lüğət daha məkrli məqsədlərə xidmət edir və bu üzdən əsərdəki müəllif ironiyasına yol açır. Con Lampriyerin lüğətindəki sonu ölümlə bitən miflər "Kabbala" qrupu tərəfindən hazırlanmış növbəti qətllərə bağlanır. Məlum olur ki, "Kabbala" qrupunun üzvləri baba-Fransua Lampriyerin iş ortaqları olmuş nəslin davamçılarıdır və bu qrup illərdi Lampriyerlər nəslinin nümayəndələrini axtarışa sövq edir, sonda isə yalnız axtarışla məşğul olma imitasiyasını yaradırdılar: "Ser Con Fildinq Lampriyerdən şübhələnir. O, artıq Doqquzluğun yaratdığı layihənin bir hissəsi olmuşdur" [219, s.306].

Axtarış nəsildən-nəsilə davam edir və əsərin bu yerində Con Lampriyer də digər ailə üzvləri kimi yenidən axtarışa başlayır. C.Kempbellə görə qəhrəman səyahət boyu mütləq düşmənləri və müttəfiqləri və ya əleyhdarları və köməkçiləri ilə rastlaşır. Qəhrəman müdrik qoca və ya daha ağıllı birinin köməyi ilə həyat yolundakı macəranı davam edir.

Romanın mətnaltısı lüğətin özü olmayıb, onun açdığı mətn dünyasıyla bağlıdır. Bu məna isə öz növbəsində qəhrəmanın macəra dolu səyahətinə aydınlıq gətirir. C.Kempbellin ali mərhələyə yaxınlaşma, transendentala can atma mərhələsi, başqa sözlə yeraltı səltənətə enib "daxili mağara" ilə yeraltı mağaranın sərhədlərindəki döyüşü Con Lamriyerin şəhər altında məskunlaşmış "Kabbala" qrupunun qurduğu qurğuya düşməsi ilə davam edir. Bu hissəni C.Kempbellin də qeyd etdiyi mifik qəhrəmanın qılıncını işə salması, başqa sözlə ölüm-dirim mübarizəsində qılıncla(döyüşlə) təmizlənməsi mərhələsindən keçməsi ilə əlaqələndirmək olar. Con Lampriyer də bu döyüşdə ulu babasının "Kabbala" tacirləri ilə əlaqədə olduğunu öyrənir.

Uzun müddət zəif görməsi səbəbindən otağına qapalı yaşayan Lampriyer klassik əsərləri öyrənməklə başını qatır və görmə qabiliyyəti bərpa olanda o, təxəyyül etdiyi dünyanı real dünya ilə əlaqələndirməyə çalışır. Məhz bu səbəbdən qəhrəmandan istifadə edən "Kabbala" qrupu onu ailə tədqiqatlarından uzaqlaşdırıb öz planına "çəkir". Lüğət yazmaq istəyi onu rahat buraxmayan ideyalarla barışmağa və keçmişdə baş verənlərin açılmasına mane olur. Əsərin digər qəhrəmanı Septimusla görüş onun bəzi məsələlərdən agah olmasına şərait yaratsa da, sona qədər atdığı yanlış addımlar onu tərk etmir. Əsərin sonunda məlum olur ki, kitab yazmaq həvəsi və bu kitabın mövcudluğu onun qurtuluşuna səbəb olur. Müəllif ironiyası qəhrəmanın istəmədən bütün qətllərlə bağlı olması, bilmədən bütün hadisələrin səbəbkarı şəklində təsvir olunur. Məhz bu üzdən Con Lampriyer əsər boyu həyatının bütün məqamlarında ikili situasiya ilə rastlaşır və sona qədər də səbəbini öyrənə bilmir. Bu ikiləşmə onu komik situasiyalar salır, onu gülüş obyektinə çevirir.

Romandakı postmodernist ikili situasiya müəllifin Cületta–Danayanı Rozali–Danaya ilə qarşılaşdırmasında öz əksini tapır və başqa sözlə, onun triksterini yaradır, mifik personajın əkizinə çevrilir. Sevdiyi Cülettanı digər qızla qarışdırması, onun isə öz növbəsində mifik personajla əvəzlənməsi kimi situasiyalar əsər boyu ikiləşmə şəklində davam edir. Rozalinin ehtiyatsızlığı və həddən artıq maddiyata bağlılığı Lamriyerə xəbərdarlıq kimi də anlamaq olar. "O şeyi ki, pulla(qızılla) almaq olar, onda vicdan susur" [219, s.367] kimi müəllif ironiyası Rozalinin otaqda kəndirlə bağlanması və ağzına doldurulmuş qızıl sikkələrlə tapılması səhnə-

sində özünü göstərir. Qədim mifik süjetdən məlumdur ki, Yupiter gözdən uzaqda, qüllədə saxlanılan Arqos şahının qızı Danayanın otağına qızıl yağış damcıları şəklində daxil olur və onu yoldan çıxarır. Bu mif L.Norfolkun romanında qrotesk şəklində yenidən işlənir. Rozali də Danaya kimi gözdən uzaq yerdə əli-qolu bağlı şəkildə tapılır. Göründüyü kimi, L.Norfolk antik mətndən yararlanmış, lakin ona yeni "don" geyindirmişdir.

Keçi dərisinə bürünmüş Cüllyettanın əkizi isə yunan mifoloji qəhrəmanı İfigeniyadır. Məlumdur ki, qədim yunan mifində İfiqeniya Artemidanın təhriki ilə allahlara qurban verilməliydi. Aqamemnonun ən gözəl qızı İfiqeniya yunan donanmasını qurtuluşu üçün quzu kimi qurban "kəsilməli" və beləcə, yunanları ölümdən qurtarmalı idi. Qurbanlıq mərasimi zamanı Artemida ona rəhm edir və ehramda yerinə quzu qurbanı kəsir, İfiqeniyanı buludların üstündə Tavridə qaçırır. Bu iki mifik süjet əsərdə öz əksini tapır və Lampiyerin iki qadın arasında seçim edə bilməməsi, Cületta Rozali arasında çaşıb qalması səhnəsi ilə eyni görünür. Başqa sözlə, gerçəkdə sevdiyi Cülettaya qovuşmaq ağır sınaqlardan çıxmaqla eyniləşir. Con Lampriyer Londonun əcaib kabuslarını əyləncə klubunun daimi sakinlərinə bənzədir. Mifik dünya ilə yaşayan Lampriyerə elə gəlir ki, onlar "Odisseya"dakı Ey adasının sakini cadugər Sirseyanın donuzlarıdır. Qədim yunan mifindəki Sirseya süjeti Lampriyerin həyatında öz izini buraxır: "Donuzlar" klubunda o, "Kabbala"nın ssenarisi ilə oynanılan ilk tamaşanın tilovuna düşür. Sərxoş halda yağan yağış altında körpüdə oturub ağlayır, gerçəkliyə çevrilən qarabasmalarından, atasının bədənini parçalayan itlərdən, özündən razı Akteondan və Diananın intiqamından danışırdı"[219, s.398].

Sirseya tərəfindən saxlanılan və uzun müddət evinə dönə bilməyən Odisseyin həyatı Lamriyerin London həyatı ilə səsləşir. Məhz bu şəhərdə o, sevdiyi qadını - Cülettanı, yəni Penelopanı (Odisseyin arvadı –Y.A.) bir müddət unudur, Sirseyanın adasında - Lodonda xoşbəxtlik və məmnunluq hissiylə yaşayır. Digər tərəfdən müəllif təhkiyəsi simulyaklar yaradır, uydurma reyestrinə keçən reallıq özünün ilkin mənasını itirir və müəllif mətni ilə mifik mətn arasında sərhədlər itir. Con Lampriyerin mif dünyasına vurğunluğu onun həyatının kabusuna çevrilir. Mifik obrazlar onun taleyində iştirak edir, həyatda onun qarşısına çıxır, elə bununla bağlı qəhrəmanın təxəyyülündə yeni-yeni miflər yaradır. Bodriyarın da ifadəsi ilə desək obraz ilkin mənasını itirir və özünün yeni sümulyakrını alır.

C.Kempbellin "qəhrəmanın səyahəti" monomifindəki macəra dolu yolunu biz Lampriyerin London həyatı ilə izləyə bilərik. J.Derridanın "dünya mətn kimi" ideyasından irəli gələn postmodernist təhkiyə növü sonsuz sayda interpretasiyalar yol açır, sonsuz sayda "göndərmələr" edir, mətn içində mətnə, başqa sözlə hipermətnə yol açır.

Əsərin sonunda Lampiryer ona və ailəsinə qarşı hazırlanan sui-qəsdlərin qarşısını ala bilir. Arxetip-qəhrəman ali transsedentala yaxınlaşır, təmizlənmə mərhələsindən keçir, cəsarətinə və qərəzsiz davranışlarına görə mükafatlandırılır. Başqa sözlə, labirintdən çıxa bilir, yeni dünyaya qədəm qoyur. Bu yolda ona monomifdəki köməkçi – Septimius kömək edir. "Septimus onun sadiq dostu idi. Doqquzluğun planında olduğu kimi ona lüğət ideyasını "yeridir", onu qərb çıxışına "çəkir" ki, mavi donlu qadının ölümünü gözü ilə görsün. Septimus onu şəhər boyu gəzdirir, Doqquzluğun qurduğu izə yönəldir"[219, s.469]. Septimus ona dəfələrlə kömək edir, məhkəmədə hakim qarşısında günahsız olduğuna şahidlik edir. Con Lampriyer yeni həyata dönür və bu dönüş artıq onu C.Kembpellin "adi həyata keçid dünyasının sərhədi" monomif mərhələsinə gətirib çıxarır.

C.Kempbellin mifologiyanı psixoanalizin əsasında öyrənməsi ideyası arxetip qəhrəman simvoluna aydınlıq gətirdi və o, özünün monomif nəzəriyyəsində qəhrəmanın səyahətini kosmoqonik mərhələ kimi dəyərləndirərək qəhrəmanın inisiasiya sınaqlarından keçib varlıq və yoxluğun sərhədini adlaması, sonra isə ali mahiyyəti əldə etməsiylə macəra dolu yolunun sona çatdırması ideyasını irəli sürür. Göründüyü kimi bu yolun sonuna L.Norfolkun qəhrəmanı da gəlib çatır. Əsərin sonunda Con Lampriyerin hüzur tapması, sevdiyi Cülettaya qovuşması ona rahatlıq gətirir.

C.Kempbellə görə mifdəki hadisələr və qəhrəman kosmoqonik aktı təkrarlayır və bu təkrarlar "min üzlü qəhrəmanın" müxtəlif variantlarıdır: "Biz inanılmaz dərəcədə daima dəyişən forma ilə, lakin eyni, daimi tarixçələrlə rastlaşırıq və bununla belə onlar eyni şəkildə, israrla işarə edir ki, bizi gözləyən hansısa bilinməzlər bilib gördüklərimizdən daha artıqdır"[70, s.11] deyə yazır.

Ədəbiyyat

1. Q.Quliyev. XX əsr amerikan ədəbiyyatşünaslığında aparıcı cərəyanlar. Dərs vəsaiti. B., 2011, 208s.

2. Norfolk L. Lempriere's Dictionary. Pub:Grove Press, 2003, 432p.

3. Jeffries S. Lawrence Norfolk: a life in writing// The Guardian. 7 Sep, 2012

4. Nagy L. Landscapes of History in the Novels of Lawrence Norfolk// Prague Journal of English Studies. Volume 4, No. 1, 2015, 91-106p.

5. Dirda M. The Secret Masters of the World // The Washington Post. 20 Sep, 1999

6. Барт Р. Избранные работы. Семиотика. Поэтика : пер. с фр. / сост., общ. ред. Г.К.Косикова. М., Прогресс, 1994.340с.

7. Джозеф К. Тысячеликий герой. СПб: Питер, 2018, 352с.

8. Мелетинский Е.М. Поэтика мифа. М., 1976, 280с.

9. Современное зарубежное литературоведение. М., 1999, 459с.

10. Юнг К. Г. Архетип и символ. М. : Ренессанс, 1991, 105с.

11. Юнг К.Г. Душа и миф: шесть архетипов. Киев: Государственная библиотека Украины для юношества, 1996. 384с.

Е.А.Абдуллаева

Мифологемы в британском постмодернистском романе
(на материале романа Лоуренса Норфолка «Словарь Ламприера»)
Резюме

Изучающий мифы народов мира один из ведущих представителей англо-американской мифологической критики Джозеф Кэмпбелл в произведении «Тысячеликий герой» писал, что, как правило, во всех мифах герой проходит схожий жизненный путь, преодолевает схожие испытания. Он приходит к такому выводу, что многие мифы как носители архетипа «путешествия героя» наделены общей сюжетной структурой, что и дает основание называть такие рассказы мономифами. Автор статьи исследует выявленный Джозефом Кэмпбеллом мономиф «путешествия героя» на материале романа Лоуренса Норфолка «Словарь Ламприера» и также приходит к заключению, что герой произведения подобно мифическому герою, преодолевая схожие испытания, повторяет архетипный сюжет «путешествия героя».

Y.A.Abdullayeva

Mythologems in British Postmodern Novel
(Based on the Novel "Lempiere's Dictionary" by Lawrence Norfolk's)
Summary

One of the leading representatives of Anglo-American mythological criticism studying the myths of the peoples of the world Joseph Campbell in the "The Hero of Thousand Faces" wrote that, as a rule, in all myths the hero goes a similar way of life, overcomes similar trials. He concludes that many myths as the carriers of the archetype of "the hero's journey" are endowed with a common plot structure, which gives reason to call such stories monomyths. The author of the article explores the "the hero's journey" identified by Joseph Campbell on the material of Lawrence Norfolk's novel "The Lempiere's Dictionary" and also concludes that the hero of the work like a mythical hero overcoming similar trials, repeats the archetypal plot of "the hero's journey".

Rəyçi: prof. A.Z.Sabitova
Redaksiyaya daxil olub: 13.11.2020

Ş.Ə.ALBALIYEV
filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail: albaliyevshakir@gmail.com

AMEA-nın Folklor İnstitutu
(Bakı şəh., İçərişəhər, Kiçik qala, küç., 31)

BAYRAMLARIN MİFOLOJİ-KOSMOQONİK MAHİYYƏTİNƏ DAİR

Açar sözlər: *bayram, mifologiya, kosmoqoniya, mərasim, "Ərgənəkon", əcdad kultu*
Ключевые слова*: праздник, мифология, космогония, обряд, «Эргенекон», культ отцов*
Key words*: holiday, mythology, cosmogony, rite, "Ergenekon", cult of the fathers*

Məsələnin qoyuluşu: Bayramların etnokulturoloji semantikasında mifologiyanın böyük rolu vardır. Tədqiqatlar göstərir ki, hər bir bayram mifoloji kosmoqoniya ilə sıx şəkildə bağlıdır.

İşin məqsədi: Tədqiqatın aparılmasında əsas məqsəd bayramların mifoloji-kosmoqonik xüsusiyyətlərini araşdırmaqdır.

Prof. H.İsmayılov Novruz bayramının etnokultiroloji xüsusiyyətlərindən danışarkən onun mifik yaradılış fəlsəfəsi ilə bağlı olduğunu göstərmişdir. Alim yazır: "*Novruz – dünyanın və insanın yaradılış bayramıdır. Onun epoxaları, xalqları, dinləri, qitələri əhatə edən kulturoloji-fəlsəfi əzəməti, milli böyüklüyünün əsasında varlıq aləminin yaradılışı haqqında ilkin mifoloji-kosmoqonik konsepsiya durur. Novruz özünün qlobal məkan və zaman coğrafiyasında heç vaxt ilkin yaradılış fəlsəfəsindən məhrum olmamış, dünyanın harasında, tarixin hansı dönəmində olursa-olsun, dünyanın və insanın varlığını təzələmiş, yenidən yaradaraq, yox olmaqdan qorumuşdur. Bu cəhətdən Novruz bayramı milli fəlsəfəsinə, kosmik mahiyyətinə görə insan və onun dünyasının yaradılış mexanizmidir. Cəmiyyətin dialektik hadisə kimi mövcudluğunun, inkişaf və təkamülünün üsuludur"* [6].

H.İsmayılovun bu fikrindən məlum olur ki, Novruz bayramı etnokulturoloji sistem və onun əsasında duran düşüncənin ən mühüm hadisəsidir. Çünki Novruz insan və onun dünyasının yaradılış mexanizmidir. Alimə görə, Novruz bayramının bütün "kulturoloji-fəlsəfi əzəməti" məhz yaradılışı ideyası ilə bağlıdır. Doğrudan da, Novruz mərasim kompleksinin bütün elementləri yaradıcılışı simvolizə edir. Qışdan yaza keçid, həmin keçidlə bağlı oyun və tamaşalar, bayrama aid əşyalar və s. hamısı yaradılışla bağlı rəmzi məna kəsb edir. İnsan onu köhnəliyə, pisliyə bağlayan hər bir şeydən qurtulur. Novruz bayramının əsas atributlarından olan tonqalın özü odla yenidən yaradılışı ifadə edir. Axır çərşənbə tonqalının üstündən tullanan insanlarda belə bir inam olur ki, bu zaman onları köhnəliklə bağlayan pis nə varsa – hamısı yanıb kül olur və insan yenidən yaradılır.

H.İsmayılovun yuxarıdakı fikrindən məlum olur ki, Novruzun yaradılış ideyası birbaşa "mifoloji-kosmoqonik konsepsiya" ilə bağlıdır. Bu, həm də Novruzun mifik köklərə malik olduğunu ortaya qoyur. Novruz haqqında türk mifik təfəkküründə kökündə duran "Ərgənəkon" mifi buna əyani sübutdur.

Tədqqiatçılara görə, "Ergənəkon" dastanı Novruz bayramı ilə bağlıdır. Təsadüfi deyildir ki, məşhur türk alimi Əbdülxalıq Çayın Novruz bayramından bəhs edən kitabı "Novruz Türk Ərgənəkon Bayramı" adlanır. O, "Ərgənəkon" dastanını *"türklərdə Novruzla bağlı görə bildiyimiz ən əhəmiyyətli rəvayət"* hesab edir [4, s. 35]. Nəsimi Şərəfxanlıya görə də: *"Novruz əski türk mövsüm və milli qurtuluş bayramıdır. Bu bayram min illərin o tayından gələn Ergənəkon bayramının günümüzdə yaşayan izidir"* [12, s. 56].

Novruz bayramının "Ərgənəkon" mif-dastanı ilə bağlı olması haqqında Azərbaycan novruzşünaslığında özünə geniş yer tutmuş bu məsələyə aydınlıq gətirmək üçün dastanın

özünə müraciət etməliyik. Dastanda deyilir ki, göytürklər tatarlarla müharibədə məğlub oldular. Hamısı qırıldı, yalnız Elxanın övladlarından Qıyan və Nogüz sağ qaldı.

Müharibədən on gün sonra gecə uşaqlarını alıb at belində qaçdılar. Savaşdan qabaq ordugah qurduqları yerə gəldilər. Burada dəvə, at, öküz və qoyunları qalmışdı. Onları da götürdülər.

Biri o birinə dedi: "Əgər burada qalsaq, düşmənlər bir gün bizi tapacaqlar. Başqa boylara da getmək olmaz, hər tərəf düşməndir. Ən yaxşısı əldən-ayaqdan uzaq bir yerə qaçmaqdır".

Bunlar belə deyib, sürülərini qabaqlarına qataraq dağlara üz tutdular.

Yolda bir dişi Keyik (maral) gördülər. Dalınca getdilər. Keyik dağların üstündən düz bir yerə keçdi. Hər yeri yaxşıca yoxlayıb gördülər ki, gəldikləri yoldan başqa bir yol yoxdur. Bir az da getdilər, geniş çəmənlik bir ölkə gördülər. Burada axar sular, bulaqlar, meyvə ağacları, heyvanlar var idi. Sevindilər, burada məskən saldılar. Qışda heyvanların ətini yeyir, dərisini geyinir, yazda südünü içirdilər.

Burada 400 il qaldılar, o qədər artıb çoxaldılar ki, daha oraya sığmadılar. Başbuğlar məşvərət elədilər, qərara aldılar ki, buradan çıxsınlar. Yol axtardılar, tapmadılar. Dəmirçi Burteçine dedi ki, dağı əridərək çıxmaq lazımdır.

Sonra öyrəndilər ki, buraya gəlmiş bir qurdu qovarkən dəmir, kömür yatağı tapılıb. Qurd isə yatağın yanındakı balaca deşikdən qaçıb. Hamıya vergi qoyuldu: hər kəs bir sıra odun, bir sıra kömür daşıyıb oraya yığdı. Od vurdular. Dağ əridi, yüklü dəvənin keçə biləcəyi yer qədər yer (oyuq) açıldı.

Martın 9-u günü Ərgənəkondan çıxdılar. O gün bayram elədilər. Burteçine əlinə qurd başlı bir bayraq aldı. Tatarlarla yenə savaşdılar, bu dəfə zəfər çalıb qisaslarını aldılar.

Ə r g ə n – sarp, çılpaq, sərt, yalçın, *k o n* isə keçid deməkdir [13, s. 44-45].

Bu mətn özündə başdan-başa mifik yaradılış ideyasını təcəssüm etdirir. Burada mifik düşüncə üçün xarakterik olan kosmosla xaosun mübarizəsi və yeni yaradılışın məhz bu mübarizənin nəticəsi olaraq meydana çıxması süjetin ana motivini təşkil edir.

Mətn göytürklərin tatarlarla müharibədə məğlub olması və onların hamısının məhv olması hadisəsi ilə başlayır. Mətnin bu girişi mif mətnləri üçün xarakterik olan giriş motivini özündə əks etdirir. İstənilən mif mətni mövzusundan, süjetindəın asılı olmayaraq kosmosla xaossun mübarizəni inikas edir. Kosmos – nizam, xaos – həmin nizamın dağılmasıdır. Mifoloji mətnlərdə əvvəlcə kosmos xaosla əvəz olunur, daha sonra kosmos yenidən xaos əsasında təşəkkül tapır. Yəni mifoloji mətnlərdə həyat (kosmos) davamedici hadisədir. O, məhv olub, ölümlə (xaos) əvəz olunsa da, birdəfəlik məhv olmur, yenidən yaranır. Və maraqlıdır ki, yeni yaradılış *kosmoqonik toxumdan* təşəkkül tapır. Bütün bunları Ərgənəkon dastanının istər girişində, istərdə də bütöv mətndə müşahidə edə bilirik. Mətnin giriş hissəsində elementlər kosmosla xaosu və kosmoqonik toxumu simvollaşdırır:

Kosmos – göytürklər;

Xaos – tatarlar;

Kosmosun məhvi – göytürklərin hamısının məhv olması;

Xaosun qələbəsi – hakimiyyətin və ölkənin tatarların əlinə keçməsi;

Kosmoqonik toxum – göyutürklərdən salamat qalan Elxanın övladları: Qıyan və Nogüz.

Mətnin sonrakı hissəsi göytürklərin kosmoqonik toxum əsasında yenidən təşəkkül tapmalarını təsvir edir. Salamat qalmış iki qardaş qaçır və yeni yurd axtarışına başlayırlar. Rast gəldikləri dişi Keyik (maral) onları yeni bir dünyaya götürür. Onlar dağların arasında əlverişli bir məkana gəlib çıxırlar. Bu məkanda 400 il ərzində böyük bir xalqa çevrilir və qərara gəlirlər ki, əvvəlki dünyalarına qyıtsınlar. Onların qayıdışında qurd vasitəçi olur. Mart ayının 9-unda dəmir dağı əridib, Ərgənəkondan çıxırlar. Göytürklər həmin günü bayram edirlər. Onlar tatarlar üzərində qələbə çalır və əvvəlki hakimiyyətlərini bərpa edirlər.

Əvvəlcə mətndəki kosmoqonik yaradılış prosesinə diqqət edək. Dişi maralın salamat qalmış iki qardaşı dağlar arasında əlçatmaz bir yerə aparması türk epik mətnlərində rast gəli-

nən motivdir. “Kitabi-Dədə Qorqud” dastanında keyik Beyrəklə Banuçiçək arasında vasitəçilik edir. Yaxud nağılların bir çoxunda qəhrəmanın ovda qovduğu maral onu gələcək secgilisinin yanına gətirir. Bu, maralın mediatorluq funksiyasını göstərir.

Mediator – vasitəçi deməkdir. Mifologiyada mediator obrazlar iki dünya – profan və sakral dünyalar arasında vasitəçilik edirlər. Bu halda belə hesab etmək olar ki, dişi maral da eyni funksiyanı yerinə yetirməklə iki dünya – sakral və profan dünyalar arasında vasitəçilik edir. Qardaşlar düşmənlərdən qorunmaq üçün əmin-aman, təhlükəsiz yer axtarırlar. Onlar özləri belə bir yer tapa bilmirlər. Bu işdə onlara dişi maral kömək edir. Bu dişi maral, əslində, onların xilaskarıdır: o olmasa idi, tatrarlar Elxanın sağ qalmış iki oğlunu da tapıb öldürəcəkdilər. Buradan aydın olur ki, həmin dişi maral bu iki qardaşın mifik hamisi, qoruyucusudur.

Mifik hami obrazları, adətən, dağlarla bağlı olur. “Kitabi-Dədə Qorqud” da atasının 40 nökərinin (igidinin) hiyləsinin qurbanı olub, dağda ov zamanı öz atası Dirsə xan tərəfindən oxlanan Buğacı ölümdən Xızır xilas edir. Hadisələrin dağda baş verməsi təsadüfi deyildir. Dişi maral Elxanın oğlanlarına yol göstərməklə onları ölümdən xilas etdiyi kimi, Xızır da Buğacın anasına onu necə diriltməyin yolunu göstərməklə Buğacı ölümdən xilas edir.

Salamat qalmış qardaşların yeni yurdunun dağlar qoynunda olması mifoloji motivdir. Dağlar mifologiyada yeni yaradılışın məkanı hesab olunur. “Koroğlu” dastanında Alı kişi paşaların təqibindən qorunmaq üçün oğlunu dağlara gətirir və burada ən təhlükəsiz yer kimi Çənlibeli seçir:

“Getdilər, getdilər, bir uca dağın belinə çatdılar. Alı kişi soruşdu:

– Oğlum, bura necə yerdir?

Rövşən dedi:

– Ata, bura hər tərəfi sıldırım qayalıq, çənli, çiskinli bir dağ belidir.

Alı kişi soruşdu:

– Oğul, bax gör, bu bel ki deyirsən, bunun hər tərəfində bir uca qaya görünmür ki?

Rövşən dedi:

– Ata, görünür. Biri sağında, biri də solunda. Özü də başları qardır.

Alı dedi:

– Oğul, mənim axtardığım yer elə buradır. Mən buranı çox yaxşı tanıyıram. Cavan vaxtlarda burada çox at oynatmışam, çox ceyranlara ox atmışam, çox cüyürlər ovlamışam. Bura mənim köhnə oylağımdır. Buraya Çənlibel deyərlər. Biz burada yurd salmalıyıq. İndi özümüzə bir olacaq, atlarımıza da bir tövlə tik. Rövşən özləri üçün bir olacaq, atlar üçün də bir tövlə tikdi. Ata-oğul Çənlibeldə yurd saldılar, yaşamağa başladılar” [7, s. 17-18].

Müqayisə etsək görərik ki, Alı kişi də, Xızır da, dişi maral da eyni məqsədi (funksiyanı) həyata keçirirlər:

a) Onların üçü də hami obrazlardır: himayə etdikləri qəhərəmanları ölümdən xilas edirlər;

b) Onların üçü də hamilik etdikləri qəhrəmanları dağlara gətirirlər.

Biz yuxarda Elxanın salamat qalmış oğlanlarını “kosmoqonik toxum” adlandırdıq. Bu zaman mətnə əsaslandıq. Ümumiyyətlə, burada bir məntiq var. Böyük bir tonqal yanıb qurtardıqdan sonra yerdə onun külü qalır. Külün içərisində (altında) köz olur. Bu gözün üzərinə yeni odunlar yığıb üfləyir və tonqalı yenidən yandırırlar. Əgər biz kosmosun məhv olduqdan sonra yenidən təşəkkülündən danışırıqsa, onda bu təşəkkülün nəyin əsasında baş verdiyinə diqqət etməliyik. Kosmos heç vaxt bütövlükdə məhv ola bilməz. Əgər o, yenidən yaranacaqsa, onun yarandığı toxum olmalıdır. Bu cəhətdən, Elxanın salamat qalmış övladları gələcəkdə yenidən yaranacaq göytürk xalqının toxumlarıdır. Bu “toxumlar” mif poetikasında ilkin əcdadlar adlanır.

Mifik mətnlərdə yeni yaradılış, adətən, doğuluş şəklində baş verir. “Ərgənəkon” dastanında da görürük ki, onlar yeni məkanda 400 il ərzində doğub-törəyirlər. Bu, artım real

doğuluşu ifadə edir. Ancaq belə hesab edirik ki, mətndə doğuluşun mifik şəkli də öz əksini tapmışdır. Bu doğuluş göytürklərin dağdan//yerdən// torpaqdan doğulmasını simvollaşdırır.

L.A.Sedov yazır: *"Doğuluş ən qədim zamanlardan ümumən məhsuldarlıq, xüsusən yerin həyatyaradıcı qüvvəsi ilə əlaqələndirilmişdir. Eləcə də heç bir canlının ölməməsi, yenidən dünyaya qayıtmaq üçün yalnız müvəqqəti olaraq ölməsi və təkrarən doğulması haqqındakı təsəvvür də doğuluşla bağlıdır. Doğuluş haqqındakı təsəvvürlərin "kosmikləşdirilməsi", bioloji, seksual təzahürlərin astral, planetar səviyyələrə keçirilməsi prosesləri (müqayisə et: günəşin və ayın ölmə və dirilmənin simvolikasındakı xüsusi rolu; artıq neoloit dövründə qadın və kişi işarələrinin günəş və ay işarələri ilə tədrici əvəzlənməsi qeyd olunur) və başqa təbiət prosesləri mifopoetik düşüncənin inkişafının bir qədər sonrakı dövrü ilə bağlıdır"* [14, s. 385].

Müəllifin bu fikrində mövzumuz baxımından ən diqqətçəkici məqam "doğuluşun yerin həyatyaradıcı qüvvəsi ilə əlaqələndirilməsidir". Buradan aydın olur ki, bütün dünya mifologiyalarında yenidən yaradılış yerlə, torpaqla, dağla əlaqəlidir. Buradan həmçinin o da aydın olur ki, yenidən yaradılış öz-özünə baş vermir: yaradılışın əsasında yerin yaradıcı qüvvəsi durur. "Ərgənəkon" dastanına bu fikrin işığında yanaşdıqda çox maraqlı mənzərə görünür. Qardaşlar salamat qalmaq üçün təhlükəsiz yer axtarırlar. Belə bir təhlükəsiz məkan onlara ona görə lazımdır ki, orada yenidən doğub-törəyə bilsinlər. Aydın olur ki, dişi keyikin onları gətirib çıxardığı məkan yenidən doğuluş məkanıdır. Mifologiyada yenidən doğuluşun baş verdiyi bütün məkan-zaman ***ana bətnini*** simvollaşdırır. Bu cəhətdən, qardaşların yenidən doğulub-törəmək üçün gəlib çıxdıqları məkan da mifik ana bətnidir. Mifologiyada yer//torpaq qadın başlanğıcı, doğucu ana kimi təsəvvr olunur. Beləliklə, qardaşların 400 il qaldıqları məkan ana torpağın bətnidir. Eyni fikri Buğac və Koroğlu haqqınmda da demək olar. Buğac dağda ölübdirilir. Yəni onun yenidən doğuluşu, dünyaya gəlişi dağda baş veeritr. Koroğlu da dağdakı Qoşabilaqda adi bir adamdan qəhrəmana çevrilir. Yəni onun da qəhrəman kimi doğuluşu dağda baş verir.

N.Qurbanov yazır: *"Folklor mətnlərində insan törənişi ilə (doğuluşla) bağlı bir sıra motivlərə rast gəlmək olur ki, buna misal olaraq* ***dağdan doğulma*** [3; 2; 5; 9] *və s.-ni göstərmək olar ki, bizim fikrimizcə, bu törəniş* ***sudan doğulma*** [13, s. 14], ***gün işığından doğulma*** [11, s. 303] ***gözdən doğulma mifologemləri*** *modelləri də öz başlanğıcını ilk insanın törənişi ilə bağlı təsəvvürlərdən götürür. Sadəcə olaraq həmin təsəvvürlər mif... şəklində bizə gəlib çatmamış, lakin folklor mətnlərinin içərisində motiv səviyyəsində qorunaraq bizim dövrümüzə gəlib çatmışdır"* [8, s. 35].

Göytrürklərin dağdan doğuluşu adi doğuluş yox, kosmoqonik doğuluş rutualıdır. Əgər belə olmasa idi, onlar dağdan xilas olduqları günü (martın 9-nu) bayram kimi qeyd etməzdilər. Çünki mifoloji düşüncədə doğuluş kosmoqonik ritualdır.

Novruzla Ərgənəkon arasında zahiri oxşarlıq azdır, lakin mifoloji-kosmoqonik konsepsiya eynidir:

a) Novruz yaradılış bayramı olduğu kimi, Ərgənəkon da yaradılış bayramıdır.

b) Novruzda da, Ərgənəkonda da yaradılış yer və od vasitəsilə baş verir. Göytürklər dağı odla əridirlər. Novruz bayramının da əsas ünsürü oddur. Ərgənəkon da göytürklər dağdan – torpaqdan doğulurlar, Novruzda da əkinçi xalqların torpaqdan yaradılış ideyası əsas yer tutur.

Seyfəddin Altaylı Novruz bayram kompleksi ilə "Ərgənəkon" dastanındakı motivləri müqayisə edərək yazır: *"Ərgənəkon dastanı ilə bizim qeyd etdiyimiz yaz bayramı, yəni Novruzun arasında müəyyən oxşarlıqlar vardır. Türklər dörd yüz il Ərgənəkon deyilən yerdə yaşadıqdan sonra öz ata-baba yurdlarına atəşin açdığı yoldan çıxıb getmişdilər. Deməli, od onlara azadlıq yolunu, ata-baba yurdunun yolunu açmışdı. Görəsən, Axır Çərşənbə günü qaladığımız tonqallar Ərgənəkondakı dəmir dağı əritmək üçün yetmiş yerdə qurulub yandırılan körüklərin rəmzidirmi? Bayramdan bir həftə qabaq Ölü Bayramı kimi də yad edilən Qəbirüstü günü Ərgənəkondan çıxmazdan əvvəl oradakı qəbirlərlə vidalaşma mərasiminin*

rəmzi ifadəsi ola bilərmi? Uşaq bayramı üçün evdə hazırlanmış müxtəlif növ çərəz, mer-meyvə, boyanmış yumurtalar Ərgənəkondan çıxış üçün hazırlanan yol azuqəsini xatırlada bilərmi? Dastanda işarə edilən "O müqəddəs ayın, o müqəddəs günün müqəddəs saatını gözləyərək çıxdılar" ifadəsi o ayın, o günün və saatın yaddaşlarda əbədiləşdirilməsi üçün həmin ay, gün və saata müqəddəslik donu geyindirilərək yaddan çıxmasına mane olmasın deyə yozula bilərmi? Çünki türkün olum-ölüm mübarizəsində azadlıq və varlıq yolu yetmiş dəridən düzəldilmiş və yetmiş yerdə qurulmuş körüklərin qızışdırdığı tonqallarla dəmir dağ əridilərək türkə yol açmışdı. Son söz kimi deyə bilərik ki, türklər 21 mart gününü Ərgənəkon dastanının yaranmasından da min illər əvvəl bilirdilər, o günü türkün özünəməxsus mədəniyyəti ilə qarşılayıb yola salırdılar, yaratdıqları dastanda da həmin gün öz rolunu oynamışdı, buna görə də müəyyən oxşarlıqlar nəzərə çarpır" [1, s. 85-86].

Göründüyü kimi, S.Altaylı Novruz bayramı ilə "Ərgənəkon" arasında konkret oxşarlıqlar müşahidə etmişdir. Həmin oxşarlıqlar bu iki mədəni kompleksin genetik doğmalığəından xəbər verir. Müəllifin aşkarladığı analogiyalar bunları əhatə edir:

1. **Od mifologemi**: Novruzda və "Ərgənəkon"da odun yeni yaradılışa yol açması.

2. **Əcdad kultu:** Novruzda və "Ərəgənkon"da ölülərin (əcdadların) ziyarət edilməsi.

3. **Ərzaq kultu:** Novruz süfrəsi və "Ərgənəkon"dakı ərzaq azuqəsinin yeni yaradılış ideyası ilə bağlılığı;

4. **Sakral zaman mifologemi:** Yazın yaradılış zamanı Novruzda və "Ərgənəkon"da sakral zaman konseptinə çevrilməsi.

Bütün bunların üzərində geniş şəkildə durmaq olar. Od türk mədəniyyətində çox geniş məna paradiqmaları yaratmışdır. Bu cəhətdən, od//atəş ənənəvi türk mədəniyyətinin ünsürlərini bir-birinə bağlayan məna oxudur. Onun Novruzda və "Ərgənəkon" dastanında özünə geniş yer tutması bu iki mədəniyyət hadisəsinin eyni təfəkkürə – türk mifik düşüncəsinə bağlı olmasından irəli gəlir.

Əcdad kultuna gəlincə, bu, çox mühüm bir məsələdir. Əcdad kultu, yəni əcdadlara pərəstiş, onlarla əlaqə saxlamaq, onlardan güc almaq türk mədəniyyətində özünə geniş yer tutur. Burada əsas olan insanların öz ölmüş əcdadlarının o biri dünyada yaşadıqlarına inamdır. Azərbaycan dilində *"ölüm"* mənasında *"dünyasını dəyişmək"* ifadəsinin işlədilməsi, yaxud insanların öləndən sonra getdikləri məkana *"o dünya"* deyilməsi ulu babalarımızın ölüm haqqındakı düşüncələrinin fərqli olduğunu göstərir. Babalarımız belə hesab edirdilər ki, insan öləndən sonra öz yaşamını davam etdirmək üçün bu dünyadan o biri dünyaya köçür. S.Rzasoy yazır: *""**Əcdad**" nəsli, kökü bildirən obyekti, "**kult**" isə həmin obyekt ətrafında qurulan pərəstiş sistemini əhatə edir. Bu sistemin də öz növbəsində bir-biri ilə bağlı iki tərəfi, yaxud səviyyəsi var:* ***inanc və mərasim.*** *İnanc tərəfi əcdad kultunun mifoloji şüurda, yəni dünya modelindəki səviyyəsini, mərasim tərəfi isə etnokosmik davranış səviyyəsini bildirir. Başqa sözlə, əcdad ruhuna inanıldığı kimi, onun ətrafında kult sistemi qurulur. Bu kult sistemi əcdad ruhuna inancı və gerçək həyatdakı insanların əcdadlarla əlaqəsini təmin edən ritual rejimini (yəni mərasimi) nəzərdə tutur. İnsan belə hesab edir ki, ölmüş valideynin ruhu o biri dünyaya adlayaraq yaşamını davam etdirir. Bütün ömrü boyu öz valideyninin qayğı və sevgisi ilə əhatə olunan insan onun valideyn(lər)i o biri dünyada olarkən də bu sevgi və qayğıdan yararlanmaq istəyir. Bu isə xüsusi rituallar vasitəsi ilə həyata keçirilir. Beləliklə, əcdad kultu birbaşa ritual sistemi ilə bağlıdır"* [10, s. 66].

İşin elmi nəticə və yenilikləri: Beləliklə, istər Novruz bayramında, istərsə də "Ərgənəkon" dastanında insanların əcdadları ziyarət etmələri əcdad kultu ilə bağlı etnokulturoloji davranış nümunəsidir. Burada məsələni təkcə əcdadlara hörmət olunması ilə məhdudlaşdırmaq dar yanaşma olar. Geniş yanaşma lazımdır. Əlbəttə, əcdadlar ənənəvi türk mədəniyyətində daim hörmət obyekti olmuşdur. Lakin bu hörmət, necə deyərlər, birtərfli hörmət yox, qarşılıqlı hörmət idi. Yəni dirilər öz əcdadlarına hörmət edib onları ziyarət etdikləri, onların məzarı üzərində əcdadlara hörmətli, xoş münasibəti bildirən mərasimlər yerinə yetirdikləri

kimi, əcdadlar da bu hörmətin müqabilində öz "övladlarına" borclu qalmır, onlara o biri dünyadan uğur yollayır, xeyir-dua verirlər. Buradan aydın olur ki, qədim türklər bir iş görərkən öz həyatda olan valideynlərindən, böyüklərindən xeyir-dua aldıqları kimi, o biri dünyada olan əcdadlırından da xeyir-dua almalı idilər. Novruz bayramı kompleksində məzarların (ölülərin//əcdadların) xüsusi ritual şəklində ziyarət olunması, eləcə də "Ərgənəkon" dastanında göytürklərin səfərə çıxmamışdan əvvəl öz əcdadlarının məzarlarını ziyarət etmələri etnokulturoloji baxımdan eyni mahiyyət daşıyır. Yəni əcdad kultu Novruzla "Ərgənəkon"u birləşdirən çox ciddi etnokulturoloji amildir.

Ərzaq da Novruzla "Ərgənəkon" arasında birləşdirici etnokulturoloji bağlardan biridir. Burada əsas olan yemək//ərzaq kultudur. Xalqımız arasında qidaların, xüsusilə çörəyin bərəkət hesab olunması bu kultun təzahürüdür. Xalqın adət-ənənələrini yaşadan azərbaycanlılar yerə düşmüş çörək parçası görərkən onun tapdalanmasından qorxaraq, tez yerdən götürüb hündür bir yerə qoyurlar ki, quşlar tapıb yesunlər. Xalqımız arasında "Çörək yer üzünə "Quran"dan əvvəl gəlib" ifadəsi də var. Bu da özündə ərzaq kultunun izlərini yaşadır. Burada əsas olan "bərəkət" konseptidir. Azərbaycanlılar bir iş başlayan adama "Allah işinə bərəkət versin" deyirlər. Yaxud qarğış edərkən "Allah bərəkətini kəssin" deyirlər. Bu ifadələr göstərir ki, bərəkət qədim azərbaycanlılarda ilahi güc hesab olunmuşdur. Bu cəhətdən, Novruz bayramında süfrəyə bütün ritual simvolikasına malik nemətlərin düzülməsi bərəkət amili ilə bağlıdır. Novruz süfrəsinin nemətlərlə tam şəkildə qurulması yeni il ərzində süfrənin daim bərəkətli olacağına ümidi və istəyi ifadə edir. Bu, ondan irəli gəlir ki, ənənəvi azərbaycanlılar daim evin bərəkətini qaçıran hərəkətlərdən çəkinir, bərəkət gətirən davranışlar etməyə çalışırdılar. "Ərgənəkon"da da insanların yol üçün hazırladıqları azuqə bərəkəti simvollaşdırır. Çünki göytürklər səfərə yeni dünya qurmaq, bərəkətli dünya yaratmaq üçün çıxırlar. Ona görə də onların yol üçün hazırladıqları azuqə hər baxımdan bərəkəti simvollaşdırmalı idi.

İşin nəzəri və praktiki əhəmiyyəti: Məqalənin nəzəri əhəmiyyəti bu işdən bayramlar haqqında aparılacaq başqa tədqiqatlarda nəzəri qaynaq olaraq istifadə imkanları, praktiki əhəmiyyəti isə ali məktəblərdə mərasim folklorunun tədrisi prosesində praktiki vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

Ədəbiyyat

1. Altaylı, S. Novruz və "Ərgənəkon" dastanı arasındakı oxşarlıqlar // "Dədə Qorqud" jur., – 2008, – № 2, – s. 80-86

2. Bəydili (Məmmədov), C. Türk mifoloji sözlüyü / C.Bəydili (Məmmədov). – Bakı: Elm, – 2003, – 418 s.

3. Cəfərov, N. Eposdan kitaba / N.Cəfərov. – Bakı: Maarif, – 1999, – 220 s.

4. Çay, A.M. Nevruz – Türk Ergenekon Bayramı / A.M.Çağ. – Ankara: 1999, – 579 s.

5. Əliyev, R. Mif və folklor: genezisi və poetikası / R.Əliyev. – Bakı: Elm, – 2005, – 224 s.

6. İsmayılov, H. Novruz – milli yaradılış və birlik bayramı // "Azərbaycan" qəz., – 19 mart, – 2010.

7. Koroğlu dastanı / Azərbaycan dastanları. 5 cilddə, IV c. Tərtib edəni M.H.Təhmasib. Yenidən işləyib nəşrə hazırlayanlar Ə.Cəfərli, H.İsmayılov, S.Axundova. – Bakı: Çıraq, – 2005, – 544 s.

8. Qurbanov, N. Azərbaycan folklorunda mifoloji-kosmoqonik görüşlər / N.Qurbanov. – Bakı: AFpoliQRAF, – 2011, – 144 s.

9. Pirsultanlı, S.P. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi / S.P.Pirsultanlı. – Bakı: Nurlan, – 2007, – 308 s.

10. Rzasoy, S. Əcdad kultu və Oğuz dövlətçilik ənənəsi // Folklor və dövlətçilik düşüncəsi. I kitab. – Bakı: Elm və təhsil, – 2016, – s. 66-108

11. Seyidov, M. Azərbaycan xalqının soykökünü düşünərkən / M.Seyidov. – Bakı: Yazıçı, – 1989, – 496 s.

12. Şərəfxanlı, N. Ergənəkon bayramı – Novruz // "Dədə Qorqud" jur., – 2003, – № 2, – s. 50-57

13. Vəliyev, K. Elin yaddaşı, dilin yaddaşı / K.Vəliyev. – Bakı: Gənclik, – 1987. – 280 s.

14. Седов Л.А. Очерк «Рождение» / Мифы народов мира. В 2-х томах. Том 2. – Москва: Советская энциклопедия, – 1982, – с. 385-386

Ш.А.Албалыев

О мифологическо-космологической сущности праздников

Резюме

Мифология играет большую роль в этнокультурной семантике праздников. Исследования показывают, что каждый праздник тесно связан с мифологической космогонией. Праздник Новруз также связан с мифической философией сотворения. Праздник Новруз - важнейшее событие этнокультурной системы и лежащего в ее основе мышления. Потому что Новруз - это механизм сотворения человека и его мира. Все элементы обрядового комплекса Новруз символизируют мифическое сотворение. Переход от зимы к весне, игры и представления, связанные с этим переходом, праздничные предметы и т.д. все они имеют символическое значение в связи с сотворением. Человек избавляется от всего, что связывает его со старьем и злом. Один из главных атрибутов праздника Новруз, сам костер символизирует возрождение через огонь. Люди, которые прыгают через костер в последнюю среду года, верят, что все зло, связывающее их со старьем, сгорит дотла и человек будет воссоздан заново.

Sh.A.Albaliyev

On the mythological and cosmological essence of the holidays

Summary

Mythology plays an important role in the ethnocultural semantics of holidays. Research shows that every holiday is closely related to the mythological cosmogony. The Novruz holiday is also associated with the mythical philosophy of creation. The Novruz holiday is the most important event of the ethnocultural system and the thinking underlying it. Because Novruz is a mechanism for the creation of man and his world. All elements of the Novruz ritual complex symbolize the mythical creation. The transition from winter to spring, games and performances associated with this transition, holiday items, etc. they all have a symbolic meaning in connection with creation. A person gets rid of everything that connects him with old and evil. One of the main attributes of the Novruz holiday, the bonfire itself symbolizes rebirth through fire. People who jump over the fire on the last Wednesday of the year believe that all the evil that connects them with old age will burn to the ground and a person will be recreated.

Rəyçi: prof. S.Rzasoy

Redaksiyaya daxil olub: 11.12.2020

A.Ə.FƏRƏCOVA
e-mail: aygunfaracova@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Şah İsmayıl Xətai pr., 187)

ƏLİ NƏZMİNİN YARADICILIĞININ İLK DÖVRÜNƏ DAİR

Açar sözlər: *Azərbaycan ədəbi fikri, Əli Nəzmi, marifçi realist ədəbiyyat, mollanəsrəddinçilər hərəkatı, Keşmiş günlər, Sərab kəndi.*

Ключевые слова: *Азербайджанская литературная мысль, Али Назми, просвещенная реалистическая литература, движение Молланасраддина, Минувшие дни, село Сараб.*

Key words: *Azerbaijan literary thought, Ali Nazmi, enlightened realist literature, Mollanasraddin movement, Past days, Sarab village.*

XX əsrin əvvəlləri Azərbaycan ədəbi fikrinin seçilən nümayəndələri içərisində Əli Nəzminin yaradıcılığı da xüsusi diqqətə layiqdir. Belə ki, o dövrün maarifçi realist ədəbiyyatının və mollanəsrəddinçilər hərəkatının öncül nümayəndələrindən biri olmuşdur. O dünyaya göz açdığı ata-baba yurdunu, onun bərəkətli torpağını zəhmətkeş insanlarını və s. "Keşmiş günlər" adlı mənzum xatirələrində sevərəkdən belə təsvir və təqdim edirdi:

Bir kənd var adına deyirlər Sərab
Keçmişlər yurd üçün etmiş intixab.
Hər yanı meşələr, bağlarla mühat
Görkəmi qəlblərə verir inbisat. (s. 1)

O, doğulduğu Sərab kəndinin gözəl təbiətini, könül açan məzərələrini poetik şəkildə tərənnüm və təqdim edir. Onun yazdığı sətirləri oxuyarkən oxucu sanki bu gözəl məkanın sakininə çevrilir. Lakin onu əhatə edən bu gözəlliklərə baxmayaraq Əli Nəzminin xoşbəxt uşaqlıq illəri keçirmədiyi xatirələrindən məlum olur və professor Firudin Hüseynov bu haqda yazır: "Əli, Sərabın ən yoxsul, kimsəsiz sakinlərindən biri olan Məhəmməd kişinin ilk oğlan uşağı idi. Oğlu dünyaya gəldikdən sonra Məşhəd ziyarətinə getmək qoca atanın çoxdanki arzusu idi. Odur ki, balaca Əli anadan olan kimi atası yeganə var-dövlətini, bağını satıb Məşhədə səfər edir. Bu ziyarət mömin kişinin qəlbinə təsəlli versə də, onun müflisliyinə, ailəsinin ağır ehtiyac içində yaşamasına səbəb olur; əsasən bostançılıqla məşğul olan Məhəmməd kişinin ziyarətdən qayıtdığı vaxt, nə bir ovuc toxumluq taxılı, nə də bir keçisi vardır. Əlində olan cüzi əkin yerini özü becərə bilmədiyindən az bir hissə gəlirə razı olaraq, başqalarına vermək məcburiyyəti qarşısında qalır. Bostançılıqdan əldə etdiyi gəlir nəinki hökümət vergilərini verməyə, öz ailəsini güclə dolandırmağa belə çatmır" (Firudin Hüseynov. Əli Nəzmi. B., 1970, s. 6).

İlk təhsilini mollaxanada almasına, sonradan rus-tatar məktəbində oxumasına baxmayaraq, atasının vəfatından sonra güzəranı ağır keçdiyindən doğma yurdunu tərk edib Orta Asiyanın Buxara və Səmərqənd şəhərlərində iki il tacir dükanında şagird olarkən mütaliə yolu ilə təhsilini artırması, klassik Şərq ədəbiyyatını dərindən öyrənməsi onun dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. Bu dövrdə Əli Nəzmi "Bikəs" təxəllüsü ilə şeirlər də yazır, qarşılaşdığı hər bir yenilik qarşısında saf bir uşaq səmimiyyəti ilə heyrət dolu gərginliklər keçirir, sarsıntılara məruz qalır. Bütün bunlar onun ruhi, fiziki və psixoloji cəhətdən yorub əldən salmaqla yanaşı düşüncələrində yeni-yeni xəyallar və arzular da doğurur; onun həyat yolunun xəyallarla dolu düşüncə və qənaətlər dövrü belə başlayır. Çox keçmir ki, gənc Əli heyrətdən ayrılıb reallığı dərk etməyə, həyatın ritminə uyğunlaşmağa başlayır. Bu haqda "Keçmiş günlər"də oxuyuruq:

Mayıs min səkkiz yüz doxsan səkkizdə,
Çatdıq Buxaraya qürubla biz də.
Üç gün dükanda mən gic tək dolandım

Günəş qərbdən tülu eyləyir sandım.
Sonra bu ürkəklik rəf oldu məndən,
Girdim iş görməyə çox həvəslə, şən.
Çox az bir müddətdə ticarətxana
Ram oldu bir tanış tarla tək mana (s.13).

Buxaradakı yeni həyatın ritmini tezliklə tuta bilən Əli Nəzminin zehni də, beyni, diqqəti də işləyir.O, ətrafındakı hər bir nəfəsə belə qulaq kəsilir, öyrənməyə çalışır. Onun üçün ən böyük yeniliklərdən biri hər gün daima eşitdiyi rus dilini getdikcə öyrənməsi olur. Həmin proses haqda Əli Nəzmi özü belə yazırdı:

İşlərkən əllərim verirdim qulaq,
Rusca söz söylənir nə cür, nə sayaq.
Bir kəlmə bilməzdim kənddən gələndə,
Lakin çox hafizə var idi məndə.
Rusca bir çox sözlər söylərdim indi,
Dilim nazikləşdi, qəlbim isindi.

Beləliklə, gənc Əlinin zehni inkişafı artdıqca onda öyrənmək həvəsi güclənir, elmə, biliyə, dünyanı dərk etməyə meyli onu rahat buraxmır.Daha çox və daha sistemli olaraq bilik qazanmaq üçün yollar axtarır. Əli Nəzmi irsinin araşdırıcılarından olan filologiya elmləri doktoru, professor Firudin Hüseynov bu haqda yazmışdır: "Əli Buxarada öz kəndlisinin ticarətxanasında qulluq edərkən oraya tez-tez bir yəhudi mühəndis gəlir. Sabiq Buxara əmirinə xidmət etmiş bu qoca mühəndisin kitaba və elmə dərin marağı, xüsusi zövq və həvəsi olduğundan təzə dostu Əli Nəzmiyə də çoxlu kitab oxumağı tövsiyyə edir. Ona rus və fars dillərində çoxlu kitablar verir. Beləliklə, gənc əlidə kitaba olan həvəs getdikcə artır. Rus dilini öyrənməyə xüsusi maraq göstərir, rus məktəbinə gedib dərs almaq istəyirsə də, ticarətxana sahibi mane olur. Lakin Əli Nəzmi ticarətxanada rus dilini yavaş-yavaş öyrənir və az-az danışmağa başlayır..." (F.Hüseynov, Əli Nəzmi. B, 1970 s.7).

Beləliklə, Əli Nəzmi yavaş-yavaş oxuyub yazmağa, biliyini artırmağa başlayır. Xoşbəxtlikdən qonşu tacir dükanlarının birində ona qəribə görünən böyük ölçülü və hər tərəfi yazılı bir kağız görüb maraqlandıqa həmin "kağızın" qəzet olduğunu söyləyirlər. Marağı utanmağına üstün gəlir və Əli həmin "kağızı"- qəzeti oxumaq üçün istədikdə qonşu tacirin oğlu onun xahişini yerə salmır...

Məlum olur ki, qonşu tacirgilin abunə olduqları qəzetlərdən biri Misirdə farsca, kəskin tənqidi ruhda çıxan "Sürəyya", digəri isə İstanbul şəhərində nəşr edilən "Hikmət" adlı iqtisadi və mədəni, maarif istiqamətli qəzetdir. Müxtəlif istiqamətli və yazı tərzli həmin qəzetlərin hər biri Əlinin dünyagörüşündə, həyata baxışlarında müəyyən iz buraxır. Onlardan "Sürəyya" qəzeti İranın hakim dairələrini və mütləqiyyət üsul-idarəsini kəskin tənqid edən yazılara öz səhifələrində geniş yer ayırdığı üçün Əliyə - əzilən təbəqənin nümayəndəsi olan gəncə daha xoş gəlir, sanki onun ürəyindən xəbər verir. Bu haqda o, özü bele yazır:

... "Sürəyya" adlanır qəzetin biri,
Zəngin, dolğun, gözəl, həcmcə iri.
Farsca siyasidir,- Misirdə çıxır,
Tehran hakimlərinin qəlbini sıxır.
Şiddətli bir dillə tənqid edirdi,
Mana bu tənqidlər çox xoş gəlirdi.(s.16)

Göründüyü kimi, gələcək şair-publisit tənqidə, ictimai eybəcərlikərin ifşasına həsr edilən əsərlər daha çox cəlb edir və söz yox ki, onda bu cür cəsarətli yazılar yazmağın mümkünlüyü barədə ilkin təəssüratların yaranmasına səbəb olur.

Əlinin oxuduğu digər qəzet-"Hikmət" isə işini çox ehtiyatla görür. Çünki Osmanlı imperiyasının – Sultan hakimiyyətinin qəzəbinə tuş gəlmək, bununla da həyata keçirməyə çalışdığı ideyaların yarıda, xalqa anlatmaq istədiyi mətləblərin qaranlıqda qalacağını istəmir.

Ona görə oxucuya çatdırmaq istədiyi mətləbləri bir qədər örtülü ifadələrlə, dərin mənalı və məzmunlu yazılarla anlatmağa üstünlük verir. "Hikmət" qəzetinin bu yazı tərzi onun yaradıcılıq axtarışları və oxucuya çatdırmaq istədiyi mətləbləri məzmunlu, hikmətli məqalə və şeirlərlə ifadə etmək məharəti Əlidə tamamilə fərqli duyğular oyadır. Həmin təəssüratlar və duyğular haqda sonralar belə qənaətlərlə rastlaşırıq:

"Hikmət"dir digəri, İstanbulludur,
"Yıldız"dan qorxur o, çox üsulludur.
Çoxca bəhsedirdi elm, iqtisaddan,
Çünki əzraildən qorxuncdu Sultan.

Lakin bütün bunlarla yanaşı, "Hikmət" qəzetində azadlıq ruhu, insanları haqsızlıqlarla barışmayıb, onlara qarşı mübarizəyə çağırış motivləri də özünə yer alırıdı. Qəzetin bu cəhətini Əli Nəzmi bu cür qiymətləndirirdi:

Lakin məammadır şairin dili,
Həll edə bilmirdi o, bu müşkülü.
"Hikmət" müammalı şeirlər yazır,
Zalım hökümətə məzarlar qazır.
Xalqı hürriyyətə dəvət edirdi,
Gizli mübarizə axıb gedirdi.
Cəridələr məndə çox təsir yapdı,
Ruhum qidasını bunlarda tapdı.(s.16)

Göründüyü kimi, Əli Nəzmini "Hikmət" qəzetinin haqsızlıq və ədalətsizliyi tənqid edərək xalqı öz hüquqları uğrunda mübarizəyə çağırması, həm də bütün bu işləri maarifçilik ideyaları, elmi biliklərə yiyələnmək pərdəsi müxtəlif ədəbi piryomlarla etməyə çalışması cəlb edir. Beləliklə, o, bir tərəfdən tənqid və ifşa, digər tərəfdən də maarifçilik ideyaları, elmə, sənətə yiyələnməyə çağırış ruhu üstə kökləməyə başlayır. Gələcək şair-piblisist eyni zamanda fikri, ideyanı obrazlı şəkildə ifadə etdikdə onun təsir gücü birbaşa söylənmiş fikirlərdən daha təsirli və cəlbedici olur. Ancaq, maraqlıdır ki, bu qafiyəsiz, bədiyyatdan uzaq sətirlər onu elə də razı salmır. Bununla yanaşı "yazı-pozu"ya olan şövqü və həvəsi getdikcə artmağa, ağlı isə "kəskinləşməyə" başlayır. Şairin Buxaraya, Səmərqəndə səfəri, əski buxaranı gəzməyi, səfər etdiyi yerlərdəki müşahidələrindən gəldiyi qənaətlər də onun "ağlının kəskinləşdiyindən" xəbər verir. O, əski Buxaradakı gerilik, orta əsr cəhaləti və səfaləti, "millət rəislərinin" xalqın canına daraşmaları, öz güzəranları naminə həmvətənlərini hər cür tərəqqidən uzaq tutmağa çalışmaları və digər bu kimi hallarla razılaşmadığını sonralar poetik şəkildə ifadə edərək bildirirdi ki, "rəislərin

Mədəni işləri görməz gözləri.
Mikrobdur xalq üçün çünki özləri.
Kütlənin əksəri əfsankeş, naskeş,
Sağ canlı tapılsın bəlkə yüzdə beş.
Əxlaqsız beçəbaz yüzdə doxsanı,
Bunların cümləsi şeyxin nöqsanı.(s.20).

Əli Nəzmini ən çox narazı salan cəhətlərdən biri də Buxarada qadınların qapalı, kölə vəziyyətdə saxlanmaları idisə, digəri orada yeni üsullu maarif ocaqlarının qadağa olunmasıdır. Bu haqda danışarkən Əli Nəzmi ürək ağrısı ilə bildirir ki:

Xanlıqda məfquddur maarif, məktəb
Mövcuddur əksinə, onlarla məzhəb...
Yeni üsul ilə məktəblər yasaq,
Bir çox mədrəsə var; yaramaz, sarsaq.(s. 21).

Buxaradan fərqli olaraq səmərqəndin hər guşə və bucağında, həyat və məişət tərzində nəzərə çarpan yenilik və tərəqqi əlamətləri Əlinin ruhunu nisbətən oxşayır, onun yadına bir çox cəhətlərinə görə öz vətənini salır. Bu qəriblik duyğusuna məktublarına cavab olaraq, bir il sonra, yəni 1899-cu ildə doğma kəndlərinə qayıdır. Lakin doğma yurddakı məişət və həyat

tərzi Əliyə əvvəllər də olduğu kimi heç də xoş gəlmir. Çünki, onun həyata baxışlarında və dünyagörüşündə yeniliyə, maarif və mədəniyyətə doğru xeyli dəyişiklik baş vermişdi. Ona görə də tezliklə kənddən başqa yerlərə getmək, bilik və bacarığını artırmaq, təkmilləşdirmək barədə fikirləşir. Onun qənaətinə görə adam nə qədər varlı olsa belə, elmdən uzaq qalarsa insan ola bilməz. Bütün bunlar Əlidə həyat təcrübəsi, həyati müşahidələr əsasında əmələ gəlmişdi. Onun dediyi kimi:

Cünki mən duymuşdum elmsiz adam,
Sərvətdar olsa da, insan olmaz tam.

O, öz doğma yurdunda məişət qayğıları ilə məşğul olmağına baxmayaraq Buxarada ikən hərəkətə gəlib ona şeirlər yazdıran şairlik ruhu susmur və Əli kənd məişətindən, müşahidə etdiyi məişət qayğılarından, insan – təbiət münasibətlərindən bəhs edən şeirlər yazmağa, daha doğrusu, gördüklərini nəzmə çəkməyə başlayır, bununla birtəhər öz başını qatmağa çalışır. Məsələn, 1903-cü ildə dörd hissədən ibarət qələmə aldığı, "Fəsillər və kəndlilər" adlı mənzumədə kənd həyatının, kəndlilərin hər fəslə uyğun yaşadıqları qayğılar təfsilat və aydınlığı ilə öz əksini tapmışdır. Əsərin "Bahar" hissəsində yazın gəlişi, təbiətə daxil olması (həlulə) ilə bağlı təbiətdə və məişətdə baş verən yeniliklər, cərəyan edən proseslər barədə oxuyuruq:

Həlulə edincə ilk bahar,
Axır, don açılıb sular.
Dolur su arxlara, daşır,
Çayır, çəmən yaşıllaşır.
Yaşıl geyim geyir fidan,
Dolur çiçəklə gülüstan

(Ə.Nəzmi Sijimqulunamə, B.1927, s.17).

Təbiətin bu canlanması ilə yer üzünün "behiştə bənzəməsi" hər tərəfin xoş ətirlə dolması, qanadlıların, yəni quşların civildəşməsi, ayaqlıların – böcəklərin isə qımıldanması ilə yanaşı köylü, kəndli bağbanın öz ailə üzvləri ilə birlikdə həvəs və ümidlə çöl işlərinə başladığının da şahidi oluruq. Belə ki, bütün bu təbiət gözəlliklərinə, həyat və ruzi nəfəsli təbiətdən vəcdə gələn kəndli işə belə sarılır:

Baxanda köylü bağıban
Qadın, qız ilə bu zaman
Bəşaşət ilə işləyir,
Fərəh, fəzəh oxur, gülür. (s.17)

Sonra şair həmin kəndli bağbanın konkret olaraq nə iş görməsinə - çiçəkliyin, yəni yaşıllığın bellə şumlanaraq, orada yeni ştillər basdırmasını, toxum səpməsini, ailənin digər üzvlərinin hər birinin bacardığı digər qayğılarla yaşamalarını, məşğul olmalarını göz önündə belə canlandırır:

Çiçəkliyin yerin təpir:
Ağac əkir, toxum səpir;
Çocuqlar oynaşır, oxur,
Qoca nənə corab toxur.
Budur baharı köylünün,
Bu, ən gözəl dəmi onun.(s.17)

Burada təbiətlə birgə bütün canlıların, o cümlədən canlıların canlanıb bahar nəfəsi ilə fərəhlənməsi, yeni ümidlərlə yaşayıb fəaliyyət göstərməsi mövcud vəziyyətə uyğun olaraq canlı və oynaq bir dillə təsvir edilmişdir.Təsvirlər əsərin "Yay" başlıqlı hissəsində davam etdirilir.Məlum olur ki, fəslə uyğun olaraq, yayda isti küləklər əsir, yer üzünü isti kürədən çıxmış kimi tozanaqlı, boğanaqlı duman bürüyür. Güllər bu istidən solur, adamların bənizləri solur, fərəh, şənlik əlamətləri sanki üzlərdən çəkilir.Əvəzində isə daha qayğılı anlar yaşanmağa başlanır. Ancaq bütün bunlarla belə heç kəs qəsbkarlıqdan əl götürmək, işini buraxmaq barədə düşünmür. Bu haqda oxuyuruq:

Ancaq bu od içrə rəncbərlər
İşlər, çalışır, alınları tər.
Xırman döyür, ot biçir, yığır "maş",
Arvadlı, uşaqlı cümlə yoldaş.
Lakin o darıxmır işində,
Ruzisini toplamaq peşində
Çox pəncələşir hərarət ilə,
Əkmək qazanır o hal ilə. (s.17)

Əli Nəzmi bununla göstərir ki, baharın gəlişi fəsillərin bir-birini əvəz etməsi ilə hər şey yenidən başlayaraq, həyat və məişət əvvəlki axarı ilə davam edəcək. Beləliklə, fəsillərlə insanlar eyni ritm üstə köklənərək həyatın, təbiətin axarına uyğun olaraq öz işlərində olacaqlar. Şairin bütün bu müşahidə və etnoqrafik təsvirləri onun realizmindən, sənətkarlıq qabiliyyətindən xəbər verir. Əli Nəzminin 1904-cü ildə qələmə aldığı "Atanın oğluna vəsiyyəti" (Sijimqulunamə B.,1927, s.20-21) şeiri isə onun maarifçi baxılarının, elmin, maarifin həyatda, insan və cəmiyyətin taleyində oynadığı rola verdiyi qiymətin bədii ifadəsi kimi diqqətə layiqdir. Burada ata əvvəlcə, bir valideyn kimi, övladını-oğlunu tanrı tərəfindən ona bəxş edilən ən qiymətli töhfə, mayeyi-izzü şərəf", "ömür gülüstanı, gülü", "dirilik bağının bülbülü", "ciyərparəsi", "sahibi-iqbalü camalı" və s. adlandıraraq, onun nəsihətlərini qulağında sırğa, qəlbində, yaddaşında həyat və fəaliyyət proqramı kimi daima möhkəm saxlamağı tövsiyyə edir. Bildirir ki:

Olgilən elmlə tələbkar, oğlum!
Elm oxu, ol belə hüşyar, oğlum! (s.21)

Bu tövsiyyədən sonra, yəni elmə daima təşnə olub, onu öyrənib ayıq-sayıq yaşamağa və fəaliyyətə canatmanın mümkünlüyünü belə izah edir:

Nur elmlə işıqlanmalıdır,
Cəhl və zülmətdən uzaqlaşmalıdır.
Elmdir bais ülqa və həyat,
Elmdir mənbəi feyz və bərəkət.
Elmdir kəşf-əsrar-nihan,
Emdir ruh, bədəndəndir insan. (s.21)

Deməli, elm gizli sirlərin açarını, xoşbəxtliyin yolunu tapmağın acarıdır. Ona görə həmin açara sahib olan hər bir bəşər övladı əldə etdiyi keyfiyyətlə fəxr edir. Çünki elmlə dünyanı dərk edib dolanmaq, can rahatlığı tapmaq mümkündür. Bütün bunlarla yanaşı elmli kəslərin vətəni qüvvətli, milləti şadiman olur:

Kişinin zintətidir elmlə fənn,
Olur abad elm ilə vətən!
Elmlə millət olur şən, məsrur,
Elmlə kütlə alır qüvvət-zur.
...Elmsiz qiymətin olmaz, anla,
Qüvvətin, qüdrətin olmaz, anla!
Yaşamaq istər isən can, oğlum,
Elm kəsb eylə firavan, oğlum. (s.21).

Bir sözlə, vətənin abadlığını, millətin şadlığını, yəni şad yaşamağını onun elmə yiyələnməsinin dərəcəsi ilə ölçən maarifpərvər, açıqgözlü ata oğluna "firavan", yəni bolluca, çoxluca elm öyrənməyi, zinətlənməyi tövsiyə, vəsiyyət edir. Bütün bunlar isə Əli Nəzminin maarifçi baxışlarının bədii ifadəsi kimi diqqəti cəlb edir, onun fikrən inkişafından, həyata baxışlarının getdikcə zamana uyğunla.mağından xəbər verir. Professor Firidun Hüseynov da, görünür məhz bu cəhəti nəzərdə tutaraq yazmışdır: "Şairin (Əli Nəzminin-A.F) ilk əsərlərində bəzi forma qösurlarına təsadüf olunsa da, məzmun barədə bunu demək olmaz". (Mir Cəlal, Firidun Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. B.,Maarif, 1982.s.188).

Əli Nəzminin həm poetik, həm də publisistik qələm məhsulları onun tərəqqi və abadlıq əlamətlərinə xüsusi diqqət yetirdiyini, getdiyi yerlərdə rast gəldiyi bu cür faktları, oxuculara bir örnək kimi, onların nəzərinə çalışmasında da aydın görünür. Professor Alxan Bayramoğlu Əli Nəzminin ilk mətbu əsərlərindən olan "İttifaq" başlıqlı və "Bu sənə Yaltanın haraları..." sözləri ilə başlanan məqalələrinə istinadən göstərir ki, Əli Nəzmi "...getdiyi yerlərdə müşahidə etdiyi maraqlı hadisə və əhvalatrları "Şərqi-rus"un xüsusi müxbiri kimi qələmə alıb redaksiyaya göndərməyə göndərməyi də lazım bilmişdir."(Alxan Bayramoğlu Əli Nəzminin yaradıcılığı haqqında (Ədəbiyyat Məcmuəsi. Nizami adına Ədalət İnstitutunun Əsərləri XXI cild B., "Ozan", 2008,s.104). Apardığımız araşdırmalardan məlum olur ki, XX əsrin əvvəllərində Əli Nəzminin dünyagörüşündə və həyata baxışlarında bir aydınlıq, tərəqqi və maarifə xüsusi dəyər verməyə meyli özünü göstərmişdir.

Ədəbiyyat

1. Nəzmi Əli. Keçmiş günlər (Xatirələr). Transliterasiya edib çapa hazırlayan, "Ön söz", "Lüğət", "İzahlar"ın müəllifi Elmira Qasımova. Bakı, "Adiloğlu", 2006.
2. Nəzmi Əli. Seçilmiş əsərləri. Bakı, Yazıçı, 1979.
3. Mir Cəlal, Firidun Hüseynov. XXəsr Azərbaycan ədəbiyyatı. Bakı,, 1982.
4. Hüseynov F. Əli Nəzmi. Bakı, Gənclik, 1970.
5. Bayramoğlu Alxan. Əli Nəzmi yaradıcılığı haqqında - Ədəbiyyat Məcmuəsi. Nizami adına Ədəbiyyat İnstutunun Əsərləri. XXI cild. Bakı, 2008, səh. 103-131.

А.А.Фараджова

О первом периоде творчества Али Назми

Резюме

В статье рассматривается роль Али Назми в развитии просвещенной реалистической литературы и движения Молла Насраддина как одного из ведущих представителей азербайджанской литературной мысли в начале XX века. В его мемуаре «Прошедшие времена» он с большой любовью говорит о своем красивом родном крае – Сераб, о его плодотворной земле, о трудолюбивых людях. Вместе с тем, в статье отражены непростые детские годы творческой личности - плохой образ жизни, раннее безотцовщина, переезд на заработки в Бухару и Самарканд. Стихотворение Али Назми «Времена года и крестьяне», состоящее из четырех частей, написанное в 1903 году, подробно и ясно отражает жизнь деревни и заботы сельских жителей в соответствии с каждым сезоном. В «Весенней» части работы приведены нововведения в природе и жизни, связанные с приходом весны, ее вхождением в природу (решение), а также примеры происходящих процессов.

A.A.Farajova

With regard to the first period of Ali Nazmi's creativity

Summary

The article deals with Ali Nazmi's unique role in the development of enlightened realist literature and the Mollanasraddin movement, being one of the prominent representatives of Azerbaijani literary thought in the early twentieth century. In his poem "Past Days" he praises the beautiful birthplace - Sarab with great love, its magnificent nature, fertile land and hardworking people as the object of his pen. At the same time, this creative person's difficult childhood years - poor lifestyle, early fatherlessness, moving to Bukhara and Samarkand to earn a living - are also reflected in the article. Ali Nazmi's poem "Seasons and the Villagers," consisting of four parts written in 1903, reflects the life of the village and the concerns of the villagers in accordance with each season in detail and clarity. The "Spring" part of the work gives examples of the arrival of spring, novelty in nature and life related to the entry into nature and the ongoing processes.

Rəyçi: prof. A.B.Məmmədov
Redaksiyaya daxil olub: 11.12.2020

A.C.HEYBƏTOVA
e-mail: aytannquliyev@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

PAŞA QƏLBİNUR YARADICILIĞINDA LİRİK "MƏN"İN TƏŞƏKKÜL VƏ TƏKAMÜL BİRLİYİ

Açar sözlər: *müstəqillik, lirika, xarakter, təfəkkür, daxili nitq.*
Ключевые слова: *независимость, лирика, характер, мышление, внутренняя речь.*
Key words: *independence, lyrics, character, thinking, inner speech.*

Paşa Qəlbinur poeziyasının zənginliyində araşdırmalı problemlərdən biri bədii-estetik təfəkkürünün təşəkkül və təkamül müəyyənliyində dayananların ümumi mahiyyətini aydınlaşdırmaq, yaradıcı şəxsiyyətinin əhatələdiyi təsəvvür və düşüncə qatlarını bir bütöv olaraq ortaya qoymaqdır.

Ümumiyyətlə, ötən əsrin 60-cı illərindən ədəbiyyatda başlayan yeniləşmə tendensiyası (yeni nəsil və yeni nəsr təsəvvürü) bir istiqamətdə insanın daxili aləmini, iç dünyasını, daxili nitqində özünə yer alan fikir və düşüncələrini aydınlaşdırmağa köklənmişdi. Onu da əlavə edək ki, bu təkcə Azərbaycan ədəbiyyatında özünü göstərən xarakterik keyfiyyət olmayıb, dünya ədəbiyyatı üçün nəzərə çarpan tendensiya idi. 70-80-ci illər ədəbiyyatında, eləcə də müstəqillik dövrü ədəbiyyatında "*bədii yaradıcılıqda psixologizm", "yaradıcılıq və psixologiya" problemləri bədii düşüncənin, eləcə də ədəbi-nəzəri fikrin problemi olaraq daha geniş mahiyyət kəsb edir. İ.Şıxlının, İ.Hüseynovun, Anarın, Elçinin, Y.Səmədoğlunun, V.Səmədoğlunun, H.Arifin, M.Arazın, N.Kəsəmənlinin, M.Süleymanlının, R.Rövşənin və onlarla başqalarının yaradıcılığında özünü göstərən psixoloji əksetdirmə, daxili monoloq bir xətt olaraq ədəbiyyatın məzmun xronotoplarında ciddi mənzərə ilə səciyyələnirdi. Çünki, 60-cı illərdəki yeniləşmə ruhu "davranış etiketləri, psixoloji əksetdirmə, daxili monoloq - bu və bu kimi anlayışlar mövcud nəsr əsərlərinə baxışı da dəyişdirdi. Hətta yazıçılar özləri özlərinə yenidən baxmalı oldular. Ədəbi tənqid isə nəsr əsərlərini dəyərləndirmək işində yeni axtarışlara doğru istiqamət götürdü*". [2]. Təkcə nəsr əsərləri deyil, poeziya da bütün aspektləri ilə insanı bir mahiyyət məsələsi olaraq dərkə, etnokulturoloji yaddaşda müəyyənləşdirdiyi təsəvvürə köklənir. P.Qəlbinur yaradıcılığı kontekstdə apardığımız təhlillər lirik "mən"in təşəkkül və təkamül müəyyənliyində sənətkar psixologizmini aydınlaşdırmaq məqsədi daşıyır.

Bədii-estetik təfəkkür texnologiyalarının əksetdirmə imkanları insanı, onun mahiyyətində, mənəvi dünyasında olanları ifadəyə köklənir. Çünki ədəbiyyatın yaradıcısı insandır və insanı bir varlıq olaraq dərk, maddi və mənəvi məzmunun paradiqmatik mənzərəsini aydınlaşdırmaq müxtəlif səviyyələrdə (fəlsəfi, tarixi, psixoloji, mədəni və s.) ilkin təsəvvürdən günümüzə qədər həmişə diqqət önündə olmuşdur. "*Sözün hər bir kəlməsinin arxasında canlı insan, onun mürəkkəb və zəngin daxili aləmi, hiss-həyəcanları, duyğu və düşüncələri dayanır*" *[4, s.18]*. Bütün bunlar kontekstində xalq şairi S.Vurğun "*adın sözdür, özün insan, nə mənalar yaşar səndə*" [8, s.20] deməklə diqqəti insanın mahiyyətinə yönəldir. P.Qəlbinur yaradıcılığı da öz zəngin fakturası, işarələr sisteminin simvolizə etdiyi yaddaş kodları ilə lirik "mən"in təşəkkül və təkamülü konsepsiyasına yüklənir. "Nənəm", "Ağla", "Anam elçi gedən gün", "Dağlar kəpənəkdi bu yay günündə", "Ay gözlərin", "Bir yaşında uşaqlar", "Qubanın ağ alması", "Pinəçi dükanı", "Dilənçi", "Nar", "Sahibsiz məzarlara kim keşik çəkir", "Nədənsə yaşıla çalmadın axı", "Sual", "İndicə" və s. şeirlər sənətkar düşüncəsinin bədii-estetik prinsiplərində müəyyənləşmiş poetik obrazlar kultunu sərgiləyir.

P.Qəlbinur poeziyası 60-cı illərin ümumi ruhuna köklənməklə onun müəyyənləşdirdiyi sənət prinsiplərinə, işarələrin kəsb etdiyi simvolizmə, metaforik məzmun qatlarının özünəməxsusluq modellərinə bağlanmışdır. Obyektiv aləmin subyektiv dərkinə, "həyatda olduğundan daha gözəl" düşüncəsinə köklənən ədəbiyyat nitq janrlarının özünəməxsus üsulları ilə müəyyənləşdirdiyi məqsəd və məramı reallaşdırmağa, dürlü örnəklərini bir istiqamət olaraq ortaya qoymağa çalışır. Sənətkarın hiss və ehtiraslarının subyektivliyində sıralanan mətn axarı onda həm də orijinallığın təminatçısına çevrilir.

Lirik-psixoloji canlandırmanın ümumi prinsipləri üzərində köklənən P.Qəlbinur hər bir şeirində bu modelə, özü üçün müəyyənəlşdirdiyi prinsiplərə, psixoloji əksetdirmə maneralarına, daxili monoloqun müxtəlif forma və üsullarının bədii mətnə gətirilməsinə köklənməklə orijinallıqla səciyyələnəcək bir özünəməxsusluğu ortaya qoydu. Ədəbiyyatşünas Ə.Əsgərli şairin yaradıcılığını bütün qövsləri, mövzu və struktur xətləri ilə təhlil edərək vurğulayır ki, *"Paşanın şeirlərini asanlıqla başa düşmək, dərk etmək olmur. Bəzən qeyri-müəyyən qavrayış şeirlərindəki fikir və düşüncəni psixoloji hissiyyatları ilə "min yerə yozur". Yəni P.Qəlbinur poeziyası intellektual poeziya olduğundan oxucunu yüksək fəlsəfi səviyyəyə, hazırlıq, poetik zövq, həssas duyum tələb edir, deməli həm də hazır oxucu istəyir"* [3, s.19].

Lirizm elə geniş mahiyyətli hissi, bədii-estetik düşüncəni şərtləndirən məsələdir ki, onun əhatələdiyi məzmun təkcə poeziya ilə yekunlaşmır. Bədii düşüncənin faktı olaraq nəsrdə və dramaturgiyada da bir yaradıcılıq, üslubi-keyfiyyət olaraq mətnə əlavə çalarlar gətirir, bir növ məzmunyaradıcı fakt kimi ciddi funksiyaya yüklənir. Poeziyada isə onun yeri müstəsnalıqdır və üst qatda görünən hadisə olaraq estetik idealın cövlanına xüsusi imkanlar yaradır. Arxitekstuallıq müstəvisində P.Qəlbinurun "Qızılgül kolunun dibində lalə" şeiri yaddaş təsəvvüründə müəyyənləşmiş kodların arxetiplərinə bağlanır. Etnik düşüncənin müəyyənləşdirdiyi gül simvolikası və onun özünün tipoloji sıralanmada ortaya qoyduğu təsəvvür yuxarıdakı mətndə yeni məna çalarları ilə səciyyələnir. Qızılgül, bənövşə, lalə sıralanmasında şairin yanaşmaları və klassik ədəbiyyatın, eləcə də aşıq yaradıcılığının, xalq ədəbiyyatının zənginliklərində nəzərə çarpan özünəməxsusluqlar və orijinal mənalandırmalar sıralanmada kifayət qədər maraqlı təsəvvürlə faktlaşır.

Sözü canlandırmaq, onun mətn daxilində imkanlarını açmaq (pərvazlandırmaq), söz qatarında düzümün arxitektonik mənzərəsini ortaya qoya bilmək P.Qəlbinur yaradıcılığında keyfiyyət göstəricisidir. Bənövşə timsalında aparılan müqayisələr, həyatın təzadları, kol və bənövşə, soyuq, şaxta və bənövşə timsalında aparılan müqayisələr mətn daxilində kəsb elədiyi məna və poetiklik yaratma funksiyası ilə sənətkar üslubunun mahiyyət göstəricisidir. "Gəlib ürəyimdə bit, ay bənövşə" deyən şair bütün parametrlərdə bu zərifliyin rahatlığı və həm də ən yaxşı məkanı ola biləcək təsəvvüründə ürəyini (şair ürəyini) bir nümunə olaraq göstərir. Bütün bunlar özlüyündə bədiiliyə, onun poetik mükəmməllik təsəvvürünə bağlanır. Ümumiyyətlə, "*bədiilik elə ondan ibarətdir ki, bir cizgi, bir sözlə elə bir şeyi bizə canlı və hərtərəfli təqdim edir ki, bədiilik olmasa həmin şeyi heç on cilddə də ifadə edib qurtara bilməzsən. Elə bu səbəbdəndir ki, bədiilikdən uzaq olan bütün əsərlərdə sözçülük həddindən çox olur. Sənətkarın isə əksinə sözçülüyə ehtiyacı yoxdur, izahına bəzən bir cild lazım olan fikri ifadə etmək üçün ona bir neçə cizgi və bir neçə söz kifayət edir*" [1, s.226]. Bədii sistemin mükəmməlliyində mətnin məna qatı və əksetdirmənin rəngarəng üsullarında nəzərə çarpan elementlər bədii-estetik bütövlüyün xronotoplarını aşkarlayır. Burada yaradıcı psixologizmi, daxili monoloqun müxtəliflik kodları sənətkarın təfəkkür intelleksiyasının göstəricisi olaraq tipoloji yanaşmaları gərəkli edir. P.Qəlbinur poeziyasının sərgilədiyi metadil poetik obrazlar kulturunun daxili harmoniyasının təminatçısı funksiyasında çıxış edir. Ona görə də onun yaradıcılığının müəyyənləşdirdiyi təkamül özlüyündə bir yaradıcı özünəməxsusluğuna, üslub müəyyənliyinə bağlanır. İlk şeirlərindən sonuncu şeirinə qədər mətn informasiyasında nəzərə çarpan sənətkar statusu birbaşa yaradıcılıq axtarışlarında boy göstərən özünəməxsusluq konsepsiyasına hesablanır. "Bu qış gecəsi", "Bilirəm göylərdə ilahi eşq var", "Ağ dənizdə burulğanım", "Mən sənə

o qədər inanıram ki", "Yenə", "Ağlama" və s. çeşidli poetik örnəkləri yüksək yaradıcı intelleksiyasının göstəricisi olaraq mükəmməl təsəvvür formalaşdırır. Ona görə də "*P. Qəlbinur şeirlərinin hər biri analiz predmetidir... P.Qəlbinur poeziyasında – motiv, psixoloji müxtəliflik o qədər zəngindir ki, onlarda qruplaşma, ümumiləşdirmə aparmaq əslində çətin olur. Bununla belə, biz "nəyisə", - bu "nəyisəni" tapmaq isə həmişə asan olmur, -əsas götürüb təhlil edirik*" [3, s.20-21]. Çünki P.Qəlbinur poeziyasında hər bir şeirin özünəməxsusluq kodu, təsəvvür və düşüncə modeli, modelləşdirmə prinsipi vardır. Bunların üsə ümumilikdə təşəkkül və təkamül mənzərəsini sistemli şəkildə aydınlaşdırmaq sənətkarın yaradıcılığında özünəməxsusluq və mətn fərdiliyi prinsipində boy göstərən zənginliyi bir kod olaraq dərkə hesablanır.

60-80-ci illər ədəbiyyatının, eləcə də P.Qəlbinur poeziyasının enerji qaynaqlarını müəyyənləşdirən yaddaş və ənənə nümunələri kifayət qədər dərinliklərə gedib çıxır. M.Füzuli qəmi poeziyanın sərmayəsi hesab edirdi. Doğrudan da, lirikanın və sənətkar istedadının mahiyyətində dayanan əsas məsələlərdən birisi obrazın daxili mahiyyətini açmaq və açа bilmək istedadıdır. Lirikanın geneologiyasında məhz insanın qəlb dünyasının rübabını dilləndirə bilmək bacarığı dayanır. P.Qəlbinur poeziyasının özünəməxsusluğunda, üslub çalarlarında mahiyyətə yönlənmə və lirik "mən"in daxili aləmində olanları yüksək səviyyədə dilləndirmə bacarığı dayanır. Sənətkarın özünüifadə prinsipinə dayanan bu məsələ lirizmin təbiətindən irəli gələrək poetik obrazlar şəbəkəsində mövzu və ifadə üsullarının rəngarəngliyində sıralanır. "*Şairin Vətəni onun ana dili, ana dilinin hər kəlməsi, hər səsidir, hər söz elə Vətənin bir parçasıdır, hər sözün yaddaşı Vətənin və xalqın tarixidir*" [6, s.164]. P.Qəlbinur poeziyası bu kontekstdə həm mövzu əhatəsi, həm də bütünlükdə ruhani bağlantıları, iç dünyasında əhatələdiyi təsəvvür baxımından milli düşüncənin ən dərin qatlarından boy göstərir və günümüzə qədər olanları əhatələmək imkanları ilə xarakterik görünür.

Min illik şərabı çəkdim başıma
Bir az qan dadırdı, bir az da şərbət,
Nalənin qoxusu vurdu başıma.
Gördüm bir dənizdi, damlası heyrət!
Hər damla özü də min bir şəxsiyyət... [5, s.18].

Paşa Qəlbinur poeziyası düşüncə və ifadəlilik imkanları baxımından sərhəd tanımır. Onun yaradıcı təsəvvürünə dayananlar bütünlükdə etnosa, etnokulturoloji sistemin ilkinlikdən bu yana olan mənzərəsinə, tarixi-mədəni təsəvvürlərin, bədii-estetik modellərin mükəmməllik konsepsiyasına və şairin genetik yaddaş kodlarına bağlanır. Görkəmli dilçi alimimiz, professor Əzizxan Tanrıverdi "Cərrah bıçağından süzülən işıq sözə çevriləndə" məqaləsində tipoloji müstəvidə vurğulayır ki, "*Paşa Qəlbinur şair qələmi ilə cərrah bıçağını qovuşdurub təfəkkürünə - oradan da şeirə, sözə ötürə bilir. Şairin "Ağlıma gələnlər, başıma gəldi" kitabı vərəqləndikcə ilk növbədə işıq obrazı yada düşür, işıq barədə düşünür, sanki hər şeyin aydınlığa, işığa uyğunlaşdırıldığının şahidi olursan.*

Müəllifin nəzərində hətta kədərin, zülmətin, qaranlığın özü belə işıqdır. And içəndə heç bir varlığa yox, məhz işığa and içməsi də şair üçün işığın nə qədər doğma və müqəddəs olduğunu təsdiqləyir" [7, s.57]. Doğrudan da dilçi, ədəbiyyatşünas alimin P.Qəlbinur poeziyasını işıq müstəvisində təhlilə gətirməsi və onun mahiyyət səviyyəsində dərinliklərinə diqqət yetirməsi şairin yaradıcılığı boyu nəzərə çarpan mövzu özünəməxsusluqlarına həssaslığını ifadə edir. Çünki imzasındakı (Qəlbinur) nurdan ayrı-ayrı şeirlərində tez-tez və həm də orijinallıqla nəzərə çarpan obrazlaşmada işıq bir yaradıcı kodu olaraq semantikləşir. Onun yaradıcılığının mövzu və ideya qatını təşkil edən vətən, yurd, torpaq, ailə, insan, dünya, təbiət və s. hamısı yaradıcı düşüncəsində bir-biri ilə bir sistem çərçivəsində elə bağlanır ki, bunların vasitəsi ilə yaradıcı mahiyyəti dərk olunur. Qarabağ, onun sıraladığı ağrılar, rus şovinizminin xalqımıza yönəlikli siyasəti, erməni məkri və müharibənin acı nəticələri şairi "dirilər kimi getdik, uduzduq" qənaətinə gətirir, lakin bunun digər tərəfində məsələlərin hələ qurtarmadığı və son savaş olmadığı "ruhlar kimi yağaq, Qarabağa" deyimi bütün aspektləri ilə xalqın oyanışına çağırış-

dır. Mövzu rəngarəngliyi ilə səciyyələnən P.Qəlbinur poeziyası yaddaş tutumu, modelləşdirmənin özünəməxsusluq prinsipi, estetik işarələnmənin yüksək intelleksiyası ilə mahiyyəti ortaya qoyur. Bütün bunlar bir istiqamət olaraq P.Qəlbinur poeziyasının ümumi sistemini mətn sxemlərini geniş kontekstdə təhlilə gətirməyi zəruri edir.

Ədəbiyyat

1. Belinski V.Q. Seçilmiş məqalələri. Bakı: Gənclik, 1979, 228 s.
2. Əliyev K. Paralel xronologiyalar. "525-ci qəzet", 13 iyul 2015-ci il.
3. Əsgərli Ə. Fərdi üslubun poeziyası. Bakı: Vektor, 2017, 150 s.
4. Hüseynov M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.
5. Qəlbinur P. Ağlıma gələnlər, başıma gəldi. Bakı: Ozan, 2003, 656 s.
6. Nəbiyev B. Tənqid və ədəbi proses. Bakı: Azərnəşr, 1976, 188 s.
7. Tanrıverdi Ə. Poeziyanın dili, dilin poeziyası. Bakı: Nurlan, 2008, 203 s.
8. Vurğun S. Seçilmiş əsərləri. İki cilddə, I c., Bakı: Azərnəşr, 1976, 288 s.

А.Дж.Хейбатова

Единство формирования и эволюции лирического "я" в творчестве Паши Галбинура

Резюме

Одна из проблем, которую предстоит изучить в богатстве поэзии Паши Гальбинура, - выяснить общую сущность тех, кто стоит в становлении и эволюции художественного и эстетического мышления, выявить пласты воображения и мысли, окружающие его творческую личность. Поэзия П.Гальбинура, характеризующаяся разнообразием тем, раскрывает сущность с емкостью памяти, принципом оригинальности моделирования, высоким интеллектом эстетической маркировки.

A.J.Heybatova

Unity of birth and evolution of the lyrical "I" in the works of Pasha Galbinur

Summary

One of the problems to be studied in the richness of Pasha Galbinur's poetry is to clarify the general essence of those who stand in the formation and evolution of artistic and aesthetic thinking, to reveal the layers of imagination and thought surrounding his creative personality. Characterized by the diversity of themes, P.Galbinur's poetry reveals the essence with the capacity of memory, the principle of originality of modeling, high intelligence of aesthetic marking.

Rəyçi: prof. Ə.Əsgərli

Redaksiyaya daxil olub: 03.12.2020

R.S.HÜSEYNOV
filologiya üzrə fəlsəfə doktoru

AMEA-nın M.Füzuli ad. Əlyazmalar İnstitutu
(Bakı şəh., İstiqlaliyyət küç., 8)

GÜVAHİ PƏNDNAMƏSİNİN BAKI NÜSXƏSİ HAQQINDA

Açar sözlər: *Güvahi, pəndnamə, didaktik, türk ədəbiyyatı*
Ключевые слова: *Гювахи, пенднамэ, дидактический, турецкая литература*
Key words: *Guvahi, Pandname, didactic, Turkish literature*

XVI əsr Türk ədəbiyyatının görkəmli nümayəndəsi Güvahi "Pəndnameyi-Güvahi" əsəri ilə adını ədəbiyyat tarixlərinə yazdırmışdır. Güvahini əsl adı haqqında qaynaqlarda məlumat yoxdur. Ancaq onun İzmirin Givə qəsəbəsində yaşadığını, hərbi xidmət müqabilində hərbiçilərə verilən "Ərbabı-timar" adı ilə torpaq mülkiyyətinə sahib olduğunu, I Sultan Səlimin Şərqə yürüşlərində xüsusilə onun şah İsmail Xətai ilə apardığı Çaldıran döyüşündə iştirak etdiyini qaynaqlardan öyrənirik. Doğulduğu tarix məlum olmasa da şairn h.926/m.1519-cu ildə vəfat etdiyini əksər qaynaqlar təsdiq etməkdədir. Fəqət şairin ölüm tarixi də bir çox tədqiqatçı tərəfindən mübahisə mövzusudur. Belə ki, "Sicili-Osmani"də Güvahinin ölüm tarixi 926/1520 (13, s85) Agah Sırrı Leventin "Türk ədəbiyyatı tarixinə giriş" adlı monoqrafyasnda 925/1519 (12, s142) olaraq qeyd edilmişdir.

1972-ci ildə Əlyazmalar Xəzinəsində çap olunan məqaləsində F.Həsənova Güvahinin ölüm tarixi ilə əlaqədar fərqli fikir bildirmişdir. "....Güvahi 1519-cu ildə deyil bir qədər sonra vəfat etmişdir. Tarixən məlumdur ki, I Sultan Səlim 1520-ci ildə öldükdən sonra onun yeganə oğlu və qanuni varisi olub, o vaxta qədər Manisada valilik edən 20 yaşlı şahzadə Süleyman hakimiyyət başına keçir." (7, s.89) Bildiyimiz kimi xeyirxah işlərinə görə Sultan Süleyman "Qanuni" titulu almışdır. "Güvahi də haqqında bəhs etdiyimiz bu əsərində minacat və nət hissələrinin ardınca ənənəvi olaraq, böyüklərin itaətində olmağı insanlara məsləhət gördükdən sonra, I Sultan Süleymanı yeddi ölkənin şahı adlandırır. Güvahi ona xeyir-dua verib:

Xudaya şahımız ol xan Süleyman
Səlatin zübdəsi sultan Süleyman
Fəzayi-həft kişvər şahsəvari
Bekani xan Süleyman yadigari
Necə kim dura bu dövranı aləm
Ola əmrin ilə sultani-aləm
Cəmali, mehri görməsin küsufi,

İraq et mahi –ömründən xüsufi – deyərək, ondan haqq və ədalət simvolu olan Süleyman peyğəmbərin yadigarı kimi bəhs edir (7, s. 91). Mətnin digər səhifələrində də bir neçə dəfə Sultan Süleymanın və vəzirlərinin ad çəkilir. Onlardan hekayə personajı kimi qeyd edilir. Pəndnamənin Türkiyədəki tədqiqatçılarından Mehmed Hengirman "Pəndnamə" əsərinin yazılış tarixini 933/1526 olmasını nəzərə alaraq şairin ölüm tarixinin yuxarıda göstərilənlərdən fərqli olduğunu iddia etmişdir. Tədqiqatçı "Pəndnamə"də verilən tarixi hadisələri təhlil edərək Güvahinin ölüm tarixini 1526-cı il olduğunu bildirir. Tədqiqatçı Güvahinin yaşadığı dövrü əsərindəki faktlara istinad edərək təhlil edərkən xüsusilə Qanuni Sultan Süleymanın dövründə olan İbrahim Paşanın toyundan əsərdə bəhs edilməsi üstündə durmuşdur. Bu fakt Güvahinin Qanuni Sultan Süleyman dövrü şairi olduğunu göstərir. Tədqiqatçı bu məlumatı nəzərə alaraq "Pəndnamə"nin Yavuz Sultan Səlimə deyil, Qanuni Sultan Süleymana təqdim edildiyini bildirir (6, 14-15).

Aşıq Çələbi, Həsən Çələbi, Lətifi, Bəyani təzkirələrində, Alinin "Künhul Əxbər"ində və Məhəmməd Sürəyyanın "Sicili-Osmanisində"Güvahinin "Pəndnamə"ni Yavuz Sultan Səlimə yazdığı qeyd olunur. Halbuki "Pəndnamə"nin qələmə alındığı tarix yəni 1526-cı il Qanuni Sultan Süleymanın padişahlıq etdiyi dönəmə təsadüf edir. Pəndnamədəki 82, 132, 1569, 1612, 1631-ci beytlərdə Qanuni Sultan Süleymanın adı qeyd edilir. Onun dövründə olan hadisələrdən bəhs edilir. Yavuz Sultan Səlimin adı isə sadəcə 83-cü beytdə Qanuninin atası olduğunu bildirmək üçün qeyd edilmişdir (5, 15). Bəlkə də Güvahi "Pəndnamə"sini əvvəlcə Yavuz Sultan Səlimin adına yazmağı düşünsə də Səlim vəfat edincə "Pəndnamə"ni Qanuni Sultan Süleymana (nəzərə alsaq Yavuzun Misir səfərinə qatılmış onunla birgə vuruşmuşdur) təqdim etmişdir (3, 993). Güvahinin hansı sənətin sahibi olması da müxtəlif qaynaqlarda fərqli şəkildə təqdim olunmuşdur. Belə ki Aşıq Çələbi, Həsən Çələbi, Lətifi və Bəyani təzkirələri ilə Əlinin "Künhul-əxbər"ində onun sipahi və timar sahibi olduğu qeyd edilsə də "Sicili-Osmani"də Güvahinin ticarətlə məşğul olduğu bildirilmişdir. Əlbətdə ki təzkirələrdəki məlumat daha düzgündür zənnimizcə. Çünkü Güvahi "Pəndnamə"sində ulaqlarla əlaqədar bir əhvalat danışarkən özünün sipahi olduğunu qeyd edir.

Demədilər sipahidür bu kişi,
Degül ədnalara bənzər gedişi. (5, 132)

"Sicili-Osmani"də "Pəndnamə"nin tərcümə bir əsər olması ilə əlaqədar da qeydlər var. Ancaq mətində keçən Qanuni, Ayaz paşa, İbrahim paşa, Əli paşa, Qızıl Əhməd və Nəsrəddin hoca kimi türk böyüklərinin adları, türklərə məxsus atalar sözləri və zərbi məsəllər bu əsərin heç də tərcümə olmadığını sübut edir.

Həsən Çələbi Təzkirəsində, Gelibolulu Əlinin "Künhul-əxbər" əsərində, Bəyaninin "Təzkirətül-şüəra"sında Şəmsəddin Saminin "Qamusı-elam"ında, "Sicili- Osmani"də, "Türk məhşurları" kimi elmi-ədəbi məcmuələrdə eyni fikirlər təkrar edilmişdir. Güvahinin Pəndanamə xaricində də əsəri olduğunu təzkirələrdən öyrənirik. "Kənzul-Bədayi" adı ilə qeyd edilən bu sərin varlığı da şübhə altındadır. Belə ki Türk dilində istifadə olunan atalar sözü və zərbi-məsəllərin əsasında yazılan və I Sultan Səlimə təqdim edilən "Pəndnamə" əsərindən bir çox məxəzdə söhbət açılsa da ikinci əsərinin adı çəkilmir. Lətifi və Həsən Çələbi təzkirələrində Güvahinin "Sultan Səlim namına bir Pəndnamə yazdığını və bu əsərə "Kənzül-bədayi"adını verdiyini qeyd edir (10, 471-472). Mehmet Hengirmen bu fikri təsdiq edərək Güvahinin "Kənzül-bədayi" adlı başqa əsərinin olmadığını qeyd edir. Haqqında bir çox təzkirədə və qaynaqda məlumat olan Güvahinin dövrün ən yaxın təzkiraçi Qastamonlu Lətifinin (1546-1586) verdiyi məlumatlar nisbətən daha genişdir. Lətifi Güvahi haqqında verdiyi məlumatlardan sonra müəllifin Pəndnaməsindən parçalar vermişdir. Lətifi Güvahinin əsərindən söhbət açarkən türk dilindəki atalar sözlərini nəsihət vermək üçün nəzmə çəkdiyini, amma şeirlərində incəlik olmadığını qeyd edir (14, 1314). Katib Çələbi "Kəşfüz-zünun"əsərində Güvahidən "Kənzül-Bədaye" müəllifi kimi bəhs etmişdir. Çox ehtimal ki müəllif "Pəndnamə" əsərini nəzərdə tutmuşdur. Bursalı Tahir "Osmanlı müəllifləri" əsərində Güvahinin "Pəndnamə"sindən bəhs edərək onun həcmini qeyd etmiş və əsərin əvvəli və sonununda nümunələr gətirmiş.

Əsrlər boyunca divan ədəbiyyatında pəndnamələr və buna bənzər nəsihət kitablarının xüsusi yeri olmuşdur. Ümumiyyətlə "Pəndnamə" fars sözü olub "öyüd kitabı" "nəsihət kitabı" mənalarını verir. "Pəndnamə"lər əsasən məsnəvi nəzim şəkli ilə qələmə alınmış dini-təsəvvüfi əxlaqi-didaktik xarakter daşıyan əsərlərdir. Belə əsərlər əsasən tovhid, münacaat və nətlə bəzən padişaha yazılmış mədhiyyə ilə başlayır. Bəzən isə didaktik mahiyyətli əsrlərdə kiçik girişdən sonra əsas mövzuya keçilir. Əzəldən Əli Mustafa Əfəndinin "Məvaidün-nəfais fi qəvaidil-məcalis" kimi "adabı-müaşərat" etiket kitabları, Lütfü paşanın dövlətlərin dağılma səbəblərini işləyən "Asafnamə"si, Əhməd Əflaqinin "Mənaqibin-arifin" kimi əsərlərdə təriqət böyüklərinin həyatı və təsəvvüfi tərbiyyədən bəhs edən əsərlərdən sonra Şərq cəmiyyətlərində Pəhləvi dilində Panchatantra kimi tanınan təmsil növü, İbn əl-Müqavva tərəfindən Kəlilə və Dimnə adı ilə ərəb dilinə tərcümə edildi və bu növün nümunələri sürətlə artdı. Cahizin "Ət-

Tâc fi əxlâqi yol-mülk" əsəri, Yusuf Has Hacibin "Qutadqu bilik" və Nizâmülmülkün "Siyasətnamə"si bu növün ən yetkin nümunələri olmuşdur. Anadoluda isə ilk nasihatnamə nümunələri XIII əsrdə ortaya çıxmışdır. Yunus Əmrə'nin "Risâlətü'n-nüsxiyyə'si və Əhməd Fəqihin "Çarxnâmə"si bunlar arasındadır. XIV əsrdə ilk nasihatnamə, Xoca Məsudun Sədi-i Şirazinin "Bostan" adlı əsərindən seçdiyi Fərhəngnâme-i Sədî idi. Bu əsrdə Süleyman adlı bir şairin yazdığı və əlində nasihatnamə olan 203 cüt Aydınlı Müridinin "Pəndi-rical" əsəri, XV əsrə aid məlum ilk nəsihətnamə olan hürufi şairi Rəfiinin 1451 beytlik "Bəşarətnamə"si çox maraqlıdır. Sonuncu əsər Fəzlullah-ı Hurufinin əsərlərinin təsiri altında yazılmışdır. Fars dilindən Əhməd-i Dâi tərəfindən tərcümə olunmuş 115 beytlik Vasiyyet-i Nuşirevân-ı Adil be-Pusereş, Türk ədəbiyyatında yetkin nümunələri sonradan ortaya çıxacaq uşaqlar üçün yazılmış ilk əsərdir. Belə əsərlərin Ən məhşuru Firudiddin Əttarın "Pəndnamə"sidir. Bu əsər əsrlər boyu Şərq-islam ölkələri üzərində geniş və dərin izlər buraxmışdır. Sinan Paşanın "Maarifnamə" (Əxlaqnamə) adlı nəsihətnaməsi bu dövrdə çox məhşur olmuşdur. Fatih Sultan Mehmed dövrü şairlərindən olan Gülşəni-i Saruhaninin yazdığı Raznâme, Pəndnâmə və Əsrarnâmə kimi adlarla tanınan nəsihət kitabı, Dədə Ömər Rövşəninin tərcibənd şəklindəki nəsihətnamasi, Germiyanlı Yetiminin doxsan doqquz beytlik "İbrətnamə"si və Şeyx Əşrəfin uşaq tərbiyəsi ilə əlaqədar" Nəsihətnamə"si də bu mövzuda yazılmış əsərlərə nümunələrdir (9, 409-410). Ümumiyyətlə isə Türk müəlliflər yazdıqları pəndnamələrini daha çox Əttarın təsiri ilə qələmə almışlar. Güvahinin "Pəndnamə"si bu baxımdan digərlərindən fərqlənir. Belə ki Güvahinin "Pəndnamə"sində olan atalar sözləri, deyimlər, nağıllar, lətifələr özünə məxsus xüsusiyyətləri ilə seçilir. Güvahi Yavuz Sultan Səlimin Misir səfərində iştirak edərkən Anadoluda eşitdiyi atalar sözlərini, deyimləri, nağılları, hekayələri və lətifələri öz "Pəndnamə"sində böyük ustalıqla istifadə etmişdir. O əsərində verdiyi kiçik hekayələrin sonunda mütləq türk atalar sözlərindən istifadə etmişdir. Güvahinin əsərində istifadə etdiyi atalar sözləri folklor baxımından qiymətli mənbə olaraq dəyərləndirilmişdir. "Cəmiyyətdə unudulmuş və ya hələ də istifadə olunan folklorik xüsusiyyətləri özündə cəmlədiyi üçün Güvahinin Pəndnaməsi olduqca qiymətli bir əsərdir" (6, 7). Əttar "Pəndnamə"sində əxlaqi məsələlərə təsəvvüfi nöqteyi-nəzərdən yanaşarkən Güvahi ətrafında gördüyü, eşitdiyi və ya başına gələn hadisələri realist şəkildə qələmə almışdır. Halbuki Əttarın "Pəndnamə"sində buna oxşar hekayə və lətifə şəklində ifadə etmək yoxdur. Nəsihətlər mövzu ilə əlaqədar başlıqların altında verilmişdir. "Əttarın üslubundakı ciddiyyət, kamillik kimi əxlaqi qanunların olması ilə yanaşı Güvahi də xalq arasında istifadə olunan bir çox sözlərin və deyimlərin yer aldığını görmək olar" (6, 17). Onu əsərində qarşılaşdığımız "Ki, azı bilməyən çoxu da bilməz" (5, 57), "Bəli yarar məhşurdur təməh daş"(5, 38), "Həmişə çox yanılır söyləyən çox" (6, 207), "Katı uzanma yorğanıca kösil" (6, 112), "Azı bilməyən çoxu da bilməz" (6, 222) ata sözlərinin çoxu indi də istifadə olunmaqdadır.

Əxlaqi-tərbiyəvi mənzum hekayələrdən ibarət olan Güvahi "Pəndnamə"sinin dünyanın müxtəlif kitabxanalarında nüsxələri mövcuddur. Azərbaycan Əlyazmalar İnstitutunda da Güvahinin bu əsərinin əlyazma nüsxəsi B-175 şifrə altında mühafizə olunur. Əlyazma yaşıl kartona tutulmuşdur. 63 vərəqdən ibarət olan əlyazma hərəkəli nəsix xətilə ağ filiqranlı Avropa kağızına sütunlar halında qara mürəkkəblə köçürülmüşdür. Başlıqlar qırmızı mürəkkəblə verilmişdir. Hər səhifəsində 12-14 beyt olduğunu qeyd edə bilərik. Əlyazmanın köçürülmə tarixi və katibi bilinmir. Əsərin 8b və 24b vərəqləri arasında olan mətni naqisdir. Bursalı Məhəmməd Tahirin verdiyi məlumata görə əsər 1635 beytdir. "İstər lüğət tərkibi istərsə də orfoqrafiya və üslubiyyat cəhətdən xüsusi tədqiqə layiq olan həmin əsər türk dilçiləri və ümumiyyətlə türkoloqlar üçün çox maraqlıdır" (7, 91). Əlyazma minacat və nətlə başlayıb bunun ardınca Güvahi əsərinin adını, qayə və məqsədini ifadə etmişdir.

Güvahinin Pəndnaməsində bir çox məsələyə toxunulmuşdur. Müəllif işləməyin vacibliyindən bəhs edərək, Həmişə eylə qazancını sayi, Duruş qul gibi işlə, bəg gibi yi (6, 157). Qənaətkarlığın vacib şərt olduğunu qeyd edən şair Gəl ey gənc istəyən kim yox fənası, Qənaət et ki ayrılmaz bəqası. Qənaətlə edə gör işüni sağ, Ki daim sana tağ üstü ola bağ (6, 137-138)

Qonaqpərvərlik məsələsinə də toxunan Güvahi Sakın konşi haqqından olma qafil, Çün incitməz məsəldir komşusin kurt. Sən inciymək nədən olanı həmyurt, Ağırla konşuyi izzət gərəksə, Xudadan rəhmətü cənnət gərəksə (6, 160). Kibir və qürur haqqında danışan Güvahi bu xüsusiyyətlərin şeytani olduğunu qeyd edir: Qüruru kibr şeytani səfətdir, Odur adəm ki əhli məskənətdir (6, 124). Ummadığın daş baş yarar atalar sözünü rəhbər tutaraq Güvahi: Ögünmə olur olmaz yirdə yoldaş, Ki bəgənmədügün yumruq yarar baş (6, 143).

Tamahın mənfi xüsusiyyət olduğunu qeyd edən şair, Tamah taş yarar, taş baş yarar, Əgərçi taş yarar məlumdur baş. Vəli yarar tamah məşhurdur taş, Bil odur bu sözə olma gümanlı, Tamahkar az tamadan çox ziyanlu (6, 134-135).

Eyni zamanda tamahkarın gözünü bir ovuc torpaq doyurur. Tama yiliylə zinhar olma, Gözi nəsnə toyurmaz illə topraq (6, 134).

Türkiyədə Mehmet Hengirmen tərəfindən nəşr edilən Güvahinin Pəndnaməsi 2133 beytdən ibatətdir. Güvahinin Pəndnaməsindən başqa 117 beyitlik "Gürbətnamə" və 396 beyitlik "İbrətnamə" adlı kiçik məsnəvisi daha vardır. M.Hengirmen 1977-ci ildə bu iki məsnəvinin elmi-tənqidi mətnini hazırlamışdır (6, 5). Güvahinin bir də bilinməyən bir əsəri "Tazarrurnamə" türkiyəli tədqiqatçı Həsən Gültəkin tərəfindən elm aləminə çatdırılmışdır. Karton cildə tutulmuş əlyazma 19 Hk2141 şifrə altında mühafizə olunmaqdadır. Bu məcmuənin içində üçüncü əsərdir. Əsər suyolu filiqranlı kağıza hərəkəli nəstəliq xətti ilə köçürülmüşdür. 20 vərəqdən ibarət olan əsər hər vərəqdə 15 sətir olaraq verilmişdir. Başlıqlar qırmızı mürəkkəblə verilmişdir. Katibi Müəzzin Əhməd olan mətnin 1069/1658-ci ildə köçürülmüşdür. Mətnin sonuna 13 beytlək bir parça əlavə olunmuşdur. Katib burda oxuyanlardan özü üçün dua niyaz edir. "Tazarrunamə" 540+13 beytdən ibarətdir. Məsnəvi şəklində yazılan əsərdə əruzun 4 müxtəlif vəznindən istifadə olunmuşdur.Güvahi 532. Beytdə əsərin adının Tazarrunamə olduğunu qeyd etmişdir.

Tazarrunamə qoyub adını anun,
Mutavvel eyleme bünyadın anun.
Son beytdə əsərin tamamlanma tarixi verilmişdir:
Tokuzyüz yedidə əhli təvarih
Rəbiül-axır ayında bil tarix.

Maraqlısı odur ki "Tazarrunamə"dəki beytlərin bir neçəsi "Pəndnamə"də də olduğu kimi verilmişdir. Bu da bir daha "Tazarrunamə"nin də "Pəndnamə" müəllifi Güvahiyə aid olduğunu sübut edir.

Bitürürsin şəcərədən qullara qut
Yaradursın kara toprakda yakut. (4, 1333) Beyti Pəndnamədəki 13-cü beytlə çox oxşayır:
Bitürür qullara əşcardan qut,
Virür haq ü həcərdən ləl ü yaqut. (5, 2a)

Müsəbbihdür qamu əşya kəmahi
Ki olur padişahlar padişahı. (4, 1333)
Bu beyt Pəndnamədə beytin ikinci misrası təkrardır:
Bilürler sər-tə-ser əşya kəmahi
Ki oldur padişahlar padişahı (5, 2a)

Nübüvvət bürcünün məh-i mukimi,
Fütuvvət dürcinün dürr-i yetimi. (4, 1333)
Risalət bürcünün məhi-mukimi,
Səadət dürcinün dürri-yetimi (5, 2a) və s nümunələri göstərə bilərik.

Güvahi bəşəriyyətin əsrlər boyu sınaqdan çıxmış hikmət və zəkasını əks etdirən atalar sözü və məsəlləri əsasında öyüd və nəsihətlərlə dolu mənzum hekayələr yazmışdır. Şair öz xalqını və ana dilini sevdiyindən, arabir fars və ərəb tərkibləri işlətməsinə baxmayaraq, əsasən

sadə xalq dilində yazmışdır (7, 89). Həqiqətən də Pəndnaməni vərəqlədiyimizdə olduqca sadə dil və üslubla qarşılaşırıq. Bunun bir digər səbəbi də Güvahinin həyatı boyu xalqın arasında olduğu daxil olduğu yürüşlərdə şərq dastan və nağılları ilə yaxından tanış olmuşdur. İstər lüğət tərkibi, istərsə də orfoqrafiya və üslub cəhətdən təqdirə layiqdir. Əsərdə türk dillərinə xas maraqlı cəhətlər müşahidə edilir. Şair hərci-mərcliyi, lovğalığı, qorxaqlığı, riyakarlığı pisləyir, təmkinlilik, igidlik, mərdlik kimi yüksək insani keyfiyyətləri təbliğ edir. Güvahi müxtəlif yollarla mal, pul toplayıb şöhrət sahibi olanları tənqid edir, qazıların tamah ucbatından törətdikləri bədnam işləri ifşa edir. Bununla yanaşı, vəzifə sahibi olan ağıllı insanların hörmətini saxlamağı, fəsad əhlinə uymamağı, öz ədəbsizliyi və düşüncəsiz hərəkətləri ilə başqalarını gülünc vəziyyətə qoymamağa çağırır. Doğruluğun yolu səlamətlikdir, düzlük iki cahana bərabərdir, - deyən şair, dostluqda sədaqətli və yoldaşlıqda etibarlı olmağı təbliğ və təqdir edir. Zəhmətsevərləri təqdir edən şair insanlarda zahiri və batini xüsusiyyətlərinin saflığını qiymətləndirmişdir. Naşükür insanları, qədirbilməzləri tənqid atəşinə tutur: Kimin rizqini yesən mədhini et, Tuz-ətmək bilməyəndən yey olur it (5, v.57a). Əsərin sonunda şair insanpərvərlik və qonaqpərvərlik haqqında da nəsihət vermişdir. Düşünürük ki, Güvahinin Pəndnaməsinin məzmun və qayəsi eləcə də didaktik əhəmiyyəti, mətnşünaslıq xüsusiyyətləri elm aləmi üçün əhəmiyyət kəsb edir oxucular üçün isə olduqca maraqlı və faydalıdır.

Ədəbiyyat

1. Bursalı Məhəmməd Tahir Osmanlı müəlliflər,İstanbul, h.1338, II c., II hissə.s 389
2. Çələbi Katib Kəşfüz-zünun, İstanbul, h.1311, II c, s. 333
3. Eke Nagehan Güvahinin Pend-namesindeki bir hikayet ile La Fontainein bir masalının mukayesesi. A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi Sayı 39, Erzurum 2009. Prof. Hüseyin Ayan Özel sayısı
4. Gültekin H. Güvahinin Bilinmeyen Eseri: Tazarruname. Turkish Studies İnternational Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 7/3, Summer 2012, p.1329-1371, Ankara-Türkey.
5. Güvahi Pəndnamə B-175
6. Hengirmen Mehmet, Pendname-i Güvahi, Kültür ve Turizim Bakanlığı yayınları: Ankara, 1983
7. Həsənova F. Güvahinin "Pəndnamə"si haqqında bəzi qeydlər. Əlyazmalar Xəzinəsində c III, Bakı: Elm, 1972
8. İsen M. Gelibolulu Mustafa Ali. Künhül-ahbarın Tezkire Kısmı. Ankara:AKM yay.1994 s 182
9. İslam Ansiklopedisi, 32.cilt.s409-410
10. Kutluk İ. Kınalızade Hasan Çelebi, Tezkiretüş-şuara. Ankara: TTK yay. 1989, s.824-25
11. Kutluk İ. Mustafa Bin Sarullah, Beyani, Tezkiretü-şuara, Ankara: TTK yay, s. 234-35
12. Levend A.S. Türk Edebiyatı Tarihine Giriş. Ankara:Türk Tarih Kurumu yayınları. 1988, s.142
13. Mehmed Süreyya Sicilli-Osmani. İstanbul: Matbaa-i Amire, 1988, s.85
14. Təzkireyi-Lətif, İst.hic.1314, s.1314, s. 287

Р.С.Гусейнов

О бакинском экземпляре Гювахи Пенднамэ

Резюме

Отдельный экземпляр, занимающего особое место в турецкой литературе XVI века, произведения «Пенднамэ» Гювахи хранится в различных библиотеках мира, в том числе и в Институте Рукописей имени Мухаммеда Физули Национальной Академии Наук Азербайджана. Несмотря на то, что Гювахи написал свою работу, чтобы представить ее Султану Сулейману Кануни, некоторые источники сообщают, будто бы это произведение было написано для Султана Селима Явуза. Также спорна и дата рождения Гювахи. В своем произведении Гювахи, особое место отводил турецким пословицам и поговоркам. Дидактическо-воспитательное произведение «Пенднамэ», стало самым читаемым произведением в турецкой литературе после

«Пенднамэ» Аттара. В этой связи, вызывает интерес еще один обзор экземпляра, находящегося в Институте Рукописей.

R.S.Huseynov

About the Baku copy of the work "Pandname" by Guvahi

Summary

One copy of the work "Pandname" by Guvahi, which has its special place in the 16th century Turkish literature, is preserved in various libraries of the world, including at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences. Though Guvahi had written in order to present his work to Sultan Suleiman the Magnificent, but it was reported in some sources that the work had been written to Yavuz Sultan Selim. Guvahi's death date is also disputable. Guvahi had used especially Turkish proverbs and sayings in the work. The didactic educational work "Pandname" was read vey much in Turkish literature after the work "Pandname" by Ettar. From this point of view, it is interesting to review the copy at the Institute of Manuscripts.

Rəyçi: ped.f.d., dos. Y.K.Alxasov

Redaksiyaya daxil olub: 04.12.2020

R.K.RƏSULOV
filologiya elmləri doktoru, professor
e-mail: kamalrustam@mail.ru

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
(Bakı şəh., Azadlıq küç., 20)

MOLLA PƏNAH VAQİFİN VİZUAL POETİKASI

Açar sözlər: *vizual poetika, baxış, xronotop, ritual, portret.*
Ключевые слова: *визуальная поэтика, взгляд, хронотоп, ритуал, портрет.*
Key words: *visual poetics, eye sight, chronotope, ritual, portrait.*

Ədəbiyyatda vizuallıq problemi həmişə aktual olub, çünki obraz yaratma poetikası ilə, dünyanı və insanı təsvir üsulu ilə bağlı olub. 1970-ci illərdə M.M.Baxtın Rable və Höte yaradıcılığı ilə əlaqədar "göz mədəniyyəti", yaxud "baxış mədəniyyəti" anlayışını daxil edir, onu müəllifin bədii metod xüsusiyyətləri əlaqələndirir və bununla da ədəbi yaradıcılıqda vizuallığın tipologiyasını müəyyənləşdirir (bax: 4:188-236; 5: 47).

Müasir ədəbiyyatşünaslıqda vizuallıq problemi elmi istiqamətə çevrilərək, xüsusi status qazanmaqdadır. Y.N.Tinyanov poeziyanın spesifik konkretliyini rəngkarlıq konkretliyinə qarşı qoyaraq qeyd edir ki, "poetik söz nə qədər canlıdırsa, hiss olunursa rəngkarlıq planına daha az çevrilir" (2: 286).

Rus formalistləri əşyalara yeni baxış bucağı axtarırdılar. V.Şklovski "Sənət priyom kimi" adlı məqaləsində "kənara çəkilmə" ("остраненность") ideyasını irəli sürür ki, onun da əsasında predmet dünyasının görümlülüyü problemi durur (3: 50). M.M.Baxtin "Hetenin əsərlərində zaman və məkan" adlı araşdırmasında "zamanı görmək", "zamanı oxumaq" bacarığından bəhs edir. Görkəmli ədəbiyyatşünasın fikrincə, buna yalnız "təbiətdən tutmuş insan adətlərinə (травы) və ideyalarına (mücərrəd anlayışlara qədər) kimi hər şeydə zamanın gedişatının əlamətlərini" oxuya bilən qadirdir (4: 201).

Bədii söz həmişə özündə vizual başlanğıcı ehtiva edir. L.Vıqotskinin fikrincə, "Obraz terminin özü bizi daim hansısa əyani, gözlə görünən predmet və ya hadisə haqqında təsəvvürü ağlımıza gətirir".

Məhz obrazlılığa görə bədii mətnin semantikası simvolik işarəlilik kəsb edə bilər.

Vizual obraz baxış vasitəsilə hisslərin, qavrayışın və təsəvvürlərin maddi formaların köməyi ilə təsviridir. Vizual obraza psixologiyada yaxın bir anlayış da var – obrazın predləşməsi. Əgər yaranmış obraz motor hərəkətləri və davranış aktları şlanına keçirilirsə, şüurda daha çox qalır.

Vizual obraz deyəndə vizual işarənin vasitəsiz, metaforik mənası anlaşılır.

Adətən mifoloji düşüncə modelində vətən mərkəzdə olmalıdır. Artıq Qarabağ və Şuşa (Qala) onun mifik dünya modelinin mərkəzinə çevrilmişdir.

Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim
Ayaq üstdən Qazağa bir gedib, gördüm vətən, yaxşıdır (1:85).

Vaqif Qarabağ – Şuşa kosmosu ilə sıx bağlıdır. Qaladan kənarda dünya xaosu təcəssüm edir. Qala xaosun kosmosa müdaxiləsinin qarşısını alır. Qala divarları şəhəri yalnız düşmən hücumlarından qorumur, həmişə mistik enerjinin yüksək səviyyədə toplandığı bir məkandır.

Şeirlərdən belə qənaətə gəlmək olar ki, başqasını görməyə, başqasına "baxmağa" üstünlük verən şair özü "görünməməyə" çalışır. Ona görə də Şuşa dağında məkan tutmasını metaforik mənada gülrəngli ləlin, qart daşın içində olması ilə eyniləşdirir.

Məkan tutdisə Vaqif, yox əcəb bi Şişə dağında,
Məqami ləli – gülrəngin miyani-səngi – xaradır (1:94).

Vətənlə bağlı xatirə Qarabağ xronotopunun vizual təsviri ilə qarşılaşdırılır. "Ayaqüstdən Qazağı" ziyarət etsə də, xəyalında Qarabağın "cənnət vaxtı" canlanır.

...Qızılgül açilan günlərdə gülzari-Qarabağa,
Sənin olsun əzizim, böylə məlumun ki, mən gəldim.

Mən idim abi – yari bu gülüstanın əzəl gündən,
Yetirdim təzəcə güllər, gənə mən tazədən gəldim.

Xəyalın mühlik azari məni az qaldı öldürsün,
Qayıtdım rəhgüzari – qəbrdən, yırdım kəfən, gəldim. (1: 106)

Baxış yalnız məkanı əyaniləşdirmir, onu görümlü etmir, həm də onun dəyərlər sistemini müəyyənləşdirir. Əlbəttə bu zaman müəllif məkanı ilə lirik qəhrəmanın məkanı bütövlüyün mürəkkəb, ayrılmaz vəhdəti kimi birləşir. Məhz baxış bucağı obrazların ifadəliliyini gücləndirir. Təsvirlər müəyyən prespektiv (latın.perspicio "aydın görürəm") altında qeydə alınır.

Vaqif üçün Tiflis sadəcə bir şəhər deyil, həm də "cənnət" arxetipinin gerçək təzahürüdür. O, Tiflisdə gördüklərindən vəcdə gələrək, özünü cənnətdə təsəvvür edir.

...Mərhəba, Tiflis imiş cənnəti dünya yerinin,
Yığılıbdır ona cəmiyyəti huru pərinin,
Mən bu şəhrin nə deyim vəsfini dilbərlərinin,
Filməsəl, şəklu şəmayildə, bəli, hər birinin
Məhi-tabanə bərabər səru cimaları var...
...Bədəni-pakı çəkib abi-rəvantək sulara,
Ağarıb tazəvu tər cümlə dönübdür qulara,
Abi-Kür nisbət edib boylarını qarğulara,
Neçə şeydən belə zahir ki, xudanın bulara
Nəzəri-mərhəməti, lutfi-huveydarları var.
Biri həmmam ki, qudrətdən olub bəzlu bərat,
Biri Kür suyi ki, hər curəsi bir abi-həyat,
Biri bu xubluğu göyçəkligu pakizə sifat,
Biri oldur ki, nəcib, əsldə alidərcat,
Aləmin sərvəri vali kimi ağaları var! (1: 132-133)

Vaqifin vizual poetikasında toy-düyün mərasimi xüsusi fərqləndirilir. Gəlinin toyda "görünməsi", toyda oynayan yara "baxmaq" mərasim xronotopunun vizual kodu üçün vacib elementlərdən biridir. Toyda rəqs edənin adını çəkməsə də nişanələrini təqdim edir.

Düyün oldu, bütün xublar yığıldı
Gəlmədi bir bizim gülbədən gəlin.
Sən gəlmədin deyin yasa batmışam,
Gələ gör, ey zülfü yasəmən gəlin.
Bir qədəm bas ki, toy sənin toyundur,
Toylar yaraşığı sənin boyundur,
Mollalar məskəni səri-kuyundur,
Onu görən dönər Kəbədən, gəlin!
...Gəl oyna, əlinə kəlağay dola,
Buyur şabaş versin Vaqif tək qula!
Mat qalıb desinlər, kimindir ola
Kəklik kimi çəkib bu süzən gəlin! (1: 61)

yaxud

Başına döndüyüm toy adamları
Siz də deyin: toya gələn oynasın
Adını demirəm, eldən ayıbdır,

Filan kəsin qızı filan oynasın...
...Hər əlinə alıb bir danə üzük,
Üzüyü dəstinə alan oynasın. (1: 64)

Yuxarıda göstərilən örnəklərdə vəsfi-hal janrının elementlərini də görmək mümkündür. Məlumdur ki, oynayan gəlinin /qızın vəsfi-halı xalq mərasim poeziyasının sabit janrlarından biridir. Vəsfi-halın əsas təcəssüm üsulu vizual təsvirdir. Bu şeirlərdə də vəsf olunan, tərifi söylənilən gəlinin portreti ona məxsus predmetlər (üzük, kəlağayı və s.) vasitəsilə səciyyələndirilir. Vəsfi-hal qəhrəmanının zahiri görkəmi də ənənəvi epitetlərlə və təşbehlərlə təqdim edilir. Vəsfi-hal obrazlarının yaradılmasında əsas prinsip – bir janr olaraq vəsfi-halların üstün funksiyasından bu və ya digər ritual iştirakçısının ideallaşdırılması prinsipidir.

Vizual kontaktın kodlarından biri də başmaq seyrinə çıxmaq aktıdır.

Çıxıb başmaq seyrinə, edib seyri-çəmən gəldim
Ayaq üstdən Qazağa bir gedib, gördüm vətən gəldim.

Başmaq seyrinə çıxmaq motivi poetik mətnin daxili mənası, məzmun planıdır. Məhz bu ritual kontekstində personajların davranışı mənalandırılır. "Bəzənib hər dəm edər seyri-gülüstan Mədinə" (1: 115).

Dünya ilə baxış-göz əlaqəsi seyrangah xronotopunda gerçəkləşdirilir. Seyrangah gözəllərin gəzişdiyi məkanın adıdır. Seyrangahın əhəmiyyəti orda gözəllərin olması ilə şərtlənir.

Kür qırağının əcəb seyrangahı var
Yaşılbaş sonası hayıf ki, yoxdur.

Bu xronotopun əsas vizual zaman vahidi şəhərdir. Seyrangahın vizual təsviri bu zaman vahidi ilə müəyyən edilir.

Səhər-səhər həsrət ilən gəzirdim,
Cüt qoşa nar gördüm iki sinədə (1: 17).

yaxud

Gözəl olan belə alişan gəzər,
Niqab çəkər, zülfü pərişan gəzər
Səhər seyrə çıxar, gülüşan gəzər,
Sevməyində tamam hərarət olur (1: 86).

Göründüyü kimi, Molla Pənah Vaqifin vizual poetikasında yalnız məkan deyil, həm də ünsiyyətin xarakteri və semiotiklik səviyyəsi gerçəkləşir. Müəllifin – lirik qəhrəmanın "baxışı" onun dünyasını təşkil edən mərkəzə çevrilir.

Ədəbiyyat

1. Vaqif . Əsərləri. Bakı: Yazıçı, 1988.
2. Тынянов Ю.Н. Иллюстрации / Тынянов Ю.Н. История литературы. Критика. СПБ.: Азбука – классика, 2001.
3. Шкловский В. Искусство как прием / Шкловский В. Гамбурский счёт: Статьи – воспоминания – эссе (1914-1933).М.:Советский писатель, 1990.
4. Бахтин М.М. Эстетика словесного творчества.М.: Искусство, 1979.
5. Бахтин М.М.Творчество Франсуа Рабле и народная культура средиевековья и Ренессанса. – 2-е.суд.М.:Худож.лит.,1990.

Р.К.Расулов

Визуальная поэтика Молла Вагиф Панаха

Резюме

Статья посвящена представлениям о глазах и зрении в языке М.П.Вагифа. В исследовании используется метод семиотического анализа. Модель зрительного восприятия выражена в поэтическом языке двумя основными глаголами смотреть и видеть. Анализируется связь поэтики зримости с ритуальным дискурсом. В визуальной поэтике М.П.Вагифа реализуется не

только образ пространства, но и характер комминикации и уровень семиотичность. Взгляд автора – лирического героя является организующим центром его мира.

R.K.Rasulov

The visual poetics of Molla Panah Vagif

Summary

The article deals with representations of eyes and vision in the language and M.P.Vagif. The author explores it with the use of semiotic analysis. Visual perpection model is represented in the language by two basic verbs “to look” and “to see”. Analyred the relations hip poetics visileility with a ritual discourse. In the visual poetics of M.P. Vagif, not only the image of space is realized, but also the nature of communication and the level of semiotics. The look of the author, the lyrical hero, is the organizing center of his world.

Rəyçi: akad. N.Cəfərov

Redaksiyaya daxil olub: 04.12.2020

Ф.М.ИСАЕВА
e-mail: farghana.isaieva.91@mail.ru

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

ОБРАЗ ПИСАТЕЛЯ В ПРОИЗВЕДЕНИЯХ А.П.ЧЕХОВА И У.С.МОЭМА («ЧАЙКА» И «ПИРОГИ И ПИВО, ИЛИ СКЕЛЕТ В ШКАФУ»)

Ключевые слова: *писатель, произведение, творчество, образ, художник.*
Açar sözlər: *yazıçı, əsər, yaradıcılıq, obraz, rəssam.*
Key words: *writer, story, creation, image, artist.*

Искусство всегда занимало видное место в мировоззрении как русского классика А.П.Чехова, так и английского – У.С.Моэма. Писатели посвятили не одно произведение теме искусства и его представителям – художникам, музыкантам, литераторам и актерам, среди которых особое место занимает «Чайка» (1895-1896), полностью посвященная теме искусства, и «Пироги и пиво, или Скелет в шкафу» (Cakes and Ale, or the Skeleton in the Cupboard, 1930), отражающий жизнь и творчество писателя. В пьесе Чехова отражается борьба старых и новых театральных традиций, в которой автор выступает сторонником последних. Как утверждает Б.И.Зингерман, ««Чайка» первая пьеса Чехова, написанная по законам новой театральной системы, сопоставленная со старым, классическим театром, и манифест о новом театре, провозглашенный в монологах действующих лиц, и точная картина современных настроений и состояний, и, наконец, лирическая исповедь, сделанная взахлеб – по следам только что случившейся и еще длящейся жизненной драмы» (2, 319). Все герои «Чайки» так или иначе связаны с искусством, кто в реальной жизни (Аркадина, Тригорин, Треплев и Нина Заречная), кто в своих утраченных иллюзиях (Сорин, Дорн и Шамраев). Если Аркадина и Нина Заречная относятся к миру театра, то Треплев и Тригорин являются представителями литературы. Особенностью вышеназванного романа английского классика является то, что повествователем выступает сам писатель под псевдонимом Уилли Эшендена, который отражает в нем свои взгляды на литературу и ее представителей. Помимо главного героя, Эдуарда Дриффилда, изображены также другие представители мира искусства – художники, актеры, комики, критики, композиторы и певцы, которые часто собираются в доме писателя и показывают свои творческие возможности. В основе сюжета чеховской пьесы лежит история творческих стремлений молодого писателя-драматурга, представляющего на суд зрителей свою пьесу, в которой пытается применить новые формы – показать не динамику внешних действий, а особенности движений души. Однако робкие шаги на новом, неизведанном пути становятся еще более неуверенными при столкновении с консервативно настроенными силами – с матерью, актрисой Аркадиной, и опытным писателем, Тригориным. Монолог юной актрисы Нины Заречной об общей мировой душе остается за пределами понимания неподготовленными зрителями.

Итак, мы сталкиваемся в чеховской пьесе с творческим конфликтом между двумя писателями – новатором Треплевым и представителем уходящего поколения Тригориным. Чехов считал, что в художнике важны такие качества, как чувствительность и восприимчивость, помогающие ему откликнуться на проблемы общества. Оба героя, будучи писателями, каждый по-своему выражают мысли автора. Вопросами о сущности и содержании творчества задается Тригорин, Треплева же волнуют новые формы, в которые должна облачиться литература и театральное искусство. В поисках новых форм Треплева отражаются новаторские взгляды самого Чехова, которого с Триго-

риным сближает восхищение родной природой, мысли о правах трудящегося народа. Основная цель «Чайки», как подчеркивает Г.П.Бердников, раскрыть мысль автора о необходимой связи писателя с жизненной правдой, что и служит подлинным источником всей его творческой деятельности (1). Писатель прежде всего является гражданином, его творческая деятельность в отрыве от жизни общества и народа немыслима. Поэтому с мыслю Треплева, утверждающего, что «надо изображать жизнь не такою, как она есть, не такою, как должна быть, а такою, как она представляется в мечтах» (5, 11) Чехов, ратующий за непосредственную связь человека искусства с действительностью, конечно, не мог согласиться. В образе Тригорина автор представляет писателя средних лет, измученного своим богатым воображением, необходимостью запечатлеть все увиденное в своих повестях. Однако на вопрос Нины о том, доставляет ли ему удовольствие творческий процесс, он отвечает с оговоркой – в нем всегда видят заурядного писателя, которому «далеко до Толстого» (5, 30) и, который пишет «хуже Тургенева» (там же). Завоевавший некую известность писатель не может затронуть темы, которые его волнуют – о народе, его проблемах и правах, о жизни общества. Старый романтик, влюбленный в природу и тоскующий по молодости признает, что добился признания лишь как пейзажист. Его любовь и восхищение красивым видом на озеро плавно переходят в восхищение юной актрисой Ниной, возлюбленной Треплева, которая является частицей этого таинственного мира, так как родилась и выросла на берегу колдовского озера. Отношения с Ниной становятся для Тригорина лишь сюжетом для небольшого рассказа – рассказа о девушке, живущей на берегу озера свободной чайкой, и погубленной «от нечего делать» (5, 32) пришедшим откуда-то человеком. Если в пьесе Чехова представлен творческий конфликт между представителями разных поколений, то в моэмовском романе подобный конфликт снимается попыткой критиков и литераторов молодого поколения должным образом оценить творческое наследие покойного Дриффилда.

Образ героя-писателя служит для автора средством отражения в определенной степени своей писательской судьбы. В его лице классик рассматривает трудности писателя в его творческом становлении и отношение к нему английской критики. Подчеркивая искренность и правдивость произведений Дриффилда, автор указывает, что «первое время его превозносили или ругали за реализм, … хвалили его за правдивость, либо упрекали в грубости» (3, 103). По воле случая рассказчик знакомится с будущей известностью еще в детстве, случайно пересекаясь с ним в разные годы своей жизни. Сюжет романа основан, в частности, на воспоминаниях автора об Эдуарде Дриффилде. В изображении литературного мира Англии XIX-XX вв. автор уделяет место также образу другого писателя, решившего написать биографию героя, Элроя Кира, посредством которого автор затрагивает личность и творчество бесталанных писателей, достигающих сравнительного успеха лишь своей услужливостью, снобизмом и добродушием. Сам автор выступает достаточно известным лицом, посвятившим свою жизнь литературе. Рассуждая о достоинствах произведений Эдуарда Дриффилда, Элрой Кир отмечает «чувство прекрасного, которым проникнуты его книги» (3, 104). Однако автор, видя в Прекрасном нечто сиюминутное, пик совершенства, неспособное надолго задерживать внимание человека, не причисляет Прекрасное к достоинствам художественного произведения. Это та вершина творческих стремлений художника, за которой ничего больше не следует. Прекрасное – идеал, «одно из его имен» (там же), а значит, уход от действительности, который не мог приветствовать автор. Подобная самоизоляция в мире мечтаний приводит и чеховского героя в творческий тупик. Несмотря на легкий оттенок иронии, сопутствующий повествованию, Эшенден все же дает понять читателю то, в чем состоит значимость творческой деятельности писателя – в искренности и правдивости, которые искупают затянутость и мелодраматичность его книг. В

качестве примера правдивости писателя автор приводит эпизод из книги Дриффилда «Чаша жизни». В ней описывается смерть шестилетнего ребенка автора и последующая за ней измена жены, которые имели место в жизни самих Дриффилдов. Правдивая, но отрицательно влияющая на моральные устои общества история, повлекла за собой много разговоров, критики, доходящей вплоть до решения запретить продажу книги и изъять из общественных библиотек. Однако та искренность, с которой автор изображает душераздирающую картину из своей жизни, со временем находит достойный отклик среди читающей публики.

Таким образом, ни Чехов, ни Моэм не могут своим героям-писателям простить их оторванность от реальной жизни. Автор, утверждая, что преклонный возраст представителя мира искусства уже дает ему полное право считаться гениальным, шутливо указывает на единственное достоинство всей творческой деятельности Дриффилда – долговечность. В шестьдесят лет его считали «респектабельным» (3, 107), в семьдесят он был признан славой английской литературы, так что каждый критик намеревался написать о нем «одобрительные рецензии, исследования, очерки, труды – краткие и легкомысленные или длинные и серьезные» (там же). В семьдесят пять его признали гением, а в восемьдесят он стал «Великим Корифеем английской литературы» (3, 108). Почтительное отношение к личности и творчеству писателя, растущее с возрастом, имело отношение и к самому Моэму. Свобода творческой личности, символом которой в пьесе Чехова служит образ чайки, чужда как Треплеву, не сумевшему вложить в свои произведения всю свою душу и освободиться от мучавших его воспоминаний о былой любви, душевных переживаний, так и Тригорину, являющемуся рабом своего творчества. Ибо для Тригорина писательский талант – навязчивая идея, давящая на него, пока он окончательно не выдавит из себя произведение. Подлинная натура Дриффилда, скрытая за описанием его личной жизни, произнесенными им несколькими репликами, эпизодами из книг и посмертной известностью, получает наиболее полное отражение в рассказе Рози, в процессе которого мы впервые сталкиваемся с Дриффилдом-человеком, достаточно ясно понимающим реальность и насквозь видящим людей, способным глубоко переживать и переносить все свои страдания на бумагу. Обладая такой глубокой натурой, Дриффилд преодолевает все страдания, освобождаясь от которых, находит покой. Итак, писательское искусство помогает Дриффилду переносить все невзгоды, освободиться от душевной тяжести и обрести гармонию. Поэтому в понимании Эшендена, то бишь самого Моэма, «писатель – единственный на свете свободный человек» (3, 197). Таким образом, представители литературы в пьесе Чехова так и остаются в плену своих внутренних переживаний и не воплотившихся сюжетов, в то время, как моэмовский герой выходит за пределы своих страданий и горьких воспоминаний, достигнув внутреннего раскрепощения.

В обоих произведениях тема искусства тесно переплетается с темой любви. Страдания Треплева вызваны не только творческими поисками, но и безответной любовью к Нине, увлеченной Тригориным. Как указывал К.С.Станиславский: «Нина Заречная, начитавшаяся милых, но пустеньких небольших рассказов Тригорина, влюбляется не в него, а в свою девическую грезу» (4, 381). Для Тригорина же, завоевавшего расположение Нины своим писательским опытом и мастерством, которые так недостижимы для юной начинающей актрисы, увлечение Ниной становится лишь новым приключением, маленьким, весьма романтическим эпизодом. Так, стремящаяся сделать театральную карьеру, поглощенная мыслями о всеобщем признании героиня находит в писателе то, о чем сама долго мечтала – талант, славу и мастерство. О пьесе Треплева, создание и постановка которой относятся к моменту его романтического настроя, любовных мечтаний, наполненных надеждой на взаимность Нины, Медведенко говорит: «Они влюблены друг в друга, и сегодня их души сольются в стремлении дать один

и тот же художественный образ» (5, 5). В монологе, который читает молодая актриса, говорится о соединении в едином всего сущего, всех явлений природы. В ней чувствуется тоска по любви молодого автора, стремящегося в новой форме выразить старые истины – слияние двух любящих душ. Однако после ее отъезда Треплев настолько бесповоротно уходит в глубь своего горя, что не может выйти из его власти, преодолеть свои страдания, облечь их в словесную форму, дав волю своему воображению, и создать правдивое произведение искусства.

В финальной сцене мы застаем Треплева за размышлениями о творческом тупике, в котором он оказался в поисках новых форм, о зыбкости и неопределенности его взглядов. Герой разочаровывается в своих исканиях и продолжает развивать заложенные до него литературные традиции – пишет «длинно и изысканно» (5, 55). Как утверждает Б.И.Зингерман, Треплева убивает не безответная любовь, а неумение найти себя, своего пути в искусстве, тех самых новых форм, которые нашла Нина (2). Любовь становится источником вдохновения и для Дриффилда, который самые лучшие произведения написал именно в период его совместной жизни с первой женой – Рози Дриффилд, оставившей его в немолодом возрасте, убежав с Лордом Джорджем. Произведения данного периода проникнуты искренностью и правдивостью, о чем мы узнаем из уст самой Рози. В поздних же работах «не хватает огонька, живости, аромата и шума жизни» (3, 116). Для творческого человека необходим определенный стержень, который бы способствовал рождению новых идей и замыслов. Таким стержнем может служить не покой и беззаботная жизнь, а наполненное тревогой, страданием и глубокими переживаниями существование. Рози, своей красотой и бьющей жизненной энергией привлекающая внимание всех знакомых и друзей Дриффилда и, отвечающая взаимностью на лестные предложения своих ухажеров, причиняет герою страдания, которые и становятся основой плодотворной работы писателя. Любовь сама по себе не является целью всей жизни, как утверждают Чехов и Моэм, однако любовные переживания являются необходимым материалом для подлинного искусства. Таким образом, любовь, в частности, любовные страдания, ценятся авторами как незаменимый и необходимый стимул в создании поистине значимых произведений искусства. Поиски новых форм, не заполненных реальным содержанием, терпят фиаско, ибо художник не может жить и творить в иной действительности, помимо настоящей. Треплев лишен способности вводить в произведение то, что пережил на личном опыте, и только в финале он начинает подозревать о том, что писатель должен писать о том, что «свободно льется из его души» (5, 56), не думая о формах. На страстные восклицания Нины о таланте Тригорина, последний искренне признается ей в том, что он силен только как пейзажист. Отсюда вся бессмысленность, бесполезность его существования, как писателя. Герой Моэма завоевывает признание благодаря соответствию созданных им произведений реальной действительности, умению отразить все глубинные пласты внутреннего мира героя.

Таким образом, как Чехов, так и Моэм проводят идею о том, что главным условием успеха в мире искусства является сила характера и глубина внутреннего мира художника, способного переживать подлинные чувства, преодолевать выпавшие на его долю страдания и отражать их в своем творчестве. Основным критерием оценки творчества художника и произведения искусства становится искренность автора и подлинность изображаемых событий, при которых пережитое раскрывается со всей точностью и глубиной.

Литература

1. Бердников Г.П. А. П. Чехов. Идейные и творческие искания. – 3-е, изд. дораб, – М.: Худож. лит., 1984. – 511 с.

2. Зингерман Б.И. Театр Чехова и его мировое значение. М., 1988. – 384 с.
3. Моэм С. Пироги и пиво, или Скелет в шкафу; Острие бритвы: Романы. Пер. с англ./Предисл. И.Левидовой. – М.: Худож. лит., 1981. – 499 с.
4. Чехов А. П. в воспоминаниях современников / Вступ. статья А. Туркова; Сост., подгот. текста и коммент. Н.Гитович. – М., 1986. – 735 с.
5. Чехов А.П. Пьесы // Чехов А. П. Полное собрание сочинений и писем: В 30 т. Сочинения: В 18 т. / АН СССР. Ин-т мировой лит. им. А. М. Горького. М., 1974- 1982. Т. 13. Пьесы. 1895-1904. М., 1978, с.3-254

F.M.İsayeva

A.P.Çexov və U.S.Moemin yaradıcılığında yazıçı obrazı
(“Qağayı” və “Piroqlar və pivə, və ya Dolabda skelet”)

Xülasə

Bu məqalədə A.P.Çexov və U.S.Moemin əsərlərində (“Qağayı” və “Piroqlar və pivə, və ya Dolabda skelet”) yazıçı obrazlarının onların yaradıcılığının əhəmiyyəti, əsərlərinin məziyyətləri və yaradıcı təbiətlərinin mahiyyəti nöqteyi nəzərdən müqayisəsini həyata keçirməyə cəhd göstərilir. Hər iki əsər ədibin yaradıcılığının əsas qiymətləndirilmə meyarını əks etdirir – düzgünlük və səmimiyyət. Həqiqi sənətkar, Çexov və Moemə görə, öz növbəsində güclü iradəyə malik olmalıdır ki, həyatın bütün sınaqlarından keçsin, onlardan qalib çıxsın və, daxili azadlığı əldə edərək, onları öz əsərlərində əks etdirsin.

F.M.Isayeva

The image of writer in the creation of A.P.Chekhov and U.S.Maugham
(“Seagull” and “Cakes and Ale, or, The Skeleton in the Cupboard”)

Summary

In this thesis, the attempt to compare the images of writers in the stories by A.P.Chekhov and U.S.Maugham (“Seagull” and “Cakes and Ale, or, The Skeleton in the Cupboard”) in terms of the significance of their creativity, dignity of works and the authenticity of the creative entity is realized. Both works reflect the main evaluation criterion of the writer’s work – veracity and sincerity. According to Chekhov and Maugham, an authentic artist, in turn, must have a strong will to go through all the trials of life, to overcome them and, gaining inner freedom, to reflect them in his works.

Rəyçi: prof. N.C.Məmmədxanova

Redaksiyaya daxil olub: 04.11.2020

С.П.КАРАЕВА
e-mail: sevinckarayeva@gmail.com

Бакинский славянский университет
(г. Баку, ул. С.Рустама, 25)

МНОГООБРАЗИЕ ЖАНРОВ ИСТОРИЧЕСКОЙ ПРОЗЫ В ЛИТЕРАТУРЕ РУССКОГО ЗАРУБЕЖЬЯ «ПЕРВОЙ ВОЛНЫ»

Ключевые слова: *жанр, историческая проза, И.Бунин, художественное произведение.*
Açar sözlər: *janr, tarixi nəsr, İ.Bunin, bədii əsər.*
Key words: *genre, historical prose, I. Bunin, artwork.*

Bu sistemdə məktəbəqədər və ibtidai təhsil pilləsi şagirdlərə seçim sərbəstliyi verilmədən icbari ümumi təlim proqramları əsasında fəaliyyət göstərdikləri halda, orta və ali təhsil pilləsi insanın və cəmiyyətin ehtiyaclarına uyğun, iqtisadi və sosial reallığı nəzərə almaqla differensial təlim proqramları əsasında həyata keçirilir. Bunu nəzərə alaraq hər bir ölkə özünün təhsil fəlsəfəsinə uyğun olaraq "ibtidai"dən orta təhsilə, "orta"dan ali təhsilə keçidin "Yol xəritsi"ni qurdu. Təhsilin "Yol xəritəsi"nin hədəfləri (məqsəd və vəzifələri), quruluşu, məzmun və metodikasının müxtəlifliyi şagird bacarıqlarının beynəlxalq PİSA (Programme for İnternational Student Assessment), TİMS (Trends in İnternational Mathematics and Science Study) ölçmə proqramlarında müxtəlif ölkələrin fərqli nəticələr əldə edilməsi ilə səciyyələndi. Təəssüflə qeyd etməliyik ki, ölkəmizin iki dəfə qatıldığı PİSA proqramında şagirdlərimizin (9-cu sinif şagirdlərinin) nümayiş etdirdikləri nəticələr (məsələn, elmi savadlılıq üzrə) çox zəif olmuşdur. Belə ki, 64 ölkənin iştirak etdiyi 2006-cı ilin nəticələrinə görə [3] ölkəmiz 382 bal toplayaraq 55-ci, 65 ölkənin iştirak etdiyi 2009-cu ilin nəticələrinə görə [4] isə 373 balla 64-cü yeri tutmuşdur. O illərin nəticələrinin təhlilindən məlum olmuşdur ki, aşağı nəticələr nümayiş etdirmiş ölkələr, o cümlədən Azərbaycan şagirdləri özlərini "əzbərçi" kimi tanıtdılar. Belə şagirdlər, bir qayda olaraq, faktoroloji biliyi həyati situasiyalarla əlaqələndirməkdə (relational) acizlik göstərir, kiçik tədqiqat xarakteli (inquiry-based) qiymətləndirmə alətlərindən yan keçirlər. Qeyd edək ki, müxtəlif illərin Beynəlxalq qiymətləndirmə alətləri ilə şagirdlərdə müxtəlif bacarıqların (məsələn, qazanılan biliyin müəyyən kontekst və situasiyalara tətbiqi; hadisələri elmi cəhətdən modelləş-

dirmə; xassəni qabaqcadan müəyyən etmə; elmi faktlara əsaslanmaqla ümumiləşmiş nəticə çıxarmaq və s.) ölçülməsinə baxmayaraq, hər dəfə əzbərçi kimi tanınan ölkə şagirdlərinin nümayiş etdirdikləri nəticələr, tənqidi düşünən (critical thinking) ölkələrin şagirdlərinın nəticələri ilə müqayisədə təlimdə, belə demək olarsa, 1-2 il geri qalırlar.

Lakin buna baxmayaraq, bir çox ölkələrin təhsil sisteminin mühiti elə qurulmuşdur ki, burada hələ də şagirdlərə akademik bilik vermək prioritet təşkil edir, təlimin əyanilik (visibility), tədqiqatçılıq (investigation), tətbiqetmə (application), modelləşdirmə (modeling), mühakimə yürütmə (reasoning), müqayisəetmə (confrontation) prinsiplərinə müntəzəm surətdə əməl olunmur. Bunun da nəticəsi ötən illərin PİSA nəticələrinin təhlilində göstərdi, məlum oldu ki, "əzbərçi" şagirdlərin sayı hələ də "tənqidi düşünən" şagirdlərin sayı ilə müqayisədə çoxluq təşkil edir. Bunun səbəbini müəyyən etmək məqsədi ilə biz Beynəlxalq qiymətləndirmələrdə elmi savadlılıq üzrə yüksək nəticələr göstərən ölkələrdən biri olan Finlandiyanın təhsil sistemini və bu sistemdə tam orta təhsilin inkişafetdirci pilləsinin (lisey, gimnaziya, təmayüllü və s.) ümumi və fərqli xüsusiyyətlərini araşdırdıq, bu kontekstdə də Azərbaycan təhsil sistemini nəzərdən keçirdik.

Beləliklə, Finlandiyanın təhsil sisteminin quruluşu sonuncu təsnifata görə şəkil 1-dəki kimidir [5; 6]:

• **Məktəbəqədər təhsil:** o, dövlət və özəl uşaq bağçalarında həyata keçirilir və 0-6 yaş qrupundakı uşaqları əhatə edir. Təhsil dövlət hesabına və könüllülük prinsipi əsasında reallaşdırılır və ölkə üzrə bu məktəblərə uşaqların cəlb olunması olduqca yüksəkdir – 98%.

• **Məktəbəhazırlıq təhsil:** bu təhsil icbari olub Dövlətin məsuliyyəti altındadır. O, 6-7 yaş qrupunu təşkil edir, məqsəd uşağın şəxsiyyətinin inkişafına dəstək olmaqdır.

• **Əsas təhsil – Ümumi orta təhsil:** o iki səviyyə və 9 sinifdən ibarətdir: ibtidai səviyyə: 1-6 siniflər (7-12 yaş arası uşaqlar); üst səviyyə: 7-9 sinif (13-16 yaş arası yeniyetmələr).

Əsas təhsil proqramında icbari qaydada hər fənnə bərabər miqdarda təlim saatı (həftədə 2 saat) ayrılır. Bu təhsil proqramı üzrə, demək olar, bütün uşaqlar (99.7%) əhatə olunmuşdur. Tədris qrupları uyğun ilin siniflərinə görə formalaşır, yəni ilk altı il boyunca ya bütün fənlər, yaxud çoxu eyni müəllim tərəfindən tədris olunur. Sonuncu üç sinifdə isə fənlər uyğun fənn müəllimləri tərəfindən tədris edilir. Əsas təhsil proqramına həmçinin şagirdləri öz arzuları ilə ***xüsusi təhsilə*** yönləndirmək və bu təhsilin təşkili də daxildir. Beləliklə, 9-cu sinfi bitirən şagirdlər könüllülük prinsipi əsasında 1 illik əlavə təhsil (10-cu sinif) almaq hüququna malikdirlər.

• **Yüksək orta təhsil (Tam orta təhsil) – Lisey təhsili**

Finlandiyada Yüksək orta təhsil, demək olar, tamamilə təmayüllü proqramlar əsasında qurulmuşdur.

Liseylər öz kontingentini şagirdlərin əsas məktəbdəki təlim nəticələrinə əsasən seçirlər. Lisey 3 sinifdən ibarət olub 16-19 yaş qrupunu əhatə edir. Burada tədris ixtisaslar üzrə (məsələn, riyaziyyat, təbiət elmləri, humanitar, iqtisadiyyat, texniki) istiqamətlənir, şagirdlərin maraq və istəklərinə uyğun olaraq ali məktəblərə hazırlıq məqsədi daşıyır. İxtisasa uyğun fənlərə ayrılan saatların miqdarı digər fənlərlə müqayisədə fərqlənir. Bu məktəblərdə hər biri illik 38 saat olmaqla dərinləşdirilmiş əlavə kurs proqramları da yerinə yetirilir.



Şəkil 1.

Liseylərdə təlim ili 190 tədris günündən ibarət olub, adətən, beş və ya altı dövrə bölünür. Hər dövr 6 həftədən ibarət olub 4-7 fənn öyrənilir. Bu zaman ixtisas fənlərinin və dərinləşdirilmiş kursların konsentrasiyasına (sıxlığına) uyğun olaraq fərqli dərs cədvəli tərtib edilir.

Yüksək orta təhsil buraxılış imtahanı (matriculation examination) ilə tamamlanır. Buraxılış imtahanı ana dili, bir xarici dil, riyaziyyat və bir ixtisas fənnindən olur. Buraxılış imtahanını uğurla verən şagirdlər ixtisasına uyğun olaraq Universitetlərə qəbul imtahanında iştirak etmək hüququ əldə edir.

Finlandiyanın təbiət elmləri istiqamətli liseylərində Fizika fənni əhəmiyyətinə görə xüsusi yerə malikdir. Fizika elminin başlıca mənbəyi təbiət özüdür, ona görə də fizika təbiətin əsas strukturu, təbiət hadisələrinin elmi əsaslarını anlayıb və izah etmək, təbiətdən əldə edilən məlumatları təcrübi və zehni üsullarla analiz etməyə imkan verən fənn kimi öyrənilir.

Fənnin öyrənilməsində məqsəd – şagirdlərdə universal tətbiq xarakterinə malik təbiət qanunlarını təyin etmək və bunları riyazi modellər şəklində təsvir etmək bacarığının formalaşdırılmasıdır.

Fizikanın eksperimental xarakteri – mövzudan, dərs prosesinin mərhələsindən və fizika kabinetinin imkanlarından asılı olaraq, şagirdlərin müstəqil yaradıcı işləri, müəllimin nümayişi, ekskursiya və ya video təsvirlərlə reallaşdırılır. Fiziki eksperimentlər şagirdlərə yeni elmi konsepsiyaları, prinsip və elmi modelləri mənimsəmələrinə xidmət edir, təbiət elmlərinin ümumi qanunlarını və elmi təfəkkürün inkişafına zəmin yaradır.

Finlandiya liselərində fizika təliminin şagirdlər üçün başlıca vəzifələr:

- insanın təbiətin mühüm elementi olduğunu dərk etmə və təbiət hadisələrinin modelləşdirilməsində fizikanın əhəmiyyətini anlamaq;
- təbiət elmlərinə aid elmi təsəvvürlərin formalaşmasında fiziki eksperiment və nəzəriyyələrin əhəmiyyətini anlamaq;
- insanların gündəlik həyatında, elm, texnika, rabitə və iqtisadiyyatda fizikanın rolu və əhəmiyyətini anlamaq;
- sağlam və təhlükəsiz ətraf mühitin yaradılmasında aktiv iştirak etmək;
- fizika qanunları və anlayışları əsasında təbiətin təkamül spiralını qurmağı bacarmaq;
- təbiətşünaslıq və texniki problemləri həll etmək məqsədi ilə fizika qanunları və anlayışlarından yaradıcı istifadə etmək;
- ekspert məlumatlarını şagird yoldaşları ilə birlikdə toplamaq, analiz etmək bacarığı aşılamaq;
- sadə təcrübələri planlaşdırmaq və icra etmək, onların nəticələrini proqnozlaşdırmaq, zəruri ölçmələr aparmaq, nəticələrin xətalarını müəyyənləşdirmək və yoxlanmaq;
- müxtəlif məlumat mənbələrindən istifadə etmək, lazımi məlumatı seçmək və onu təlimin texniki vasitələri ilə təqdim etmək;
- fizika elminin fərdi və ictimai əhəmiyyətini təhlil etmək, onun texnika, istehsalat, məişət, rabitə və s. situasiyalarda əhəmiyyətini anlamaq və tətbiq etmək.

Finlandiya liseylərində fizikadan şagirdlərdə qiymətləndirilir: fizikadan nəzri biliklərin tətbiqi, riyazi modellərdən istifadə etmək, məlumatların emalı, eksperimentlərin planlaşdırılması və icrası, nəticələrin təhlili və yoxlanması, müxtəlif situasiyalara aid məsələlərin həlli.

Beləliklə, cədvəl 1-də Finlandiya təbiət elmləri liseylərində fizika fənni üzrə fəsillər, mövzular və uyğun məqsədlər göstərilmişdir [Spesialist course for Finland scool. Physics].

Cədvəl 1. *Finlandiya təbiət elmləri liseylərində fizika fənninin xarakteristikası*

Mövzu (Subject)	**Əsas Məzmun (CORE CONTENTS)**	**Məqsəd (OBJECTIVES) şagirdlərdə:**
FY1–Fizika təbiət elmi kimi (Physics as a natural science)	• tarixin müxtəlif mərhələlərində və müasir həyatımızda fizikanın əhəmiyyəti; • kainat və materiya arasında qarşılıqlı əlaqə; • təbii və süni proseslərdə enerjinin, xüsusilə radiasiyanın, şüalanması və udulması;	• fizika elminə marağın və ehtiyacın artırılmasına nail olmaq; • kainatın və materiyanın quruluş və təkamülünü əks etdirən başlıca anlayışlarla tanış olmaq, təbiətin təkamülünün fiziki qanun və nəzəriyyələr əsasında izah etmək;

	• eksperimentlər və modelləşdirmə fizikadan bilik əldə edilməsinin əsası kimi; ölçmə, nəticələrin təqdimi və onların yoxlanması; • qüvvə hərəkəti dəyişən səbəb kimi; • hərəkəti təsvir etməyə, onu xarakterizə edən kəmiyyətlər arasındakı qrafik asılılıqları müəyyən etməyə imkan verən fiziki anlayışlar.	• fiziki eksperimentlər və onunla əlaqədar qurulan modellərin köməyi ilə fizika elminin necə yaranması, inkişaf etməsi və formalaşmasını anlamaq; • sadə fiziki eksperimentləri planlaşdırıb icra etmək, nəticələrini təhlil etmək, doğruluğunu yoxlamaq və şərh etmək; • fiziki eksperimentin nəticələrini qrafik təsvir etmək; • qeyri-elmi mühakimələr və şübhələrlə mübarizə aparmaq məqsədi ilə informasiya kommunikasiya texnologiyaların imkanlarından istifadə etmək.
FY2–İstilik (Heat)	• qaz halının dəyişməsi və istidən genişlənmə; • təzyiq, hidrostatik təzyiq; • cismin qızması və soyuması; maddələrin faza keçidləri və istilik miqdarı; • mexaniki enerji, iş, güc və FİƏ; • termodinamikanın əsas qanunları; daxili enerji; • enerji resursları.	• istiliklə əlaqədar hadisələri anlayıb izah etmək bacarığı; • maddənin termodinamik halı və ya termodinamikanın əsas qanunları ilə əlaqədar hadisələri tədqiq etmək bacarığı; • ətraf mühit və texnologiyalara həsr olunan diskusiyalatr və əlaqıdar problemlərin həllində aktiv iştirak etməyə hazır olmaq.
FY3–Dalğalar (Waves)	• harmonik rəqslər və qüvvələr; • dalğaların yaranması və yayılması; • dalğaların interferensiyası, difraksiyası və polarizasiyası; • dalğaların qayıtması, sınması və tam daxili qayıtması; • işıq, güzgülər və linzalar; • səs, səsin sağlamlığa təsiri və səs-küydən mühafizə	• təbiətdə baş verən periodik hadisələri təsnif etmək və onların səbəbini izah etmək; • mexaniki rəqslər, səs və elektromaqnit dalğaları öyrənməklə rəqs və dalğaların elmi əsasları ilə tanış olmaq.
FY4–Hərəkət qanunları (Laws of motion)	• hərəkət modelləri və Nyüton qanunları; • toxunma və toxunma olmadan qarşılıqlı təsir qüvvələri; sürtünmə qüvvəsi; itələmə Arximed qüvvəsi; • impuls və impulsun saxlanması qanunu; • kinetik və potensial enerji, görülən iş; • rəqsi hərəkət enerjisi	• hərəkətlə əlaqədar prosesləri modelləşdirmək və onların əsaslarını izah etmək; • irəliləmə hərəkəti ilə əlaqədar hadisələri izah etmək, və bu hadisələrdən Nyüton qanunlarını nümayiş etmək üçün istifadə etmək; • fizikada saxlanma qanunlarının praktik əhəmiyyətini anlamaq.
FY5–Fırlanma və qravitasiya (Rotation and gravitation)	• fırlanma momenti və tarazlıq; • fırlanma modelləri, bərabərsürətli və bərabərtəcilli fırlanma; • fırlanma tənlikləri; • impuls momenti, impuls momentinin saxlanması; • fırlanma enerjisi; • dairəvi hərəkət və onun təcili; • qravitasiya və qravitasiya sahəsində hərəkət; • atışlar və planetlərin hərəkəti; • süni peyklər və onlardan istifadə.	• statika elementləri və fırlanma hərəkəti haqqında mexaniki təsəvvürləri riyazi termin və düsturlarla təsvir etmək; • mexaniki dünyagörüşü haqqında bilikləri möhkəmləndirmək
FY6–Elektrik (Electricity)	• elektrik yükləri, metal naqillərdə elektrik cərəyanı;	• elektriklə əlaqədar əsas anlayışları bilmək, və elektrik ölçü cihazlarından

	• cərəyan şiddəti və potensiallar fərqinin ölçülməsi; • Om qanunu; • Coul qanunu; • müqavimət və Kirxof qanunları; • Kulon qanunu; bircins elektrik sahəsi; maddələr elektrik sahəsində; • kondensatorlar və onların birləşdirilməsi; elektrik sahəsinin enerjisi; • yarımkeçiricilərdə elektrik cərəyanı, yarımkeçirici diod.	istifadə etməklə ölmə metodları ilə tanış olmaq; • sadə elektrik dövrələri qurmaq və lazımi ölçmələri aparmaq.
FY7–Elektromaq-netizm (Electromagnetism)	• maqnit qüvvəsi, maqnit sahəsi və maddələr maqnit sahəsində; • yüklü zərrəciklər bircins elektrik və maqnit sahəsində; • induksiya qanunu və Lens qanunu; • induksiya hadisəsi – burulğanlı cərəyanlar, generatorlar və öz-özünə induksiya; • elektrik enerjisinin elektrik cərəyanı ilə ötürülməsi; • cərəyanın və gərginliyin effektiv qiymətinin ölçülməsi və dəyişən cərəyanın xarakteristikalarının asılılığı; • dəyişən cərəyan generatorunun və antenanın sxemi, radiorabitə; • elektrik təhlükəsizliyi; • energetika.	• elektromaqnit hadisələrinə aid bilikləri möhkəmlətmək; • elektrik təhlükəsizliyi ilə tanış olmaq; • cəmiyyətdə elektromaqnit hadisələrinin əhəmiyyəti haqqında biliklərin möhkəmləndirilməsi.
FY8–Materiya və radiasiya (Matter and radiation)	• elektromaqnit şüalanması; • rentgen şüalanması (X-şüalanma); • mütləq qara cismin şüalanması; • fotoelektrik effekti; • şüalanmanın zərrəcik və dalğa təbiəti; • atomun quruluş modelləri, məsələn Bor modeli; • kvantlama, xətti spektr, atomun enerji səviyyələri diaqramı; • atom nüvəsinin quruluşu; • radioaktivlik və radioaktiv təhlükəsizlik; • kütlə ilə enerjinin ekvivalentliyi; • nüvə reaksiyaları və nüvə enerjisi; • elementar zərrəciklər və onların təsnifi.	• materiyanın və onun tərkib hissələrinin quruluşu və dinamikasını idarə edilməsində mühüm rol oynayan kvantlama, dalğa-zərrəcik dualizmi, maddə ilə enerjinin ekvivalentliyi kimi fundamental anlayışlarla tanış olmaq; • müasir fizikaya dair təsəvvürləri ümumiləşdirmək və onlardan təbiət hadisələrinin izah olunmasına tətbiq etmək.

Respublikamızda təhsil sisteminin quruluşu "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında müəyyən edilmişdir (bax: şəkil 2) [2]. Azərbaycan Respublikasında ümumi təhsil sistemi illik cəmi 34 həftə olmaqla (iki yarımil: 15 sentyabr-26 yanvar və 01 fevral-14 iyun) 4 pillədən ibarətdir: məktəbəqədər, ibtidai, ümumi orta, tam orta və ya təmayüllü pillə.

İbtidai pilləni bitirən şagirdlərin, demək olar, hamısı ümumi təhsilin orta məktəb pilləsinə keçirilir. 5-ci sinifdən başlayan bu pillədə ən çox tədris saatı ana dili (həftədə orta hesabla 4 saat) və riyaziyyat təliminə (həftədə 5 saat) verilir. Təbiət fənləri, o cümlədən fizika 6-9 -cu siniflərdə öyrədilir və bu fənlərin hər birinin tədrisinə ayrılıqda siniflər üzrə həftədə orta hesabla 2 saat ayrılır. Bu pillədə bir xarici dil (əsasən ingilis) öyrədilir və onun tədrisinə həftədə 3 saat vaxt ayrılır.

Şagirdlər 9-cu sinfin sonunda riyaziyyat, ana dili və xarici dildən buraxılış imtahanları verirlər. İmtahanın nəticələrinə görə onlar könüllülük prinsipi əsasında təhsillərini üç istiqamətdən birində, – ilk peşə ixtisası məktəblərində, tam orta məktəblərdə və ya təmayüllü lisey-

lərdə davam etdirə bilirlər. İlk peşə ixtisası məktəblər ümumi fənlərin əsaslarına dair sistematik bilik verməklə yanaşı, müəyyən peşə üzrə mütəxəsislər hazırlayır. Buna görə də həmin məktəblərdə təhsil 3,5 il davam edir. Bu tipli məktəbləri bitirən məzunlar həm ixtisas diplomu alır, həm də tam orta təhsil pilləsinin buraxılış imtahanlarında iştirak etmək hüququ əldə edirlər. Baza tam orta təhsil pilləsi iki ildir (10-11-ci siniflər). Burada iki fənn digərləri ilə müqayisədə daha ətraflı tədris olunur: riyaziyyat (həftədə 5 saat) və xarici dil (həftədə 4 saat), qalan fənlər isə nisbətən səthi öyrədilir (hər biri həftədə 2 saat).

Liseylər "texniki", "riyaziyyat-iqtisadiyyat", "humanitar", "təbiət" və inteqrativ təmayüllü siniflərdən ibarətdir. Bu siniflərdə uyğun istiqamətli fənlərin, o cümlədən fizikanın tədris saatları digər fənlərin tədris saatlarından 2-2,5 dəfə artıqdır [1]. Məqsəd həmin fənlərin daha dərindən təliminə nail olmaqla, şagirdləri universitetlərə ciddi hazırlığını həyata keçirməkdir.

Beləliklə, ümumi təhsil pilləsinin tam orta təhsil səviyyəsini başa çatdıran məzunlar qabaqcadan müəyyən olunmuş fənlərdən (ana dili, riyaziyyat və xarici dil) buraxılış imtahanı verirlər. Məzunlar imtahan nəticələri ilə müxtəlif qruplar (humanitar, tibb, təbiət-texniki və incəsənət-idman) üzrə universitetlərə qəbul imtahanlarında iştirak edirlər.

Lakin apardığımız araşdırmalardan müəyyən olundu ki, təmayüllü siniflər üçün digər fənlər kimi, fizika fənninin də kurikulumu bu günə qədər işlənilməyibdir.



Şəkil 2.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil nazirinin 15.07.2019-cu il tarixli, F-447 nömrəli əmrinə 1 və 7 nömrəli əlavələri.

2. "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2012.

3. OECD (2007), PISA 2006 Scıence competencıes for tomorrow's world. Volume 1: Analysıs., p.390., 56 p. oecd.org›pisa/pisaproducts/39703267.pdf.

4. OECD (2010), PISA 2009 Results: What Students Know and Can Do – Student Performance in Reading, Mathematics and Science (Volume I), p. 276. p.151.

5. Satu Haavisto, Mikko Lehtimaki, Hannu Piirainen... Grano Oy, 2017.

6. https://slideplayer.com/slide/6651925/ ünvanından 12.11.2020-ci il tarixində götürülmüşdür.

Р.Р.Абдуразагов, Л.С.Мурадова

Сравнение систем образования в Финляндии и Азербайджане: место и содержание физического образования профильного уровня в данной системе

Резюме

В статье исследуются причины низкого показателя «научной грамотности» азербайджанских школьников в международной программе оценки PISA. Система образования Финляндии, которая входит в число стран с высокими результатами в этой области, была проанализирована и сопоставлена с системой образования Азербайджана. В этом контексте были рассмотрены цель и содержание физического образования профильного уровня образования в обеих странах.

R.R.Abdurazagov, L.S.Muradova

Comparison of educational systems in Finland and Azerbaijan: place and content of physical education of the profile level in this system

Summary

The article examines the reasons for the low indicator of Azerbaijani school children's "scientific literacy" competence in the PISA International Assessment Program. Finland's education system, which is among the countries with high results in this field, has been analyzed and compared with the education system of Azerbaijan. In this context, the purpose and content of physics education at the educational profile level in both countries were examined.

Rəyçi: fizika ü.f.d., dos. A.M.Allahverdiyev

Redaksiyaya daxil olub: 21.12.2020

S.N.ALLAHVERƏNOVA
e-mail: senuberallahverenova3@gmail.com

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

Açar sözlər: *təhsil sistemi, vətənpərvərlik tərbiyəsi, tərbiyə prosesi, şagird, müəllim, pedaqoji istiqamət.*
Ключевые слова: *система образования, патриотическое воспитание, воспитательный процесс, ученик, учитель, педагогическое направление.*
Key words: *education system, patriotic upbringing, upbringing process, student, teacher, pedagogical direction.*

Gənc nəslin vətənpərvər ruhda tərbiyəsi dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biridir. Bu, ümumtəhsil məktəbləri qarşısında qoyulan ən vacib vəzifə hesab olunur. Təhsilin beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması yetişməkdə olan gənc nəslin təlim və təhsili ilə yanaşı onun tərbiyəsi işində yeni prinsiplər üzrə formalaşması zərurətini ortaya qoyur. Həmin prinsipə görə tərbiyə çoxşaxəli bir proses olsa da, o, dövlətin, cəmiyyətin, ailənin və məktəbin birgə fəaliyyəti nəticəsində mükəmməl, vətənpərvər, vətənini böyük məhəbbətlə sevən şəxsiyyət tərbiyə etmək olar. Ümumtəhsil müəsisələrində təhsil və tərbiyə prosesində nəzərə alınmalıdır ki, şagirdlər öz tarixi kökləri, ənənələri, mənəvi sərvətləri barədə biliklərə sahib olmalı, eyni zamanda həmin bilikləri beynəlxalq aləmdə də təbliğ etməlidir. Bu tərbiyə prosesinin vacib komponenti olmaqla daim diqqət mərkəzində olmalıdır.

"Təhsil haqqında Azərbaycan Respublikasının qanunu"-da təhsilin məqsədi belə vurğulanır: "Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir". [1, s.11]. Vətənpərvərlik hissinin aşılanması hər zaman aktual məsələdir. Lakin, müasir dövrdə daha böyük aktuallıq kəsb edir. Ölkəmizin demokratik əsaslarla inkişaf etdiyi bir zamanda qədim ənənələrimizin, milli mentalitetimizin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, onların inkişaf etdirilməsi və onların əsasında yenilərinin yaradılması vacib məsələlərdəndir. Torpaqlarımızın düşmənimiz ermənilərdən və digər düşmənlərimizdən qorumağa şagirdləri, yeniyetmələri, gəncləri hazırlamaq, onlara vətəni müdafiə, vətəni sevmək, vətəni qorumaq hissini aşılamaq hər bir müəllimin başlıca vəzifəsi olmalıdır.

Şagirdlərin vətənpərvər ruhda yetişdirilməsi üçün onlara millətimizin, xalqımızın keçmiş və indiki dövrdəki qəhrəmanlıq ənənələri, Milli Qəhrəmanlarımızın göstərdiklər şücaət, onların istək və arzuları, humanist keyfiyyətləri göstərilməli, şagirdlərin şüurunda həkk olunmalıdır. Hər bir müəllim öz fəaliyyətində şagirdə izah etməlidir ki, hər bir şagird cəmiyyətin, bəşəriyyətin bir üzvüdür, eyni zamanda bir millətin nümayəndəsidir. Hər bir şagird erkən yaşdan öz milli mənubiyyətini dərk etməlidir. Pedaqoji prosesdə hər bir müəllim uşağı vətəndaşa çevirməli, dövlətin və onun ictimai sistemin mahiyyətini ona başa salmalı, ölkə qayda-qanunlarına riayət etməyi və qorumağı öyrətməli, şagirdlərə dövlət rəmzlərimizə hörmət hissi aşılamalıdır. Şagirdləri vətənpərvər ruhda yetişməsi işinin səmərəliliyini artırmaq üçün şagirdə mənsub olduğu millətin tarixini, həmin millətin bəşər tarixindəki yerini və rolunu çatdırmaq lazımdır.

Şagirdlərdə vətənpərvərlik tərbiyəsinin formalaşdırılması nə bir günün işi, nə də bir neçə mövzunun əhatə dairəsi demək deyildir. Bunu Talıb Paşayev öz kitabında xüsusilə vurğulayır: "Vətənpərvərlik anlayışı geniş və çox sahənin öyrədilməsi (tədris prosesində, hərbi və idman yarışlarında, valideyn, şəxsiyyət və ictimaiyyətin ayrı-ayrı nümayəndələri nümunəsin-

də, tarixi-arxeoloji materialları, Azərbaycanın təbii sərvətləri, tələbələrin və digər gənclərin şəxsi fəaliyyəti, yaradıcılığı, dərdənkənar tədbirlərin icrası zamanı və s.) nəticəsində öz yerini tapır və müsbət tərbiyə hislərinin formalaşmasına gətirib çıxarır". [2 s.6].

Ümumtəhsil məktəblərində təhsil alan şagirdlər istedadları, təhsil bacarıqları və təlim göstəricilərinə görə müxtəlif səviyyəli olurlar. Lakin onların hər biri mövqeyindən, peşəsindən, təhsil səviyyəsindən asılı olmayaraq öz ölkəsinin sadiq vətəndaşı olmalıdır. Şagirdlərə vətənpərvərlik hissinin aşılanması sistemli xarakter daşımalı, şagirdlərlə aparılan tədbirlərin səmərəliliyinə ciddi nəzarət edilməlidir. Şagirdlərin hər biri müxtəlif mühitlərdə yaşayır. Bu işin səmərəli olması üçün onları əhatə edən insanların – müəllimlərin, valideynlərin, yoldaşarın birlikdə bu işə cəlb edilməlidir. Ümumtəhsil məktəblərində ideoloji xarakterli tədbirlərin keyfiyyətli olması üçün səmərəli iş sistemi qurulmalı və bu tədbirlər müəsisənin fəaliyyət planına daxil edilməsi məqsədə uyğun olar.

Şagirdlərə ölkəmizdə baş verən sosial-siyasi hadisələr, əldə olunan nailiyyətlər, ordu quruculuğu, iqtisadi inkişaf, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, ölkəmizin uğurlu daxili və xarici siyasəti, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun getdikcə artması, beynəlxalq səviyyəli idman yarışlarına, siyasi tədbirlərə ev sahibliyi etməsi, eləcə də digər nailiyyətlər haqqında məlumat verməklə onların maarifləndirilməsi əsas vəzifələrdəndir. Azərbaycanın qədim tarixi, mədəniyyəti, ədəbiyyatı və incəsənəti, tarixi şəxsiyyətləri, dövlət rəmzləri haqqında biliklər şagirdlərə aşılanması mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın tarix və mədəniyyət abidələri dünya mədəni irsinin ayrılmaz tərkib hissəsidir. Azərbaycanın tarix və mədəniyyət abidələri vətənə məhəbbətin nəticəsidir. Bu abidələr azərbaycanlıların elmi dünyagörüşünün inkişaf etməsinin, eyni zamanda Azərbaycanın tarixinin qədim olmasını sübut edir. Xalqımızın min illər ərzində yaratdığı tarixi-mədəniyyət abidələrinə diqqət və qayğı respublikamızın dövlət konstitusiyasının 40-cı və 77-ci maddəsində öz əksini tapmışdır.[3, s.10,18]. Bunu əsas tutaraq respublikamızın ümumtəhsil müəsisələrində şagirdlərin vətənpərvərlik tərbiyəsində böyük əhəmiyyətə malik olan tarix və mədəniyyət abidələrinin öyrədilməsi həyata keçirilir. Müəllimlər tədris prosesində, eyni zamanda dərsdənkənar tədbirlərdə Azərbaycanın tarixi abidələri, onun coğrafiyası haqqında şagirdlərə məlumat verməli, şəklini yaxud ekskursiya təşkil edərək əyani formada tanış etməli, onların təbliğini həyata keçirməlidir. Ümumilli liderimiz Heydər Əliyev məhz bu məsələlər barəsində dəfələrlə dəyərli fikirlər söyləmiş və təhsilimizin qarşısında duran vəzifələrdən bəhs etmişdir: "Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq və məktəbdə, universitetdə formalaşan gənc Azərbaycanın gələcək fəal vətəndaşı gərək birinncisi mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi ilə yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də, gərək onun müəllimləri, tərbiyyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər". [4, s.3]

Vətənpərvərlik tərbiyəsinin nəzəri və pedaqoji əsaslarını göstərərkən deyə bilərik ki, respublikamızın bütün ümumtəhsil müəsisələrində şagirdləri nəzəri cəhətdən hazırlamaq və bir çox pedaqoji üsullardan istifadə etmək lazımdır. Şagirdlərə vətəndaş olduğunu dərk etdirmək, vətəndaş kimi üzərinə düşən vəzifəni başa salmaq lazımdır. I sinifdən başlayaraq uşaqlara vətən, vətəndaşlıq haqqında məlumat verilməlidir. Bunun nəticəsində uşaqlarda vətənpərvərlik hisləri yaranmağa başlayır. Lakin bütün siniflərdə qavrama eyni cür olmur. Ona görə də, I-IV siniflərdə aparılan vətənpərvərlik tərbiyəsi V-IX siniflərdən fərqlənir. Şagirdlər Azərbaycan, müstəqillik, qəhrəmanlar, şəhidlər, düşmənlər və s. haqqında emosional danışan müəllimdən təhsillənir və vətən anlayışını dərk edir. Sonrakı siniflərdə şagirdlər aldıqları informasiya, bilik nəticəsində vətənpərvər olmaq üçün hansı keyfiyyətlərə malik olmağın lazım olduğunu dərk edirlər, özlərini bunun üçün hazırlayırlar.

Məktəb tərbiyənin ocağı hesab edilir, eyni zamanda şagirdlərin dərsdənkənar işlərində vətənpərvərlik tərbiyəsinin sistemli şəkildə həyata keçirilməsinə zərurət yaradır. Disputlar,

konfranslar, dəyirmi masalar, müsabiqələr, dərnəklər, maraq kursları, yarışlar və bu kimi kütləvi tədbirlər şagirdlərdə tərbiyənin təşkil olunması üçün geniş imkanlara malikdir. Şagirdlərin vətənpərvər ruhda tərbiyə olunmasında ulu öndər Heydər Əliyevin müdrik kəlamı didaktik əhəmiyyət daşıyır: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, vətən uğrunda şəhidliyə hazır olmaq hislərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir." [5, s.66]. Məktəblərin qarşısında şagirdlərin hərbi-vətənpərvərlik ruhda tərbiyəsi sahəsində vəzifələr qoyulması təsadüfi deyil. Hərbi-vətənpərvərlik tərbiyəsi gəncləri vətənimizin müdafiəsinə hazırlamaq məqsədinə xidmət etməlidir. Qanunlarımızı bilmək, müdafiə etmək, onlara hörmətlə yanaşmaq Vətənə məhəbbətin çox vacib tələblərindən biridir. Şagirdlər də hüquqlarını, ölkə, vətən, dövlət qarşısındakı vəzifələrini yaxşı bilməlidir.

Demokratik, hüquqi bir dövlət olan Azərbaycanın təhsil sisteminin əsas vəzifələrindən biri şagirdlərə ümumbəşəri və milli dəyərlər aşılamaqla şəxsi keyfiyyətlərə malik bir vətəndaş kimi tərbiyələndirməkdir. Eyni zamanda dövlətçilik ideyalarına sadiq, əsl vətənpərvər, doğma xalqına, Vətəninə məhəbbətlə bağlı olan bir insan tərbiyə etməkdir. Şagirdlərdə vətənpərvərlik hislərinin aşılanmasında qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün hər bir müəllim ilk növbədə müxtəlif formalı tərbiyə işlərinin elmi əsaslarına, bu barədə milli və beynəlxalq təcrübəyə yiyələnməli, xalqının, millətinin tarixi, maddi və mənəvi sərvətləri barədə geniş məlumatlara malik olmalıdır. Əsl müəllim hər bir şagirdə gələcəyin zəkası kimi yanaşmalı, şagirdlərdə özlərinə inam hissi yaratmalıdır. Müasir müəllim şagirdlərin şəxsi keyfiyyətlərini, istedad və bacarıqlarını inkişaf etdirməlidir. Belə olduqda müəllim və şagirdlər arasında bağlılıq yaranır və şagirdlər belə olan halda onun vətənpərvərlik haqqında söylədiklərini səmimi qəbul edəcəklər.

Dəyərli insan olmaq üçün ilk növbədə Vətəninin vətəndaşı olmalısan. Dinindən, milliyətindən asılı olmayaraq hər kəs Vətənə borcunu verməli, böyüyən nəsil bu ruhda tərbiyə edilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu, Bakı, 2009, s.37
2. Talıb Paşayev "Diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi", Bakı, Nərgiz, 2002, s.160
3. Azərbaycan Respublikasının Konstitusiyası, s.55
4. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Vətənpərvərlik tərbiyəsi ümummilli xilas yolumuzdur" Bakı, 2016, s.60
5. Azərbaycan Respublikasının Təhsil İnstitutu "Elmi əsərlər" cild 85, № 8, Bakı, 2018, s.357

С.Н.Аллахверанова

Направления формирования патриотического воспитания студентов

Резюме

В статье изложены основные принципы национального воспитания в нашей системе образования, направления воспитания патриотизма у учащихся на основе этих принципов. На основе этих принципов определены основные обязанности каждого учителя, работающего в средних школах. Подчеркнута важность сотрудничества преподавателя и ученика для формирования патриотического воспитания у студентов, а также эффективной организации учебного процесса.

S.N.Allahveranova

Directions of formation of patriotic upbringing in students

Summary

The article highlights the main principles of national upbringing in our education system, shows the directions of instilling patriotism in students on the basis of these principles. Based on these

principles the main responsibilities of each teacher working in secondary schools are outlined. The importance of teacher-student cooperation for the formation of patriotic education in students, as well as the effective organization of the educational process was emphasized.

Rəyçi: dos. A.Y.Piriyeva

Redaksiyaya daxil olub: 05.12.2020

T.B.BAĞIROVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

PEDAQOJİ ÜNSİYYƏT ZAMANI YARANAN MÜNAQİŞƏLƏR VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər**: pedaqoji ünsiyyət, münaqişələr, münaqişələrin səbəbləri, münaqi-şələrin xüsusiyyətləri, münaqişələrin neytrallaşdırılması*

***Ключевые слова:** педагогическое общение, конфликты, причины конфлик-тов, особенности конфликтов, нейтрализация конфликтов*

***Key words:** pedagogical communication, conflicts, causes of conflicts, specifics features of conflicts, neutralization of conflicts*

Bu gün yeni iqtisadi-siyasi quruluşun tələblərinə cavab verən, onu daha da inkişaf etdirən, yeni keyfiyyətlərin daşıyıcıları olan şəxsiyyətin formalaşması Azərbaycan təhsili qarşısında duran başlıca vəzifələrdən biri hesab edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsil siyasətinin başlıca vəzifələri və istiqamətləri ilə əlaqədar dediyi aşağıdakı fikirlər bizim qarşımızda çox böyük vəzifələr qoyur: "Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir"(1).

Qarşıya qoyulan bu vəzifələrin səmərəli həyata keçirilməsi baxımından pedaqoji ünsiyyət zamanı yarana bilən münaqişələr, onların təhlili, müsbət və mənfi tərəflərinin öyrənilməsi və aradan qaldırılması yollarının araşdırılması çox əhəmiyyətli və aktualdır. Belə ki, təhsil müəssisələrində münaqişələr düzgün idarə edilməzsə, onlar sosial-psixoloji mühitin və münasibətlərin pisləşməsinə, pedaqoji mövqeyin itirilməsinə gətirib çıxarar. Münaqişələri öyrənməklə, onları düzgün təhlil etməklə məktəb rəhbərləri əməkdaşlarını və şagirdlərini daha yaxından tanıya, onların xarakteri, psixoloji vəziyyəti, çətin situasiyalarda özünü aparma mədəniyyətini, bu situasiyalardan çıxma yollarını araşdıra, həmçinin kollektivdə olan çatışmazlıqları aradan qaldıraraq müəllim-şagird-valideyn əməkdaşlığını səmərəli həyata keçirə bilərlər.

Məktəbin tərbiyəvi imkanları çoxcəhətlidir. O, özü ilə birlikdə digər qüvvələrin təsiri ilə yetişməkdə olan gənc nəslin tərbiyəsinə təsir göstərə bilir. Lakin bəzən elə hallar yarana bilir ki, tərbiyəvi imkanlardan da istifadə onların həyata hazırlanmasında aciz olur. Bu iki səbəbdən irəli gələ bilir: müəllimin pedaqoji səriştəsizliyindən; pedaqoji işin düzgün qurulmamasından.

Münaqişələrin tarixi çox qədimdir. Bu məktəbdə, ailədə, cəmiyyətdə, qrupda, kollektivdə, fərdlər arasında və b. özünü təzahür etdirə bilir. Pedaqoji prosesdə yaranan münaqişə isə davamlı məzmun daşıyır. Belə ki, məktəbdə bu münaqişə bitsə də, şagird ürəyində bu münaqişə davamlı işə çevrilir. Ona görə də pedaqoji münaqişələri qorxulu, çətin, təhlükəli hal kimi diqqətdə saxlanılır.

Məktəbdə, ailədə münasibətlərin düzgün qurula bilməməsi də çox zaman münaqişə deyilən bir anlayışın gündəmə gəlməsinə səbəb olur. Bu münaqişələrin özünəməxsus səbəbləri vardır. Bu səbəblər ondan irəli gəlir ki, istər müəllimlər, istərsə də valideynlər adətən pedaqoji-psixoloji baxımdan həyata hazır olmur, uşaqlarla səmimi olmağa ehtiyac duymur, valideyn bəzən müəllim haqqında yanlış informasiyanı qeyri-şərtsiz qəbul edir, məktəblə əlaqə yaratmağa çalışmır və s.

Aparılan tədqiqatlar göstərir ki, müəllim-şagird münaqişələrinin yaranması müasir dövr üçün çox xarakterikdir. Kütləvi informasiya vasitələrinin sürətlə cəmiyyətə, ailələrə daxil olması böyüyən nəsildə hadisələri öyrənməyə, özlərində onları təcəssüm etdirməyə maraq yaradır.

Bu proses tədricən genişlənir və müxtəlif sahələrdə özünü təzahür etdirir. Azyaşlı uşaqların küçə mühitinə can atması, oğurluq, cinayətkarlıq əməllərinə maraq göstərməsi təbii ki, onların psixologiyasında mənfi çalarlar yaradır. Bu da asanlıqla məktəbə yol açа bilir. Münaqişə üçün səbəblər "artıq" hazırdır və onların ortaya çıxması heç bir narahatlıq yaratmır. Bütün bunlar tələb edir ki, müəllim və şagird münaqişələrinin aradan qaldırılmasının optimal yollarının müəyyənləşdirilsin. Bu da məktəbdə sağlam mühitin formalaşmasına böyük təkan vermiş olar.

Problemin aradan qaldırılmasının optimal yollarından biri şagird şəxsiyyətinə hörmətlə yanaşılmasıdır. Şagirdə hörmət etmək, ona pedaqoji prosesin subyekti kimi yanaşmaq, qayğı göstərmək onun şəxsi ləyaqət hissini gözləmək deməkdir. Həm də hörmət etmək heç də şagirdə güzəşt etmək, nöqsanlarına göz yummaq demək deyildir. Hörmət ana nəvazişi, ata qayğısı kimi özünü təzahür etdirməlidir. Şagirdlərlə apardığımız söhbətlər də əsas etibarı ilə bu problem üzərində quruldu. Onlar hörmət etməyi bacaran müəllimlərə hörmət göstərdiklərini vurğuladılar. VII-IX sinif şagirdlərinin çox hissəsi bu anlayışın tətbiqini görmək istəyində idilər.

Müəllim-şagird münaqişəsinin aradan qaldırılmasının optimal yollarından biri də şagirdlərin maraq və istəklərinə qayğı ilə yanaşmaqdan ibarətdir. Aparılan araşdırmalar göstərir ki, şagirdlərin bir qismi müvafiq dərnəklərə, idman növlərinə maraq göstərirlər. Müəyyən səbəbdən dərsə hazır gəlməyən şagird o dəqiqə danlaq hədəfinə çevrilə bilir.

Müəllim və şagird münaqişələrinin aradan qaldırılmasının optimal yollarından biri şagirdlər arasında fərq qoymamaqdan ibarətdir. Təbiidir ki, müəllimin ən çox rəğbət bəslədiyi şagird yaxşı oxuyan olur. Lakin müəllim bu hisslərini şagirdlər arasında biruzə verməməli, onun rəğbətləndirmə yollarını tapmalıdır. Müəllimin hamıya eyni qayğı ilə yanaşdığını görən şagirdlər onun obyektivliyini, münasibətini dəyərləndirirlər. Şagirdlərlə apardığımız sorğular və müşahidələr fikrimizin dəqiqliyinə əsas verir.

Müəllim və şagird münaqişəsinin aradan qaldırılmasının yollarından biri də sinifdə münaqişə yaratmağa meylli olan şagirdləri duyaraq onlarla fərdi qaydada söhbətlərin aparılması, problemlə əlaqədar birbaşa və ya dolayı təsir priyomlarından istifadə, tərbiyələndirici situasiyaların yaradılmasıdır. Belə ki, müəllim sinifdə münaqişə yaratmağa cəhd edən şagirdləri tərbiyəedici situasiyaya salır, onları yoldaşlarına kömək etməyə, başqalarına və böyüklərə qayğı, kiçik məktəblilərə himayədarlıq göstərməyə cəlb edir.

Müəllim-şagird münaqişəsinin aradan qaldırılmasının optimal yollarından biri də valideynlərlə düzgün və səmərəli ünsiyyət yaratmaqdan ibarətdir. Bəzən elə hallar olur ki, münaqişənin mərkəzində ailə dayanır. Belə ki, valideyn müəllimlə münaqişə yaradır, şagird də bunu görür və ya evdəki söhbətin şahidi olur. Valideynlərin müəllimdən mənasız istəkləri münaqişənin yaranması üçün şərt olur. Bu istəklərə "Mənim uşağım nə üçün arxada oturub, onu irəliyə gətirin"; "Uşaq dərsini danışarkən ona suallar verirsiniz. Qoyun danışıb qurtarsın, sonra suallar verin"; "Mənim uşağım L-dən yaxşı oxuyur, niyə onu tərifləyirsiz, bunu isə yox" və s. məzmunda ola bilir.

Valideynlərin yaratdıqları münaqişələrə fikrimizcə, aşağıdakılar səbəb olur: valideynin pedaqoji savadının az olması; bütün məsuliyyəti müəllimin üzərinə qoyması; valideynlərin mənasız və gərəksiz istəkləri; evdə müəllimin ünvanına söylənməsi; valideynlərin hövsələsizliyi; müəllimin işinə yersiz müdaxilə edilməsi və s.

Aparılan müşahidələr göstərir ki, pedaqoji mühitdə münaqişənin yaranmasına müəllimin valideynlə düzgün ünsiyyət qura bilməməsi halları də səbəb olur. Belə ki, müəllim valideyni məktəbə dəvət edir və sözə məzəmmətlə başlayır. Valideyn isə şagirdlərin içində müəllimin belə danışığını qəbul edə bilmir. O, güman edirdi ki, müəllim övladının nailiyyətlərindən söhbət açaraq onu tərifləyəcək. Müəllim isə ikincini, yəni məzəmmət etmək yolunu birinci sıraya çəkməyi vacib bilir. Bəzən valideyn iclaslarında da müəllim uşağın bütün problemlərini valideynlər qarşısında açır və əsəbi halda onları ittiham edir. Belə olan halda valideyn evə acıqlı gəlir və bütün əsəbini uşağının üzərinə tökür. Elə buna görədir ki, bəzi hallarda valideynlər müxtəlif bəhanələrlə iclas və görüşlərdən yayınırlar.

Fikrimizcə, müəllim-valideyn, sonradan isə şagird-müəllim arasında münaqişəyə yol açan hərəkətlər aşağıdakılardır: müəllimin pedaqoji ünsiyyətinin olmaması; müəllimin valideyni yersiz məzəmmət etməsi; valideyni və şagirdi kollektiv içərisində ittiham etməsi; müəllimin kobudluğu; müəllimin valideynlə fərdi ünsiyyət yarada bilməməsi; şagirdlərini tanıya bilməməsi və s.

Qeyd etdiyimiz kimi məktəbdə münaqişə təkcə şagirdlər arasında yaranmır. Onların da münasibətləri çoxcəhətlidir. Münaqişələr bir tərəfdən ailədə, digər tərəfdən müəllim, sinif rəhbəri, direktor və onun müavinləri ilə bağlı yarana bilir. Münaqişələrin yaranmaması və ya aradan qaldırılması üçün onların mərhələləri və inkişaf dinamikası haqda lazımi biliklərə malik olmaq lazımdır:

1. Münaqişəyə qədər mərhələ. Bu mərhələdə tərəflər arasında ziddiyyət yaranır və tədricən dəyişikliklər artır. Ziddiyyətlər isə öz növbəsində daxilən yeni ziddiyyətlərin yaranmasına yol açır.

2. Münaqişələr və onların həlli. Bu mərhələ o zaman həll oluna bilir ki, valideynlər övladlarını böyüyə hörmət etmək ruhunda tərbiyə edə bilir, müəllimlə valideyn arasında düzgün əlaqə qurulur. Məktəb ailə ilə əlaqə yarada bilir və uşaqların tərbiyəsində vahidlik təmin olunur.

Müəllim pedaqoji prosesdə böyük qüvvə olduğundan o, şagirdlərlə ünsiyyətdə heç bir səhvə yol verə bilməz. Cəmiyyətin tələbatlarına müvafiq olaraq təhsil sistemində həyata keçirilən islahatlar da müəllimlərin şagirdlərlə qarşılıqlı münasibətlərinin düzgün qurulmasını gündəmə gətirir. Çünki tərbiyə prosesinə tərbiyə edənlərin və tərbiyə olunanların birgə işgüzar fəaliyyəti kimi baxılır. Bu isə müəllim və şagirdlərin özünü inkişaf etdirməsi, özünütəkmilləşdirməsi, özünütəsdiqləməsi üçün geniş şərait yaratmış olur.

"Müəllim-şagird münasibətlərindəki qarşılıqlı təsir, fəaliyyət, məlumat ünsiyyət prosesinə rəhbərlik pedaqoji fəaliyyətin mühüm sahəsi olmaqla həm də yaradıcı işdir. O, heç bir standart şablona sığmır... Müəllimin yaradıcılığı ilk növbədə dərsin şagirdlərlə münasibət prosesində necə qurulması və onun kompozisiyasında, şagirdlərin müstəqil işlərini necə təşkil etməsində, məktəb həyatının müxtəlif situasiyalarında şagirdlərlə ünsiyyət yarada bilməsində özünü göstərir (2,s.109-110).

Son olaraq qeyd edək ki, müəllimlərlə şagirdlər arasında münaqişələr o zaman yaranmır ki: müəllim uşaqların daxili aləmini görə bilsin; uşaqlara sevgi və məhəbbətlə yanaşsın; şagirdlərin maraqlarını nəzərə alsın; sözü ilə işi arasında vəhdət olsun; ədalətli və obyektiv çıxış etsin; yüksək əxlaqi keyfiyyətlərə malik olsun; şagirdlərlə valideyn və övlad münasibətini yarada bilsin və s.

Ədəbiyyat

1. "Azərbaycan – 2020: gələcəyə baxış" konsepsiyası (Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 29.11.12-ci il tarixli Sərəncamı)

2. Əliyev R.İ. Şəxsiyyət və onun etno-psixoloji xidmətinin aktual məsələləri. Bakı: Nurlan, 2000, 384 s.

Т.Б.Багирова

Конфликты, возникающие при педагогическом общении и их функции

Резюме

В статье рассматриваются классификация, динамика, а также особенности педагогических конфликтов, их причины, специфика протекания, связанная с участниками образовательного процесса; анализируются механизмы конфликтов учитель-ученик, руководитель-учитель, учитель-родитель, а также способы управления ими в процессе социально-педагогического взаимодействия.

Автор отмечает, что анализ конфликтов, выявленные при педагогическом общении, изучение путей их решения очень важны и актуальны с точки зрения успешного управления

этим процессом. Так как если конфликты не решаются должным образом, они приводят к ухудшению социально-психологической среды и отношений между субъектами педагогического процесса, потере педагогической позиции. Изучая конфликты и правильно их анализируя, руководители школ могут лучше узнать своих преподавателей и учеников, их характер, психологическое состояние, культуру поведения в сложных ситуациях, пути выхода из этих ситуаций.

Преодолевая возникшие конфликты в педагогическом процессе, можно эффективно реализовать сотрудничество учителя, ученика и родителей.

T.B.Bagirova

Conflicts in pedagogical communication and their features

Summary

One of the most important issues of the day is to reconsider the teacher-student relations in the learning process, to try to humanize it in order to build the activities in the priority areas of the Education Reform at the level of today's requirements. The article analyzes the study of the mechanism of teacher-student, leader-teacher, teacher-parent conflicts, the management of these conflicts against the background of new conditions, ensuring adequacy, the formation of students as individuals.

The author notes that the analysis of conflicts during pedagogical communication, the study of their positive and negative sides, the study of their solutions are very important and relevant in terms of enterprise management. Because if conflicts are not managed properly in educational institutions, they lead to the deterioration of the socio-psychological environment and relations, the loss of pedagogical position. By studying conflicts and analyzing them properly, school leaders can get to know their employees and students better, explore their character, psychological state, culture of behavior in difficult situations, ways out of these situations, as well as eliminate shortcomings in the team.

Rəyçi: dos. V.P.Bəşirov

Redaksiyaya daxil olub: 13.11.2020

S.N.CƏFƏROVA
e-mail: sabina_16_86@mail.ru

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

XIX ƏSRİN SONLARINDA AZƏRBAYCAN AİLƏSİNDƏ TƏRBİYƏ PROBLEMLƏRİ

Açar sözlər: *valideyn, ailə, ev, cəhalət, tərbiyə, cəmiyyət, uşaq*
Ключевые слова: *родители, семья, дом, безграмотность, воспитание, общество, ребенок*
Key words: *parents, family, home, illiteracy, upbringing, society, child*

Ailə - insanların qarşılıqlı fəaliyyətinin təkrarsız institutudur. Ailə dedikdə "dəqiq müəyyən edilmiş maraqları və məqsədləri olan mini qrup" nəzərdə tutulur. Ailənin əsas məqsədi – qalib gəlmək, özünü qoruma, ailə üzvlərinin əsas tələbatlarını ödəyə bilmək və nəslin davamını təmin etməkdir.

İnsan cəmiyyətin əsas özəyi olmaq etibarı ilə, onun şəxsi keyfiyyətləri ailədə formalaşır və əxlaqi, mədəni cəhətlər məhz ailədə aşılanır.

Sosioloji mənada ailə nigaha, qohumluğa, uşaqların tərbiyə üçün götürülməsinə qarşılıqlı birgə həyat mənafeyinə əsaslanan insan ittifaqıdır [4, 91]. Filosoflar ailəyə və orada müəyyən olunan münasibətlərə, insanın təbiətə, cəmiyyətə, dünyagörüşünə baxışları yaranma mənbələri kimi baxırlar.

Ailə mürəkkəb mənalı sosial anlayışdır. İnsan şəxsiyyətinin mənəvi tərəqqisi, onun inkişaf etməsi və formalaşması cəmiyyətdə əldə etdikləri ailədə öz əksini tapır. Ailənin rolu, onun əhəmiyyəti və funksiyaları cəmiyyət dəyişəndə dəyişmir. Azərbaycan mentalitetinə xas olan keyfiyyətlər, dəyərlər xüsusiyyətlər, məhz ailədə formalaşır, bu ailədə zənginləşir. F.Köçərli ailəyə belə bir tərif vermişdir "ailə insanların (ərin, arvadın və uşaqların) tarixən dəyişən, istehsal münasibətlərinin tipi ilə müəyyən edilən və nəsli davam etdirmək, uşaqları tərbiyə etmək, təsərrüfat fəaliyyəti göstərmək kimi vəzifələri həyata keçirən birgə yaşayışların formasıdır" [2, 29].

XIX əsr xalqımızın tarixində həm mürəkkəb, həm də ziddiyyətli bir dövr olmuşdur və əsrin əvvəllərində çar rus imperiyası tərəfindən işğal olunmuş Azərbaycan, rus imperyasının gizli siyasəti nəticəsində 3 hissəyə parçalanmışdır: Şimali, Cənubi və Qərbi Azərbaycan. Rus imperiyasının işğalına baxmayaraq Şimali Azərbaycanda xalq maarifi və təhsili böyük inkişaf yolu keçmiş, məktəblər həm sayca, həm də keyfiyyətcə xeyli inkişaf etmişdir. Azərbaycan xalqının rus xalqı ilə tarixən təşəkkül tapmış mədəni və siyasi əlaqələri, onların arasında ən qədim zamanlardan dostluq əlaqələrinin yaranması Azərbaycanda, xüsusən Azərbaycan xalqının mənəvi mədəniyyətinin əvvəlki yüzilliklərdə yaratdığı bütün yaxşı cəhətləri özünə hopdurmuş, XIX əsrdə özünəməxsus ictimai və fəlsəfi fikrin inkişafına çox təsir göstərmişidir.

Şimali Azərbaycan Rusiya tərkibinə daxil edildikədən sonra xalq maarifi və məktəb təhsili öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, dövlət tərəfindən yeni tipli məktəblər təşkil edilmişdir. Belə məktəb və gimnaziyaların meydana gələməsi ilə Azərbaycanda xalqın mədəni həyatında da canlanmaya səbəb olmuşdur. Belə canlanma mütərəqqi ziyalıların siyasi və mədəni mübarizəsini artırmış, Azərbaycanda pedaqoji hərəkatın həyata keçirilməsində, maarifçilik, ailə tərbiyəsi problemlərinin həllini artırmağa yönəlmişdir. Bu hərəkata cəmiyyətin ən qabaqcıl adamları – müəllimlər, pedaqoqlar, maarifpərvərlər, şairlər, ədiblər, elm və incəsənət xadimləri də qoşulmuşdurlar. Lakin belə məktəblərin açılmasına baxmayaraq insanların elmdən, savaddan uzaq olmaları cəmiyyəti müəyyən çətinliklərlə üzbəüz qoyurdu.

XIX əsrin axırlarına doğru maarifçilik hərəkatına yeni bir çalar - siyasi düşüncə də əlavə edilməyə başladı. Buna səbəb xalqların get-gedə ayılması, milli mənlik şüurunun oyanması idi. Çünki ölkədə artıq siyasi qüvvələr fəallaşmağa başlamışdı. Bu da sosial-mədəni və ictimai ədəbi mühitdə yeni məzmunlu fikir və düşüncənin rəngin ifadəsinə stimul verirdi.

Həmin dövrün tarixi şəraitində Azərbaycanda ailə tərbiyəsi məsələləri hər zaman diqqət mərkəzində olmuşdur. Ailə məsələlərindəki münasibətlərin düzgün qurulmaması, ailələrin çoxunda mehribançılıq və ünsiyyətin olmaması, qadınların savadsızlığı, valideynlərin övladlarını düzgün tərbiyə etməmələri mütərəqqi pedaqoqların daim diqqət mərkəzində idi.

Ailənin təkamülü hər bir xalqın tarixi inkişafında mühüm yer tutduğu kimi xalqın tarixi və xüsusilə mənəvi mədəniyyəti ilə bağlı məsələlərin aydınlaşdırılması üçün birinci dərəcəli əhəmiyyət kəsb edirdi.

XIX əsrin sonlarında ailə tərbiyəsi məsələləri Azərbaycanlıların sosial-mədəni inkişafının xüsusiyyətlərini və mədəni həyat tərzini əks etdirir.

Ailə cəmiyyətin özəyi, sözün həqiqi mənasında cəmiyyətin özü deməkdir. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş müxtəlif ictimai hadisələr, onun sosiomədəni həyatına da təsirsiz ötüşməmiş, Azərbaycan ailəsinə birbaşa təsir etmiş, ailə-məişət prosesində dərin iz buraxmışdır. Eyni zamanda XIX əsrin sonu Azərbaycanın ictimai həyatındakı dəyişikliklər dinamikası özünü daha qabarıq biruzə vermişdir.

XIX əsrin sonu Azərbaycan ailələrində vəziyyət bir az fərqli idi. Həmin dövrdə cəmiyyətdə baş verən hadisələr Azərbaycan ailəsinə təsirsiz ötüşmürdü. Belə ki, valideynlərin avamlığı, savadsızlığı, elmsizliyi, cahilliyi, ailədə övladlarının tərbiyəsinə biganə yanaşması, onların elmdən, savaddan uzaqlaşdıraraq, oxumalarına icazə verməmələri, qızlarının erkən yaşlarından ərə vermələri gələcək nəsilin tərbiyəsinə mənfi təsir göstərirdi.

Bəzi ailələrdə kişinin bütün sahələrdə hökmran olması, tərbiyə məsələlərində öz qadını ilə hesablaşmaması tərbiyənin pozulmasına, düzgün getməməsinə səbəb olurdu. Belə ailələrdə ana heç bir hörmət və söz sahibi olmurdu. Ailə başçısının avamlığı, mənəm-mənəmliyi, onun göstərişi olmadan həyat yoldaşının çölə-bayıra çıxa bilməmə qadağası, pəncərədən belə çölə baxa bilməməsi, naməhrəm yanında çadrasız gəzməməsi qadınların hüquqlarını pozur, onların cəmiyyətdə və ailədə hökmünün olmamasına dəlalət edirdi. Bu cür ailələrdə tərbiyə alan uşaqların, xüsusən oğlan uşaqlarının beyninə, şüuruna yeridilmiş belə mənfi hallar onların tərbiyəsində pis nümunələr toxumu səpirdi. Ailə adətlərini pozan uşaqlar dərhal cəzalandırılır, döyülür, hətta evdən qovulmaq dərəcəsinə də gətirilib çıxarılırdı.

XIX əsrin sonlarında Azərbaycan ailələrinin bir çox hissəsində vəziyyətin bu yanaşmada olması, qadınların hüquqlarının tapdanması, uşaqların təhsildən, elmdən yayınması cəmiyyətin istər təhsil, istərsə də digər sahələrdə inkişafın qarşısını alırdı.

Ailə tərbiyəsinin nöqsanlarından biri də bəylərin, xanların, tacirlərin bir sözlə varlı təbəqənin mala-mülkə, pula-dövlətə olan hərisliyi həmin dövrün səciyyəvi cəhətlərindən sayılırdı. Varlıların həyat amalının yalnız pul olması, varlandıqca tamahlarının artması, puldan ötrü özlərinin haldan-hala salmaları, qız uşaqlarını özlərindən dövlətlilərə satmaları ailələrdə tərbiyənin düzgün qururlmamasına gətirib çıxarırdı. Onlar üçün əsas amal pullarının əldən getməməsi, pula olan hərislikləri, xəsislikləri, insani keyfiyyətlərinin nə qədər aşağı səviyyədə olmaları, pul uğrunda mənəviyyatlarını, şəxsiyyətlərini itirmələri bir ailə başçısı kimi nümunəvi valideyn olmaması anlamına gəlirdi. Valideynlərdə belə mənfi keyfiyyətlərin olması, bu cür ailələrdə böyüyən uşaqların əxlaqi keyfiyyətlərinə güclü təsir göstərirdi.

Həmin dövr üçün ailədə uşaq tərbiyəsinin əsas səciyyəvi problemlərindən biri də uşaqların elmdən, təhsildən uzaqlaşdırılmaları idi. XIX əsrin sonlarında cəhalət, avamlıq elə dərəcəyə gəlib çatmışdı ki, insanlar elmdə yalnız nöqsan axtarır, məktəbi nöqsanlı insanlar toplumu adlandırırdılar.

Uşaqların məktəbdən, dərsxanalardan, elmdən, savaddan məhrum olmaları onların cəmiyyətə nə qədər yarasız şəxsiyyət kimi yetişmələrinə səbəb olurdu. Bəzi ailələrdə valideyn-

lər uşaqların məktəbə getmək əvəzinə boş-bekar gəzmələrinə göz yumur, onların cəmiyyətə faydalı, xeyirxah işlər görmək, xalqın inkişafına, savadsızlıqdan xilas olmaq ruhunda tərbiyə etməkdənsə, əksinə olaraq avaraçılıqla məşğul olmasına daha çox can atırdılar. Bir çox ailələrdə valideynlər uşaqlarını məktəbdən uzaqlaşdıraraq küçədə avaraçılıqla məşğul olmasını, məktəbdə elm oxumağın ziyan olmasını, günün oğurluq və quldurluqla keçirməyi məsləhət bilirdilər.

Elm-maarifi cəfəng iş hesab edən savadız valideynlər yaşadıqları mühitə kiçik pəncərədən baxır, cəhalət bataqlığında boğulurdular. Həmin dövrün görkəmli simalarında biri, xalqımızın görkəmli satiriki, şair Mirzə Ələkbər Sabirin yaradıcılığında azərbaycan ailələrinin iç üzü yüksək satira ilə təsvir edilirdi. M.Ə.Sabirin "Bəxtəvər" şeirinə diqqət yetirsək, şeirdə ailə tərbiyəsinin düzgün qurulmaması daha qabarıq təsvir edilmiş, valideynlərin oğullarının pis hərəkətlərindən razı olmaları, fərəhlənmələri, onun bu hərəkətlərinə sevinmələri mənfi hal kimi qiymətləndirilmişdir. Oğlanın özündən yaşça böyük insanlara, qocalara təhqiramiz sözlər yağdırması, onlara əl qaldırmasını valideynlər bir pəhləvanlıq kimi qiymətləndirirdilər. Cahil və savadsız ana özü kimi nadan qonşusuna oğlunu tərifləməsi, onun kiçik yaşlarından belə müsbət keyfiyyətlərə sahib olması, hətta 15 yaşından sonra əməlli bir cavan olmasını, gələcəkdə bütün aləmə səs salan Rüstəm Zala bənzəyəcəyini fəxr hissi ilə qeyd edir. Cahil ana oğlunu elmdən, məktəbdən yayındırdığı üçün sevinir, onun məktəbdə səhərdən axşamadək boş işlərlə məşğul olacağını düşünür, məktəbi zindana bənzədir və bu əməlinə görə özü ilə fərəhlənirdi.

Oğlumuz, ay Xansənəm, bir yekə pəhləvan imiş!
Bəxtəvər olsun başın, bəxtimiz oğlan imiş!
Durmuş idim küçədə, birdə gördüm, haman,
Ağrısın aldığım Feyzi gəlir lap piyan,
Çatcaq ürüb bir qoca Saili qusdurdu qan,
Gözlərinə döndüyüm sanki bir aslan imiş!
Sən eləsən, qoy hələ olsun əməlli cavan,
On beşə çatsın yaşı, cürətin etsin əyan,
Bir qoçu olsun bu kim, aləmə salsın fəqan,
Hər kəs ona söyləsin: Rüstəmi- dastan imiş!
Bəxtəvət olsun başın, bəxtimimz oğlan imiş!
Yaxşı olub mən bunun bəxtini çöndərmədim,
Bir para pis işlərə fikrini döndərmədim,
Qonşumuzun oğlu tək məktəbə göndərmədim,
Doğrusu məktəb demək guşeyi – zindan imiş!
Bəxtəvər olsun başın, oğlumuz oğlan imiş!
Nəslimiz insan imiş!
Elmü ədəb qan imiş!
Baisi – xizlan imiş! [5, 94]

O dövr üçün xarakterik əlamətlərdən biri də din, mövhümat pərdəsi altında insanların cahil düşüncələrinin ailə tərbiyəsinə tətbiqi idi. Bəzi molla, hacı, seyid, məşədi və şeyxlərin mənəviyyatlarının aşağı səviyyədə olması, özlərini din pərdəsi arxasında gizlətmələrindən hiss olunurdu. Belə fırıldaqçı mollalar cahil valideynlərə qızların kiçik yaşlarından başlayaraq ərə getmələrini məsləhət edirdilər.

Beləliklə məqalədə XIX əsrin sonlarında Azərbaycan ailələrində mövcud olan cahil düşüncəli valideynlərin valideynlik borcuna məsuliyyətsiz yanaşmaları, tərbiyənin ata-ana tərəfindən zamanında düzgün verilməməsi, ailədə kişilərin hökmran mövqedə olması, qadın hüquqsuzluğu ətraflı göstərilmişdir.

Ədəbiyyat

1. Hüseynov F. Molla Nəsrəddin və Mollanəsrəddinçilər. Bakı, Yazıçı, 1986.
2. Köçərli F. Sosializm cəmiyyətində ailə. Bakı: Azərnəşr, 1959, s.157
3. Məmmədova R.H. Molla Nəsrəddin jurnalında təhsil və tərbiyə məsələləri. Pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunmuş namizədlik dissertasiyası, Naxcıvan, 2011.
4. Qeybullayev Q.Q. Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri). Tarixi etnoqrafik tədqiqat
5. Sabir M.Ə.,Hophopnamə (I cild) Şərq-Qərb, Bakı 2004, 478

С.Н.Джафарова

Проблемы воспитание в азербайджанской семье в конце XIX века

Резюме

Различные общественные событие, происходившие в Азербайджане в конце 19 - начале 20 веков, не прошли незамеченными в его социально-культурной жизни. Эти социально-культурные события оказали непосредственное влияние на азербайджанскую семью и оставили глубокий след в семейной жизни. С этой точки зрения в статье подробно описаны безответственное отношение необразованных родителей к родительскому долгу, неправильное воспитание детей со стороны невежественных родителей, доминирование мужчин в семье и права женщин в азербайджанских семьях в конце XIX века.

S.N.Jafarova

Problems of education in Azerbaijani families at the end of the XIX century

Summary

In the late of XIX and early XX centuries various social events that took place in Azerbaijan had huge impact in its socio-cultural life. These socio-cultural events directly affected the Azerbaijani family and have left a deep mark on the family life. From this point of view, the article describes in detail the irresponsible attitude of uneducated parents to their parental duty, improper upbringing their children by parents in time, the dominance of men in the family, and women's rights issues in Azerbaijani families at the end of the XIX century.

Rəyçi: ped.f.d. N.R.İsmayılova

Redaksiyaya daxil olub: 29.10.2020

İ.C.CƏLİLOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ŞAGİRDLƏRLƏ APARILAN TƏRBİYƏVİ İŞİN FORMALARI

Açar sözlər: *vətəndaşlıq tərbiyəsi, tərbiyə nəzəriyəsi, ailə tərbiyəsi, sinifdənxaric iş, şagird şəxsiyyəti.*
Ключевые слова: *воспитание гражданства, теория воспитания, семейное воспитание, внеклассная работа, личность учащихся.*
Key words: *education citizenship, theory of education, family education, class work, the identity of students.*

Tədqiqatın nəticələrindən aydın olur ki, müasir şəraitdə cəmiyyət və şəxsiyyət, dövlət və şəxsiyyət, cəmiyyət və dövlət münasibətləri məsələsinə uşaqların vətəndaşlıq tərbiyəsi cəmiyyətin yeni simasının müəyyənləşdirilməsində ilkin hazırlıq rolunu oynayır. Yalnız bu sahədə işlərin normal həyata keçirilməsi nəticəsində əsil hüquqi dövləti yaratmaq və onun diqqət mərkəzində dayanan insanı formalaşdırmaq olar. Bu baxımdan vətəndaşlıq tərbiyəsində əməli işlər diqqət mərkəzində olmalıdır. Azərbaycanın böyük pedaqoq alimi, professor Əjdər Ağayevin fundamental tədqiqatlarından məlum olur ki, ailə tərbiyəsi, xüsusilə uşaqların vətəndaşlıq tərbiyəsi valideynlərin bu işə məqsədyönlü yanaşmasını, müəyyən pedaqoji prinsiplərə, metodlara əməl etmələrini, konkret iş formalarından istifadə etmələrini, onun təşkili yollarını bilmələrini tələb edir. Ailələrlə ilkin söhbətdə məlum oldu ki, valideynlərin müəllim, tərbiyəçi işlədiyi ailələrdə uşaqların vətəndaşlıq tərbiyəsində elmi-pedaqoji tələblərdən istifadə edilmir, onlara pedaqoji cəhətdən düşünülmüş rəhbərlik edilmir. Ona görə də uşaqlar vətəndaşlıq tərbiyəsi istiqamətində məqsədli hazırlıq keçirlər, ümumiyyətlə gör-götürlə böyüyürlər. Nəticədə müxtəlif təsirlərə düşə bilirlər və yaxud onlar üçün həyat idealı məchul qalır. həmin ailələrə təklif etdiyimiz iş sisteminin tətbiqindən sonra aparılan eksperimental öyrənmə-təcrübə işləri meydana çıxarmışdır ki, valideynlər də, uşaqlar da xeyli dərəcədə məqsədli fəaliyyətə yönəlmişlər. Beləliklə, müəyyənləşdirmişik ki, kiçik məktəb yaşlı uşaqların ailədə vətəndaşlıq tərbiyəsində konkret iş formalarından məqsədyönlü istifadə edilməsi daha səmərəli təsirə nail olmağa imkan verir. Bunlar aşağıda qeyd etdiklərimizdir:

1. Oyunlar. Kiçik məktəb yaşlı uşaqlarda oyunlara həvəs daha böyük olur. Əlbəttə, bu oyunlar birinci sinifdən başlayaraq sinifdən-sinifə keçdikcə məzmunu və formasını dəyişdirir. Valideynlər uşaqlarının oyun fəaliyyətinə (qonşu uşaqları ilə, öz bacı-qardaşları ilə, məktəbdə, ya idman bölmələrində) diqqətli olduqda, maraq göstərdikdə, onlar oyunlarda daha böyük şövqlə iştirak edirlər. Oyun həm də çevikliyi, ağlın itiliyini, zirəklik tələb edir. Eyni zamanda oyunçu ləyaqətli, sözünə, kəsilən şərtlərə əməl edən, şərəfsizlik göstərən oyunçulara qarşı barışmaz olmalıdır. Bütün bu cür oyun "qanunları" 6-10 yaşlı uşaqlarda ictimai həyat vərdişlərinin əsasını qoyur, onların vətəndaşlıq hazırlığıda xüsusi əhəmiyyət daşıyır.

2. Ailədə əmək işləri. Pedaqogikada belə bir məşhur kəlam vardır ki, əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, onu xoşbəxtlik üçün tərbiyə etməməli, bəlkə də əmək həyatına hazırlamalıdır. (1, s.65). Əgər uşaq kiçiklikdən ailənin əmək işlərinə qoşulursa, o, öz gərəkliliyini dərk edir, ailədə öz yerini görür, onda ailə üçün, evdə səliqə-səhman yaratmaq üçün ailə üzvü borcu hissi inkişaf edir. Ailədəki rahatlıqdan, ev-eşikdəki səliqəlikdən, təmizlikdən alınan zövqdə onun da payı olur və o, bundan iftixar hissi keçirir. Eyni zamanda, əgər uşaq öhdəsinə düşən işləri vaxtlı-vaxtında görməzsə, borcunu yerinə yetirməzsə, tənbeh olunur, cəzalandırılır. Beləliklə, o, ictimai münasibətlərdə, həyatda insana əməyinə görə verilən qiyməti başa düşür, bütün bunlar onun vətəndaşlıq hazırlığına təsir göstərir.

3. Ailə söhbətləri. Tədqiqatdan müəyyənləşdirmişik ki, kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsində ailə söhbətlərinin çox böyük təsiri vardır. Bu söhbətlərin özünü də bir

neçə qrupa ayırmaq olar: a) Bu və ya digər məlumatı, faktı çatdırmaq üçün kiçik məktəb yaşlı uşaqlarla edilən söhbətlər; b) ümumiyyətlə, ailədə hamının iştirakı ilə edilən söhbətlər; v) ancaq valideynlər arasında edilən söhbətlər.

Bütün bu söhbətlərdən uşaqlar müəyyən nəticə çıxarır, pis olanı yaramaz sayır, yaxşı olanları isə əxz etməyə çalışırlar. Hər söhbətdən damla-damla qidalanaraq vətəndaşlıq hazırlığı keçirlər.

Ailə üzvlərinin söhbətlərini eşidən kiçik məktəb yaşlı uşaq həm müəyyən məlumata yiyələnir, həm də baş verən hadisələr ətrafında düşünməli olur. Bütün baş verən hadisələrin önündə dayanan insanlar, onların hərəkətləri onları daha çox düşündürür. Uşaqların qəlbində pislərə nifrət, yaxşılara rəğbət hissi baş qaldırır, onlarda yaxşılara bənzəmək meyli yaranır. Bu isə vətəndaşlıq hazırlığının əsas elementi kimi ilkin özül rolunu oynayır.

4. Ailə ənənələri. Hər bir ailədə özünün ənənəsinin olması ən yaxşı cəhətdir. Məlumdur ki, ənənə bu və ya digər işlərin bir qayda olaraq qəbul edilməsi, həmişə, vaxtaşırı həyata keçirilmə normasına salınmasıdır. Tədqiqatdan müəyyənləşdirdik ki, özünün ənənəsi olan ailələr çoxdur. Və bu ənənələrin kiçik məktəb yaşlı uşaqların vətəndaşlıq tərbiyəsinə təsirini qüvvətləndirməkdə bizim təqdir etdiyimiz iş formaları və sisteminin xeyli müsbət əhəmiyyəti olmuşdur. Şagirdlərin vətəndaşlıq tərbiyəsinə daha güclü təsir göstərən ailə ənənələrinə ailədə bayramların və ailə bayramlarının keçirilməsini, ailə gəzintilərini, ailə səyahətlərini, ailədə oxu və müzakirələri və s. göstərmək olar.

a) Ailədə tarixi bayramların və ailə bayramlarının keçirilməsi. Tədqiqatdan müəyyənləşdirdik ki, Azərbaycan istiqlaliyyət qazandıqdan sonra müstəqil Azərbaycan dövləti sovet hökümətinin məcburi qeyd etdirdiyi bir çox bayram günlərini ləğv etdi, ikiliyi aradan qaldıraraq Milli Məclisdə xalqın da, dövlətin də birlikdə keçirməli olduqları bayramları və onların keçirilmə günlərini müəyyənləşdirdi. Məsələn: 18 oktyabr – Dövlət Müstəqilliyi günü; 12 noyabr – Konstitusiya günü; 31 dekabr – Dünya Azərbaycanlıların həmrəyliyi günü; 8 mart – Qadınlar günü; 20 yanvar – Şəhidlər günü; Novruz bayramı, Qurban bayramı, Ramazan bayramı və s..

Dostların, qohumların və tanışların gəlişi evə yaxşı əhvali-ruhiyyə, zarafat, ağıllı söz, sevinc gətirir. Bayramın mahiyyəti elə bu görüşlərdən alınan həzzdə, maraqlı söhbətlərin istilik, səmimilik gətirən məzmunda, sevincli, fərəhli anların yaradılmasındadır. Bayramların keçirilməsində yemək-içməyin təşkili mütləq deyil. Ola bilər ki, bayram şirin çay süfrəsi arxasında, milli bayram bişmişləri ilə keçirilsin.

Ailə bayramlarında uşaqlar daha çox sevinc hissi keçirirlər. Bəzi bayramlar bilavasitə uşaqlara aid edilir. Valideynlər elə etməlidirər ki, bu bayramların sahibləri uşaqlar olsunlar, onlar öz yaşıdlarını çağıra bilsinlər, müxtəlif oyunlar, viktorinalar təşkil etsinlər, diafilmlərə baxsınlar, bir şey fikirləşib, kəşf edə bilsinlər (2, s.20-21).

b) Ailə oxu və muzakirələri də uşaqların vətəndaşlıq tərbiyələrində səmərəli iş formalarından biridir. Tədqiqat nəticəsində müəyyənləşdirmişik ki, hazırda ailələrdə daha çox tarixə, milli qəhrəmanlığa, sərkərdələrin, dövlət xadimlərinin igidliklərinə aid kitablara maraq göstərilir. Bu faktın özü milli dirçəliş, vətəndaşlıq fəallığı üçün sosial-siyasi şəraitin yarandığını göstərir. Belə bir faktorun olması vətəndaşlıq tərbiyəsində formallığı aradan qaldırır. Məlumdur ki, Azərbaycanın digər dövlətin tərkibində olması, milli hüquqsuzluğu nəticəsində Azərbaycan xalqı milli vətəndaşlıq oyanışından məhrum edilmişdi. Xüsusilə Azərbaycan tarixinin öyrənilməsinə şərait yaradılmır, yaxud da tarixi faktlar təhrif edilirdi. Bu siyasəti hələ əsrimizin əvvəlində dərk edən M.Ə.Rəsulzadə yazırdı ki, bir millətin öz tarixini bilməsi qədər qüvvətli bir ittihad və təməddün amili təsəvvür oluna bilməz. Tarixi öyrənmək və millət arasında tarix dərslərini inkişaf etdirmək ittihad və ittifaqın zəruri şərtlərindəndir.

O həm də qeyd edirdi ki, millətin birləşməsi və saxlanmasında mühüm amillərdən biri də adət-ənənələridir (3).

Məktəbə sənəd hazırlanmasında valideynlə birlikdə iştirak edən uşaqlar qarşılaşdıqları problemin həllində bilavasitə olduğu üçün onu qəlbən duyur və dərk edir. Doğum şəhadətnaməsini tanımaqla, onun əhəmiyyətini başa düşməklə ilkin vətəndaşlıq hissi keçirir, onda eyni zamanda dövlət sənədlərinə qayğılı münasibət duyğusu formalaşmağa başlayır.

Uşaq üçüncü, dördüncü siniflərdə olarkən ona Azərbaycan Respublikasının Konstitusiyasını oxutmaq, bütün iş və hərəkətlərin, fəaliyyətin bu hüquqi sənəddə göstərilən Qanunlar əsasında tənzim olunduğunu anlaşılan formada izah etmək lazımdır. Tədricən həyata keçirilən bu işlər uşaqlarda düzlük, doğruçuluq, obyektivlik, qanunlara əməl etmək borcu hissini formalaşdırır, onların ləyaqətli şəxsiyyət kimi yetişmələrinə təsir göstərir. Deməli, cəmiyyətin özünə xas olan normaları olduğunu, bu normalara riayət edilməsi vacibliyini də hələ dərk etmirlər. Təbii ki, onlar belə olduqda rast gəldikləri digər məktəb sənədlərinə də (sinif jurnalına, şagird gündəliyinə, davranış qaydalarına və s.) adi kağız kimi baxırlar, istəyəndə onlarla kobud rəftar edirlər. O biriləri isə onları sənəd kimi qiymətləndirir, əhəmiyyətini vətəndaşlıq mövqeyindən başa düşürlər.

Ədəbiyyat

1. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. B., 2003.
2. Ailə tərbiyəsi. Valideynlər üçün lüğət. B., 2010.
3. R.İ.Əliyev. Mentalitet. B.,Təhsil, 2016

И.Дж.Джалилова

Формы организация воспитательная работа учащихся

Резюме

В статье исследуются возможности воспитания гражданства у детей младшего возраста, выясняются пути реализации этих возможностей. Устанавливается, что посредством игр, семейных трудов, семейных бесед можно прививать воспитание гражданства у детей младшего возраста. Статья значима в работе педагогов-исследователей и учителей практиков.

I.J.Jalilova

On the formation of work for citizenship education

Summary

The article investigates the possibility of citizenship education for young children, it turns out the realization of these opportunities. It is stated that through the games, family papers, family conversations can instill citizenship education for young children. The article is significant in the work of teachers, researchers and teacher practitioners.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 24.10.2020

N.M.ƏBDÜLRƏHİMOVA
e-mail: nushaba.azizova@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

XARİCİ DİLLƏRİN TƏDRİSİ ZAMANI TƏLƏBƏLƏRİN DİSKURSİV BACARIQLARININ İNKİŞAFINDA ÜÇ KOMPONENTİN ROLU

***Açar sözlər**: diskurs, pedaqoji diskurs, diskursiv bacarıqlar, ünsiyyət bacarığı, mətn, ünsiyyət.*
***Ключевые слова**: дискурс, учебный дискурс, дискурсивные умения, коммуникативные умения, текст, общение.*
***Key words**: discourse, pedagogical discourse, discursive skills, communication skills, text, communication.*

"Diskurs" termini müasir metodikada aktual mövzulardan olaraq müxtəlif prizmalardan maraq doğurur. Ünsiyyət zamanı meydana çıxan mətnlər həm linqvistik, həm kommunikativ, həm də praqmatik baxımdan spesefik təhlillər tələb edir. Mətn dilçiliyi ilə bağlı olan diskurs geniş və özünəməxsus cəhətləri ilə bir çox yerli və xarici alimlərin diqqətini çəkmişdir. Diskurs ilk dəfə E. Benvenist, Z. Xarris və M. Fuko kimi dilçilərin elmi araşdırmalarında qeyd olunaraq bəzən yalnız şifahi , bəzənsə həm də yazılı nitq aktı kimi təhlil olunur. Konkret anlamda diskurs bir-biri ilə məntiqi əlaqədə olan cümlələr əsasında formalaşmış mətni bildirir. "Diskursiv bacarıqlar" dedikdə ünsiyyət məqsədi ilə müxtəlif ifadələri anlamaq və məntiqi ardıcılllığa malik mətn qurmaq bacarığı başa düşülür [7, s.36]

Xarici dillərin tədrisində kommunikativ sərişənin formalaşdırılması əsas istiqamət olaraq özündə bir neçə komponentlərin inkişaf etdirilməsini nəzərdə tutur. Bu baxımdan, tələbələrdə diskursiv bacarıq və vərdişlərin formalaşdırılaraq inkişaf etdirilməsi özünəməxsus əhəmiyyət daşıyır.

Diskursiv bacarıqların quruluşunda üç komponent ayırd edilə bilər. Bu komponentlər tələbələrin diskursiv bacarıqlarına birbaşa təsir edərək kommunikativ istiqamətdə inkişaf etmələrinə səbəb olur. Beləliklə, tələbələrin diskursiv bacarıqlarının inkişafında rol oynayan üç komponent aşağıdakılardır:

Birinci komponent mətn daxilində həyata keçirilən müxtəlif transformasiyaları və ya çevrilmələri nəzərdə tutur. Məsələn, dərs prosesində tələb olunan əsas əməliyyatlardan biri yazılı mətnin şifahi formada interpretasiya olunmasıdır. Bu əməliyyat həyata keçirərkən təkrarlara, cümlənin yenidən qurulmasına, mətn vahidlərinin qısaldılmasına, yaxud genişləndirilməsinə və s. kimi nitq aktlarına müraciət oluna bilər. Birinci komponent olduqca mürəkkəb zehni-nitq prosesi olaraq, xüsusi ritorik bilik və bacarıqlar tələb edir. Bu isə öz növbəsində oxunaraq nəql olunan mətnin tələbələrin öz kreativliklərinə uyğun olaraq dəyişikliklərə uğramasına kömək edə bilər. Tələbələr bu komponentin sayəsində cümlələri üslubi, leksik baxımdan dəyişə, fikirlıərini daha geniş və ya daha konkret şəkildə ifadə etməyi öyrənə bilərlər.

İkinci komponent kommunikativ koordinasiya komponentidir. Bu komponent dialoq zamanı ünsiyyətdə olan tərəflərin qarşılıqlı fəaliyyətini və nitq aktının diskursiv cəhətdən tutarlılığını nəzərdə tutur [7, s. 138]. Bu baxımdan qeyd etmək olar ki, müəllim hər zaman dəyişən ünsiyyət şəraitində məzmunu müəyyənləşdirərək ona uyğun olan tədris diskursunun məqsədini xatırlamalıdır. Ünsiyyət vəziyyətindəki oriyentasiya yalnız ümumi bir ünsiyyət strategiyasının mövcudluğu deyil, həm də uyğun nitq fəaliyyətinin seçilməsi və implementasiyası deməkdir. Bu komponentin əsasında, nitq aktının seçilməsi dayanır və bu zaman tələbələrdən real vəziyyətin qiymətləndirilməsi, keçmiş təcrübədən istifadə olunması, həll olunan problemin dərk olunması və s. kimi strategiyalar tələb olunur.

Üçüncü komponent tezaurus aktuallaşdırma komponentidir. Bu komponent isə diskursiv təcrübələrin idraki əsaslarını, yəni sosial-mədəni və fərdi-mədəni səviyyələrini təşkil edən ensiklopedik və fərdi bilikləri əhatə edir [6, s. 8-9]. Bununla tələbələr fərdi və ensiklopedik biliklərinə əsasən diskursun sosial mədəni istiqamətdə düzgün təşkil olunmasına nail ola bilərlər.

Diskursiv bacarıqları əsaslandıran üç komponent bir-birini tamamlayaraq qarşılıqlı təsirə malik olur və hər üç komponentin müəllim tərəfindən nəzərə alınması tələbələrin kommunikativ səriştələrinin inkişaf etməsinə xidmət edir.

Qeyd etdiyimiz kimi diskurs kommunikativ proses zamanı yaranır və ünsiyyətin məhsulu olaraq meydana çıxır. Kommunikasiya prosesinin üç fazadan ibarət olduğunu nəzərə alaraq müəllimin nitq fəaliyyətini aşağıdakı mərhələlərdən ibarət olaraq təhlil edə bilərik: ünsiyyətdən əvvəl, ünsiyyət və post-kommunikativ. Bu mərhələr bir çox müəlliflər tərəfindən araşdırılmış və konkret xüsusiyyətlər müəyyən olunmuşdur. Əldə olunmuş nəticələri ümumiləşdirərək aşağıdakı mərhələləri qeyd edə bilərik bilərik.

1) Ünsiyyətöncəsi mərhələ kommunikasiyaya hazırlıq mərhələsidir. Bu zaman dərsin xülasəsi yaradılır (məqsəd və hədəflər müəyyənləşdirilir, strateji analiz aparılır, lazımi mətn materialını seçilir və s.). Ünsiyyətöncəsi mərhələdə bir sıra bacarıqlar özünü göstərir. Bunlar arasında xüsusi bir yer mətn qurma və mətnlə işləmək bacarıqlarıdır (mətnin əsas ideyasını, güclü mövqelərini müəyyənləşdirmək; mətnin qurulmasında linqvistik və kommunikativ bacarıq və vərdişləri müəyyənləşdirmək; mətnin yaradılmasını təmin edən fiziki və emosional məlumatları və digər bacarıqları müəyyənləşdirmək və s.) [3, s. 1].

2) Ünsiyyət mərhələsi kommunikasiyanın reallaşması mərhələsidir. Bu mərhələdə hazırlanmış, planlaşdırılmış mətn nitq aktında həyata keçirilir. Beləliklə, ünsiyyətdə interaktiv proses yaranır və mətnin "açılması", yəni planlaşdırılmış mətndaxili söz və cümlələrin implementasiyası (qısaltmaq, genişləndirmək, yenidən qurmaq, mətnin əsas elementlərini təkrarlamaq və s.) reallaşır. Hazırlanmış ünsiyyətöncəsi strategiyalar spontan hazırlıqsız ifadələrin yaradılması ilə də davam edə bilər (aydınlaşdırmaq, dəqiqləşdirmək, təsdiqləmək, təqzib etmək və s.

3) Kommunikasiyadan sonrakı və ya "postkommunikativ" mərhələdə nitq hərəkətlərinin təhlili nəzərdə tutulur. Analizlər aparılır, ünsiyyət zamanı meydana çıxan mətndə ifadə olunmuş söz və cümlələr incələnir, müsbət və mənfi cəhətlər müəyyənləşdirilir.

Xarici dilərin tədrisi zamanı yuxarıda qeyd etdiyimiz komponentlərin nəzərə alınması tələbələrin kommunikativ bacarıqlarının inkişaf etməsinə birbaşa təsir edir. Bu təsiri nəzərə alaraq aşağıdakı nəticələrə gəlmək olar:

- Diskursiv bacarıqlar mətn yaratmaq bacarığından ünsiyyət şəraitində mətni reallaşdırmaq bacarığına qədər vacib bir prosesi və ya əlaqəni əks etdirir. Bu zaman yaranmış mətnin janr və üslubi xüsusiyyətləri tələbələrin diskursiv bacarıqlarının inkişafı üçün müsbət zəmin yaradır;

- Ünsiyyət bacarıqlarının bir komponenti olan diskursiv bacarıqlar mətn qurma bacarıqları ilə əlaqələndirilsə də eynilik təşkil etmir. Bu fərq diskursun mətnə nisbətən daha geniş ekstralinqvistik xüsusiyyətləri ilə bağlıdır. Aşağı kurslarda mətn yaratma bacarıqları qənaətbəxş sayılırsa, yuxarı kurs tələbələri üçün diskursiv bacarıq və vərdişlərin inkişaf etdirilməsi mətn qurma bacarıqlarından daha vacib hesab olunur;

- Diskursiv bacarıqlara mətn qurma qaydaları, mətnin başlanması və davam etdirilməsi strategiyaları, mətn dizaynı, mətn analizinin əsasları və s. haqqında linqvistik biliklər aiddir. Daha dəqiq desək, diskursiv bacarıqlara həm linqvistik, həm də nitq bacarıq və vərdişlərinin əlaqəli şəkildə reallaşması aiddir. Nitq bacarıqları dedikdə nitqin yaranma və qavranılması mexanizmlərindən, kommunikativ normalar və qaydalardan, ritorik təhlillərdən düzgün istifadə etmək və s. başa düşülür .

Yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək deyə bilərik ki, tələbələrin diskursiv bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üçün ən əsas yollar aşağıdakılardır:

- planlaşdırılmış bir ifadənin məzmununu müəyyənləşdirmək bacarığı (qısaltmaq, genişləndirmək, yenidən qurmaq və s.);

- spontan hazırlıqsız ifadələr yaratmaq bacarığı (doğaçlama);
- diskursiv praktikada ortaya çıxan problemləri həll edərkən tezaurus aparatını birləşdirmək bacarığı (aydınlaşdırmaq, izah etmək, təsdiqləmək, təkzib etmək, mübahisə etmək və s.) və s.

Beləliklə, bir daha qeyd etməliyik ki, xarici dillərin tədrisi zamanı kommunikativ məqsədə nail olunması üçün diskursun təşkilinə aid olan üç komponent nəzərə alınmalıdır. Bu o deməkdir ki, xarici dillərin tədrisi zamanı diskursiv komponentlər və onların mərhələli şəkildə təşkil olunması müsbət nəticələr verə bilər.

Ədəbiyyat

1. Məmmədov A.Y. "Mətn və diskurs tədqiqatları" (Studies in Text and ... Azad Məmmədov, Bakı 2008.
2. Bespalova, S. V. Dilçilik və tədris praktikasında diskurs (Alman dili) [Mətn] / S.V.Bespalova. - Saransk: yazın. Qırmızı oktyabr, 2003. - 115 s.
3. Ladyzhenskaya, TA, Ladyzhenskaya, NV Tek - Yaroslavl Pedaqoji Bülleteni - 2012 - № 3 - Cild II (Psixoloji və Pedaqoji Elmlər) 2005. - № 5. S. 1-6.
4. Leontyev, A. A. Psixolinqvistikanın əsasları [Mətn] / A. A. Leontiev. - M .: Smysl, 2008. - 287 s.
5. Lukov, V. A. Thesauri. İnsani biliklərin mövzu təşkili [Mətn] / M .: Ulusun nəşriyyatı, 2008 . - 782 s.
6. Sinitsyna, Yu. N. Danışıq təcrübələrinin şərh potensialı: rus və ingilis dillərinin materialı haqqında [Mətn]: dis. ... Cand. Phil. Elmlər: 10.02.19 / Sinitsyna Yuliya Nikolaevna. - Krasnodar, 2008. - 187 s.
7. Suvorova, SL Gələcək müəllimlərin kommunikativ-diskursiv mədəniyyətinin formalaşması: metodoloji, nəzəri-pedaqoji və texnoloji aspektlər [Mətn] / S. L. Suvorova. - Shadrinsk: Shadrinsky Press House, 2008. - 225 s.

N.M.Абдулрагимова

Роль трех компонентов в развитии дикурсивных способностей учащихся при обучении иностранному языку

Резюме

В статье представлено трехкомпонентное описание структуры дискурсивных навыков учащихся как возможной модели. Исследование касается влияния трех компонентов дискурса на коммуникативную компетентность студентов. Каждый компонент имеет определенные функции, которые отображают уникальное коммуникационное направление. Кроме того, три компонента влияют на три стадии дискурса, которые также были проанализированы в этой статье. Проходя упомянутые этапы и придерживаясь трех компонентов, студенты получают несколько дискурсивных навыков и способностей.

N.M.Abdulrahimova

The role of three components in developing students' dicursive abilities during foreign language teaching

Summary

The article presents a three-component description of the structure of students' discursive skills as a possible model. The investigation deals with the effects of three discourse components on students' communicative competence. Each component has specific features which view unique communicative direction. Furthermore three components influence on three stages of discourse that have been also analyzed in this article. Going through mentioned stages and adhering to three components students obtain several discursive skills and abilities.

Rəyçi: prof. D.Ə.İsmayılova

Redaksiyaya daxil olub: 01.12.2020

G.İ.ƏLƏKBƏROVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

MİLLİ XÜSUSİYYƏTLƏR VƏ İNTEQRASİYA

Açar sözlər: *sosial tərbiyə, sosial psixologiyası, ailə tərbiyəsi, şagird şəxsiyyəti, inteqrasiya.*
Ключевые слова: *социальное воспитание, социальное психология, семейное воспитание, личность учащихся, интеграция.*
Key words: *national education, psychology of national, family education, the identity of students, inteqration*

Müasir dövrdə müstəqil və suveren dövlətimizin qarşısında duran mühüm dövləti məsələlərdən biri də Azərbaycan dövlətinin siyasi qüdrətini daha da möhkəmlətməkdir. Bu qlobal və həyati problem çoxsaylı etnik qrup və millətlər arasında düzgün, nəzəri cəhətdən əsaslandırılmış vahid milli ideoloji siyasət yeridilməsini tələb edir. Respubilkamızda milli ideoloji məsələlərlə bağlı meydana çıxan pedaqoji problemləri vaxtında görmək, onların azərbaycanlıların sosial-psixoloji xüsusiyyətləri və başlıca keyfiyyətlərinə əsaslanan milli tərbiyə konsepsiyası baxımından tərbiyə etmək, vətəndaş tərbiyəsi prinsiplərindən irəli gələn məsələlərə düzgün yanaşmaq və uğurla həll etmək milli siyasətimizin başlıca istiqamətlərini təşkil edir.

Şəxsiyyətin müvəffəqiyyəti evində, nəsil arasında, kənarda insanlarla yaratdığı sədaqətli dostluq münasibəti ilə ölçülür. Bir nəfərin üzaq bir yerdən tutduğu dost ailəvi dostluğa çevrilir. Əgər el-oba həmin qonağı bəyənsə o, bütün kəndin dostuna çevrilir. Həmin kənddən olan hər bir kəs eyni zamanda həmin dostun ən hörmətli qonağı ola bilər.

A. Dumanın vaxtilə azərbaycanlılarda göstərdiyi bir cəhət Seula Benetin də diqqətindən yayınmır. Bu da sözübütövluk, söz verdin əməl etməlisən prinsipinə sadiqlikdir. S. Benet yazır: "Azərbaycanlılarda söz vermək, zamin olmaq, şifahi razılıq ciddi məsələdir. Söz verdin gərək yerinə yetirəsən. Dilindən kağız verməyə, onu sənədləşdirməyə, imzalamağa ehtiyac yoxdur".

Bir çox xarici səyyah və alimlərin də nəzərindən qaçmayan belə bir keyfiyyət var: bəzən azərbaycanlı valideynlər uşağa qarşı soyuq, laqeyddir. İctimaiyyət içərisində, kənar adam yanında valideynin uşağı qucağına götürməməsi, əzizləməməsi soyuqluq kimi başa düşülür. Qəbul etməliyik ki, bu doğrudan da belədir. Bizdə övladını açıq-saçıq əzizləmək, nəvaziş göstərmək qəbahət sayılır. Lakin bu heç də uşağa laqeyidlik deyil. Elə həmin adamlar, başqalarının uşaqlarını əzizləyir, nəvaziş göstərir.

Seula Benetin diqqətini cəlb edən cəhətlərdən biri də azərbaycanlılarda ataya-ailə başçısına hörmət və ehtiramın vacib sayılması ilə bağlıdır(3). Övladlar atanın hüzurunda hörmətlə dayanır, ona ehtiram göstərirlər.

Övlad hansı vəzifədə çalışsa da, özü ailə başçısı olsa da, ata qarşısında papiros çəkmir, öz uşağını əzizləmir. Belə münasibət qardaşlar arasında da davam edir. Kiçik qardaş özündən böyük qarşısında hörmətlə dayanır, ona ehtiram göstəri.

Burada hörmət, ehtiram məsuliyyətlə, cavabdehliklə vəhdətdə olur. Neçə onilliklərdir ki, qapalı mühitdə yaşayan, neçə yüzilliklərdir ki, kənar təsir və təzyiqlərə məruz qalan Azərbaycan xalqı həm ictimai-siyasi vəziyyətlə bağlı, həm də özünün özünə qarşı laqeydliyindən irəli gələn səbəblərdən özü haqqında az şey bilir. Ona görə də xalqqımız haqqında əcnəbilərin söylədikləri, bizi necə qavradıqları, eyni zamanda, özümüzü tanımaqda, pis və yaxşı cəhətlərimizi özümüzün görməyimizdə bu fikirlər kömək edir. Axı, bir planetdə yaşayıb, başqa xalqlardan təcrid olunub yaşamaq qeyri-mümkündür.

Son illərdə bu buz yavaş-yavaş sınır. Biz özümüz də başqa yerlərdə, başqa ölkələrdə özümüz haqqında müəyyən rəy yaratmağa çalışırıq. Yenidən dünya ictimaiyyətinin nəzərdiqqəti Azərbaycana yönəlib. Azərbaycan xalqı da özünə yenidən nəzər salmağa, özünün imkanlarını saf-çürük etməyə başlayıb(3).

Hər bir xalqın özünü hifz etməsi, bir xalq kimi yaşaması adət-ənənələri qorumasından çox asılıdır. Təcavüzə məruz qalan, müstəqilliyini itirən xalqı yalnız kökünə, özünə bağlılıq xilas edə bilər. Adət-ənənəni qoruya bilmək, xalqı məhv olmaqdan qorumaq deməkdir.

Gözəl adət-ənənələrimizdən biri də, babaların dili ilə desək, "Zəifə mərhəmət göstər, yoxsula əl tut",. "Döyüşdə ölsən əzab çəkərəm, döyüşdən qaçsan mən şərəfsiz olaram" məsəlidir. Namusu şərəfi uca tutardı bu xalq. Şərəfli iş üstə qaçaq düşəni el qoruyardı. Belə bir iş üstə qaçaq düşən kəs hansı kəndə pənah aparsa, o şəxs bütün kəndin qonağı hesab edilərdi. Əgər onun başına bir iş gəlsəydi, bütün kənd rüsvay olardı. Azərbaycanlılarda ata-ana tərifi, ən yaxın dostun tərifindən uca tutulur.

Vaxtilə azərbaycanlılar var-dövlətə laqeyid, dünya malına aludə olmamaları ilə başqa xalqlardan fərqlənərmiş. Onlar üçün başlıca şey ləyaqət və şərəf imiş. Kişi yaxşı atı və silahı ilə fəxr edərmiş.

Prof. R.İ. Əliyevin belə bir mükəmməl ümumiləşdirməsi ilə hamı razı olmalıdır ki, "beynin potensial imkanlarına görə azərbaycanlılar dünyadakı bütün xalqlar içərisində öncüllərdəndir. Azərbaycanın indiki təhsili, elmi, mədəni, texniki imkanları onun sivilizasiyalı ölkələrdən biri olmasına imkan yaradır"(4).

Lakin, onun qeyd etdiyi kimi, "elə xasiyyətlərimiz də var ki, bizi məhvə doğru sürükləyir. Onlardan birincisi unutqanlıq, ikincisi biganəlikdir". Əlbəttə kafirə bel bağlamaq olmaz, həyat da bunu sübut edir.

Milli xüsusiyyətlər, keyfiyyətlər, milli şüur, milli xarakter ötəri olmayıb, uzun bir tarixin, çoxəsrlik zamanın məhsuludur. O, insanın qanına hopur, yaddaşına həkk olunur, silinmir. Hətta, belə demək mümkünsə, instinkt halı daşıyır. Milli həmrəylik, vətənpərvərlik, el-oba qeyrəti azərbaycan xalqının, millətinin canındadır, qanındadır, ruhundadır.

İmdad diləmək, başqalarına üz tutmaq, fəaliyyətsizlik də var bu psixologiyada. Başqalarının, onun əvəzindən, özünün edəsi olduğunu kiminsə görəsi təmənnası, yalvarışı da var. Azərbaycan xalq pedaqogikasında qeyd edildiyi kimi, qədim türklərdə də belə keyfiyyətlər olmayıb. Doğrudur onların da müəyyən qüsuru olub, unutqanlıq, ruhdan düşmək, həlledici anda sayıqlığı itirmək və s. Şübhəsiz ki, bu keyfiyyətlər türk xarakteri ilə mühit arasındakı ziddiyyətdən yaranıb.

Məlumdur ki, indi sərhədlər açılıb, dünyaya inteqrasiya imkanı yaranıb, qloballaşma prosesinə qoşulmuşuq. Bu prosesə insanlarımız ikili yanaşırlar. Bəziləri bunu alqışlayır, nəhayət ki, bizim də avropalılar kimi yaşayacağımızı gözləyirlər. Digərləri də haqlı olaraq deyirlər: "Qoy avropalılar gəlib vətəni sevməyi, onu qorumağı və döyüşməyi bizdən öyrənsinlər". Hər iki mövqeyə hörmət və ehtiramla yanaşılmalıdır. Hər iki fikir alqışlanılmalıdır.

Əvvəla, onu deyək ki, qloballaşma, inteqrasiya qaçılmaz, qarşısıalınmaz bir prosesdir. Ondan qaçmaq demək olar ki, mümkün deyil. Onun qarşısını almaq heç bir xalqın, heç bir dövlətin imkanı daxilində deyil. Lakin öz milli dəyərlərini, milli mənəviyyatını qorumaq şərtilə. İndi dövlətlər və xalqlar arasıda əlaqə və münasibətlər elə bir həddə çatıb ki, bunsuz mümkün deyil. Deməli, əlaqə və münasibət qurulan xalqların milli xüsusiyyətlərini öyrənmək zəruridir. Axı, onları bilmədən onlarla münasibət qurmaq, həm də uğur qazanmaq qeyri-mümkündür. İnteqrasiyadan, qloballaşmadan qaçmaq özünütəcridə, "özünüintihara" bərabərdir. Milli dəyərlərini, milli mədəniyyətini qoruya bilməmək də eyni dərəcədə təhlükəlidir.

Qərbə inteqrasiyada hansı sosial tələblər olunur? Ilk növbədə təhsil Avropa standartlarına uyğunlaşdırılmalı və tədricən Avropa dəyərlərinə, normalarına uyğun gələn təhsil sistemi yaradılmalıdır. Paralel olaraq bu dəyişiklikləri təmin edən hüquqi mexanizm işlənməlidir. Sosial sistem bütövlükdə yeni sistemin tələblərinə uyğun qurulmalıdır. Vacib məsələlərdən biri də bütün sahələrdə islahatların eyni vaxtda, kompleks şəkildə həyata keçirilməsi ilə bağlıdır. Bunlardan birinin həyata keçirilib, digərinin sonraya saxlanılması o deməkdir ki, təhsil sistemi işləməyəcək. Bununla yanaşı, sitemin necəliyi onun pedaqoji ictimaiyyət tərəfindən necə dərk olunması ilə əlaqədardır.

Ədəbiyyat

1. Əliyev H.Ə. Qətiyyətin təntənəsi (sənədli xronika). Bakı, 1995.
2. Kazımov N.M. Tərbiyənin elmi-pedaqoji əsasları. Bakı, Maarif, 2003.
3. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasında milli xüsusiyyətlərin nəzərə alınması. Bakı, Maarif, 2005.
4. Əliyev R.İ. Mentalitet. Bakı, Nurlan, 2012.

Г.И.Алекберова

Национальный характер и интеграция

Резюме

В статье исследованы семьи, столкнувшиеся с различными демографическими проблемами республики (смерть одного или обоих родителей, развод, жизнь отдельно от родителей, беженство, принудительное переселение, изменение место жительства из-за социальных проблем и др.). Также исследованы потребности самореализации и самоутверждения у детей из таких семей и выявлены современные требования к педагогической работе в направлении улучшения образования и воспитания школьников из подобных семей.

G.I.Alakbarova

National features and to integration

Summury

In article have been researched the problems in the area some main features of demographical problems in our republic such as children with parents kinds. Also were investigated the ways of pedagogical works in the field of experience and education of pupils about problems of family, main directions of using this process.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 24.10.2020

A.R.ƏLİYEVA
e-mail: aytan.safarava@ yahoo.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

DƏRSDƏNKƏNAR SOSİAL PEDAQOJİ İŞİN TƏŞKİLİ

Açar sözlər: *sosial tərbiyə, ailə tərbiyəsi, ata nüfuzu, tərbiyə sistemi, uşaq psixologiyası*
Ключевые слова: *социальное воспитание, семейное воспитание, влияние отца, система воспитания, детская психология.*
Key words: *national education, family education, penetration of father, educational system, psychology of a child.*

Təhsil bütün dövrlərdə cəmiyyətin kompleks inkişafına təsir göstərə bilən qüvvə olmuşdur. Bəşəriyyət elmi-texniki tərəqqinin, texnoloji sıçrayışların çağdaş səviyyəsinə, ictimai şüurun inkişaf dinamikasına görə təhsilə borcludur. Bəşəriyyət həmçinin sosial ziddiyyət və konfliktlərin bir çoxunun yüz illər boyu aradan qaldırılmasına görə məhz təhsilə borclu olduğunu təsdiqləyir. Təhsil zəncirinin mühüm həlqəsi olan məktəb bu gün də çox məsuliyyətli vəzifələrin həllində aparıcı müəssisələrdən sayılır.

Məktəbdə uşaq kollektivinin əsas tipi şagird kollektivi hesab olunur. Sosialogiyada və sosial psixologiyada bərqərar olmuş təsnifatlara görə, sinif-şagird kollektivi kiçik qrupdur. Kiçik qruplar üçün səciyyəvi olan invariant xüsusiyyətlər ona da xasdır. Lakin sinif şagird kollektivi özünəməxsus xüsusiyyətlərlə kiçik qrupun başqa növlərindən seçilir.

Məktəbdə insan münasibətlərinin sosial-psixoloji imkanı var. Pedaqogika uzun müddət bu məkanın emosional-psixoloji xüsusiyyətlərini sistemli nəzərə almayıb, ən yeni tədqiqatlar göstərir ki, sosial pedaqogikanın bir çox aktual problemlərinin kökünü elə həmin məkanda axtarmaq lazımdır. Bu sosial psixoloji məkanın ana xətti müəllim-şagird və şagird-şagird münasibətləri ilə bağlıdır. Bir şəxsiyyət kimi müəllim də, şagird də bu münasibətlərdə mövcuddur. Onların mürəkkəbliyi, eyni zamanda ziddiyyətli olması müəllim və şagirdin psixoloji siması ilə şərtlənir. Müəllim həmin münasibətlərdə təkcə peşəkar mütəxəssis kimi deyil, həm də müəyyən həyat təcrübəsi olan insan kimi iştirak edir. Sosial-pedaqoji işin uğurlu aparılması üçün sinif kollektivində mövcud münasibətlər sisteminə bələd olmaq çox vacib şərtdir.

Sinif kollektivində qarşılıqlı münasibətlərin iki qatı formalaşır. Birinci qat formal(və ya rəsmi) münasibətləri əhatə edir. Müəllim də, şagird də konvensial roldur. Müəllim-şagird münasibətlərindən tutmuş şagird-şagird, sinif nümayəndəsi-şagird və s. münasibətlərinə qədər onların hamısı formal münasibətlərdir.

Formal münasibətlərlə yanaşı şagird kollektivində sosial-psixoloji qanunlarla qeyri-formal(və ya qeyri-rəsmi) münasibətlər əmələ gəlir. İki qızın və iki oğlanın bir-birilə dostluğu qeyri-formal münasibətlərə misal ola bilər. Bu qeyri-formal əlamətlər əsasında sinif kollektivi daxilində 2-3, 3-4, bəzən 4-5 nəfərlik mikroqruplar əmələ gəlir və sinif kollektivinin həyatında mühüm rol oynamağa başlayır.

Çox vaxt eyni bir şagirdin formal və qeyri-formal münasibətlərdə mövqeyi eyni olmur. Məsələn, A. formal münasibətlərdə geridə qalan şagird sayılır, halbuki qeyri-formal münasibətlərdə özünün nüfuzu ilə seçilir və yaxud B. formal münasibətlərdə əlaçı kimi xüsusi yer tutur. Halbuki qeyri-formal münasibətlərdə sinfin adi şagirdlərindən biridir. Müəllim sinif kollektivində şəxsiyyətlərarası münasibətləri tənzim edərkən kiçik yaşlı məktəblilərin məhz formal və qeyri-formal münasibətlərdə mövqeyini zəruri sürətdə nəzərə alınmalıdır. Kiçik yaşlı məktəblilərdə həyat yollarında qarşılaşdığı bir çox çətinlikləri dəf etməyə imkan verən daxili qüvvələrin, qabiliyyət və bacarıqların inkişaf etdirilməsində, sosial mühitdə müəyyən situasi-

yalarda adaptasiya olunmağa kömək edən mənəvi məsuliyyət və xarakterin formalaşdırılmasında, özünüreallaşdırmanın həyata keçirilməsi üçün şəxsiyyət və peşə səviyyəsinin təmin olunmasında, özünüinkişaf və mənəvi potensialın açılmasında lazımi şəraitin yaradılması üçün təlimin imkanları əhatəli səciyyə daşıyır.

Tədqiqat zamanı biz təlim prosesində kiçik yaşlı məktəblilərin sosiallaşmasına təsir göstərən amilləri aşağıdakı şəkildə müəyyənləşdirmişik;

- təhsilin məzmunu. Bu məzmun müasir aktual olmaqla biliklərin fasiləsiz artmasına uyğun olaraq daim yeniləşməlidir;

- təlimin metodları. Bu metodlar çevik və dinamik olmalı, şagirdə yönəlməli, hafizədən daha çox yaradıcı təfəkkürə istiqamətlənməli, interaktiv olmalıdır;

- təlimin istifadə olunan təşkili formaları. Bu formalar tədrisin qarşısına qoyulmuş məqsədlərə uyğun olaraq düzgün seçilməlidir;

-təlim prosesi iştirakçıları arasında qarşılıqlı münasibətlər. Bu münasibətlər elə qurulmalıdır ki, kiçik yaşlı məktəblilərin yaradıcı qüvvələrinin reallaşmasına təkan versin, onun şəxsiyyət keyfiyyətlərinin sosial məzmunda inkişafın stimul yaratsın.

Sinif kollektivində qarşılıqlı münasibətlərin iki qatı formalaşır. Birinci qat formal (və ya rəsmi) münasibətləri əhatə edir. Müəllim də, şagird də konvensial roldur. Müəllim-şagird münasibətlərindən tutmuş şagird-şagird, sinif nümayəndəsi-şagird və s. münasibətlərinə qədər onların hamısı formal münasibətlərdir.

Formal münasibətlərlə yanaşı şagird kollektivində sosial-psixoloji qanunlarla qeyri-formal (və ya qeyri-rəsmi) münasibətlər əmələ gəlir. İki qızın və iki oğlanın bir-birilə dostluğu qeyri-formal münasibətlərə misal ola bilər. Bu qeyri-formal əlamətlər əsasında sinif kollektivi daxilində 2-3, 3-4, bəzən 4-5 nəfərlik mikroqruplar əmələ gəlir və sinif kollektivinin həyatında mühüm rol oynamağa başlayır.

Çox vaxt eyni bir şagirdin formal və qeyri-formal münasibətlərdə mövqeyi eyni olmur. Məsələn, A. formal münasibətlərdə geridə qalan şagird sayılır, halbuki qeyri-formal münasibətlərdə özünün nüfuzu ilə seçilir və yaxud B. formal münasibətlərdə əlaçı kimi xüsusi yer tutur. Halbuki qeyri-formal münasibətlərdə sinfin adi şagirdlərindən biridir. Müəllim sinif kollektivində şəxsiyyətlərarası münasibətləri tənzim edərkən kiçik yaşlı məktəblilərin məhz formal və qeyri-formal münasibətlərdə mövqeyini zəruri sürətdə nəzərə alınmalıdır. Kiçik yaşlı məktəblilərdə həyat yollarında qarşılaşdığı bir çox çətinlikləri dəf etməyə imkan verən daxili qüvvələrin, qabiliyyət və bacarıqların inkişaf etdirilməsində, sosial mühitdə müəyyən situasiyalarda adaptasiya olunmağa kömək edən mənəvi məsuliyyət və xarakterin formalaşdırılmasında, özünüreallaşdırmanın həyata keçirilməsi üçün şəxsiyyət və peşə səviyyəsinin təmin olunmasında, özünüinkişaf və mənəvi potensialın açılmasında lazımi şəraitin yaradılması üçün təlimin imkanları əhatəli səciyyə daşıyır.

Tədqiqat zamanı biz təlim prosesində kiçik yaşlı məktəblilərin sosiallaşmasına təsir göstərən amilləri aşağıdakı şəkildə müəyyənləşdirmişik;

- təhsilin məzmunu. Bu məzmun müasir aktual olmaqla biliklərin fasiləsiz artmasına uyğun olaraq daim yeniləşməlidir;

- təlimin metodları. Bu metodlar çevik və dinamik olmalı, şagirdə yönəlməli, hafizədən daha çox yaradıcı təfəkkürə istiqamətlənməli, interaktiv olmalıdır;

- təlimin istifadə olunan təşkili formaları. Bu formalar tədrisin qarşısına qoyulmuş məqsədlərə uyğun olaraq düzgün seçilməlidir;

- təlim prosesi iştirakçıları arasında qarşılıqlı münasibətlər. Bu münasibətlər elə qurulmalıdır ki, kiçik yaşlı məktəblilərin yaradıcı qüvvələrinin reallaşmasına təkan versin, onun şəxsiyyət keyfiyyətlərinin sosial məzmunda inkişafın stimul yaratsın.

Tədqiqat Gəncə şəhər xüsusi internat məktəbində və valideyn himayəsindən məhrum olan qarışıq tipli uşaq evində aparılmışdır. Tədqiqata 82 şagird cəlb olundu. Həm şagirdlərlə (I-IV sinif), həm müəllimlərlə, həm də valideynlərlə sosioloji sorğular keçirildi. Şagirdlərin və

valideynlərin tərcümeyi-halı öyrənildi. Gəncə şəhər statistika idarəsindən, narkoloji dispanserdən və digər əlaqədar təşkilatlardan müvafiq məlumatların toplanması aparılan tədqiqatın səmərəliliyinə və əldə olunan məlumatların dəqiqliyinə fayda verdi.

Ədəbiyyat

1. Abbasov A. N. Milli əxlaq və ailə etikası. Dərs vəsaiti. Bakı, Mütərcim, 2016.
2. Меджидова С.М. Уличные дети: социологический и психологический портрет. Баку: Зия - Нурлан, 2003, с.37-39.
3. Əliyev R.İ., Əliyeva G. Şəxsiyyət psixologiyası. Bakı, "ADPU" nəşriyyatı, 2010, 144 s.

А.Р.Алиева

Организация внеклассных социально-педагогических работ

Резюме

В статье исследована роль семьи в национальном воспитании и намного глубже выяснена роль отца и матери и других членов семьи в процессе современного воспитания, а также приводятся новшества. Введение этих новшеств, прививает у азербайджанских детей чувство национальной чести и достоинства, единства, пристрастия к Родине. Статья необходима каждой молодой семье и каждому педагогу. Приведенные примеры несут огромный воспитательный характер.

A.R.Aliyeva

Edge from lesson forming of the social pedagogical work

Summary

In article is investigated the role of family in national education, also analysis and showed the roles and importance of father, mother, member of family in a contemporary education process. The new feature and application of this character learned to Azerbaijani children national proudness, unity, honor, fanaticism to motherland. Article is necessary for each young family and pedagogue. Different models, notes have a great educational importance.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 26.10.2020

T.Ə.ƏLİYEVA
e-mail: tureeliyeva@mail.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FORMALAŞDIRILMASINDA TƏDRİS ÇALIŞMALARINDAN İSTİFADƏ

Açar sözlər: *nəzarət və özünənəzarət, tədris çalışmaları, kollektiv iş, fərdi iş, təlim fəaliyyəti, kiçikyaşlı məktəbli.*

Ключевые слова: *контроль и самоконтроль, учебные упражнения, коллективная работа, индивидуальная работа, учебная деятельность, младший школьник.*

Key words: *control and self-control, teaching, collective work, individual work, learning activities, younger pupil.*

Kollektiv iş prosesi müəllimə şagirdlər üzərində fərdi müşahidə aparmaq, onların bacarıq və vərdiş imkanlarını üzə çıxarmaq, onların fəallıq səviyyəsini, hər birinin birgə işə verdiyi töhvələri müəyyən etmək imkanı verir. Lakin bu yolla bu və ya digər şagirdin xüsusiyyətləri və onların tədris materialını mənimsəmələri barədə daha dəqiq təsəvvürlər əldə etmək empirik və qeyri-dəqiqdir. Müəllim tərəfindən şagirdlərin xüsusiyyətlərini və yeni tədris materialının onlar tərəfindən necə mənimsənildiyini üzə çıxarmaq ehtiyacı, başqa növ işin keçirilməsinə təkan verəcəkdir: kollektiv iş yekunlaşdıqdan sonra müəllim şagirdlərə heç bir müdaxilə olmadan, müstəqil surətdə həll edəcəkləri analoji tapşırıq verə bilər. Bu cür iş müəllimə öz metodiki bazasını yoxlamaq, onun nəticələrinə nəzarət etmək, işin məqsədinə nə dərəcədə nail olduğunu müyyən etmək imkanı verir. Tapşırığın həllinin bu və ya digər mərhələsində yaranmış çətinlikləri və çatışmamazlıqları üzə çıxarmaq, iş prosesində şagirdlərin qarşılaşdıqları maneələri müəyyən etməklə müəllim, lazım gələrsə aparılmış kollektiv işə geri dönə bilər və yaxud da qeyd olunan çatışmamazlıqları nəzərə almaqla şagirdlərlə aparılacaq fərdi və ya qrup formasında işin yeni yollarını müəyyən edə bilər.

Fərdi iş zamanı şagirdlərdə nəzarət və özünənəzarəti formalaşdırdıqca müəllim bu və ya digər şagirdin yol verdiyi səhvləri yaxşıca təhlil etməli, onların yaranma səbəblərini və xüsusiyyətlərini müəyyən etməlidir. Səbəblər müxtəlif ola bilər: şagirdlərin diqqətsizliyi, onların iradəsizliyi, müşahidəçiliyin yoxluğu, tədris materialını zəif bilməsi və s. Beləliklə, hər bir şagird barədə müəllim məlumat əldə etməklə, onların fərdi xüsusiyyətlərini nəzərə alaraq onların hər biri ilə fərdi iş üçün tapşırıq və çalışmalar işləyib hazırlamalıdır.

Şagirdlərlə fərdi iş üçün hazırlanmış çalışmalar həm də nəzarət və özünənəzarəti inkişaf etdirməli və eyni zamanda müxtəlif xarakterli olmalıdır. Şagirdlərlə aparılan fərdi iş zamanı istifadə olunan çalışmaları biz üç növə bölürük:

1. Nəzarət və özünənəzarətin inkişafına bilavasitə xidmət edən çalışmalar;
2. İdrak fəallığının inkişafı məqsədilə nəzarət və özünənəzarətin daha da təkmilləşdirilməsinə yönəldilmiş tapşırıq və çalışmalar;
3. Ev tapşırıqlarının icrası zamanı nəzarət və özünənəzarətin inkişafına xidmət edən çalışmalar.

Qeyd etdiyimiz çalışmaların tərtibi spesifikasını və onlarla iş metodlarını təsvir etməyə çalışaq.

Psixoloji tədqiqatlar kimi, pedaqoji tədqiqatlar da onu göstərir ki, nəzarət və özünənəzarətin formalaşdırılmasının vacib şərti müəllim tərəfindən şagirdlərin əməl etmələri üçün qoyulan tələblərdir. Müəllimin vəzifəsi ilk öncədən kiçikyaşlı məktəbliləri nəzarət və özünənəzarətin üsullarından istifadəyə alışdırmaq, təlim fəaliyyətində onlardan istifadənin vacibliyini izah

etməkdir. A.K. Serdyuk kiçikyaşlı məktəblilərdə nəzarət və özünənəzarəti formalaşdırmağının psixoloji xüsusiyyətlərinə dair tədqiqat apararaq belə bir yekun nəticəyə gəlmişdir ki, şagirdlər nə vaxt özünənəzarətin tətbiqinin vacibliyini düzgün başa düşürsə, bu zaman səmərəlilik şagirdin ona məcburi üz tutduğu hala nisbətən daha yüksək olur.

Bunu apardığımız tədqiqatlar da göstərdi. Kontrol sinfin şagirdləri ilə müqayisədə eksperimental sinifin şagirdləri bu və ya digər tədris tapşırığını çox yaxşı və az səhv buraxmaqla yerinə yetirirlər. Bu da onun nəticəsidir ki, eksperimental sinif şagirdlərində ilk öncədən müəllimin sistematik tələbləri əsasında özünənəzarətdən istifdə etmək bacarıqları formalaşdırılır.

Nəzarət və özünənəzarətin həyata keçirilməsi ilə bağlı müəllimin tələbləri xüsusi çalışmaların məzmununda əks olunur və bunlar fərdi iş zamanı bu bacarıqların bilavasitə formalaşdırılmasına istiqamətləndirilir.

Nəzarət və özünənəzarətin formalaşdırılmasının ilkin mərhələsində bu bacarıqları inkişaf etdirmək məqsədilə müəllim şagirdlərə fərdi şəkildə icra etmək üçün ümumi tapşırıqlar verə bilər. Bu zaman şagirdlərə buraxılan səhvləri düzəltmək üçün mətn, ya rotaprintdə çıxarılmış formada onlara paylanılır, ya da yazı lövhəsində yazılır. Bu tip bəzi çalışmaları nəzərdən keçirək.

Çalışma № 1. Şagirdlərə (II-III sinif) lövhədə və ya vərəqdə yazılmış, müxtəlif xarakterli 8 səhvi olan tapşırıq verilir.

İki gənc adm öz aralarında düşmənçlik edib, hər görüşdükdə mütək dava edirdilər. Bir dəfə çay qırağında rast gəlib və bir-birinə ilişirlər. Çox dalaşdı, baş fırlanacaq qədər, və onlardan biri çaya düşür. Onu xilas etdi və çaya ikinci tullandı

Müəllim şagirdlərə müraciət edir: "Mətndə 8 dənə səhv var (onlara düzgün istiqamət verir). Diqqətlə oxuyun, köçürün (əgər mətn lövhədə qeyd olunubsa) və səhvləri düzəldin. Yazı zamanı öz işinizə nəzarət edin, səhvlərə yol verməyin".

Belə məlumat aldıqdan sonra şagirdlər diqqətlərini daha da artırır ki, səhvlərə yol verməsinlər. Bununla da şagirdlərin öz şəxsi fəaliyyətlərinə nəzarəti başlayır. Mətində verilmiş hər bir söz obyektivləşdirmə predmetinə çevrilir ki, bu da səhvlərin tapılmasına kömək edir.

Çalışma № 2. (I-II siniflər). Müəllim yazı lövhəsində cümlənin sonundakı durğu işarələri düzgün qoyulmamış mətn yazır:

Oğlan qoyun otarır! Yaxınlıqda kəndlilər dən üyüdürlər? Oğlan fikirləşir. Gəlsənə kəndliləri təşvişə salım, birdən qışqırmağa başlayır Ay, ay kömək edin canavar

Müəllim şagirdlərə müraciət edir: "Mətni diqqətlə oxuyun. Orada durğu işarələri düzgün qoyulmayıb. Mətni köçürün və onları düzgün qoyun!"

Şagirdlərin əksəriyyətinin işi başa çatdırdığını görərək, müəllim sinfə xatırladır ki, onlar işi başa çatdırdıqdan sonra ona nəzarət edib, yoxlasınlar.

Çalışmalar zamanı belə metoddan istifadə, şagirdə xüsusi olaraq işinin yoxlanılmasının vacibliyini xatırlatmaq, nəzarət və özünənəzarətin formalaşdırılmasında, şagirddə sistematik olaraq öz işini yoxlamaq bacarığının, vərdişlərinin inkişaf etdirilməsində mühüm rol oynayır. Müəllimin bu tələbi sayəsində nəzarət və özünənəzarət təlim fəaliyyətinin ayrılmaz hissəsinə çevrilir.

Çalışma № 3. (III sinif). Yazı lövhəsində həll zamanı səhvlərə yol verilmiş misallar yazılır:

$$\frac{(54\cdot 3)+8}{17-15}+\frac{(72+16):4}{11}=108$$

1. $54 \cdot 3 = 152$
2. $152 + 8 = 160$
3. $17 - 15 = 2$
4. $160 : 2 = 75$
5. $72 + 16 = 88$
6. $99 : 4 = 22$
7. $22 : 11 = 33$
8. $75 + 33 = 108$

Müəllim şagirdlərə deyir: "Misalı dəftərlərinizə yazın. Misalın həllində səhvlərə yol verilmişdir, ona görə də cavablar səhvdir. Misalın həllini yoxlayın və səhvləri düzəldin".

Şagirdlər işə başlayır, misalları müstəqil həll edir, tapdıqları səhvləri düzəldirlər. Şagirdlərin işi başa çatdırdıqlarını gördükdə müəllim onlara müraciət edir: "Uşaqlar, siz cavabda – 87 almalısınız. Yoxlayın görək hamı bu rəqəmi alıbmı. Əgər kimsə başqa cavab alıbsa, bir də yoxlasın, icra etdiyiniz işin düzgünlüyünə nəzarət edib, səhvləri tapın".

Müəyyənləşdirilir ki, şagirdlərin bir hissəsi düzgün cavab almayıb. Bu şagirdlər yenidən misalın həllinə baxır, özünənəzarət, özünüyoxlamanı tətbiq edərək, şəxsi fəaliyyətlərindəki səhvləri axtarmağa başlayırlar.

Şagirdlərlə aparılan fərdi iş zamanı özünənəzarət bacarığının inkişaf etdirilməsi məqsədilə əvvəlki paraqrafda nəzərdən keçirdiyimiz çalışmalara uyğun (birinci qrup tapşırıqlar kollektiv iş prosesində nəzarət və özünənəzarətin bilavasitə inkişafına hədəflənmışdır) tapşırıqlardan istifadə oluna bilər. Şagirdlərlə aparılan fərdi iş zamanı bu tapşırıqlardan necə istifadə etmənin mümkünlüyünə nəzər salaq:

Çalışma № 4. (I-II siniflər). Yazı lövhəsində sadə sözlər əmələ gətirən hərflər dəsti yazılır. Məsələn:

VE, CAOQ, ÜÇƏK, YAÇ, CİKGƏİNL, POT

Müəllim şagirdlərə müraciət edir: "Yazı lövhəsində yazılmış hərflər dəstini dəftərinizə köçürün və onlardan sözlər düzəldin. Hər bir hərf dəstinin yanında bu hərflərdən düzəltdiyiniz sözü yazın".

Şagirdlər hərflərin yerini dəyişdikdə bu sözləri almalıdırlar: EV, OCAQ, KÜÇƏ, ÇAY, GƏLİNCİK, TOP.

Müəllim şagirdləri xəbərdar edir: "Hərflər dəstinə diqqətli baxın. Sizdən düzgün söz düzəltmək üçün diqqətlə müşahidə aparmaq tələb olunur. İşi başa çatdırdıqdan sonra öz işinizə bir daha nəzarət edib yoxlayın ki, düzgünmü söz düzəldibsiniz, sözdəki hərflərin sayı hərflər dəstindəki saya uyğun gəlirmi".

Verilən tapşırıq əvvəlki paraqrafdakı bu tip tapşırıqlardan əsasən ona görə fərqlənir ki, o, yazı lövhəsində şagird kollektivi tərəfindən deyil, fərdi şəkildə ayrı-ayrı şagirdlər tərəfindən yerinə yetirilir.

Tapşırıq şagirddən öz işini yoxlamağı, hərflər dəstinə daxil olan hərflərlən düzəldilmiş sözləri qarşılaşdırmağı tələb edir. Bu, şagirdlərdə diqqətin, iradənin, müşahidəçiliyin, təfəkkürün inkişafına kömək edir və öz növbəsində nəzarət və özünənəzarətin formalaşdırılmasının əsasını təşkil edir.

Çalışma № 5. (Hazırlıq – I siniflər). Yazı lövhəsində hərflər yazılır:

İ,N,Ə,K,D,L,Ü,Z,R,T və s.

Müəllim şagirdlərə yazı lövhəsinə yazılmış bu hərfləri köçürməyi və mümkün qədər onlardan çox sayda ixtiyari sözlər düzəltməyi tapşırır.

Yazı lövhəsinə yazılmış hərflərdən şagirdlər aşağıdakı sözləri düzəldirlər: inək.dilək, külək, kül, lək, kəl, dəniz, kəniz, zəki, dəlik, dərzi, zirə, zinət, tül, tər, zər, tək, zəli və s.

Müəllim şagirdlərə müraciət edir: "Diqqətli olun, düzəltdiyimiz sözləri yoxlayın – sözlərin içərisində yazı lövhəsində olmayan hərflə başlayan söz yoxdurki? Diqqətlə baxın, görün bu hərflərdən başqa sözlər də düzəltmək mümkündürmü?"

Müəllim maraqlı yoxlayıcı yarış da təşkil edə bilər: kim daha çox söz tapa bilib?

Müəllim şagirdlərə onlar tərəfindən tapılan sözlərin sayını hesablamağı tapşırır, sonra isə bir nəfər şagirddən soruşur:

"Dilək, sən neçə söz tapıbsan?" "Mən səkkiz söz tapmışam". Müəllim sual verir – "Kim daha çox söz düzəldib". "Mən on iki söz tapmışam!" "Mən on beş!" Müəllim yenə soruşur – "Kimdə daha çox söz var?". "Mən on altı söz tapmışam!". Müəllim deyir: "Əhsən sənə, Tunar!" İndi oxu görək hansı sözləri tapmısan. Siz isə uşaqlar öz işinizə nəzarət edib izləyin görək Tunar sözləri düzgünmü tərtib edib.

Yoldaşının səsləndirdiyi sözlərə qulaq asdıqca şagirdlər onları öz tərtib etdikləri sözlər ilə müqayisə edib, özünənəzarəti həyata keçirir və təəcüb edirlər ki, necə olub ki, o sözlərin

hamısını onlar tapa bilməyib.

Çalışma üzərində aparılan bu iş metodundan aydın olur ki, təlim prosesində şagirdlərlə aparılan fərdi iş böyüyərək kollektiv işə çevrilə bilir. Bu, eksperimentin gedişi zamanı daima özünü göstərirdi. Şagirdlərlə aparılan fərdi işin kollektiv işlə əlaqələndirilməsi tədris tapşırığının müstəqil surətdə və yüksək səviyyədə şagirdlər tərəfindən həllini təmin edir.

Yuxarıda nəzərdən keçirdiyiniz çalışmaların hazırlanması spesifikası onu göstərir ki, onun məqsədi təlim fəaliyyətində şagirdin hər hansı konkret səhvini düzəltmək və onun idrak fəallığını inkişaf etdirmək deyil, şagirdləri həll olunacaq tapşırıqlar əsasında nəzarətedici fəaliyyətə alışdırmaq və tədricən formalaşdırmaqdır. Qeyd etdiyimiz çalışmaların həllini müşayət edən göstərişlər (şifahi və ya yazılı) şagirddən şəxsi fəaliyyətinə nəzarət və yoxlama tələb edir. Bu tip çalışmalar üzərində iş, nəzarət və özünənəzarətin təşkili üzrə müəllimin sistematik tələbi əsasında şagirdlərdə bütün təlim işlərinin icrası zamanı nəzarət və özünənəzarətdən istifadəyə dair tələbat, bacarıqlar formalaşdırır.

T.A.Алиева

Использование учебных упражнений
в формировании контроля и самоконтроля

Резюме

Рассмотренная в ходе исследования специфика разработки упражнений показывает, что целью этих работ является не исправление каких-либо конкретных ошибок школьником в учебной деятельности и развитие его познавательной активности, а приучение и постепенное формированиек контрольной деятельностии на основе выполняемых упражнений. Указания (устные или же письменные) данные при решении отмеченных упражнений требуют контроль и проверку личной деятельности ученика. На основе систематических требований учителя по организации работы, контроля и самоконтролянад этими типами упражнений формирует у школьников потребность и умение использовать контроль и самоконтроль при выполнении всей учебной работы.

T.A.Aliyeva

Use of studies exercises in the formation of control and self-control

Summary

Specifics of the preparation of the works considered during the research show, that the purpose of these works is not to correct any concrete mistakes of pupil in the learning activity and to develop his cognitive activity, but to train and gradually form pupils based on the tasks to be solved. Instructions (oral or written), that accompany the solution of the above-mentioned works require pupil to monitor and check his or her personal activity. Based on the teacher's systematic request for the organization of work, control and self-control on this type of work, it forms in pupils the need and skills to use control and self-control during the implementation of all learning activities.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 26.10.2020

Ş.E.HEYDƏROVA
e-mail: heyderzade.shura@bk.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

AUTİST YENİYETMƏLƏRİN PEDAQOJİ DİAQNOSTİKASI

Açar sözlər: *funksional diaqnostika, intellektual inkişaf, alqoritmik diaqnostika, autist yeniyetmə, fəaliyyətin monitorinqi.*

Ключевые слова: *функциональная диагностика, интеллектуальное развитие, алгоритмическая диагностика, подросток - аутист, мониторинг активности.*

Key words: *functional diagnostics, intellectual development, algorithmic diagnostics, autistic adolescents, activity monitoring.*

Psixi inkişafında problemlər olan yeniyetmə və gənclərin ailə həyatına hazırlanmasının, cinsi mənsubiyyətindən asılı olaraq sosial rolları mənimsəməsinin spesifik xüsusiyyətləri vardır. Ona görə də biz autist məktəbli-yeniyetmələrin gender təsəvvürlərini öyrənməyi qarşıya məqsəd qoyduq. Məlum oldu ki, autist məktəbli-yeniyetmələrin cinsi tərbiyə, gender xüsusiyyətləri barədə təsəvvürləri çox məhduddur. Əks cins, özlərinin cinsi mənsubiyyəti, hər bir cinsə aid olan keyfiyyətlər barədə autist məktəbli-yeniyetmələrin təsəvvürləri normal inkişaf etmiş yaşıdları ilə müqayisədə xeyli məhduddur.

Valideyn qayğısından məhrum olmuş autist yeniyetmələrin gender identifikasiyası da xeyli məhdud olur. Tədqiqata Gəncə şəhərindəki sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 45 nömrəli xüsusi məktəbinin 16 şagirdi, ümumtəhsil məktəblərində təhsil alan və ailələrində yaşayan 9 nəfər autist şagird və 12 nəfər ailədə yaşayan normal inkişaf edən yeniyetmə cəlb olunmuşdu. Eksperiment üç mərhələdə keçirildi. Birinci mərhələdə yeniyetmələrin gender təsəvvürləri ilə bağlı koqnitiv və affektiv komponentlər öyrənildi. Bundan başqa müəllim və valideynlərlə söhbətlər aparıldı. İkinci mərhələdə 45 nömrəli xüsusi məktəbdə olan autist yeniyetmələrlə özləri barədə, qadın və kişi keyfiyyətləri barədə, hər bir cinsin özünəməxsus xüsusiyyətləri barədə şifahi söhbətlər aparıldı. Üçüncü mərhələdə autist yeniyetmələrlə aparılan söhbətin təsiri öyrənildi, hər üç qrupun gender təsəvvürləri barədə nəticələr müqayisə edildi.

Birinci mərhələdə eksperimentə cəlb olunanlar özləri barədə yazır və şifahi şəkildə məlumat verirlər. Daha dəqiqi "Mən kiməm?", "Mən necəyəm?" sualları ətrafında mülahizələrini bildirirlər. Burada məqsəd onların özləri barədə və gender təsəvvürləri barədə məlumat toplamaqdan ibarət idi.

Bundan başqa hər bir yeniyetməni sinif rəhbəri, məktəb psixoloqu və tərbiyəçi xarakterizə etməli idilər. Müəllim və tərbiyəçilərə, psixoloqa aşağıdakı anket sorğusu təqdim olundu. Anket sorğusunda aşağıdakı suallar öz əksini tapmışdı:

1. Müasir yeniyetmələrin davranışında nəyi bəyənmirsiniz?
2. Yeniyetmələrdə hansı davranış normalarının formalaşdırılmasını vacib hesab edirsiniz?

Yuxarıda qeyd edildiyi kimi yeniyetmələrin gender təsəvvürlərinin biz iki komponentini – koqnitiv və affektiv komponentini öyrəndik. Əvvəlcə, koqnitiv komponenti nəzərdən keçirək. Bura özü haqqında biliklər, mənsub olduğu cinsin xüsusiyyətləri barədə təsəvvürlər daxildir.

"Mən kiməm?" və "Mən necəyəm?" suallarına cavab verərkən yeniyetmələr rol davranışına (sosial, gender və qohumluq və s.), özündə olan şəxsi keyfiyyətlərə (universal, maskulin, femin, intellektual, emosional, xarici görünüş və s.) aid etmişlər.

Bizi daha çox gender təsəvvürləri maraqlandırdığından əsas diqqəti onun üzərinə yönəldirik. Qeyd etmək istərdik ki, ümumən yeniyetmələrin gender təsəvvürləri məhduddur. İkinci cəhət ondan ibarətdir ki, onlar əks cinsə aid olan xüsusiyyətlər barədə daha dolğun və geniş

məlumat verirlər, nəinki öz cinslərindən olanlar haqqında. Özləri haqqında isə qəribə də olsa üçüncü şəxs kimi danışılır. Məsələn, Ənvər özü haqqında deyir: "Ənvər yaxşı oğlandır" və s.

Özü və öz cinsi haqqında ən zəif təsəvvürə 45 nömrəli xüsusi məktəbin yeniyetmələri malikdirlər. Ailədə yaşayan və ümumtəhsil məktəbi şagirdləri ilə təhsil alan şagirdlərin təsəvvürləri bu məktəbdəki yaşıdlarına nisbətən daha yüksəkdir. Gözləndiyi kimi ailədən olan normal yeniyetmələrin özləri, öz həmcinsləri və əks cins barədə təsəvvürləri daha genişdir. Bir daha qeyd edirik ki, onlarında gender təsəvvürlərini qənaətbəxş hesab etmək olmaz.

İnternat məktəbi şagirdlərinin gender təsəvvürlərinin məhdud olması səbəblərindən biri də onların söz ehtiyatlarının kasadlığı ilə əlaqələndirmək olar. Cavablar içərisində maraq doğuran xarici görünüşləri ilə bağlı dediklərdir. Bunlar ağıllı, ucaboy, gözəl, qaragöz, yaraşıqlı və s. sözlərlə ifadə olunur.

Autist yeniyetmələrin gender təsəvvürləri koqnitiv baxımdan daha aşağı səviyyədədir. Bura məhdud söz ehtiyatı, şablon fikirlər, təkrarçılıq və sairə də aid edilir.

Gender təsəvvürünün affektiv komponentinə özünə qarşı emosional münasibət aid edilir. Emosional münasibət isə müsbət və mənfi (pozitiv və neqativ) ola bilər. Affektiv baxımdan cavabları üç səviyyəyə ayırmaq olar. "Aşağı" səviyyəyə özləri haqqında yalnız mənfi fikir söyləyənlər, "orta" səviyyəyə həm pozitiv, həm də neqativ fikir söyləyənlər, "yüksək" səviyyəyə isə özləri haqqında yalnız müsbət fikir söyləyənləri aid etdik. Alınan cavabları affektiv göstəricilər baxımından təhlil edib ümumiləşdirdik. Məlum oldu ki, affektiv göstəricilər baxımından özünün neqativ xüsusiyyətlərini önə çəkən şagirdlər içərisində 45 nömrəli xüsusi məktəbin şagirdləri daha çox üstünlük təşkil edir. Özünün neqativ xüsusiyyətini göstərən yeniyetmələr özləri barəsində belə deyirlər: "Mən kobudam, bəzən özümü pis aparıram, gözəl deyiləm, tənbələm, özümü tez itirirəm" və s.

45 nömrəli xüsusi məktəbin şagirdlərinin 50% özündə çox az müsbət cəhətlər görürlər. Ola bilsin ki, bunun bir səbəbi də ətrafdakıların onlara verdikləri qiymətlə də bağlı olsun. 30,5 faizi özündə həm müsbət, həm də mənfi cəhətləri görür. 18,5 faizi özünü yalnız müsbət cəhətdən xarakterizə edir.

Ümumtəhsil məktəbində təhsil alan autistlərin 63,0 faizi daha çox neqativ tərəflərini, 28,0 faizi həm müsbət, həm də mənfi tərəflərini, 9,0 faizi isə yalnız müsbət cəhətlərini qeyd edirlər.

Ailədə olan normal inkişaf etmiş şagirdlər özlərinin mənfi cəhətlərini qeyd etmirlər. 9,0 faizi həm müsbət, həm də mənfi cəhətlərini göstərirlər. 91,0 faiz isə özlərini yalnız müsbət tərəfdən xarakterizə edirlər.

Göründüyü kimi internat məktəbdən olan şagirdlərin sosiallaşması xeyli məhduddur. Maraqlı cəhət ümumtəhsil məktəbində təhsil alıb ailədə yaşayanlarla bağlıdır. Aparılan müşahidələrdən, söhbətlərdən belə məlum olur ki, onlar normal şagirdlərin arasında özlərini yad, tənha hesab edirlər. Bu da onların özünüqiymətləndirməsinə təsir edir. Görünür, bu barədə onlarla məşğul olan həm müəllimlər, həm də valideynlər müəyyən işlər görməlidirlər.

Eksperimentdən əlavə biz müəllim və tərbiyəçilər arasında anket sorğusu keçirdik. Anket sorğusundan məlum oldu ki, autist oğlan və qızlarda cinsi mənsubiyyətlərindən irəli gələn keyfiyyətlər zəifdir. Beləki, qızlarda qadına xas olan zəriflik, xeyirxahlıq, qayğıkeşlik, səmimilik və s. keyfiyyətlər özünü məhdud formada göstərir.

Diqqəti cəlb edən digər bir cəhət mədəni davranış və ünsiyyət qaydalarına əməl olunmamasında özünü əks etdirir. Ünsiyyət zamanı qarşılıqlı hörmət, tolerantlıq, hörmət göstərmək, fikri emosional formada çatdırmaq və s. məhduddur.

Daha çox diqqəti cəlb edən cəhətlərdən biri də oğlan və qızların özlərini cinsi mənsubiyyətlərinə uyğun apara bilməmələri ilə bağlıdır. Onlar bir-birlərilə kobud davranır, qızlar oğlanlarla, oğlanlar qızlarla dalaşırlar və s.

Nəhayət, onlar xarici görünüşlərinə, geyimlərinə fikir vermir, təmizkarlığa laqeyd yanaşırlar.

Beləliklə, aparılan eksperimentin birinci mərhələsini ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, internat məktəbində oxuyan autist yeniyetmələrin gender təsəvvürləri koqnitiv baxımdan normal inkişaf etmiş yaşıdları ilə müqayisədə xeyli məhduddur. Onların özləri haqqında cinsi mənsubiyyətləri, həmin cins üçün xarakterik olan keyfiyyətlər, oğlan və qız rolları haqqında təsəvvür və bilikləri aşağı səviyyədədir.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005.
2. Qasımov S.Ə. Əqli və fiziki inkişafı ləngiyən uşaqların diaqnostikası və korreksiyası. Bakı: Çaşıoğlu, 2004.
3. Гусева И.Е. Анализ истории развития аутичного ребенка//Дефектология, 2011, №1.
4. Лебединская К.С. Диагностика раннего детского аутизма. М: Просвещение, 2011.
5. Манелис Н.Г. Ранний детский аутизм// Школа здороья, 2009, №2.
6. Плаксунова Э.В. Характеристика нарушений двигательной сферы у детей с аутизмом//Аутизм и нарушения развития, 2018, №2.

Ш.Е.Гейдарова

Педагогическая диагностика подростков с аутизмом

Резюме

Исследователь определил, что аутизм - это заболевание или замедление развитие, которое начинается в раннего детстве и является причиной пожизненного нарушения в области психического и социального развития. Среди наиболее распространенных характеристик аутизма считаются недостаток социального взаимодействия, языковых и коммуникативных навыков, повторяющееся поведение и чрезмерная привязанность к идентичности. Несмотря на это, этот синдром не имеет примечательных физических особенностей. Аутистические особенности в общем смысле наблюдаются у детей с аутистическим расстройством и проявляться у каждого ребенка аутиста по-своему.

Sh.E.Haydarova

Autistic symptoms in teenagers

Summary

Researcher finds that autism is a slowdown in disease or development, which begins early childhood and leads to life-long, mental and social development disorders. The most common features of autism are the lack of social interaction, lack of language and communication capabilities, repetitive behaviors, and excessive loyalty. However, this syndrome does not have significant physical characteristics. Autistic features are commonly seen in children with autistic disorder, and can be seen in every autistic child.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 28.10.2020

A.Ə.HÜSEYNOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

DEMOQRAFİK AMİLLƏR VƏ ŞAGİRDLƏRİN AİLƏ TƏRBİYƏSİ

Açar sözlər: *demoqrafik amillər, şagirdlərin fəlim fəaliyyəti, natamam ailələr, çətin tərbiyə olunan uşaqlar, müəllim-şagird münasibətləri.*

Ключевые слова: *демографические факторы, учебная деятельность учащихся, неполные семьи, трудные дети, отношения учителя и ученика.*

Key words: *demographical features, education activities of pupils, single families, difficult bringing up children, attitudes between teachers and pupils.*

30 ildir ki, ərazimizin xain ermənilər tərəfindən işğal olunması, 30 illik müharibənin, xeyli sayda şəhid və həlak olanlarımızın nəticəsində doğum indeksi aşağı düşmüş, demoqrafik amillərlə bağlı boşanma əmsalı və miqrasiya artmış, dünya miqyasında miqrasiya daha intensiv xarakter daşımağa başlamışdır. Ona görə də XXI əsrdə demoqrafik proseslərdə köklü keyfiyyət və kəmiyyət dəyişikliyi baş vermişdir. Bu dəyişiklər cəmiyyətin bütün inkişaf mərhələlərində baş vermişdir. Lakin XXI əsrdə bu dəyişikliklər bütün ölkələrdə sabit xarakter daşımamış, tez-tez dəyişdiyi üçün əhalinin həyat fəaliyyətinə bu və ya digər dərəcədə təsir etmişdir. XXI əsrdə demoqrafik amillərin stabil xarakter daşımaması əhalinin həyat fəaliyyətində əlavə çətinliklərlə müşahidə olunur. Təsadüfi deyildir ki, artıq keçən əsrin 70-ci illərindən etibarən demoqrafik proseslərin psixoloji, ekoloji, siyasi, coğrafi və s. nəticələrinə xüsusi diqqət yetirilir. Maraqlıdır ki, demoqrafik amillərin pedaqoji nəticələri də ayırd edilir. Sevindiricidir ki, bu problem keçmiş SSRİ məkanında ilk dəfə azərbaycanlı pedaqoq alim H.Ə. Əlizadənin diqqətini cəlb etmişdir (2, s.53-70). H.Ə. Əlizadənin tədqiqatları bizim üçün özünəməxsus maraq kəsb edir. Lakin təlimdə geridə qalma problemi H.Ə. Əlizadənin tədqiqat məqsədindən kənar olduğu üçün, o bu problemə dolayı yolla toxunmuşdur. K.E. İqoşev və Q.M. Minkovskinin demoqrafik amillərin pedaqoji nəticələri haqqında fikirləri də maraqlıdır. Onlar qeyd edirlər ki, "az-uşaqlılıq - müasir ailədə baş verən yeganə dəyişiklik deyil Boşanma, ər və ya arvadın birinin ölümü və nigahdan kənar doğum nəticəsində natamam ailələrin sayı artmışdır" (4). Müəlliflər ailədə yaranmış çətinlikləri ailə tərbiyəsi baxımından təhlil etməyi daha məqsədəuyğun sayırlar. Halbuki qeyd olunan demoqrafik amillərin neqativ təsirini təkcə ailənin qüvvəsi ilə aradan qaldırmaq mümkün deyil. Digər alimlərin tədqiqatlarında problemə xüsusi diqqət yetirilməmişdir. Halbuki, pedaqoji təcrübədən məlum olduğu kimi, son illərdə köklü dəyişikliklərlə xarakterizə olunan demoqrafik amillər şagirdlərin təlimdə geridə qalmasına xüsusi şərait yaradır.

Deyilənlərdən aydın olur ki, təlimdə geridə qalma ciddi pedaqoji problem olub, məktəbin pedaqoji işinin səmərəsini olduqca aşağı sala bilər. Eyni zamanda, məktəb şagirdin təlimdə geridə qalmasını vaxtında aradan qaldıra bilməzsə, bu pedaqoji cəhətdən çox ağır nəticələrə gətirib çıxara bilər. Bu istiqamətdə geridə qalan şagirdlərə müəllimlər ciddi fikir verməli, onların geridə qalmalarının səbəblərini vaxtında müyyən etməli və həmin amillərin neqativ təsirlərini aradan qaldırmalıdırlar.

Müşahidələrdən aydındır ki, Gəncədəki 1 №-li məktəb müəllimlərinin iş təcrübəsi də bizim tədqiqat baxımından xüsusi əhəmiyyət kəsb edir. Müəllimlər şagirdlərin dərsdən sonrakı vaxtlarını küçədə keçirməməsi üçün şagirdləri müxtəlif dərnəklərə cəlb edirlər. Belə ki, məktəbdə dərnəklər fəaliyyət göstərir. Dərnəklərdə uşaqların marağı əsasında tədbirlərin keçirilməsinə üstünlük verilir. Müəllimlər bir məsələyə diqqətimizi cəlb etdilər. Yəni onlar demoqrafik amillərin şagirdin təlim fəaliyyətinə neqativ təsirlərinin aradan qaldırılması istiqamətin-

də elmi-metodiki ədəbiyyatın olmamasından narahat olduqlarını bildirdilər. Onların narahatçılığı təbiidir.

Görünür, bu istiqamətdə elmi metodiki vəsaitlərin çoxaldılıb məktəblərə yayılması günün pedaqoji zərurətlərindən biridir. Lakin qabaqcıl pedaqoji təcrübənin kütləvi şəkildə yayılmasının çoxlu rəngarəng forma və yolları vardır. Təəssüf ki, həmin forma və yollardan məktəb müəllimləri heç də həmişə faydalanmırlar. Halbuki "qabaqcıl təcrübənin ümumiləşdirilməsi və tətbiq edilməsi ilə təkcə məktəb direktorları deyil, eyni zamanda, ictimai təşkilatların rəhbərləri, xalq təhsili orqanlarının işçiləri, qabaqcıl müəllimlər də müvəffəqiyyətlə məşğul ola bilərlər" (5, s.120). Bu baxımdan biz pedaqoji təcrübənin digər müəllimlər tərəfindən öyrənilməsi və tətbiq edilməsi üçün onların mühazirələrinin təşkilinə də xüsusi qayğı ilə yanaşdıq.

Beləliklə deyilənlərdən məlum olur ki, məktəb müəllimləri təlimdə geridə qalan şagirdlərlə görülən iş sahəsində müəyyən təcrübə toplasalar da, onların demoqrafik amillərin neqativ təsirlərinin aradan qaldırılması baxımından iş təcrübəsini o qədər də qənaətbəxş saymaq olmaz. Müəllimlərin yalnız 18%-i bu ya digər dərəcədə demoqrafik amillərin təsirlərini nəzərə alır və neqativ təsirlərin aradan qaldırılması istiqamətində müəyyən pedaqoji işlər aparırlar. Lakin həyata keçirilən bir çox pedaqoji işlər sistemli xarakter daşımadığı üçün nəticəsi heç də həmişə faydalı olmur.

Azərbaycan əhalisi uzun əsrlər boyu kiçik kənd, qəsəbə və şəhərlərdə yaşamışdı. Əsrlərin sınağından çıxmış belə həyat tərzi iki cəhətdən xüsusi maraq kəsb edirdi. Yaşayış massivində (kənd, qəsəbə və şəhər) demək olar ki, hamı bir-birini tanıyırdı, hətta onu da demək mümkündür ki, belə hallarda əhalinin hamısını bir-biri ilə qohumluq əlaqələri bağlayırdı. Əhalinin bir-birini tanıması və qohumluq əlaqələri belə həyat tərzində sosial nəzarət prinsipinin mövcudluğu ilə nəticələnmişdir. Sosial nəzarət insanların həyat fəaliyyətində özünəməxsus pedaqoji çalarlara malik idi. Miqrasiya nəticəsində əhalinin kütləvi şəkildə bir yaşayış məskənindən digər yaşayış məskəninə köçməsi, şəhərlərin böyüməsi, kənd əhalisinin yeniləşməsi və s. sosial nəzarətin yox olmasına səbəb oldu.

Uzun əsrlər boyu hər bir ailə qohum ailələrinin (dayının, əminin, bibinin, xalanın, babanın, nənənin və b. əhatəsində yaşamışdır. Əhalinin həyat fəaliyyətində bu cəhət özünəməxsus pedaqoji əhəmiyyəti ilə fərqlənirdi. Belə ki, əmilərin, bibilərin, dayıların, xalaların uşaqları demək olar ki, günün əksər hissəsini bir yerdə olurdular. Eyni (yaxın) ailə adət-ənənələrinə, mədəniyyətinə malik uşaqların günlərinin əksər hissəsini bir yerdə keçirməsi, onların hər birinin ünsiyyət tələbatının ödənməsi və bu əsasda uşaqlararası münasibətlər sisteminin düzgün formalaşması üçün xüsusi şərait yaradırdı. Ailə qruplarından hər biri (əmi, dayı, xala, bibi, baba, nənə və s.) bu uşaqların hamısına öz doğma övladı kimi həm nəzarət edir, həm də onların fəaliyyətinin düzgün təşkilinə rəhbərlik edirdi. Uşaqlar, demək olar ki, nəzarətsiz qalmırdılar. Fikir verin, ailələrin həyat tərzi elə təşkil edilmişdir ki, uşaqların tərbiyəsi baxımından bu gün, demək olar ki, bütün pedaqoqlar tərəfindən qəbul edilən "tərbiyə-fəaliyyət və ünsiyyətlə sıx əlaqədədir" qanunauyğunluğun reallaşması üçün tam şərait yaranırdı.

Şəhərlərin böyüməsi Azərbaycanda nuklear ailə tipinin xüsusi çəkisinin artmasına səbəb oldu. Tədricən ailənin müxtəlif demoqrafik tipləri yaranırdı.

Ailədə bir neçə nəsil – bir, iki, üç, dörd və s. nəsil yaşaya bilər. Əgər ailədə üç və daha çox nəsil (məsələn: baba-nənə, ata-ana, uşaqlar) yaşayırsa, belə ailə - mürəkkəb ailə adlanır. Ailədə bir (ər-arvad) və iki (ata-ana və uşaqlar; ana və uşaqlar; ata və uşaqlar) nəsil yaşayırsa, belə ailə nuklear ailə sayılır.

Son illər pedaqoqlar daha tez-tez ailənin tiplərinə müraciət edirlər. V.İ.Smirnov bu istiqamətdə ailənin aşağıdakı tiplərinə üstünlilk vermişdir:

- Uşağın sayından asılı olaraq: - uşaqsız, biruşaqlı, az uşaqlı (2-3 uşaq) və çox uşaqlı (3 və daha artıq);

- Ailənin tərkibindən asılı olaraq: - bir nəsilli (ancaq ər-arvad), ikinəsilli (valideynlər və uşaqlar), üç və daha artıq nəsilli (valideynlər, onların valideynləri və uşaqlar);

- Ailənin quruluşundan asılı olaraq: - tam (ata, ana və uşaqlar), natamam (ana və ya ata uşaqla), nigahdan kənar (natamam ailənin bir variantı: uşaq nigah qeydiyyatından keçməmişdən əvvəl anadan olur);

- Ailədə qarşılıqlı münasibətlərin xarakterindən asılı olaraq: uğurlu və uğursuz ailə - ənənəvi bölgü, - ahəngdar, dağılmaqda olan, dağılmış, natamam ailə.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2016.
2. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı, BDU-nun nəş., 1979.
3. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Bakı, Səda, 2018.
4. Игошев К.Е., Минковский Г.М. Семья, дети, школа. М., Юридическая литература, 2009.
5. Внедрение достижений педагогики в практику школы. Под ред. Гмурмана В.Е. М., Педагогика, 2011.

A.A.Гусейнова

Демографические влияния и семейная воспитания учащихся

Резюме

В статье исследованы факторы, нарушающие целостность семьи, а также выявлены причины появления неполных семей. Далее изучены уровень влияния этих факторов на учебную деятельность учащихся, определены пути их устранения. Данная статья имеет значение в практике современного преподавания и образования в школьном и семейном воспитании.

A.A.Huseynova

Influence of demographical features to the education activities of pupils

Summary

In article have been revealed the factors, disturbed the completeness of the modern families, also causes of formation of incomplete families. Learned the levels of influence of these factors to the education activities of pupils and defined the abilities of their elimination. This article is very useful for teachers-tutors, chives of schools, also for fusiliers.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 26.10.2020

S.İMANOVA
pedaqoqika üzrə fəlsəfə doktoru, dosent
e-mail: sevda.imanova11gmail.com

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA MİLLİ MƏDƏNİYYƏTİN QORUNUB SAXLANILMASININ VACİBLİYİ

Açar sözlər: *mədəniyyətlərarası sərişdə, milli kimlik, xarici dillərin tədrisi, mədəni unniversalilər, mədəni fərqlər.*

Ключевые слова: *межкультурная компетенция, национальная идентичность, обучение иностранных языков, культурные универсалии, культурные различия.*

Key words: *intercultural competence, national identity, teaching foreign languages, cultural universals, cultural diversities.*

Məqalə xarici dillərin tədrisi prosesində Avropa Şurasının qloballaşma dövründə, əmək bazarı şəraitində, hər bir sahədə təhsil alan gələcək ixtisasçıların uğurla realizə və adaptasiya olması üçün vacib olan sərişdələr siyahısına daxil etdiyi mədəniyyətlərarası sərişdənin Azərbaycan ali məktəblərində tələbələrdə xarici dillərin tədrisi zamanı formalaşdırarkən onların milli kimliyini saxlayaraq, uğurla dünyaya inteqrasiya etməsi üçün öz doğma, milli mənəvi dəyərlərinə, mədəniyyətinə daha möhkəm yiyələnməsinin vacibliyindən bəhs edilir.

Xalqlar, ölkələr və mədəniyyətlər arasında əlaqələrin getdikcə genişləndiyi, beynəlxalq münasibətlərdə köklü dəyişikliklərin baş verdiyi qloballaşma və inteqrasiya dövründə milli mədəniyyətlərin qarşısında bir sıra mühüm məsələlər durur. Qloballaşma prosesi təkcə mədəniyyətlərin yaxınlaşması və zənginləşməsi ilə müşayiət olunmur, xalqların və ölkələrin mədəni özünəməxsusluğuna, milli kimliyinin qorunub saxlanılması istiqamətində ciddi təhlükələr yaradır. Milli mədəniyyətlərin, milli mənəvi dəyərlərin gələcək taleyi indi bütün bəşəriyyəti düşündürən problemlərdən birinə çevrilmişdir.

Müasir Azərbaycanın banisi olan ümummilli liderimiz Heydər Əliyev dövlətçiliyin, inkişafın əsas amillərindən olan mədəniyyətimizə böyük əhəmiyyət verərək, 13 avqust 2001-ci il tarixli bəyanatında söyləmişdir: *"Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir"* (5).

Milli kimliyimizi hər zaman diqqət mərkəzində saxlayan Ulu Öndər Heydər Əliyev 2005-ci ildədiyi sözlər isə məqaləmizin məqsədini ifadə edir: "Bizim xalqımızın milli –mənəvi ənənələri, mədəni, milli dəyərləri həmişə, əsrlər boyu xalqımızı yüksək mənəviyyat ruhunda tərbiyə edib, böyüdüb, yaşadıbdır. Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi ənənələrimiz, dəyərlərimiz həmişə ən yüksək mənəviyyatı əks etdiribdir.Biz çalışmalıyıq ki, bu mənəvi dəyərlərə daim sadiq olaq. Hər bir gənc öz kökünə sadiq olmalıdır, milli kökünə, mənəvi kökünə sadiq olmalıdır. Bizim o kökümüz çox sağlam kökdür və biz onunla fəxr edə bilərik. Hər bir gəncin həyatda uğurla yaşaması üçün kökünə sadiqliyi ən əsas amildir" (1, s.202).

Avropa ilə Şərqin çulğalaşdığı məkanda yerləşən, bir neçə dinin, mədəniyyətin, sivilizasiyanın birləşdiyi məkan olan, bütün dünyaya birgə yaşayışın uğurlu modelini nümayiş edən ölkəmiz son dövrlərdə bir sıra nüfuzlu beynəlxalq mədəni-humanitar tədbirlərə ev sahibliyi etmişdir. Bu da, dövlətimizin xalqlar və mədəniyyətlər arasında dialoqa necə önəm verməsinin əyani sübutudur. BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, YUNESKO və digər mötəbər beynəlxalaq təşkilatların dəstəyi ilə 2010, 2012-ci illərdə Bakıda I və II Ümumdünya Mədəniyyətlərarası Forumlar, 2011-2019-cu illərdə, I, II və III Bakı Beynəlxalq Humanitar Forumların yüksək səviyyədə keçirilməsi qeyd etdiyimiz fikirləri bir daha möhkəmləndirir.

Bu əməkdaşlıq zəminində Azərbaycan malik olduğu zəngin, Avropa və Şərq mədəniyyətlərinin uğurlu sintezini nümayiş etdirmək və dünyanın digər xalqlarının mədəniyyətlərinin ən yaxşı, dəyərli keyfiyyətləri ilə tanış olaraq qəbul etmək imkanı əldə etmiş olur. Bütün bu imkanlar gənclərin gələcəkdə hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq milli kimliyini, özünəməxsusluğu qoruyub saxlayaraq beynəlxalq, ümumbəşəri mədəni proseslərdə Azərbaycanı uğurla təmsil etmək üçün zəmin yaradır.

Uzaqgörən liderimizin hər bir sahədə uğurla yürütdüyü siyasətin davamı olaraq "2006-2016-cı illər üçün mədəniyyət sahəsində dövlət inkişaf konsepsiyası"nın nəticələri Azərbaycanı beynəlxalq aləmdə tanıtmaqla böyük rol oynamışdır. Bu özünün beynəlxalq təşkilatların, YUNESKO və Avropa Şurasının qərarlarının çərçivəsində Azərbaycanın mədəniyyətinin qorunması, təhsil, iqtisadiyyat, elm ali təhsilli kadr hazırlığı sahəsində, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına olan marağın artmasında göstərməkdədir. Respublikada aparılan təhsil siyasəti, ölkənin inkişafı, ümummilli maraqları nəzərdə tutmaqla bərabər, əsaslı islahatyönümlü tədbirlərin həyata keçirilməsinin vacibliyini şərtləndirir. Bu gün həm dünyada, həm də Azərbaycanda gedən siyasi, iqtisadi, sosial və mədəniyyət dəyişiklikləri hər bir sahədə labüd, konkret vəzifə və məqsədlərin həyata kecirilməsini tələb edir:

- Azərbaycanda açıq vətəndaş cəmiyyətinin qurulması;
- daha demokratik idarəetmə vasitələrindən istifadə edilməsi;
- İnkişaf etmiş ölkələrlə beynəlxalq əlaqələri genişləndirilməsi;
- beynəlxalq iqtisadi və bazar rəqabətini üçün imkanlar yaradıılması;
- milli mənəvi dəyərlərin, mədəniyyətin qorunub saxlanması, aşılanması istiqamətində işlərin görülməsi.

Milli mənəvi dəyərlər, mədəniyyətin qorunması, inkişafı və gənclərə aşılanması perspektivlərinin, dünyada baş verən mədəni proseslərin, mədəniyyətlərarası əlaqə və münasibətlərin genişlənməsi hər zaman aktual olmuşdur. Bunu əsas götürərək mədəniyyətlərarası dialoqun yaradılması bu gün ən əsas məsələlərdəndir. Heç bir mədəniyyət öz kökünə bağlı olmadan mövcud ola bilməz. Eyni zamanda milli mədəniyyətlər təcrid olunmuş, ümumdünya proseslərindən kənar da qala bilməz.

Ölkəmizin təhsil sistemində Avropa İttifaqı ilə yaratdıgı əlaqələr, 2005-ci ildən Boloniya sazişinə qoşulması danılmaz müsbət tərəfləri ilə bərabər mədəniyyətimizin, milli kimliyimizin itməsi, milli eyniləşmə təhlükəsi də yaradır.

Müasir dövrdə milli mədəniyyətin qorunub saxlanması, təbliği və digər nəsillərə ötürülməsi əsasən, təhsil sistemi, kütləvi informasiya və mədəniyyət müəssisələri tərəfindən həyata keçirilir.

Təhsil sistemi ümumiyyətlə yuxarıda qeyd etdiyimiz kimi, gənc nəslin mədəni dəyərlərə yiyələnməsində mühüm rol oynayır. Yaş dövrlərinə uyğun olaraq bu proses təhsil sistemimizin üç mərhələsində baş verir:

1) Məktəbəqədər tərbiyə müəssisələri;
2) Orta ümumtəhsil məktəbləri;
3) Ali məktəblər.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün də cənab prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən siyasət nəticəsində ölkəmizdə bərqərar olmuş siyasi stabillik və yüksək iqtisadi inkişaf tempi bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də ciddi irəliləyişlərə səbəb olmuşdur. Xüsusilə təhsil sistemimizdə beynəlxalq əlaqələr xeyli genişlənmişdir. Hazırda Azərbaycanın ali məktəblərində dünyanın bir çox ölkələrindən olan əcnəbi tələbələr təhsil alır. Dünyanın tanınmış ali məktəblərində Azərbaycanın orta məktəblərini bitirmiş gənclər bakalavriatura səviyyəsində, eləcə də magistratura səviyyəsində yüksək göstəricilərlə ölkəmiz üçün zəruri ixtisaslara yiyələnməklə bərabər Azərbaycanı layiqincə təmsil edirlər.

Azərbaycan təhsil sisteminin dünyaya inteqrasiyası, gənc nəslin əmək bazarında uğurla özünün realizə etməsi üçün artıq tədris proqramları, dərslikləri, tədris materialları günün tələ-

binə cavab vermək üçün mühüm səriştələri tələbələrdə formalaşdırmağa yönəlməlidir. BMT-yə istinad edərək deyə bilərik ki, bu gün dünya istehlakının 50%-dən çoxu müştərək müəssisələr tərəfindən istehsal olunur. Bu rəqəm durmadan artır. Müxtəlif ölkələrdən olan müxtəlif dinlərin, irqlərin, xalqların, mədəniyyətlərin nümayəndələrinin birgə çalışdıqları beynəlxalq müəssisələrdə, təşkilatlarda komandaların sayına nəzər salsaq mədəniyyətlərarası səriştənin gələcək ixtisas sahibləri, xüsusən də dil ixtisasları üzrə təhsil alan tələbələr üçün nə qədər vacib olduğunu izah etməyə ehtiyac yoxdur.

Avropa Şurası artıq müasir informasiya cəmiyyətində, əməkbazarı şəraitində, vacib səriştələr siyahısına mədəniyyətlərarası səriştəni də daxil etmişdir. Bu səriştə əsasən Amerika və Avropa alimləri tərəfindən son onillikdə nəzəri cəhətdən çox tədqiq edilir, müzakirə olunur. Azərbaycanda təhsilin hər bir səviyyəsində xarici dil müəllimləri tələbələrin öyrəndikləri xarici dil və mədəniyyətə nə qədər dərindən yiyələnmələrini və bu mədəniyyətə qarşı həssas olmalarını anlayırlar. Lakin bu məsələnin tədrisdə realizə olunması, səriştənin səviyyəsinin təyin edilməsi, qiymətləndirilməsi sahəsində mühüm işlər görülməlidir.

Mədəniyyətlərarası səriştənin mahiyyətinə, izahına dair bir çox tədqiqatlarla tanış olduqdan sonra, fikrimizcə bizə ən müvafiq, aktual və geniş olanı mədəniyyətlərarası səriştənin görkəmli tədqiqatçılarından olan Durham Universitetinin professoru M.Bayramın verdiyi tərif üzərində dayanmalıyıq: "Mədəniyyətlərarası səriştə deyərkən eyni dərəcədə həm digər mədəniyyətlərin nümayəndələri, həm də öz doğma mədəniyyətinin nümayəndələri ilə uğurla ünsiyyət qurmaq bacarığı başa düşülür" (3).

Ali məktəblərdə xarici dillərin (bizim tədqiqatda ingilis dili) tədrisi tələbələrdə mədəniyyətlərarası səriştənin formalaşdırılması sahəsində böyük imkanlara malikdir. Bu sahədə nəzəri və praktik cəhətdən dərin tədqiqat işlərinə ehtiyac vardır. Bu həm ümumtəhsil, həm ali məktəblərin tədris proqramları, dərsliklər, tədris vasitələrinin tələb olunan səviyyədə, milli mədəniyyətə, mənəvi dəyərlərə əsaslanan, Avropa standartlarına uyğun yeni formatda hazırlanmasını tələb edir. Bu gün qloballaşan dünyada mütərəqqi fikirli alimlər, pedaqoqlar, bütün xalqların hər birinin öz doğma kökünə, mədəniyyətinə, adət-ənənələrinə qayıdış siyasəti yürüdürlər. Bu xarici dillərin tədrisində, mədəniyyətlərarası səriştənin formalaşdırılması qiymətləndirilməsi sahəsində hazırlanan sistem, modellər, tədris vasitələrinin məzmununda özünü əks etdirir. Bu sahədə aparılan tədqiqatlar, elmi müzakirələr üstünlük təşkil edir.

Məşhur amerika tədqiqatçısı S.Hantinqonun qeyd etdiyi kimi "yeni dünyada, insanlar və xalqlar arasında, fərqlər nə ideoloji, nə siyasi, nə də iqtisadi olacaq. Fərq yalnız mədəniyyətlərdə olacaq"(2, p.29-49).

İki yüz əllidən çox tərifi olan "Mədəniyyət" məfhumu bir çox elm sahələri tərəfindən tədqiq edilmişdir. Hər bir elm sahəsi də özünəməxsus yanaşma, təsnifat təqdim edir. Bu anlayış insan fəaliyyətinin hər bir sahəsini əks etdirən çoxcəhətli, mürəkkəb məzmuna malikdir. Cəmiyyət yarandığı dövrdən mədəniyyət müxtəlif formalarda mövcud olmuşdur. Xalqlar, dövlətlər arasında hər bir sahədə əlaqələr sıxlaşdıqca, inteqrasiya və qloballaşma prosesi sürətləndikcə ümumdünya mədəniyyəti, milli mədəniyyətlər və onlar arasındakı münasibət, təsir kimi məsələlər aktuallaşır.

Avropa Şurası ölkələr arasında demokratik vətəndaşlıq və mədəniyyətlərarası dialoq qurmaq sahəsində artıq çoxdandır ki, fəal işlər görür. Avropa mədəniyyət konvensiyası hələ 1954-cü ildə qüvvəyə minmişdir. O dövrdə müharibənin yenicə bitdiyi, acı nəticələrin hələ də yaşandığı, sülhün tam bərqərar olmadığı dövrdə, bu sazişə görə Avropa dövlətləri, millətləri xarici dillərin, tarix və sivilizasiyaları "Ümumi sərvətləri olan ideal və prinsiplərin həyata keçirilməsi və müdafiəsi" uğrunda vahid olaraq öyrənilməsini əsas məqsəd kimi qəbul edirlər.

O vaxtdan başlayaraq Avropa Şurası Avropada baş verən bir çox konflikli situasiyaların qarşısını almaq üçün təhsilin köməyi ilə qarşılıqlı anlaşma və etibar yaratmaqda əsas rol oynamışdır. Təhsil vasitəsilə demokratik cəmiyyətlərin qurulmasında bir çox yeni üzv olan ölkələrə köməklik göstərilmişdir. Artmaqda olan miqrasiya, qloballaşma kimi proseslər insanların

kimliyini, identikliyini məxsus olduqları, mədəniyyəti itirmək təhlükəsi yaradır. Bununla bərabər biz cəmiyyətdə müxtəlif dünyagörüşə, mədəniyyətə malik, fərqli dinə, mənsubiyyətə məxsus insanların birgə sülh və dostluq şəraitində yaşamasının şahidiyik. Bu təqdirə layiqdir və bundan sonra da müxtəlif mədəniyyət nümayəndələrinin ümumi dəyərlərə necə yiyələnəcəyi, mümkün ola biləcək konfliktlərin qarşısı necə alınacağı barədə dərindən düşünərək təhsil, xüsusən də xarici dillərin tədrisi sahəsində mühüm işlər görülməlidir. Xarici dil müəllimləri tədris materialı, xüsusən də autentik məzmunlu dərslikləri hər tərəfli nəzərdən keçirərək tələbəyə təqdim etməlidirlər. Xarici dil dərslərində mədəniyyət ünsürləri tədris olunarkən ən yaxşı metod – doğma və xarici dilin sosiomədəni və praqmatik normalarını müqayisə etməkdir. Xarici dil müəllimləri mədəniyyət vasitəçiləri kimi hər bir metoddan istifadə edərək mədəni müxtəlifikləri eksplisit şəkildə izah edərək fəaliyyət göstərməlidirlər.

Xarici dil (ingilis dili) mədəniyyətlərarası ünsiyyət zamanı prosesin iştirakçıları üçün eynidir və həmsöhbətlərin mədəni mənsubiyyətləri ilə müəyyən olunduğu üçün dil və nitq formalarının məna sistemləri mövcuddur. Mədəniyyətlərarası ünsiyyət zamanı məna ötürülməsi deyil, əməkdaşlıq, birgə yaradıcılıq və birgə inkişaf tələb edən fəaliyyət baş verir (6, s.18).

Əsrlər boyu hər bir sivilizasiya, qurum, cəmiyyət, xalq yaşadığı dövrdə bir nəsildən digərinə ötürülən mədəni irsini yaratmışdır. Beləliklə müxtəlif çoxlu sayda mədəniyyət meydana gəlmişdir. Hər bir mədəniyyət özünəməxsus fərqliliyə malik olsa da, onlar arasında ümumilik – mədəni universalilər mövcuddur. Mədəni universalilər – məkan və zamandan, cəmiyyətin sosial quruluşundan asılı olmayaraq bütün mədəniyyətə məxsus olan normalar, dəyərlər, qaydalar, ənənələr və xassələrdir. Bunlar bütün mədəniyyətdə mövcud olan - əmək bölgüsü, dekorativ incəsənət, qidanın hazırlanması, təmizliyə riayət, yaş qradasiyası, idman, yuxu yozmaları, əməyin kooperasiyası, bəzək əşyaların hazırlanması və başqalarıdır. İnsanlar müxtəlif dillərdə danışsalar da fiziki, bioloji, cəhətdən eynidirlər. Doğulub yaşayaraq ölənə qədər eyni ehtiyaclara malik olduqlarına görə əmək bölgüsü, qida qəbulu, rəqslər, idman, doğum və ölümlə əlaqəli adətlər ünsiyyət formalarının çoxu eynidir.

Eyni zamanda hər zaman mədəniyyətlər arasında fərqlər də olmuş və olacaqdır. İnsan psixologiyası hər bir məfhumda, anlayışda fərqlər axtarır. Bu fərqlərə bəşəriyyətin inkişafının hərəkətverici qüvvəsi kimi baxmaq lazımdır. Bu mədəniyyətlərə baxışda da özünü göstərir. Həyatda bu yanaşma metodu zəruri və qaçılmazdır. Əks halda həyatın rəngarəngliyi görünməz olar. Lakin çox vaxt insanların mədəniyyətlərdə, adət-ənənələrdə, mənəvi dəyərlərdə mövcud fərqlərin oxşarlığını, ümumi cəhətlərini görmək, qiymət vermək, birləşdirmək, ümumiləşdirmək, özününkiləşdirmək zərurətini qəbul etmirlər. Əfsuslar olsun ki, bu gün insanlar ayırmağı birləşdirməkdən, bənzər olanları qarşı-qarşıya qoyaraq, mübahisə, toqquşma, konflikt yaratmağdan üstün tuturlar. Bu bəşəriyyətin, qloballaşan dünyanın ən mühüm problemidir. Bu gün dünyanı bürüyən müharibələr, terror hadisələri, irqçilik, genosid kimi müdhiş aktuallıqları şərtləndirən səbəb – dinləri, mədəniyətləri fərqləndirən, onları bir-birinə qarşı qoyan dünyanı idarə edən insan qruplarıdır, dövlət başçılarıdır. Bəs bu insanlar, liderlər kimlərdir? Çox əfsuslar olsun ki, onlar savadlı, ali təhsilli, bir neçə xarici dil bilən insanlardır. Bir çox qanlı terror hadisələrini törədənlər hətta avropa və amerikanın nüfuzlu universitetlərdə təhsil almışlar. Belə nəticəyə gələ bilərik ki, təkcə ali təhsilə, elmə yiyələnməklə, xarici dilləri bilməklə, rasional ağıla malik olmaqla dünyada sülh yaratmaq, mədəniyyətlərarası dialoq qurmaq mümkün deyil. İnsanları, həqiqi mənada, birləşdirə biləcək yeganə qüvvə hər bir mədəniyyətə, dinə qarşı hörmət, sevgidir. Dilindən, mədəniyyətindən asılı olmayaraq əgər insanların mənəviyyatına sevgi, hörmət, anlaşma hakim kəsilərsə və eyni zamanda öz milli kimliyi, mənəvi dəyərlərini saxlayarsa, onda, mədəniyyətlərin yaxınlaşması bütün dünyada təhlükəsizliyə, sülhə və hər bir sahədə sabit inkişafa nail olunmanın zəruri şərtidir.

Milli kimliyi, milli mənəvi dəyərləri saxlamaqla mədəniyyətlərin yaxınlaşması bütün dünyada təhlükəsizliyə, sülhə və hər bir sahədə sabit inkişafa nail olunmanın zəruri şərtidir. BMT-nin təhsil, elm və mədəniyyət məsələləri üzrə nizamnaməsində deyilir: "İnsan ləyaqətini

qorumaq üçün mədəniyyət ədalət, azadlıq və sülh əsasında bütün insanlar arasında geniş yayılmalıdır. Məhz bu səbəbdən bütün xalqların üzərinə qarşılıqlı əməkdaşlıq ruhunda yerinə yetirilməli olan müqəddəs vəzifələr düşür. Buna görə də onlar dünyanın bütün xalqlarının təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlıq yolu ilə tədricən beynəlxalq sülhə və bəşəriyyətin rifahına nail olmaq məqsədi güdür" (4).

Ədəbiyyat

1. Əliyev.H.Ə. "Azərbaycan gəncləri gününə həsr edilmiş bədii –idman bayramında nitq". 2 fevral 1998. ("Müstəqilliyimiz əbədidir" X1V kitab. Bakı, 2005.).

2. Huntington S. The Clash of Civilizations? // Foreign Affairs, Vol.72. N3. 1993. Summer.

3. M.Byram Teaching–and–learning Language–and–culture / M. Byram, C. Morgan. – Clevedon: Multilingual Matters Ltd, 1994. – 219 p.

4. Mədəni irsin qorunmasina dair normatik hüquq aktlar toplusu. Bakı; Elm, 2001, 240 s, səh

5. Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu /tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011. - 85 s.

6. Сафонова В.В. Изучение языков международного общения в контексте диалога культур и цивилизаций. - Воронеж: ИСТОКИ, 1996. – 237с.

С.Иманова

Важность сохранения национальной идентичности в формировании межкультурной компетенции в обучении иностранных языков

Резюме

В статье рассматривается важность усвоения родной культуры в процессе формирования межкультурной компетенции при обучении иностранных языков. Совет Европы в современных рыночных отношениях включил межкультурную компетенцию в список важных навыков, необходимых для успешной реализации и адаптации будущих специалистов, студентов, обучающихся в разных областях в эпоху глобализации.

S.Imanova

Importance of the Preservation of National Identity in Forming Intercultural Competence during Foreign Language Education

Summary

The paper deals with the intercultural competence - one of the significant key competences included by the Council of Europe to the list of necessary skills in modern market terms for the successful implementation and adaptation of students-future professionals studying in each field in the era of globalization. Learners also need to become aware of their own native cultural background. Therefore, a comparative perspective is needed and foreign language teaching should stimulate students to see both their own culture and foreign cultures from different points of view.

Rəyçi: prof. D.İsmayılova

Redaksiyaya daxil olub: 21.12.2020

Ə.M.KAZIMLI
e-mail: eminekazimli@gmail.com

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

YENİYETMƏLƏRİN HÜQUQ TƏRBİYƏSİNİN VƏZİFƏLƏRİ

Açar sözlər: *hüquq tərbiyəsi, tərbiyənin vəzifələri, hüquq tərbiyəsi üzrə sənədlər,tərbiyənin mərhələləri, əxlaq normaları.*

Ключевые слова: *юридическое воспитание, обязанности воспитания, документы по юридическому образованию, этапы воспитания, нормы морали.*

Key words: *law, education, functions of education, document on law education, periods of education, moral norms.*

Müasir pedaqogikada hüquq tərbiyəsinin vəzifələri belə göstərilir: hüquqa və hüquq normalarına aid gənc nəsldə hissiyatın və biliklərin formalaşdırılması; qanunçuluğa inamın artırılması; hüquq normalarına əməl edilməsi; qanunçuluğun pozulması hallarına qarşı barışmazlıq (4).

Müşahidələr göstərir ki, hüquq tərbiyəsinin ilk mərhələsində hüquqa aid, hüquq normalarına aid uşaqlarda hissiyyat yaradılmalıdır. Uşaqlar anlamalıdırlar ki, cəmiyyətdə, o cümlədən adamlar arasında davranış əxlaq normaları ilə yanaşı, hüquq normalarına uyğun tənzimlənir. Hər bir uşaq hiss etməlidir ki, cəmiyyətdə hüquq normaları mövcuddur. Hüquq tərbiyəsi gənc nəsldə hüquq normalarına dair hissiyatı hüquq normalarına aid konkret biliklərə çevirməlidir. Gənc nəsl cəmiyyətdə hüquq normalarının varlığını nəiniki duymalı, həm də bu normaların nədən ibarət olduğunu bilməlidir. Bilməlidir ki, məsələn, hər hansı formada olursa-olsun müharibə təbliğatı aparmaq – üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır; yaxud, Azərbaycan Respublikasının silahlı qüvvələri sırasına həqiqi hərbi xidmətə növbəti çağırışdan boyun qaçırma – beş ildən səkkiz ilədək müddətdə azadlıqdan məhrum etmə ilə cəzalandırılır; və ya əmək qabiliyyəti olmayan valideynlərin saxlanması üçün məhkəmə tərəfindən müəyyən edilmiş vəsaiti verməkdən qəsdən boyun qaçırma – bir ilədək azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Hüquq tərbiyəsi əsasında yeniyetmələr başa düşməlidir ki, hüquq normalarını bilmək və onlara əməl etmək cəmiyyət və əmin-amanlıq üçün vacibdir. Və əksinə, hüquq normalarına laqeyd qalmaq, yaxud onlara əməl etməmək cəmiyyətdə qarmaqarşıqlığa, özbaşnalığa, cəzasızlığa, əxlaqsızlığa səbəb olur.

Hüquq normalarına əməl etməyin zəruriliyini dərk edən məktəbli nəticə olaraq Azərbaycan Respublikasının dövlətçiliyini, ictimai quruluşunu, onun siyasi və iqtisadi sistemini, mülkiyyəti, vətəndaşların hüquq və azadlıqlarını hər cür cinayətkar qəsdlərdən qorumuş olur.

Həyat faktları göstərir ki, hüquq normalarını bilmək və onlara əməl olunmasının zəruriliyini başa düşmək vacib olsa da, hələ kifayət deyil. Hüquq tərbiyəsi üzrə işi başa çatdırmaq üçün yeniyetmə və gənclər hüquq normalarına praktik şəkildə əməl edilməsi prosesinə qoşulmalıdırlar. Onlar heç bir hüquq pozuntusuna yol verməməlidirlər.

Orta ümumtəhsil məktəblərində daxili nizam-intizam qaydalarına tam əməl edilməsinə, tədris tapşırıqlarının şagirdlər tərəfindən yüksək səviyyədə yerinə yetirilməsinə hüquq normalarının əməl edilməsinin bazası kimi baxılmalıdır. Tədris müəssisəsində daxili nizam-intizam qaydalarını pozmağa meylli olan şagirdlər arasında hüquq normalarına məhəl qoymayanlar çoxluq təşkil edirlər. Orta ümumtəhsil məktəblərində daxili intizam qaydalarına əməl edilmə dərəcəsi ilə hüquq normalarına əməl edilmə dərəcəsi arasındaki asılılıq nəzərə alındıqda hüquq tərbiyəsi zamanı daha çox uğur qazanmaq mümkün olur. Bir sözlə, gəncliyin hüquq fəal-

lığını artırmaq, onu qanunçuluğun və birgəyaşayış qaydalarının mühafizəsində fəal iştirak etməyə hazırlamaq gərəkdir.

Tədqiqat göstərdi ki, hüquq tərbiyəsi o vaxt başa çatmış hesab edilir ki, şagirdlər nəinki hüquq normalarını bilsin və onlara əməl etsin; bundan əlavə, onlar qanunçuluğu qorumağı bacarsınlar, qanun pozuntularına qarşı barışmaz mövqe tutsunlar.

Görkəmli pedaqoqlarımızdan olan A.Abbasov və H.Əlizadəyə görə hüquq tərbiyəsinin vəzifələri bunlardır: Azərbaycan Respublikası Konstitusiyası və ölkənin digər qanunları, vətəndaşların hüquq və vəzifələri, azadlıqları haqqında ümumi anlayış yaratmaq; gənc nəslin öz hüquq və vəzifələrini dərk etmələri, həyata keçirilmə yollarını bilmələri, onlara verilən hüquq və azadlıqlardan istifadə etməklə bərabər, öz vəzifələrini də yerinə yetirmələrinə nail olmaq; hüququn sahələri (dövlət hüququ, cinayət hüququ, mülki hüquq, ailə hüququ, əmək hüququ və s.) ilə şagirdləri tanış etmək; dövlətin müəyyənləşdirdiyi və dövlət tərəfindən mühafizə olunan məcburi rəftar qaydalarını məktəblilərə öyrətmək; məktəb intizamının və davranış mədəniyyəti qaydalarının pozulması hallarına, kobud, ədalətsiz hərəkətlərə mənfi münasibət formalaşdırmaq; asayiş keşiyində dayanan adamların funksiyalarını başa salmaq, həmin şəxslərə, onların əməyinə hörmət hissi tərbiyələndirmək; qanunu, hüquq qaydalarını, birgəyaşayış normalarını pozmağa görə vətəndaşlıq məsuliyyətini formalaşdırmaq; gənc nəslə özünün və başqalarının davranışında nəyin yaxşı, nəyin pis, nəyin ədalətli, nəyin ədalətsiz olduğunu anlatmaq və s. (2, s.151).

Şagirdlərin hüquq normalarına riayət etmək, qanunun tələblərini gözləmək, öz hüquq və vəzifələrini anlamaq ruhunda tərbiyə edilməsi vaxtilə mənəvi tərbiyə üzrə aparılan işin məzmununa daxil idi. Hüquqi şüuru formalaşdırmaq, hüquq mədəniyyəti yaratmaq mənəvi tərbiyənin başlıca vəzifələrindən sayılırdı. Ayrıca "huquq tərbiyəsi" anlayışı mövcud deyildi və bu ifadə XX əsrin 70-ci illərindən geniş surətdə işlənməyə başladı və huquq tərbiyəsi mənəvi tərbiyədən ayrılaraq tərbiyənin müstəqil tərkib hissəsi statusu aldı.

Hüquq tərbiyəsinin ümumi tərbiyənin ayrıca sahəsi, müstəqil tərkib hissəsi kimi götürülməsi onun qarşısında duran vəzifələrin genişlənməsi, qanunun tələblərini yerinə yetirməyin son dərəcə vacib olmasının hər bir şəxsə, o cümlədən məktəblilərə şüurlu surətdə dərk etdirilməsi; hüquq tərbiyəsi üzrə işin məzmunca zənginləşməsi zərurətə çevrildi.

Respublikamızda pedaqoji elmin inkişafında xüsusi xidmətləri olan prof. Ə.Ş.Həşimovun və prof. F.B.Sadıqovun "Pedaqogika" (Bakı, 1992) adlı dərs vəsaitində yazılır: "Hüquq tərbiyəsinin məqsədinə va məzmununa aid yuxarıda deyilənləri nəzərə alaraq ümumtəhsil məktəblərində onun başlıca vəzifələrini müəyyənləşdirə bilərik. Konkret olaraq həmin vəzifələr bunlardır: şagirdlərin hüquq düşüncəsini formalaşdırmaq, onlara hüquqi mədəniyyət, hüquq normaları, dövlət, idarəçilik, ictimai asayişin və qanunçuluğun mühafizəsi, siyasi baxışından və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların qanun qarşısında bərabərliyi, birgəyaşayış qaydaları və s, haqqında müvafiq nəzəri məlumat vermək; qüvvədə olan hüquq əsasında təşəkkül tapmış ictimai münasibətlər sisteminə, konstitusiyaya şagirdlərdə rəğbət və məhəbbət hissi doğurmaq; onlarda ədalətli hüquq normalarına və qanunlara sözsüz əməl etməyə tələbat oyatmaq; uşaqların sosial-hüquqi fəallığını yüksəltmək, onları respublikamızdakı qanunçuluğun və birgəyaşayış qaydalarının mühafizəsində fəal iştirak etməyə hazırlamaq; məktəbliləri hüquqi qanunçuluğun hər hansı pozuntularına, qanunsuz aktlara qarşı fəal mübarizə ruhunda tərbiyələndirmək və onları konstitusiya hüquqlarından səmərəli istifadə etməyə alışdırmaq.

Sadalanan vəzifələri günün tələbləri səviyyəsində həyata keçirmək məktəbdə qanunçuluq prinsiplərinin reallaşmasına, əmək və təhsil intizamının möhkəmləndirilməsinə müsbət təsir göstərər." (3, səh.182).

Hüquq tərbiyəsi hüquqi biliklər və hərəkətlər vasitəsilə böyüyən nəsildə qanunçuluğa riayət vərdişləri, hüquqi təfəkkür formalaşdırır. Hüquq tərbiyəsi hüquq normalarına aid bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesidir. Hüquq tərbiyəsi şagirdlərdə belə bir əqidəni

formalaşdırır ki, hüquq qanunlarını pozan hər bir kəs, kimliyindən asılı olmayaraq, lazımi cəzasını almalıdır. Ədalətli cəmiyyətdə münasibətlər (dostluq, qohumluq və s.) deyil, hər şeyi qanun həll edir. Buna görə də hüququn başlıca vəzifəsi cəmiyyətdə mövcud olan ictimai münasibətləri qoruyub saxlamaqdan ibarətdir.

Ədəbiyyat

1. Abbasov A.N. Seçilmiş pedaqoli əsərləri. 3-cü cild, B., 2017.
2. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Dərs vəsaiti. B., 2000.
3. Həşimov Ə.Ş., Sadıqov F.B. Pedaqogika. B., 2016.
4. Kazımov N.M. Məktəb pedaqogikası. B., 2009.

A.M.Kязимли

Обязанности юридического воспитания подростков

Резюме

В статье выяснена суть содержания юридического воспитания школьной молодежи на основе государственных документов и современных педагогических теорий. Также прокомментированы пути и возможности прививания юридического воспитания школьной молодежи. Статья может быть полезна не только педагогам, но и родителям.

E.M.Kazimli

Functions of law education of pupils in modern schools

Summary

In article lighted the structure of law education of pupils-students on the basis public documents and contemporary pedagogical theories. Also were described the ways and methods of improvement of law education of pupils-youth. Article is useful for pedagogs, also parents.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 26.10.2020

H.Q.KƏRİMOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

ŞAGİRDLƏRİN ÖZÜNÜTƏRBİYƏ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI

Açar sözlər: *özünütərbiyə, fəaliyyətin stimullaşdırılması, şagird, rəğbətləndirmə, cəzalandırma*
Ключевые слова: *самовоспитание, деятельность активизации, учащийся, расположение*
Key words: *self-education, stimulation of creation, sympathy, penalty*

Şagirdlərin özünütərbiyə işinin fəallaşdırılmasında fəaliyyətin stimullaşdırılması xüsusi yer tutur. Məqalənin əsas məqsədi bu məsələlərlə bağlı ədəbiyyatlarda verilən fikir ayrılığına aydınlıq gətirməkdir. Bir çox tədqiqatçılar, L.İ.Ruvinski (1), L.Y.Qordin (3), B.Q.Ananyev (4), V.Y.Qumurman (5) əsərlərində davranış və fəaliyyətin pedaqoji stimullaşdırılması metodlarını araşdırmış, bizim aşağıda sadalayacağımız bütün pedaqoji vasitələrdən və metodlardan səmərəli şəkildə istifadə etməyin vacibliyini qeyd etmişlər.

Özünütərbiyə fəaliyyətinin stimullaşdırılması sistemində rəğbətləndirmə, cəzalandırma və yarış mühüm yer tutur.

Özünütərbiyə işinin rəğbətləndirilməsi şagirdə müsbət keyfiyyətlərin aşılanmasına, öz imkanlarına inamın yüksəlməsinə, müsbət davranışın stimullaşdırılmasına kömək göstərir, özünütərbiyəni nümunə əsasında həyata keçirməyə alışdırır. Lakin rəğbətləndirmənin əhəmiyyətini mütləqləşdirmək düzgün deyildir. Özünütərbiyə sahəsində fəaliyyət bəzən şagirddə "özündən razılıq", müştəbehlik, özünə toxtaqlıq vermə kimi mənfi keyfiyyətlərin əmələ gəlməsinə aparıb çıxarır ki, bu da özünütərbiyə işinin səmərəli getməsinin qarşısını alır.

İlk baxışda adama elə görünür ki, şagirdə xəbərdarlıq etməklə bu mənfi cəhəti aradan götürmək mümkündür. Yəni uşağı tərifləmədən də keçinmək mümkündür. Lakin rəğbətləndirmənin nəticəsi bir sıra hallarda müxtəlif olur. Məktəbli həvəsləndirilərkən öz üzərində işləməkdən razı qala bilər və müəyyən dərəcədə əldə olunmuş nəticə onu gələcək fəaliyyətdən çəkinməyə sövq edər. Müştəbehlik kimi mənfi keyfiyyətin yaranmaması üçün şagirdi öz üzərində işləməyi davam etdirməyə alışdırmaq lazımdır.

Rəğbətləndirmə təsir ölçüsü kimi şagirdin özünə qiymətindən asılı olaraq bir sıra xüsusiyyətlərə malikdir. Gücünə, imkanlarına arxayın olmayan uşaqları, adətən layiq olduqlarından artıq həvəsləndirirlər. Bunun da səbəbi odur ki, həmin şagirdlər tərbiyəçinin etimadını itirməmək, özlərini doğrultmaq üçün öz üzərində daha yaxşı çalışmağa başlayırlar. Lakin öz qüvvəsini, imkanlarını həddindən artıq şişirdən uşaqlar üçünsə rəğbətləndirmə məhdudlaşır.

Birinci halda şagirddə müştəbehlik, ikinci halda inamsızlıq kimi mənfi xüsusiyyətlərin əmələ gəlməsinə yol vermək olmaz. Əks təqdirdə formal rəğbətləndirmə məktəblilərin öz öhdəliklərinə müəllimlər, kollektiv, böyüklər qarşısında "borc" kimi münasibət yarada bilər.

Tədqiqat belə bir nəticəyə gəlməyimizə əsas verir ki, şagird yalnız öz tələbləri ilə şəxsi keyfiyyətləri arasındakı ziddiyyəti aydın anladıqdan sonra, onda şəxsiyyətin daxili ziddiyyətləri, insanın öz-özünə münasibətində ziddiyyətlərin formalaşması və öz-özündən narazılıq yaranır ki, bunlar da məktəblini aktiv fəaliyyətə istiqamətləndirir. Bu vaxt şagird uğursuzluğun səbəbini öz çatışmamazlıqlarında görür, Belə vəziyyəti nəzərə alaraq, yaxşı olar ki, məktəblilərə məqsəd və planlarının həyata keçirməyə çalışan çatışmamazlıqlar və bunların mənfi nəticələri başa salınsın. Öz qüsurlarının şəxsi mahiyyətini anlamaq, özündən narazılıq şagirddə səhvlərini düzəltmək istəyi yaradır.

Əgər məktəbli öz çatışmamazlıqlarının və yaxud səhvlərini başa düşmürsə, onları yalnız tərbiyəçidən eşitməklə kifayətlənirsə və bunları mücərrəd şəkildə təsəvvürünə gətirirsə, bütün

bu qüsurlarını özününkü kimi qəbul etmir. Təcrübə göstərir ki, heç də həmişə səhvlərin, çatışmamazlıqların sadəcə izahı şagirddə daxili narazılıq yaratmır. Bu biliklər formal olaraq, söz şəklində qalaraq fəaliyyətin mahiyyətinə təsir etmir.

Bu zaman pedaqoji tələbkarlıqdan, ictimai rəydən və ixtilaflı, vəziyyətlərdən də müvəffəqiyyətlə istifadə etmək mümkündür.

Daxili ziddiyyətlərinin formalaşmasında, çatışmamazlıqların başa düşülməsində və onların aradan qaldırılmasında cəzalandırma da mühüm əhəmiyyət daşıyır. Lakin cəza müsbət təsirlə yanaşı, mənfi, nəticəyə gətirib çıxara bilər. Bu, cəzanın düzgün verilmədiyi halda baş qaldırır və şagirdlə tərbiyəçi arasında olan yaxşı münasibət pozur, hətta məktəblini digər mənfi hərəkətlərə istiqamətləndirir. Odur ki, cəzalandırma metodunun tətbiqində bəzi cəhətlərin nəzərə alınması vacibdir: birincisi, cəzalandırma zamanı şəxsiyyətin qüsurları diqqətdən yayınmamalıdır; ikincisi pis hərəkətlərin motivlərinin nədən ibarət olduğu aydınlaşdırılmalıdır. Çünki ola bilər ki, şagird yaxşı bir hərəkət etmək istərkən, səhvə yol vermişdir.

Əgər hərəkət şəxsiyyətin çatışmamazlığından, onun pis vərdişlərindən, adətlərindən irəli gəlirsə, onda cəza səmərəli təsir vasitəsi ola bilər.

Prof. M.Ə.Muradxanov "Məktəblilərin iradə tərbiyəsinin prinsip və üsulları" (6) əsərində qeyd edir: "Uşaq əxlaqı hərəkət edərkən onu tərifləyirlər. O bundan həzz alır. Bu zaman tərifləmələ yaxşı hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq həmin həzz hissini bir də yaşamaq üçün yenə əxlaqi hərəkət edir. Eləcə də pis hərəkət cəza ilə nəticələnir. Uşaq isə cəzadan kədərlənir, iztirab çəkir. Bu iztirab hissi ilə, pis hərəkət arasında assosiativ əlaqə yaranır. Uşaq bir daha həmin iztirab hissini yaşamamaq üçün o hərəkətdən daşınır. Yaxşı hərəkət üçün rəğbətləndirmə və pis hərəkət üçün cəzalandırmanın əxlaqa təsirinin mexanizmi belədir"(6, s.31). Prof. N.M. Kazımov özünütərbiyəni tərbiyə prosesinin zəruri yüksək pilləsi hesab edir. Burada tənqidi əsas amil kimi götürür (2, s.137).

Tənqid, nəinki tərbiyədə, həmçinin özünütərbiyədə də böyük əhəmiyyətə malikdir. Tənqid şagirdə öz çatışmazlıqlarını başa düşməkdə və onları aradan qaldırmaqda kömək edir. Şəxsiyyətin xarakterindən, şəraitdən və hərəkətdən asılı olaraq, tənqid yumşaq, yaxud da kəskin ola bilər. Hər iki halda o, nikbin səciyyə daşımalıdır. Valideyn uşağı tənqid etməklə yanaşı, həm də səhvlərin yeniyetmənin öz gücü ilə aradan götürülməsi imkanları haqqında da məsləhətlər verməlidir. Bu vaxt uşağı öz gücünə inandırmaq əsas şərtdir. Bunsuz özünütərbiyə mümkün deyildir.

Uşaqların tərbiyəsi üçün onların yaş dövrünə uyğun olan səciyyəvi cəhətləri bilməklə yanaşı, onların fərdi, özünəməxsus xüsusiyyətlərindən də xəbərdar olmaq lazımdır. Yalnız bu halda valideyn öz çatışmamazlıqlarını və səhvlərini aradan qaldırmaqda övladına kömək göstərər.

Ailədə bütün uşaqlarla tərbiyəvi işləri eyni metodlarla yerinə yetirmək mümkün deyil. hər bir böyük məktəb yaşlı uşağa fərdi yanaşmaq, hansı xoşagəlməz hərəkətə yol verməsindən, asılı olmayaraq, həmişə onun şəxsiyyətinə hörmətlə uzlaşmalıdır. Bundan əlavə, bu və ya digər uşağın vəziyyətini öyrənməklə ona tərbiyəvi təsir göstərmək gərəkdir. Çünki vəziyyətdən asılı olaraq, ailədəki psixoloji vəziyyət bəzən hər hansı tənqid, məsləhət və yaxud uşaq tərəfindən qəbul da ola bilər, inkar da. B.Q. Ananyev ailədəki psixoloji iqlimin uşağa təsirinin hədsiz olduğunu qeyd edərək yazır: "Uşaq sizin danışığınızın tonundakı azacıq dəyişikliyi görür və hiss edir, ağlı-qaralı bütün fikirləriniz gözəgörünməz yollarla onlara çatır"(4, s.347).

Stimullaşdırmanın digər metodu yarışdır. Yarış insanın sosial həyat fəaliyyətində lazımi əxlaqi hisslərin ilkin rüşeyimlərini möhkəmləndirən başlıca yoldur. Möhkəm əxlaqi-pradi keyfiyyətlər üçün şagirdlərdə öz qüvvələrinə inam, şəxsi ləyaqət, mərdlik, mübarizlik, xeyirxahlıq və sadəlik hissi formalaşdırmaq yarışların başlıca vəzifəsidir. Yarış məktəblini özünü bir şəxs kimi idarə edə bilməsi, qarşıya qoyduğu məqsəd üçün manea və çətinlikləri aradan qaldırmağa, bilik, bacarıq və vərdişlərin köməyi ilə öz qüvvəsini səfərbərliyə almaq yoludur.

Ədəbiyyat

1. Рувинский А.И. Теория самовоспитания. М.: Изд. Московского управления. 2010.
2. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, OKA Ofset, 2016.
3. Гордин Л.Ю. Поощирение и наказание в воспитаний детей. М.: Знание, 2011.
4. Ананьев Б.Г. Психология педагогической оценки. Л.: изд-во ин-та мозга, 2015.
5. Гмурман В.Е. Пооширение и наказание в школе. М.: Знание, 2017.
6. Muradxanov M.Ə. Məktəblilərin iradi tərbiyəsinin prinsip və üsulları. Bakı, Maarif, 1973.

Г.Г.Керимова

Стимулизация деятельности учащихся по самовоспитанию

Резюме

В статье с точки зрения современного подхода к системе организации самовоспитания учащихся исследованы методы самовоспитания. Далее выясняются методы педагогической активизации поведения и деятельности учащихся, а также возможные пути рационального использования этих методов. Статьей могут пользоваться учителя - практики, организаторы воспитательной работы в школах.

H.G.Karimova

Stimulation of self - education creation of higher school pupils

Summary

In article have been investigated the contemporary view to the stimulation of self-education activities of higher class pupils and its methods. Also in article lighted the pedagogical stimulation kind’s methods and view to these methods. Article is useful for practical teachers, also for assistant directors.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 24.10.2020

L.E.MAHMUDOVA

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI İNTERNET ƏSASLI DİL TƏLİMİNİN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

Açar sözlər: *internet, texnoloji vasitələr, material seçimi*
Ключевые слова: *интернет, технологические инструменты, выбор материала*
Key words: *internet, technological tools, material selection*

Respublikada baş verən dəyişikliklər, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid və informasiya əsrinin tələbləri təhsil sahəsində bir sıra dəyişikliklər aparılmasını aktuallaşdırır. Təhsil sahəsində aparılan islahatların əsas vəzifələrini dünya təhsilinin qabaqcıl təcrübəsini öyrənmək, mütərəqqi, faydalı cəhətlərini milli və tarixi dəyərlərimizi nəzərə almaqla tətbiq etmək, öyrənənlərin təlim nəticələrini yüksəltməklə təhsilin keyfiyyətini artırmaq, şəxsiyyətyönümlü təhsilə nail olmaq üçün müxtəlif yanaşmalar işləyib hazırlamaqdır. Bu təhsil yanaşmalarının əsasını internet vasitələrinin təlim prosesinə cəlb edilməsi məsələsi əhatə edir.

Xarici dil dərslərində internet əsaslı dil təliminin tətbiqi zamanı tələbələrin hədəf dil biliklərini zənginləşdirmək, onların idrak, ünsiyyət və psixomotor fəaliyyətlərinin təşkili üçün tapşırıqların tərtibi məsələsinə diqqət etmək lazımdır. Tapşırıqların tərtibi zamanı onların ardıcıl, sistemli düşünməsini təşkil edə bilən olmasını şərtləndirən məsələlər aşağıdakı mərhələlərdə təqdim edilir:

- problemli vəziyyət yaradılması və suallara həmin vaxt cavab verməyin mümkün olması;
- problemi təhlil yolu ilə aydınlaşdırmağa ehtiyac olması;
- uyğun faktların toplanması;
- problemin həllinin mümkün izahı və ya alternativ həlli olan fərziyyələr formalaşdırılması;
- uyğun materiallarla fərziyyələrin yoxlanılması;
- problemin həlli olan nəticələrin çıxarılması.

İnternet əsaslı dil təlimi inteqrativ yanaşma əsasında qurulur. Burada internet əsaslı dil təliminin tətbiqi zamanı texnologiyaların işlənmə xüsusiyyətləri və praktik bacarıqların formalaşdırılması üçün istifadə olunacaq mənbələrin müəyyənləşdirilməsi məsələləri vurğulanır.

Pedaqoji kadr hazırlığı baxımından yüksək biliyə və təcrübəyə malik tələbələrin yetişdirilməsi üçün internetdən istifadənin mühüm əhəmiyyəti vardır. Sayers internetdən istifadənin aşağıdakı üstünlüklərini qeyd edir:

- Təcrübi öyrənmə - internet vasitəsilə istənilən sayda insanların təcrübələri barədə məlumat əldə mümkündür. Bu zaman onların çevik düşüncə qabiliyyətləri inkişaf edir və özlərinə faydalı olacaq materialları seçə bilmək imkanı əldə edirlər.
- Motivasiya – əyləncə və oyunlar vasitəsilə tələbələrin dilöyrənmə prosesinə təsir edir. Tələbələrin müstəqilliyini artırmaq üçün onlara müxtəlif fəaliyyət nümunələri təqdim olunur.
- Tələbələrin nailiyyətlərinin artırılması – tələbələrdə fərdi potensialının inkişafını təmin edən və müstəqil tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasına təsir edən dil biliklərin möhkəmləndirilməsinə əsaslanır.
- Autentik materiallardan istifadə - hər bir tələbə günün istənilən vaxtı və istənilən yerdə autentik materialları oxuya bilər.

- Ünsiyyət – hədəf dil daşıyıcıları, həmçinin öz yoldaşları ilə internet vasitəsilə müxtəlif proqramların köməyi ilə əlaqə qurmaq mümkündür.
- Fərdiləşdirmə - utancaq və özünəqapanan təhsilalanların tələbəyönümlü dərs prosesinə cəlb edilərək və yaxud, sərbəst formada dil biliklərinə yiyələnməsinə imkan yaradır.
- Tək informasiya mənbəyindən asılılıq – öyrənənlərin tək bir kitabdan deyil, minlərlə əlavə mənbədən bilik əldə etməsi vurğulanır. Nəticədə, təhsilalanlar fərqli mədəniyyətlərə malik mənbələrdən faydalı biliklər əldə edir.
- Qlobal anlama – xarici dil mədəni konteksdə öyrədilir. Dünyada internetdən istifadə geniş yayılmışdır. İngilis dili müəlliminin üzərinə düşən vəzifə öyrənənləri internetdən ehtiyac duyduqları məlumatları almaq üçün istiqamətləndirmək və onları qlobal səviyyədə dildən ünsiyyət vasitəsi kimi istifadə etməyə həvəsləndirməkdir [3, s.1].

Xarici dil dərslərində məlumatlar toplamaq, toplanmış məlumatlardan əldə edilmiş qənaətləri hər hansı məsələyə tətbiq etmək, mülahizələr yürüdüb nəticələr çıxarmaq kimi fəaliyyətlər problemin həllinə nail olmaq üçün mərhələli şəkildə ayrı-ayrı təlim proseslərinin məqsədi ola bilər. Lakin, təfəkkürün növlərini vəhdət şəklində inkişaf etdirmək və problemlərin həlli üçün kompleks səkildə tətbiq etmək lazımdır. İnternet əsaslı dil təlimi lazım olan məlumatları müxtəlif mənbələrdən əldə edərək problemin həllində istifadə etmək imkanı verir. Mövcud olan digər mənbələrdən (dərslik, qəzet, jurnallar və s.) fərqli olaraq internetin üstünlüyünü aşağıdakı kimi vurğulamaq olar:

- Tələbələr məlumat əldə edərkən sinif otağını tərk edib kitabxanaya getmək zərurəti yaranmır.
- İnformasiya – kommunikasiya texnologiyaları (İKT) vasitəsilə internet səhifələrində aparılan araşdırmalar problemi həll edərkən mühüm məlumatları toplamaq və konkret problemi həll etmək üçün imkan yaradır.
- Son dərəcə intensiv informasiya mənbəyi olan internet səhifələrindən ən son məlumatları əldə etmək imkanı verir.
- İnternet vasitəsilə əldə edilən informasiya və faktların yerindəcə tətbiqi üçün imkanlar mövcuddur.

Məhz bu səbəbdən vurğulamaq olar ki, internet əsaslı dil təliminin tətbiqi təhsilin müasirləşməsi və yenilənməsi baxımından mühüm əhəmiyyətə malikdir.

İnternet əsaslı dil təlimi öyrənənləri hazır şəkildə informasiya əldə edənlərdən onların tədqiqatçılıq yolu ilə bilikləri kəşf edən tələbələrə çevrilməsini təşkil edir. C. Riçards ənənəvi təlim metodları ilə müasir yanaşmaları dərsin tələbəyönümlü təşkil olunması və müəllimin yaradıcılıq potensialına əsasən fərqləndirir. O deyir ki, tələbələrin fərdi öyrənmə tərzləri və öyrənmə strategiyaları vardır. Müəllimlər öyrənmə proqramlarını inkişaf etdirməli, təhsilalanların maraq və tələbatlarına uyğun dərsləri təşkil etməlidirlər. Otaq şəraitdən asılı olmayaraq seçilən metodun tələblərinə tam əməl etmək lazımdır [5, s.247]. Ç.Hadfild isə vurğulayır ki, əgər müəllim səhrada tək bir çubuqla nəsə öyrədə bilmirsə, onda onun tələbələrinin müasir təlim texnologiyaları ilə müvəffəqiyyət əldə etməsi mümkünsüzdür [5, s.192]. Bu baxımdan, internet əsaslı dil təliminin prinsipləri və mahiyyəti tam dərk olunduqdan sonra onu dərs prosesində tətbiq etmək olar.

İngilis dilinin tədrisi zamanı internet əsaslı dil təliminin tətbiqində aşağıdakı meyarlar nəzərə alınmalıdır:

- Vaxt məhdudiyyətləri;
- Tələbələrin internetə çıxışları;
- Əvvəlcədən tələbələrin internet funksiyaları barədə məlumatı;
- İnternetdən istifadə şərtləri;
- Tələbələrin iştirakı [3, s.1].

Müşahidələr göstərir ki, ingilis dili dərslərində müxtəlif mobil tətbiqlərin inteqrasiyası təkcə müəllimlərə deyil, eyni zamanda tələbələrə də hədəf dil biliklərinə yiyələnmək üçün kömək edir. Dərs buraxdıqda və yaxud, öyrədilən materialla bağlı sualları olarsa, onları istənilən zaman cavablandırmaq mümkündür. İnternet vasitəsilə tələbələrin yazı materiallarını təhlil edərkən onların köçürmə və ya öz məhsulları olduğunu müəyyənləşdirmək, leksik biliklərini dəyərləndirmək asandır [5, s.372].

Hal-hazırda internet geniş öyrənmə mühitini əhatə edir. Distant təhsil və yüksək sürətli interaksiya dilöyrənənlər üçün geniş imkanlar yaradır. İngilis dilinin tədrisində internetdən istifadə olunması müəllimlərin üzərinə bir sıra öhdəliklər qoyur. Ənənəvi dil təlimindən fərqli olaraq müasir təlimdə müəllimlər yalnız informasiya ötürücüsü deyil, tələbələrin bilik və bacarıqlarının inkişaf etdirilməsinə kömək edən fasilitator roluna sahib olurlar. Burada müəllimlər xüsusilə texnologiya seçiminə diqqət etməlidirlər. Qomesin araşdırmalarına əsasən pedaqoji və didaktik tədrisin rəqəmsal təlimin və texnoloji biliyin tətbiqi ilə əlaqədar çatışmazlığı müasir texnologiyaların sinif təcrübəsinə cəlb olunmasına əngəl yaradır [2, s.372]. Eyni zamanda, qeyd etmək lazımdır ki, təlim prosesi zamanı düzgün seçilməyən texnoloji vasitə nəinki fayda verməz, əksinə ona mənfi təsir göstərə bilər.

Pedaqoji prosesinin inkişafyönümlülük və dəstəkləyici mühitin yaradılması prinsiplərinə əsasən təhsilalanların inkişaf səviyyələrini tənzimləyə bilmək, həmçinin tədris prosesini zəruri maddi texniki baza əsasında qura bilmək üçün imkan yaratmaq lazımdır. Xarici dillərin tədrisi zamanı internetdən istifadə təhsilalanların dil bacarıqlarının formalaşdırılması, məntiqi, tənqidi, yaradıcı təfəkkür fəaliyyətinin çevikliyinin təmin olunması və tələbələrin tədqiqatçılıq qabiliyyətlərinin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyətə malikdir. İnternet əsaslı dil təliminin tətbiqi zamanı dilöyrənənlər birgə fəaliyyətə cəlb edilərək müsbət öyrənmə mühitinə cəlb edilirlər. İnternet vasitəsilə birgə öyrənmə planlaşdırılmış və planlaşdırılmamış sosial ünsiyyət prosesində həyata keçirilir. Öyrənmə mühiti mövzuya müntəzəm maraq və yüksək nailiyyətlərin əldə edilməsi ilə nəticələnən interaktiv təlim tələb edir.

Ədəbiyyat

1. Harmer J. The practice of English language teaching. UK: Pearson, 2015, p. 446
2. Khalid A.B. Barriers to the successful integration of İCT in teaching and learning environments: a review of the literature. Ejmste. Vol.5, No.3, 2009, p.235-245
3. Lee J. The internet for English-language teaching. The Reading Matrix, Vol.1, No.2, 2001
4. Richards C.J., Rodgers S.T. Approaches and methods in language teaching. UK: Cambridge University Press, 2013, p.270
5. Ulla B.M., Perales F. W., Tarrayo N.V. Integrating internet-based applications in English language teaching. Issues in Educational Research, Vol. 30, No. 1, 2020, p. 365-378

Л.Э.Махмудова

Важность применения обучения языка через интернет в обучении английскому языку в вузах

Резюме

В настоящее время интернет играет важную роль и имеет большой потенциал в преподавании английскому языку. Анализируются основные факторы, обуславливающие обучения языка через интернет в обучении иностранный языку. В статье говорится о преимуществе интернета и выборе материала. Комментируются специфические особенности формирования преподавания и изучения языков через интернет.

L.E.Mahmudova

The importance of the implementation of internet-based language teaching in teaching the English language in education institutions

Summary

Nowadays internet has a crucial role and great potential in English language teaching. It is analysed the main factors causing implementation of internet-based language teaching in foreign language teaching. The article deals with the advantages of internet and material selection. It is explained specific features of internet-based language teaching and learning.

Rəyçi: filol.f.d. V.Z.Babayeva

Redaksiyaya daxil olub: 02.11.2020

E.D.MƏMMƏDOV
e-mail: musiqimektebi.3nomreli@mail.ru

Gəncə şəhər 3 №li Uşaq Musiqi məktəbi
(Gəncə şəh., Dədə Qorqud küç., 182)

ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI İMKANLARI

Açar sözlər: *diyarşünasıq materialları, şəxsiyyətin formalaşdırılması, tərbiyə, psoxoloji inkişaf, sosioloji keyfiyyət.*

Ключевые слова: *материалы краеведения, формирование личности, воспитание, психологическое развитие, сосциологическое качество.*

Key words: *local history materials, the formation of personality, upbringing and development of psychological, sociological quality.*

Şagird şəxsiyyətinin formalaşması mürəkkəb, uzun sürən bir prosesdir, tərbiyəçidən, müəllim və valideynlərdən gərgin zəhmət, xüsusi qayğı, təmkin, hövsələ, dözüm tələb edir. Həm də tərbiyəvi təsirin bütün formalarının kompleks tətbiqi şəraitində məktəbli şəxsiyyəti tam formalaşa bilər. Söz sənəti və bədii xalq yaradıcılığı nümunələri, tədris fənni kimi ədəbiyyat və musiqi fənləri bu sahədə hüdudsuz imkanlara malikdir, gənc nəsildə dünyaya konseptual baxışın, əqidənin, əxlaqi prinsiplərin, milli-mənəvi dəyərlərin, o cümlədən, milli mədəniyyətimizin, milli musiqimizin və digər fəaliyyət motivlərinin tərbiyə olunmasına çox geniş imkanlar yaradır.

A.Q. Kovalyovun təbirincə desək, "şagirdlərə dünyanın elmi mənzərəsi haqqında biliklər verən və dünyada insanın yerini göstərən təbiət fənlərindən fərqli olaraq ədəbiyyat və musiqinin vəhdəti insan tərbiyəsinin ən qüdrətli vasitəsinə çevrilir, təbiətə, təbii mühitə münasibətdə müəyyən davranış normalarını formalaşdırmaq, onunla ahəngdarlığa cəhd insan rifahı naminə biosferin optimallaşdırılmasının vacibliyini dərk etmək kimi vəzifələrin həyata keçirilməsinə imkan verir" (4, s.72).

Ədəbiyyat dərslərində diyarşünaslıq materiallarına, musiqi dərslərində isə xalq yaradıcılığına müraciət olunması, onlardan tərbiyəvi məqsədlər üçün istifadə edilməsi şagird şəxsiyyətinin formalaşmasını və milli zəmində inkişafını təmin edir. Məlum olduğu kimi, bizi əhatə edən aləmlə, təbiətlə tanışlıq, yurdumuzun təbiətinə, onun mədəniyyətinə aid məlumatlara yiyələnmək diyarşünaslıq işinin mühüm cəhətlərindəndir. Gəncə şəhəri 28 №li tam orta məktəbdə və Gəncə şəhər 3 №li Uşaq Musiqi məktəbində pedaqoji müşahidələrin, şagirdlərlə anket sorğularının və onların yazdıqları inşaların və musiqi ifalarının təhlili şagirdlərin Azərbaycan təbiətinə münasibətinin formalaşmasında bədii ədəbiyyatın və xalq musiqisinin rolunu bir daha aşkarladı. Aparılmış sorğulardan görünür ki, təbiətin incəsənətdə (xüsusən də, insanı riqqətə gətirən musiqimizdə) təsviri real həyatda olduğu kimi şagirdləri özünə cəlb edir.

Müşahidələr göstərir ki, sinifdən sinfə keçdikcə təbiətin əsrarəngiz gözəlliklərini, flora və faunasını təsvir və tərənnüm edən bədii ədəbiyyata və muciqiyə maraq artır.

Bəzi şagirdlər etiraf edirlər ki, əsrlər boyu xalqın yaratdığı sənət və musiqi əsərləri ilə yaxından tanış olmaq onlarda doğma diyara, onun təbiətinə, tarixinə, musiqisinə, milli adət-ənənələrinə, görkəmli adamlarına, xalqımızın adət və ənənələrinə, qəhrəmanlıq səhifələrinə rəğbəti, hörmət və ehtiramı yüksəldir. Məktəblilərin qənaətincə, şerin və musiqinin təsiri ilə onlar ətraf aləmi, gerçəkliyi daha doğru-düzgün qavrayırlar. Bu baxımdan orta ümumtəhsil məktəblərində musiqi və ədəbiyyat dərslərinin qarşılıqlı-əlaqəli tədrisi zəngin təhsilləndirici, tərbiyələndirici və inkişafetdirici imkanlara malikdir. Belə ki, ayrı-ayrı mövzular şifahi xalq yaradıcılığı, yazılı ədəbiyyatımızın ümumi inkişaf yolları, müxtəlif dövrlərdə yaşayıb-yarat-

mış bu və ya digər şair və bəstəkarların həyat və yaradıcılığı, əsərləri və s. haqqında şagirdlərə biliklər verilir, başqa sözlə, təlimin təhsilləndirici funksiyası yerinə yetirilir.

Uşaq Musiqi məktəbində də təlim prosesində şagirdin dünyagörüşünün və şəxsiyyətinin formalaşdırılması ümumi məqsəd kimi irəli sürülür və həyata keçirilir. N.M. Kazımov yazır ki, "Təlim və tərbiyənin bütün tərəflərinin qarşılıqlı əlaqəsini səmərəli şəkildə təşkil etmək üçün: 1) dəqiq müəyyən edilmiş məqsədi; 2) bu məqsədə çatmağa imkan verən vasitələri; 3) bu vasitələrdən istifadə etməyə şərait yaradan qaydaları müəyyənləşdirmək lazımdır" (3, s.96).

Musiqi təlim prosesi də, başlıca olaraq, üç əsas elementin qarşılıqlı əlaqəsini nəzərdə tutur: müəllimin fəaliyyətini, şagirdin fəaliyyətini, hər hansı bir musiqi fənninin proqramı ilə müəyyən olunan təhsilin məzmununu. Bütün bu fəaliyyət müvafiq məqsədi izləyir və əldə olunanlar özünü nəticədə göstərir.

Bu mənada müxtəlif musiqi alətlərində ifa üzrə proqram materiallarının öyrənilməsi son nəticədə öz ifadəsini şagird şəxsiyyətinin müvəffəqiyyətlə formalaşdırılmasında tapmalıdır. Həmin məqsədə və nəticəyə çatmaq üçün müəyyən metodlar sistemindən istifadə olunur ki, onlar da öz növbəsində müəllim və şagirdlərin fəaliyyətini istiqamətləndirir və kursun proqramına uyğun olaraq təlim və tərbiyənin qarşılıqlı əlaqədə həyata keçməsinə imkan verir.

Dərslərdə təlimin, inkişafın və tərbiyənin vəzifələri bir-biri ilə sıx surətdə bağlıdır və təlim fəaliyyətinin məzmunu ilə şərtlənir. Ona görə də təlimin, inkişafın və tərbiyənin metodları qarşılıqlı şəkildə bir-birilə əlaqələnir, qarşılıqlı şəkildə bir-birini tamamlayır. Beləliklə, orta ümumtəhsil məktəblərində şagird şəxsiyyətinin formalaşdırılması məqsədilə musiqi və ədəbiyyat müəllimləri öz fənnlərinin spesifik xüsusiyyətləri baxımından inteqrasiyalaşdırılmış təlim formasından istifadə edə bilər.

Musiqi fənlərinin uşaqların digər bilik və bacarıqları ilə əlaqəli tədrisi zamanı təlimin məlum metodları (praktik göstərmə, məlumat, reproduktiv, problemli şərh, evristik, tədqiqatçılıq) tətbiq olunur. Onlar əyani, şifahi-əyani, əyani-praktik vasitələrlə və müxtəlif formalarda həyata keçir.

Dərsdə, habelə məqsədə çatmaq üçün tərbiyənin metodlarına da (inandırma, perspektivin irəli sürülməsi, alışdırma, tələb, pedaqoji stimullaşdırma, nümunə, şagirdlərin müstəqil fəaliyyətinin, təşəbbüskarlıq və özfəaliyyətinin inkişaf etdirilməsi) müraciət edilir.

Şair və bəstəkarlarımızın həyat və fəaliyyəti, öz əsərlərində yaratdıqları obrazlar qalereyası, xeyirlə şərin mübarizəsi, insan taleləri şagird şəxsiyyətinin formalaşmasına köməklik göstərir, bir tərəfdən əqli, digər tərəfdən mənəvi, başqa bir tərəfdən fiziki, əmək, hüquqi, estetik, ekoloji və iqtisadi tərbiyəsinin uğurla aparılmasını təmin edir. Başqa sözlə, təlimin tərbiyələndirici funksiyası yerinə yetirilir.

Musiqi dərslərinin diyarşünaslıq materialları ilə əlaqələndirilməsi, doğma yurda, vətənimizə aid məlumatlarla tanışlıq və bütün bu məsələlər diqqət mərkəzində dayanmalıdır. Qeyd edək ki, tədqiqata cəlb edilmiş məktəblərdə bu işə ciddi fikir verilirdi.

Müşahidə materiallarının təhlil olunaraq ümumiləşdirilməsindən aydın oldu ki, musiqinin tədrisi zamanı diyarşünaslıq materiallarının öyrənilməsi üçün aşağıdakı istiqamətlərdə işin aparılması daha məqsədəuyğundur:

1. Şifahi xalq yaradıcılığının müxtəlif növləri ilə tanışlıq və bu zaman yerli folklor və xalq musiqi nümunələrinin toplanmasını şagirdlərə tapşırmaq. Bu işdə kəndin, rayonun yaşlı adamları, şagirdlərin valideynləri, baba və nənələri onlara kömək edə bilər.

2. Qəhrəmanlıqla, Ordumuzla, tarixi qələbələrimizlə bağlı mahni və nəğmələrin öyrənilməsi. Şagirdlərin yaşadıqları kənddən, qəsəbə, rayon və şəhərdən olan şair və bəstəkarlar haqqında, onların əsərləri haqqında məlumatların toplanması və nəzərdən keçirilməsi.

3. Şair və bəstəkarların, müsiqişünasların ayrı-ayrı əsərlərinin öyrənilməsi.

4. Şair və bəstəkarlara həsr olunmuş məqalə və əsərlərlə tanışlıq.

5. Şair və bəstəkarların həyat və fəaliyyətinə aid tədris və sənədli filmlərə, əsərlərinin motivləri əsasında çəkilmiş bədii filmlərə baxışlar.

6. Şair və bəstəkarlara aid sənədlər, musiqi əsərləri, fotoşəkillər, xatirələr ilə tanışlıq. Azərbaycan mədəniyyət və incəsənətinin görkəmli nümayəndələrinin (klassik və müasir) həyatlarına, şəxsi keyfiyyətlərinə, yazı masası arxasındakı gərgin işinə, hər bir əsər üzərində necə əziyyət çəkdiklərinə dair müəllimin şərhi və söhbəti şəxsiyyət tərbiyəsi üçün faydalı sayıla bilər.

Musiqi üzrə fənn kurikulumunda xalq musiqisinə, xalq oyun havalarına nisbətən daha geniş yer ayrılır. Bu da təbiidir. Müxtəlif dövrlərdə xalq tərəfindən tədricən yaranmış musiqi əsərləri əsrləri aşaraq bu günümüzə gəlib çatmışdır və həmin əsərlər Vətən sevgisi, vətənpərvərlik, qəhrəmanlıq, yoldaşlıq və dostluq, böyüyə, qadına, anaya hörmət, əməksevərlik, haqq-ədalət tərəfdarı olmaq, qanun-qaydanı gözləmək, estetik gözəlliyi görmək, musiqini duymaq, qavramaq, qiymətləndirmək, fiziki kamilliyi özündə birləşdirmək, qənaətcil, eyni zamanda səxavətli və əliaçıq olmaq və s. bu kimi keyfiyyətləri təqdir edir.

Ədəbiyyat

1. Abbasov A.N. Milli əxlaq və ailə etikası. Bakı, Mütərcim, 2016.
2. Əliyev R.İ. Şəxsiyyətin psixologiyası. Bakı, Təhsil, 2010.
3. Kazımov N.M. Seçilmiş əsərləri. Bakı, OKA Ofset, 2014.
4. Ковалев А.Г. Личность воспитывает себя. – М., Наука, 2009.

Э.Д.Мамедов

Возможности формирование личности учащихся

Резюме

В статье исследованы возможности формирования личности учащихся. Установлено что, формирование личности учащихся посредством материалов музукаведения является более эффективным средством.

E.D.Mammadov

The formation of the personality

Summary

The article explored the possibility of formation of individual students. It is established that the formation of personality of students through the local history materials is an effective.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 08.11.2020

G.N.MƏMMƏDOVA
pedaqogika üzrə fəlsəfə doktoru
e-mail: mamedova96@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti
(Bakı şəh., Ü.Hacıbəyov küç., 68)

PEDAQOJİ PROSES

***Açar sözlər**: pedaqoq, metod, üsul, vasitə, sistem, struktur*
***Ключевые слова:** педагог, метод, средства, система, структура*
***Key words**: pedagogue, method, means, system, structure*

Hadisə və proseslərə, onların dərk edilməsinə "sistem-struktur" adlanan baxışla yanaşmaq müasir dövrün səciyyəvi xüsusiyyətidir. Mühüm metodoloji metod kimi özünü doğruldan sistem-struktur yanaşma XX əsrdə o dərəcədə dəbdə oldu ki, hətta bunu dialektik metodun çağdaş zəmanəmizdə alternativi kimi qiymətləndirmək meyilləri də meydana çıxdı. Fikrimizcə, burada düzgün mövqe bundan ibarətdir: sistem-struktur metod dialektik metodun elmi-texniki-informativ tərəqqi ilə ayaqlaşmağa qabil olan elə inkişaf qoludur ki, burada tam və hissə, bunların nisbəti kimi ənənəvi problemin yeni məzmun kəsb etməsindən, tam və hissənin münasibətinin daha dərindən öyrənilməsindən söhbət gedir.

Sistemin mahiyyəti onun struktur ilə funksiyası, yəni elementlərin və onların davranışının, əlaqələrinin xarakterilə, obyektin şəraitlə əlaqəsinin spesifikliyi ilə müəyyən edilir. Sistemi təşkil edən elementləri, bunların qarşılıqlı təsirini öyrənmədən buradakı davamlı, mühüm və zəruri əlaqələri ayırd etmək mümkün olmur. Elementlərin belə davamlı, mühüm, zəruri olan qarşılıqlı təsiri məhz sistemin strukturunu səciyyələndirir. Deməli, tam anlayışı sistemə nəzərən mənalanır, o, sistemin təşkilatlanmasıdır. Buradan aydın olur ki, hər bir sistemin özünəməxsus strukturu və bu strukturun daşıyıcı olduğu funksiyası var. Deməli, sistemə onun struktur və funksiyasının vəhdətindən ibarət tam kimi baxmaq olar. Sistemlər birbirindən təkcə struktur və funksiyalarına görə deyil, həm də başlıca olaraq strukturla funksiyanın vəhdətinin necəliyi ilə, bu vəhdətin xarakteri ilə fərqlənirlər. Sistemin müəyyən edilməsi üçün ən azı aşağıdakı iki məqam gərəkdir: a) tamdan hissəni fikrən seçib ayırd etmək; b) sistemə öz elementlərinin üzvi əlaqəsi, toplusu və onların inteqrasiyası kimi baxmaq. Bunlar ona görədir ki, əvvələn, prinsip etibarı ilə istənilən sistem özündən daha yüksək, daha mürəkkəb tamlığa malik olan digər sistemə element və altsistem kimi daxil olur. İkincisi də, bu prosesdə sistemin ziddiyyətsizliyi və nisbiliyi kimi xüsusiyyətləri aşkara çıxarır ki, məhz bu məqamda onun daha yüksək, daha təkmil sistemin elementi kimi çıxış etməsinə imkan yaranır. Hər bir sistem özündən aşağı struktur səviyyə kimi olan sistemə nəzərən daha mükəmməl sistem qismində çıxış edir. Pedaqoji proses tam və mürəkkəb sistemdir. O həm də çoxlu altsistemlərdən ibarətdir: təlim prosesi, təhsil-tərbiyə prosesi, formalaşma prosesi, inkişaf prosesi, müəllimlərlə şagirdlərin əməkdaşlığı prosesi, pedaqoji prosesin baş verdiyi şəraitlər sistemi, pedaqoji prosesin həyata keçirilməsinin forma və metodları sistemi və s. Bütövlükdə təhsil sistemi, o cümlədən, məktəb, sinif, tədris məşğələləri hər biri ayrı-ayrılıqda pedaqoji prosesin altsistemləri kimi çıxış edir. Bu altsistemlərdən hər biri müəyyən şəraitdə (təbii-coğrafi, ictimai, istehsalat, mədəni) fəaliyyət göstərir. Hər bir sistemin həm də spesifik şəraiti (məktəbin maddi-texniki bazası, sanitar-gigiyenik vəziyyəti, əxlaqi-psixoloji mühit, estetik tərtibatı və s.) vardır. Pedaqoji prosesin tamlığı müxtəlif cəhətdən təmin olunur. Birinci növbədə, şəxsiyyətin bütövlüyü ilə, təlimdə, tərbiyə və təhsildə məqsəd və məzmunun vəhdəti ilə, hərəkətverici qüvvələrə və qanunauyğunluqlara malik olması ilə tamlıq həyata keçir. Real həyatda insan şəxsiyyəti hissə-hissə formalaşmır, onun əqli keyfiyyətləri əxlaqi keyfiyyətlərindən ayrılıqda

inkişaf etmir. Şəxsiyyəti səciyyələndirən mənəvi keyfiyyətlər qarşılıqlı surətdə bir-birinə təsir göstərir, biri digərinin formalaşmasını şərtləndirir. Burada pedaqoji prosesin təşkilindən, onun necəliyindən, uşaq fəaliyyətinin müxtəlifliyi və ya yeknəsəqliyindən çox şey asılıdır. Uşaq eyni zamanda zehni, fiziki əməyə, bədii yaradıcılığa, idman fəaliyyətinə cəlb edilməklə onun şəxsiyyətinin inkişafında ahəngdarlığı təmin etmək imkanı yaranır. Göstərilən fəaliyyət növlərindən yalnız birinə uşaq aludə olduqda onun mənəvi inkişafı birtərəfli istiqamət alır.

Pedaqoji prosesdə ictimai faydalı fəaliyyətin müxtəlifliyi uşaq şəxsiyyətinin hərtərəfli inkişafı üçün başlıca şərtdir. Buna görə də fəaliyyət növləri pedaqoji prosesdə əlaqələndirilir. Pedaqoji prosesin tamlığı nəinki ideya, əxlaq, estetik, əmək, fiziki, əqli tərbiyənin vəhdəti ilə, həm də bunların hər birinin daxili ahəngdarlığı ilə izah edilir. Məsələn, mənəvi inkişafın ahəngdarlığı biliklərin zənginliyinə, mənəvi kamillik həvəsinə, geniş insani ünsiyyətə əsaslanan zehni inkişafı özündə birləşdirir; əxlaqi inkişaf cəmiyyətdə bərqərar olan etika normalarına istinad edən dərin əxlaqi hisslərin və anlayışların formalaşmasını nəzərdə tutur və s. Pedaqoji proses dinamik sistemdir. Onun öz strukturu (quruluşu) və struktur elementləri (komponentləri) vardır. Pedaqoji proses öz məqsədi, vəzifələri, məzmunu, metodları, müəllim və şagirdlərin qarşılıqlı təsir formaları sayəsində əldə olunmuş nəticələri ilə xarakterizə olunur. Məqsəd, məzmun, fəaliyyət və nəticə komponenti – sistem yaradan komponentlərdir. Məqsəd komponenti pedaqoji fəaliyyətin bütün müxtəlif məqsəd və vəzifələrini birləşdirir. Məzmun komponenti həm ümumi məqsədə, həm də konkret vəzifəyə qoyulan mənanı əks etdirir. Fəaliyyət komponenti pedaqoq və şagirdlərin qarşılıqlı təsirini, onların əməkdaşlığını, prosesin təşkili və idarə olunmasını əks etdirir. Pedaqoji ədəbiyyatda bu komponentə təşkilati və ya təşkilati-idarəetmə komponenti də deyilir. Nəticə komponenti isə prosesin baş verməsinin səmərəliliyi, qarşıya qoyulmuş məqsədə uyğun olaraq əldə olunmuş nailiyyətlərlə xarakterizə olunur. Pedaqoji prosesin komponentləri arasında əlaqələr vardır. Qarşılıqlı pedaqoji təsir prosesində informasiya, təşkilati-fəaliyyət və kommunikativ, idarəetmə və özünüidarə əlaqələri özünü göstərir. Bu əlaqələr pedaqoji proses üçün xüsusi əhəmiyyət kəsb edir. (4, 56) Həyata keçirildiyi yerdən və şəraitdən asılı olmayaraq pedaqoji prosesi səciyyələndirən digər cəhətlər də vardır. Pedaqoji prosesin obyekti və subyekti vardır. Cərəyan etdiyi şəraitdən asılı olaraq pedaqoji prosesin subyekti ayrı-ayrı şəxslər (müəllim, tərbiyəçi, valideyn, idarə rəhbəri və s.) və ya kollektiv orqanlar da (məktəb pedaqoji şurası, institut rektorluğu, yerli komitə və s.) ola bilər. Pedaqoji prosesin obyekti də ayrı-ayrı fərdlərdən (uşaqlardan, şagirdlərdən, tələbələrdən, əsgərlərdən və s.) və onların qrupundan (bir sinfin şagirdlərindən, məktəbin şagirdlərindən, tələbələr qrupundan və s.) ibarət ola bilir. Pedaqoji prosesin obyekti heç də həmişə passiv olmur, fəallıq da göstərir, nəinki subyektin tərbiyəvi təsirinə məruz qalır, bir çox hallarda özü subyektə təsir göstərir və bununla da pedaqoji prosesin səmərəliyinin artmasına səbəb olur.

Pedaqoji proses əmək prosesidir. O, hər hansı bir əmək prosesi kimi ictimai əhəmiyyəti olan məqsədlərə çatmaq üçün həyata keçirilir. Pedaqoji prosesin subyektivliyi ondadır ki, burada tərbiyəçilərlə tərbiyə olunanların əməyi bir-birinə qoşulur, özünəməxsus qarşılıqlı təsir münasibətləri yaranır. Pedaqoji əməyin obyektinə mürəkkəblik, sistemlilik, özünütənzimləmə xasdır. (2, 23) Bundan başqa, ona keyfiyyət dəyişikliyi, özözünə inkişaf da xasdır. Pedaqoji proseslər çoxvariantlı, dəyişkən və təkrarolunmazdır. İnsanın formalaşması pedaqoji əməyin predmetini təşkil edir. Formalaşan şagird müəllimə nisbətən, öz inkişafının ilk mərhələsində olduğundan, yaşlı insan üçün zəruri olan bilik, bacarıq, vərdiş və təcrübəyə malik deyil. Burada məqsəd ona arzuolunan təsiri göstərməkdir. Pedaqoji prosesdə pedaqoji əməyin məhsulu yaradılır. (3, 74) Əgər pedaqoji prosesdə "istehsal" olunan "məhsulu" təsəvvürə gətirsək, ilk növbədə gözümüzün qarşısında tərbiyəli, həyata hazır, ictimai insan canlanır. Ümumi pedaqoji prosesin komponent "hissələri"ndə ümumi məqsədə uyğun olaraq şəxsiyyətin ayrı-ayrı keyfiyyətləri formalaşdırılır. (1). Pedaqoji prosesdə yuxarıda qeyd olunduğu kimi, obyekt və subyekt arasında daim qarşılıqlı pedaqoji təsir baş verir. Qarşılıqlı pedaqoji təsirin təzahür formaları müxtəlifdir: məlumat əlaqəsi, təşkilati fəaliyyət əlaqəsi, ünsiyyət əlaqəsi, idarə əlaqəsi,

səbəb-nəticə əlaqəsi, meyli üzə çıxaran əlaqə. Birincidə – obyekt və subyekt arasında ictimai məna kəsb edən məlumat mübadiləsi baş verir; ikincidə – sosial məzmunlu fəaliyyət göstərilir; üçüncüdə – müxtəlif formalı adi insani ünsiyyət müşahidə olunur; dördüncüdə – verilən tapşırıqlar icra edilir; beşincidə – təlim və ya tərbiyə zamanı müşahidə edilən nöqsanların və uğurların səbəbləri öyrənilir və tədbirlər görülür; sonuncuda – qarşılıqlı pedaqoji təsirin inkişaf meyli dəqiqləşdirilir. Pedaqoji prosesə: 1.Başlıca olaraq, ölkənin təhsil sisteminə aid olan təlim-tərbiyə müəssisələrində həyata keçirilən pedaqoji fəaliyyət daxildir; 2. Hərbi məktəblər, doktorantura sistemi, mütəxəssislərin ixtisasının artırılması üzrə fəaliyyət daxildir. B.A.Əhmədov yazır ki, pedaqoji proses pedaqoji gerçəkliyin digər qollarından düz və əks əlaqələrin vəhdətinə, eləcə də öz məqsədinə görə fərqlənir: burada başlıca məqsəd insanı həyata, yəni əmək fəaliyyətinə və ictimai fəaliyyətə hazırlamaqdan ibarətdir. (2, 21) "Pedaqoji gerçəklik" anlayışına daxil olan digər sahələrin əsas məqsədi insanı bilavasitə həyata hazırlamaq deyildir. Məsələn, istehsal kollektivlərində birinci məqsəd maddi nemətlər istehsal etməkdir. İnsanı həyata hazırlamaq məsələləri tabe mövqe tutur. Bu cür prosesləri, pedaqoji prosesdən fərqləndirmək üçün "pedaqoji ünsürlərə malik proses" adlandıra bilərik.

Pedaqoji proses deyərkən təlim, tərbiyə və təhsilin, habelə bunlarla əlaqədar olan inkişafın vəhdəti nəzərdə tutulur. Pedaqoji proses cəmiyyətin yaranması və inkişafı ilə birlikdə yaranmış və inkişaf etmişdir. Cəmiyyətin ehtiyaclarına uyğun olaraq pedaqoji prosesin məzmunu, təşkili formaları, metod və prinsipləri dəyişmiş və təkmilləşdirilmişdir. İctimai-iqtisadi formasiyanın, yəni istehsal üsulunun və istehsal münasibətlərinin dəyişməsi ilə pedaqoji prosesin təşkili formalarının, metodlarının dəyişməsi və inkişaf etməsi onun tarixi səciyyə daşıdığını göstərir. Pedaqoji proses bəşər cəmiyyətinin bütün mərhələlərinin zəruri funksiyalarından biri olmuşdur. Pedaqoji anlayışların mənşəyini onların özündə yox, həyatın tələbatlarında, məktəb praktikasında axtarmaq lazımdır. Anlayışların təşəkkülü və inkişafı mexanizmi insanların praktik fəaliyyəti ilə bağlıdır. Anlayışların dialektikası onların ifadə etdikləri hadisənin, prosesin inkişafından asılıdır. Elmin terminin dəqiqliyi, birmənalılığı onun əsas keyfiyyətlərindəndir. Bu reallıq pedaqogika elminə də aiddir.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri // Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərləri. Bakı, 2006, №1. səh. 29-44.
2. Əhmədov B., Rzayev A. Pedaqogikadan mühazirə konspektləri. Bakı, 1983.
3. Qədimova X. İnteraktiv təlim metodlarının tətbiqi yolları. Bakı: Nur, 2003.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Bakı, 2003
5. Mehrabov A.O. və b. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006

Г.Н.Мамедова

Педагогический процесс

Резюме

Разнообразие общественно полезных занятий в педагогическом процессе - ключевое условие всестороннего развития личности ребенка. Таким образом, виды деятельности согласовываются в педагогическом процессе. Полнота педагогического процесса объясняется не только единством идей, нравственности, эстетики, труда, физического и умственного воспитания, но и внутренней гармонией каждого из них. Нравственное развитие предполагает формирование глубоких нравственных чувств и представлений, относящихся к этическим нормам, установленным в обществе.

G.N.Mammadova

Pedagogical process

Summary

The diversity of socially useful activities in the pedagogical process is a key condition for the comprehensive development of the child's personality. Therefore, the types of activities are coordinated in the pedagogical process. The completeness of the pedagogical process is explained not only by the unity of ideas, morals, aesthetics, labor, physical and mental education, but also by the internal harmony of each of them. Moral development implies the formation of deep moral feelings and concepts that refer to the ethical norms established in society.

Rəyçi: prof. F.Rüstəmov

Redaksiyaya daxil olub: 04.12.2020

M.Ə.MƏMMƏDZADƏ
e-mail: mujkan@mail.ru

Azərbaycan Respublikasının Təhsil İnstitutu
(Bakı şəh., Z.Əliyeva küç., 40)

AZƏRBAYCANDA TƏLƏBƏLƏRİN İDARƏETMƏ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ - PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR

Açar sözlər: *təlim nəticələri, idarəetmə, təlimin təşkili, fiziki mühit, məlimat boşluğu*
Ключевые слова: *результаты обучения, менеджмент, управления обучения, физическая обстановка, информационный недостатки*
Key words: *learning outcomes, management, classroom management, physical environment, information gap*

Giriş

Mövzunun aktuallığı. Pedaqoji təhsil sistemində tələbələrin idaəretmə bacarıqlarının onların gələcək karyerə quruculuğunda olan problemlərə cavab verməsi vacib bir tələbdir. Buna uyğun olaraq, təhsil sahəsində idarəetmə kadrlarının formalaşdırılması problemi gündən günə aktuallaşır.

Pedaqoji aləmdə xarici təsirlər üzrə dinamikanın artması, texnoloji irəliləyişlərin davamlı inkişafı, yeni pedaqoji yanaşmalrın sonda mürəkkəb sosial-iqtisadi sistemlərə inteqrasiya etməsi yeni təhsil menecerlərinin armasını tələb edir. Qeyd etmək lazımdır ki, son vaxtlar "təhsil menecmenti" ixtisası daha çox populyar olmağa başlamış və bu ixtisas üzrə kifayət qədər peşəkar kadrların çatışmazlığı da aktuallıq kəsb edir.

N.Lindhard, N.Dhlamini, O.A.Mixalkova, K.S. Marçenko öz araşdırmalarında sübut edir ki, təhsil sistemlərində geniş miqyaslı inkişaf tələbləri dünya səviyyəsində artarkən, pedaqoji təhsil strukturları və təlimin təşkili prinsipləri müasir tələblərə qarşı davamlı olaraq cavab vermir və bu aktuallıq ya hətta nəzərə çarpacaq dərəcədə irəliləyir [9;11].

Bu baxımdan, tələbələrdə idarəetmə qabiliyyətlərini formalaşdırmağa istiqamətlənmiş tədris proqramının məzmunu, təlimin təşkili prinsiplərinin öyrənilməsi, təlimdə məlumat boşluğunun doldurulması, fiziki mühitin tam təmin olunması, qiymətləndirmə mexanizmlərinin tətbiqi pedaqoji təhsildə innovativ ideyaların və yeni metodların araşdırılması aktuallığını artırır. Qlobal dövrümüzün sosial və iqtisadi həqiqətləri ilə uğurla üzləşmək üçün lazım olan bilik və səriştələrin vacib bir hissəsi idarəetmə peşəsini qazanmaqdır.

Tədqiqatın elmi-nəzəri və praktiki yeniliyi pedaqoji təhsildə və tədrisdə müasir idarəetmə bacarıqlarının formalaşması sahəsində yeni nəzəri yanaşmaları öyrənmək və tələbələrin gələcək fəaliyyətində bu biliklərin dayanıqlığını təmin etməkdir;

Müasir təhsil sistemində pedaqoji kadrların idarəetmə vərdişlərini əmək bazarının tələblərinə uyğun araşdırılıb müəyyən etməkdir;

İdarəetmə bacarıqlarının nəzəri - metodoloji aspektlərin yeni məzmunu müəyyən edilmiş və onların tətbiqi qaydalarını öyrənməkdir.

1.1. İdarəetmə bacarıqlarını inkişaf etdirən pedaqoji təcrübələr

A.Abdullayev, H.Əhmədov, N.Əhmədovun pedaqoji mülahozələrində təhsildə idarəetmə bacarıqlarının formalaşması əsas yer tutur. Bu sahədə yeni pedaqoji fikirlər irəlilədikcə, bu sahədə ciddi, ayrılmaz problemlərlə üzləşən universal bir təsəvvür mövcud olmağa başladı [1;5;6]. Buna əlavə olaraq, pedaqoji təhsil sahəsində tələbələrin peşə inkişafı vəzifələri ilə yanaşı, yeni biliklərə yiyələnmək və praktikada istifadə qaydalarını öyrənmək üçün vacib problemi həll etmək zərurət yarandı.

M.X. Mescon, M. Albert, F. Khedouri "İdarəetmə" konsepsiyasının mövcud analizini öz təfərrüatları ilə izah edərək, təhsil menecmenti işinin əmək, zəka, başqalarının davranış motiv-

lərindən istifadə edərək gələcəkdə müəyyən bir hədəfə çatmaq bacarığı kimi qeyd edirlər. Tələbələrdə idarəetmə səriştəsinin formalaşmasında idarəetmə nəzəriyyəsi və fənlərarası inteqrasiyanın kompleks bir nailiyyət kimi təhsilin yeni məzmununa və texnologiyasına daxil edilməsi bu hədəfin əsas məzmununa çevrildi [10. S.44-63].

O.A.Mixalkova, K.S.Marçenko, N.Dhlamini, M.Lethoko, J.S.Yoon, N.Lindhart, L.A.Vood və M.A. Oliver (2004) öz tədqiqatlarında tədris prosesində tələbələrin tərbiyə və idarəetmə vərdişlərininin kompleks formalaşmasını onların gələcək fəaliyyətində sistemli bir yanaşma kimi tövsiyə edirlər. Təlimdə səriştəyə əsaslanan sistemli fəaliyyətlər tələbələrin təhsil alma və idraki bacarıqlarının idarə olunmasına imkan yaradlr [9;11;14].

Bu sahəni araşdıran rus pedaqoq alimləri B.P. Zelevea İ.İ. Qolovoanova, N.İ.Sergeyeva (Зелеева В.П., Голованова И.И., Сергеева Н.И.) tədrisdə tələbələr arasında idarəetmə səriştəsinin formalaşmasına maneə törədən bir sıra çatışmazlıqları təlimdə ənənəvi biliklərin paradiqmasına güvənmək, bu vərdişlərin formalaşmasına kömək edən xüsusi fənlərin və onlara ayrılmış saatların azlığı, formalaşma səviyyəsini təyin etmək üçün inkişaf etdirilməmiş diaqnostik metodların, qiymətləndirən meyarları və göstəricilər sisteminin olmaması kimi qeyd edirlər. Tələbələrdə özünüqiymətləndirmə mexanizminin onların özünüidarəetmə potensialının inkişafına xidmət etdiyini əsaslandırır və tələbələrdə özünüinkişafın reflektiv texnologiyalardan aktiv istifadə, idarəetmənin formalaşmasının sistem diaqnostikası kimi şərh edir [3;7;13].

Bununla yanaşı, təhsil işçilərinin pedaqoji hazırlığı üzrə aparılmış tədqiqatların təhlili göstərir ki, tələblərin idarəetmə bacarıqlarının səmərəliliyini təlimdə yeni forma və metodların tətbiqini tələb edir.

2. İdarıetmə bacarıqlarının formalaşması perspektivləri

Son illərdə təlimdə idarəetmə mühiti xeyli dərəcədə dəyişdi, çünki cəmiyyətin sosial, iqtisadi, mədəni və texnoloji kontekst tanınmaz dərəcədə dəyişmişdir. Müxtəlif rabitə kanallarının artması təhsil müəssisələrində çevik və daha rəqabətli bir mühit yaratdı. Təhsili və təlimi idarəedənlərin səmərəli fəaliyyəti üçün lazım olan bacarıq və qabiliyyətlər köklü şəkildə dəyişdi. Bu tədqiqatın məqsədi bu dəyişikliklərin mahiyyətini araşdırmaq, öyrənənlərin təlimin idarəolunmasında rolunu və təhsil proqramlarının təsirlərini qiymətləndirməkdir.

Q.B.Belova, V.P.Zeleeva qeyd edirlər ki, tədris proqramı təlim prosesinin idarə olunmasını bir yol xəritəsi kimi izah edirlər, tələbələrin müstəqil fəaliyyətini və özünüidarə bacarıqlarını bu problemlərin ayrılmaz bir hissəsi kimi qarşıya qoyurlar. Tədris proqramının məzmunca səriştə əsaslı xarakterdə olması təhsilalanların öz potensiallarına çatmalarına kömək edir, ənənəvi idarəetmə strukturların tamamilə yenidən düşünülməsinə və qurulmasına çağırır [2;7].



Sxem 1. *Təlimdə idarəetmə bacarıqarının formalaşması istiqamətləri*

Bundan əlavə, tədqiqat mövzusu tələbələrdə idarəetmə mədəniyyətinin formalaşmasında tədris olunan fənlər üzrə təlim nəticələrinin müəyyən edilməsini, buna əsaslanan yeni tədris proqramının və elmi-metodik vəsaitlərin istifadəsinin pedaqoji kadrların hazılığında faydasını və perspektivlərini də təşviq edir (sxem 1).

Səmərəli idarə olunan auditoriya, iştirak edən hər bir tələbə üçün həyəcan verici və dinamik bir öyrənmə təcrübəsi təmin edə bilər. Bu nəticənin əldə olunmasına əmin olmaq üçün qiymətləndirmə ən obyektiv ölçü mexanizmidir. Təlimdə tələbələrin idraki fəaliyyəti, tənqidi yanaşmalarını və özünüidarə, özünütəşkil bacarıqlarının qiymətləndirilməsi onların yaradıcı düşüncə tərzinin formalaşmasına istiqamətlənir. Bu məqsədlə idarəetmə bacaıqlarının hansı keyfiyyət qrupuna daxil olmasını müəyyən etmək olur.

2.1. Təlimdə idarəetmə bacarıqlarınn keyfiyyət qrupu

Amerikalı tədqiqatçı alimlər tələbələrdə aşağıdakı idarəetmə bacarıqlarının keyfiyyət qrupunu müəyyənləşdirirlər:

- təlimdə rəsmi və təlimdənkənar qeyri-rəsmi əsasda ünsiyyət və səmərəli qarşılıqlı əlaqə qurma bacarığı;
- ünsiyyət zamanı uyğun liderlik keyfiyyətlərini göstərmək bacarığı;
- konfliklərin həlli zamanı düzgün hərəkət etmək və problemi həll etmək bacarığı;
- lazımi məlumatları əldə etmək, emal etmək, müqayisə etmək və qiymətləndirmək,
- zəruri və bəzən anlaşılmayan vəziyyətlərdə qərar qəbul etmək bacarığı;
- vaxtdan səmərəli idarə etmək, verilən tapşırıqları öz yoldaşları arasında bölüşmək,
- öhdəlik və məsuliyyətlər götürmək, çevik təşkilati qərarlar qəbul etmək bacarığı;
- qərarların nəticələrini tənqidi qiymətləndirmək, baş vermiş uyğunsuzluqları aradan götürmək və onlardan nəticə çıxarmaq bacarığı [4;12].

2.2. Kommunikativ çalışmaların tətbiqi

Pedaqoji prosesdə öyrənənlərin idarəçilik vərdişlərinin inkişaf etdirilməsini araşdıran rus alimləri A.B. Korjuyev, B.A.Popkov, E.L. Ryazanova öz araşdırmalarında tələbələrdə özünütənzimləmə, özünüdərk, özünüidarə və və düşüncə tərzinin formalaşması üçün tədrisdə motivasiya, oriyentasiya və iradi keyfiyyətlərinin inkişafı üçün səmərəli kommunikativ tapşırıqların hazırlanmasınınn zəruri xarakterini təsvir edirlər [8.s.112-115].

- Bu çalışmaların tətbiqi tələbələri nitqində qərarlı olmaq və fikir ardıcıllığı yaratmaq, tənqidi yanaşmaq, problemin həllində çoxsahəli düşünməyi formalşadırır.
- Kommunikativ çalışmalar eyni zamanda, tapırıqlar tələbələrin maraq və ehtiyaclarını əks etdirməli, onların yaş xüsusiyyətlərini və ünsiyyət vərdişlərini nəzərə almalıdır.
- Kommunikativ çalışmalar əvvəlki biliklərlə əlaqəli olmalı və yaradıcılığa qədər artan irəliləyişləri əks etdirməlidir;
- kommunikativ tapşırıqlar tələbənin ünsiyyət qabiliyyətlərini və məlumat ehtiyaclarını aktivləşdirməli və yeni şərtlərə keçməsini asanlaşdırmağa kömək etməlidir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, göstərilən kommunikativ çalışmalar üzrə universitet tələbələri özünü qiymətləndirmə, həmyaşıdların qiymətləndirməsi və rəy vermək kimi bir çox qiymətləndirmə formalarından istifadə edə bilərlər.

Nəticə

Qeyd olunanladan belə bir nəticəyə gəlmək olar ki, tələbələrin təlimdə idarəetmə vərdişlərinin formalaşması və mədəniyyətinin qazanılması müasir təhsil sisteminin ən vacib gözləntilərindən biridir. Bildiyimiz kimi, müasir dövrdə qabaqcıl təhsilə malik tədrisin əsas keyfiyyəti və son nəticəsi pedaqoji kadrların formalaşdırılması strategiyasının düzgün müəyyən edilməsidir. Tələbələrdə idarəetmə mədəniyyətinin formalaşmasında yaranan problemlərin aradan qaldırılması sahəsində kifayət qədər strateji üsullar vardır. Təlimin ənənəvi şəkildə idarə olunması onun yeni iadrəetmə strukturu tələblərinə cavab verməməsi ilə xarakterizə olunur, müasir tələblərə cavab verən bilən təlim prosesi və iştirakçılarının güclü menegerial vərdişlərə malik olmasını tələb edir. Təlimdə bu bacarıqların formalaşması kommunikativ təlim nəticələ-

ri, tədris proqramı, tələbəyönümlü fəaliyyətlərin təşkili və çalımaların tətbiqi, tələbələrin müstəqil fəaliyyətini dəyərləndirən yeni mexanizmlərin təbiqini zəruri edir.

Ədəbiyyat

1. Abdullayev A., Təhsil sahəsində islahat Proqramının tələbləri baxımından Azərbaycan Müəllimlər İnstitutunda kadrların ixtisasının artırılması, yenidən hazırlanması və təkmilləşdirilməsi işinin təşkili, Bakı, "Müəllim", 2004

2. Белова Г. Б. Педагогическая система обучения принятию управленческого решения в вузе [Электронный ресурс] Режим доступа: http:// wwwneuch.ru/referat/62491. html (Дата обращения: 08. 01. 2012).

3. Голованова И.И. Практики интерактивного обучения: метод. Пособие / И.И. Голованова, Е.В. Асафова, Н.В. Телегина. – Казань: Изд-во Казан. ун-та, 2014. – 288 с.

4. "Əmək bazarı və kadr hazırlığı problemləri". Bakı, Xəzər universiteti 2002.

5. Əhmədov N. və b. «İdarəetmənin pedaqogikası və psixologiyası» Bakı, 2000

6. Əhmədov H.,«Azərbaycan məktəbi və pedaqoji fikir tarixi». "Təhsil" nəşriyyatı. Bakı 2001.

7. Зелеева В.П. Преподаватель высшей школы как творческая личность в представлениях аспирантов КФУ / Андреевские чтения: современные концепции и технологии творческого саморазвития личности: сб статей участников Всерос. науч.-практ. конф. с межд. участием, 25 марта 2016 г. – Казань: Центр инновационных технологий, 2016. – С.120-124.

8. Коржуев А. В., Попков В. А., Рязанова Е. Л. Рефлексия и критическое мышление в контексте задач высшего образования // Педагогика. -2002. - № 1. - С. 112-115.

9. Lindhard, N. & Dhlamini, N. (1990). Lifeskills in the classroom. Cape Town: Maskew Miller Longman. Mashuri. Penelitian verifikatif. Yogyakarta: Penerbit Andi. 2009.

10. Mescon, M.H., Albert, M., Khedouri, F. Management. New York: Harper and ROW, Publishers, 1981.

11. Михалькова О.А., Марченко К.С. Формирование умений и навыков управленческой деятельности в процессе профессиональной подготовки студентов педагогических специальностей // Международный журнал экспериментального образования. – 2014. – № 5-1. – С. 70-73; URL: http://www.expeducation.ru/ru/article/view?id=5629 (дата обращения: 01.01.2021).

12.Nosyreva, I.G /Kadr hazırlığının müasir formaları və metodları // Personal inkişafı idarə edilməsi.– 2010

13.Сергеева Н.И. Деловая игра как профессиональный модуль в подготовке товароведа непродовольственных товаров//Среднее профессиональное образование 2009, №

14.Wood, L.A. & Olivier, M.A. A self-efficacy approach to holistic student development. South African Journal of Education, 2004 24(4), 289–294

M.A.Мамедзаде

Развитие навыков управления студентами - проблемы и перспективы

Резюме

Целью данного исследования является реализация у студентов управленческих навыков в процессе обучения. В статье представлены значение, цели и задачи, научная и практическая инновация управленческих навыков студентов в современном высшем образовании. В статье подробно рассматриваются некоторые специфические аспекты процесса управления аудитором. В исследовательской работе описываются современные методы, новые подходы и методы оценки в развитии управленческих навыков студентов.

M.A.Mammadzade

Developing student management skills - challenges and perspectives

Summary

The purpose of this study is to realize students' management skills in learning process. The article presents the significance, aims and objectives, scientific and practical innovation of students'

management skills in modern higher education. The research article explains some specific aspects of the classroom management process in detail. The research paper describes modern techniquies, new approaches and assessment techniques in developing students' management skills.

Rəyçi: ped.e.d., prof. H.Əhmədov

Redaksiyaya daxil olub: 05.12.2020

A.C.MUSAYEVA
e-mail: aygun.musayeva-88@mail.ru

Azərbaycan Dövlət Pedaqoji Universiteti (Şəki filialı)
(Şəki şəh., M.Rəsulzadə küç., 305)

UŞAQLIQ TRAVMALARI VƏ ONLARIN HİMAYƏDAR AİLƏLƏRDƏ MÜALİCƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər**: uşaqlıq travmaları, himayədar ailə, müalicə*
***Ключевые слова**: детские травмы, приемная семья, лечение*
***Key words**: childhood traumas, foster care, treatment*

Uşaqlıq travmaları ömür boyu təsiri olan uşaqlıq maneələrinin bir nəticəsidir. Himayə altına alınan uşaqların əhəmiyyətli bir hissəsi bu travmaları yaşayır. Uşaqlıq travmaları travmalar baxımından riskli bir həyatı dönəmi təşkil edir. Çünki ömür boyu aparılan təcrübələrə əsasən travmaların 25%-nin uşaqlıq dönəminə təsadüf etdiyi görülür. Bundan əlavə, yetkin insanaların əhəmiyyətli bir hissəsinin ən azı bir dəfə bu travmaya məruz qaldığı bildirilir. Uşaqlıqda travmaların öhdəsindən gəlmək bacarıqlarının yetərli və təsirli olmadığı yaşam dövrü olması da riski artıran digər bir ünsürlərdəndir. Uşaqlıq dövründə yaşanan bu travmaların qarşısı alınmadıqda ciddi, qalıcı və uzun müddətli təsirləri olan bu travmalar şəxsiyyətin inkişafının qarşısını ala bilər. Uşaqlıq travmaları uşağın zehni və fiziki inkişafına, həyatına təsir edir. Uşaqlıqda yaşanan fiziki, emosional, cinsi istismar kimi zorakılıqlar uşaqlıq travmalarının yaşanmasına gətirib çıxarır. Bundan əlavə, yol qəzaları, ciddi xəstəliklər, təbii fəlakətlər, müharibə, həmçinin, ailə üzvlərinin itirilməsi və tərk edilməsi də uşaqlıq travmalarının yaranmasına səbəbdir [1]. Bütün bu deyilənləri nəzərə alaraq, qeyd edə bilərik ki, uşaqlıq travmaları eqonun inkişafını pozur. Eqoda yaranan əngəllər və qarşıdurmalar travmaların yaranma mənbəyidir. Uşaqlıqda travma yaşayan uşaqların sonrakı inkişafını şəkilləndirmək üçün onlara düzgün yanaşmanın təmin olunması vacibdir. Çünki vacib olan məsələ travmanın aradan qaldırılması üçün uşaqların yararlana biləcəyi xidmət modelinin seçilməsidir. Bu baxımdan qoruyucu ailə xidmət modeli deyerli və alternativ bir model olaraq qarşımıza çıxır.

Uşaqlıqda dövründə yaşanan travmalar daha çox travmatikdir, çünki uşaqlıqda müdafiə mexanizmləri və mübarizə bacarıqları kifayət qədər inkişaf etməmişdir. Uşaqlıq travmaları bir çox problemlər ortaya çıxarır ki, bunlar şəxsiyyət pozuntuları, psixosomotik pozuntular, davranış pozulmaları, cinsi pozulmalar, narahatlıq və depressiya və s. misal göstərə bilərik [3]. Həmçinin uşaqlıq travmaları şəxsiyyətin inkişafına da zərərli təsirlər göstərir. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, uşaqlıq dövründə yaranan fiziki və emosional travmalar şəxsiyyətin problemləri həll etmə bacarıqlarının uğursuzluğuna, uşaqlıq travması almış yetkinlərin bir problemlə qarşılaşdıqda problemi həll etmə iradəsinin zəif olmasına gətirib çıxarır. Uşaqlıq travmaları şəxsiyyətlərarası münasibətlərin, sosial əlaqələrin inkişafında çətinliklərin yaranmasına səbəb olur. Uşaqlıq travmalarının qərarların qəbul edilməsi, davranış qaydalarına təsirləri də müəyyənləşdirilmişdir. Belə ki, bu araşdırmalar uşaqlıqda yaşanan travmaların şəxslərin mənəviyyatının, mənliyinin, vəziyyətini və digərlərini bağışlamaq səviyyələrinin zəif olduğunu ortaya çıxarmışdır [2]. Həmçinin bu tip travmaların evlilik qərarı və ər-arvad münasibətlərində də əks olunmasına dair tədqiqat materialları mövcuddur.

Uşaqlıqda yaşanan hansısa bir psixoloji travmanın insanın gələcək həyatında çox ciddi təsirləri olur. Tutaq ki, uşaqlıqda ən böyük təsir valideynlərdən hər hansı birini itirib, ya da hər ikisi rəhmətə gedib, ya da ana və ata boşanıbsa və valideyn uşağını görə bilməməsi, yaxud da görmək istəməməsidir. Bu da onda valideyn sevgisinin azlığına gətirib çıxarır, uşaqlarda sevgi doyumsuzluğu yaradır. Tutaq ki, oğlan uşağı anadan sevgi görmürsə, o ailə quracağı qa-

dından ana qayğısı gözləyəcək. Amma ana qayğısı görmədiyi üçün tez-tez münaqişələr yarana, hətta ailəsini dağılmasına da gətirib çıxara bilər. Bu isə öz növbəsində həmin ailədə dünyaya gəlmiş uşaqların travma almasına səbəb olur. Yəni, bu zəcirvari olaraq davam edə bilər. Bir uşağın uşaqlıqda yaşadığı travma onun gələcək həyatına və övladlarına təsir edə bilər. Bəzi hallarda isə ailə tam olsa belə, valideynlər övladlarına zaman ayırmır, bu halda da uşaq ondan gözlədiyi sevgini ala bilmir. Buna görə də mütləq çalışmalıyıq uşağımızın uşaqlıq dövründəki psixologiyasını sağlam şəkildə formalaşdıraq ki, gələcək də onların psixoloji təsirlərini göstərməsin.

Uşaqlıq travmalarının psixoloji sağlamlığa da təsir göstərməsi vacib faktorlardan biridir. Aparılan araşdırmalarda fiziki, emosional və cinsi istismarın ümumi psixoloji sağlamlığa əhəmiyyətli və birbaşa təsiri müəyyənləşdirilmişdir. Bu tip travmalar şəxsin fiziki sağlamlığına da öz təsirini göstərir. Bu tip travmalar insanlar arasında insult, diabet, ürək-damar xəstəlikləri, ağciyər və qaraciyər xəstəlikləri, astma, xərçəng və piylənmə riskini artırır [4]. Keyfiyyətsiz həyat və erkən yaşda ölümə səbəb ola bilər. Göründüyü kimi uşaqlıq travmaları həyatı tamamilə formalaşdırma potensialına sahib fərqli təsirləri olan uğursuz yaşantılardır. Xüsusilə uşaqlıq dövründə bu tip travmalar yaşandığı üçün qoruma altına alınan uşaqlar ayrıca bir nöqtədə dayanır. Çünki bu uşaqlar daha kövrəkdilər, həm travma qurbanı həm də valideynlərindən ayrı düşmüş olurlar. Ayrıca travmatik əlamətlər həmin anda ortaya çıxmamış olsa belə həyatın sonrakı mərhələləri bu uşaqlar üçün risk altında qalmaqdadır. Bu səbəblə bu uşaqların maraqları üçün travmanın işlənib müalicə olunmasına ehtiyac duyulur. Aileler üçün ailə müalicələri, valideynlik münasibətləri və stresin azaldılması istiqamətində görülən işlər ön planda durur. Həmçinin, həm qoruyucu ailələrə, həm uşağa və həm də məktəb kimi geniş sosial çevrəyə yönələn lazimi müdaxilələr də bu planlamalar içərisində yer alır. Bu planda tələb olunan hallarda psixiatrik müalicə də əlavə edilə bilər. Bir çox ölkələrdə bu müdaxilələrə görə qoruyucu ailəyə yüksək əmək haqqı verilir və ailələr təşkilat tərəfindən yüksək səviyyədə dəstəklənir. Bəzi hallarda isə bioloji ailələr də daxil olmaqla valideynlərin maarifləndirilməsi, təlimi və ailə terapiyalarına qatılmaları üçün şərait yaradılır.

Uşaqlıq travmalarından qurtulmaq üçün yaxşı olardı ki, psixoloqlara müraciət edilsin. Çünki, uşaqlıq dövrü özü də mərhələlərdən ibarətdir. Bu dövrlərin hamısı aldığı travmalara görə fərqlənir. Ona görə də mütləq şəkildə psixoloqa müraciət edilməli, yaşadığı travmanın hansı dövrə aid olduğu mütləq şəkildə öyrənilməli, psixoloji dəstək alınmalıdır. Bəzən valideynlər bilmədən səhvə yol verirlər. Əgər biz istəyirik ki, övladımız yaxşı bir şəxsiyyət kimi formalaşsın, mütləq şəkildə onun psixoloji durumunu düzgün formalaşdırmalıyıq.

Nəticə. Uşaqlıq travmalarının şəxsiyyətin psixoloji sağlamlığına təsiri müəyyənləşdirilmişdir. Bu travmalar xüsusilə yeniyetməlik dövründəki ortaya çıxan psixopatologiyaların qaynağı olaraq bilinir. Xususi qayğıya ehtiyacı olan uşaqların böyük bir hissəsinin də uşaqlıq dövründə travma yaşaması və travmatik əlamətləri göstərməsi müəyyənləşdirilmişdir. Uşaqlıq dövründə yaşanan travmaların müalicə olunması uşaqların yetkin yaşda sağlam bir şəkildə inkişafına təsir göstərir. Həmçinin bu travmaların müalicəsi həm uşaqlıq, həm də yetkinlik yaşında psixoloji sağlamlıq üçün əhəmiyyətli bir risk faktorunu aradan qaldırır. Bu baxımdan himayədar aile xidməti qayğı, sevgi və güvənə əsaslanır. Travmanın müalicəsində qoruyucu ailə təsirli olacaq bir modeldir. Uşaqlıq travmalarının müalicəsi şəxsin həyat və fəaliyyətinin növbəti mərhələlərinin sağlam şəkildə inkişafına şərait yaradır.

Ədəbiyyat

1. Güneri-Yöyen, E. (2017). Çocukluk çağı travması ve benlik saygısı. International Journal of Social Sciences and Education Research, 3(1), 267-282.

2. Demirci, K. (2016). Çocukluk çağı travmaları ve obsesif kompulsif belirtilerin ilişkisinin incelenmesi. Journal of Mood Disorders, 6(1), 7-13.

3. Решетников М.М. Психическая травма. – СПБ: Институт Психоанализа, 2006, 322

4. Дозорцева Е.Г. Психологическая травма у подростков с проблемами в поведении. Диагностика и коррекция. – М.: Генезис, 2006, 128.

А.Дж.Мусаева

Оценка детских травм и их лечение в приемных семьях

Резюме

Детские травмы - это следствие препятствий в детстве с последствиями на всю жизнь. Значительное количество детей в системе защиты детей испытали эти травмы. Лечение этих травм важно для детей, чтобы поддерживать их высокий уровень здоровья и здоровое развитие. На этом этапе модель патронатного воспитания становится ценной и альтернативной моделью. Несмотря на некоторые недостатки, модель патронатной семьи подходит для лечения травм. Цель этого обзорного исследования, последствия детских травм объяснены в свете литературы, а также особенности патронатного воспитания как подходящей модели для лечения травм, а также оценены недостатки в практике. Кроме того, предлагаются рекомендации по улучшению лечения детских травм в приемной семье.

A.J.Musayeva

Evaluation of childhood trauma and their treatment in foster families

Summary

Childhood traumas are a consequence of obstacles in childhood with lifelong effects. A considerable number of children in child welfare system have experienced these traumas. The treatment of these traumas is important for children to maintain their high benefit and development in a healthy manner. At this point, the foster care model emerges as a valuable and alternative model. In spite of some deficiencies, foster care model is suitable for the treatment of trauma. The objective of this review study, the effects of childhood traumas are explained in the light of the literature and the features of the foster care as a suitable model for trauma treatment and the deficiencies in the practices are evaluated. In addition, intervention suggestions are provided to improve the treatment of childhood traumas in the foster family.

Rəyçi: dos. N.Z.Çələbiyev

Redaksiyaya daxil olub: 02.11.2020

V.B.NƏSİBOV
filologiya üzrə elmlər doktoru, dosent

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin
Hərbi Akademiyası
(Bakı şəh., Parlament pr., 3)

AZƏRBAYCANIN ORTA VƏ ALİ MƏKTƏBLƏRİNDƏ RUS DİLİ FƏNNİNİN TƏDRİSİ VƏZİYYƏTİ HAQQINDA

Açar sözlər: *Azərbaycanda «Rus dili» fənninin tədrisi, dərslik və dərs vəsaitləri, rus dili xarici dil kimi, rus dili Azərbaycan dilində*

Ключевые слова: *преподавание предмета «Русский язык» в Азербайджане, учебник и учебные пособия, русский язык как иностранный, русский язык на азербайджанском языке*

Key words: *teaching the subject "Russian language" in Azerbaijan, textbook and training manuals, Russian as a foreign language, Russian in Azerbaijani*

Son illərdə Azərbaycanda və digər keçmiş Sovetlər birliyindən çıxan respublikalarda şahidi olduğumuz məlum tarixi hadisələrlə əlaqədar olaraq rus dilinin tədrisi vəziyyəti, o cümlədən rus dili üzrə proqramların, dərslik və dərs vəsaitlərinin hazırlanmasına hansı metodla yanaşma məsələləri vaxtaşırı dəyişmişdir. Ona görə də ali və orta məktəblərdə bu gün rus dilinin tədrisində bir özfəaliyyət prinsipi hökm sürür.

Bildiyimiz kimi, keçən əsrin 90-cı illərinə qədər hər yerdə olduğu kimi, Azərbaycanda da rus dilinin tədrisinə böyük önəm verilirdi, çoxlu sayda rus məktəbləri, ikidilli (Azərbaycan-rus) məktəblər mövcud idi. O vaxtlar rus dilinin öyrənilməsi üçün məktəbdən başqa ətraf mühitdə də çox münbit şərait var idi. Respublikada rusların və rusdilli əhalinin çoxluğu, rus dilində kütləvi informasiya vasitələrinin, məktəblərdə rus dilinin tədrisinə ayrılan saatların kifayət qədər olması bu dilin asanlıqla mənimsənilməsinə güclü təsir göstərirdi. Mövcud şərait başdan ayağa rus dilində yazılmış dərslik və dərs vəsaitlərinin azərbaycanlı oxucular tərəfindən çətinliklə də olsa başa düşülməsinə və mənimsənilməsinə imkan verirdi. Sonralar, bildiyimiz kimi, vəziyyət tamamilə dəyişdi, Azərbaycanda baş vermiş tarixi-siyasi hadisələrin nəticəsində rusdilli əhalinin azalması, bir çox rusdilli məktəblərin bağlanması, respublikada rus dilinə neqativ münasibət orta və ali məktəblərdə bu dilin tədrisinə öz mənfi təsirini göstərdi. Rus dili fənni üzrə proqramlar bir neçə dəfə dəyişdi, dərsliklər və dərs vəsaitləri istənilən səviyyədə tərtib olunmadı. Bu da öz növbəsində hal-hazırdakı cavan nəsil Azərbaycan vətəndaşlarının rus dilini çox zəif bilməsinə və yaxud heç bilməməsinə gətirib çıxartdı.

İndi ölkəmizdəki ictimai-siyasi vəziyyət tamamilə başqadır və haqlı olaraq rus dilinin bir xarici dil kimi öyrənilməsinin vacibliyi vurğulanaraq, onun orta və ali məktəblərdə tədrisinə xüsusi diqqət ayrılmışdır. Lakin bu çətin dilin mənimsənilməsi üçün bu gün ətraf mühitin, münbit şəraitin olmamasına baxmayaraq, orta məktəbin ibtidai siniflərindən başlayaraq ali məktəblərə qədər rus dili dərslikləri əvvəlki qayda ilə yenə də rus dilində yazılır, bütün qayda-qanunlar, tapşırıqlar rus dilində verilir və müəllimdən də tələb olunur ki, ancaq rus dilində danışsın. Yəni bu dilin tədrisinə 50 il bundan qabaq münasibət necə idisə, indi də elədir, baxmayaraq ki, 50 il öncə orta məktəblərdə həftədə 4-5 saat rus dili keçirilirdi, indi isə bu zaman 1-2 saatdır.

Fikrimizcə, bu gün rus dilinin tədrisinə bu cür yanaşma məntiqə uyğun deyil. İndiki zamanda həm orta, həm də ali məktəblərdə rus dilinin tədrisinə ilk zamanda, təməl səviyyəsində digər xarici dillər kimi doğma dildən çıxış edərək yanaşmaq, Azərbaycan dili ilə rus dilinin oxşar və fərqli cəhətlərini şagirdlərə və tələbələrə çatdırmaq lazımdır.

Bu prosesdə müəllimlə şagird və tələbələr arasında əsas vasitə − dərslik və dərs vəsaitləri də bu cür yazılmalıdır. Yeri gəlmişkən, sosial şəbəkələrdə rus dilini öyrənmək üçün Azər-

baycan dilində yazılmış dərs vəsaitini arzu edənlərə tez-tez rast gəlmək olar. Azərbaycanlı şagirdlər və tələbələr arasında apardığımız sorğular da onların rus dili kitablarından çox çətinliklə istifadə etdiklərini və yaxud heç istifadə etmədiklərini bildirir. Bu ona görədir ki, onlar bu kitabları başa düşmürlər, ondan müstəqil istifadə edə bilmirlər; rusdilli ətraf mühitin olmaması ilə yanaşı məktəblərdə rus dilinin tədrisinə ayrılan saatların miqdarı da (həftədə 1-2 saat) olduqca azdır.

Gəlin indi bugünkü orta məktəb dərsliklərinin bir neçəsinə nəzər salaq. Bu dərsliklərin müəllifləri respublikamızda sayılan, seçilən adlı-sanlı pedaqoqlardır və onların hər birinə çox böyük hörmətim var. Lakin, əvvəla, onların bu gün Azərbaycan məktəbləri üçün tərtib etdiyi rus dili dərsliklərinin mündəricatına baxanda, adamda belə təəssürat yaranır ki, bu kitablar rus dili deyil, rus dilində tarix, ədəbiyyat, mədəniyyət, incəsənət dərsliklərdir. Dərslər bu sahələrə aid mövzularla başlayıb onlarla da qurtarır, bir neçə yerdə rus dilində qrammatik qayda-qanunlar verilir və onlara aid tapşırıqlar təqdim olunur [1; 2; 3; 5; 11].

Mətnlərə aid təzə sözlər ana dilinə tərcümə vasitəsi ilə yox, rus dilində eyniköklü və yaxud müxtəlif, bəzən daha çətin sözlərin vasitəsi ilə izah olunur. Məsələn:

Словарь

стая – группа животных одного вида, держащихся вместе
срывать – снимать
сбор – сущ. от глагола «собрать»
попрятаться – спрятаться [7, s. 10].

Kiçik siniflərdən tapşırıqların şərtləri belə rusca verilir və şagird heç nə anlamır. Məsələn, 2-ci sinfin «Rus dili» dərsliyindəki 1-ci dərsin tapşırıqlarına nəzər salaq. «2. Прослушай диалог. Составь диалоги по образцу; 3. На какие вопросы отвечают слова *дневник, урок, ученик*?... 4. Закончи предложения, используя слова для справок» və s.

Beləliklə, Azərbaycan məktəblərinin «Rus dili» dərsliklərinə ötəri baxışdan belə qənaətə gəlmək olur ki, bu dərsliklər azərbaycanlılar üçün yox, ruslar və yaxud rus dilini bilənlər üçün nəzərdə tutulmuşdur.

Respublikada rus dili fənni üzrə ali məktəb dərsliklərində də indiki baxımdan vəziyyət ürəkaçan deyil. Orta məktəbdə rus dilini çox zəif mənimsəmiş və yaxud heç mənimsəməmiş tələbələr üçün yazılmış dərs vəsaitlərinin çoxu da sanki onlar üçün deyil, ruslar və yaxud rusdilli azərbaycanlılar üçün yazılmışdır. Bu dərslik və dərs vəsaitlərində rus dilində onun qrammatik qayda-qanunları izah olunur və tapşırıqlar, testlər verilir, lakin tələbələr müstəqil olaraq bu tapşırıqların nə şərtini başa düşür, nə özlərini yerinə yetirə bilirlər, çünki dili bilmirlər. Götürək, misal üçün hörmətli dilçilərimiz Rzayeva G.N, Mehtiyeva X.S., Babayeva S.R., Vəzirova J.B. tərəfindən ali məktəblərin milli (azərbaycanlı) qrupları üçün yazılmış «Кратκий курс грамматики русского языка» dərs vəsaitini. Kitab rus dilində orfoepik qayda-qanunlarla başlayır, test tapşırıqları ilə sona yetir [8]. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin qiyabiçi tələbələri üçün nəzərdə tutulmuş «Rus dili» dərs vəsaiti də burada təhsil alan tələbələr üçün, fikrimizcə, bu gün çox ağır və qəbuledilməzdir [9]. Ali məktəb dərslikləri arasında azərbaycanlı tələbələr üçün yaxşı tərtib olunmuş rus dili dərsliklərindən biri Azərbaycanın tanınmış, təcrübəli dilçiləri, Bakı Dövlət Universitetinin professoru Mikayıl Cəfərov və dosenti Flora Hüseynova tərəfindən hazırlanmış «Rus dili» dərsliyidir. Bu dərslik bir neçə dəfə yenilənmiş və təkmilləşdirilmişdir və burada azərbaycanlı tələbələrin rus dilini öyrənməsi üçün bütün əsas qrammatik məqamlara toxunulmuş, ilk öncə hansı qaydaların öyrənilməsi nəzərdə tutulmuşdur. Hər bir dərs verilmiş qaydalara uyğun maraqlı mətnlərlə və o mətnlər üzərində işlərlə yekunlaşdırılmışdır. Hər bir dərsə aid praktiki tapşırıqlar tələbələrin rus dilində düzgün oxumaq, dinləyib anlamaq, danışmaq bacarığına və vərdişlərinə yiyələnməsinə yönəlmişdir. Lakin bu dərslikdə rus dilinin qrammatik qayda-qanunları çox qısa və

sxematik şəkildə təqdim olunur, bu da azərbaycandilli tələbələrin bir çox problemləri anlamamasına gətirib çıxarır. Misal olaraq bu dərslikdən bir dərsə nəzər salaq:

УРОК 4 (ЧЕТЫРЕ)
ЧЕТВЁРТЫЙ УРОК
ЛИЧНЫЕ И ПРИТЯЖАТЕЛЬНЫЕ МЕСТОИМЕНИЯ

Личные местоимения: *я, ты, он, она, мы, вы, они (кто? что?)*

Притяжательные местоимения*: мой, твой, его, твой, его, её, наш, ваш, их … (чей? чья? чьё?)*

1. Прочитайте. Запомните.

Я	*мой* альбом *моя* книга *моё* письмо *мои* друзья	*Мы*	*наш* город *наша* улица *наше* окно *наши* уроки
Ты	*твой* брат *твоя* сестра *твоё* фото *твои* журналы	*Вы*	*ваш* музей *ваша* группа *ваше* слово *ваши* книги

[4, s. 21].

Rus dilində bu mövzu haqqında bu qədər məlumat azərbaycanlı tələbələr üçün heç nə vermir və onlarda çoxlu suallar yaradır, çünki onlar hər bir qrammatik məlumatı qeyri-ixtiyari öz doğma dilləri ilə müqayisə edirlər və bu da onların nitqində müəyyən səhvlərə gətirib çıxarır. Məsələn, *мой* sözü Azərbaycan dilinə *mənim* kimi tərcümə olunur və Azərbaycan dilində bu söz şəxs əvəzliyinin yiyəlik hal forması kimi çıxış edir, rus dilində isə *мой, твой, наш, ваш, его, её, их, свой* ayrıca növ (притяжательные местоимения – yiyəlik əvəzlikləri) kimi götürülür. Azərbaycan dilində *mənim* sözü heç bir kateqoriyaya görə dəyişmir (*mənim dostum, mənim rəfiqəm, mənim dostlarım, mənim dostuma, mənim rəfiqəmi*), rus dilində isə *мой* aid olduğu sözün həm cinsinə, həm kəmiyyətinə, həm halına görə dəyişir (*мой друг, моя подруга, мои друзья, моему другу, мою подругу*). *Mənim* sözünün rus dilində digər variantları da var (*Mənim* adım Samirdir – *Меня* зовут Самир; *Mənim* maşınım var – *У меня* есть машина, *Mənim* 20 yaşım var – *Мне* 20 лет). Buna görə də gərək müəllim tələbələrə *mənim* sözünün rus dilində hansı ekvivalentindən necə istifadə etməyi bir müddət onun öz doğma dilində izah etsin, başa salsın. Daha yaxşı olar ki, elə bütün bu məsələləri Azərbaycan dilində və yaxud hər iki dildə əks etdirən dərs vəsaitləri olsun ki, rus dilini öyrənmək istəyən hər bir kəs bu dili həm də müstəqil öyrənə bilsin. Təcrübədə bu cür yazılmış kitablar mövcuddur, lakin onlar rus dili yox, başqa dilləri öyrədən dərsliklərdir. Götürək elə 40 il bundan öncə prof. Yusif Seyidov tərəfindən ali məktəblərin rus bölmələri üçün tərtib olunmuş «Azərbaycan dili» dərsliyini. Bu dərslikdə hər bir qrammatik mövzu qısaca olaraq 2 dildə yazılmışdır ki, hər bir fikir əvvəlcə Azərbaycan, sonra rus dilində izah olunur. Məsələn, «Azərbaycan dilində 9 sait var. Bunlardan altısı (*a, o, u, e, ı, i*) əsasən rus dilindəki saitlərə uyğun gəlir, üçü isə (*ö, ü, ə*) spesifik saitdir. – В азербайджанском языке – 9 гласных. Из них шесть (*а, о, у, е, ы, и*) в основной соответствуют русским гласным, а три (*ö, ü, ə*) являются специфическим» [12, s. 9].

Son illərdə erməni dilini ilk öyrənən və həmçinin bu dili daha da təkmilləşdirmək istəyən azərbaycanlılar üçün nəzərdə tutulmuş ən yaxşı dərsliklərdən biri də Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Hərbi Akademiyasının xarici dil və tərəfdaşlıq mərkəzinin əməkdaşları tərəfindən işlənib hazırlanmışdır. Bu dərslikdə erməni dilinin qayda-qanunları, tapşırıqların şərtləri Azərbaycan dilində verilir və bu belə də olmalıdır [13].

Hesab edirik ki, bu gün rus dilinə də bir xarici dil kimi bu cür münasibət bəslənməli və təməl səviyyəsində onun qrammatik xüsusiyyətləri azərbaycanlılar üçün onların doğma dilində izah olunmalıdır. Belə bir dərs vəsaiti bizim tərəfimizdən hazırlanmışdır. Bu vəsait rus dilinin xarici dil kimi təməl səviyyəsində öyrənilməsi üçün Rusiya Federasiyasının Təhsil nazirliyi tərəfindən tərtib olunmuş təhsil proqramına əsaslanır. Bu dərslikdən bir dərsin nümunəsini sizlərin diqqətinə təqdim edirik:

MÖVZU 3. QALIN VƏ İNCƏ SAMİTLƏR (ТВЁРДЫЕ И МЯГКИЕ СОГЛАСНЫЕ)

Azərbaycan dilindən fərqli olaraq, rus dilində samit səslər incə və qalın olurlar. Samitlərin incəliyi yazıda *ь, я, е, ё, ю* hərfləri ilə işarə olunur. Müqayisə et: *брат – брать, мода – мёд, парта – пять* və s. *Ж, ш, ц* samitləri həmişə qalın, *й, ч, щ* samitləri həmişə incə olurlar. Ona görə də onlar özlərindən sonra gələn saitləri də dəyişdirirlər. Məsələn: *жена* yazılır, amma [*жына*] deyilir, *шикарный* yazılır, [*шыкарный*] deyilir; və yaxud *чай* yazılır, [*чәй*] deyilir, *площадь* yazılır, [*площәт*'] deyilir. Samitlərin incəliyi transkripsiyada onların üzərində [’] işarəsi ilə qeyd olunur. Məsələn: дядя [д’ад’а], тётя [т’от’а], день [д’эн’], телефон [т’ил’ифон]. İncə samitlər dilin və dodağın ön hissəsində, qalınlar isə nisbətən arxa hissəsində tələffüz olunurlar.

Tapşırıq 1. Samit hərfləri dinləyin, təkrar edin, oxuyun

да – до – ди – дя – ду – дю – дё – ды
ба – бо – би – бя – бу – бю – бё – бы
га – го – ги – гя – гу – гю – гё – гы
ва – во – ви – вя – ву – вю – вё – вы
та – то – ти – тя – ту – тю – тё – ты

Tapşırıq 2. Sözləri dinləyin, təkrar edin, oxuyun və yazın.

дама _____
дядя
директор _____
думать _____
дом _____
идёт _____
индюк _____

Tapşırıq 3. Aşağıda verilmiş sözləri Azərbaycan dilinə tərcümə edin və transkripləşdirin.

Рабо́та, поря́док, ребя́та, ру́чка, рю́мка, рисова́ть, ры́ба; газе́та, го́лубь, герб, гимна́стика, Нигя́р, Гёй-гёль, густо́й; ле́то, лёд, ло́дка, любо́вь, ли́дер, поля́.

Tapşırıq 4. Oxuyun və yadda saxlayın.

Görüşmə və ayrılma sözləri
(Слова приветствия и прощания)

Здра́вствуйте!
Приве́т!
До́брое у́тро!
До́брый день!
Как ты (вы)?
Как пожива́ешь? (пожива́ете?)
Как жизнь?
Спаси́бо!
До свида́ния!
До встре́чи!
Всего́ хоро́шего!
Всего́ до́брого!

Atalar sözləri

Каков привет, таков и ответ (Nə tökərsən aşına, o da çıxar qaşığına)
Утро вечера мудренее (Axşamın xeyrindən səhərin şəri yaxşıdır)

Словарь

брать – götürmək
жена́ – arvad, həyat yoldaşı
пло́щадь – meydan
ду́мать – fikirləşmək
инду́к – hinduşka
поря́док – nizam-intizam
рисова́ть – şəkil çəktək
го́лубь – göyərçin
густо́й – sıx, qatı
поля́ – tarlalar
добро́ – xeyir
до́брый – xeyirxah
у́тро – səhər
ве́чер – axşam
мудрене́е − ağıllı, müdrik.

Biz belə bir dərs vəsaitinin də rus dili kimi ağır dilin öyrənilməsində ən yaxşı vasitə olacağı iddiasında deyilik və mütəxəssislərin bu barədə fikrini öyrənmək istərdik.

Ədəbiyyat

1. Адиба Пашаева, Солмаз Алиева, Наиля Зейналова. Учебник по предмету Русский язык как иностранный язык для 8-го класса общеобразовательных школ. «Çaşıoğlu», Баку-2020.
2. Адиба Пашаева, Солмаз Алиева, Наиля Зейналова. Учебник по предмету Русский язык (основной иностранный язык) для 9-го класса общеобразовательных школ. «1001 kitab», Баку-2020.
3. Адиба Пашаева, Солмаз Алиева, Наиля Зейналова. Учебник по предмету Русский язык (основной иностранный язык) для 10-го класса общеобразовательных школ. «Şərq-Qərb», Баку-2017.
4. Джафаров М. М., Гусейнова Ф. Ю. Русский язык. Учебное пособие для студентов-бакалавров естественных факультетов. Баку-2002.
5. Дильбар Мамедова., Наиба Керимли. Учебник по предмету Русский язык (основной иностранный язык) для 5-го класса общеобразовательных школ. «Şərq-Qərb», Баку-2020.
6. Образовательная программа по русскому языку как иностранному. Элементарный уровень. Базовый уровень. Первый сертификационный уровень / Министерство образования Российской Федерации. Москва, 2001.
7. Пашаева А., Алиева С.., Зейналова Н. Учебник по предмету Русский язык (основной иностранный язык) для 7-го класса общеобразовательных школ. «Çaşıoğlu», Баку-2018.
8. Рзаева Г.Н., Мехтиева Х.С., Бабаева С.Р., Везирова Ж.Б. Краткий курс грамматики русского языка (для студентов национальных групп). Изд-во: «Игтисад Университети», Баку-2015.
9. Садыгова А. А. Русский язык: учебное пособие для студентов заочного отделения. Баку: «Мутарджим», 2014.
10. Чингиз Бедалов, Наиля Бедалова. Русский язык 2. Учебник по предмету Русский язык (основной иностранный язык) для 2-го класса общеобразовательных школ. Изд-во: «Kövsər», Баку-2019.
11. Чингиз Бедалов., Наиля Бедалова., Солмаз Гусейнова. Учебник по предмету Русский язык (основной иностранный язык) для 6-го класса общеобразовательных школ. Изд-во: «Kövsər», Баку-2017.

12. Yusif Seyidov. Azərbaycan dili. Ali məktəblərin rus bölmələri üçün dərslik. «Maarif» nəşriyyatı. Bakı-1978.
13. Şadiyə İsmayılova., Aydın Bağırov., Alı Alıyev. Erməni dili (Dərslik). Bakı – 2019.

В.Б.Насибов

О состоянии преподавания предмета русского языка как иностранного в школах и вузах Азербайджана

Резюме

В статье речь идёт о состоянии преподавания русского языка как иностранного в школах и вузах Азербайджана, акцентируется внимание на учебниках и учебных пособиях по русскому языку, говорится о необходимости разработки учебников и учебных пособий по русскому языку на азербайджанском языке для тех, кто начинает изучать этот язык сегодня в нашей республике.

V.B.Nasibov

About the state of teaching Russian as a foreign language in schools and universities in Azerbaijan

Summary

The state of teaching Russian as a foreign language in schools and universities is enlightened in this article. The main attention is stressed on textbooks, text-editions on Russian. As the textbooks, text-editions used in our schools don't meet the requirements of the time. The necessity of presenting of grammar of Russian language in Azerbaijanian for those who are just starting to learn this language nowadays in our country in mentioned in this article.

Rəyçi: ped.f.d., dos. Y.K.Alxasov

Redaksiyaya daxil olub: 10.12.2020

A.Y.QASIMOVA
e-mail: aynurmehdiyeva84@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 25)

İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ PROSESİNDƏ MÜƏLLİM VƏ ŞAGİRDİN FƏALİYYƏTİ

Açar sözlər: *müasir təlim, müəllim-şagird əməkdaşlığı, interaktiv təlim, rollu oyunlar*
Ключевые слова: *ссовременное образование, сотрудничество школьника и преподавателя, интерактивное обучение, ролевые игры*
Key words: *modern education, co-students and teachers, interactive training, role-playing games*

Pedaqoji prosesin ayrılmaz hissəsi olan təlim, təhsil və tərbiyə ilə vəhdət təşkil edərək həyata keçirilir. Nəticə təlimin əsas təşkili forması olan dərs prosesində görünür.Təlim iki tərəf arasında mövcud olan fəaliyyət prossesidir, biri müəllimin öyrətmə, digəri isə şagirdlərin öyrənmə fəaliyyətidir. Hər bir şagirdin qabiliyyət və istedadına zəmin yaradan təlim prosesi pedaqoji prosesin tamlığında özünü biruzə verir. İntellektin güclənməsi, insanın hərtərəfli inkişafı üçün tədrisin yerində olması vacibdir. Məktəb şagirdin şəxsiyyət kimi formalaşmasında müstəsna rol oynayır. Şəxsiyyətin hərtərəfli inkşafı, əldə etdiyi bilikləri yadda saxlayıb tətbiq etmə bacarığı, kollektiv şəkildə müzakirə, diskussiyalar və tədqiqtlar aparmaqdan ibarətdir. Təlim prosesində pedaqogika elminin müəyyən etdiyi müxtəlif təlim texnologiyalarından istifadə etməklə şagirdlərin bilik, bacarıq və qabiliyyətlərini, maraqlarını təyin edib öyrənilməsi dayanır.

Müasir təhsilin əsas məqsədi təlimin səmərəliliyini maksimum artirmaqla, kiçik məktəbli şəxsiyyətinə bilikləri tətbiq etməyi, hadisələri obyektiv qiymətləndirməyi bacaran gənc nəsil yetişdirməkdir. Inkişaf etmiş ölkələrin təhsil sistemində interaktiv təlim metodlarından istifadə geniş yayılmış, şagirdlərin sərbəst düşünmələri, müstəqil fikir söyləmələrinə şərait yaratmaq baxımından həmin metodlar daha faydalı hesab edilmişdir. Interaktiv təlim dedikdə, dərsdə yaranan, təlim prosesində meydana çıxan şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim şagird birliyi nəzərdə tutulur. İnteraktiv metodlar isə həmin prosesdə öyrənmə və anlaşma, eləcə də irəlidə qeyd etdiyimiz bacarıq və keyfiyyətlərə şagirdlərin yiyələnməsini həyata keçirən üsullar, tərzlər, işlər, yanaşmalar və vasitələrdir. (1)

Azərbaycan təhsil sistemində tətbiqinə başlanılmış "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası" (Milli Kurikulumu) sənədində təlim mühiti uşağın inkişafının təmin olunmasında mühüm təsir vasitəsi kimi müəyyən edilir.(2) Təlimin mühitinin təşkili tədris prosesində tətbiq olunan metodlardan çox asılıdır. Ona görə də müəllimlər ilk növbədə təfəkkürün inkişafının qayğısına qalmalı, nəyi, nə üçün və necə öyrətmək problemi onların həmişə diqqət etməlidirlər. Məktəbdə təlim işi elə qurulmalıdır ki, hər bir şagird özünü təlim prosesinin mərkəzində hiss edə bilsin. O, öz interaktiv, fəal fəaliyyəti ilə həmişə diqqəti cəlb edə bilsin. Fəal və interaktiv metodların müəyyənləşdirilməsi və tətbiqi müəllimin peşəkarlıq səviyyəsindən, nəzəri və praktik hazırlığından, qarşıya qoyulmuş məqsəd və şəraitdən asılıdır.

Yeni təfəkkür müasir məktəbdə şagirdlərə fikirləri öyrətmək deyil, daha çox fikirləşməyi, müstəqil fikir qazanmağı öyrətməyi tələb edir, müasir məktəb monoloqlar əvəzinə dialoqlar, müəllim-şagird münasibətində əməkdaşlıq, qarşılıqlı sərbəst fikir yürütməsini genişləndirib inkişaf etdirir.Ənənəvi və interaktiv metodlardan vəhdətdə istifadə pedaqoji prosesin intensivləşdirilməsi məşğələdə şagirdlərin fəallığının maksimum artırılması, hər bir şagird üçün daha əhəmiyyətli və daha maraqlı fəaliyyətin təşkili və bununla da təlimin həm də inkişafetdirici və tərbiyəedici vəzifələrinin yüksəldilməsi prosesidir. İnteraktiv təlim metodlarının tətbiqi zamanı elmi texniki tərəqqinin son nəaliyyətləri hesab olunan kompüter texnologi-

yasından, internetdən və digər təlim texnologiyalarından və təlim texniki vasitələrindən istifadə edilməsi faydalı hesab olunur. Göstərilən işlərin yerinə yetirilməsinə interaktiv təlim müəyyən imkanlar açır.

Fəal təlim metodları üzərində qurulan dərsdə müəllim və şagird arasında qarşılıqlı əlaqə olur. Müəllim hər hansı mövzu haqqında qısa məlumat verir. Mövzu haqqında daha geniş, ətraflı məlumatları isə kiçik tədqiqatçılar olan şagirdlər özləri kəşf edir, özləri tapırlar. Bu proses kiçik məktəblilərdə ruh yüksəkliyi yaradır, onlarda özünə inam, heç kimdən asılı olmadan sərbəst fikir söyləmək, əzbərçilik və təkrarçılıqdan, hazır biliklər passiv şəkildə mənimsəmədən uzaq olaraq öz məntiqlərinin nəticələrini azad söyləmək qabiliyyətini inkişaf etdirir. Fəal təlim prosesində istifadə olunan metodlar çoxdur. Onlardan Klaster, Dəyirmi masa, BİBO, Venn diaqramı, İnsert, Diskussiyalar, Rollu oyunlar, Ziqzaq, Karusel və s. Bəzilərinə diqqət yetirək.

Klaster (şaxələndirmə) - Klaster diskursiv təsdiq üzərində qurulur. Yəni, buradakı məntiqi ardıcılllıq- hər bir fikrin əvvəlkindən yaranması və sonrakını doğurmasıdır. Müəllim dərsin əvvəlində şagirdlər üçün yeni bir mövzu verir. Şagirdlər fikir mübadiləsi aparır, əldə etdikləri biliklərdən yararlanaraq, bu mövzunu daha da şaxələndirirlər. Burada əsas məqsəd- şagirdləri düşünməyə təhrik etmək, sərbəst şəkildə yeni versiyalar söyləmək bacarığını möhkəmləndirməkdir.

Dəyirmi masa - metodunun tətbiqi zamanı da müəllim bələdçi rolunu oynayır. Mövzuya aid bir fikri kağıza qeyd edir. Qrup şəklində bölünən şagirdlər verilən fikrə əlavə olaraq, öz bildiklərini yazır və dəyirmi şəkildə özlərindən sol tərəfdə əyləşən şagirdlərə ötürürlər. Bu zaman şagirdlərin fikirlərini bir-birindən fərqləndirmək üçün hər bir şagirdin müxtəlif rəngli qələmlərlə yazması əsas şərtdir. Sonda müəllim hansı qrupun daha fəal olduğunu müəyyənləşdirir və mövzu haqqında ümumi nəticəni verir.

Venn diaqramı - iki və ya daha artıq çevrələrin kəsişməsi üzərində qurulur. Kəsişən hissədə verilən mözunun oxşar cəhətləri şagirdlər tərəfindən qeyd olunur. Sonda hər bir qrup işlədiyi diaqramı müəllimə təqdim edir, müəllim nəticələri qiymətləndirir.

Beyin həmləsi - burada əsas məqsəd daha çox fikir toplamaq, fikir azadlığı təmin etmək, öz fikrini dərhal, sərbəst söyləmək vərdişini formalaşdırmaqdır. Müəllim proqrama uyğun mövzunu verir. Mövzu ətafında hər bir şagird sərbəst, azad fikir söyləyir. Bəzən fikirlər üst-üstə düşməyə bilər. Bu zaman fikirlər tənqid olunmamalı, sadəcə düzəlişlər aparılıb, yekun nəticə şagirdlərə bildirilmələdir. (3,22)

Yeni təlim metodları şagirdlərin fərdi bilik, bacarıq və qabiliyyətlərini üzə çıxarır. Dərsdə özlərini sərbəst hiss edən şagirdlər prosesin fəal iştirakçısına çevrilməklə, nəzəri məsələləri də şüurlu şəkildə dərk edirlər. Bu isə şagirdlərin zehni inkşafına müsbət təsir göstərir. Təlimin inkişafetdirici xarakteri özünü göstərir, şagirdlərin yaradıcı, məntiqi, tənqidi təfəkkürü inkişaf edir. Onlar həyatda baş verən hadisələrə fəal və düzgün münasibət bəsləməyə alışırlar. Nəticədə sərbəst düşünə bilən, fəal şagirdlər yetişməyə başlayır.

Müşahidələr göstərir ki, şagirdlərə müşahidə etməyi, nəticə çıxarmağı, fakt və hadisələrin başlıca cəhətini axtarıb tapmağı öyrənməklə təfəkkür inkişafında əsaslı irəliləyiş yaratmaq və onları biliklərin mənimsənilməsinin fəal iştirakçısına çevirmək mümkündür. Elə inkişafetdirici təlim ideyası da şagirdlərin əqli fəallığını təfəkkür müstəqilliyini gücləndirməyi tələb edir.

Müasir dövrdə təhsilin məzmununun yenilənməsi, islahatların miqyasının genişlənməsi, innovasiyaların meydana gəlməsi, demokratik, humanist dəyərləri özündə əxz edən cəmiyyətin formalaşması, yaddaşdan düşüncə, təfəkkür məktəbinə keçidin sürətlənməsi, şəxsiyyət yetişdirilməsi və s. bu kimi meyarların kiçik məktəbli şəxsiyyətinin təsiri böyükdür. Müasir cəmiyyətin tələbi olan hərtərəfli şəxsiyyət yetişdirilməsi məsələsi həm ictimaiyyətin, həm də məktəbin qarşısında duran ən vacib məqsəddir. Kiçik yaşlı məktəblilərin hərtərəfli inkişafının əsas xüsusiyyətlərindən biri də inkişafetdirici təlim mühitinin məktəbli şəxsiyyətinə ən müasir metod və texnologiyalar vasitəsilə təsiridir. İntellektual və məntiqi təfəkkür qabiliyyətlərinin formalaşması üçün sağlam və inkişafetdirici mühit vacibdir.

İnsanın bir şəxsiyyət kimi formalaşması onun əqli imkanları ilə bağlıdır. Əqli inkişaf yalnız müəllim və tərbiyəçinin rəhbərliyi altında deyil, onu əhatə edən ətraf aləmin təsiri altında da baş verir. Təfəkkür və əqli inkişaf əsas anlayışlardan biridir.

Təfəkkür yeni, mühüm əlamət, xassə və qanunauyğunluqların axtarılmasına və kəşf edilməsinə yönəldilmiş, nitq ilə ayrılmaz bağlı olan bir psixi prosesdir. Təfəkkür beynin məhsuludur. Hər bir insan qarşısına qoyduğu məqsədə çatmaq üçün müxtəlif fəaliyyət növlərini həyata keçirir və qarşısına müəyyən məqsədlər qoyur. Burdan aydın olur ki, əqli tərbiyənin həyata keçməsi üçün kiçik yaşlı məktəblilərdə bütün psixi prosesləri, xüsusilə təfəkkürü inkişaf etdirmək lazımdır. Əqli qüvvələrin inkişaf etdirilməsi xüsusi qayğı tələb edir. Bu zaman fikri fəallıq priyomlarından istifadə edilir.

Tam orta təhsilli məktəblərdə tədris edilən fənlər şagirdlərin əqli cəhətdən tərbiyə olunmasına, şəxsiyyət bütövlüyünün formalaşmasına xüsusi xidmət göstərir. Müəyyən bilik ehtiyatı konkret tədris materialları əsasında yaradılır. Müasir məktəbli bilikləri yalnız dərslik, dərs vəsaitləri, vasitəsilə mənimsəmir. O, müxtəlif mənbələrdən (internet resursları və s.) yararlanaraq öz bilik ehtiyyatlarını zənginləşdirir. Əqli inkişafın nəticəsində məktəbli düşünməyi bacarmaq kimi fikri fəallıq əməliyyatlarına yiyələnir. Əqli inkişaf şagirdlərə təbiət, cəmiyyət və təfəkkür qanunları haqqında biliklər verir. Onlar elmlərin əsaslarına yiyələnməklə aləmin və insan cəmiyyətinin necə əmələ gəlməsi və inkişaf etməsi, təbiətdə və ictimai həyatda nə kimi səbəb və nəticə əlaqələrinin mövcud olması, kütlələrin həyatını hansı yollarla yaxşılaşdırmağın mümükünlüyü kimi bu və ya digər suallara cavablar tapır, müəllimin köməyi ilə obyektiv aləmin cism və hadisələri, bunların arasındakı qarşılıqlı əlaqələri dərk edirlər.(5, 11)

Fəal və intetaktiv təlim anlayışlarının bir cox cəhətləri bir -biri ilə yaxın və ümumidir. Hər iki metodla kecilən dərs şagirdləri fəallaşdırmağa yönəldilir, hər ikisində şagirdlərə hazır biliklər verilmir onları axtarıcılığa tədqiqatçılığa sövq edir. İnteraktiv təlimin əsas üstünlüyü-real idrak motivasiyasının yaranmasıdır. Bu da idrak fəaliyyətinin gedişində şagirdlərin təfəkküründə gercək ziddiyətlərin həll imkanlarına əsaslanır. Real ziddiyyətlərdən yaranan emosiyalar əqli ehtiyyatların səfərbərliyini təmin edir, idrak fəaliyyətini rövnəqləndirir, diqqəti uzun müddət cəmləməyə imkan yaradır.

Ədəbiyyat

1. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı. Adiloğlu, 2006.
2. Azərbaycan Respublikasının Təhsil Qanunu, Bakı 2017
3. Qədimova X. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Bakı. 2003.
4. Mehrabov A. Öyrədən və öyrənən münasibətlərinin tənzimlənməsində interaktiv metodların rolu "Təhsil problemləri" qəzeti, 2008
5. Vəliyeva T. Məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafında əqli tərbiyənin rolu.// Elmi əsərlər. BQU. Bakı, 2016/1

А.Я.Гасымова

Деятельность учителей и учеников
в применении интерактивных методов в обучении

Резюме

В статье показана необходимость использования интерактивных методов обучения в современный период, уточнены понятия "интерактивное обучение" и "интерактивные методы". Статья повествует о нормах общения между учителем и учениками. Далее в статье раскрываются значение и возможности использования интерактивных методов. В статье даны полученные результаты использования интерактивных методов. Использование интерактивных методов повышает эффективность занятий.

A.Y.Gasimova

Teacher and student activities in the application of interactive teaching methods

Summary

The article deals with the significane of using the interactive teaching metods nowadays. The article is about the way teachers interact with students and communication. After wards it investigates significance of using the interactive methods. In article the received results of use of interactive methods. Using of interactive methods raise to get effective knowledge.

Rəyçi: dos. K.Səmədov

Redaksiyaya daxil olub: 18.11.2020

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

K.Ə.ŞIXƏLİYEV,
S.X.NƏCƏFOVA

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

KƏSKİN RESEPTOR XƏSTƏLİKLƏRLƏ XƏSTƏLƏNƏN MƏKTƏBLİLƏRİN FİZİKİ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Açar sözlər: *kəskin reseptor xəstəliklər, fiziki tərbiyə, tənəffüs*
Ключевые слова: *острые респираторные болезни, физическая культура, дыхание*
Key words: *acute receptor diseases, physical education, breathing*

Hal-hazırda insan sağlamlığına hərtərəfli qayğı cəmiyyətimizin bir nömrəli problemidir. Yaşından asılı olmayaraq hamı bu qayğıya möhdacdır. Bu sahədə ölkəmizdə mühüm tədbirlər görulür.

Son 200 ildə aparılmış günəş fəallığının müşahidəsi nəticəsində alimlər bir sıra faktlar toplamışdır. Belə ki "A.L.Çijevski özünün bir çox tədqiqatları ilə sübut etmişdir ki, epidemiyalar və pandemiyalar günəş fəallığının gücləndiyi dövrlərdə baş vermişdir. Günəş fəallığı zəif olan dövrlərdə isə epidemiyalar və pandemiyalar müşahidə olunmamışdır. Bu, XIX əsrin sonu və XX əsrin əvvələrində müşahidə olunmuş Asiya vəbası epidemiya və pandemiyaları ilə həmin dövrlərdəki günəş fəallığını tutuşdurduqda özünü çox yaxşı göstərir. A.L.Çijevski 500 il ərzində baş vermiş qrip epidemiyaları ilə günəş fəallığının dəyişilməsini də tutuşdurmuş və analoji məlumatlar əldə etmişdir"(1,s.68-69). Daha sonra taun, difteriya, serebrospinal meningit epidemiyalarının da günəş fəallığı ilə əlaqəli olduğu A.L.Çijevski tərəfindən müəyyənləşdirilmişdir.

Bu da elmə çoxdan məlumdur ki, insan orqanizminin xəstəliklərə meyilliyi ondakı fiziki-kimyəvi reaksiyalarının gedişi ilə günəş fəllığınından asılıdır.

Qeyd etdiyimiz bu faktorlar məktəblilərdə kəskin reseptor xəstəliklərin (KRX) yayılmasına səbəb olur.

Məktəblilərin sağlamlığı onların müxtəlif yaş dövrlərində fiziki, zehni, funksional inkişafından, böyümə prosesi zamanı adaptasiya reaksiyalarının səviyyəsindən, xəstəliyin rezistentliyindən, immun sisteminin müdafiə qabiliyyətindən və s. aslıdır.

Bioloji və sosial faktorların mürəkkəb qarşılıqlı əlaqəsi məktəblilərin sağlamlığının vəziyyətinin formalaşmasına təsir edir (3, s. 51-53).

Soyuqdəymə xarakterli xəstəliklər qrupuna kəskin reseptor xəstəliklər (KRX), infeksiya xarakterlilərə - kəskin resperator virs infeksiyası (KRVİ) adlanır.

Bugünkü günə KRVİ-nin 170 törədicisi məlumdr ki, bunlar da əsasən uşaqlarda rast gəlinir. Bu və ya digər xəstəliklərin mütəmadi üzə çıxmasının səbəbi uşaq orqanizminin xüsusiyyətindən asilidir. Belə ki immun sistemi zəif olanlarda tez və uzun müddətli xəstəlik qeydə alinır.

KRX yaranmasına əsas səbəb hədsiz isti və ya hədsiz dərəcədə soyuqun olmasıdır.

Uşaq orqanizminin fizioloji sisteminin funksional hazırlıqsızlığı ətraf mühitin meteofaktorlarının təxmini təsirindən istilik konfortunun saxlanmasına cavab verə bilmir, bu da tənəffüs və ürək - qan damar sisteminin termotənzimləmə funksiyasıyla biləvasitə bağlıdır.

Uşağın il ərzində 4 dəfədən çox kəskin resperator xəstəliklərlə, o cümlədən qriplə xəstələnməsi, orqanizmin zəif olmasından xəbər verier. Bu qrup uşaqlar "tez-tez xəstələnən" kimi qeyd olunur.

Tez-tez baş verən KRX hərəkət aktivliyini azaldır, funksional imkanlar: tənəffüs və qan dövranı zəifləyir, dayaq hərəkət aparatının inkişafı zəifləyir, qamətin düzgün formalaşmasına maniə yaranır. Tez - tez xəstələnən uşaqların fiziki xüsusiyyətlərinə aiddir:

- onurğanın düzgün formalaşmasında rolu olan əzələlərin zəifliyi, skletin inkişafı zamanı qamətin qüsurlu olması;

- təkrarlanan iltihabi proseslər zamanı tənəffüs orqanlarının inkişaf pozğunluğu, bu da nəticədə ensiz döş qəfəsinə, astenik bədən quruluşna səbəb olur.

Fiziki inkişafın dishormaniyası – bədən çəkisi ilə uzunluğunun və döş qəfəsi genişliyi arasında proporsiyaların pozulması.

Tez-tez baş verən KRVİ orqanizmdə müxtəlif və dərin dəyişikliklər yaradır. Belə dəyişikliklərin birgə təsirindən sağalmadan sonra kliniko – funksional xüsusiyyətlər zamanı bütün orqanizmin fəaliyyəti pozulur (ağ ciyərlərin maksimal ventilyasiyası, bronxların keçiriciliyi, ürək ritminin xarakteristikası, əsasəndə miokardin gərginlik indeksi) 1 dəqiqə ərzində tənəffüs tezliyinin yüksək olması bu uşaqları yaşıdlarından fərqləndirir.

Bir qayda olaraq tez-tez xəstələnən uşaqların fiziki vəziyyətləri orta aşağı, hətta lap aşağı səviyyədədir. Hətta bu uşaqlar sağlam uşaqların səviyyəsində fiziki hazırlıqla məşğl olsalar belə, onların pedaqoji test nəticələri zəif olur.

KRX-lə xəstələnmiş uşaqların sağlamlıqlarının möhkəmlənməsidə müalicə - profilaktika effektliyinin təkmilləşməsi tibbin və fiziki tərbiyənin aktual problemi olaraq qalır. Tez-tez baş verən KRX-in profilaktikası zamanı mütəşəkkil uşaq kollektivlərində yüksək uşaq xəstəlikləri və müxtəlif virus növləri sirkulyasiyasına yol açan problemlərdəndir.

Beləki, bu qrup xəstəliklərin profilaktikası da xüsusi tədbirlərin istifadəsi məhduddur, ön plana, qeyri-spesifik, qoruma tədbirləri irəli sürülür, bu da fiziki tərbiyə və bədənin möhkəmlənməsidir ki, aparıcı yerlərdən biridir.

Xəstəliklər arasındakı zaman kəsiyində, uşaq praktiki olaraq sağlam hesab olunan zaman fiziki imkanlarını artırmaq üçün fiziki fərəkətlərdən istifadə olunur.

Xəstəliyin kəskin dövrü keçdikdən sonra müalicə məqsədi ilə fiziki hərəkətlər vermək olar. Bu barədə qeyd edildiyi kimi "... Fiziki hərəkətləri seçəndə xəstənin ümumi vəziyyətini, ağ ciyərlərdə qaz mübadilə və ventilasiyanın pozğunluq dərəcəsini nəzərə almaq vacibdır" (2, s.109).

Sağlamlıq və məşq effektini, məktəbli orqanizminin imkanlarını və fiziki tərbiyə zamanı istifadə olunan vasitələrin bu fiziki tərbiyəyə uyğun olmasıyla əldə etmək mümkündür.

KRVİ nəticələrini düzgün qiymətləndirməmək, həkim məsləhətlərinə etinasızlıq, xəstəlik sonrası bərpa zamanı bronxit, traxeit, pnevmaniya, asma, hətta bunların xroniki formaya keçməsi kimi fəsadlar yaradır.

KRX-in əmələ gəlməsinin əsas səbəblərindən sayılan istilənmə və soyuqlama olduğu üçün uşaq orqanizminin müqavimətinin yüksəlməsi vasitəsi olaraq soyuqlama və qəfil temperatur dəyişməsi zamanı orqanizmin möhkəmlənməsinin müxtəlif metodlarından istifadə olunur.

Birinci 4-5 dərs zamanı bədən tərbiyəsi müəllimi, uşağa göstəriş olan tapşırıqların yerinə yetirilməsinə nəzarət edir, çətinlik yaradan hərəkətləri hərəkətlərlə əvəz edir, amma uşağı bədən tərbiyəsi dərslərindən azad etmir.

Zəruri nəticələr əldə etmək üçün adaptasiyanın individual fizioloji mexanizminə uyğun olan optimal yüklərdən istifadə etmək lazımdır.

Hərəkətləri təkrarlayarkən, onların düzgün yerinə yetrilməsinə diqqət etmək lazımdırki, inkişafın effektliyi olsun.

Mürəkkəb kordinasiyalı tapşırıqlarda, böyük və maksimal yükləmələrdə məhdudiyyətlər ola bilər. Bu zaman, pedaqoa məhduduyyət tətbiq edərək, zəifləmiş uşaqlarda motor aktivliyinin artması ilə əvəzləyərək tapşırığın yerinə yetrilməsinə nail olur.

5-6 dərslərdən başlayaraq getdikcə yük artır: əvvəlcə həcimcə, 5-6 dərsdən sonra intensivlik baxımından nəzərə almaq lazımdır ki, tez-tez KRX keçirmiş uşaqlar və resperator allergiyası olanlar böyük və maksimal yüklü intensiv hərəkətlərə qeyri aktiv cavab verirlər. Bu-

nunla əlaqədar olaraq yükləməni, yuxarı tənəffüs yollarında allergiya olanları nəzərə alaraq differensasiya etmək vacibdir.

Uşaqlarda sağalma effektini əldə etmək məqsədilə, KRX keçirmiş uşaqlarla qaçış; yavaş, iti-iti yeriş də geniş tətbiq olunur.

Tənəffüs tapşırıqları əsasən dinamik və statistik tapşırıqlar yerinə yetirilərkən verilən pauzalarda tətbiq olunur. Estafetlərdə iştirak və tapşırığı gözləyərkən də tənəffüs tapşırıqları yerinə yetirilir. Tənəffüs mexanizminin düzgün bərpası üçün xüsusi tənəffüs tapşırıqları yerinə yetirilir ki, bu tapşırıqlar həm də yerli və ümumi linfo qan – dövranını möhkəmləndirilməsinə, tənəffüs əzələlərinin möhkəmlənməsinə və tənəffüs yollarına reflektor təsir göstərməsinə yardımçı olur.

Hərəkətli oyunlar və idman oyunları elementləri uşaqların motorıkasına, sinir sisteminə və psixi sahədə kompleks şəkildə təsirinə kömək edir. Bütün əzələləri hərəkətə gətirən oyunların seçilməsi daha məqsədə uyğundur.

Tapşırıq zamanı yükün həcmi və intensivliyi tapşırıqın seçilməsindən asıli olaraq çoxalır, artır, pauzaların azalması və hərəkətlərin mürəkkəbləşməsi, hərəkət amplitudasının artması ümumi dözümlülük inkişafına yönəlmiş tapşırıqların çoxluğu hesabına çoxalır. Buna görə də dövrü ya da gimnastik tapşırıqların yerinə yetirilməsi daha məqsədə uyğun sayılır. Enerji təminatı və tənəffüs sisteminə və ürək – damar sisteminin funksional halına təsir göstərməyə yönəlmiş tapşırıqlar fasiləsiz üsulla 10 dəqiqə, interval üsulu ilə istirahət intervalıyla, bir şərtlə ki, başlanğıc səviyyəsinə qayıtmaq baş verməsin.

Tez-tez xəstələnən uşaqlarla fiziki tərbiyə dərslərinin metodiki xüsusiyyətləri:

Burunla nəfəsalmanın bərpasına xüsusi diqqət ayırma. Ümum inkişaf etdirici və xüsusi tapşırıqların tənəffüs və boşalma tapşırıqlarıyla əvəzlənməsi.

Dözümlülüyün inkişafına, orqanizminin müqavimətlərinin artırılmasına, fiziki inkişafın yaxşılaşmasına yönəlmiş əsas tapşırıqlar.

Düzgün qamətin formalaşması və möhkəmlənməsi adətinə yiyələnmə tapşırıqlarının istifadəsinin vacibliyi.

Dərslər zamanı aktiv istirahətdən istifadə etməli, baxmayaraq ki, KRX keçirmiş uşaqların orqanizmlərində funksional dəyişiklik zamanı ürək döyüntülərinin sayı dəqiqədə 170-ə çatır.

Yuxarı tənəffüs yollarının allergiyası olan və xəstəlik keçirən uşaqlarla kursun əvvəlində istifadə olunan tapşırıqlar və yol verilən yüklər ürək döyuntülərinin sayı dəqiqədə 150-ə, kursun ortasına 130-a və bütün məşğələ boyu uşağın zəifləmiş orqanizminin normallaşmasına təkan verir.

Pedaqoji nəzarət, təkcə testləri yerinə yetirməni deyil məktəbli orqanizminin yükləmə zamanı gözlə görülə biləcək reaksiyalarına nəzarət etmək, yorulmanı üzə çıxarmaq, təngənəfəslik olarsa buna reaksiya verməkdən ibarətdir.

Ədəbiyyat

1. Hüseynov R.İ., Məmmədov V.N., Osmanov M.S. Sən sağlamsanmı? - B.: Azərnəşr, 1990, 96 səh.

2. H.İ.Qasımov, Q.M.Cəfərov. İdman təbabəti, müalicə bədən tərbiyəsi və masaj. Bakı: "Mütərcim", 2002. 280 s.

3. Кучма В.Р. Оценка риска влияния факторов окружающей среды на здоровье детей и подростков. Гигиена и санитария. - 2006. № 6.

Я.Б.Самедов, К.А.Шыхалиев, С.Х.Наджафова

Об особенностях физического воспитания школьников перенесших острые респираторные заболевания

Резюме

В данной статье представлена информация о причинах распространения острых респираторных заболеваний у школьников в результате воздействия различных факторов. Кроме того,

говорится об эффективности использования определенных видов физических упражнений с целью повышения физических возможностей детей в период между болезненными состояниями, когда они считаются практически здоровыми. В статье также комментируются механизм вспомогательного действия специальных дыхательных упражнений для правильного восстановления дыхательного механизма, способствующих укреплению дыхательных мышц и рефлекторному воздействию на дыхательные пути.

Y.B.Samedov, **K.A.Shikhaliyev, S.Kh.Najafova**

On the features of physical education of pupils with acute receptor diseases

Summary

The article provides information on the main causes of the spread of acute receptor diseases in schoolchildren due to various factors. In addition, the interval between illnesses emphasizes the effective use of certain types of physical activity in order to increase the child's physical capacity when the child is considered practically healthy. The article also explains the mechanism for performing specific breathing exercises, strengthening the respiratory muscles and helping the respiratory tract to have a reflex effect on the proper restoration of the respiratory mechanism.

Rəyçi: biologiya ü.f.d., dos. S.A.Əliyev

Redaksiyaya daxil olub: 05.12.2020

Y.B.SƏMƏDOV
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

V.M.VƏLİYEV

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
(Bakı şəh., F.Xoyski pr., 98)

SADƏ REAKSİYALARIN CƏLDLİYİNİN İNKİŞAF METODİKASINA DAİR

Açar sözlər: *cəldliyin inkişafı, fiziki hərəkətlər, reaksiya*
Ключевые слова: *развитие быстроты, физические упражнения, реакция*
Key words: *development of quickness, physical exercises, reaction*

Cəldlik bütün idman növləri üçün zəruri olan fiziki keyfiyyətlərdən biridir. Sadə reaksiyaların cəlddliyinin inkişaf etdirilməsi üçün ən səmərəli vasitə fiziki hərəkətlərdir. Məşğələlər zamanı bu hərəkətlərdən səmərəli istifadə olunması məşqçinin metodiki fəaliyyətindən, bilk və bacarığından aslıdır. "...cəldliyin inkişaf etdirilməsində mühüm cəhətlərdən biri də həmin keyfiyyətin müvafiq idman növünə uyğun mahiyyət kəsb etməsi ilə sıx əlaqədardır" (1, s.149).

Sadə reaksiyaların cəlddliyinin inkişaf etdirilməsi üçün gimnastika hərəkətlərindən, tsiklik hərəkət fəaliyyətindən, oyunlardan, xüsusi trinajor hərəkətlərindən və s. istifadə olunmalıdır. "Adətən, bu hərəkətlər 5-10 san ərzində icra edilir. Lakin hərəkətlərin inkişafetdirici təsirini artırmaq məqsədilə onların çoxlu təkrar məsləhət görülür" (2, s.104).

Cəldliyin lokal təzahürlərinin (reaksiyanın vaxtı, tək-tək hərəkətlər, hərəkətlərin tezliyi) inkişafı metodikası və kompleks sürət keyfiyyətlərin təkmilləşdirilməsi metodikasını differensasiya etmək lazımdır. Cəldliyin təzahürlərinin bəsit formaları keyfiyyətli sürət hazırlığın yalnız əsasını qoyurlar. Məhz buna görə də, insanın sürət keyfiyyətlərinin inkişaf etdirilməsi üzrə işi iki qarşılıqlıəlaqədar olan mərhələyə bölmək məqsədəuyğundur: cəldliyin bəsit formaların təzahürlərinin differensial inkişafı mərhələsi və sürət imkanlarının inteqral inkişafı mərhələsi. Bu bölgünün şərti olduğu anlaşılır. Lakin, o bizə cəldliyin inkişafı zamanı vahid və qarşılıqlı, əlaqəli şəkildə analitik və sintez yanaşmaları təmin etməyə imkan verir. Məsələn, "Futbolçunun cəldliyi həmişə dəyişən oyun şəraitində topla və topsuz etdiyi hərəkətlərdə ifadə olnur. Topu aparmaqla, aldatmaqla, topalma və qapıya zərbə ilə əlaqədar olaraq edilən hərəkətlərdə istifadə olunr"(3, s. 98).

Reaksiyaların (həm sadə, həm də mürəkkəb) ümumi cəldlıyının inkişafının ilkin mərhələsində hərəkətli və idman oyunları ilə məşğələlər yaxşı effektə malikdirlər. Yüksəlmiş emosional fonunda onlara xas olan sürət hərəkətləri hərəkətlərin və reaksiyaların cəldliyinin inkişafına imkan yaradırlar. Hərəkət reaksiyaların cəldliyinin inkişafında idman oyunlarının istifadəsinin metodiki xüssiyyətlərinə aiddir:

1. Mühüm yorğunluq yaranmasın deyə, fasiləsiz oyunun müddətinin az olması (10-15 dəqiqəyədək).
2. Məkanın və zamanın çatışmamazlığı şəraitinin yaradılması (meydançanın ölçülərinin kiçildilməsi; müvafiq oyunun qaydalarına zidd olaraq iştirakçıların sayının çoxaldılması; əlavə qaydaların tədbiq olunması və s.).
3. Lazım gəldikdə bir neçə qısamüddətli oyun taymlarının istifadə olunması.
4. Taymlar arasındakı fasilənin müddəti – operativ iş qabiliyyətinin tam bərpa olunmasınadək (ÜVS 90 – 100 vur/dəq).
5. İstirahətin xassəsi – uzlaşdırılmış. Aktiv istirahətin vasitələri qismində tənəffüsün bərpa olunmasına, əzələlərin boşaldılması, əzələlərin mülayim dartılması üzrə tapşırıqlardan istifadə edirlər.

Standart hərəkətlərlə standart qıcıqlanmalara sadə (bəsit) reaksiyaların cəldliyinin inkişaf etdirilməsi zamanı perseptiv və hərəki proseslərin bir – birinə qarşı nisbətən müstəqil olduqlarını nəzərə almaq lazımdır. Bu isə o deməkdir ki,siqnalın tanınmasının və sinir impulsların icra sisteminə (müvafiq əzələnin) ötürülmüsinin əsasında duran sinir proseslərinin gedişinin cəldliyi ilə hərəki fəaliyyətin əsasında duran sinir proseslərin gedişinin cəldliyi arasında bilavasitə əsılılıq mövcud deyil. Məhz buna görə də, reaksiyaların inkişafı metodikası analitik yanaşmaya əsaslanmalıdır (Келлер, 1977; Келлер, Платонов, 1993 и др). İlk növbədə reaksiyanın motomer komponentinin hərəki strukturunu (qıcıqlanmaya cavab hərəkətin texnikası) diqqətlə öyrənmək lazımdır. Sonra isə və ya buna paralel olaraq bu reaksiyanın şəraitinə nisbətən qeyrispesifik şəraitdə reaksiyanın inkişafının cəldliyini (reaksiyanın latent dövrünün yaxşılaşdırılması) həyata keçirirlər. Bu adi şəraitə nisbətən sadələşdirilmiş reaksiya şəraiti (məsələn, sprinterlərdə yüksək startdan qaçış) və ya hərəki reaksiyanın perseptiv komponentini modelləşdirən texniki qurğuların istifadəsi ilə olan tapşırıqlar (məsələn, səs və ya işıq siqnalına cavab olaraq, sprinter ayağı ilə xronoreaksiometrin elektrik açarına basır) ola bilərlər.

Hərəkət – cavab texnikası keyfiyyətli şəkildə mənimsənildikdən və məşqlər yolu ilə qeyrispesifik şəraitdə reaksiyanın latent vaxtı yaxşılaşdırıldıqdan sonra üçüncü mərhələyə keçmək lazımdır. O, müəyyən bir motor fəaliyyətinin şərtlərinə uyğun olaraq latent cavab dövrün və reaksiyanın motor komponentinin əlaqələndirici qarşılıqlı təsirinin yaxşılaşdırmasından ibarətdir. Ancaq nəzərə almalıyıq ki, nisbətən standart şərtlər daxilində bu tapşırıqları nə qədər çox icra etsək, orqanizm bir o qədər tez onlara uyğunlaşacaq və adekvat uyğunlaşma reaksiyalarına cavab verməyəcək. Buna görə də, gələcəkdə qıcıqlanmanın yerini, zamanını, ölçüsünü və növünü variativ (dəyişkən) şəraitində sadə reaksiyanın sürətinin inkişaf etdirilməsi məqsədəuyğundur. Məsələn, sprinterin başlanğıc siqnala cəld cavab reaksiyasını inkişaf etdirmək üçün əvvəlcə aşağı startdan qaçma texnikasını mənimsəyirlər və qeyri – spesifik şəraitdə (hərəki və idman oyunlarında, trenajorlarda, yüksək startdan qaçışda və s.) eşitmə və ya vizual stimullara sürətli cavab reaksiyasını məşq etdirirlər. Gələcəkdə, yarış qaydalarına uyğun olaraq aşağı startdan qaçışa keçirlər (spesifik şəraitdə latent dövrün və reaksiyanın motor komponentinin qarşılıqlı əlaqələrinin təkmilləşdirilməsi). Təlimin növbəti mərhələsində fərqli start mövqelərindən istifadə edilir, hazırlıq və icra əmrlər arasında variativ fasilə müddəti ilə startlar, start qıcıqlanmasının (siqnalının) variativ gücü və s. istifadə olunur.

Sadə reaksiyaların cəldliyinin inkişaf metodikasının alqoritmi dördmərhələdən ibarət olmalıdır:

1. Hərəki cavab – reaksiyanın motor komponentinin strukturuna (müvafiq tapşırığın taktikasına), onun rasional tempinə və ritminə yiyələnmək.

2. Qeyrispesifik şəraitdə reaksiyanın latent vaxtının göstəricisinin yaxşılaşdırılmasına yönəldilmiş yarış xassəli müxtəlif tapşırıqların (hərəki və idman oyunları ilə məşğələlərdə, trenajorlarda, asanlaşdırılmış şəraitdə və s.) icrası.

3. Müvafiq hərəki fəaliyyətin icrasının Spesifik şəraitində latent vaxtın və reaksiyanın motor komponentinin kompleks şəkildə təkmilləşdirilməsi.

4. Məkan, zaman, qıcıqlandırma növünün və onun təsir gücünün variativ şəraitində kompleks şəkildə təkmilləşdirilməsi.

Bu zaman belə metodoloji tövsiyyələri rəhbər tutmaq lazımdır:

1. Reaksiyanı mümkün qədər cəld icra etmək.

2. Diqqəti siqnal qıcıqlanmanın qəbul edilməsində deyil, hərəkət – cavabın (reaksiyanın motor komponenti) cəld başlanmasında cəmləndirmək lazımdır. Bu da reaksiyanın latent dövrünün azalmasına imkan verir.

3. Hazırlıq əmrindən sonra hərəkət – cavabda yükləmələrə məruz qalan əsas əzələləri bir qədər gərginləşdirmək məqsədəuyğundur. Onların tonusunun artırılması hərəkətin başlanmasına operativ hazırlığın yaxşılaşdırılmasına kömək edir.

4. Bir seriyadakı təkrarların sayı elə tənzimlənməlidir ki, növbəti yanaşmalarda reaksiyanın vaxtının artırılma tendensiyasının qarşısı alınsın. Orta hesabla o 4-6 təkrardan 15-20 təkraradək olur.

5. Reaksiya seriyalarının miqdarı müəyyən insanın məşqliliyinin vəziyyətindən, motor komponentin (hərəkət – cavab) enerji həcmindən və mürəkkəbliyindən asılıdır və orta hesabla 3-6 təşkil edir.

6. Seriyalar arası istirahət intervalları orta hesabla 2-3 dəqiqə təşkil edir. Eyni zamanda da, reaksiyanın növbəti seriyasına hazırlığının subyektiv hissiyatına əsaslanması məqsədyönlüdür.

7. Seriyalar arası istirahətin xarakteri – aktivdir (hərəkət – cavabda əsas yükləmələrə məruz qalan əzələlərin boşalmasına və mülayim şəkildə dartılmasına yönəldilmiş hərəkətlər).

8. Müxtəlif ilkin vəziyyətlərdən reaksiyanı icra etmək.

9. Hazırlıq və icra etmə komandaları arasındakı fasilələrin müddətini 1 s-dən 2-3 sandək hüdudlarda variativ şəkildə dəyişdirmək (Петровский, 1978 и др). Göstərilən komandalar arasındakı fasilənin optimal müddəti 1,5 san təşkil edir.

10. Siqnal qıcıqlanmanın xarakterinin dəyişilməsi (vizual, eşitmə, taktil).

11. Siqnal qıcıqlanmanın gücünü dəyişdirmək. Bu metodoloji fəndin tədbiqi reaksiyanın cəldliyini 5,5 – 11,6% yaxşılaşdırır (Верхошанский, 1988).

12. Reaksiyanın faktiki vaxtı haqqında idmançılara təcili məlumatın ötürülməsi. Fərdi hisslərin və uğursuz reaksiyaların qarşılıqlı müqayisəsi cəldliyin inkişafına kömək edir.

13. Reaksiyaların cəldliyinin inkişafına yönəldilmiş tapşırıqların icrasını optimal operativ iş qabiliyyəti vəziyyətində, yəni keyfiyyətli isinmə hərəkətlərindən dərhal sonra icra etmək lazımdır.

Fiziki cəhətdən yaxşı hazırlıqlı olan insanlarda əlavə xarici müqaviməti (müəyyən hərəkətdə maksimal gücün 30 – 40%) dəf etməklə səs, vizual və ya taktil qıcıqlanmaya təkrar reaksiya mühüm məşq effekti verir. Seriya 4 – 6 reaksiyadan ibarətdir, məşğələdə 4 – 6 dəq uzlaşdırılmış fasilələrlə 2 – 3 seriya keçirilir (Верхошанский, 1988). Sadə reaksiyaların sürəti də insanın zaman mikrointervallarını (saniyənin onda bir hissələrini və ondan da kiçik zaman kəsikləri) fərqləndirmək və şərtləndirilmiş vaxt ərzində hərəki fəaliyyəti icra etmək bacarığı ilə əlaqədardır. Sprinter məsafələrindəki start reaksiyanın cəldliyinin inkişafının üç mərhələli metodikası bu qanunauyğunluqlara əsaslanır.

Birinci mərhələdə interval metodu ilə müəyyən məşğələlər, məsələn, 20 – 40 m məsafədə sürətlənmə ilə qaçış (tsiklik lokomosiyalarda sürətli məşq metodikası – ardıyca) icra edilirlər. Ani məlumat vasitələri ilə idmançıya məşğələnin icrasının vaxtı ötürülür. O, özünün məşğələni bu və ya digər dərəcədə keyfiyyətli icra edilməsi hissiyatı ilə obyektiv məlumatı müqayisə etməlidir.

İkinci mərhələdə həmən məşğələ icra edilir. Lakin indi qaçışçı öz hissiyyatına əsaslanaraq müəyyən edilmiş məsafənin keçmə vaxtını əvvəlcədən müəyyən etməlidir. Bundan dərhal sonra ona alətlər vasitəsi ilə əldə edilmiş obyektiv məlumatı verirlər. Qaçış atleti məşğələnin icra vaxtının öz hissiyatı ilə obyektiv məlumatı müqayisə edir və müvafiq lazım olan dəyişiklikləri əlavə edir. Əgər bir çox təkrarlamalar zamanı müvafiq hərəki fəaliyyətin vaxtının qiymətləndirilməsi üst – üstə düşsə, onda üçüncü mərhələyə keçmək olar.

Üçüncü mərhələdə eyni məşğələ ciddi şəkildə müəyyən edilmiş variativ sürətlə icra olunur. Məsələn, ilk yanaşmada tapşırığı 4,0 san, ikincidə - 3,9 san, üçüncüdə - 4,1 san və s. icra etmək. Əgər qaçışçı yanaşmaların çoxunda özünün hərəki hissiyatlarına əsaslanaraq verilən və variativ şəkildə dəyişən vaxt ərzində icra edə bilsə digər tapşırığı (alçaq startdan, "yerindən" qaçış və s.) və ya daha uzun və ya qısa müddətlə həmin o tapşırığı istifadə (icra) etmək olar. Analoji yanaşma digər tsiklik lokomosiyalarda da istifaadə olunur.

Ədəbiyyat

1. Quliyev G.B. Çağırışaqədər dövrdə gənclərin güləş üzrə məşğələlərinin təşkili. Bakı, 2005, 180 səh.

2. Novruzov D.F. Güləşmə: Ali məktəblər üçün dərslik və dərs vəsaitləri seriyasından. Bakı, Maarif, 1992. 328 səh.

3. G.Q.Qarayev. "Futbol: təlim, məşq və oyun nəzəriyyəsi" (dərs vəsaiti). Bakı, "Müəllim" nəşriyyatı, 2005. 392 səh.

4. В.Х.Платонов. Теория спорта. Киев, 1987 г.

5. Л.П.Матвеева и А.Д.Новиеова. Теория и методика физического воспитания. Учебник для ин-тов физ. культуры. М.: Физкультура и спорт, 1976 г.

Я.Б.Самедов, В.М.Велиев

Об методиках развития быстроты простых реакций

Резюме

Статья раскрывает способы развития быстроты. В развитии быстроты раскрываются соответствующие физические упражнения. Особенности быстроты основываются на высказываниях известных ученых. Анализированы формы проявления быстроты. Описываются использование способов для развития быстроты и задачи претворения их в жизнь.

Y.B.Samadov, V.M.Valiyev

About development method of quickness of simple reactions

Summary

The article shows the meanings of development of quickness. Appreciating physical exercises of the development of quickness are also given. The special features of the quickness were given in the works of famous scientists. The forms of quickness is analyzed. The forms for the development of quickness and its ways have been described in above mentioned article.

Rəyçi: prof. Q.M.Cəfərov

Redaksiyaya daxil olub: 25.09.2020

R.A.TAĞIYEVA
e-mail: abayramova@ranbler.ru

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TOLERANTLIQ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *kiçikyaşlı məktəbli, tolerantlıq tərbiyəsi, metodoloji yanaşma, tolerantlıq tərbiyəsinin xüsusiyyətləri, tolerant şəxsiyyət, tolerantlıq tərbiyəsinin amilləri.*

Ключевые слова: *младший школьник, воспитание толерантности, методологический подход, особенности воспитания толерантности, толерантная личность, факторы толерантного воспитания.*

Key words: *younger pupil, tolerance education, methodology approach, features of tolerance education, tolerant personality, characteristics of tolerance*

Pedaqoji-psixoloji ədəbiyyatda kiçikyaşlı uşaqlarda tolerantlıq tərbiyəsi ilə bağlı məsələlərin tədqiqinə dair xeyli nəzəri – pedaqoji, psixoloji və texnoloji istiqamətdə əsərlər vardır: etnopsixoloji ideyalar (O.Q. Həsənli, Ə.Ə. Əlizadə, A.P. Okoneşnikova və b.); humanizm pedaqogikası ideyaları (Y.R. Talıbov, S.M. Quliyev, Ş.A. Amonaşvili, M.A. Danilov, M. Montessori, V.A. Suxomlinski və b.); əməkdaşlıq pedaqogikası ideyaları (Ə.Ə. Ağayev, Y.R. Talıbov, İ.P. Volkov, O.S. Qazman, İ.P. İvanov, S.N. Lesenkova və b.): qeyri-zorakı pedaqogika və psixologiya ideyaları (R.İ. Əliyev, H.Ə. Əlizadə, A.Q. Kozlova, V.Q. Maralov, V.A. Sitarov və b.); dünya mədəniyyəti pedaqogikası ideyaları (A.N. Abbasov, F.B. Sadıqov, M.V. Kabatçenko, E.S. Sokolova, Z.K. Şnekendorf və b.); tolerantlıq və etnik pedaqogika ideyaları (İ.İ. Əliyev, Ə.P. Bayramov, A.M. Baybakov, Q.V. Bezyuleva, Z.F. Mubinova və b.); pedaqoji prosesin tamlığı nəzəriyyəsi (N.M. Kazımov, Ə.Ş. Həşimov, Y.K. Babanski); etnopedaqoji yanaşma (R.İ. Əliyev, O.Q. Həsənli, Q.N. Volkov və b.); uşaqlarda millətlərarası tolerantlıq tərbiyəsinin pedaqoji texnologiyaları (İ.B. Əmirəliyeva, İ.Z. Skovorodkina və b.) istiqamətində.

Bu istiqamətdə aparılmış tədqiqatlar araşdırılaraq həm metodoloji, həm də nəzəri-pedaqoji yanaşmalar baxımından qruplaşdırılmışdır. Kiçikyaşlı məktəblilərin tolerantlıq tərbiyəsi kontekstində əsas metodoloji yanaşmalar bunlardır.

- Şəxsi-oriyentirli (istiqamətli) yanaşma (Y.R. Talıbov, V.V. Serikov, İ.S. Yakimanskaya). Belə yanaşmanın əsasını, onun bazasını öz ləyaqətini dərk edən və digər şəxslərin ləyaqətinə, azadlıq və hüquqlarına hörmət edəcək hərtərəfli, azad şəxsiyyət tərbiyəsi təşkil edir.

- Kommunikativ-dialoji yanaşma (Ə.Ə. Ağayev, T.S. Tayurskaya, O.B. Skryabina). Bu yanaşma pedaqoq və kiçikyaşlı məktəblinin bir-birinə qarşılıqlı subyektiv təsirini nəzərdə tutur. Bu zaman tərbiyəedici məkan tolerant davranış nümunələri ilə əhatə olunur.

- Mədəniyyətşünaslıq baxımından yanaşma (O.Q. Rəcəbov, F.B. Sadıqov, M.M. Baxtin, V.S. Bibler, M.S. Koqan, N.E. Şurkova). Bu yanaşma bir sıra vacib məsələlərin kompleks həllinə koməklik edir: başqa xalqların mədəniyyətinə inteqrasiya etməkdən öncə kiçikyaşlı məktəblilərə öz xalqının mədəniyyətinin mənimsədilməsi; dünyada müxtəlif mədəniyyətlərin olması barədə uşaqlarda təsəvvürlərin yaradılması; onlarda mədəniyyətlərin müxtəlifliyinə müsbət münasibətin aşılanması; başqa xalqların mədəniyyətinə şagirdlərin inteqrasiyası üçün şəraitin yaradılması; müxtəlif mədəniyyət nümayəndələri ilə səmərəli qarşılıqlı əlaqələr qurmaq üzrə bacarıq və vərdişlərin formalaşdırılması; kiçikyaşlı məktəblilərin sülh, dözümlülük, millətlərarası humanist münasibət ruhunda tərbiyə olunması.

- Fəaliyyət göstərərək yanaşma (N.M. Kazımov, H.Ə. Əlizadə, P.Y. Qalperin, A.M. Leontev, S.L. Rubinşteyn, D.B. Elkonin və b.). Məhz fəaliyyət nəticəsində hər bir fərd təbiət və

cəmiyyətlə öz münasibətini qurur (1, s.21). Tolerantlıq, tolerant davranış kiçikyaşlı məktəbli şəxsiyyətinin dəyərli keyfiyyəti kimi, yalnız onun fəal surətdə fəaliyyətə qoşulması – başqa adamlarla qarşılıqlı fəaliyyəti nəticəsində formalaşır.

- Humanist yanaşma (İ.B. Əmirəliyeva, V.A. Suxomlinski, Ş.A. Amonaşvili və b.) (2). Bu yanaşma bütün pedaqoji prosesin kiçik məktəbli şəxsiyyətinin inkişafına istiqamətlənməsi, insanın ən ali varlıq kimi dəyərləndirilməsini nəzərdə tutur.

- Sistemli yanaşma (V.P. Bespalko, N.V. Kuzmina, V.D. Şadrikov və b.). Bu yanaşmaya görə kiçikyaşlı məktəblilərdə tolerant davranış inkişaf etdirməyin vacib şərti sistemin tam olmasıdır [193, s. 85-96].

- Aksioloji yanaşma (R.İ.Əliyev, Z.İ. Ravkin, V.Q. Pryanikova və b.) (3). Bu yanaşma kiçik məktəb yaşlı uşaqlarda dözümlülük tərbiyəsi yolu ilə uşağın milli və ümumbəşəri dəyərlərə istiqamətlənməsini nəzərdə tutur ki, bunlardan da biri tolerantlıqdır.

Araşdırmalarımıza əsaslanaraq kiçikyaşlı məktəbli şəxsiyyətinin dəyərli əlaməti kimi tolerantlıq tərbiyəsinin bir sıra xüsusiyyətlərini belə ifadə etmək olar:

1. Məqsədyönlülük. Kiçikyaşlı məktəblilərdə tolerantlıq tərbiyəsinin məqsədi – tolerant şəxsiyyət inkişaf etdirməkdir. Buna aşağıdakı vəzifələrin icrası zamanı nail olmaq mümkündür: zorakılıq və məcburiyyətin əsasında yaranan dözümsüzlüyün dini, iqtisadi, sosial və mədəni köklərinin üzə çıxarılması; dözümsüzlüyün xəbərdarlığı; pozitiv tolerant təcrübənin təşkili, yəni müxtəlif birgə yaşayış təcrübəsi; kiçikyaşlı məktəblilərdə özünün və digərlərinin hüquq və azadlıqları barədə təsəvvürlər yaratmaq; tolerantlığı insanlararası qarşılıqlı münasibətlər yaradan prinsip kimi, şəxsiyyətin dəyərli keyfiyyəti kimi inkişaf etdirmək; başqa insanların ləyaqətinə, onun baxışlarına, düşüncələrinə, şəxsi fikirlərinə hörmətlə yanaşmaq bacarıqlarının inkişaf etdirilməsi; başqa insanlarla pozitiv qarşılıqlı münasibətlər qurmaq; başqa millətlərin nümayəndələrinə, başqa dini inamları olanlara hörmətlə yanaşmaq; münaqişəli situasiyalardan bacarıqla çıxmaq; öz hiss və həyəcanlarını zorakılıqsız təzahür etdirmək; öz davranış və fəaliyyətini qeyri-zorakı əsaslar üzərində qurmaq; başqa insanlara etibar etmək; başqalarını dinləmək və başa düşmək; başqa insanların hüquqlarının müdafiəsinə səylərin genişləndirilməsi.

2. Çoxamillilik, belə ki, burada müxtəlif obyektiv və subyektiv amillər iştirak edir (sxem 1. bax).

Sxem 1.

Kiçikyaşlı məktəblilərdə tolerantlıq tərbiyəsinin amilləri



3. Mürəkkəblik. Bu o deməkdir ki, tolerantlıq çoxsaylı amillərin birgə fəaliyyəti ilə hasil olunur.

4. Uzunmüddətlilik, yəni tolerantlığın formalaşdırılmasına kifayət qədər çox vaxt tələb olunur.

5. Fasiləsizlik - bu tərbiyəçi və tərbiyə olunanın müntəzəm, sistematik qarşılıqlı fəaliyyətini nəzərdə tutur.

6. İkitərəfli xarakter daşıması, belə ki, burada bir tərəfdə tərbiyəçi, digər tərəfdə isə tərbiyə olunan iştirak edir, ikiqat əlaqə baş verir: tərbiyəçidən tərbiyə olunana – düzünə əlaqə, tərbiyə olunandan tərbiyəçiyə isə – əks əlaqə (subyekt – subyektiv münasibətlər).

Kiçikyaşlı məktəblinin tərbiyəsində məsləhətçi şəxs kimi müəllim şəxsiyyəti, həm də ailə mühiti mühüm yer tutur.

Ədəbiyyat

1. Kazımov N.M. Seçilmiş əsərləri. VIII cild, Bakı, OKA Ofset, 2012.

2. Əmirəliyeva İ.B. Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması: Monoqrafiya. Bakı, Mütərcim, 2016.

3. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopedaqoji əsasları. – Bakı, Araz, 2000.

4. Асмолов А.Г. Формирование установок толерантного сознание как теоретическая и практическая задача // Мы – сограждане /. – М.: Изд-во Бонфи, 2002.

5. Безюлева Г.В., Шеламова Г.М. Толерантность в педагогике. – М.: АПО,2002.

R.A.Tagiyeva

Особенности воспитания толерантности у младших школьников

Резюме

В результате исследований, проведенных в этом направлении, были анализированы исследования с методологических, а также с теоретически - педагогических подходов точки зрения и эти работы были сгруппированы с личностно-ориентировочных, коммуникативно-диалогических, культуроведных, действующих, гуманных, системных, акциологических подходов. Определено, что особенности воспитания толерантности состоят из целеустремленности, многофакторности, а также обладают сложным составом, продолжительным, беспрерывным, двухсторонним характером.

R.A.Tagiyeva

Features of tolerance education of younger pupils

Summary

Based on research work in this topic were analysed the both methodological, also theoretical-pedagogical and personal-oriental (directions) point of view, cultural appoints too, and have been combined the such characteristics as communicative, humanities, sistematical approach, acsiology points in this issue. In tolerance education have been determined the exactly in corrrection, also so characters of this problem as difference, combination, time process, twice features.

Rəyçi: ped.e.d., prof. Ş.Tağıyev

Redaksiyaya daxil olub: 26.10.2020

N.V.XƏLİLOVA

Gəncə Dövlət Universiteti
(Gəncə şəh., Heydər Əliyev pr., 429)

AZƏRBAYCANDA TƏHSİLİN İNTEQRASİYA VƏ QLOBALLAŞMASININ İMKANLARI

Açar sözlər: *təhsilin inteqrasiyası, təhsilin qloballaşması, qloballaşma imkanları, ümumdünya təhsil məkanı, beynəlxalq əməkdaşlıq.*

Ключевые слова: *интегрированная образования, глобализация образования, возможности глобализации, мировое образовательное пространство, международное сотрудничество.*

Key words: *internationalization of education, globalization of education, opportunities for globalization, global educational space, international cooperation.*

Azərbaycanın Bolonya prosesinə qoşulması prinsip etibarilə, onun motivləri hər bir iştirakçı ölkənin motivləri ilə üst-üstə düşür. Buna görə də, Azərbaycanın Bolonya prosesində iştirakını qloballaşma prizmasından nəzərdən keçirməyə ehtiyac yaranır.

Bolonya prosesi Azərbaycana təsir edən üç əsas qlobal tendensiyanın əlamətlərini özündə əks etdirir.

Birincisi. Bu gün dünyada intellektual mühiti formalaşdıran beynəlxalq akademik mobillik kimi daha geniş proses baş verir. Kompyuter şəbəkələrindən çoxlu sayda informasiyanın keçdiyi halda biliklər planet boyu adi metodlarla, yəni tələbələrin, müəllimlərin, akademik proqramların, təlim metodlarının ötürülməsi hesabına yayılır. Həqiqətən də, insanlar informasiyanın daha universal daşıyıcılara çevrilirlər. Beləliklə, akademik mobillik, mübadilə və standartlaşdırma prosesləri informasiya əsrinin ən mühüm elementinə çevrilmişdir. Heç kim İnterneti inkar edə bilmədiyi kimi, Azərbaycan da bu ardıcıl proseslərdən kənarda qala bilməz. Təsadüfü deyildir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İ. Əliyev 2013-cü ili "İnformasiya ili" elan etmişdir.

İkincisi. Hər kəsə bəllidir ki, Bolonya prosesi təşəkkül tapmaqda olan biliklər iqtisadiyyatının bir hissəsidir. Müasir dünyada biliklər istehsalatın ən mühüm amilinə çevrilmişdir. Rəqabət qabiliyyətliliyə gəldikdə, istənilən ölkənin iqtisadiyyatı öz bilik potensialının, kadrlar bazarının açıqlığını və beynəlmiləşdirilməsini, həmçinin təhsil sferasına investisiyaların qoyulmasını tələb edir. Azərbaycan bu sahədə region dövlətlər arasında xeyli irəlidə olsa da hələlik inkişaf etmiş ölkələrdən xeyli geridə qalır. Azərbaycanın Bolonya prosesinə qoşulması bu geriqalmanın aradan qaldırılmasına və biliklər iqtisadiyyatının hesabatına açılan geniş imkanların qavranılmasına geniş imkanlar yaradır.

Üçüncüsü, Bolonya prosesinin meydana çıxması mövcud hakimiyyət modellərinin dəyişməsi ilə sıx bağlıdır. Yəni dövlət hakimiyyətinin ənənəvi kateqqoriyalarından fərqli olaraq onun ərazi, təbii sərvətlər, silahlı qüvvələri olan inkişafa meylli hakimiyyətlər öz mövqelərini tədricən rəqabətə qabil iqtisadiyyata, səmərəli idarəetmə, fəal diplomatiyaya malik olan yeni kateqoriyalara verirlər. Avropanın ali təhsil sahəsində özünün bütün resurslarını səfərbər etməsi "yumşaq hakimiyyət" alətlərinin önə çəkilməsindən xəbər verir. Azərbaycan üçün Bolonya prosesinə keçid "yumşaq hakimiyyət" variantına, dünya miqyasında öz nüfuzunu və rəqabət qabiliyyətliliyini artırmaq vasitəsinə, həmçinin özünün ən qiymətli milli resursu olan insan potensialından istifadə etmək imkanı qazanır.

Başqa sözlə, Bolonya prosesi Azərbaycan üçün iqtisadi, sosial və mədəni bir hadisə mahiyyəti daşıyır. Tam qətiyyətlə söyləmək olar ki, tarixdə ilk dəfə olaraq biz avropalılarla vahid ali təhsil dilində danışmaq imkanı əldə edirik. Azərbaycanın Bolonya prosesində ardıcıl və korrekt iştirakı onun qarşısında çoxlu sayda Avropa qapıları acır. Bolonya prosesinə

verilən qiymətləndirmələrdən asılı olmayaraq bu gün o, Avropada ali təhsil üçün işgüzar mühit məkanına çevrilir. Bolonya prosesinin vacib proses kimi Azərbaycanda tətbiqinə zəruriliyini nəzərə almaq olmaz. 2005-ci ildən ölkəmizdə baş verən bu proses artıq kifayət qədər sürətlə gedir. Hazırda çox aktual sual meydana çıxır: Azərbaycan bu prosesdə necə iştirak edəcək. Azərbaycan bu siyasətin işlənilib hazırlanmasında iştirak edəcəkmi, ümumi Avropa təhsil bazarında öz yerini müəyyən edəcəkmi, yoxsa passiv şəkildə kənarda dayanıb hadisələrin ardınca gedəcəkdir? Əslində, bu situasiyada seçim yoxdur: Azərbaycan bu prosesdə öz mənafelərini qorumaqla riskləri qiymətləndirməli və praktiki əməllərə keçmək üçün yanaşmalarını müəyyənləşdirib hazırlaşmalıdır.

İnsan və cəmiyyət həyatında haqqında ən çox danışılan və arzu edilənlərdən biri azadlıqdır. Bu hələ insanın meydana gəldiyi andan etibarən onun ətraf təbii və sosial mühiti təşkil edən bir çox hadisələrin neqativ və ya pozitiv təsirinə məruz qalması ilə izah olunur. Müəyyən əndazədə bu hadisələr insanların fəaliyyətini nizamlayan, onun uğurla nəticələnməsini təmin edən amillər oluduğu halda, əndazədən kənara çıxdıqda həmin hadisələr insanın həyat və fəaliyyətini çoxsaylı neqativ təsirlərə məruz qoyur. Buna görə də insan elə ilk gündən yaşadığı mühitin neqativ təsirlərindən azad olmaq, bir növ sərbəst hərəkət etmək arzusunda olmuş və bu istiqamətdə addımlar atmışdır. Lakin bütün bunlara baxmayaraq, bir neçə minillik ərzində insan bir çox müxtəlif yönlərdən sıxıntılara, məhdudiyyətlərə məruz qalmışdır. Məhz bu səbəbdəndir ki, azadlıq problemi fəlsəfi və ictimai fikir tarixində mütəfəkkirlərin diqqətini ən çox çəkən və müxtəlif yönlərdən, müxtəlif tərzlərdə şəhr edilən əbədi bir problemə çevrilmişdir. Bu onunla bağlıdır ki, cəmiyyət nə qədər kamil olsa da, insan öz fəaliyyətində yaşadığı təbii və sosial mühitin çoxsaylı amillərindən azad ola bilməz. İnsan cəmiyyətdə yaşayıb ondan azad ola bilməz, belə ki, o, ictimai varlıqdır. İnsan bununla hesablaşmalıdır ki, onun bütün davranış və fəaliyyəti mütləq lokal xarakter daşıya bilməz, o, həmişə başqalarının davranış və fəaliyyətinə bu və ya digər dərəcədə və xarakterdə təsir göstərir. Beləcə cəmiyyətdə onun ictimailəşməsi – şəxsiyyətə çevrilməsi baş verir. Şəxsiyyət sosial əlaqələrə daxil olan, ictimai funksiyaları həyata keçirməyə qabil olan və öz fəaliyyətinə görə məsuliyyət daşıyan hər bir insandır. Şəxsiyyət cəmiyyətdə formalaşır. "Ümumiyyətlə cəmiyyət" olmayan yerdə "ümumiyyətlə şəxsiyyət" yoxdur. Cəmiyyət necədirsə, şəxsiyyət də o cürdür. Bu qanunu hələ XVIII əsrin fransız maarifçiləri də bilirdilər: şəxsiyyəti təkmilləşdirmək üçün cəmiyyəti dəyişmək lazımdır. Şəxsiyyətin baxışları və fikirləri, düşüncələri və hissləri, iradəsi və fəaliyyəti müvafiq ictimai münasibətlərdən doğur. İctimai münasibətlər insanların özləri tərəfindən yaradılır. İnsanlar fəaliyyətlərindəki obyektiv şərtləri özləri dəyişirlər.

Şəxsiyyətin tarixi inkişafının mahiyyət göstəricisi onun yaşadığı və fəaliyyət göstərdiyi ətraf mühit üzərində nəzarətinin, eləcə də insanın şəxsi fəaliyyət və davranışlarına rəhbərlik edən daxili, subyektiv qüvvələrinin inkişafıdır. Xarici aləmin dərk edilməsinə yönələn bu nəzarət, bu idarəetmə fəaliyyəti – azadlıqdır.

Azadlıq tarixi inkişafın zəruri məhsuludur. Qərbi-Alman fəlsəfi lüğətində yazılıb: "Azadlıq – istədiyini etmək imkanıdır". Azadlığın insanların arzuları ilə əlaqəsini müəyyənləşdirməyə çalışaq. Hər-hansı bir şeyin əldə olunması arzusu çox zaman bəzi insanları oğurluq etməyə, cəmiyyətdə özünü cinayətkar kimi göstərməyə sövq edir. Bu zaman arzular əndazə-

dən çıxaraq fərdi buxovlayır. Bununla bağlı Spinoza yazır: "İnsanların affektlərinin azaldılması və məhdudlaşdırılmasındakı gücsüzlüyünü mən köləlik adlandırıram. Affektlərin təsiri altında olan insan özünü idarə edə bilmir, taleyin əlində olur, qarşısında xeyri görsə də, pisi seçir". Beləliklə, azadlığın vacib elementi sayılan arzuları onları məhdudlaşdırmadan həyata keçirmək əks nəticəyə gətirib çıxara bilər. Azadlıq qeyri-azadlığa çevrilir. Əksinə, həvəs və tələbatların müəyyən dərəcədə məhdudiyyəti azadlığın vacib mənbəyinə çevrilə bilər.

Buradan belə sual çıxır: əgər insanlar arzularını məhdudlaşdırmadıqları təqdirdə azadlıq qeyri-azadlığa çevrilirsə, bu məhdudiyyət necə olmalıdır? Azad olmaq üçün nədən başlamaq lazımdır? İlk dəfə bu problemi Spinoza həll etməyə çalışıb. Bunun üçün o, zərurət anlayışına müraciət edir. İlk növbədə insanları hərəkətə sövq edən həvəsin təbiətini bilmək lazımdır. Bu bir tərəfdən əsas tələbatlar (yemək, işmək, yuxu, fəaliyyət və s. – bunlarsız həyat yoxdur) ola bilər; digər tərəfdən, bu həvəs beynin qarışmasından, pis tərbiyədən, mənəviyyatın aşağı olmasından, mühitin məhvedici təsirindən və s. ola bilər. Bu ikisini dərk edərək bir-birindən ayırmaq, birinciləri əsas götürmək, ikinciləri isə kənara atmaq – elə azadlığın əlamətidir.

Spinozaya görə insan "təbiətin ümumi qaydaları ilə gedir, şeylərin təbiətinin tələb etdiyi dərəcədə onlara tabe olur və uyğunlaşır". Zəka vasitəsilə ətraf aləmi və öz təbiətini dərk edərək insan əldə etdiyi biliklərə, zərurətə müvafiq hərəkət edir, zira "zəka heç vaxt təbiətə əks olanı tələb etmir". "Zəkadan gələn arzular həddini aşmırlar". "Mən ağılla davrananları azad adlandırıram" (3, 164).

Beləliklə də, azadlıq Spinozada əxlaq problemi kimi qoyulur. Əgər belə hərəkətlər xoşagəlməz nəticələrə gətirib çıxarmırsa, insan azadddır. Ancaq müəyyən şəraitdə onlar mənfi nəticələrə də gətirib çıxara bilər. Bu zaman insan öz azadlığını itirir. Spinoza insanları bu xoşagəlməz haldan qorumaq istəyir və bunu təbiət qanunlarına riayət etmədə görür. Buradan da onun məşhur formulu yaranıb: "Azadlıq – dərk edilmiş zərurətdir".

J.P.Sartr isə göstərir ki, insanda mövcud olma mahiyyətdən daha öncədir. Yəni bizim öz həyatımızda nəyi etməli olduğumuzu təsdiq edən heç bir norma yoxdur, məsələn, Yaradanda bu barədə heç bir "ilahi ideya" yoxdur, deməli, insan azaddır. Sartra görə insan azadlığa məhkumdur. Azad seçim hər bir insanın nəsibidir. O, hətta seçmək istəmədikdə belə seçim etmək zərurətilə üzləşir. Davranış və mənəviyyat seçimində insanın refleksiv şüuru deyil, onun daxili aləminin refleksəqədərki qatları iştirak edir. İnsan ağlı ilə deyil, öz bütöv "Mən"i ilə seçir və onun seçimi davranışında reallaşır. İnsan o mənada azaddır ki, heç bir obyektiv norma və ya göstəriş yoxdur. Sartrın mövqeyinin izahı üçün aşağıdakı illüstrasiyaya müraciət edək: insan qəflətən teatr səhnəsində tamaşanın ortasında oynadığını görən aktyora bənzəyir. Bu halda o, ssenari ilə tanış deyildir, pyesin adını və oynadığı rolu bilmir. Nə etməli və deməli olduğu ona məlum deyildir. Heç bilmir ki, pyesin müəllifi mövcuddurmu, pyes ciddidir və ya gülməlidir. Aktyor kim olmalı olduğuna şəxsən qərar verməlidir – fırıldaqçımı, qəhrəmanmı, komikmi olmalıdır, yoxsa faciə oynamalıdır. Nəhayət, aktyor istənillən an səhnəni tərk edə bilər. Amma bu elə bir rol seçimidir ki, onu aktyor teatr tamaşasının ümumiyyətlə, nəyə həsr edildiyini anlamadan həyata keçirir (2, 688).

Sartr özünün "Ekzistensiallizm – humanizmdir" əsərində bir gəncin vətənini istilaçılardan qorumaq, yoxsa, yeganə dəstəyi, təsəllisi olduğu anası ilə qalmaq arasında seçim etməkdə çətinlik çəkməsini misal gətirir. O, doğma insanına, yoxsa ümumi işə xidmət etməsi arasında tərəddüd edir. İnsanlar da həyata oxşar qaydada qatılırlar. İnsan mövcuddur, o, özünü azad olaraq tapır. Özünün necə şəxsiyyət olacağı haqqında özü qərar qəbul etməlidir. Beləliklə, mahiyyət mövcud olmanın ardınca – bizim artıq yaşadığımızın ardınca gəlir. Sartrın fəlsəfəsində "seçim" müstəsna yer tutur. Fundamental seçimi fərd təkbaşına yerinə yetirir. Altruizmi və ya eqoizmi, kommunizmi və ya faşizmi də seçmək olar. Seçim rasional olaraq əsaslandırıla bilməz.

İsaya Berlin "Azadlıq fəlsəfəsi" əsərində göstərir ki, azadlıq insanın nəyisə etməsinə heç bir maneənin olmaması, onun heç kəs tərəfindən bu işə məcbur edilməməsi, insanın davranış

və hərəkətlərinin düşünülərəkdən həyata keçirilməsi, cəmiyyətdə mövcud olan sosial normaların insanların davranış və hərəkətlərinə mümkün qədər az məhdudiyyətlərin qoyulması, insanın öz şəxsi fizioloji və psixoloji istək və arzularından mümkün qədər çox asılı olmaması, insanı cəlb edən çoxsaylı maddi, fizioloji və mənəvi tələbatlardan azad olması və bir növ daxili azadlıq əldə etməsi, insanın dini ehkamlara və dini tələblərə maksimum əməl edərək bu dünyadan uzaqlaşması və s. kimi yozulmuşdur.

Bütün bunlarla yanaşı, Berlinin əsərində azadlığın iki cəhətinə diqqət yetirilir – neqativ və pozitiv. Neqativ azadlıq "insan və ya insan qrupunun istədiyini etmək, istədiyi kimi olmaq arzusunun reallaşması məkanı nə dərəcədə böyükdür" sualını cavablandırır. Daha doğrusu, hər bir insan və ya insan qrupu müəyyən təbii və ya sosial mühit amilləri içərisində yaşayır. Sözü gedən amillərin insanın istədiyini etmək və ya istədiyi kimi olmaq arzusuna nə dərəcədə uyğun olub olmaması onun azadlığını müəyyən edir.

Pozitiv azadlıq isə "insanı və ya insan qrupunu başqa bir əməl yox, məhz bu əməli etməyə, başqa cür yox, məhz bu cür olmağa məcbur edən təsir və təzyiqin mənbəyi nədir" sualını cavablandırır. Göründüyü kimi burada artıq insanın və cəmiyyətin azadlığının məhdudlaşdırılmasını gerçəkləşdirən konkret səbəbin nədən ibarət olması məsələsi qoyulur. əlbəttə bu suala cavabda da çoxsaylı amillər önə çəkilə bilər. Məsələn, insanın və cəmiyyətin həyatı müşayət edən çoxsaylı təbii hadisələr onu məcbur edir ki, konkret bir şəraitdə bu cür deyil, məhz başqa cür davransın (əgər cəmiyyətdə oğurluğu və ya digər bir neqativ hadisəni qadağan edən normalar mövcuddursa, insan məhz bu cür normanın tələblərinə uyğun hərəkət etməlidir).

Ümumiyyətlə, şəxsiyyət və cəmiyyət azadlığının ümumi şəkildə bir sıra aspektləri qeyd oluna bilər: iqtisadi, siyasi, fiziki, sosial, mənəvi, hüquqi və s. Bütün bu sahələrdə şəxsiyyət və cəmiyyətin azadlığı iki qəbildən olan amillərlə məhdudlaşdırılır: birincisi, təbii və bütövlükdə obyektiv xarakter daşıyan amillər. İkincisi isə, sosiogen və əksər hallarda subyektiv xarakter daşıyan amillər. Birinci qəbildən olan məhdudlaşdırıcı amillərin dəf edilməsi və maksimum aradan qaldırılması insanların intellektual səviyyəsinin, praktik vərdiş və bacarıqlarının yüksəlməsi və fəaliyyətlərində əldə etdikləri biliklərin tələblərinə uyğun hərəkət etmələrilə bağlıdır. İkinci qəbildən olan məhdudlaşdırıcı amillər, əksər halda cəmiyyətin özünün kamillik dərəcəsi ilə müəyyənləşir.

Deməli, şəxsiyyətin azadlığı onun özünün azad elan etməsindən və buna müvafiq olaraq istədiyi kimi hərəkət etməsindən ibarət deyildir. Onun azadlığı, yuxarıda, Spinozanın qeyd etdiyi kimi məhdudlaşdırıcı amillərin mahiyyətini, qanunauyğunluqlarını, zərurətlərini dərk etməsi dərəcəsindən və özünün davranış və hərəkətlərini dərk etdiyi bu qanunauyğunluqlara və zərurətlərə müvafiq qurmasından asılıdır. Zira mütləq azadlıq mövcud deyildir. Belə ki, cəmiyyətdə yaşayan insan hətta onun xeyrinə olan qanunlarla özünü məhdudlaşdırmağa və onlara tabe olmağa məcburdur. Məcburiyyət və məhdudiyyət isə azadlığın mütləq olma-masının göstəricisidir. Deməli, azadlıq həmişə nisbidir. Cəmiyyətdə yaşayan insanların hüquq və azadlıqları sosial xarakter daşıdığından "məcburiyyət" və "məhdudiyyət" tədbirlərinin həyata keçirilməsi vacibdir. Əks halda heç bir qayda ilə tənzimlənməyən insan fəaliyyəti anarxiyaya, özbaşnalığa aparar, bu isə cəmiyyətin ümumi nizamının pozulması demək olardı (T.Hobbsun "Vətəndaş haqqında" əsərini yada salaq). İnsanın və cəmiyyətin azad olması üçün, bir tərəfdən, cəmiyyətdə hakim olan müxtəlif xarakterli normaların optimallığı və işləkliyi, digər tərəfdən həmin normaların insanlar tərəfindən maksimum dərk edilməsi sayəsində yaranan müvafiq şüur formalarının yüksək səviyyəsi və nəhayət, şəxsiyyət və cəmiyyətin davranış və faəliyyətinin hakim normalara müvafiq şəkildə qurulması zəruri şərtlərdir. Yalnız bu halda cəmiyyətin azad və normal fəaliyyəti, eləcə də, həmin cəmiyyətdə yaşayan şəxsiyyətlərin azadlığı mümkündür.

Ədəbiyyat

1. Sartr J.P. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2013
2. Skirbekk Q., Gilye N. Fəlsəfə tarixi. Bakı: Zəkioğlu, 2007, 800 s.
3. Бенедикт Спиноза. Этика. Санкт-Петербург: Азбука-классика, 2007, 352 s.
4. Берлин И. Философия свободы. Европа. Москва: Новое литературное обозрение. 2001.

Г.Г.Алиева

Проблема свободы личности

Резюме

В данной статье речь идет о том, что человек- неотделимая часть общества и здесь происходит его социализация. Человек, вступающий в социальные отношения, выполняет социальные функции и поэтому несёт ответственность. В статье также рассматриваются взгляды Спинозы, Сартра и Берлина о свободе. Свобода в философии Спинозы рассматривается как этическая проблема. В статье проводится различие между позитивной и негативной свободы Берлина.

G.G.Aliyeva

The problem of individual freedom

Summary

This article deals with the fact that a person is an inseparable part of society and here his socialization takes place. A person who enters into social relations performs social functions and is therefore responsible. The article also examines the views of Spinoza, Sartre, and Berlin on freedom. Freedom in Spinoza's philosophy is viewed as an ethical problem. The article examines the difference between positive and negative freedom in Berlin.

Rəyçi: f.f.d. N.Məmmədova

Redaksiyaya daxil olub: 29.10.2020

A.Ə.RƏCƏBOVA
siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 60)

MÜASİR AZƏRBAYCAN DÖVLƏTİ: DÜNƏN, BU GÜN

Açar sözlər: *dövlət, xalq, etnos, tolerantlıq, siyasət, mübarizə, qələbə, sülh*
Ключевые слова: *государство, народ, этнос, толерантство, политика, борьба, победа, мир*
Key words: *state, people, ethnos, tolerance, politics, struggle, victory, peace*

Azərbaycan qədim diyardır. Bu ölkənin hər dağı, hər qarışı bizim tariximiz, unudulmaz yaddaşımızdır. Ona görə də müasir dövrümüzdə də mədəni irsimizi qoruyub saxlamalıyıq. Azərbaycan müsəlman şərqi tarixində ilk demokratik cumhuriyyətin varisidir.

1918-ci ilin may ayında Azərbaycan milli ideyasını ilk dəfə həyata keçirmişdir. Sələflərimizdən bizə zəngin tarix, xalqımızın yaşadığı, areal, zəngin mədəniyyət və tolerantlıq ənənələri miras qalmışdır. Ulu köklərimiz Azərbaycan dövlətçiliyinin gələcək nəsillər üçün təməlini öz qanları, canları bahasına qurmuşlar. Ona görə də bu qiymətli sərvət Azərbaycana məxsusdur. Lakin Azərbaycan dövləti XX əsrin əvvəllərində Rusiya dövləti tərəfindən işğal edilmiş və 70 il müddətində xalqımızın bütün mənəvi dəyərləri məhv edilməyə başlanmışdır. Rus imperiyasının süqutu nəticəsində dövlətimiz azadlıq əldə etdi. 70 ildən sonra xalqımız əcdadlarımızın vəsiyyətlərini həyata keçirməyə başladı. Xalqımız XIX əsrin sonu, XX əsrin əvvəli Azərbaycanın yüksək zəka sahibləri tərəfindən Azərbaycan dövlətinin bərpa edilməsi ideyasının həyata keçirilməsi uğrunda mürəkkəb, məşəqqətli, qanlı-qadalı mübarizə dövrü keçmişdir. Bununla da Azərbaycan xalqı öz milli-mənəvi dəyərləri, şanlı tarixi ilə bu günün də, keçmişin də, gələcəyin də sakinidir. Azərbaycan dövləti vaxtı ilə özünün vətəni hesab edən müxtəlif xalqların birləşdiyi dövlətin varisləridir.

Xalqımız çox böyük çətinliklərlə sovet ideologiyasının ideoloji buxovlarını qırıb dağıtmış, xalq və tarix üzərində köklənmiş təbii bir prosesin yaranmasını və inkişaf etməsini sübut etmiş və istədiklərinə nail olmuşdur. Azərbaycan xalqı məhz belə bir böhranlı illərdə bəşəri keyfiyyətlərini yaşatmış və inkişaf etdirmişdir. Sovet imperiyası dövründə belə Azərbaycan xalqı adət-ənənələrini, dilini, mənəvi sərvətlərini, nəinki qoruyub saxlamış, hətta onu ümumbəşər mədəniyyəti səviyyəsinə yüksəltmişdir. Azərbaycan xalqı suveren, demokratik dövlətini qurduğu kimi, azad ölkənin düzgün, həqiqi tarixini də bərpa etmişdir.

Xalqımız tarixi həqiqətləri bərpa etmək, milli-mənəvi dəyərlərimizə vurulmuş zərbələri aradan qaldırmaq, şərəfli keçmişimizə qayıdıb onu üzə çıxarmaq, milli varlığımızın və ictimai fikrimizin əsas qaynaqlarını, keçirdiyi təkamül yolunu, formalaşma və özünü təsdiq prosesini öyrənib millətimizə və dünya ictimaiyyətinə çatdırılması üçün mübarizə aparmışdır. Bunları həyata keçirmək üçün xalqımızın zəngin mədəni abidələri, mənəvi mədəniyyəti, böyük tarixi şəxsiyyətləri, onların elmi-ədəbi-fəlsəfi-bədii irsi vardır. Bununla da dövlətimiz insanlığa, dünya sivilizasiyasına maddi-mənəvi sərvətləri üzə çıxarıb kimliyimizi və Azərbaycan xalqının nəyə qadir olduğunu sübut etmiş və keçmişimizə layiq bu günümüzü qurmalı, bəşər mədəniyyəti xəzinəsində öz layiqli yerimizi tutduğumuzu sübut etməyə çalışmışdır. Xalqımız qurtuluş, onu əldə etmək üçün həmişə mübarizə aparmışdır. Xalqımız öz müdrikliyi ilə həmişə sülhsevər düşüncəyə malik olmuşdur.

Dözümsüzlük, etnofobiya, fərdi və kütləvi şüurun ətrafdakı fərqli milli kimlik daşıyıcılarına qarşı düşmənçilik, təcavüzkarlıq kimi xüsusiyyətləri Azərbaycan cəmiyyətinə yaddır. Lakin tolerantlıq dövlətin ideologiyası və siyasəti olan vətəndaş millətçiliyini istisna etmir. Polietnik cəmiyyətdə vətəndaş millətçiliyi daxili birliyə malik olmuş Azərbaycan cəmiyyəti-

nin ətraf mühit qavraması üsuludur. Mədəni və etnik birliyə nail olmayan dövlət tolerantlıq olmadan sabitliyini təmin edə bilməz. Tolerantlıq yüksək mənəviyyatın və əxlaqi mədəniyyətin təzahürüdür. Tolerantlıq ziddiyyətlərin olub-olmamasından asılı olmayaraq, sosiumun mövcudluğu zərurətin nəticəsidir. Tolerantlıq cəmiyyətin sosial və milli birliyini təmin edən dövlət mövqeyi millətçiliyə qarşı dayanmır. Tolerantlıq cəmiyyətdə mövcud olan ictimai həyatın strukturundakı sosial gərginliyin və diskomfortun katalizatoru olan meylləri dağıdır. Beləliklə, XXI əsrdə millət anlayışı həm ümumtarixin və mədəni irsin reallıqlarına, həm də yanaşı yaşayan və özünü onlarla dayanıqlı şəkildə eyniləşdirən müxtəlif etnik qrupların bəlli simvol və ənənələrinə əsaslanmalıdır. Müasir Azərbaycanın siyasi, iqtisadi, sosial-mədəni reallıqları çox cəhətdən ölkənin inkişaf etmiş cəmiyyətə transformasiya olmaq cəhdindən meydana gəlmiş dövlət millətçiliyi ilə müəyyən olunmuşdur.

Hər bir ölkə öz qədimliyini, bəşər sivilizasiyanın formalaşmasındakı rolunu sübuta yetirmək, onu dünyaya təqdim etmək üçün mədəni irsinin nümunələrindən faydalanmalıdır. Bu oba insanların dünyagörüşünü, mənəviyyatını, estetik duyumunu zənginləşdirir.

Qədim dövrlərdən, müasir dövrümüzə qədər Azərbaycan dövlətinin mürəkkəb geosiyasi məkanda yerləşməsinə baxmayaraq müstəqil siyasət yeritməsi heç də hamının xoşuna gəlmir. Britaniyalı yazıçı Kolin Qrinlendin dediyi kimi, "uğurlu olmaq paxıllıq üçün münbit mühitdir". Ona görə də uğurlarımıza sevinənlərlə yanaşı, əleyhdarlarımız, hətta düşmən mövqeyində duranlar da vardır. Belələri arasında erməni lobbisi və onun təsiri altında olan riyakar siyasətçilər, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətini dəstəkləyən qüvvələr erməni lobbisinin pulu hesabına yaşayır, həqiqəti israrla görməzliyə vurur və daim Azərbaycanı hörmətdən salmağa çalışırlar. Lakin Azərbaycan hakimiyyəti hər bir qlobal məsələyə dair beynəlxalq hüquq normalarına əsaslanaraq bəyan etdiyi prinsipial və birmənalı mövqeyi ilə öz sözünü demişdir. Azərbaycan hakimiyyəti öz müdrik xarici siyasəti sayəsində qısa müddətdə dünyada böyük etimad və hörmət qazanıb. Belə siyasət şüurlu şəkildə demokratiya və tərəqqi yolu seçmiş bütün Azərbaycan xalqının xidmətidir. Azərbaycan hakimiyyəti dəfələrlə yüksək tribunalardan bəyan edib ki, demokratiya yolunu bizim xalqımız, dövlətimiz kiminsə təzyiqi altında deyil, öz istəyi ilə seçmişdir. Çünki bizim prioritetlər demokratik, sivil, hüquqi dövlət qurulması, özünəyetərli iqtisadiyyat yaradılması, əhalinin həyat şəraitinin daha da yaxşılaşdırılması, ənənəvi dəyərlər və Vətənə məhəbbət əsasında milli həmrəylikdir.

Azərbaycan dövləti vətəndaş cəmiyyətinin inkişafının bəzi aspektlərində başqa inkişaf etmiş Avropa dövlətlərinin bacarmadığı sahələrdə uğurlar qazanıb. Buna misal olaraq, multikulturalizm və tolerantlıq sahəsini göstərmək olar. Azərbaycan dövləti hər bir vətəndaşının konstitusion hüquq və azadlıqlarına təminat verməklə müxtəlif konfessiyalara və millətlərə məxsus insanların onun ərazisində dinc, yanaşı yaşamasını təmin edib. Azərbaycan ərazisində yaşayan əhalinin əksəriyyətinin İslam dininə etiqad etməsinə baxmayaraq, Azərbaycan dünyəvi dövlət kimi qalıb. Bakı Beynəlxalq Humanitar Forumunda Prezident İlham Əliyev deyib: "Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir... Multikulturalizm Azərbaycanda həyat tərzidir". Bəli, bu gün bizim ölkəmizdə müxtəlif etnik və dini qrupların dinc, yanaşı yaşamasının və kooperasiyasının bütün mahiyyətini və reallığını əks etdirir. Həqiqətən Azərbaycanda insan amili ön plandadır. Azərbaycan dövləti insanın və dünyanın qorunması, ekoloji problemlərin həlli, sülh, birlik tərəfdarıdır. Bu ideyaların reallaşmasında elm, texnikanın, təhsilin insanların hərtərəfli maariflənməsinin rolu böyükdür. Azərbaycan dünyada istər mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi, istər tolerantlığın, multikultural dəyərlərin inkişafı, istərsə də müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsi istiqamətində mühüm rol oynamaqdadır. Bütün dünyada aparıcı ölkələr, nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycan dövlətində ictimai-siyasi sabitliyin tam təmin edilməsi, ölkə vətəndaşlarının dinc və əmin amanlıq şəraitində, dövlətimizin multikultural və

tolerant dəyərlərin qorunub saxlanılmasına və tolerant dəyərlərin qorunub saxlanılmasına verdiyi dəstək digər üçün nümunə və mühüm təcrübədir.

Azərbaycan müasir dövrdə böyük siyasətin iştirakçısına çevrilib, günü-gündən güclənən iqtisadiyyat uğurlu xarici siyasət strategiyası və möhkəmlənən hərbi potensial Azərbaycanın uğur qazandığı yeganə sahələr deyil. Vətəndaş cəmiyyətinin inkişafı və demokratiya təsisatlarının möhkəmlənməsi siyasi mədəniyyətin, sosial psixologiyanın və vətəndaşların davranışının mürəkkəb və uzun təkamül, transformasiya prosesidir. Azərbaycanda sürətlə bütün sahələrdə islahatlar aparılır. Məsələn, qeyri-neft sektorunda insan kapitalının, informasiya texnologiyalarının, vətəndaş cəmiyyətinin inkişafını, dövlətin öz vətəndaşlarına hesabat verməsini aşkarlığı qeyd etmək olar. Belə ki, aşkarlığın vətəndaşlara göstərilən xidmətlərin səmərəliliyinin artırılması sahəsində uğurlu islahatlardan biri Prezidentimiz cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "Asan" xidmətdir. "Asan" xidmət korrupsiyaya qarşı mübarizə və dövlət orqanlarının transparentliyinin təmin edilməsi sahəsində uğurlu islahat nümunəsidir. BMT İnkişaf Proqramının rəhbəri Helen Klark Azərbaycanda səfərdə olarkən məhz başqa ölkələrə də Azərbaycandan nümunə götürməyi tövsiyə edib.

Azərbaycan son illərdə dünyanın aparıcı ölkələri ilə strateji tərəfdaşlıq qurmağa və inkişaf etdirməyə, qlobal inteqrasiya proqramına töhfəsini artırmağa çalışır. Bu gün Azərbaycan təkcə Avropanın enerji təhlükəsizliyinin deyil, həm də böyük Avrasiya məkanında ümumi təhlükəsizliyin qarantıdır. Bu isə daxili sabitlik, iqtisadi inkişaf, davamlı ictimai-siyasi nizam, cəmiyyətin həyatının demokratikləşməsi sayəsində mümkün olub. Bu gün ölkəmizin iqtisadiyyatına xarici sərmayələr gəlir, beynəlxalq şirkətlərin ölkəmizdə nümayəndəlikləri açıldı. Azərbaycanın səsi beynəlxalq tribunalardan eşidildi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlər dünya ictimaiyyətinə düzgün çatmağa başladı. 27 sentyabr ayından başlayaraq Azərbaycan ərazi bütövlüyünün qorunub saxlanması uğrunda ədalətli müharibə apararaq işğal altında olan torpaqlarımızı azad etdi. Qələbə Azərbaycan xalqının qürur, əzəmətinin təcəssümü idi. Azərbaycan ordusu Ali Baş Komandanın başçılığı ilə öz vətənpərvər əzmi ilə, ağıllı strategiyası ilə torpaqlarımızı işğaldan azad etdi və bütöv Azərbaycan dövlətini bərpa etdi. Azərbaycan regionda lider imicinə malik dövlətdir. Bu gün hakimiyyət Azərbaycan xalqının dəstəyinə arxalanaraq, milli mənafeləri müdafiə edərək firavan dövlət qurmağa yönəlmiş siyasət yürüdür. Ölkəmizin hər bir vətənpərvər vətəndaşı inanır ki, qarşıya qoyulmuş vəzifələrin həlli cəmiyyətdə sabitlik olduğu halda mümkündür.

Müstəqil ölkəmiz böyük uğurlara nail olaraq, müasir, sabit, özünü təmin edən bir dövlətdir. Azərbaycan dövləti dövlətlər və xalqlararası münasibətlərdə beynəlxalq hüququn qəbul etdiyi prinsiplərinin, sivil birgə yaşayış normalarının tətbiq olunmasının tərəfdarıdır. Müstəqil dövlətə sahiblik xalqın ruhunu hifz edən dəyərlərin qorunması və inkişafı, o dəyərlərin ölümsüzlüyü, əbədiliyi deməkdir. Müstəqil dövlətə sahib olmaq xalqın öz taleyinin ağasına çevrilməkdir, öz halal sərvətlərinə sahib çıxmasıdır.

Ədəbiyyat

1. Multikulturalizmə giriş: Ali məktəblər üçün dərslik – Bakı: Şərq-Qərb 2019

2. Heydər Əliyev "Müstəqillik yolu" Seçilmiş fikirlər, Bakı 1997

3. İlham Əliyev. IV Bakı Beynəlxalq Humanitar Formunun rəsmi açılış mərasimində İlham Əliyevin nitqi: http://www.president.az.articles/13038

4. Abdullayev Kamal. Azərbaycan multikulturalizmi bu gün: Portuqaliyadan İndoneziyayadək ... / K.Abdullayev "Multikulturalizm" – 2016. № 1 – s.37-43

5. Qaraoğlu F. Ermənilər və həqiqətlər (Rəsmi sənədlərlə). "Nurlar" nəşriyyatı – Poliqrafiya Mərkəzi, 2007, 400 s.

А.А.Раджабова

Современный Азербайджан: вчера, сегодня

Резюме

В статье говорится об эффективной политике Азербайджанского государство. Автор рассматривает эти понятия с юридической, моральной точки зрения. Большое место в статье уделяется рассмотрению удачной политики Азербайджанского правительства в области развития экономики, культуры, политики. Главная цель автора, перед молодым поколением - это улучшение нравственного поведения, а также неустанная работа над собой с моральной точки зрения. А также статье раскрываются взаимоотношения между государствами. В статье также рассматривается проблема человека, общества и политика мультикультурализма и толерантности Азербайджана.

A.A.Rajabova

Modern Azerbaijan: yesterday, today

Summary

The article talks about the effective policy of Azerbaijan. The author examines these concepts from a legal, moral point of view. More space in the article is given to the consideration of the success of the policy of the Azerbaijani government in the development of economics, culture and politics. The major goal of the author for the younger generation, is the improvement of moral behavior, as well as tireless work on yourself from a moral point of view. And also the article reveals the mutual relations between states. The article also discusses the problem of a person, society and the policy of multiculturalism and tolerance in Azerbaijan.

Rəyçi: dos. Ş.B.Cabarova

Redaksiyaya daxil olub: 02.11.2020

Л.А.ШЕЙХОВА
e-mail: qasimshex@mail.ru

А.Э.ГАДЖИЕВА

Азербайджанский университет языков
(г. Баку, ул. Р.Бехбудова, 60)

ВАЖНЫЕ ФАКТОРЫ СОХРАНЕНИЯ ЗДОРОВЬЯ ЗУБОВ

Ключевые слова: *стоматология, кариес, глубокий кариес, озона терапия, лучевая терапия*
Açar sözlər: *stomatologiya, karies, dərin karies, ozon müalicəsi, şüa müalicəsi*
Key words: *stomatology, caries, deep caries, ozone therapy, laser therapy*

Самые современные способы лечения кариес зуба это использования (Biodentina) Биодентина этот материал используется так. Сначала полость зуба чистит до пульпы. Пульпа может даже вскрытая кровить и затем наносится биодентин на пульпу, прежде чем как нанести естественно ватным тампоном надо почистить полость и нанести биодентин затем изолирующий цемент, адгезор и постоянная композитная пломба.

В этой статье описано самое высококачественное лечение глубокого кариеса без удаления пульпита. Можно сказать удаления нерва зуба не питается, становиться ломким.

Одним из важных факторов сохранения здоровья зуба является правильное питание. И, напротив, неправильное питание – фактор риска возникновения кариеса. Многочисленные эпидемиологические исследования показали четкую зависимость между заболеваемостью кариесом и средним количеством потребления сахара, наблюдается низкая заболеваемость кариесом, и наоборот. В лабораторных исследованиях с использованием миниатюрных pH-метров, которые прикреплялись к зубам, наблюдалось: после того, как на зубы накладывается раствор сахара, немедленно падает pH, то есть образуется кислота, которая остается на поверхности эмали от 20 минут до 20 часов. Именно эта образующаяся кислота и принимает участие в процессе растворения эмали. Микробы, находящиеся в полости рта, метабилизируют в кислоту такие сахара, как сахароза и глюкоза. В некоторых странах в связи с этим снижается потребление именно сахарозы. Например, если в Великобритании более 80% населения потребляют сахарозу, то в США-лишь 47%. При этом британские дети, как отмечают эпидемиологические исследования, имеют больше кариеса на проксимальных и гладких поверхностях зубов и меньше фиссурного кариеса по сравнению с детьми США. Комитет по медицинским аспектам пищи Великобритании рекомендовал Министерству здравоохранения учитывать роль потребления сахарозы как причину кариеса. Рекомендации стоматологов по ограничению количества потребления сахара важны не только для профилактики кариеса зубов, но и с точки зрения общемедицинский аспектов питания. В настоящее время успешно развивается сравнительно новая пищевая отрасль – производство сахарозаменителей и подсластителей, которые обладают низким потенциалом образования кислот. Нам хорошо известно использование этих ингредиентов в жевательных резинках, которые широко сейчас распространены. Они, во-вторых, способствуют более быстрой нейтрализации возможных сдвигов pH в зубном налете. На этом основано предположение о пользе жевательных резинок для снижения риска возникновения кариеса. Кроме стимулирующего действия секреции слюны жевательные резинки могут быть и носителями многих веществ, влияющих так или иначе на зубы слизистую оболочку полости рта и на организм в целом. Наряду с сахарозаменителям, это могут быть фториды, которые тоже используются в жевательных резинках. Жевательная резинка

может назначаться в качестве против кариозного средства, но только не лицам, у которых неудовлетворительная гигиена – полости рта.

Главное – это, конечно, чистка зубов качественными щеткой и пастой. А в условиях, когда невозможно использовать щетку, когда это недоступно (например, днем во время работы, в школе), можно в качестве альтернативы иногда употребить жевательную резинку. Полностью исключить сахар из рациона питания – неосуществимая, наверное, рекомендации, а вот уменьшить частоту потребления сладостей – это реально. Употреблять в большем количестве фруктов и овощи. Если нужно перекусить между основными приемами пищи, то никогда не использовать сладкую пищу, никогда не есть сладкого на ночь, а если съесть сладкое, то прополоскать рот водой или съесть яблоко. Эти рекомендации всегда могут быть в арсенале врача-стоматолога [1]. Когда врача-стоматолог видит пациента с высоким уровнем интенсивности кариеса, он должен попытаться разобраться, что же повлияло на такое развитие заболевания. Если имеет место потенциальное влияние пищевых продуктов на развитие кариеса, врач может измерить степень их кариесогенности для отдельного пациента. Это возможно в лабораторных условиях. Американские ученые разработали метод оценки факторов питания на здоровые зубов человека, включающий ведение дневника приема пищи. Этот метод был модифицирован для условий Белоруссии профессорами Кессеном и П.А.Леусом. Дневник питания ведется всю неделю. Программа анализирует записи в дневнике. Обоснованность выводов врача зависит от качества ведения дневника питания пациентом. Если речь идет о ребенке до 12 лет, то этот дневник питания заполняется родителями. По сути этот метод дает пример стоматологического анализа питания. Анализируя количество, качество калорийность употребляемых пищевых продуктов, конкретные время, частоту, длительность приемов пищи врач выходит на оценку потенциальной кариесогенности продуктов, питания, что, свою очередь, дает возможность выбрать наиболее адекватные индивидуальные методы и средства профилактики [2].

Учет вышеуказанных приоритетов позволяет не только повысить результативность собственно профилактических мероприятий, но и создает условия для оказания более эффективной стоматологической помощи в целом.

Лечение кариеса озоном. Еще один современный способ безболезненного лечения зубов без бормашины основан на бактерицидных свойствах озона. Эта методика, разработанная в Германии, позволяет провести лечение абсолютно не травматично для ребёнка, не используя анестезию, не прибегая к сверлению бормашиной и иногда даже не ставя пломбу. Очень важно то, что мягкая силиконовая чашечка, через которую озон подается на зуб, ни звуком, ни видом не напоминает традиционную бормашину, а, следовательно, не напугает маленького пациента и его родителей. Всего за 20-40 секунд газ делает зубы практически стерильными, полностью уничтожая микроорганизмы, вызывающие кариес. Затем полость обрабатывается специальным составом, укрепляющим зубные ткани. После этого о кариесе можно забыть. Даже пломба в этом случае ставится по желанию пациента.

Лазерная технология лечения кариеса. Лазерная технология также позволяет обойтись без сверления зуба. Суть его состоит в избирательном воздействии аппарата на здоровые и больные ткани зуба. Участки, пораженные кариесом, более мягкие, они содержат больше минералов и меньше воды, поэтому лазер точно и четко «испаряет» только инфицированную ткань. Лазер моментально дезинфицирует «дырку» в зубе.

Прямое покрытие пульпы - метод лечения, направленный на сохранение жизнеспособности пульпы в результате ее вскрытия. Зачем же нам необходимы эти знания? К сожалению, при выборе метода лечения стоматологи зачастую принимают решение, оперируя знаниями в пределах своей специализации. Хирурги склоняются к удалению зуба. Ортопеды — к депульпированию, если требуется непрямая реставрация. В част-

ности, терапевты общего профиля при вскрытии пульпарной камеры принимают решение немедленно провести эндодонтическое лечение. Прежде всего, наши действия должны быть направлены на помощь пациенту в сохранении здоровья полости рта и целостности зубного ряда для сохранения функций жевания, речи и эстетики. Несмотря на все преимущества современных профилактических мероприятий, кариес зубов по-прежнему входит в список наиболее распространенных заболеваний человека [1]. В экономически развитых странах отмечается снижение распространенности кариеса, однако он до сих пор является одной из основных причин разрушения зубов во всех возрастных группах, что часто требует дорогостоящего лечения. Считается, что до 40 лет утрата зубов связана главным образом с кариесом, в более старшем возрасте – с пародонтитом или обоими заболеваниями одновременно [1]. В связи с этим особый интерес представляет влияние кариеса на пульпу, поскольку предотвращение ее поражения устраняет необходимость эндодонтического лечения с последующим обширным реставрационным вмешательством [5].

Сохранение жизнеспособности пульпы – это ключ к достижению апексогенеза, которое в свою очередь ведет к физиологичному формированию верхушки корня. Помимо сложности в диагностике заболеваний и в анатомии зубов, неудобство в работе также может вызвать поведение ребенка в стоматологическом кресле. Минерал триоксид агрегат, или МТА, это биосовместимый с тканями зуба материал, состоящий из трехкальциевого и двухкальциевого силиката. Материал успешно применяется как для непрямого, так и прямого покрытия пульпы, для частичной и полной пульпотомии в постоянных зубах [3].

Когда МТА связывается с межклеточной жидкостью, он выделяет кальций, который в свою очередь входит в состав гидроксиапатитов.[9] Это проявляется в химической связи с дентином и запечатывании дентинных канальцев.[10] Щелочная среда МТА создает неблагоприятные условия для бактерий и обеспечивает достаточную герметичность в канале.

Время застывания МТА составляет от двух до четырех часов, в связи с чем невозможно сразу же провести постоянную обтурацию корневых каналов. К минусам так же можно отнести высокую стоимость материала и сложность в обращении с ним. Так, при контакте МТА с гипохлоритом натрия может произойти окрашивание зуба в темный цвет. Окрашивание может быть связано и с оксидом висмута, входящим в состав рентгенконтрастных пломбировочных паст. Остальные химические вещества приводят к менее выраженному дисколориту зубов.

Литература

1. Penzastom.ru.
2. https//Healthydent.u a. pudlic.
3. Стоматология для всех. Журнал. Москва, 2020

L.A.Şeyxova, A.E.Hacıyeva

Dişlərin sağlam saxlanmasının əsas faktorları

Xülasə

Məqalədə stomatologiyanın müasirliyi və inkişafından bəhs edilir, yeniliklərindən danışılır. Stomatologiyada kariesin və dərin kariesin müalicəsinin yolları açıqlanır. Müəlluf dişlərin sağlam saxlanılmasının əsas amillərini qeyd edir. Kariyesin müalicəsində biodentin materialından istifadə qaydaları göstərilir. Pulpiti ləğv etmədən kariyesin dərin müalicəsi təsvir edilir. Dişlərin sağlamlığında düzgün qidanın vacibliyindən danışılır.

L.A.Sheykhova, A.E.Hajiyeva

Important factor in maintaining healthy teeth

Summary

The article talks about the modernity and development of Dentistry and its innovations. In dentistry, the ways of treating caries and deep caries are explained. The teacher notes the main factors of keeping teeth healthy. In the treatment of caries, the rules for the use of biodentin material are indicated. Deep treatment of caries without removal of pulpitis is described. The importance of proper nutrition in the health of teeth is talked about.

Rəyçi: dos. S.X.Zamanova

Redaksiyaya daxil olub: 08.11.2020

MÜNDƏRİCAT – СОДЕРЖАНИЕ

DİLÇİLİK – ЛИНГВИСТИКА

A.R.AĞAYEVA
KOMMUNİKASİYANIN SAHƏLƏRİ: ONLARIN VERBAL VƏ QEYRİ-VERBAL CƏHƏTLƏRİ 3
S.N.ASLANOVA
İNGİLİS DİLİNDƏ ALINMA KULİNARİYA REALİLƏRİ, ONLARIN SEMANTİKASI VƏ ETİMOLOGİYASI 7
M.R.BABAYEVA
LİNQOFOLKLORİSTİKA 12
Ü.A.CƏFƏROVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ "GÖZƏLLİK" (BEAUTY) KONSEPTİNİ ƏKS ETDİRƏN DİL VAHİDLƏRİ 15
G.N.ƏLİYEVA
NİTQDƏ QEYRİ-VERBAL KOMMUNİKASİYA VASİTƏLƏRİNİN ROLU 20
E.İ.FƏRƏCOVA
XƏBƏR BAŞLIQLARINDA EKSPRESSİV SİNTAKTİK KONSTRUKSİYALAR 23
P.M.İSMAYILOVA
AFRO-AMERİKA İNGİLİS DİLİNİN FORMALAŞMA TARİXİ 28
P.F.KAZİMİ
TARİXİ MƏNBƏLƏRDƏ TƏRCÜMƏ VƏ MƏLUMATIN MANİPULYASİYASI PROBLEMLƏRİ 31
R.R.MƏMMƏDSOY
TƏRCÜMƏ, YAXUD MƏTNİN MİLLİLƏŞDİRİLMƏSİ 37
N.N.NƏBİYEVA
SƏNƏDLİ TELEVİZİYA FİLMLƏRİNİN DİLİ TƏSVİR-SƏS-NİTQ TRİADASININ KOMPONENTİ KİMİ 42
R.H.QULİYEVA
ƏMR CÜMLƏSİNİN MƏNA XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN ÖYRƏDİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ 46
S.S.SADIQOVA
LEKSİK TƏKRARIN MƏTNDƏ ROLU 50
Н.Н.ДУДКЕВИЧ
ЛИНГВОКУЛЬТУРОЛОГИЧЕСКИЕ СЛОВАРИ: ИХ НАЗНАЧЕНИЕ И АНАЛИЗ 54
У.Г.ШАХВЕРДИЕВА
МЕТАФОРА В ЯЗЫКЕ АЗЕРБАЙДЖАНСКИХ ГАЗЕТ 61

ƏDƏBİYYAT – ЛИТЕРАТУРА

Y.A.ABDULLAYEVA
BRİTANİYA POSTMODERNİST ROMANINDA MİFOLOGEMLƏR 67
Ş.Ə.ALBALIYEV
BAYRAMLARIN MİFOLOJİ-KOSMOQONİK MAHİYYƏTİNƏ DAİR 73
A.Ə.FƏRƏCOVA
ƏLİ NƏZMİNİN YARADICILIĞININ İLK DÖVRÜNƏ DAİR 80
A.C.HEYBƏTOVA
PAŞA QƏLBİNUR YARADICILIĞINDA LİRİK "MƏN"İN TƏŞƏKKÜL VƏ TƏKAMÜL BİRLİYİ 86
R.S.HÜSEYNOV
GÜVAHİ PƏNDNAMƏSİNİN BAKI NÜSXƏSİ HAQQINDA 90
R.K.RƏSULOV
MOLLA PƏNAH VAQİFİN VİZUAL POETİKASI 96
Ф.М.ИСАЕВА
ОБРАЗ ПИСАТЕЛЯ В ПРОИЗВЕДЕНИЯХ А.П.ЧЕХОВА И У.С.МОЭМА («ЧАЙКА» И «ПИРОГИ И ПИВО, ИЛИ СКЕЛЕТ В ШКАФУ») 100
С.П.КАРАЕВА
МНОГООБРАЗИЕ ЖАНРОВ ИСТОРИЧЕСКОЙ ПРОЗЫ В ЛИТЕРАТУРЕ РУССКОГО ЗАРУБЕЖЬЯ «ПЕРВОЙ ВОЛНЫ» 105

И.И.КЯЗИМОВА
ПРОСВЕТИТЕЛЬСКАЯ ПОЗИЦИЯ Н.М.КАРАМЗИНА В ЛИТЕРАТУРНОМ НАПРАВЛЕНИИ СЕНТИМЕНТАЛИЗМА ... 111
Л.Э.МИРЗОЕВА
ЭТНОГРАФИЯ ДРЕВНОСТИ ... 116

PEDAQOGİKA. METODİKA. PSİXOLOGİYA – ПЕДАГОГИКА. МЕТОДИКА. ПСИХОЛОГИЯ

R.R.ABDURAZAQOV, L.S.MURADOVA
FİNLANDİYA VƏ AZƏRBAYCAN TƏHSİL SİSTEMLƏRİNİN MÜQAYİSƏSİ: BU SİSTEMİN TƏMAYÜLLÜ TƏLİM SƏVİYYƏSİNDƏ FİZİKA TƏLİMİNİN YERİ VƏ MƏZMUNU ... 121
S.N.ALLAHVERƏNOVA
ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI İSTİQAMƏTLƏRİ ... 129
T.B.BAĞIROVA
PEDAQOJİ ÜNSİYYƏT ZAMANI YARANAN MÜNAQİŞƏLƏR VƏ ONLARIN XÜSUSİYYƏTLƏRİ ... 133
S.N.CƏFƏROVA
XIX ƏSRİN SONLARINDA AZƏRBAYCAN AİLƏSİNDƏ TƏRBİYƏ PROBLEMLƏRİ ... 137
İ.C.CƏLİLOVA
ŞAGİRDLƏRLƏ APARILAN TƏRBİYƏVİ İŞİN FORMALARI ... 141
N.M.ƏBDÜLRƏHİMOVA
XARİCİ DİLLƏRİN TƏDRİSİ ZAMANI TƏLƏBƏLƏRİN DİSKURSİV BACARIQLARININ İNKİŞAFINDA ÜÇ KOMPONENTİN ROLU ... 144
G.İ.ƏLƏKBƏROVA
MİLLİ XÜSUSİYYƏTLƏR VƏ İNTEQRASİYA ... 147
A.R.ƏLİYEVA
DƏRSDƏNKƏNAR SOSİAL PEDAQOJİ İŞİN TƏŞKİLİ ... 150
T.Ə.ƏLİYEVA
NƏZARƏT VƏ ÖZÜNƏNƏZARƏTİN FORMALAŞDIRILMASINDA TƏDRİS ÇALIŞMALARINDAN İSTİFADƏ ... 153
Ş.E.HEYDƏROVA
AUTİST YENİYETMƏLƏRİN PEDAQOJİ DİAQNOSTİKASI ... 157
A.Ə.HÜSEYNOVA
DEMOQRAFİK AMİLLƏR VƏ ŞAGİRDLƏRİN AİLƏ TƏRBİYƏSİ ... 160
S.İMANOVA
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ MƏDƏNİYYƏTLƏRARASI SƏRİŞTƏNİN FORMALAŞDIRILMASINDA MİLLİ MƏDƏNİYYƏTİN QORUNUB SAXLANILMASININ VACİBLİYİ ... 163
Ə.M.KAZIMLI
YENİYETMƏLƏRİN HÜQUQ TƏRBİYƏSİNİN VƏZİFƏLƏRİ ... 168
H.Q.KƏRİMOVA
ŞAGİRDLƏRİN ÖZÜNÜTƏRBİYƏ FƏALİYYƏTİNİN STİMULLAŞDIRILMASI ... 171
L.E.MAHMUDOVA
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI İNTERNET ƏSASLI DİL TƏLİMİNİN TƏTBİQİNİN ƏHƏMİYYƏTİ ... 174
E.D.MƏMMƏDOV
ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI İMKANLARI ... 178
G.N.MƏMMƏDOVA
PEDAQOJİ PROSES ... 181
M.Ə.MƏMMƏDZADƏ
AZƏRBAYCANDA TƏLƏBƏLƏRİN İDARƏETMƏ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ - PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR ... 185
A.C.MUSAYEVA
UŞAQLIQ TRAVMALARI VƏ ONLARIN HİMAYƏDAR AİLƏLƏRDƏ MÜALİCƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ... 190

V.B.NƏSİBOV
AZƏRBAYCANIN ORTA VƏ ALİ MƏKTƏBLƏRİNDƏ RUS DİLİ FƏNNİNİN TƏDRİSİ VƏZİYYƏTİ HAQQINDA 193
A.Y.QASIMOVA
İNTERAKTİV TƏLİM METODLARININ TƏTBİQİ PROSESİNDƏ MÜƏLLİM VƏ ŞAGİRDİN FƏALİYYƏTİ 199
Y.B.SƏMƏDOV, K.Ə.ŞIXƏLİYEV, S.X.NƏCƏFOVA
KƏSKİN RESEPTOR XƏSTƏLİKLƏRLƏ XƏSTƏLƏNƏN MƏKTƏBLİLƏRİN FİZİKİ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİNƏ DAİR 203
Y.B.SƏMƏDOV, V.M.VƏLİYEV
SADƏ REAKSİYALARIN CƏLDLİYİNİN İNKİŞAF METODİKASINA DAİR 207
R.A.TAĞIYEVA
KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TOLERANTLIQ TƏRBİYƏSİNİN XÜSUSİYYƏTLƏRİ 211
N.V.XƏLİLOVA
AZƏRBAYCANDA TƏHSİLİN İNTEQRASİYA VƏ QLOBALLAŞMASININ İMKANLARI 214
Ш.М.ИБРАГИМОВА
К РАЗВИТИЮ РЕЧИ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 217
И.А.МИКАИЛОВА
СВЯЗНЫЙ ТЕКСТ И НЕКОТОРЫЕ ПРИЁМЫ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ 221
L.M.RUSTEMOVA
MODERN TRENDS AND APPROACHES IN TEACHING ENGLISH 225

İCTİMAİ ELMLƏR – ОБЩЕСТВЕННЫЕ НАУКИ

G.Q.ƏLİYEVA
ŞƏXSİYYƏT AZADLIĞI PROBLEMİ 229
A.Ə.RƏCƏBOVA
MÜASİR AZƏRBAYCAN DÖVLƏTİ: DÜNƏN, BU GÜN 233
Л.А.ШЕЙХОВА, А.Э.ГАДЖИЕВА
ВАЖНЫЕ ФАКТОРЫ СОХРАНЕНИЯ ЗДОРОВЬЯ ЗУБОВ 237

Nəşriyyat redaktoru: **Günel Əliyeva**

Kompyuter tərtibatı: **Günel Muxtarova**

Çapa imzalanıb: 28.12.2020. Format: 84x108 1/16.
Həcmi: 15,25 ç.v. Tiraj: 300.

TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru
www.mutercim.az

Hörmətli müəlliflər!

«Humanitar elmlərin öyrənilməsinin aktual problemləri» adlı ali məktəblərarası elmi məqalələr məcmuəsində çap olunmaq üçün elmi məqalələrin qəbulunu davam etdirir. Məcmuəyə **dilçilik, ədəbiyyatşünaslıq, pedaqogika, psixologiya, fəlsəfə və ictimai elmlərin aktual problemləri**nə dair məqalələr daxil edilir.

Məqalələr aşağıdakı şərtlərlə qəbul edilir:

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.
- Məqalələrin həcmi 5 səhifədən az olmamalıdır.
- Məqalələr kompüterdə yığılmış formada elektron daşıyıcıda təqdim edilməlidir (Word proqramında, səhifənin ölçüləri – A4, şrift 14, sətirlərarası məsafə 1,5 interval, sağ və soldan 2 sm, yuxarı və aşağıdan 3 sm.; Azərbaycan dilində mətnlər Times New Roman, Times-Latin, rus və ingilis dillərində mətnlər Times New Roman şrifti ilə).
- Məqalələrdə istinad və mənbələrin göstərilməsi vacibdir. İstinad və mənbələr bu qaydada göstərilir:

1. Ədəbiyyat siyahısı mətnin sonunda əlifba sırası ilə verilir.
2. İstinad olunan ədəbiyyat nəşr olunduğu dildə verilir.
3. Ədəbiyyatlar AAK-nın tələbləri əsasında göstərilir:
   Məs.: **Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 1997.**
   Nağısoylu M.N. Abbasqulu ağa Bakıxanovun "Riyazül-Qüds" əsəri orijinaldır, yoxsa tərcümə // «Mütərcim» jurnalı, №1-2, 18 mart 2003-cü il, s. 34-35.
4. İstinad olunmuş ədəbiyyatın nömrəsi və səhifəsi mətnin içində göstərilir. Məs.: (**5, s. 112**).

- Məqalənin əvvəlində Azərbaycan, rus, ingilis dillərində 5-6 açar söz göstərilməlidir.
- Məqalənin sonunda məqalənin yazıldığı dildən başqa iki dildə (Azərbaycan dilində yazılmış məqalələrə ingilis və rus dillərində; məqalə rus dilində yazılıbsa, Azərbaycan və ingilis dillərində, məqalə ingilis dilində yazılıbsa, Azərbaycan və rus dillərində) xülasə verilməlidir.
- Məqalədə müəllifin elmi dərəcəsi, elektron poçt ünvanı, işlədiyi təşkilatın adı və ünvanı dəqiq göstərilməlidir.
- Məqalələrə bu sahə üzrə elmi dərəcəsi olan mütəxəssisin və ya müvafiq elmi müəssisənin Elmi Şurası rəy verməlidir.

Ünvan: **Bakı şəh., Rəsul Rza küç., 125/139b**
tel.: 596 21 44
e-mail: mutarjim@mail.ru
Məcmuənin elektron variantı: **www.mutercim.az**